AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASI
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

CƏLİL KƏRİMOV
TAHİRƏ KƏRİMOVA

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ XARİCİ SİYASƏT

**Dərs vəsaiti**

*Azərbaycan Respublikası Təhsil Nazirinin 21 may 2008-ci il tarixli 594 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.*

**BAKI – 2013**

**Redaktor: R.T.Həsənov**
**i. e.d.professor**

**Rəyçilər: M.C.Atakişiyev**
**i. e.d.professor**

**Q.S.Süleymanov**
**i. e.d.professor**

**Məsləhətçi: C.M.Əliyev**
**i. e.n.dosent**

**Cəlil Kərimov, Tahirə Kərimova. Beynəlxalq münasibətlər və xarici siyasət. Dərs vəsaiti. I bölmə VIII fəsil i. e.n.dosent Məhərrəmova Veranika Tapdıq qızı tərəfindən yazılmışdır. ADPU-nəşriyyatı. 345 səh.**

# ON SOZ

Hörmətli oxucu sizin diqqətinizə təqdim etdiyimiz bu dərs vəsaiti demək olar ki, ayrı-ayrılıqda fənni özündə birləşdirir. «Beynəlxalq münasibətlər nəzəriyyəsi» və «Beynəlxalq münasibətlərin tarixi». Əlbəttə bu fənlər ayrılıqda öyrənilir və ayrılıqda nəşr edilir. Lakin onu da qeyd etməliyik ki, bu «anlayışlar» çox yaxın, eyni kökdən qaynaqlanan, demək olar ki, biri digəri üçün əsas olan, biri digərini tamamlayan anlayışlardır. Beynəlxalq münasibətlər həmişə də mövcud olmuşdur. Lakin bu münasibətlərin nəzəri cəhətdən araşdırılması, tədqiq edilməsi nisbətən son yüz illiklərdə tərəqqi tapmışdır.

Deməli beynəlxalq münasibətlər tarixi baxımdan daha qədimdir. Bu sahədə olan nəzəri miıddəalar isə son dövrlərdə yaranmışdır.

1648-ci il Vesufal sülh müqaviləsi, XVIII əsrin axırlarında Fransa inqilabı dövlətlərarası münasibətlərdə köklü dəyişikliklər yaratmışdı.

Beynəlxalq münasibətlərin inkişafında dövlətlərarası münasibətlərin qaydalarında dövlətlərarası münasibətlərin qaydalarına dair 1815-ci il Vyana Konqresində qəbul edilmiş göstərişlər də böyük əhəmiyyət kəsb etmişdir.

Sovet İttifaqının dağılması ilə beynəlxalq münasibətlərdə köklü dəyişikliklər özünü göstərmişdir. Bütün bu kimi dəyişikliklər beynəlxalq münasibətlərdə də daha yeni xüsusiyyətlər yaratmışdır.

Beləliklə bütün bu kimi dəyişikliklərin, yeniliklərin öyrənilməsi, tədqiq edilməsi obyektiv zərurətə çevrilmişdir. Odur ki, şübhə etmirik ki, bu dərs vəsaiti oxucuların beynəlxalq münasibətlər sahəsində olan dünya görüşünü daha daartıracaqdır.

Dərs vəsaiti iki bölmədən ibarətdir.

Birinci bölmə - Beynəlxalq münasibətlər nəzəriyyəsi.

İkinci bölmə - Beynəlxalq münasibətlər və xarici siyasətin tarixinə dair.

# I BÖLMƏ

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR NƏZƏRİYYƏSİ

# I Fəsil.
# BEYNƏLXALQ MÜNASİBƏTLƏR ELMİNİN PREDMETİ, OBYEKTİ VƏ SUBYEKTLƏRİ

1. Beynəlxalq münasibətlər nəzəriyyəsi.
2. Beynəlxalq münasibətlərin predmeti, obyekti və subyektləri.
3. Beynəlxalq münasibətlərin öyrənilməsi metodu.

## L Beynəlxalq münasibətlər nəzəriyyəsi

Ümumiyyətlə münasibət dedikdə tərəflər arasında yaranan müəyyən əlaqələrin, ünsiyyətlərin daha yetkin formada təzahürü nəzərdə tutulur. Bu əlaqələr əməkdaşlıq əlaqələri də ola bilər, qarşıdurmalai'dan ibarət də ola bilər. Lakin, bu əlaqələr birdəfəlik, ötəri, təsadüfi deyil, sabit və təkrarlanan, daxili məzmun kəsb edən hadisə və proseslərdən ibarət olmalıdır.

Aydındır ki, ölkə daxilində baş verən bu hadisə və proseslər daxili münasibətləri əks etdirir.

Dövlətlərarasmdakı münasibətlər isə əlbəttə beynəlxalq münasibətləri əks etdirir.

Deməli, **beynəlxalq münasibətlər dedikdə dövlətlər-arasındakı iqtisadi, siyasi, ideoloji, hüquqi, diplomatik və digər qarşılıqlı əlaqələrin məcmusu nəzərdə tutulur.**
Həmçinin əsas siniflər, sosial qruplar, iqtisadi və siyasi qüvvələr, təşkilatlar, ictimai hərəkatlar, xalqlararası qarşılıqlı əlaqələr də bu münasibətlərə daxildir.

Ümumiyyətlə beynəlxalq münasibətlər dedikdə hər bir dövlətin daxilində olan hadisə və proseslərə yanaşma deyil, onların xarici aləmlə olan fəaliyyətinin, əlaqələrinin daha yetkin formada təzahürü nəzərdə tutulur. Deməli **BM-in pred- metində beynəlxalq aləmdə mövcud olan siyasi, iqtisadi, ideoloji, hüquqi, mənəvi, diplomatik və digər əlaqələrin məcmusu öz əksini tapır.**

Burada: **1)** Dövlətlər arasında yaranan münaqişələrin səbəbləri; 2) Dövlətlərarası münaqişələrin qarşısının alınması yolları; 3)Müstəmləkə imperiyalarının dağılması, yeni müstəqil dövlətlərin meydana gəlməsi imkanları da əks olunur.

Aydındır ki, hər bir dövlət yarandığı, formalaşdığı dövrdən onun istər-istəməz xarici aləmlə müəyyən əlaqələri də yaranır. **Hərbi məsələlər, ərazi, sərhəd məsələləri, ticarət məsələləri, birgə nəqliyyatdan, sulardan, dənizdən istifadə etmək və bu kimi** bir çox məsələlər üzrə əlaqələr artır. Bütün bunlar beynəlxalq münasibətlərin yaranması şərtlərinə daxildir. Uzun müddət bu kimi problemlər tarixçilər, hüquqşünaslar, filosoflar, iqtisadçılar və digər sahələrin alimləri tərəfindən öyrənilmişdir.

**Beynəlxalq münasibətlər nəzəriyyəsi** sosial-humanitar elmlərin tərkib hissəsidir. Beynəlxalq münasibətlərin kökü çox qədimlərdə də mövcud olmuşdur. Lakin ictimai bir elm sahəsi kimi bu elm nisbətən son dövrlərdə tərəqqi tapmışdır. Bu elmin əsas predmeti **siyasi sahə** hesab olur. Odur ki o, **siyasi biliklər dairəsinə aid edilir.** Əvvəllər siyasətşünaslıq sahəsində beynəlxalq problemlərə o qədər də fikir verilməyirdi.

XIX əsrin ortalarından Qərbi Avropanın bəzi qabaqcıl ölkələrinin və Şimali Amerikanın siyasi inkişafında gözə çarpacaq dərəcədə dəyişikliklər baş vermişdir. Müasir tipli siyasi sistem formalaşmağa başlamışdır.

Dövlətlə yanaşı siyasi partiyalar, müxtəlif qrup mənafelər, institutlar yaranırdı. Bu ölkələrdə parlament demokratiyası qərarlaşırdı. İctimai siyasət dairəsi genişlənirdi. Bütün bu sahələrdə yaranan müəyyən problemləri fəlsəfə və hüquq elmləri vasitəsi ilə mənimsəmək kifayət etmirdi. Müəyyən siyasi biliklər lazım gəlirdi. Dövlət və partiya orqanlarında işləmək, siyasi proseslərə xidmət etmək üçün kadrlar hazırlanması zərurət təşkil edirdi. Yaranan bu kimi tələbatların təmin edilməsi məqsədilə qanunauyğun olaraq bəzi universitetlərdə siyasi elmlər kafedraları yaradılmışdır. Buna bax

mayaraq XIX əsrin axırları və XX əsrin əvvəllərində də beynəlxalq siyasət məsələlərinin təhlili o qədər də hiss olunmurdu. Daxili siyasətin tədqiqinə daha çox üstünlük verilirdi.

**Birinci dünya müharibəsi** və onun nəticələri bu sahədə olan baxışları kökündən dəyişdirmişdir. Milyonlarla insan ölümü, dağıntılar, siyasi rəhbərlərdə və elm adamlarında beynəlxalq münasibətlərin öyrənilməsinə zərurət yaratmışdır.

Beləliklə siyasi elmlərin yaradılması və öyrənilməsində sosial sifariş özünü göstərirdi. Odur ki, heç təsadüfi deyildir ki. Birinci Dünya Müharibəsi qurtardıqdan sonra ilk dövrlərdə bu sahənin öyrənilməsinə diqqət artmışdır. Lakin müstəqil olaraq **"Beynəlxalq mnüsaibətlər"** elmi mövcud olmamışdır. Bu elm sahəsi daha gəncdir.

**Birinci Dünya Müharibəsindən sonra ilk dəfə 1919- cu ildə ABŞ"da Beynəlxalq münasibətlər dərsliyi nəşr edilmişdir*.**

Beləliklə universitetlərdə və elm mərkəzləri də bu problem üzrə ayrıca kafedralar da yaradılmağa başlanmışdı. Ardıcıl olaraq digər qabaqcıl dövlətlərdə də - **İngiltərə, Fransa, Almaniya, Çin, Sovet İttifaqında** da **«Beynəlxalq münasibətlər»** sahəsi ayrıca elm sahəsi kimi diqqəti cəlb edirdi.

Qanunauyğun olaraq **"Beynəlxalq münasibətlər nəzəriyyəsi"** anlayışı da birinci dünya müharibəsi qurtardıqdan sonra yaranmışdır.

**"Beynəlxalq münasibətlər nəzəriyyəsi"** anlayışı ilk dəfə **1919-cu ildə Uelsin Eybersvit (Böyük Britaniya) Universitetində** istifadə edilmişdir.

Burada yeni yaradılmış kafedralardan biri **"Tarix və Beynəlxalq münasibətlər nəzəriyyəsi"** adlandırılmışdır. **1920-1930-cu** illərdə buna bənzər kafedralar qərbin digər

***Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı -2005. S. 18.***

universitetlərində də yaradılmışdır. Lakin o dövrdə elmi-metodik işlərinin olmaması, sosial-humanitar elmlər sahəsindəki çətinliklər, birinci dünya müharibəsinin iqtisadiyyata və siyasi vəziyyətə vurduğu zərər, sabitliyin və s. amillərin pozulması elmin inkişafını da çətinləşdirirdi.

Avropanın bəzi ölkələrində demokratikləşmə prosesi getdiyi halda, bəzilərində əks proses - avtoritar və totalitar siyasi rejim yaranırdı.

Almaniya və İtaliyada faşizm qalib gəlmişdi. Aydındır ki, hər bir diktatura elmi yaradıcılıqla bir araya sığa bilməzdi. (1930-cu illərin ikinci yarısına ancaq **Böyük Britaniya, Fransa.; Çexoslovakiya da** demokratikləşmə mövcud idi.). Bu kimi səbəblərdən humanitar elmlərin inkişafında da heç bir irəliləyiş olmamışdır.

Onu da qeyd etməliyik ki, ikinci dünya müharibəsi ərəfəsində Avropa dövlətlərindən **ABŞ-a külli** miqdarda mühacirət olmuşdur.

Onların içində kifayət qədər ictimai elm adamları vardır. Ona görə də həmin müharibələrarası dövrlərdə dünya siyasi elmlərinin mərkəzi **Şimali Amerikada** cəmləşdirilmişdir.

Demək olar ki, Amerikanın bütün qabaqcıl universitetlərində praktiki olaraq bu kimi siyasi elmlər mərkəzi yaranırdı.

Həmin dövrdə Amerikada siyasi elmlərin inkişafında **Çikaqo* məktəbinin** alimləri böyük rol oynamışlar. Müharibə dövründə də müəyyən siyasi qərarlar çıxarılması işində ABŞ-İllinoys ştatında (şəhər) olan bu kimi siyasi elmlərin rolu çox olmuşdur. İkinci dünya müharibəsi qurtardıqdan sonra BMT sistemində yaradılmış **"Təhsil, elm və mədənijyət" YUNESKO** təşkilatı siyasi elmlərin təsnifatını araşdırmaq üçün bir çox tədbirlər həyata keçirmişdir. Bu məqsədlə **1948-ci** ildə siyasi elmlərin məzmunu və quruluşunun müəyyən edilməsi barədə **Parisdə** beynəlxalq yığıncaq keçirilmişdir.

' *Çikaqo - ABŞ-da Illinoys ştatı (şəhər)*

Bu elmlərin tərkibində aşağıdakı məsələlərin olması qərarlaşmışdır;

**1.** Siyasi nəzəriyyə (siyasət nəzəriyyəsi və siyasi ideyaların tarixi);

**2.** Siyasi institutlar nəzəriyyəsi;

**3.** Partiyalann, ayrı-ayrı qrupların, ictimai fikirlərin fəaliyyətini öyrənən bölmə;

**4.** Beynəlxalq münasibətlər nəzəriyyəsi (beynəlxalq siyasətin tədqiq edilməsi, beynəlxalq təşkilatlar, beynəlxalq hüquq və s.).

Beləliklə, **1940-cı** illərdən başlayaraq **"Beynəlxalq münasibətlər nəzəriyyəsi"nin** başlanğıcı Qərbi Avropa siyasi fikirlərinə aid olsa da müstəqil bir elm sahəsi kimi **ABŞ-da qeydə alınmışdır.**

Hətta **"Beynəlxalq münasibətlər nəzəriyyəsi"nin** müəyyən istiqamətləri də (idealizm, realizm, yeni liberalizm, yeni realizm və s.) .Amerika xüsusiyyətlərini özündə əks etdirir.

Bu sahədə mövcud olan ən nüfuzlu mütəxəssislər Amerika siyasi elminin nümayəndələridir. (Q.Morqentau, Dj.Rozenau, Dj.Modelski, M.Kaplan, K.Doyc, K.Uolts, R.Qilpin, R.Keoxejn, C.Nay və digərləri).

Nəhayət **"Beynəlxalq münasibətlər nəzəriyyəsi"** elm sahəsi kimi tədricən Qərbi Avropa və digər regionlarda da yayılmışdır.

Etiraf etməliyik ki. Sosializm sistemi şəraitində ictimai-humanitar elmlər tamamı ilə başqa səpkidə öyrənilirdi. Nəhayət **1990-cı** illərdən sonra Sosializmin dağılması ilə bağlı olaraq sovet məkanı ölkələrində və eləcə də bizim ölkəmizdə də **"Beynəlxalq münasibətlər nəzəriyyəsi"nin** öyrənilməsinə olan maraq artmışdır. Bu gün bizim ölkəmiz **yüzdən** artıq dövlət ilə diplomatik əlaqə saxlayır, **140-dan** artıq ölkə ilə xarici ticarət əlaqələri vardır. Odur ki, qanunauyğun haldır ki, **"Beynəlxalq münasibətlər nəzəriyyəsi"nin** praktiki əhəmiyyəti də artmışdır.

Beynəlxalq münasibətlər barədə müasir nəzəri baxışların bəzilərində **coğrafi meyarlar, bəzilərində sinfi yanaşma, bəzilərində qlobal baxımdan** izah etmə cəhətləri üstünlük təşkil edir. Eləcə də Beynəlxalq sistem çərçivəsində **qarşılıqlı təsir nəzəriyyəsi, dünya strategiyaları, inteqrasiya nəzəriyyələri, beynəlxalq təşkilatlar** nəzəriyyələri də vardır.

Qeyd etməliyik ki, beynəlxalq münasibətlər nəzəriyyəsinin tədqiqinin əsasını XX əsrin ortalarında ingilis tarixçisi **E.Karr,** ABŞ politoloqları **A.Morqentau** və başqaları və fransız sosioloqu **R.Aron** qoymuşlar. Onlar beynəlxalq münasibətlər nəzəriyyəsinə siyasi realizm baxışları gətirmişlər. Bu baxışlara görə beynəlxalq münasibətlərin əsas subyektləri olan milli dövlətlər öz milli maraqlarını təmin etmək üçün başqa subyektlərlə mübarizə aparır. Bu kimi fərqli milli maraqlar əsasında da münaqişələr baş verir. Belə vəziyyətdən çıxış yolunu böyük dövlətlər arasında yaranan **"Güc ba- lansı"nda** görürlər. Bütün bunlarla yanaşı beynəlxalq münasibətlərin tədqiqində bir çox cərəyanların yaranmasını da qeyd etmək olar. Bunlardan;

**- Liberal idealist** cərəyanın tərəfdarları beynəlxalq münasibətlərin tənzimlənməsində hüquq və əxlaq normalarına üstünlük verirdilər.

**-- Postklassik** cərəyanın tərəfdarları belə hesab edirlər ki, qloballaşma prosesi dövlətlərin xarakterinə təsir göstərərək onları hansmilli vəziyyətə gətirir. İndi dövlətlər getdikcə öz yerlərini transmilli korporasiyalara, qeyri-dövlət subyektlərinə verir. Bu isə vahid məqsəd və maraqlara can atan ümumbəşəri cəmiyyətə yol açır. Onların baxışlarına görə vahid norma, vahid ümumdünya hökuməti-bəşəriyyətin perspektiv gələcəyi yalmz bu dəyərlərlə bağlıdır.

" **Radikalizm,** yaxud **neomarksizm** cərəyanı. Bu cərəyanın tərəfdarlan belə hesab edirlər ki, beynəlxalq münasibətlərin əsasında istismar, qeyri-bərabərlik, sinfi mübarizə dayanır.

Bütün bunlarla yanaşı beynəlxalq münasibətlər sistemində bir çox digər nəzəriyyələrə də rast gəlmək olur.

- Məsələn, **Qlobal sistem nəzəriyyəsi, dünya birliyi (qlobal) nəzəriyyəsi, təhlükələr balansı nəzəriyyəsi, beynəlxalq rejim nəzəriyyəsi** və bu kimi onlarla nəzəriyyələri sadalamaq olar.

## 2, Beynəlxalq münasibətlərin predmeti, obyekti və subyektləri

BM-in tədqiqat obyekti çox mürəkkəb reallıqlarla bağlıdır. Burada **dövlətlər, qrup dövlətlər, siniflər, sosial, iqtisadi, siyasi güclər, təşkilatlar, hərəkatlar, xalqlar,** ayn- ayrı **insan qrupları tədqiq edilir^** Beynəlxalq münasibətlərin obyekti sırasına aşağıdakılar daxildir:

- Dünyanın bütün maddi və mənəvi amilləri (iqtisadi, hərbi, geosiyasi, demoqrafik, ideoloji, hüquqi, etik və s.);
- Subyektlərarası diplomatik, strateji, sosial, mədəni, elmi və s. normalar;
- Dünya siyasətinə təsir göstərən informasiya, maliyyə, kommunikasiya, miqrasiya və s. proseslər;
- Beynəlxalq aləmdə qərarların qəbul olunması, əməkdaşlıq edilməsi şərtləri, danışıqlar aparılması və s.;
- Ölkələrarası münasibətlərə təsir göstərən amillər, hadisə və proseslər, normalar, onların arasındakı əlaqələr və s..

Başqa tədqiqat obyektlərindən fərqli olaraq beynəlxalq münasibətlərin tənzimlənməsi böyük çətinliklərlə xarakterizə olunur.

Çünki bir çox hallarda müəyyən tərəf üçün hüquq normalarımn olması digər tərəf üçün də hüquq normaları yaradır. Çünki, beynəlxalq münasibətlərin iştirakçıları əsasən öz düşüncələri, dünyagörüşləri, gücləri, xüsusi maraqları çər-

' ***Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı -2005. C.24-30.***

çivəsindən çıxış edirlər. Məsələn, əyani bir misal çəkmək olar; **Azərbaycan** beynəlxalq **hüquq normalarına əsasən iddia edir ki, ölkəmizin ərazi bütövlüyü pozulmuşdur. Dağlıq Qarabağda** yaşayan ermənilər də **öz növbəsində iddia edirlər ki, insanların öz müqəddəratını təyin etmək hüququ var.** Hər iki iddia düzdür. Lakin ermənilər başa düşmək istəmirlər ki, öz müqəddəratını təyin etmək ölkənin ərazisinin bütövlüyü daxilində həll olunmalıdır. Beləliklə, tam və qəti nəticəyə gəlmək olur ki, beynəlxalq aləmdə və beynəlxalq münasibətlər sistemində baş verən hadisələri və prosesləri araşdıımaq, bu proseslərin səbəblərini müəyyənləşdirmək, onlara hansı mənadasa təsir etmək o qədər də asan iş deyildir.

**Müasir fransız sosioloqu Raymon Pron** beynəlxalq münasibətlərə əsasən dövlətlər arasında olan münasibətlər kimi əsasən dövlətlər arasında olan münasibətlər kimi baxır.

**Amerikalı politoloq D.Kaporazo** dövlətlər arasında olan münasibətlərdən başqa siniflər, sOsial-iqtisadi qruplar və siyasi qüvvələr arasında olan münasibətləri də əsas götürür.

Beləliklə beynəlxalq münasibətlər dövlətlərin, beynəlxalq təşkilatların, transmilli şirkətlərin, ictimai birliklərin, qeyri-hökumət təşkilatlannm aralarında yaranan siyasi, ideoloji, iqtisadi, mədəni və digər əlaqələri əhatə edən ictimai münasibətlərin bir növüdür.

Bir çox mütəxəssislər göstərir ki, Beynəlxalq münasibətlər nəzəriyyəsinin xüsusi tədqiqat sahəsi və metodları yoxdur, müstəqil bir fənn kimi inkişaf tapmamışdır. **«Beynəlxalq münasibətlər nəzəriyyəsi» fənni beynəlxalq hüquq, diplomatiya tarixi, hərbi elmi, beynəlxalq siyasət, dünya tarixi və digər elm sahələrinə bağlıdır. Bu elm bir çox ictimai elmlərlə - fəlsəfə, iqtisadiyyat, sosial psixologiya və s. ilə bağlıdır. Bu elmin mərkəzində xarici siyasət, hakimiyyət durduğuna görə o, politologiya elminə daha çox yaxındır.**

Yəni dövlətlərarası münaqişələr, mübahisələr, çəkişmələr yüz illər bundan əvvəllər də olmuşdur, hazırda da mövcuddur.

### 3. Beynəlxalq münasibətlərin öyrənilməsi metodu

Qeyd etməliyik ki, metod problemi hər bir elmin ən əsas problemlərindən biridir. Burada hər bir obyektin necə öyrənilməsi, hansı üsullardan və vasitələrdən istifadə edilməsi, praktiki fəaliyyətə tətbiq edilməsi və s. kimi məsələlər nəzərdə tutulur.

İnsan öz nəzəri və əməli işində şüurlu fəaliyyətə başlamazdan əvvəl mövcud şəraiti hərtərəfli təhlil edir və öz qarşısına müəyyən məqsədlər qoyur. Onları həyata keçirməyin optimal yollarım müəyyənləşdirir. İnsan fəaliyyətinin gedişində istifadə edilən müəyyən üsullar getdikcə müvafiq qaydalar, prinsiplər, normalar şəklində ümumiləşdirilir və **metodlara** çevrilir.

Yunan dilində **metod «harasa aparan yol»** mənasını verir. **Metod dərketmə prosesinin üsuludur.** O, hər hansı bir elmin predmetinin **öyrənilməsi üsuludur.** Metod elmi biliyin əldə edilməsinin və onun praktikada tətbiq edilməsinin yollarını göstərir. Aydındır ki, hər bir tətbiq edilən metodun özü də elmi cəhətdən işlənib hazırlanmalıdır. BMN-nin xüsusi tədqiqat metodları yoxdur. O, həm ümumi elmi metodlardan, həm də konkret elmlərdə tətbiq edilən metodlardan istifadə edir. Bu metodlar «Beynəlxalq münasibətlər nəzəriyyəsi)) fənninin predmetinin dərindən öyrənilməsinə və dərk olunmasına kömək edir.

Elmi ədəbiyyatların bir çoxunda metodu insanın məqsədəuyğun **idrakı** və **praktiki fəaliyyətinin üsulu kimi xarakterizə edirlər.**

**Bolqar filosofu, akademik T.Pavlov** metodu təfəkkürün daxili hərəkət qanunauyğunluğu, təfəkkürün qanun və

kateqoriyalarından şüurlu və səmərəli istifadə edilməsi kimi səciyyələndirirdi. 0 yazırdı ki, metod insan qavrayışlarının, təsəvvürlərinin, anlayışlarının, kateqoriyalarının, nəzəriyyələrinin qanunauyğun hərəkəti, subyektiv dialektikanm qanunudur.

**Metod - məqsədə çatmaq, gerçəkliyin dərk olunmasına və onun praktiki surətdə dəyişdirilməsinə nail olmaq üçün istifadə olunan müəyyən üsullarla insanların nəzəri və praktiki fəaliyyətini tənzimləyən müəyyən prinsip və qaydaların məcmusudur.**

**Metod fəaliyyət üsulu olmaqla yanaşı, həm də biliyin xüsusi bir formasıdır.** Metod müəyyən biliklər əsasında yaranır. Onun təşəkkülü və formalaşması bir proses olub insanın idrakı və praktiki fəaliyyətinə əsaslanır. **Metod elmi tədqiqatın praktikasına doğru istiqamətləndirilmiş nəzəriyyədir.**

Beləliklə, **metod** və **nəzərijyə** ayrılıqda deyil, birlikdə fonnalaşıb inkişaf edir. Hər bir elmin predmeti onun metodu ilə vəhdət təşkil edir. Belə ki, hər bir elmin tədqiqat və şərh metodunu dərindən bilmədən onun predmetini bir sistem halında öyrənmək, qanunauyğunluqları və ziddiyyətləri aşkara çıxarmaq olmaz.

**Məşhur ingilis filosofu F.Bekon** (1564 - 1626) düzgün tədqiqat metodunun roluna böyük əhəmiyyət verərək göstərirdi ki, **metod yolçunun yolunu işıqlandıran bir fanardır.**

Hər bir araşdırma metodologiyanın ən ümumi dialektik prinsiplərinə əsaslanır. Bu prinsiplər bunlardır: obyektivlik, sistemlik, ardıcıllıq, tarixilik, ziddiyyətlilik, inkar etmək, qarşılıqlı əlaqə və qarşılıqlı təsir, nisbi sabitlik, varislik, zərurətin qarşısı alınmazlığı, idrakın mücərrəddən konkretə, sadədən mürəklcəbə, asandan çətinə, adidən aliyə yüksəlməsi və s. Metodoloji tələbə görə: bilik əldə etmə prosesində hissə-hissə qarışıq təsəvvürlər mücərrəd təfəkk:ürdən keçir, saf-çürük edilir, aydınlaşır, konkretləşir, həqiqi bilik əldə olunur.

Beynəlxalq münasibətlərin daha dərindən öyrənilməsi nəzəri, sosioloji, tarixi və digər yanaşmalar hərtərəfli əlaqələndirilir. Bununla yanaşı, praktiki baxımdan **faktların öyrənilməsi, mövcud vəziyyətin öyrənilməsi, hadisələrin təkamül inkişafının proqnozlaşdırılması, hadisələrə müəyyən təsir etməyin mümkünlüyü barədə qərar hazırlanması və nəhayət qərar qəbul edilməsi də nəzərdə tutulur.**

Başqa ictimai elmlərin öyrənilməsində tətbiq edilən bir çox metodlar **"Beynəlxalq münasibətlər'Mn** araşdınimasmda da əsas götürülür. Bununla yanaşı ayrı-ayrı ölkələr çərçivəsində baş verən siyasi proseslər dünya miqyaslı siyasi proseslərdən fərqləndiyi üçün burada qismən daha xüsusi növ, **əlahiddə metodoloji yanaşmalar tələb olunur.** Hər halda dünya siyasətinin və beynəlxalq münasibətlərin tədqiq edilməsində nisbətən daha geniş istifadə edilən metodlardan aşağıdakıları qeyd etmək olar:

1. **Hadisələrin təhlili metodu.** Burada ilkin empirik materiallar sistemləşdirilib təhlil edilir. Bıma **"Texniki tədqiqat"** da deyirlər. Hazırda bu cür yanaşmalar yüzlərlədir. Ən sadə müşahidədən tutmuş məlumatlar bankının formalaş- masmadək yanaşma formaları mövcuddur.

**2, Müşahidə metodu** (seyr etmək, nəzarət etmək). Subyekt, obyekt və müşahidə vasitəsi bu yanaşmanın əsas elementləri hesab edilir. Beynəlxalq aləmdə olan hadisəni görürük, öz təfəkkürümüz səviyyəsində qiymətləndiririk. Bu hadisələr texniki vasitələrinköməkliyi ilə də qiymətləndirilə bilər. Buna **alətlər** müşahidəsi deyilir. Məsələn dövlət başçılarının görüşünü, beynəlxalq konfransları, beynəlxalq münaqişələri, beynəlxalq təşkilatların fəaliyyətini, onların tənzimlənməsini videoyazılarda, televiziya verilişlərində də müşahidə etmək olar.

**Burada qoşulma - iştirakçı müşahidə növü** də fərqləndirilir. Yəni hər hansı bir hadisədə iştirak etmiş şəxsin

müşahidəsi, məsələn məşhur diplomatların, siyasi xadimlərin memuarlan belə müşahidələrin nəticəsində yaranır.

Bu mənada qərəzsiz yazılmış hər bir memuar beynəlxalq münasibətlərin tarixinin öyrənilməsində çox qiymətli bir mənbə hesab edilir. Hər hansı bir şəxsin öz siyasi və diplomatik fəaliyyətində təhlil aparması da bu sahədə böyük rola malikdir. Bu yanaşmanın çatışmazlığı ondan ibarətdir ola bilər ki, burada subyektiv fikirlər daha çox üstünlük təşkil edə bilər.

Bu mənada 1970-1980-ci illərdə ABŞ-ın hakim dairələrində məsul vəzifədə işləmiş Qenri Kissincerin yazdıqlarını misal çəkmək olar.

3. **Sənədlərin öyrənilməsi metodu.** Beynəlxalq münasibətləri və onun tarixini, sənədləri araşdırmaqla da öyrənmək olar. Lakin aydındır ki, xarici dövlətlər barədə hər cürə sənəd əldə etmək **o** qədər də asan olmur. Belə şəraitdə **kontent-təhlil** yəni hər hansı bir mətnin məzmunu təhlil edilir. Buna **mətnin təhlili və qiymətləndirilməsi metodu** deyilir. Bu metod Amerika sosioloqları tərəfindən işlənmişdir. Məsələn, 1939-1940-cı illərdə Almaniya nasistlərinin çıxışlanm təhlil edərək mətbuatda dərc etdirmişlər. Amerika mütəxəssisləri son dərəcə dəqiqliklə Almaniyanın SSRİ üzərinə hücumu vaxtını, hərbi əməliyyatların aparılması yerini, gizli ideoloji niyyətlərini açıqlamışlar. Bu metod ABŞ-ın xüsusi müəssisələrində işlənmiş və kəşfiyyat işində istifadə edilmişdir. Ancaq **1950-ci** illərdən bu metoddan istifadə genişlənmiş və ictimai hadisələrin öyrənilməsi metodologiyası statusu almışdır.

4. **Müqayisəli yanaşma metodu.** Bu cür yanaşma metodu 1960-cı illərdən tətbiq edilməyə başlanmışdır. Dövlətlərin və digər subyektlərin sayının artması ilə belə metoda zərurət yaranmışdır. Burada - ərazisinə, əhalinin sayma, sərhədlərinə iqtisadi inkişaf səviyyəsinə, hərbi potensialına və s. əlamətlərə görə dövlətlər arasında müqayisə aparılır. Hansı dövlətin müharibələrə meylli olması meyarları müəyyən

ləşdirilir. Eləcə də bəzən ayrı-ayrı dövlətlərdə əsgərlərin orduya getdiyi vaxt onların əhval-ruhiyyəsi də müqayisə edilir.

5. İvent-təhlil metodu. Burada hadisələrin təhlili nəzərdə tutulur. Beynəlxalq aləmdə olan hadisələrin dəyişilməsi, dinamikası təhlil edilir, süzgəcdən keçirilir və beləliklə ayrı-ayrı regionlarda, dövlətlərdə və bütövlükdə dünyada siyasi vəziyyətin istiqaməti müəyyənləşdirilir. Müəyyən məlumatlar aşağıdakı əlamətlərə görə sistemləşdirilir: 1. Subyekt - kim 2. Obyekt - Nə 3. Kimə qarşı 4. Nə vaxt. Bu hadisələr öz əhəmiyyətinə görə qruplaşdırılır və hesablama maşınları vasitəsilə qiymətləndirilir.

6. Kontent təhlil metodu. Siyasi elmdə bu metod ilk dəfə Amerika alimi Q.Lassuel və onun işçiləri tərəfindən tətbiq edilmişdir (1949-cu ildə). Hər hansı bir siyasi mətnin sistem halında öyrənilməsidir. Burada daha çox səslənən ifadələrin təhlili ilə bu yazının siyasi istiqaməti müəyyənləşdirilir.

Amerika tədqiqatçısı E.Azar bu metodun vasitəsi ilə beynəlxalq münaqişələri tədqiq etmişdir. Bu məqsədlə 130 ölkəni əhatə edən 30 illik müddətdə 500 mindən artıq hadisə barədə məlumat toplamış, münaqişə vəziyyəti yaranması qanunauyğunluqlanm aşkarlamışdır.

7. Sistemli modelləşdirmə metodu. Bu metod vasitəsi ilə tədqiq edilən obyektlər formal oxşarlıq yolu ilə eyniləşdirilir. Obyekt və onu əks etdirən keyfiyyət cəhətləri eyniləşdirilir. Burada riyazi təhlil də tələb olunur.

Tanınmış mütəxəssis Forresterin dünyanın inkişaf modelini sistemli modelləşdirmə metoduna misal çəkmək olai'. Bui’ada 114 qarşılıqlı əlaqədə olan bərabərlik istifadə edilmişdir. Lakin onu da qeyd etməliyik ki, beynəlxalq proseslərin, hadisələrin daxili mahiyyətini riyazi dillə, riyazi hesablamalarla o qədər də aydın səciyyələndirmək olmur. Hər halda informasiya texnologiyasının və elektron hesablama texni- kasımn sürətli inkişafı dünya siyasətinin və bevnəlxalq mü

nasibətlərin öyrənilməsində riyazi hesablamalardan istifadə edilməsinə zəmin yaradır.

Hələ 1960-1970-ci illərdə "Qüvvələr balansı" və "Diplomatiya oyunu" deyilən təhlil modeli yaradılmışdır.

Məsələn, yenə 1960-cı illərdə 27 beynəlxalq münaqişənin məzmunu barədə müəyyən məlumatlar toplanmış, təhlil edilmiş və nəticə çıxarılmışdır.

Münaqişələrin yaranması mərhələlərə aynimışdır (münaqişə qabağı, münaqişə dövrü və münaqişədən sonrakı dövr). Birinci mərhələdə 119; ikinci mərhələdə 110; üçüncü mərhələdə isə 178 amil müəyyən edilmişdir. Beləliklə hər bir amilin təsir dairəsi hesablanmışdır.

8. Delfiy metodu. Burada hər hansı bir problem bir neçə ekspert tərəfindən öyrənilir, müzakirə edilir, qiymətləndirilir. Sonra verilir mərkəzi orqanlara. Onlar da öz fikrini, iradını bildirib yenidən qaytanr ekspertlərə. Ekspertlər də müəyyən fikirlərlə barışır və yaxud öz fikirlərində qalırlar. Beləliklə, son - yekun təklif hazırlayırlar.

# II Fəsil.
# BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ BEYNƏLXALQ SİYASƏT

1. Dünya siyasəti və onların qarşılıqlı əlaqəsi.
2. Beynəlxalq münasibətlərin dinamikası.
3. Dünya siyasəti və Beynəlxalq siyasət.
4. Beynəlxalq münasibətlərin qanunauyğunluqları.

## 1. Dünya siyasəti və onların qarşılıqlı əlaqəsi

Dünya üzrə siyasi - ictimai hadisə və proseslərin öyrənilməsi sosial-humanitar elmlərin tədqiqat obyektinə daxildir. Bu elmlərin tədqiqat obyektinin ayrı-ayrı tərəflərini öyrənərkən **"Xarici siyasət", "Beynəlxalq siyasət", "Dünya siyasəti"** kimi kateqoriyalar - anlayışlar işlədilməsi obyektiv zərurət təşkil edir. Bu kateqoriyaların hər biri özünəməxsus məzmun kəsb edir. Onlar müəyyən mənada müstəqil məzmun kəsb etsələr də, hər halda qarşılıqlı əlaqədə də götürülürlər.

Qeyd etməliyik ki, sadaladığımız kateqoriyalar arasında **"Beynəlxalq münasibətlər"** anlayışı daha mərkəzi yeri tutur.

Bu kateqoriya daha geniş məna daşımaqla sistem yaradan bir xüsusi çəkiyə malikdir. "Beynəlxalq münasibətlər" heç də dəyişməz, donub qalan bir hadisə olmayıb, həmişə dəyişməkdə, təkamüldə olan bir varlıqdır.

Deməli bu gün hər hansı bir **"Beynəlxalq münasibət"** yüz illər, min illər bundan əvvəlki kimi deyildir. Öz növbəsində yüz illərdən somakı beynəlxalq münasibətlər də bugünkü münasibətlərdən fərqlənəcəkdir.

**XVIII - XIX** əsr yüzilliyi beynəlxalq münasibətlər fenomeninin təkamül inkişafı üçün ən zəruri mərhələlərdən biri hesab edilir. O vaxtlar Qərbi Avropada müstəqil dövlətlər sistemi bərqərar olurdu.

Çarlıq - şahlıq edən monarxiya sülalələri arasındakı münasibətlər bütövləşmiş xalqlar, millətlər, dövlətlərarası münasibətlərlə əvəz olunurdu. Hazırda da Qərb dünyasında. Qərb adət-ənənələrində "Millət" və "Dövlət" anlayışları sinonim təşkil edirlər.

Millətlərin formalaşması ilə paralel olaraq vətəndaşlıq cəmiyyətinin bərqərar olması prosesi də başa çatmışdı. Vətəndaşlıq cəmiyyəti isə öz tələbatlanm dövlət tələbatlarına uyğunlaşdırmışdır.

Beləliklə hər bir ölkənin vətəndaşlıq cəmiyyəti milli təhlükəsizliyin və xarici münasibətlərin təmin edilməsi sahəsindəki bütün səlahiyyətləri dövlətin üzərinə qoymuşdur. Hər bir ölkənin hökuməti həmin səlahiyyətlər çərçivəsində digər ölkənin hökuməti ilə rəsmi əlaqə yaratmaq hüququna malik olmuşdur. Məhz elə həmin kanalla da müxtəlif ölkələrin dövlət qurumları və vətəndaşlıq cəmiyyətlərinin müxtəlif subyektləri arasındakı əlaqələrin bir çoxu həyata keçirilmişdir.

Aydındır ki, bütün dövrlərdə ayrı-ayrı ölkələr arasında (dövlətlə bağlı olmayan) şəxsi əlaqələr də olmuşdur. Lakin nəqliyyat və informasiya vasitələrinin zəif olması üzündən bu əlaqələr məhdud idi.

Dövlətlərarası uzaq məsafələr küllü miqdarda vaxt və vəsait tələb edirdi. Aydındır ki, bu mənada ayrı-ayrı şəxslərə nisbətən dövlət daha çox imkanlara malik idi.

Odur ki, dövlət uzun müddət xarici münasibətlər dairəsini demək olar ki, inhisara almış və bu sahədə vahid subyekt kimi mövcud olmuşdur.

İnsan cəmiyyətinin inkişafının ilk dövrlərində icmalar arasında müəyyən münasibətlər yaranmışdır. Qədim tayfalar arasında ərazi iddiası üzrə müəyyən ehtiyatlar əldə etmək uğrunda çəkişmələr və yaxud hər hansı bir formada əməkdaşlıqlar mövcud olmuşdur.

Bütün bu kimi qarşılıqlı münasibətlər ilk dövlət yaranana qədər siyasi xarakter daşımamışdır.

Dövlətin meydana gəlməsi ilə yeni növ münasibətlər yaranmağa başlamışdır. İlk əvvəllər nisbətən böyük tayfalarla dövlət arasında, qədim dövlətlər arasında münasibətlər yaranırdı. Məsələn IX-X əsrlərdə müasir Almaniyanın ərazilərində ayrı-ayrı tayfa ittifaqlarının Qədim Roma imperiyasına qarşı uzun müddət güclü mübarizələri mövcud olmuşdur. Qədim dövlətlər hər yerdə e>'ni vaxtda yaranmadığına görə dövlət- lərarası münasibətlər o qədər də inkişaf etməmişdi.

Tədricən dövlət formasında olan quruculuğun, təsər-rüfatçılığın genişlənməsi ilə, dövlətlə ayrı-ayrı bütövləşmiş sosial qurumlar arasında olan münasibətlər formalaşmağa başlamışdır. **Əlbəttə bu münasibətlər klassik beynəlxalq münasibətlər deyildir.**

Ənənəvi sosial cəmiyyətlərdə dövlətlə cəmiyyət çox vaxt paralel mövcud olur. Burada ancaq hakim elita arasında müəyyən siyasi söhbətlər gedir. Xarici siyasət məsələlərində isə bu səlahiyyət bir adama - **monarxa verilirdi. Monarx** bütün dövlət hakimiyyətini özündə şəxsiləşdirmişdir. Odur ki, orta əsrlərdəki bütün dövlətlərarası münasibətlər monarxlar arasındakı şəxsi münasibətlər kimi görünürdü.

Deməli bir-biri ilə müharibə aparanlar əhali deyil, krallar, çarlar, knyazlar, imperatorlar olmuşdur. Daha doğrusu, dövlətlə dövlət başçılan eyniləşdirilirdi.

Müəyyən razılaşmalar əldə edənlər, öhdəçilik götürənlər dövlət deyil, məhz həmin şəxslər hesab edilirdi.

Qeyd etdiklərimizdən aydın görünür ki, beynəlxalq münasibətlər sistemi çox mürəkkəb daxili quruluşa malikdir.

Bu quruluşda **"Beynəlxalq siyasi münasibətlər"** daha həlledici rola malik olub, sistem əmələ gətirən mərkəz hesab edilir. Bu **"Beynəlxalq siyasi münasibətlər" ictimai hadisə olan siyasətin və siyasi institut olan dövlətin meydana gəlməsi ilə birlikdə yaranmışdır.**

Bu münasibətlər çərçivəsində hər bir dövlət öz siyasi xəttini reallaşdırmalı olmuşdur.

**Beynəlxalq siyasi münasibətlərə beynəlxalq siyasət kimi** də baxmaq olar. **Beynəlxalq siyasət siyasi proseslər** və münasibətlər dünyasının əsas dairələrindən biridir.

Beləliklə, **"Beynəlxalq münasibətlər"** anlayışı **"Beynəlxalq siyasət"** anlayışı ilə sinonim təşkil edir. Onu da qeyd etməliyik ki, **beynəlxalq siyasət anlayışı** ilk əvvəllər (XVIII-XIX əsrlərdə) ingilis filosofu **C.Bentam tərəfindən** işlədilmişdir. İlk əvvəllər beynəlxalq siyasətin əsas subyektləri dövlətlər və dövlətlər ittifaqı hesab edilirdi. Son yüz illiklərdə, beynəlxalq hökumətlərarası təşkilatların yaranması ilə onlar da beynəlxalq proseslərdə geniş iştirak edirlər.

**XIX əsrin** ikinci yarısınadək beynəlxalq siyasət o qədər də qlobal səviyyədə mövcud olmamışdır. O, əsasən lokal və regional çərçivədə formalaşırdı və fəaliyyət göstərirdi. **Beynəlxalq siyasətin mərkəzində dövlətlərin hakimiyyət uğrunda mübarizəsi dayanır.** Bununla da digər beynəlxalq subyektlərə təsir etmək, öz mənafeyini üstün tutmaq əsas götürülür.

Buradan da beynəlxalq siyasi münasibətlərin əsas məqsədi müəyyən olunur: bu **dövlətlərarası münaqişələr və yaxud dövlətlərarası əməkdaşlıqdan ibarətdir.**

Yaxın keçmişədək bu problem əsas beynəlxalq problem olmaqla müharibə və yaxud sülh olmasını nəzərdə tuturdu.

Qədim vaxtlar Avropada, Asiyada, Afrikada paralel olaraq münaqişələr tüğyan edirdi.

Lakin dövlətlər və regionlararası məsafələr uzaq olduğu üçün onların bir-biri ilə əlaqəsi olmurdu.

Müasir dövrdə dünyanın vahid şəkil alması prosesinin güclənməsi, beynəlxalq siyasətin də qloballaşmasına zəmin yaradır.

Böyük coğrafi kəşflərdən başlamış XIX əsrin ortalarında texnoloji və iqtisadi sahədəki inqilabi dəyişikliklər, eləcə də buxar mühərriklərinin, elektrik, rabitə vasitələrinin (teleqraf, telefon) kəşfi ilə əlaqədar olaraq uzaq məsafələrin qət

edilməsi, yükdaşımaların artırılması, informasiya ötürülməsi imkanları aıtmışdır.

Nəqliyyat və informasiya kommunikasiyasının inkişafı özü ilə bərabər iqtisadi, sosial və eləcə də siyasi dəyişikliklər də yaratmışdır.

## 2. Beynəlxalq münasibətlərin dinamikası

Beynəlxalq münasibətlərin dinamikasma xarici mühit daha güclü təsir edir. Xarici mühit anlayışını əsasən **qeyri-sosial və sosial amillər kimi** xarakterizə etmək olar.

Beynəlxalq münasibətlər sistemində **qeyri-sosial** mühit və yaxud **amillər** dedikdə ilk növbədə geologiya, coğrafiya, meteorologiya, ekologiya və s. kimi elmlərin tədqiqat obyekti kimi öz ilkin formasında olan təbiət nəzərdə tutulur. Bu amil bütün öz elementləri ilə insan cəmiyyəti yaranmamışdan əvvəl mövcud olmuşdur. Aydındır ki, cəmiyyətin inkişaf sürətinə nisbətən təbiət aləminin dəyişilməsi daha ləng baş verir. Materiklər, qitələr, dəniz və okeanlar, çaylar, dağ silsilələri və s. demək olar ki, 2-3 min il bundan əvvəlki kimi qalmaqdadır.

Lakin bu **qeyri-sosial** mühit bir çox texniki və texnoloji tərəqqinin təsirinə məruz qalaraq müəyyən dəyişikliyə uğrayır. Bu dəyişiklik nəticəsində o, özü də beynəlxalq münasibətlərə təsir etmiş olur.

Beləliklə, doğmdan da məsələn iqlimin dəyişməsi və yaxud hər hansı bir təbii ehtiyatın azalması, tükənməsi iqtisadiyyata, insanların gündəlik həyatlarına təsir etməyə bilməz. Bu isə öz növbəsində istər-istəməz ayrı-ayrı dövlətlər və xalqlar arasındakı münasibətlərin xarakterində öz əksini tapmış olur.

**Sosial mühit dedikdə** isə insanların yaranması ilə əmələ gələn (yaradılan) bütün amillərin məcmusu nəzərdə tutulur. Bu amillər bütövlükdə cəmiyyətin varlığını müəyyən etmiş olur. Bunlar iqtisadiyyat, siyasət, texnika, texnologiya.

ideologiya, mədəniyyət, din və digər amilləri özündə birləşdirir. Bu kimi sosial amillər və onların beynəlxalq münasibətlərə təsiri barədə onlarla həyati misallar gətirmək olar. Məlumdur ki, XX-XXI əsrlərdə ayrı-ayrı dövlətlərin liderləri bir çox beynəlxalq problemləri şəxsən görüşmədən texniki vasitələrdən istifadə olunması yolu ilə həll edirlər. Bu kimi imkanlar min illər (bəlkə yüz illər) bundan əvvəl mümkün deyildi.

Onu da qeyd etməliyik ki, son yüzilliklərdə beynəlxalq münasibətlərin təkamül inkişafına təsir edən əsas amillərdən biri də nəqliyyat və informasiya texnologiyasının inkişafı olmuşdur.

### 3. Dünya siyasəti və Beynəlxalq siyasət

Bərqərar olmuş Dünya iqtisadiyyatı bazasında **dünya** siyasəti formalaşmağa başlamışdır.

Bir çox ədəbiyyatlarda **"Dünya siyasəti"** anlayışı ilə **"Beynəlxalq siyasət"** anlayışı eyniləşdirilir. Əlbəttə bu hər iki anlayış arasında müəyyən yaxınlıq vardır. Lakin aydındır ki, **"Dünya siyasəti"** sadəcə olaraq qlobal miqyasda **"Beynəlxalq siyasəf'in,** bütün siyasi sistemin inkişafında keyfiyyətcə tamamilə yeni bir mərhələ hesab edilir.

**"Dünya siyasəti" "Beynəlxalq siyasəf'dən** həm problemin məzmununa görə, həm də subyektlərin xarakterinə görə fərqlənir.

Beləliklə, XX əsrin axırlarına dünya siyasətində müasir dövrün aktual problemləri adlanan ekoloji, demoqrafik, energetik, ərzaq və s. kimi problemlər daha fəal rol oynamağa başlamışlar.

Yeni problemlərin yaranması milli səviyyədə də ictimai hərəkatların artmasına və beynəlxalq aləmdə yeni qeyri hökumət təşkilatlarının çoxalmasına səbəb olmuşdur.

Bu qurumlar yarandığı zaman siyasi xarakterə malik olmadığı halda, sonralar dünya siyasi proseslərinin gedişinə nüfuz etməyə başlamışlar.

Beləliklə, **"Dünya siyasəti" "Beynəlxalq münasibətlər"in** təməli əsasında yaranmış və inkişaf etmişdir. Deməli **"Dünya siyasəti" "Beynəlxalq münasibətlər"lə** vəhdət və yaxud vahid kompleks təşkil edir.

**Beynəlxalq münasibətlərin formalaşmasında dünya siyasəti daha fəal rol oynayır.** Beynəlxalq münasibətlər dünya siyasətinin təsiri altında da daimi dəyişir. Bununla yanaşı o dünya siyasətinin məzmununa və xarakterinə də təsir etmiş olur.

Dünya səhnəsində dövlətlərin qarşılıqlı hərəkətləri müxtəlif sahələrdə ikitərəfli, üçtərəfli əlaqələr, çəkişmələr və münaqişələr, əməkdaşlıq (ticarət mübadiləsindən başlamış siyasi inteqrasiyayadək) və s. bu kimi cəhətlər **«Beynəlxalq siyasət»** anlayışında əks olunur.

**"Dünya siyasəti" "Beynəlxalq siyasət"!** də özündə əks etdirir. Lakin onunla eyni deyildir. Dünya siyasəti öz problemlərinə və subyektlərinə görə daha genişdir.

Beynəlxalq **siyasi** münasibətlər bütünlükdə **Beynəlxalq münasibətlərin** tərkib hissəsi kimi daha böyük xüsusi çəkiyə malik olub, beynəlxalq münasibətlərin quruluşunda sistem yaradan bir element hesab edilir. Bütün bu anlayışların məzmununa iqtisadi baxımdan yanaşdıqda qeyd etməliyik ki, **"Beynəlxalq iqtisadi münasibətlər"** də **"Beynəlxalq münasibətlər"in** tərkib hissəsi kimi dünya iqtisadiyyatı çərçivəsində fəaliyyət göstərir.

Dünya siyasəti ilə beynəlxalq münasibətlər fərqləndiyi kimi xarici siyasətlə beynəlxalq siyasət arasında da **fərq vardır:** hər bir dövlətin xarici siyasəti konkret olaraq xarici işlər nazirlərinin hesab edilir. **İsveçrə alimi F.Brayar** da xarici siyasəti xarici işlər nazirlərinin fəaliyyəti ilə əlaqələndirirdi. Burada dövlətin beynəlxalq siyasətinin əsas prinsipləri əks

olunur. Məsələn, çoxmilli korporasiyalar, beynəlxalq mafiya qruplaşmaları, müəyyən dini birliklər kimi qeyri-dövlət qurumları beynəlxalq münasibətlərin iştirakçıları olduqları üçün beynəlxalq xarici siyasət deyil, beynəlxalq siyasəti əks etdirirlər.

Beləliklə, **"Dünya siyasəti"** ilə **"Beynəlxalq münasibətlər"** qarşılıqlı asılılıqda olub çox mürəkkəb və dinamik bir qanunauyğunluq təşkil edirlər. Bu baxımdan bu elmin tədqiq etdiyi beynəlxalq problemlər də kifayət qədər mürəkkəb problemlərdir.

**Hər halda beynəlxalq münasibətlərin predmetində aşağıdakı problemlərin öyrənilməsi nəzərdə tutulur;**

- Beynəlxalq münasibətlərin qanunauyğunluqlarının bütün bir sistem halında öyrənilməsi;

-- Ayrı-ayrı dövlətlərdə beynəlxalq siyasətin və xarici siyasətin təhlili;

- Dünya siyasi proseslərinin və onun daha aparıcı subyektlərinin fəaliyyətlərindəki istiqamətlərin dinamikasının təhlil edilməsi;

- Dünya siyasətinin ayrı-ayn problemlərinin kompleks şəkildə tədqiq edilməsi.

Bütün qeyd etdiklərimizdən belə qənaətə gəlmək olar ki, "Beynəlxalq münasibətlər nəzəriyyəsi" bu kimi geniş predmetə malik olmaqla humanitar biliklər sistemində böyük ictimai əhəmiyyət kəsb edir.

## 4. Beynəlxalq münasibətlərin qanunauyğunluqları

Beynəlxalq münasibətlərin tədqiqi ilə məşğul olan bir çox alimlərin əldə etdiyi nəticələr ondan ibarətdir ki, beynəlxalq münasibətlər özünəməxsus qanunauyğunluqlarla daha zəngindir.

1 .Beynəlxalq münasibətlərin dairəsi çoxcəhətli hadisə və proseslərin məcmusundan ibarətdir.

2. Beynəlxalq hadisə və proseslərə sosial baxımdan yanaşdıqda onların arasında müəyyən fərqli və oxşar cəhətlər olmaqla yanaşı təkrarlanan hallar da müşahidə olunur.

3. Bu kimi təkrarlanmaları qanunauyğunluqlar adlandırmaq olar. Bu qanunauyğunluqlar aşağıdakılardan ibarətdir:

1 .Hər bir cəmiyyət və eləcə də vahid siyasi qurum texniki üstünlüyə can atır.

2. Hər bir texniki təkmilləşdirilmə ümumi qanunauyğunluqlar çərçivəsində baş verir.

3. Texnikanın yayılmasında ən əsas maneçilik dəfələrlə ümumi hal kimi baxılmasıdır (fərqləndirilməməsidir).

4. Qanunauyğun olaraq cəmiyyətdə müəyyən yeniləşmələr dəyərlər sisteminin dəyişilməsi baş verir. Məsələn, bir ideologiyadan digər ideologiyaya olan keçid. Köhnə ideologiyanın zorla dağıdılması. Ucqtırlarda olan dəyişikliklər.

5. Hər hansı bir dəyişikliyin cəmiyyətin ayrı-ayrı qurumlarında qəbul edilib edilməməsi qanunauyğunluğu cəmiyyətin bir qismi ümumi dəyişikliyi istədiyi halda öz həyatlarından belə keçməyə razı olduqlan halda, digər qismi belə dəyişikliyi qəbul edə bilmir. Məsələn, İngiltərədə 1830 - 1835-ci illərdə hökumət geniş islahatlar keçirməklə inqilab baş verməsinin qarşısını ala bilmişdir. Azərbaycanda 1990 - 1991-ci illərdə yeni ictimai-iqtisadi sistemə keçidi, xalq cəbhəsi adlanan hərəkatın tələblərini, ideyalarını heç də hamı, yeniliklə qəbul edə bilmirdi. Bu da ən məlum qanunauyğunluqlardan biri hesab edilir.

ö.İnsanlarm birləşməsi üsulları digər dəyərlər sisteminə (məsələn dini, ideoloji birliklər) nisbətən daha zəruridir - sabit deyil. Eləcə də texniki dəyişiklik daha tez baş verir.

7.Müharibələrin əsas səbəbi sabit dəyərlərin qapalı sistemində olmasından irəli gəlir (məsələn, hərbi potensial arasındakı fərq həmişə dözümlülük vəziyyəti yaradır).

Bu qanunauyğunluqlar beynəlxalq münasibətlərə birbaşa təsir edirlər.

XVI əsrdən 1914-cü illərədək olan dövrdə baş verən beynəlxalq münasibətlərin müəyyən xarakterik cəhətlərini müqayisə etməklə bu sahədə tanınmış alim J.B.Dyurozel belə qənaətə gəlmişdir ki, müasir dünyada hər hansı bir və yaxud bir neçə böyük dövlətə qarşı koalisiya birlik, ittifaq yaradılması mövcud deyildir. Hazırda hər hansı bir hegemon Avropa dövləti anlayışı mövcud deyildir.

Dünya səhnəsində yeni, parçalanmış şəkildə lakin real gücə malik olan dünya ictimai rəyi meydana gəlmişdir. Hərbi strategiyada da köklü dəyişikliklər baş verir.

Bütövlükdə beynəlxalq münasibətlər probleminin açıqlanmasına daha dərindən yanaşdıqda aydın olur ki, burada müharibələr və yaxud onun aradan qaldırılması məsələləri üstünlük təşkil edir. Məşhur **fransız sosioloqu R.Aronun «Millətlər arası sülh və müharibə»** adlı əsərində də bu fikir öz əksini tapmışdır.

Beləliklə, **«Beynəlxalq ınünaSibətlər»** barədə olan müxtəlif fikirlərin, məktəblərin nəzəri ümumiləşdİrmələrinə əsasən aşağıdakı qanunauyğunluqları qeyd etmək olar;

1. Beynəlxalq münasibətlərdə əsas subyekt dövlət hesab olunur. Onun beynəlxalq fəaliyyət forması isə diplomatiya və strategiyadan ibarətdir.
2. Dövlət siyasəti iki formada mövcud olur: daxili və xarici (beynəlxalq) siyasət.
3. Hər bir dövlətin beynəlxalq fəaliyyətinin əsasını milli mənafe təşkil edir (təhlükəsizlik, suverenlik, sağlam yaşamaq və s.). Odur ki, **«Beynəlxalq münasibətlər»** dövlətlərarası toqquşma, münaqişə və milli mənafelərin qarışığı dairəsini əks etdirir.
4. Hər bir dövlətin milli mənafelərini gözlənilməsi daha güclü hərbi potensialın olmasını tələb edir (bu isə öz növbəsində təbii, iqtisadi və digər ehtiyatların olmasından asılıdır). Odur ki, beynəlxalq münasibətlərə dövlətlərarasındakı qarşılıqlı güc, güc balansı kimi də baxmaq olar.

5. Hərbi potensialın bölgüsündəki fərqin olması üzündən (güclü dövlətlərdə) qüvvələr balansı müxtəlif formalar ala bilər - **iki qütblü, üç qütblü, daha çox qütblü** və s.

Bu sahədə tədqiqat aparan bir çox alimlər belə qənaətə gəlmişlər ki, beynəlxalq münasibətlərdə, onun xarakterində köklü dəyişikliklər baş verir. Bu münasibətlər ancaq dövlətlərarası münasibətləri deyil, daha yeni münasibətləri, yeni subyektləri əhatə edir.

**Fransız alimləri B.Badi və M.K.Siuts** bu sahədə öz fikirlərini açıqlamaq üçün belə bir əsər yazmışlar: **«Dünya dəyişilməkdədir», «Beynəlxalq Səhnənin Sosiologiyası».**
Onlar göstərirdi ki. Müasir beynəlxalq münasibətlərə ancaq dövlətlərarası qarşılıqlı fəaliyyət kimi baxmaq olmaz.

Yenə Fransa alimi F.Moro Defarc göstərirdi ki, XX əsr beynəlxalq münasibətlərin xarakterində köklü dəyişikliklər olması ilə başa çatmışdır. Bu dəyişikliklər dövlət siyasətçilərinin fəaliyyətinin nəticəsi deyil, başqa proseslərin nəticəsi idi. Din, mədəniyyət, cəmiyyətdə baş verən müxtəlif mübadilə formaları beynəlxalq münasibətlərin xarakterini dəyişmişdir.

# III Fəsil.
# SOSIAL-SIYASI FIKIR TARIXINDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ XARICI SIYASƏT PROBLEMI

1. Qədim dünya siyasi fikir tarixində xarici siyasi baxışlar.
   Beynəlxalq münasibətlərdə realist təsəvvürlərin formalaşması və inkişafı.
3. Beynəlxalq siyasətdə liberal fikirlər genezisi.
4. Marksizm və beynəlxalq münasibətlər.

## 1. Qədim dünya siyasi llkir tarixində xarici siyasi baxışlar

Dövlətin meydana gəlməsi ilə cəmiyyətin həyat fəaliyyətində əlahiddə olaraq siyasi məsələlər də aynimışdır. Bununla da beynəlxalq münasibətlər fenomeni yaranmışdır. Siyasət özü isə daxili və xarici siyasət şəklində tədqiq edilmişdir.

Bu kimi proseslər qədim dünya fikirlərində də öz əksini tapmışdır. Aydındır ki, əvvəllər dövlətlərarası münasibətlər o qədər də müntəzəm xarakter daşımırdı və xarici siyasət dairəsi çox sadə və primitiv şəkildə səciyyələnirdi. Beləliklə qədimdə xarici siyasi fikirlər o qədər də inkişaf etməmişdir. Bu barədə ancaq ayrı-ayrı halları və xüsusilə qədim **Çində** yaranmış xarici siyasi fikirləri qeyd etmək olar.

**Çinin** siyasi fikir tarixində **üç cərəyanı** ayırmaq olar: **Konfutsiyaçılıq, Leqizm, Daosizm.** Bu cərəyanlar bizim eradan əvvəl VI-III əsrlərdə formalaşmışdı. Xarici siyasətin həyata keçirilməsi prinsipləri və metodlan baxımdan bu cərəyanlar bir-birindən fərqlənir. Lakin hər üç halda **Çinin mərkəzçilik modeli** əsas götürülmüşdür. Çünki, o vaxt Çinin əhatəsində çoxlu miqdarda geriliklər, cəhalət, vəhşiliklər hökm

sürürdü. Odur ki, bir necə yüzilliklər Çinin siyasətində əsas problem bu kimi cəhalətə qarşı mübarizə problemi olmuşdur. Beləliklə qədim Çin siyasi fikrində olan hər iki istiqamət öz münasibətini əsaslandırmağa çalışırdı.

Çinin tarixində Konfutsiaçılıq böyük rol oynamışdır. Bu cərəyanın əsasını Konfutsiya və yaxud Kun-szı (551-479) qoymuşdur. O, bir çox fikirlərini **“Söhbət və mülahizə”** adlı əsərində ifadə etmişdir. O vaxtkı Çinin Sosial-iqtisadi quruluşunun sabit olması üçün insanın mənəvi-əxlaqi cəhətdən təkmilləşdirilməsi proqramı hazırlanmışdır. O, **dövlətə böyük ailə kimi, dövlət başçısına isə xalqın atası** kimi baxırdı.

Konfiıtsiyaçılığın ikinci nümayəndəsi **Men-szı (372-289)** (qısaca Men) olmuşdur. O, belə hesab edirdi ki, dövlətdə xalq daha əsasdır, sonra torpağın və taxılın ruhu, axırda isə dövlət başçısıdır,

Konfiıtsiyaçılığın digər nümayəndəsi **Syun-szı (313-238)** dövlətin varlanmasının tərəfdarı idi.

Konfutsiya tərəfdarlan Çinliləri **etika** baxımından daha yüksək hesab edirdilər. Qonşularını belə cəhalətdən çıxarmağı özlərinə mənəvi borc hesab edirdilər. Müəyyən mənada xilaskar, nicat rolunda çıxış edirdilər. Ayn cür ola da bilməzdi. Bu kimi cəhalət, gerilik Çinə əks təsir göstərə bilməzdi. Ayrı-ayrı xalqların qarşılıqlı mədəniyyəti də Çin üçün yad idi.

Ənənəvi Çinin xarici siyasətindəki təcrid olunma istiqamətini Konfutsiya tərəfdarlan daha düzgün hesab edirdilər.

**B.e.ə.** VI-III əsrlərdə Konfutsiya ideyası ilə yanaşı ikinci bir cərəyan - **Leqizm** yaranmışdır. Leqizm məktəbinin meydana gəlməsi VI-V əsrlərə (b.e.ə.) təsadüf edir. Bu cərəyanın adı o dövrün görkəmli siyasi xadimi **İzi Canya** və **Li Kuyanın** adı ilə bağlıdır. **Li Kuyanın** dövlətin möhkəmlənməsində **«əkinçiliyin rolu»** baxışlarını **Qunsun Yan** (390- 338) inkişaf etdirmişdir. O, Çində Şan-Yan kimi məşhurdur. O, göstərirdi ki, dövlət iki yolla çiçəklənə bilər - **əkinçilik və müharibə.** Torpağa qayıtmaq üçün dövlət fəal siyasət

yeritməlidir. **Leqistlər** dövlətin rolunun artınimasının tərəfdan idilər. İdarəçilikdə qanunlara əsaslanmağa üstünlük verirdilər. Onlar daha fəal xarici siyasətə də üstünlük verirdilər.

İlkin Konfutsiyaçılar kimi ilkin **Leqistlər** də cəhalətə qarşı eyni mərkəzçilik münasibətində idilər. Lakin sonralar bir çox real şəraiti nəzərə alaraq digər xalqlann üstün cəhətlərinin, məişət mədəniyyətinin, hərbi işlərin, (məsələn Süvari hücum texnikası) bəzi elementlərindən bəhrələnməyin zəruriliyini məqbul sayırdılar. Bütün bunlar Leqizmin ümumi sosial- fəlsəfi, sosial-siyasi konsepsiyalanndan irəli gəlirdi. Onlar belə hesab edirdilər ki, insan öz təbiəti etibarı ilə **tamahkar - acgözdür, paxıldır - həsəd aparandır və şöhrətpərəstdir.** Odur ki, hökumət başçıları idarəçilikdə insanlann bu keyfiyyətlərini əlaqələndirməyi bacarmalıdır. Bu baxımdan insanları iki **“daha faydalı” işə yönəltməlidir** - əkinçilik və müharibə. Leqizmə görə hər bir dövlət və onu idarə edənlər faydalanmağa cəhd göstərməlidir, iqtisadi və hərbi potensial əsasında **öz** qüdrətini möhkəmlətməlidir. Öz dövlətlərinin mənafeyi naminə başqalarının təcrübəsindən istifadə olunmasım qanunauyğun hesab edirdilər. Onlar müharibələr aparılmasının da tərəfdarı idilər. **(Dövlətin qüdrəti hərbi nailiyyətlərdən asılıdır).** Leqistlər iddia edirdilər ki, hər hansı bir **ölkəni gəzərkən onun necə idarə edildiyini, qüdrətli olduğunu müşahidə edirsənsə, deməli orada hərbi qüvvələrdən daha fəal istifadə edilir.** Deməli **Leqistlər insanların idarə edilməsində məcburiyyət, ehtiyac və zorakılığı əsas götürdüyü kimi, xarici siyasi dairədə də güc metoduna üstünlük verirdilər.**

Qədim Çin ideologiyasında **Deosizm** istiqaməti də geniş yayılmışdır. Çin mədəniyyətinin formalaşmasında onların böyük rolu olmuşdur. Bu cərəyanın əsasım **Lao-Szı** qoymuşdur.

**Beynəlxalq** münasibətlərdə güc amili məsələsi qədim yunan mütəfəkkiri **Fukudid** tərəfindən də işlənmişdir. O,

özünün "Pelepon' müharibəsinin tarixi" adlı kitabında göstərirdi ki, dövlətin siyasətinin əsasında ancaq ayrı-ayrı konkret şəxsiyyətlərin hərəkəti deyil, insanların iradəsindən asıh olmayan obyektiv mənafelər də dayanır. Ayrı-ayrı dövlətlər arasındakı münasibətlər öz təbiəti baxımından mübahisəlidir- münaqişəlidir. Çünki, hər bir dövlət öz mənafeyi baxımından çıxış edir.

**Müharibələr də beynəlxalq münasibətlərdəki münaqişələrlə şərtlənir və labüd bir hadisədir.** Odur ki, hər bir dövlət öz təhlükəsizliyini təmin etmək üçün hərbi qüdrətini artırır. Deməli belə çıxır ki, xarici siyasətdə əsas cəhət və qanunauyğunluq **mənafe və gücdür.** Nəticə etibarı ilə bu fikir **realizm adı almışdır.** Beləliklə **Fukudid** siyasi realizm məktəbinin sələfi hesab edilir.

## 2. Beynəlxalq münasibətlərdə realist təsəvvürlərin formalaşması və inkişafı

Əslində xalqlar arasında xarici ticarət əlaqələri daha qədimlərdə də mövcud olmuşdu. Lakin xarici siyasət və eləcə də beynəlxalq münasibətlər barədə daha sistem halında olan təsəvvürlərin formalaşması intibah^- oyanış dövrlərinə təsadüf edir. Həmin dövrlərdə beynəlxalq münasibətlərin tədqiqinə səy göstərən ilk mütəfəkkirlərdən biri də **İtaliya tarixşünası,**

***Pelepon müharibəsi (431-404 b.e.ə.) qədim Yunanıstanda.***

***^ İntibah dövrü. Qərbi Avropada və Mərkəzi Avropada Mədəni və ideoloji inkişaf dövrü nəzərdə tutulur. İtaliyada 14-16-cı əsrləri, digər dövlətlərdə isə 15-17-ci əsrləri əhatə edir. Bu oyanışın əsas xarakterik cəhəti ondan ibarətdir ki, feodal əsasların əksinə, dünyəvi, kübar, aristokrat fikirlər, humanist fikirlər üstünlük təşkil edir. İntibah - İtaliyada özünü daha parlaq göstərmişdir. Hələ 13-14-cü əsrlərdə İtaliyada şairlərin (Dante), heykəltəraş Nikola Pizanonun, rəssam Pyotro Kavalinin və Cottonun (və digər) sənət əsərlərinin yaradıcılığında intibahın incəlikləri üçün zəmin hazırlanırdı. Onlar insanların hədsiz iradəsinə, imkanlarına inamı artırmağa çalışırdı.***

**siyasi mütəfəkkiri Nikola Makiavelli^ (1469-1527)** olmuşdur. Beynəlxalq siyasət problemində Makiavellini realist ənənənin davamçısı hesab etmək olar. O, da insanlarda **güc işlətmək** meylinin varlığına əsaslanaraq müharibələrin zəruri olmasım iddia edirdi.

Makiavelli göstərirdi ki, dünya xalqları arasında ümumi sülh yaradılması qeyri mümkündür.

Xarici siyasi fəaliyyətdə hər bir dövlətin əsas vəzifəsi öz mənafeyini qorumaqdan (gözləməkdən) ibarətdir.

Beynəlxalq aləmdə hər cür siyasətin əsasını **mənafe və sərfəli olmaq motivi** təşkil etməlidir.

Makiavelli istər daxili və istərsə də xarici (beynəlxalq) siyasətdə **əxlaq normalarını və hətta hüququ da bir kənara qoyurdu.**

Makiavelli yazırdı ki, həyat təcrübəsi göstərir ki, daha az söz verən knyazlar daha böyük işlər görürlər.

Makiavelli varlanmaq üçün acıq-aşkar müharibələrə bəraət qazandırırdı. O, göstərirdi ki, **«ağıllı rəhbər»** müharibə başlanması barədə qərar qəbul etdikdə heç bir məhdudiyyət qoymamalıdır. Müharibənin ədalətli və yaxud qeyri ədalətli olması barədə onun nisbi fərqli fikirləri vardır.

O yazırdı; Müharibə kimin üçün zəruridirsə, onun üçün ədalətlidir. Hər bir dövlət müharibədə iki əsas məqsədi nəzərdə tutur; **qazanmaq, istila etmək və öz azadlığını saxlamaq. Qazanmaqla dövlət varlanır, düşmən isə kasıblaşır.** Bundan başqa qalib gəlmək heç nəyə lazım deyil.

N.Makiavelli hər hansı bir dövlətlərarası münaqişəli vəziyyətin tənzimlənməsinə inanmırdı. O belə hesab edirdi ki, **siyasətin real amili ancaq gücdür.** O, göstərirdi ki, hər bir dövlət güclənməyə səy göstərməlidir, ancaq beləliklə siyasi məqsədə nail olmaq mümkündür. Beləliklə N.Makiavelli ancaq

. ***Nikola Makiavelli (1469-1527) İtaliya tarixçisi, siyasi xadim, yazıçı, "Florensiyanm tarixi" və bir çox əsərlərin müəllifi.***

gücə əsaslanmaqla əxlaq normalarını və hüququ nəzərə almırdı. **Ancaq güc və aldatmaq yolu ilə başqa dövlətlərlə münasibətdə siyasi nailiyyət əldə etmək olar.** Bütün bunlarla yanaşı Makiavelli xalqların birləşmək hüququnu, xarici təsirlərdən azad olmağı, öz müqəddəratını təyin etmək hüququnu da bəyan edirdi.

Beynəlxalq münasibətlər nəzəriyyəsinin inkişafında İngilis filosofu **Tomas Qobbasm da** (1588-1679) böyük rolunu qeyd etmək olar. Qeyd etməliyik ki. Tomas Qobbas mexaniki materializmin iqtisadi sisteminin ilk yaradıcısıdır.

Dövlətlərarası münasibətlərin mahiyyətinin açıqlanmasında T. Qobbasm ümumi sosial-siyasi yanaşması ondan ibarət idi ki, insan **eqoist (xudbin) şöhrətpərəstdir, hakimiyyətə can atır, başqa insanlar üzərində hakim olmağa və varlanmağa,** hərislik göstərir. İnsanların bu təbii vəziyyətlərinin və qarşılıqlı münasibətlərinin nəticəsində müharibələr baş verir. **İnsanlar bir-birinə qarşı dayanır. Bu cür təbii vəziyyətin qalması insan cəmiyyəti üçün çox təhlükəlidir.** Bu vəziyyətin aradan qaldınıması üçün insanlar arasında ictimai razılıq olmalıdır. Bu kimi razılığın əsasında dövlət yaranır. (Leviafan)

Təhlükəsizlik, sülh və rahatlığın təminatı müqabilində insanlar könüllü olaraq özlərinin hüquq və azadlıqlarının bir qismini dövlətə güzəştə getməli olurlar. Beləliklə insanlar arasındakı vəziyyət nizamlanaraq **"vətəndaşlıq vəziyyəti"** alır. Dövlətlər arasındakı münasibət isə özünün **"təbii" vəziyyətində** qalır. Onların qarşılıqlı münasibətlərinin tənzimlənməsində güc əsas olaraq qalır.

T.Qobbas belə hesab edirdi ki, **dövlət-hərbi düşərgədir.** Bu düşərgədə əsgərlərin və silahların köməkliyi ilə bir- birindən müdafiə olunursan. Bu kimi fikirlərə baxmayaraq **T.Qobbas məktəbi etik** baxımdan müharibəni pisləyirdi.

Dövlətlərarası **"təbii"** münasibətlərin qalması müharibələri də zəruri edirdi.

Tomas Qobbas belə qərara gəlirdi ki, **dünya miqyaslı müəyyən qurumlar,** ayn-ayrı dövlət qurumlarından üstün bir orqan yaratmaqla xalqlar arasındakı müharibələrə son qoymaq olar. Düzdür, T.Qobbas belə bir perspektivə o qədər də inanmırdı. Lakin etiraf etməliyik ki, hazırda belə ümumi səlahiyyətli (BMT kimi) qurumlar vardır.

Beləliklə T.Qobbas ilk dəfə olaraq dövlətlərarası münasibətlərin nizamlanmadığım nəzəri cəhətdən əsaslandırmışdır.

Nisbətən son dövrlərdə daha doğrusu yeni dövrdə beynəlxalq siyasət barədə realist baxışların tanınmış nümayəndələrindən biri də **Alman filosofu Qeorq Vilhelm Fridrix Hegel** (1770-1831) olmuşdur. O, göstərirdi ki, beynəlxalq münasibətlərdə hüquq normaları hər hansı bir münaqişəni aradan qaldırmır. Əksinə dövlətlər arasında, müxtəlif fikirlər yaradır. Hətta əgər hər hansı bir tərəf ona verilən hüquq əsasında hərəkət edərsə, bu mütləq digər tərəf üçün əhəmiyyət kəsb edən müəyyən bir hüquqa toxunmalı olacaqdır.

Hegelin fikrincə **müharibə beynəlxalq münasibətlərin hüquqi tənzimlənməsinin** tərkib hissəsidir.

**Məhz elə hansı hüquq normasının digər hüquqa güzəştə getməsi məsələsini müharibə həll edir.** Hər hansı bir tərəfin hüququnun həqiqi olması müəyyən edilmir. Hər iki tərəfin hüququ həqiqidir, baxır hansı tərəf güzəştə məhkum edilibdir.

Hegelə görə beynəlxalq hüquq beynəlxalq ünsiyyətə, beynəlxalq razılaşmalara köməklik edən müddəalar sistemi deyil. Əksinə dövlətlərarası münaqişələr yaradılmasına **«zə- min» yaradan normalar** məcmusudur. O, göstərirdi ki, beynəlxalq münasibətlərdə əxlaqın, mənəviyyatın tələblərinə arxalanmaq olmaz. O, beynəlxalq əməkdaşlıq barədəki fikirlərə bəraət qazandırmırdı.

Beynəlxalq münasibətlər barədə digər fikirlər də vardı. Məsələn, realistlər münaqişələri və müharibələri insan həya

tında əsas amil hesab etdikləri halda, digərləri hesab edirdi ki, vaxt keçdikcə beynəlxalq münasibətlərin təbiəti dəyişir.

Dövlətlərarası parçalanmanı aradan qaldırmaq olar, bütün xalqlar üçün ürnumi mərkəz yaratmaqla sülh və təhlükəsizliyə nail olmaq mümkündür.

### **3.** Beynəlxalq siyasətdə Lıberal fikirlər genezisi

Siyasi fikir tarixində Liberalizm' deyilən ideya da yayılmışdır. Ümumiyyətlə bu siyasi və ideoloji cərəyan Avropada XVII-XVIII əsrlərdə yaranmışdır. Bu elmi-fəlsəfı nəzəriyyə dövlətlərarası münasibətlərin tənzimlənməsindəki güc amilinin əxlaq və hüquq normaları amilləri ilə əvəzlənməsini nəzərdə tuturdu. Beynəlxalq institutlar sistemi yaradılmasına üstünlük verilirdi. Xarici siyasət və beynəlxalq münasibətlərin şərhinə Liberal yanaşma hələ realist fikir nümayəndələri ilə mübahisədə özünü göstərmişdir. Daha doğrusu N.MakiavelIinin ideyalannm tam əksinə olaraq Hollandiyada humanizm tərəfdarı Erazma Rotterdamskiy beynəlxalq münasibətlərdə güc amilinin məhdudlaşdırılmasını təklif edirdi. O, göstərirdi ki, xarici siyasəti insanların mənafeyini nəzərdə tutan sosial normalara tabe etdirmək lazımdır.

İnsanlar müharibəyə çox pis baxırlar. Dövlət başçısı da onların fikrinə əməl edərək sülhü saxlamağa çalışacaqdır.

Deməli güc və müharibə deyil, məhz sülh insan mədəniyyətinin ən yüksək qiymətidir.

E.Rotterdamskiy dövlətlərarası ərazi münasibətlərinə də sabitlik verilməsini ön plana çəkirdi. Dövlətlərarası ərazilərin dəyişdirilməsi əleyhinə çıxırdı. Dövlət başçılarının əhatəsində olan torpaqların satılması və yaxud kiməsə verilm.əsinin qadağan olunmasını təklif edirdi.

' ***Liberalizm - barışdırıcı mövqe tutmaq, güzəştə getmək, latınca - sərbəst, azad deməkdir.***

Beynəlxalq siyasət problemin araşdınlmasmda digər Hollandiya mütəfəkkiri Hüqo Qroskiy (1583-1645) də böyük rol oynamışdır. O, hüquqşünas, sosioloq və dövlət xadimi olmuşdur.

1625-ci ildə “Müharibə və sülh haqqında” adlı böyük bir əsər yazmışdı. O, göstərirdi ki, beynəlxalq münasibətlər hər bir dövlətin götürdüyü öhdəçiliyə əsasən həyata keçirilməlidir. Güc tətbiq edilməsi sahəsində götürülən öhdəçiliklər daha çox diqqət mərkəzində olmalıdır:

**1.** Hər bir dövlət siyasi vəziyyətin dəyişilməsinə güc tətbiq etməməlidir. Belə halı cinayət adlandırmaq lazımdır.

**2.** Müharibə başlanması haqqındakı qərar əsaslandınlmahdır.

**3.** Hətta hər hansı bir ölkə ciddi nöqsana yol verdikdə belə dərhal hərbi hərəkətə yol vermək olmaz.

Hüqo Qroskiy ədalətli və qeyri-ədalətli müharibə probleminə də geniş yer vermişdir. 0-, ümumiyyətlə hər cürə müharibəni pisləyirdi.

Dövlətlərarası sülh münasibətlərinin olmasının tərəfdarlarından biri də XVII əsrin əvvəllərində Fransada Emerik Kryuse olmuşdur. O, insan cəmiyyətinə vahid tam halında baxmışdır. Göstərmişdir ki, bütün millətlər təbii və qırılmaz tellərlə bir-biri ilə bağlıdır. Odur ki, hər bir siyasətin məqsədi xalqlar arasındakı razılaşmaları - fikir birliyini saxlamaq və genişləndirməkdən ibarət olmalıdır.

Ayrı-ayrı xalqlann yaxınlaşması işində beynəlxalq ticarətin roluna üstünlük verilir. Bu məqsədlə o, yollar çəkilməsinə, vahid ölçü və çəki sistemi yaradılmasına, vahid pul sistemi olmasına tərəfdar olduğunu bildirirdi.

Emerik Kryuse daimi fəaliyyət göstərən beynəlxalq təşkilat yaradılmasını da ön plana çəkirdi.

Daha geniş hüquqa malik Beynəlxalq təşkilat yaradılmasının tərəfdarlarından biri də yenə Fransa mütəfəkkiri Şari İrine Sen-Pyer (1658-1743) olmuşdur.

**O,** təklif edirdi ki, belə təşkilata geniş hüquq verilsin, hər bir dövlət ümumi, bəşəri tələblərə tabe edilsin. Dövlətlər- arası münasibətlərin tənzimlənməsində beynəlxalq hüququn roluna üstünlük verirdi.

Sen-Pyer dövlətlərarası sülhün saxlanılması üçün aşağıdakı tələbləri irəli sürmüşdür;

- Ərazi toxunulmazhğmm təmin edilməsi;
- Güc tətbiq edilməsi barədə olan keçmiş "hüquqa" yenidən baxılması;
- Dövlətlərarası anlaşılmazlığın tənzim edilməsi üçün beynəlxalq orqanlardan və "Məhkəmə tribunası"ndan istifadə edilsin;
- Bir dövlətin digər dövlətin işinə qanşmasını məhdudlaşdırmaq;
- Dövlətlər birliyinin mənafeyinə zidd olan, əlahiddə ittifaqlar yaradılmasına yol verməmək.

Beynəlxalq münasibətlərə dair daha bir çox bu kimi liberal baxışları qeyd etmək olar. Bu sahədə **Alman filosofu İmanuila Kant** və İngilis mütəfəkkiri C.Bentamm da özünəməxsus fikirləri vardır.

**İmanuila Kant (1723-1804)** Hegeldən fərqli olaraq siyasətdə mənəvi və hüquqi amillərə daha çox üstünlük vermişdir. Müharibə və sülh məsələlərinin həllinə isə o, insanların hüquq və mənafeləri baxımından yanaşırdı. O, göstərirdi ki, müharibə insanın əxlaqi tərəfdən olan cəhətlərinə ziddir. Müharibə etik normalara əməl edilməməsinin nəticəsidir. Odur ki, beynəlxalq siyasətdən müharibə amilini tamam çıxarmaq üçün hər bir dövlət əxlaq normalarına əməl etməlidir. O, göstərirdi ki, siyasət hər bir dövlətin fəaliyyətinin xüsusi bir sahəsidir.

Kant hüququn dövlətlərarası münasibətlərə müsbət təsirinə inanaraq xalqlar arasında sülh yaradılmasına dair razılaşma layihəsi hazırlamışdır. Dövlətləri açıq, səmimi, sülhsevər siyasət yeritməyə çağırırdı. Daimi qoşun saxlamağı ləğv

etmək, ölkənin müdafiəsini isə könüllü hərbi təlim keçmiş adamlara tapşırmağı təklif edirdi.

Kant nəinki ancaq sülh ideyasını irəli sürürdü, o həmçinin praktiki baxımdan da sülhə nail olmaq yollarını göstərmişdir.

Beynəlxalq münasibətlər nəzəriyyəsinin inkişafında tanınmış ingilis filosofu sosioloq, hüquqşünas C.Bentamın (1748-1832) da böyük rolu olmuşdur. Qeyd etməliyik ki, C.Bentamın ən böyük xidməti ondan ibarətdir ki, ilk dəfə "Beynəlxalq münasibətlər" anlayışını o işlətmiş və elmə daxil etmişdir. İngilis liberalizmin görkəmli nümayəndəsi C.Bentam hər bir dövlətin fəaliyyətində firavanlıq və insanların xoşbəxtliyini əsas məqsəd hesab edirdi. O, göstərirdi ki, o dövrdə beynəlxalq münasibətlərin xarakteri dövlətlərin vəzifələrinə o qədər də uyğun gəlmir. Bu uyğunsuzluğun əsas səbəbini o, daimi baş verən beynəlxalq münaqişələrdə və müharibələrdə görürdü. C.Bentam da başqaları kimi dövlət mənafeyini və xeyrini xarici siyasətin əsası hesab edirdi. O, siyasi qərarların çıxarılması qaydasının dəyişilməsini təklif edirdi.

Cari siyasət məsələləri açıq müzakirə etməyin tərəfdarı idi. Müharibə və sülh məsələsində monarxlar üzərində Parlament nəzarətinin olmasını təklif edirdi.

Bentam əxlaq normaları ilə xarici-siyasi praktika arasında olan əlaqəni görə bilməyən alimləri məzəmmət edirdi. Əslində o hesab edirdi ki. Əxlaq normaları beynəlxalq münasibətlərin tənzimlənməsinin əsas amillərindən biridir. Digər bir amil isə hüquqdur. O, göstərirdi ki, beynəlxalq hüquq dövlətlər arasında güc işlətməyin məhdudlaşdırılması normalarının məcmusudur. Bentam bütün xalqların və dövlətlərin hüquq bərabərliyinin tərəfdarı kimi çıxış edərək müstəmləkəçilik praktikasını tənqid edirdi.

Sülhün saxlanılması yollarını araşdıraraq, dövlətlərarası əməkdaşlığı genişləndirməyi və onun xarakterini dəyişdirməyi təklif edirdi. O, 1786-1789-cu illərdə universal beynəlxalq

təşkilat yaradılması planı ilə çıxış edirdi. Etiraf etməliyik ki, **Bentamm** bir çox fikirləri sonralar reallaşmışdır. Beynəlxalq münasibətlərdə öz əksini tapan bu kimi istiqamətlər XX əsrdə siyasi idealizm adı almışdır.

### 4. Marksizm və Beynəlxalq münasibətlər

Beynəlxalq münasibətlər probleminin tədqiqində K.Marks (1818-1883) və Fridrix Engelsin də (1820-1895) az əməyi olmamışdır.

Beynəlxalq siyasətin mahiyyətinə olan baxışlarına görə onların görüşlərini Alman klassik fllosoflan ilə eyniləşdirmək olar. İ.Kant kimi Marksizmin baniləri də daim sülhə nail olmağın mümkünlüyünü göstərirdilər. Lakin mənəvi (əxlaqi) təkmilləşdirmələr yolu deyil, sinfi mübarizə və inqilab yoluna üstünlük verirdilər. Hegel kimi K.Marks və F.Engels də dövlətlərarası müharibə və münaqişənin zəruri olduğunu qeyd edirdilər. Marksizm klassiklərinə görə sinfi mübarizə yalnız ayrı-ayrı dövlətlər çərçivəsində deyil, beynəlxalq münasibətlər dairəsində də siyasi proseslərin hərəkətverici qüvvəsi hesab edilməlidir.

**Realizm** və **Liberalizmlə** yanaşı BMN-də **Marksizm ideyaları** da yayılmışdır.

BMN-də Marksizm ideyaları Realizm və Liberalizmdə **aşağıdakı cəhətlərə görə fərqlənir:**

1. Beynəlxalq münasibətlərin sektorlarına görə (burada əsasən kapitalist cəmiyyətinin əsas sinifləri olan burjuaziya və proletariat nəzərdə tutulur);

2. Beynəlxalq münasibətlərin xarakterinə görə. Realizm BM-i anarxiya şəklində təsvir edir. Liberalizm BM-də hüququn, dövlətlərarası etik kodeksin roluna üstünlük verir. Marksizm isə BM-i cəmiyyət daxilində burjuaziya ilə proletariat arasında olan ziddiyyətdən irəli gələn imperialist, istismarçı münasibət kimi təsvir edir;

3. BM-in məqsədinə baş verən proseslərin mahiyyətinə görə və s.

BM nəzəriyyəsində Marksizm ideyalarının əsasını sinfi yanaşma təşkil edir. Lakin XX əsrin 90 -cı illərində dünya kommunist sisteminin dağılması Marksizmin bu sinfi yanaşmaya əsaslanan konsepsiyasım alt-üst etdi.

# IV Fəsil.
# BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ GEOSİYASİ NƏZƏRİYYƏ

1. Geosiyasi nəzəriyyənin yaranması.
2. Almaniyada geosiyasət ideyasının yayılması.
3. Böyük Britaniya geosiyasi məktəbi.
4. Şimali Amerika geosiyasi məktəbi.

## 1. Geosiyasi nəzəriyyənin yaranması

Oxucuya aydın olmaq üçün əvvəlcə ümumiyyətlə geopolitika (geosiyasi) anlayışının açıqlanmasını vermək daha məqsədəuyğundur.

Əslində bu anlayış əvvəlcə "siyasi coğrafiya" anlayışı kimi yaranıbdır.

XIX əsrin sonu XX əsrin əvvəllərində bu sahədə bir çox əsərlər, kitablar yazılmışdır. Alman coğrafiyaşünası, et- noqraf və sosioloqu Fridrix Ratsel "Siyasi coğrafiya" adlı kitab, İngilis coğrafiyaşünası, Xalford Makkinder «Britaniya və Britaniya dənizi», İsveç siyasətşünası Rudolf Çellen "Dövlət bir orqanizmdir" və bu kimi əsərlər yazmışlaır. Yığcam şəkildə burada ayrı-ayrı məkanların, ərazilərin tədqiqi sinfi və siyasi qüvvələr baxımından əsas götürülür. Yəni hər hansı bir məkanın inkişafı siyasi-iqtisadi, tarixi, siyasi, etnomədəni və təbii cəhətləri baxımından araşdırılır. Siyasi hadisə və proseslər ərazi baxımından differensiyalaşdırıhr.

Geosiyasət (coğrafi siyasət) isə siyasi coğrafiyanın əsas istiqamətlərindən biridir. Geosiyasət hər bir dövlətə coğrafi məkan kimi baxır. Aydındır ki, hər bir coğrafi məkan da öz xüsusi təbii cəhətləri ilə fərqlənir.

Geosiyasət anlayışı aşağıdakı amillərin məcmusunu özündə əks etdirir:

—Siyasi cəhət: burada dövlət quruluşunun tipi, cəmiyyətin sosial quruluşu, başqa dövlətlərlə qarşılıqlı əlaqələr, siyasi ittifaqlarda və bloklarda iştirak etməsi, dövlət sərhədlərinin xarakteri, münaqişəli nöqtələrin mövcudluğu və s. nəzərdə tutulur;

—İqtisadi amillər: əhalinin həyat səviyyəsi, iqtisadiyyatın apancı sahələrinin inkişaf səviyyəsi, xarici iqtisadi əlaqələrdə iştirakı məsələləri və s.;

—Hərbi sahədə: hərbi inkişaf səviyyəsi, silahlı qüvvələrin hərbi qabiliyyəti və hərbi hazırlığı, hərbi infrastrukturanm inkişaf səviyyəsi, hərbi kadrların hazırlıq dərəcəsi, hərbi xərclər və s.;

—Ekologiya baxımından; Təbiətin deqradasiyası (pisləşməsi) və onun mühafizəsi tədbirləri;

—Demoqrafiya vəziyyəti: burada əhalinin təkrar istehsalının xarakteri, əhalinin tərkibi, yerləşməsi xüsusiyyətləri əks olunur;

—Mədəni-tarixi cəhətlər: burada elmin inkişafı səviyyəsi əsas götürülür.

Beləliklə, hər bir dövlətin siyasi vəziyyəti yuxarıda qeyd etdiyimiz bütün amillərin məcmusu ilə müəyyən olunur. Aydındır ki, burada coğrafi və siyasi amillər daha çox üstünlük təşkil edirlər. Daha doğrusu coğrafi cəhətlər daha çox siyasiləşdirilir.

Onu da qeyd etməliyik ki, dövlətin xarici və daxili siyasətində coğrafi şəraitin rolu məsələsi qədim yunan mütəfəkkirləri **Platon, Aristotel və Polibiyin ideyalarında** da öz əksini tapmışdır. Bu kimi fikirlər Romada **Sisiron, Strabon** kimi mütəfəkkirlərin də diqqətini cəlb etmişdir.

Sonralar coğrafiya ilə siyasətin əlaqəsi məsələsi Fransız siyasi mütəfəkkiri **Jan Bodeni (1530-1596)** daha tez maraqlandırmışdır. O, göstərirdi ki, hər bir dövlətin inkişafı və qüdrəti birbaşa təbii şəraitlə bağlıdır. Bu kimi fikirlərin davamçısı **Şari Monteskye (1689-1755)** özünün **“Qanunların ruhu**

**haqqında"** əsərində iqlim şəraitini yerin, yer səthinin (topoqrafiyanın) dövlət quruculuğuna, siyasətə təsirini geniş tədqiq etmişdir. Əsərin böyük bir fəslini Avropanın və Asiyanın bəzi dövlətlərinə həsr etmişdir. O, hətta belə bir qənaətə gəlirdi ki, hər bir dövlətin qanunları onun fiziki coğrafi şəraitinə uyğun olmalıdır.

Siyasi fikir tarixində coğrafi qanunauyğunluq ideyası yalnız Fransada deyil, başqa ölkələrdə də yayılmışdır.

## 2. Almaniyada geosiyasət ideyasının yayılması

Almaniyada geosiyasi ideyanın yayılması bu elmi istiqamətin formalaşmasında böyük rol oynamışdır. Alman siyasi coğrafiyaşünası **Fridrix Ratsel (1844-1904)** ilk dəfə olaraq göstərir ki, məkan - sadəcə olaraq dövlətin əhatə etdiyi ərazi deyil, **onun siyasi gücüdür.** O, dövləti canlı orqanizm hesab edirdi. Hər bir dövlətin inkişafını onun məkanca genişləndirilməsi ilə eyniləşdirirdi.

0. dövlətin siyasi mövqeyinin genişləndirilməsində 7 müddəanın (və yaxud qanunun) müəllifidir:

1. Dövlətin ölçüsü onun mədəni inkişafı ilə artır;
2. Hər bir dövlətin məkanca artması - ideologiya sahəsi, istehsal, kommersiya fəaliyyəti və digər sahələrin inkişafı ilə şərtlənməlidir;
3. Dövlət az əhəmiyyətli siyasi vahidləri mənimsəməklə, udmaqla genişlənir;
4. Sərhəd dövlətin ucqarlarda yerləşən orqanı hesab edilir;
5. Dövlət öz məkanını genişləndirmək siyasəti həyata keçirməklə öz inkişafı üçün əlverişli sahələri ələ keçirir;
6. Nisbətən zəif xalqların, başqa xalqların dilinin mənimsəməsi meylinin artması da dövlətin ərazisinin artmasına zəmin yaradır;

7. Çox vaxt ilk genişlənmə həvəsi xaricdən gəlir.

Aşağı sivilizasiyada olan xalqların ərazisi hesabına ərazilərini artırırlar.

F.Ratsel Almaniyada **“həyat məkanı”** deyilən bir anlayış da işlətmişdir. Bununla da sübut etmək istəyirdi ki, Almaniyada əsas iqtisadi və siyasi problem sərhədlərin ədalətsiz müəyyən edilməsidir. F.Ratsel **“dəniz məkanı”** amilinin də siyasətə təsirini təhlil etmişdir.

F.Ratselin fikirlərini **İsveçdə** dövlət xadimi **Rudolf Çellen** (1846-1922) davam etdirmişdir. O, Skandinaviya xalqlannm Almaniya ilə yaxın ittifaqda olmasının tərəfdarı idi. O, da F.Ratsel kimi dövlətə canlı bir orqanizm kimi baxırdı. Lakin F.Ratsel dövlətin inkişafına fiziki-coğrafi baxımdan yanaşdığı halda, R.Çellen mədəniyyət, iqtisadiyyat, xalq, idarəçilik forması kimi amilləri də tədqiq edirdi.

Almaniyada geosiyasi ideyamn yarandığı vaxtdan mürtəce xarici siyasət yeridilməsini əsaslandırmağa çalışmışlar. XX əsrin əvvəllərində F.List, K.Bruka, K.Frans, F.Nauman və digərləri **“Orta Avropa”** ideyasım irəli sürmüşlər. Burada əsas məqsəd ondan ibarət idi ki, Almaniyanın nəzarəti altında Mərkəzi və Şərqi Avropa dövlətlərinin ittifaqı yaradılsın. Belə bir ittifaq Almaniyanın **“həyat məkanı”** problemini həll etməyə zəmin yaradardı.

Birinci Dünya Müharibəsindən sonra Almaniyada geosiyasət ideyasım davam etdirənlərdən biri də **Kari Xausxofer** (1869-1946) olmuşdur. O, belə hesab edirdi ki, hər bir dövlət öz həyat məkanını genişləndirməyə səy göstərməlidir. Ancaq bu cəhət onun hərəkətverici qüvvəsi ola bilər. O, böyük dövlətlər tərəfindən kiçik dövlətlərin ələ keçirilməsini qanunauyğun sayırdı. Beləliklə də, böyük dövlətlər dalıa dinamik inkişaf edər və öz müstəqilliyini saxlamaq qabiliyyəti artar. Qonşulardan asılı olmaz. Beləliklə o **avtorkiya** siyasətinə müsbət hal kimi baxırdı.

K.Xausxofer Münhen (Almaniyada) Geosiyasət İnstitutuna və **“Geosiyasət jurnalı”na rəhbərlik edirdi.** Almaniyanın ərazisinin genişləndirilməsini nəzəri cəhətdən əsaslandırmağa çalışırdı. On illərlə Almaniyanın xəritəsini düzəldib nümayiş etdirirdi. **İnsanların beynində yeni sərhəd hissi oyadırdı.**

O,bir çox digər geosiyasətçilər kimi kontinental və okean ölkələri arasında daimi münaqişə olması ideyasım müdafiə edirdi. Belə hesab edirdi ki, okean ölkələrinin sonu çatıbdır, gələcək-quruyollu ölkələrə və xüsusilə Almaniyaya məxsusdur.

O,belə geosiyasi tədqiqatları ilə panideya* fikri yaratmışdı.

Bununla da gələcəkdə əsasən bir neçə regionun hökmranlığını saxlayırdı. Əvvəlcə o, **panamerika; panasiya; parı- rusiya; pansakitokean, panislam** və **panavropa** ideyası ilə çıxış edirdi. Gördü ki, necə deyərlər hökmranlığın iştirakçısı çox almır, başqa bir təklif hazırladı. Burada üç böyük regionu saxlayırdı: başda **ABŞ** olmaqla **Pan-Amerika;** başda Yaponiya olmaqla **Böyük Şərqi Asiya;** və başda **Almaniya** olmaqla **Pan-Avropa.** Etiraf etməliyik ki, bu kimi ideyalar istər birinci və istərsə də İkinci Dünya Müharibələrinə səbəb oldu. İkinci Dünya Müharibələrindən sonra Almaniyanın məğlub olması ilə Kari Xausxofer özünü öldürmüşdür.

***Pan - yunan sözü. Qədim yunan mif. Meşə allahı. Buynuzlu Adam — Pan qorxusu.***

***Pan yunanca - hamısı. Hamını əhatə edən. Deməli bütün digər xalqları birləşdirməyə çağıran millətçi cərəyan.***

### 3. Böyük Britaniya geosiyasi məktəbi

Geosiyasət ideyası Böyük Britaniyada da özünə yer tapmışdır. Bu məktəbin nümayəndələrindən biri **Xalford Makinder (1861-1947)** olmuşdur. Makinder coğrafiya elmi ilə məşğul olmuşdur. O Böyük Britaniyanın siyasi həyatında fəal iştirak edirdi. Odur ki, coğrafiya ilə siyasətin qarşılıqlı əlaqəsi ilə də maraqlanırdı.

1904- cü ildə **"Tarixin coğrafi məhvəri" mövzusunda** krallığın coğrafiya cəmiyyətində məruzə ilə çıxış etmişdir. Sonra bu məruzənin mətni həmin adla məqalə kimi nəşr edilmişdir.

Makinderin geosiyasət ideyasının əsas müddəaları aşağıdakılardan ibarətdir:

1. Fiziki coğrafiya birbaşa siyasi proseslərə təsir edir;
2. Hər bir dövlətin siyasi qüdrəti onun coğrafi vəziyyətindən asılıdır;
3. Texnologiyanın inkişafı siyasi cəhətdən qüvvələrin yerləşdirilməsini dəyişir. Texnologiya fiziki aləmi dəyişdirir;
4. Dünya XX əsrdə qapalı bir sistemə çevrilmişdir.

Dünya okeanı tərəfindən əhatə olunmuş bütün quru sahələri (Asiya, Afrika və Avropa da daxil olmaqla) Makinder **"Dünya adası"** adlandırırdı.

İngilis geosiyasətçisi Feyrqriv Xartlend isə Avrasiyamn daxili hissəsini **1915-ci ildə "yer üzünün məğzi"** adlandırırdı. **Makinder** isə bu **"dünya adasını" - "tarixin məhvəri regionu"** hesab edirdi. Makinder göstərirdi ki, elə buna görə də qədimlərdə bu ərazilərə işğalçılıq orduları yeridilməsi ara vermirdi. Bütün bunlar dünya siyasətinə hərtərəfli təsir etmişlər.

O, öz fikirlərini əsaslandırmaq üçün **Tatar-Monqolların** bu ərazilərdəki hökmranlığını və imperiya yaratmalarım misal çəkir. XX əsrin əvvəllərində **Monqol** imperiyasını **Rusiya** dövləti əvəz etmişdir.

Hazırda da Rusiyanın səhra, köçəri xalqları onu əhatə edən ölkələrə hər cürə təzyiq göstərə bilərlər. Makinderə görə bu dövlətlər daxili və xarici **"aypara"** hesab edilirlər. Almaniya, Avstriya, Türkiyə, Hindistan və Çin daxili "aypara": İngiltərə, Cənubi Afrika, Avstraliya, ABŞ, Kanada və Yaponiya isə xarici "aypara"ya aid edilirlər.

Böyük coğrafi kəşflərdən sonra Xartlendin adlandırdığı **Avrasiyanın** daxili hissəsi dövlətlərinin rolu azalmış, okean ölkələrinin qiyməti yüksəlmişdir. Lakin Makinder belə hesab edirdi ki, texnologiyanın inkişafı ilə qüvvələr balansı yenə də kontinental ölkələrin xeyrinə dəyişmişdir.

1919-cu ildə Makinder **"Demokratiya idealı və reallıq"** adlı böyük bir əsər yazmışdır. Burada o, öz geosiyasi fikirlərini təhlil edirdi. O, texnologiyanın inkişafını siyasi dəyişikliyin əsas amili hesab edirdi. Texnologiyaya bir tərəfdən texniki tərəqqi kimi, digər tərəfdən isə cəmiyyətin həyatının təşkili üsulu kimi baxırdı. O, göstərirdi ki, texnologiya insanların təbiət üzərində nəzarətini təmin etmiş olur. Belə bir nəzarət cəmiyyətin təşkilində demokratik prinsiplərin saxlanmasına imkan verir.

## 4. Şimali Amerika geosiyasi məktəbi

Avropada yayılmış geosiyasət dalğası tez bir zamanda Amerikaya da keçmişdir. Amerikada bu ideyanın təşəbbüsçüsü **Aifred Mexen** (1840-1914) olmuşdur. Qeyd etməliyik ki, insanda hər hansı bir ictimai fikrin yaranması üçün onun alim olması mütləq deyildir. Aifred Mexen də bu sahədə fəaliyyət göstərən adamlardan fərqli olaraq alim deyil, **hərbi dənizçi olmuşdur.** O, dövlətin hərbi-dəniz qüdrətinin artmasına və xarici siyasətə onun təsirini geniş təhlil edirdi. A.Mexen belə bir əsər yazmışdır - **"Dəniz qüvvələrinin tarixə təsiri"** (1660- 1783). Admiral Mexenin bu əsəri XX - əsrin birinci yarısında bir çox dövlət xadimlərinin **stolüstü** kitabına çevrilmişdir. Dövlətin siyasətinə coğrafi vəziyyətin birbaşa təsirini geo

siyasətin bütün istiqamətləri üçün ümumi hal hesab edirdi. O, yazırdı ki, siyasət əsrin ruhundan asılı olduğu kimi, hakim orqanların uzaqgörənliyindən də asılıdır. Sahil boyu millətlərin tarixi isə hakim orqanların xarakterindən çox təbii şəraitin, təbii amillərin vəziyyəti ilə müəyyən edilir.

Mexen hər bir dövlətin geosiyasi potensialı və hərbi-dəniz qüdrətinin qiymətləndirilməsində aşağıdakı amilləri ön plana çəkirdi:

1. Dövlətin coğrafi vəziyyəti, dənizə çıxışın olması, başqa ölkələrlə dəniz əlaqələri, quru sərhədin uzunluğu, hərbi donanmanın vəziyyəti və s.;
2. Dəniz sahilinin vəziyyəti, limanların sayı və s.;
3. Ərazinin uzunluğu;
4. Əhalinin sayı;
5. Milli xarakter, ticarətlə məşğul olmaq qabiliyyəti, dəniz limanlarından istifadə etmək qabiliyyəti və s.;
6. Siyasi hakimiyyətin xarakteri.

Bütün bu meyarların müqabilində dövlətin dəniz qüdrəti güclü olacaqdır.

Mexen adət-ənənəsi, ruhu, coğrafi və geosiyasi istiqaməti baxımından (Avropa dövlətlərindən) İngiltərəni ABŞ-a daha yaxın hesab edirdi. Bu hər iki dövlətin ümumi məqsədi və mənafeyi ola bilər. Hər ikisi öz silahlı qüvvələrində güclü hərbi-dəniz donanmasına malik olmalıdır.

Mexen Böyük Britaniya və ABŞ-dan başqa dəniz dövlətləri sırasına Yaponiyanı, hətta Almaniyanı da aid edirdi. Mexen gələcəkdə bu dəniz ölkələrini - ABŞ, Böyük Britaniya, Almaniya və Yaponiyanın blok şəklində birləşməsini nəzərdə tuturdu. Bununla da kontinental dövlət hesab edilən Rusiya və Çinə qarşı əks qüvvə təmin edilmiş olardı.

Amerikada geosiyasət sahəsində Mexendən sonra Nikolasa Spaykmen (1893 - 1943) az-çox öz ideyalarını yaymağa səy göstərmişdir. Onun fikirlərində xarici siyasətdə güc amilinə üstünlük verilir. O, yazırdı ki, dövlətin xarici siya

sətində coğrafiya ən fundamental amil hesab edilir. Çünki bu amil ən daimi amildir. Dövlətin geosiyasi qüdrətinin müəyyənləşdirilməsində o, Mexenə nisbətən daha çox meyar-amil sadalamışdır. Bunlar aşağıdakılardır:

1. Ərazinin həcmi;
2. Sərhədlərin xarakteri;
3. Əhalinin sayı;
4. Faydalı qazıntıların mövcudluğu;
5. İqtisadi və texnoloji inkişaf səviyyəsi;
6. Maliyyə qüdrəti;
7. Etnik eynilik;
8. Sosial inteqrasiyanın səviyyəsi;
9. Siyasi sabitlik;
10. Milli ruh.

Spaykmen Avroasiyanın dünya siyasətindəki rolu məsələsini hərtərəfli təhlil etmiş və yenidən dünyada çox geniş bir bölgü aparmışdır.

Qeyd etməliyik ki, 1950-1960-cı illərdə müxtəlif səbəblərin təsiri altında Dünya siyasətində baş verən dəyişikliklər geosiyasət sahəsində də dəyişikliklərə səbəb olmuşdur. Belə ki, 1964-cu ildə Amerikada geosiyasi nəzəriyyənin tərəfdarı
S.Koen “bölünmüş dünyada coğrafiya və siyasət” adlı əsər yazmışdır. S.Koen öz fikirlərində N.Spaykmenin ideyalarına söykənsə də müəyj'^ən fərqli yanaşmaları da vardır. Bu məsələdə o, “geostrateji region” və “geosiyasi region” kimi yeni anlayışlar işlətmişdir.

“Geostrateji region” anlayışı altında daha böyük məkan sahəsi nəzərdə tutulur. Dövlətin yerləşdiyi ərazinin ümumi xarakteristikası, ümumi ticarətin istiqaməti, mədəni və ideoloji əlaqələrin ümumiliyi və s. əks olunur.

«Geosiyasi region» anlayışı isə “geostrateji region” anlayışının tərkib hissəsini təşkil edir. Coğrafi baxımdan bu anlayış nisbətən məhdud xarakterə malikdir.

V **Fəsil.**

# XX ƏSRİN 40-60-cı İLLƏRİNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN NƏZƏRİ TƏDQİQİ

1. Beynəlxalq münasibətlərdə nəzəri və praktikada siyasi idealizm.
2. ABŞ-da siyasi realizm.
3. Qərbi Avropada Siyasi realizm.
4. Beynəlxalq münasibətlərdə modemist fikirlər.

## 1. Beynəlxalq münasibətlərdə nəzəri və praktikada siyasi idealizm

Qeyd etdiyimiz kimi XIX əsrin axırları XX əsrin əvvəllərində siyasi elmlər müstəqil bir elm sahəsi kimi tədqiqat sahəsinə çevrilmişdir.

Obyektiv səbəblər üzündən bu sahənin inkişafı ABŞ-da daha çox tərəqqi tapmışdır. Dünya siyasəti və beynəlxalq münasibətlər də daxil olmaqla ABŞ alimlərinin siyasi tədqiqatları uzun müddət üstünlük təşkil etmişlər. Birinci və ikinci dünya müharibələri arasındakı müddətlərdə isə Amerika siyasətşünashğmda beynəlxalq münasibətlər nəzəriyyəsi formalaşmağa başlamışdır.

Bu nəzəriyyələrdən biri də siyasi **idealizm nəzəriyyəsidir.** Bu nəzəriyyədə **ideya, mənəviyyat, şüur birinci, maddi cəhət isə ikinci,** törəmə kimi nəzərdə tutulur.

Bu nəzəriyyənin tərəfdarlan xarici siyasətin (beynəlxalq münasibətlərin) şərhində əxlaq, etik, hüquq normalarına üstünlük verirlər.

Şimali Amerikada bu kimi xarici siyasi fikir nümayəndələrindən (XX əsrin birinci yarısında) **D.Perkins, F.Tan- nenbaum, T.Kuk, M.Mus, V.Din və şairələrinin** baxışları klassik liberalizm baxışlarına uyğun gəlirdi. Onlar iddia

edirdilər ki, ABŞ-ın xarici siyasətində azadlıq idealı, bütün dünyada demokratiya əsas xətt olmalıdır. Onlarda belə bir inam formalaşm_ışdır ki, beynəlxalq münasibətlərin demokratikləşməsi, dünya siyasətində əxlaq normalarının və ədalətin əsas götürülməsi silahlı münaqişələrə və müharibələrə son qoya bilər. Demokratik dövlətlərin dünya birliyi elə bir dünyəvi nizam yarada bilər ki, bütün münaqişələr sülh yolu ilə həll oluna bilər. Burada beynəlxalq hüquq norma və prinsipləri və beynəlxalq təşkilatlann rolunun artmlması əsas götürülürdü. Onu da qeyd etməliyik ki, ABŞ-da yaranan bu cür siyasi idealizm öz mənşəyini Avropada yaranan liberal siyasi fikirlərdən götürülmüşdür. Onlar da getdikcə təkmilləşən əxlaq- hüquq normalarını, qeyri-dövlət qurumlarının rolunu gələcəkdə əsas tənzimləyici vasitə hesab edirdilər. Bununla yanaşı idealist baxışlar real həyatda xarici siyasətdə müəyyən məqsədə nail olmaq üçün güc metodlanndan istifadə olunmasını heç də inkar etmirdilər.

1920-1940-cı illərdə Amerikanın elmi ictimai dairələrində siyasi idealizm praktikası ilə razılaşmayanlar da vardı. Məsələn, o vaxtlar (birinci dünya müharibəsi dövründə) ABŞ Birinci Dünya Müharibəsinə qarşı münasibətdə neytral vəziyyətdə idi. Lakin Almaniya hüquq, əxlaq-etik normalanm pozduğuna görə ABŞ 1918-ci ilin yazında Antantaya daxil olmuş və Almaniyaya qarşı müharibəyə başlamışdır. 1918-ci il yanvar ayının 8-də ABŞ prezidenti Vudro Vilson "14 bənddən" ibarət təkliflə Almaniya və onun müttəfiqləri ilə sülh müqaviləsi bağlamağı irəli sürmüşdü.

Bu təkliflə bütün dünya ölkələrinə müraciət etmişlər. Vilson özü etiraf edirdi ki, bu təklif V.İ.Leninin sülh haqqındakı dekretinə cavab kimi səslənir. V. Vilson idealist baxışlar əsasında müharibədən sonrakı tənzimləmə planını da təklif etmişdir. Birinci Dünya Müharibəsindən sonra ən universal beynəlxalq təşkilat olan Millətlər Birliyinin yaradılması nəzərdə tutulurdu. Məhz, elə bu kimi təşkilatlar sülh və təh

lükəsizliyi təmin etməli idi. Lakin aydındır ki, Vilsonun planı -- özünü doğrultmadı. Bu məsələ Brian-Kelioq müqaviləsinin ıprtlərinin özünü doğrultmamasmda da göstərdi.

Beləliklə - 1928-ci ildə Fransanın xarici işlər naziri A.Brian ilə ABŞ-m dövlət katibi F.Kelloq arasında olan razılaşmaya əsasən müharibələrin zərərli cəhətləri və sülh barədə sülh bəyannaməsi hazırlayaraq dünya ölkələrinə göndərmişdir. Çox tezliklə 25-dən artıq ölkə bu sülh layihəsinə qoşulmuşdur. Bu layihə (Brian-Kelloq müqaviləsi adlanır). 1927-1928-ci illərdəki bu beynəlxalq hadisələr göstərirdi ki, sülhün və normal münasibətlərin sajdanıLması üçün bütün dövlətlərin əməkdaşlığına ehtiyac vardır. Lakin sonralar - ikinci dünya müharibəsinin başlaması ilə - Almaniya, İtaliya, Yaponiya öz yanlış davranışları ilə dünyanın mənəviyyatına qara xətt çəkmişdir.

## 2. ABŞ-da siyasi realizm

İdealizm nəzəriyyəsi tərəfdaşlarının gözlədiyi, xəyali ınzularına görə birinci dünya müharibəsindən sonra müharibələrə son qoyulmalı idi. Lakin 1930-cu illərdən artıq dünyada yeni münaqişələrin abu-havası duyulmada idi. Təcavüzkarlann qarşısının alınmasının mümkün olmaması və ikinci dünya müharibəsinin başlanması ABŞ-ın siyasi hakim dairələrində xarici siyasətdə güc amilinə üstünlük verilməsi tərəfdarlannı artırmışdır.

Beləliklə, ABŞ-ın siyasi fikir nümayəndələri - beynəlxalq münasibətlər nəzəriyyəsinə siyasi realizm baxışları gətirmişlər. Siyasi realizm cərəyanına görə beynəlxalq münasibətlərin əsas subyektləri olan milli dövlətlər öz gücünə görə öz maraqlarını təmin etməlidir. Bu nəzəriyyə 1940-1980- ci illərdə elmi ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Avropa mənşəli realist baxışlar əvvəllər N.Makiavelli,
T.Qobbs və digər mütəffəkirlərə xas idi.

ABŞ-da isə bu məktəbin görkəmli nümayəndəsi **Qans Morqentau (1904-1980)** hesab edilir. **O, Almaniyada anadan olmuşdu.** Morqentau l^eynəlxalq aləmdə ABŞ-m maraqlarının ən fəal müdafiəçisi kimi çıxış edirdi. O, iddia edirdi ki, bütün başqa sahələrdə olduğu kimi **beynəlxalq münasibətdə** də əsas məqsəd hakimiyyət uğmnda gedən mübarizədən ibarətdir.

Morqentaunun fikrincə, **ancaq hakimiyyət vasitəsilə öz əqli** və insanların hərəkəti üzərində nəzarət etmək imkanı yaranır. Siyasi hakimiyyət vasitəsi ilə isə qarşılıqlı olaraq hakimiyyət başçısı ilə bütünlükdə xalq arasındakı münasibətə olan nəzarət həyata keçirilir. O, belə hesab edirdi ki, beynəlxalq münasibətlər sahəsində gedən hakimiyyət uğrunda mübarizə dünyada öz təsir dairəsinin üstünlüyünü təsdiqləmiş olur.

**Siyasi realizm mövqeyi baxımından beynəlxalq münasibətlər hər şeydən əvvəl dövlətlərarası münasibətlərdən ibarətdir. Dövlət isə öz güc imkanlarından istifadə etməklə öz maraqlarını təmin etməyə çalışır. Beləliklə müharibə və münaqişələr beynəlxalq münasibətlərin öz təbiətindən irəli gəlir. Hüquq və əxlaq normaları əsasında sülhə nail olmaq isə fərziyyədən başqa bir şey deyildir.**

**Qans Morqentau** siyasi realizmdə xarici siyasətin əsas məqsədini **«MiUi maraqda»** və **"Milli gücdə"** görürdü. Morqentau kimi Amerikada siyasi realizm məktəbinin iştiralc-çıları da bu mövqedə idilər.

Onu da qeyd etməliyik ki, ingilis dilində olan ədəbiyyatlarda **"millət"** anlayışı **"dövlət"** anlayışı ilə eyniləşdirilmişdir. Deməli, Qərb ənənəsinə və reallığına görə **milli dövlət** və **vətəndaşlıq cəmiyyəti** artıq formalaşmışdır. Ona görə də dövlət mənafeyi dedikdə **milli-dövlət mənafeyi nəzərdə tutulur.** Siyasi realizm məktəbinin nümayəndələri bu mənafeləri iki yerə ayırırlar: **daimi** (yəni ən əsas) və **keçici** (ara) mənafelər.

**Əsas - daimi** mənafelərə aşağıdakılar aid edilir: ..

1. “Milli təhlükəsizlik maraqlan”. Burada ərazinin, əhalinin və dövlət müəssisələrinin xarici təhlükədən qorunması nəzərdə tutulur;

2. “Milli-iqtisadi maraqlar”. Burada xarici ticarətin inkişafı, investisiyaların artımı. Xaricdə olan xüsusi kapitalın mənafelərinin qorunması və s. nəzərdə tutulur;

3. **“Dünya nizamının dəstəklənməsi marağı”.** Burada müttəfiqlərlə olan qarşılıqlı münasibətlər, xarici siyasi kursun seçimi və s. nəzərdə tutulur.

**İkinci dərəcəli** və yaxud ara maraqlarda isə aşağıdakıları nəzərdə tutmaq olar:

1. «Yaşama marağı». Dövlətin özünün mövcudluğu qorxusunun aradan qaldırılması;

2. «Həyat marağı». İnsanlar üçün təhlükə yaradan hər hansı bir amilin aradan qaldırılması. İnsanlar üçün firavan həyat şəraiti yaradılması;

3. «Nisbətən daha zəruri maraqlar». Dövlət üçün ciddi ziyan vura biləcək hər hansı bir potensial inkişafının aradan qaldırılması;

4. «Kənar - ucqar və yaxud kiçik maraqlar». Bu kimi maraqlar lokal xarakterli problemlərlə bağlıdır.

Xarici siyasətin əsas məqsədinin, digər tərəfi olan **“milli güc”** dedikdə **“dövlətin qüdrəti”, “dövlətin xarici iqtisadi potensialı”** nəzərdə tutulur. Məhz bu potensialın köməkliyi ilə dövlət özünün xarici siyasətinə nail ola bilər.

**“Milli güc”** anlayışına daxil olan müəyyən elementlərin araşdırılmasında müharibədən sonrakı illərdə ABŞ-ın realistləri geosiyasi fikirlərin təsiri altına düşürlər. Bu təsir altında olan **Morqentau “Milli güc”** anlayışına aşağıdakı elementləri daxil edirdi:

1. Coğrafiya; 2. Təbii ehtiyatlar; 3. İstehsal gücü; 4. Hərbi potensial; 5. Əhalinin sayı; 6. Milli xüsusiyyətlər; 7. Millətin mənəvi ruhu; 8. Diplomatiyanın keyfiyyəti. Morqentau siyasətdə hüquq və əxlaqın rolunu heç də azaltmırdı. Əksinə o.

təsdiqləyirdi ki, siyasi realizin siyasi cəhətdən hərəkət etməyin əxlaqi əhəmiyyətini heç də azaltmır.

## 3. Qərbi Avropada siyasi realizm

İkinci dünya müharibəsindən sonrakı illərdə Qərbi Avropa dövlətlərində siyasi elmin inkişafında Amerika siyasətşünaslığının böyük rolu olmuşdur. Siyasi elmlərdə və eləcə də beynəlxalq münasibətlər sahəsində olan araşdırmalarda Amerika siyasətşünaslarmın nəzəri və metodiki yanaşmaları Avropa tədqiqatçıları arasında da davam etdirilirdi.

**Siyasi realizm məktəbi ilk əvvəl ABŞ-da, sonra isə Qərbi Avropada yaydınışdır.**

Qərbi Avropa siyasətşünasları beynəlxalq siyasətdə bu və ya digər hadisəni araşdırmaqda əsasən T.Morqentaunun və Amerikamn digər realistlərinin fikirlərini bölüşürdülər.

Ancaq dünya siyasətini öyrənən Fransa məktəbinin nümayəndəsi **sosioloq, siyasətşünas və filosof Raymon Aronun** özünəməxsus yanaşması vardı. Arona görə xarici siyasət üçün dövlət iki **rəmzi fiqura şəklində çıxış edir - diplomat və əsgər.**

**Çünki dövlətlərarası münasibətlər müharibələrlə sülhün növbələşməsindən ibarətdir.** Hər bir dövlət münasibətlərdə ancaq **öz gücünə ümid etməlidir.** Odur ki, həmişə öz qüdrətini artırmağa çalışmalıdır.

**Aron** dünya siyasətinin araşdırılmasında bəzi məsələlərə **sosioloji** baxımdan yanaşırdı. O, ənənəvi və sənaye cəmiyyətlərində beynəlxalq münasibətləri fərqləndirirdi. O, göstərirdi ki, ənənəvi cəmiyyətdə iqtisadiyyatın əsasını geridə qalmış kənd təsərrüfatı təşkil edir.

Burada əsas sərvət torpaq və qızıl hesab edilirdi. Bu sərvəti əldə etmək üçün hərbi qüvvədən istifadə edilməsi əsas götürülürdü. Sənaye cəmiyyətinə keçidlə əlaqədar olaraq elm və texnikadan istifadə etməklə ümumi sərvəti artırmaq imkam

yaranır. Burada ayn-ayrı millətlərin və siniflərin əməkdaşlığına zəmin yaranır. Belə şəraitdə müharibələr mənasız və sülh isə hamının mənafeyinə uyğun qiymətləndirilir.

Beləliklə Aron sanki Amerika siyasətini modernləşdirməyə yaxınlaşmış olur.

## 4. Beynəlxalq münasibətlərdə modernist fikirlər

1950-ci illərin ortalanndan **Modernizm** nəzəriyyəsi meydana gəlmişdir. Bu nəzəriyyə demək olar ki, beynəlxalq münasibətlərin öyrənilməsində siyasi realizmə əks mövqedə olan bir nəzəriyyə idi.

Bu kimi yeni istiqamətin yaranması bəzi səbəblərdən irəli gəlmişdir:

1. Texnoloji və elmi tərəqqinin təsiri altında beynəlxalq münasibətlərin **nəzəri və empirik** cəhətdən öyrənilməsi imkanları artmışdır;
2. 1930-cu illərin axırlarından soyuq müharibənin közərtisi zəifləyirdi. Bu səbəbdən də dünya siyasətində də dəyişiklik özünü göstərirdi;
3. Amerika siyasi elminə yeni, gənc alimlər nəsli gəlmişdi.

Məhz **modernizm ideyası Morton Kaplan, Kari Fridrix, Kari Doyç kimi** alimlərin adı ilə bağlıdır. Bu alimlər ictimai və təbiət elmlərindən qismən istifadə etməklə beynəlxalq münasibətlər nəzəriyyəsinə yeni ideya gətirməyə çalışmışlar. O dövrdə dəbdə olan kibernetika, ümumi sistem nəzəriyyəsi, sosioloji və siyasi tədqiqatlarda riyazi təhlil kimi sahələrə daha çox fikir vermişlər. Onlar beynəlxalq həyatda yeni hadisələri nəzərə ala bilməyən siyasi realizm məktəbini tənqid edirdilər. Onlar realistlərin əsas güc amili fikirlərini, milli maraq amili anlayışını da tam qəbul etmirdilər.

**1955-ci ildə Ç.Makkleland "Ümumi sistem nəzəriyyəsi"** ideyası ilə göstərirdi ki, beynəlxalq münasibətlərə sistem

halında baxmaq lazımdır. Bu sistemin hər bir elementi bütöv dövlətin ümumi davranışına təsir edir. Sonra bu fikirləri Amerika siyasətşünaslarından **M.KapIan, C.Rozenau, D.Sinqer** və digərləri davam etdirmişlər. Onlar qeyd edirdi ki, hər bir beynəlxalq sistemin əsas məqsədi daxili sabitliyi saxlamaqdan ibarətdir.

**Modernistlər** beynəlxalq sistemin ümumi vəziyyətini müəyyən etmək üçün iki əsas götürmüşlər:

1. Bir-birindən asılı olmayan amillər:

- beynəlxalq münasibətlərin əsas subyektləri (dövlət, beynəlxalq təşkilatlar);
- beynəlxalq sistemin quruluşu (müxtəlif növ siyasi ittifaqlar və qruplaşmalar);
- sistemin əsas elementlərinin qarşılıqlı təsir formaları və növləri (iqtisadi, hərbi, diplomatiya kanalları və s.).

2. Bir-birindən asılı olan amillər:

- dövlətin qüdrəti (başqa subyektlərə təsir etmək qabiliyyətinə malik olması);
- öz gücünü idarə edə bilmək qabiliyyəti (bir dövlətin digər dövlətə güc tətbiq etməsi);
- beynəlxalq sistem və onlann dəyişməsində mövcud quruluşun və proseslərin sabitliyi məsələsi.

Onlar bütün bu kimi dəyişmələrin əsasında beynəlxalq sistemdə riyazi model yaratmağa çalışmışlar.

**1960-cı illərdə** Amerikanın daha məşhur siyasətşünası **Ceyms Rozenau** xarici siyasətə təsir edən əsas amilləri beş qrupa bölmüşdü:

1. Fərdi amillər (şəxsi keyfiyyət, talant, siyasi xadimlərin təcrübəsi və s.);
2. Müəyyən rola malik olmaq amili;
3. Hökumət qurumları amili (onların səlahiyyət dərəcəsi);
4. İctimai amillər (cəmiyyətin əsas dəyərləri, milli birlik səviyyəsi, iqtisadi inkişaf səviyyəsi və s.);

5. Digər amillər - coğrafi reallıq, ideoloji cəhətlər, hökumətdə, rəhbərlikdə olan sabitlik və s.

Əlbəttə, bütün bunlar **C.Rozenaunun** subyektiv fikirləri idi.

Modemizm nəzəriyyəsinin nümayəndələrindən biri də ingilis siyasətşünası N.Forfard olmuşdur. O, 1970-ci illərdə göstərmişdir ki, dövlət xadimləri xarici siyasi qərar qəbul etdikdə aşağıdakı 6 meyan əsas götürməlidirlər:

1. Milli birliyin saxlanılması (müstəqil dövlətin mövcudluğumm təmin edilməsi);
2. Milli təhlükəsizliyin təmin edilməsi (ilk növbədə hərbi sahədə);
3. Beynəlxalq münasibətlər sistemində öz milli dövlətçilik rolunun, mövqeyinin saxlanılması;
4. Etibarlı olmaq meyarı;
5. Beynəlxalq standartlann saxlanılması, əxlaq və beynəlxalq hüquq normalarını gözləmək;
6. Qabaqcıl - nümunəvi olmaq.

Əlbəttə, bu kimi yanaşmalar bir çox hallarda o qədər də ümumbəşəri xarakter ola bilməmişdi. Vaxt keçdikcə moder- nizm ilə realizm arasında olan fərqlər də silinmişdir. Daha yeni müasir yanaşmalar yaranmışdır - yeni liberalizm, yeni realizm və s.

VI Fəsil.

# SOYUQ MÜHARİBƏDƏN SONRA BEYNƏLXALQ MÜNASİBƏTLƏR BARƏDƏ NƏZƏRİ FİKİRLƏR

1. F.Fukuyamm «Tarixin sonu» fikri.
2. Sivilizasiyaların toqquşması.
3. Z.Bjezinskinin geosiyasi fikirləri.
4. İ.Vallerstaymn dünyanın sistem halında təhlili.

## 1. F.Fukuyamm "Tarixin sonu" fikri

Beynəlxalq münasibətlər nəzəriyyəsi siyasi elmin bir bölməsi olmaqla formalaşmış və iki qütblü dünya şəraitində inkişaf etdirilmişdir. Əlbəttə bu vəziyyət beynəlxalq siyasi tədqiqatlara olan ümumi təsəvvürlərə, baxışlara təsir etmişdir. Alimlərin bir qismi belə hesab edirdi ki, beynəlxalq münasibətlər sistemində dəyişiklik yaranacaq, çoxqütblü sistem əmələ gələcək. ABŞ və SSRİ əvvəlki kimi hakim rol oynayacaqlar.

Hələ 1795-ci ildə fransız filosofu Kondorse (1743 - 1794) dünyada müharibələrin, bərabərsizliyin, istibdadın aradan qaldınimasmı arzulayardı. Elmin, təhsilin, əqlin yaradıcı gücündən bəhs edirdi. Gələcək beynəlxalq cəmiyyəti zorakılıqdan, mənəviyyatsızlıqdan azad bir sistem kimi təsvir edirdi. Bu liberalizm ideyaları fukuyamada öz əksini tapmışdır.

Birinci dünya müharibəsi qurtardıqdan sonra məlum oldu ki, müharibə milyonlarla insana aclıq və ölümdən başqa heç nə verməmişdir. Müharibələrin qarşısını necə almaq, onun əsas səbəblərini araşdırmaq ön plana çəkilirdi. Vudro Vislonun (1913 - 1921) rəhbərliyi altında Liberalizm ideyaları daha da genişlənirdi. Liberalizm arasında debat gedirdi. Kommunist sisteminin dağılması Liberalizmin nüfuzunu artırırdı. Elə həmin dövrdə Amerika politoloqu Frensisi Fukuyama «Tarixin

sonu və Sonuncu insan» adlı əsərində göstərir ki, SSRİ-nin dağılması nəticəsində Liberal demokratiyanm ciddi rəqibi aradan çıxmışdır. Bu bəşəriyyətin ideoloji inkişafının sonudur və **«Hakimiyyətin son formasıdır». «Soyuq müharibənin» sonu, «İdeal dövlətin». Liberal kapitalizmin zəfəridir.** Fukyamaya görə Şərq-Qərb qarşıdurmasının başa çatması göstərir ki, Liberal kapitalizm model kimi yıxıla bilməz. O, əmin olduğunu bildirir ki, bütün xalqlar Liberal demokratiya istiqamətində inkişaf edirlər.

Fukuyamanm arqumenti Liberal Kapitalizmin Marksizmə üstün gəlməsindən ibarətdir.

Demokratik sülh nəzəriyyəsinə əsasən, demokratik dövlətlər bir-biri ilə müharibə apanrlar. Onlar öz aralarında yaranan ziddiyyətləri diplomatik sülh yolu ilə həll edirlər. Amerika politoloqu Robert Dal sülh yaradılmasında demokratiyanı çox mühüm bir amil hesab edir.

Onu göstərmək kifayətdir ki,-1945-ci ildən 1989-cu ilədək dünyada baş verən 34 hərbi münaqişədən heç biri demokratik ölkələr arasında olmamışdır. Hətta o, qeyd edirdi ki, bir-birinə münasibətdə demokratik ölkələr hərbi gücdən istifadə etmirlər.

Demokratik sülh nəzəriyyəsi 1990-cı illərdə Qərb ölkələrində və xüsusilə ABŞ-ın elmi dairələrində geniş yayılmışdır. 1994-cü ildə prezident Bili Klinton ABŞ KOnqresinə müraciətində də demokratik sülh nəzəriyyəsinə üstünlük verilməsini nəzərdə tuturdu. Bu nəzəriyyənin tərəfdarları qeyd edir ki. Liberal demokratiya Qərb Sivilizasiyasının dəyəri kimi qeyri-Qərb xüsusilə müsəlman və Konfisian cəmiyyətlərinə yeridilə bilməz.

Lakin son dövrlərdə dünyada baş verən gözlənilməz hadisələr, dəyişikliklər dünya siyasəti və beynəlxalq münasibətləri tədqiq edən alimləri mat qoymuşdur. Bu həm də onları real vəziyyəti düşünməyə və dünyada olan dəyişiklikləri izləməyə vadar etmişdir. Soyuq müharibədən sonra 1980-1990-

**cı illərdə** dünyada baş verən siyasi dəyişiklikləri araşdıran alimlərdən biri Amerika diplomatı Frensis Fukuyamı olmuşdur. O, **"Tarixin sonu"** adlı əsər yazmış, soyuq müharibə şəraitindəki münaqişədə iki ideologiya olduğunu göstərmişdir - **Liberal demokratiya** və **kommunizm ideyası.**

**Kommunizm uduzmuşdur.** Dünyada liberal demokratiyanın təntənəsi üçün real - geniş yol açılmışdır.

Beləliklə onun fikrincə **"Tarixin sonu"** çatmışdır. Münaqişəsiz bir vəziyyət yaranmışdır. Əlbəttə dünya hadisələrini dərk edən, bugünkü vəziyyəti görən hər bir şəxs (hətta adi adamlar) Fukuyamın bu fikirlərinin yanlış olduğunu görür.

Bizim fikrimizcə belə qəti və nikbin ideyalar sosializm sisteminin dağılması sevincindən irəli gəlmişdir. (C.K.)

## 2. "Sivilizasiyaların toqquşması" fikri

Amerikanın ən mötəbər alimlərindən biri **Samyuelya Xantinkton** 1993-cü ildə **"Forin affers"** adlı xarici siyasi jurnalda **"Sivilizasiyaların toqquşması"** adlı məqalə dərc etdirmişdir. O, belə bir fikir irəli sürmüşdü ki, beynəlxalq münasibətlər tarixinin müxtəlif mərhələlərində dünya siyasətinin dinamikası müxtəlif növ münaqişələrlə müəyyən edilirdi. **Deməli münaqişələr dünya siyasətinin dinamikasını müəyyən edir.**

Əvvəllər münaqişələr monarxlar arasında yaranırdı.

Böyük fransız inqilabından' sonra münaqişələr millətlər - dövlətlərarasmda baş vermişdir.

**1917-ci ildə** Rusiyada inqilabın baş verməsi ilə dünya ideologiya baxımından və sosial-siyasi prinsiplər baxımından parçalanmışdı. Bu parçalanma demək olar ki, **soyuq müharibə** dövrü qurtaranadək münaqişələrin əsas mənbəyi olmuşdur.

***I789-J794-CÜ illərdə Fransada feodal mütləqiyyətinə qarşı burjuaziya demokratik inqilabt baş vermişdir. l792-ci ildə respublika elan edilmişdir.***

Lakin **S.Xantinqton** belə hesab edir ki, bu münaqişələrin hamısı qərb sivilizasiyası daxilində baş verən münaqişələr olmuşdur. Deməli soyuq müharibələrin qurtarması ilə beynəlxalq siyasətin inkişafının qərb mərhələsi də başa çatmış olur. B.urada əsas diqqət qərb ilə qeyri qərb sivilizasiyaların qarşılıqlı əlaqəsinə yönəldilir.

**S.Xantinqton sivilizasiya dedikdə sadəcə inkişaf deyil, cəmiyyətin ən yüksək** səviyyədə sosial-mədəni inkişafını, insanların yüksək mədəni səviyyədə olmasım nəzərdə tutur.

Hər bir sivilizasiyanın obyektiv əlaqələri vardır. **Bunlardan tarixin ümumiliyi, dini əlamətlər, dil, adət-ənənə müxtəlifliyi, sosial institutların** fəaliyyət xüsusiyyətləri, insanın özünün subyektiv səviyyəsi və s. göstərmək olar.

**S.Xantinqton 8 sivilizasiya fərqləndirmişdir; qərbi xristian və pravoslav-xristianlıq; islam; Konfusiyaçılıq; Latın Amerikası; İnduslar; Yapon və Afrika sivilizasiyaları.**

Onun ideyalarına görə beynəlxalq münasibətlərdə sivilizasiya amili həmişə güclənməkdədir.

**Belə ki:** 1. Sivilizasiyalar arasındakı fərqlərin əsasını din təşkil edir. Bu fərq yüz illərlə qərarlaşır. Bu fərq siyasi ideologiya və siyasi rejim kimi cəhətlərdən daha əsasdır.

2. Müxtəlif sivilizasiya mənsubiyyətinə malik xalqlar arasında qarşılıqlı əlaqələr artır. Bu isə sivilizasiya haqqında özünü dərk etməyi yüksəldir.

3. Sivilizasiyada dinin rolu artır. Hətta bu özünü fundamental hərəkatlarda da göstərir.

4. Qərb sivilizasiyasının qeyri qərb sivilizasiyasına təsiri zəifləyir. Bu isə hər bir yerli sivilizasiyanın özünəməxsusluğunun artmasını göstərir.

5. Sivilizasiyada iqtisadi və siyasi cəhətlərə nisbətən mədəni dəyişiklik az baş verir. **Məsələn, komunistlər demokrat ola bilərlər. Varlılar kasıba və yaxud əksinə**

**kasıblar varlılara çevrilə bilərlər. Lakin Ruslar Eston ola bilməzlər. (S.Xantinqton)**

6. İqtisadi regionçuluğun özü də sivilizasiya amili ilə bağlıdır.

Deməli hər bir iqtisadi təşkilatın, inteqrasiya qruplaşmalarının əsasını mədəni- dini oxşarlıq, yaxınlıq təşkil edir.

S.Xantinkton soyuq müharibədən sonra sivilizasiya amilinin dünya siyasətinə təsiri problemini **"qardaş ölkələr"** anlayışının yaranmasında da görürdü. Bu cəhət dövlətlərara-smdakı ideoloji-siyasi yaxınlığı deyil, **sivilizasiya yaxınlığını göstərir.** O, belə nəticəyə gəlir ki, son dövrlərdə yaranan münaqişələrin əksəriyyəti sivilizasiyalarda olan kəskin fərqlərlə bağlıdır. O, göstərir ki, qərb ilə qeyri qərb sivilizasiyalan arasında da münaqişələrin olması zəruridir. O, Konfusiya - islam dövlətləri yaxınlığını qərb üçün təhlükəli hesab edir. Məsələn, o göstərir ki, **Türkiyə, Meksika, Rusiya öz adət- ənənələri, mədəniyyəti, tarixi baxımından qərb ilə heç bir yaxınlığı olmadığı halda özlərini Qərbə istiqamətləndirirlər. O, 1996-cı ildə** (öz keçmiş məqaləsini genişləndirərək) **"Sivilizasiyaların toqquşması və dünya nizamının dəyişdirilməsi"** adlı kitab dərc etdirmişdir. Burada Qərb-xristian və islam sivilizasiyaları arasındakı münasibətlərin xarakterinə çox yer vermişdir. Bu iki sivilizasiya arasındakı münasibətlərin çox qədim kökə malik olduğunu göstərmişdir.

Məsələn, ərəblərin Şimali Afrikada (Əlcəzair, Misir, Liviya, Mərakeş, Sudan, Tunis və s.) istilası. Ərəblərlə İspanlar arasında olan münaqişələr. Kiçik Asiya, Balkan və Şimali Afrikada Osmanlı imperiyasının yaranması, **1453-cü ildə Konstantinopolun'** türklər tərəfindən zəbt edilməsi və yüzlərlə belə hadisələri misal çəkmək olar. Böyük coğrafi kəşflər dövrünün

' *Komtant'mpol - Vizantiya imperiyasının paytaxtı 1204-cü ildən Latın imperiyasının paytaxtı. 1261-ci ildən yenidən Vizantiya imperiyası geri almışdır.*

başlanması və qərbi xristian dünyasının modernləşməsi ilə **islam** ilə qarşıdurma **Qərbin** xeyrinə dəyişməyə başlamışdır.

Avropa dövlətləri Asiya və Afrikada Avropadan kənar bir çox ərazilərdə öz nəzarətlərini genişləndirmişlər.

**S.Xantinqton** göstərirdi ki, **1757-1919-cu illərdə** qeyri müsəlman hökumətləri **92** müsəlman ərazisini zəbt etmişdir. **1820-1929-cu illər** arasmdakı dövrdə dövlətlərarasmdakı müharibələrin əksəriyyəti müxtəlif dinlər və əsasən **xristianlıqla islam** arasında olmuşdur. XX əsrin axırlanndan xristian və müsəlman sivilizasiyaları arasında olan münaqişələrin əsas səbəblərini Xantinqton **S amil ilə əlaqələndirir:**

1. Müsəlman əhalisinin sürətlə artması işsizliyə səbəb olur. Gənclər qərbə köçməli olurlar.
2. İslamın oyanması müsəlmanlara imkan verirdi ki, öz dəyərlərinə, öz sivilizasiyalarına xüsusi xarakter versinlər.
3. Qərbin öz dəyərlərinə ümumi xarakter verməsi də (hərbi və iqtisadi üstünlüyü. Müsəlman dünyasında olan münaqişələrə qarışması və s.). müsəlmanlar arasında narazılıq yaradır.
4. Kommunizmin dağılması nəticəsində qərb üçün və islam üçün ümumi düşmən də yox olmuşdur. Odur ki, müəyyən təhlükəni də bir-birində görürlər.
5. Qərbin və müsəlman dünyasımn nümayəndələrinin yaxm əlaqədə olması onlann öz xarakterindəki fərqi görməyə imkan verir. Bu isə onlann hüququnun məhdudlaşmasında azlıq təşkil edir. Sivilizasiyanın ədalətsizliyini başa düşməyə zəmin yaradır.

Əlbəttə S.Xantinqtonun fikirləri ilə banşmayan alimlər də az deyildir. Belə fikirlər müsəlmançılığa qarşı olan baxışları artıra bilər. Bəzi alimlər münaqişələrin səbəbini sivilizasi- yalardakı fərqdə, dini fərqdə görmürlər. Məsələn, **Rusiya ilə Slavyan xalqları** və Gürcüstan arasındakı münasibətlər heç də islam sivilizasiyası olan Azərbaycan ilə olan münasibətlərdən yaxşı deyildir.

## 3. Z.Bjezinskinin geosiyasi fikirləri

Amerikada tanınmış siyasətçi, sosioloq, dövlət xadimi **Zbiqnev Bjezinskiy** də (1928 təvəllüdlü) soyuq müharibədən sonra beynəlxalq münasibətlərin tədqiqinə geniş yer ayırmışdır, S.Xantinqtondan fərqli olaraq Bjezinskiy beynəlxalq münasibətlərin tədqiqinə sivilizasiya baxımından deyil, **geosiyasi prinsiplər baxımından** yanaşmışdır. O, 1993-cü ildə **XXI əsrin astanasında nəzarətsizlik və nizam-intizamsızlıq barədə bir kitab** yazmışdır. Göstərmişdir ki. Sovet İttifaqının dağılması Avrasiyanın mərkəzində geosiyasi boşluq yaratmışdır. Bu isə postsovet geosiyasi məkanında münaqişələrin əsas səbəbini təşkil edir.

Bir tərəfdən **İslam** amilinin fəallaşması, digər tərəfdən isə Yaxın Şərq regionunda vəziyyətə ABŞ-ın nəzarət edə bilməməsi böyük qeyri sabitlik zonası yaranmasına səbəb olur. Bu zona **Cənubi-Şərqi Avropanı, Orta Şərqi, Fars körfəzini** və **keçmiş Sovet İttifaqının** cənub hissəsini əhatə edə bilər. Bu təhlükə arta bilər, başqa ölkələr, o cümlədən Çin də bu münaqişəyə cəlb oluna bilər.

**Bjezinskiy Rusiyanın** imperiya siyasətinin yenidən yaranmasından daha çox ehtiyatlanır.

Odur ki, **Ukrayna** respublikasına xüsusi rəğbətlə yanaşır. Ukraynada müəyyən çətinliklər yarandıqda ona köməklik göstərməsini təşkil edirdi. Bu yolla da Ukraynanın Rusiya ilə yaxmlaşmasımn qəti əleyhinə siyasət yürüdülməsinə üstünlük verir. **Bjezinskiy** bu sahədə praktiki addımlar da atmışdır. Onun oğlu Kiyevdə Amerika səfirliyində işləyir.

**Bjezinskiy** mülahizələrinə görə Rusiya imperiyasımı! bərpa olunmasına maneçilik göstərilməsində postsovet geosiyasi məkanında **Ukraynadan sonra Azərbaycan** və **Özbəkistan** da böyük rola malikdir. Azərbaycan Xəzər neftinin çıxarılmasında və nəql edilməsində nəzərə çarpacaq dərəcədə əhəmiyyət kəsb edir.

O, Bakı-Ceyhan neft kəmərinin (Rusiya ərazisindən

keçmədən) çəkilişinin tərəfdarı kimi çıxış edərək, Dağlıq Qarabağ münaqişəsinin həllində ABŞ-m fəal iştirakına da üstünlük verir. 1990-cı illərin axırlarında Bjezinskiy dəfələrlə iddia edirdi ki, Şimali Qafqaz Rusiyadan ayrı olmalıdır. Bununla da Rusiyanın ərazi bütövlüyünün pozulmasına çalışmışdır.

O, eyni zamanda **Özbəkistanın** rolunun dəyişməsinə də ümid bəsləyir. Qeyd edir ki, Özbəkistan postsovet Mərkəzi Asiyasında aparıcı rola malik ola bilər.

Bununla da Rusiya imperiyasının yaranmasına maneçilik törədə bilər.

Özbəkistan o regionda daha çox əhalisi olan ölkədir. Orta Asiyanın əsas tarixi - mədəni mərkəzləri oradadır. Daha ənənəvi dövlətçiliyə malikdir və s.

## 4. LVallerstaynın dünyanın sistem halında təhlili

**Amerika sosioloqu Immanuila Vallerstayn** beynəlxalq münasibətlərin araşdırılmasında S.Xantiqtondan və Bjezinskidən fərqlənir. Belə ki, o iqtisadi münasibətlərin roluna da üstünlük verir. Onun xarici siyasi fikirləri **yeni Marksist** fikirlər kimi səslənir. **Vallerstayn** siyasətin əsas qanunauy- ğımluğunu **iqtisadiyyatda** görür. Beynəlxalq münasibətlərin əsasını da **iqtisadi münasibətlərdə** görüi'. Ö öz təhlilində dünyanı sistem halında götürür. Müasir dünya sistemini kapitalist dünya iqtisadiyyatı ilə eyniləşdirir.

O, bu vahid dünya sistemi və yaxud kapitalist dünya iqtisadiyyatının (sistem halında) tarixini **1500-cü illərdən götürür.** Bu sistemdə hər bir dövlət müəyyən mövqeyə malikdir və bu mövqeyi dəyişmək olmaz.

Dünya kapitalizmi və yaxud kapitalizm dünyasının məntiqi ondem ibarətdir ki, dünya əsas - **mərkəz və kənar (ucqar) ölkələrə bölünür.** Bir qayda olaraq mərkəz həmişə müəyyən imtiyazlara (üstünlüyə) malikdir. Bu proses daimi təkrarlanır. Bu mərkəz - özək adlanan dövlətlər kapitalist dün

ya sistemi - kənar-ucqar dövlətləri istismar etməklə yaşaya bilərlər. Belə bir qayda heç zaman dəyişməyəcək. Çünki, bu, dünya və iqtisadiyyat anlayışının öz mahiyyətindən irəli gəlir. Mərkəz və kənar adlanan dövlətlərdən başqa **yarı kənar** dövlətlər də vardır. Vallerstayna görə də belə bir **yan kənar** dövlətlərdən biri Rusiyadır. Pmsiya **I Pyotr (1672-1725)** və **II Ekaterinanın (1729-1795)** vaxtından keçirilən islahatlara baxmayaraq Mərkəz dövlətlər sırasına daxil ola bilməmişdir. Bununla yanaşı Rusiya aparıcı dövlətlərin müstəmləkəsi sıralarına da düşməmişdir.

**Dünya sistemində Rusiyanın əsas rolu və yerinin müəyyən edilməsində onun geosiyasi qüdrəti və hərbi gücü əsas götürülmüşdür.**

Ancaq bu iki amil Rusiya ilə hesablaşmağa və ona **«qüdrətli dövlət»** statusu verilməsinə imkan yaratmışdır.

Lakin **Vallerstayn** belə hesab edirdi ki, heç Sovet hakimiyyəti illərində də elə bir vəziyyət dəyişikliyi olmamışdır. Ayrı-ayrı dövlətlərdə və yaxud qrup dövlətlərdə olan müəyyən dəyişikliklər dünya sisteminin fundamental xüsusiyyətinə elə bir təsir edə bilmir. Onun fikrincə dünya iqtisadi inkişafının əsas məntiqi kapitalizmin bazar qanunları ilə müəyyən edildiyi halda dünya sosializm sistemi də elə bir rola malik deyilmiş.

Soyuq müharibə dövrünə, onun yekununa və beynəlxalq münasibətlərin inkişaf perspektivlərinə yanaşma forması da özündən əvvəlki siyasi baxışlardan fərqlənir. O, göstərir ki, **ABŞ 1945-ci ildə ən qüdrətli inkişaf nöqtəsinə çatmışdı.**

Dünya-mərkəz sistemində yeganə dövlət idi ki, müharibədən salamat çıxmış dünya iqtisadi və siyasi liderinə çevrilmişdir. Amerika iqtisadiyyatının gələcək fəaliyyəti və inkişafı üçün dünya mərkəz sisteminin digər hissələrini də bərpa etmək və saxlamaq lazım gəlirdi. Bu da **Qərbi Avropa və Yaponiya** idi. Odur ki, dünyanın iki təsir dairəsinə bölünməsi barədə **Yaltada SSRİ ilə ABŞ** arasında danışıqlar olmuşdur. Razılaşmalara əsasən mərkəz adlanan dövlətlər **ABŞ-ın,** kənai' və yarı

kənar dövlətlər isə SSRI-nin payına düşmüşdür.

ABŞ əvvəlcə Qərbi Avropa ilə Yaponiyarun iqtisadiyyatının bərpa edilməsinə köməklik göstəmniş, sonra isə onlarla hərbi-siyasi müqavilələr bağlamışdı. ABŞ öz bloku daxilində müəyyən nizam saxlamaq üçün xarici düşmən surəti yaratmalı olmuşdur. Bu Sovet İttifaqı idi. Beləliklə ABŞ və SSRİ **«Soyuq müharibə»** adı altında fəaliyyət göstərməli olmuşlar.

Kənar ölkələr **«üçüncü dünyaya»** çevrilmişlər. SSRİ və ABŞ bu ölkələrə qarşı eyni prinsipdən demək olar ki, eyni siyasət yeridirdilər. SSRİ və ABŞ arasında gedən «So}aıq müharibə» oyunu hələki davam edirdi. Lakin bir müddətdən sonra bu maraq azalmışdı. ABŞ - dünya mərkəz sistemindəki iqtisadi liderliyi itirirdi. Öz müttəfiqləri üzərindəki təsir dairəsini azaldırdı. SSRİ-nin də bu oyundakı ehtiyatlan tükənirdi. Beləliklə hər iki dövlətin razılığı ilə **«Soyuq müharibə» dövrü** qurtanrnşdır.

Lakin **«Soyuq müharibə»nin** qurtarması heç də **«tarixin sonu»** deyildir. Əksinə köhnə münaqişələr şiddətlənmiş və yeniləri də meydana gəlmişdir. **Xantinqtondan** fərqli olaraq **Vallerstayna görə K.Marksm «proIetariatın məqsədi kapitalizmi məhv etməkdir»** ideyası da müasir vəziyyətə uyğun gəlmir. XX əsrin sonu üçün proletariat dedikdə dünya sistemində kənar ölkələrin əhalisi nəzərdə tutulur, inkişaf etmiş ölkələrdə liberal və sosial demokrat partiyalann və həmkarlar ittifaqlarmın fəaliyyəti nəticəsində insanlara hörmət və insan hüququnun gözlənilməsi prinsipi bərqərar olmuşdur. Muzdlu işçilər cəmiyyətdə özlərinə layiq yer tutmuş və yüksək maddi səviyyəyə nail olmuşlar.

**Vallerstayn** Mərkəz adlanan dünya sistemində də münasibətlərin qeyri-sabit olacağım qeyd edir. Bu mərkəzdə iqtisadi rəqabətdə üç qüvvə özünü göstərir - **ABŞ, Yaponiya** və birləş**miş Avropa.**

Gələcəkdə ABŞ ilə Yaponiyamn bir blokda birləşməsi gözlənilir. Çinin də bura cəlb edilməsi fərziyyələri vardır. Belə vəziyyətdə ABŞ, Yaponiya və Çin blokuna qarşı Rusiya-Avropa

# VII Fəsil.
# BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİ VƏ ONUN QURULUŞU

1. Beynəlxalq münasibətlərin növləri.
2. Beynəlxalq münasibətlər sisteminin nəzəri modelləri.
3. Beynəlxalq münasibətlər sisteminin təkamül inkişafı.

## l. BeynəIxalq münasibətlərin növləri

Beynəlxalq münasibətlər demək olar ki, hər bir dövlətin və yaxud xalqın bütün ictimai-iqtisadi tərəflərini əhatə edir. Daha doğrusu beynəlxalq münasibətlər - **siyasi, iqtisadi, elmi- texniki, ideoloji, mədəni, hərbi və digər sahələrdə baş verən hadisələri** əks etdirir. Bütün növ beynəlxalq münasibətlər sistemində əlbəttə **beynəlxalq siyasi münasibətlər** birinci yerlərdə dayanır.

**Beynəlxalq siyasi münasibətlər dedikdə dünya miqyasında dövlətlərarası münasibətlər başa düşülür.** Bu münasibətlər hər bir dövlətin mənafeyini əks etdirir. Dövlətlərarası münasibətlərə dair hər bir problem dövlət siyasətinin predmeti olaraq siyasi xarakter daşıyır. Beləliklə bu problem dövlətlərarası siyasi münasibətləri əks etdirir. İqtisadi, elmi-texniki, ideoloji, mədəni, hərbi münasibətlər də öz növbəsində siyasi münasibətlərə təsir edir.

Hər bir dövlətdə daxili hadisələr də xarici-siyasi məqsəd daşıyarsa dövlətlərarası siyasi münasibətlərin obyekti ola bilərlər.

Müxtəlif növ münasibətlər dövlətin siyasəti vasitəsi ilə siyasiləşdirilir və obyektiv xarakter alır.

**Dövlətlərarası münasibətlər sistemi özlüyündə dövlətin müxtəlif münasibətlərinin təmərküzləşmiş ifadəsidir.** Beləliklə əslində dövlətin siyasi münasibətlərini digər münasibətlərdən ayırmaq-fərqləndirmək qeyri-mümkündür.

Əvvəllər beynəlxalq münasibətlər sinfi baxımından fərqləndirilirdi:: **ağalıq-tabeçilik münasibətləri; feodal və kapitalist münasibətləri; əməkdaşlıq və qarşılıqlı yardım münasibətləri və keçid münasibətləri.** Sosialist dövlətləri ilə üçüncü dünya ölkələri arasında olan münasibətlər və s.

Beynəlxalq münasibətlərin təsnifatı hər şeydən əvvəl ictimai həyatın **müxtəlif sahələri** üzrə fərqləndirilir. Yəni, **iqtisadi, siyasi, hərbi-strateji, mədəni, ideoloji və s. Münasibətlər.** Eləcə də bu **münasibətlərin iştirakçıları** baxımından da fərqləndirilir. Məsələn, dövlətlərarası münasibətlər, parti- yalararası münasibətlər, müxtəlif beynəlxalq təşkilatlar, transmilli şirkətlər arasındakı münasibətlər və s.

**Gərginlik baxımından** beynəlxalq münasibətləri fərqləndirdikdə sabit və qeyri-sabit; inam ə düşmənçilik; əməkdaşlıq və münaqişəli, sülh və müharibə vəziyyətində olan münasibətləri ayırmaq olar.

**Əhatə dairəsinə görə Beynəlxalq münasibətləri bir neçə səviyyədə açıqlamaq olar: Qlobal miqyasda, region üzrə, subregion üzrə, beynəlxalq hadisələrlə bağlı şəkildə qrup halında, ikitərəfli** və **s.** Qeyd etməliyik ki, qlobal, region və subregion səviyyəli münasibətlər geosiyasi baxımdan araşdırılır və aydındır ki, hər bir məkana xas amillərlə müəyyən edilirlər.

Qlobal səviyyəli beynəlxalq münasibətlər dünya siyasətinin daha ümumi problemlərini əhatə edir.

Beynəlxalq münasibətlərin region səviyyəli tədqiqində «BeynəIxalq siyasi region» kateqoriyasının roluna üstünlük verilir.

Subregion səviyyəli münasibətlərin araşdırılmasında qeyd etməliyik ki, region və subregion səviyyələri şərti olaraq fərqləndirilir.

Hər hansı bir coğrafi zona müəyyən mənada region adlanır, digər mənada isə subregion adlana bilər. Aydındır ki, subregion regionun bir hissəsidir, ona daxildir.

Beynəlxalq hadisələrlə bağlı münasibətlər dövlətlərarası münasibətlər sisteminin hər bir səviyyəsində özünü göstərə bilər.

Bu münasibətlərin xarakterik cəhəti ondan ibarətdir ki, burada hər hansı bir siyasi, hərbi strateji münasibətlərdən yaranan konkret hadisə mövcud olur. Məsələn, beynəlxalq münaqişəni - beynəlxalq siyasi hadisə və yaxud vəziyyət hesab etmək olar.

Əslində region və subregion səviyyəli beynəlxalq münasibətlər öz təbiəti baxımından qrup münasibətləri hesab edilirlər.

Xüsusi qrup səviyyəli münasibətlər hər bir region və subregion daxilində aynla da bilərlər.

## 2. Beynəlxalq münasibətlər sisteminin nəzəri modelləri

Vaxt dəyişdikcə qanunauyğun olaraq beynəlxalq münasibətlərin iştirakçıları arasında da qarşılıqlı əlaqələrin xarakteri dəyişir. Hər bir dövr üçün müxtəlif quruluşa malik münasibətlər xarakterik olur. Məhz elə bu münasibətlərin quruluşu da beynəlxalq münasibətlər sistemi tipini və yaxud beynəlxalq sistemi müəyyən etmiş olur.

Daha doğrusu **beynəlxalq münasibətlər sisteminin quruluşu dedikdə bu münasibətlərin fəaliyyəti prosesində qanunauyğun olaraq yaranan əlaqə forması nəzərdə tutulur.**

Beynəlxalq münasibətlər sisteminin quruluşu bu sistemə daxil olan elementlər arasındakı əlaqələri əks etdirir.

Siyasi ədəbiyyatlarda bir qayda olaraq **iki növ** beynəlxalq münasibətlər sisteminin quruluşu fərqləndirilir: **çoxqütblü** və **ikiqütblü.** Deməli bu təsnifat bura daxil olan böyük dövlətlərin sayına əsasən aparılır.

Beynəlxalq münasibətlər sistemi artıq çoxdan ümumi, qlobal xarakter aldığına görə yüzlərlə dövləti və qeyri-dövlət qurumlarını özündə birləşdirir. Odur ki, münasibətlər sisteminin quruluşunda **regional** və **lokal** səviyyələrdə **"yanm- sistem"də** ayırmaq olar. Aydındır ki, hər bir yarımsistem də özlüyündə müəyyən quruluşa malikdir. Bu da beynəlxalq münasibətlərin ümumi quruluşundan asılıdır.

Bütünlükdə **hər bir sistemdə dinamik tarazlıq qanunu** əsas olduğu kimi, beynəlxalq münasibətlər sisteminin fəaliyyətində də bu qanun əsas götürülür. Beynəlxalq münasibətlər sisteminin əsas iştirakçısı olan dövlətlər arasında müəyyən siyasi tarazlığın olması onun normal fəaliyyəti üçün əsas zəmin yaradır.

**Hər bir dövlət öz mənafeyini nəzərdə tutur.** Bu mənafe başqa dövlətlərin xarici siyasəti ilə heç də həmişə üst- üstə düşmür. Bu dövlətlərin siyasi toqquşması nəticəsində tarazlıq sistemi yaranır. Bu tarazlıq sistemi vəziyyəti özü ilə kifayət qədər qeyri-tarazlıq vəziyyətləri də yaradır.

Beynəlxalq sistemin hər bir konkret tarixi vəziyyətində **dinamik tarazlıq qanunu** müxtəlif formalarda təzahür edə bilər.

Tarixi baxımdan daha çox yayılmış forma **qüvvələr balansıdır.** Qeyd etməliyik ki, qüvvələr balansı bütünlükdə beynəlxalq münasibətlərin ən zəruri inkişaf qanunauyğunluqlarından biridir.

**Q.Morqentau** göstərirdi ki, beynəlxalq qüvvələr balansı spesifik olaraq ümumi sosial prinsipi əks etdirir. **Qüvvələr balansı və siyasət sabitlik yaradan amillərdir.** Hətta qədimlərdə də hər bir dövlətin hərəkətində **qüvvələr balansı** əsas rol oynamışdır. Haradasa hakimiyyət uğrunda mübarizə gedirdi, orada münasibətlər qüvvələr balansına əsaslanırdı. Hər bir dövlətin gücü müqayisə olunandır. Odur ki, bir dövlətin gücünün artması, əlavə olunması qarşı dövlətin gücünün nisbi azalması deməkdir.

**Beynəlxalq münasibətlər sistemi bir neçə formada modelləşdirilir. Amerika politoloqu M.Kaplan** göstərirdi ki, beynəlxalq sistem dedikdə bir neçə iştirakçı təşkilatların və dövlətlər qurumunun müxtəlif qüvvələrinin yerləşdirilməsi variantı nəzərdə tutulur.

O, bununla bağlı **altı** növdə beynəlxalq sistem fərqləndinnişdir: **Qüvvələr balansı sistemi; azad ikiqütblü sistem; sərt ikiqütblü sistem; universal sistem; tabeçilik sistemi və «veto» sistemi.** Eləcə də ayrı-ayn sistemlərdə müəyyən dəyişiklik edilməsi də təklif olunmuşdur.

Qüvvələr balansı sistemində milli dövlətlər, onların hərbi və iqtisadi imkanları əsas amil hesab edilir. Əgər hər bir beynəlxalq sistemdə beş dövlətdən az iştirakçı mövcuddursa deməк o, o qədər də sabit deyildir. Əgər beş və daha artıq dövlət vardırsa, deməli onların ittifaqı daha möhkəm və sabit olmalıdır. 1950-ci illərdən sonra beynəlxalq münasibətlərdə təkamül dəyişiklik özünü göstərmişdir. Kövrək ikiqütblü model istiqamətində dəyişiklik baş vermişdir. Asiya və Afrikanın yeni müstəqillik əldə etmiş dövlətləri hesabına neytral dövlətlərin sayı artmışdır. BMT və digər təşkilatların fəaliyyəti də canlanmışdır.

### 3. BeynəlxaIq münasibətlər sisteminin təkamül inkişafı (Soyuq müharibədən sonra)

Məlumdur ki, son vaxtlaradək dünyada bir-birinə əks iki böyük güc-sistem mövcud idi: **Sosializm və kapitalizm sistemləri.** Sosializm sisteminin başında ən böyük güc SSRİ, kapitalizm sistemində isə ən böyük güc ABŞ dayanırdı. Soyuq müharibə illərində rea! beynəlxalq münasibətlər sistemində müəyj^ən dəyişikliklər özünü göstərməyə başlamışdır. **1950-ci illərdə iki qütblü sərt sistem mövcud idi.** Hər iki böjdik dövlət öz təsir dairəsini genişləndirməyə çalışırdı. ABŞ ilə SSRİ arasında sərt əks mənafe BMT-nin işini də çətinləşdirirdi.

SSRİ bir çox hallarda təhlükəsizlik şurasında öz “Veto” hüququndan istifadə etməli olurdu.

1950-ci illərin axırlarından beynəlxalq münasibətlərdə təkamül dəyişiklik mülayim iki qütblü model istiqamətində özünü göstərmişdir. Bu mənzərə **Afrika** və **Asiyada** müstəqil dövlətlərin sayının artması ilə izah olunur. Bu dövlətlərin bir çoxu neytral mövqedə qalmağa üstünlük verirlər. **Amerika siyasətşünası S.Xofman** 1970-ci illərdən sonra beynəlxalq münasibətlərin dəyişilməsinə təsir edən bir çox yeni amillərin artdığını göstərirdi. Dövlətlərin sayının artması, dövlət qurum- lannın rolunun yüksəlməsi, qarşılıqlı əlaqələrin genişlənməsi, iqtisadi və hərbi amillər arasındakı nisbətin dəyişməsi, tabeçilik baxımından yeni qurumlann yaranması və s. **Məsələn, Almaniya və Yaponiya ikinci Dünya Müharibəsindən sonra dünya iqtisadiyyatında aparıcı mövqe qazanmışlar. Siyasi baxımdan əvvəlki mövqelərini itirmişlər.** Onlarla müqayisədə Rusiya iqtisadi baxımdan aşağı səviyyədə olsa da beynəlxalq rolu yüksəkdir.

Baxmayaraq ki, hazırda yeni beynəlxalq münasibətlər sistemi bərqərar olmamışdır, hər halda müəyyən tabeçilik qurumlan yaranmaqdadır. Burada aşağıların yuxarılara **iyerarxiya** tabeçiliyi nəzərdə tutulur.

Məsələn, aydındır ki, hazırda dünyada ancaq güclü dövlət olan ABŞ müasir beynəlxalq münasibətlərdə aparıcı rola malikdir.

**ABŞ ilə yanaşı Çin, Hindistan, Yaponiya, Almaniya, Böyük Britaniya, Fransa** da beynəlxalq münasibətlərdə əsas tərəf kimi çıxış etməyə can atırlar. Almaniya, Böyük Britaniya və Fransa Avropa İttifaqının fəal üzvü olmaqla böyük təsir dairəsinə malikdirlər. Bu dövlətlərin hər biri müstəqil olaraq beynəlxalq münasibətlərin subyekti olmağa layiqdirlər. Beynəlxalq münasibətlər sahəsində fəaliyyət göstərən tədqiqatçıların bir çoxu müəyyən şəraitdə ikiqütblü sistemdə **Aİ-nin** roluna üstünlük verirlər. **Çin üçün də belə bir proqnoz mövcuddur.**

# VIII Fəsil.
# BEYNƏLXALQ MÜNAQİŞƏLƏRİN ÖYRƏNİLMƏSİNİN VƏ TƏNZİM LƏNMƏSİNİN NƏZƏRİ ƏSASLARİ

1. Beynəlxalq münaqişələrin mahiyyəti və növləri.
2. Beynəlxalq münaqişələrin quruluşu və artması prosesi.
3. Beynəlxalq münaqişələrin tənzimlənməsi yollan.

## 1. Beynəlxalq münaqişələrin mahiyyəti və növləri

Aydındır ki, beynəlxalq münasibətlərin xarakterində siyasi sabitliyin böyük rolu vardır. Bu sabitliyin bilərəkdən və yaxud təsadüfən pozulması isə münaqişəyə səbəb ola bilir. Deməli, beynəlxalq münasibətlərdə bir tərəfdə sabitlik, əməkdaşlıq və inkişaf, digər tərəfdə isə münaqişə və düşmənçilik dayanır. **Beynəlxalq münasibətlər nəzəriyyəsində beynəlxalq münaqişələr ən əsas və ciddi problemlərdən biri hesab edilir.**

Kiçik və son dövrlərdəki münaqişələri nəzərə alması yalnız XX əsrdə 140 müharibə olmuş və 125 min nəfər adamın həyatına son qoyulmuşdur. BMT-nin mövcud olduğu dövrdə 700 beynəlxalq, regional və lokal münaqişə baş vermişdir ki, bunun da 25 %-ə qədəri XX əsrin payına düşür.

Hər bir silahlı toqquşma istər-istəməz siyasi münaqişəyə gətirib çıxarır. Odur ki, ilk mərhələdə münaqişələrin baş; vermə səbəblərinin öyrənilməsi və onların tənzimlənməsi üsulları böyük nəzəri və praktiki əhəmiyyət kəsb edir.

**Beynəlxalq münaqişə dedikdə iki və daha çox dövlətlər (dövlətlər, qrup dövlətlər, xalqlar, siyasi hərəkatlar və 8.) arasında yaranmış ziddiyyətlər zəminində mənafelərin toqquşması nəzərdə tutulur.** Dövlətlənırası bu

kimi ziddiyyətlər öz mənşəyi baxımından **əraziyə** görə, **Milli zəmində, dini, iqtisadi, hərbi-strateji, elmi-texniki** və digər səbəblərdən ola bilər.

**Ümumiyyətlə münaqişə bütün hallarda siyasi xarakter alır.** Bu kimi ziddiyyətlər xarici siyasət yeritməklə həll edilə bilər. Beynəlxalq münaqişələrin yaranması və güclənməsi ancaq obyektiv səbəblərdən deyil, hər bir dövlətin özünün xarici siyasətindəki subyektiv yanaşması üzündən də baş verə bilər.

Hər bir münaqişə demək olar ki, hazırlanır və dövlətin düşünülmüş xarici siyasəti ilə həll edilir. Bir çox hallarda dövlət **liderləri arasında olan münasibət də** dövlətlərarası münasibətlərə və münaqişə vəziyyətinin yaranmasma səbəb ola bilər.

Hər halda beynəlxalq münaqişə sosial bir hadisə olmaqla müstəqil bir tədqiqat sahəsidir. Məşhur **Amerika alimi L.Kozer** münaqişəyə sosial hadisə kimi baxaraq göstərirdi ki, münaqişə kollektiv tərəflər arasında dəyərlər, statuslar, nadir ehtiyatlara hakim olmaq uğrunda gedən mübarizədir - toqquşmadır. Bununla da tərəflər biri-birini neytrallaşdırmaq, zəiflətmək cəhdinə nail olmaq məqsədi daşıyırlar. (5. 407 s.)

Deməli, belə qərara gəlmək olur ki, beynəlxalq münaqişələr obyektiv məzmuna malikdirlər.

Beynəlxalq münaqişələrin tədqiqi ilə məşğul olan digər bir alim **K.Bouldinq** də münaqişələrə obyektiv hal kimi baxaraq göstərirdi ki, münaqişə müəyyən mövqeyə malik olmaq uğnmda gedən mübarizədir, əksdurmadır.

Əlbəttə hər bir münaqişənin subyektiv cəhətləri barədə fikirlər də az deyildir. Beynəlxalq münaqişələrin tədqiq edilməsində üç əsas istiqamət fərqləndirilir:

1. **Strateji tədqiqatlar;**
2. **Münaqişələrin tədqiq edilməsi;**
3. **Sülhün tədqiq edilməsi (5. s. 417)'.**

Əlbəttə bu üç istiqamət bir-birindən fərqlənsələr də onlarda daxili bütövlük də müşahidə olunur.

Qeyd etməliyik ki, **«Strateji tədqiqat»** istiqaməti daha ənənəvi xarakterə malik olub milli maraqlann və dövlətin təhlükəsizliyinin təmin edilməsi vəzifəsini nəzərdə tutur.

Burada baş verə biləcək müharibədə müəyyən praktiki vəzifələrin həlli ilə qalib gələ bilmək üçün əlverişli şərait yaradılması yolları tədqiq edilir. Bu tədqiqatda güc amilinə də üstünlük verilmişdir. Odur ki, **Kanadalı alim A.Leqonun** belə bir fikri ilə razılaşmaq yerinə düşərdi ki, strategiyanın əsas əhəmiyyəti ondan ibarətdir ki, siyasi məqsədə nail olmaq işində güc amilinə həmişə üstünlük verir. (5. s.417)

Bu tədqiqatda **«böyük strategiya»** və **«hərbi strategiya»** anlayışları da bir-birindən fərqləndirilir. **«Böyük strategiya»da** ancaq hərbi hərəkat deyil, daha əhatəli strateji vəziyyət nəzərdə tutulur.

**Amerika alimi M.Kollinz** göstərirdi ki, **«böyük strategiya»ya** istənilən vəziyyətdə milli imkanlann elementlərindən istifadə edə bilmək **«elmi və incəliyi»** kimi baxmaq lazımdır. Bununla da əks tərəfdən hədələmək, ona güc göstərmək, hər cürə təsir etmək, diplomatiya, biclik və digər mümkün yollarla milli maraqlan və təhlükəsizliyi təmin etmək əsas götürülür. C.M.Kollinzin fikirlərinə görə **«böyük strategiya»da** müəyyən nailiyyətlərin əldə edilməsi ilə birbaşa müharibəyə ehtiyac qalmır. Həmçinin **«böyük strategiya»nın** planında ancaq qalib gəlmək deyil, möhkəm sülhün saxlanılması da öz əksini tapır. Deməli **«staretji tədqiqat»da** hər bir dövlət üçün müharibə problemi, onun səbəbləri və nəticələrinin tədqiqi daha ön plana çəkilir. Odur ki, hazırda xüsusilə nüvə silahınm mövcud olması ilə əlaqədar olaraq qərbdə beynəlxalq münasibətlər elmində **«strateji tədqiqatlar»** əsas tədqiqat sahələrindən birinə çevrilmişdir. Onu göstərmək kifayətdir ki, ABŞ-da belə tədqiqatlan həyata keçirmək üçün mindən artıq institut fəaliyyət göstərir.

Münaqişələrin formalaşdmlmasında **ikinci istiqamət** onların tədqiq və yaxud təhlili hesab edilir. Burada sti'ateji tədqiqatlarda araşdırılmayan məsələlər təhlil edilir. Məsələn, münaqişənin mənşəyinin müəyyən edilməsi, beynəlxalq münaqişələrin müxtəlif təzahüi' formalarımn artırılması və s.

Münaqişələrin mənşəyi məsələsində **iki fikir** yayılmışdır. Bir qrup mütəxəssislər münaqişələrin mənşəyini beynəlxalq münasibətlər sisteminin quruluşunun xarakteri ilə əlaqələndirirlər. Digər bir qrup alimlər isə münaqişələrin mənşəyini dövlətlərarası münasibətlər sisteminin daxili vəziyyəti ilə əlaqələndirirlər.

«Təcavüzdə **quruluş** nəzəriyyəsi»nin tərəfdaşları göstərirlər ki, hər hansı bir dövlətin beynəlxalq sistemdə tutduğu yeri müəyyən edən meyarların tarazlığının pozulması beynəlxalq münaqişənin səbəbi ola bilər. Məsələn, Küveyt kimi bir dövlətin maliyyə gücü kifayət qədər olduğu halda, onun siyasi mövqeyi, siyasi çəkisi çox zəifdir. Və yaxud Almaniya Federativ Respublikası güclü iqtisadiyyata malik olduğu halda, diplomatiya baxımmdım məhdud imkanları ilə xarakterizə edilir. Eləcə də məsələn hazırda Rusiyada demoqrafiya, ehtiyatların mövcudluğu, elmi-texniki potensial, istehsal potensialı və s. meyarlar, iqtisadi vəziyyətlə tam ziddiyyət təşkil edir. (4. s.150)

Bu sahədə çalışan Amerikalı alim Orqanski siyasi tarazlıq nəzəriyyəsinə əsaslanaraq göstərirdi ki, beynəlxalq sistemdə tarazlığın pozulması bəzi yeni dövlətlərin meydana gəlməsi ilə bağlıdır. Onların gücünün artması ilə mövqeləri də nisbətən artır. Bütün qeyd etdiklərimizdən aydın olur ki, münaqişələrin baş vermə səbəbində **«quruluş** nəzəriyyəsi» özünəməxsus inkişaf yolu keçmişdir.

Beynəlxalq münasibətlərlə məşğul olan alimlərin araşdırmalarına görə və praktiki olaraq beynəlxalq münaqişələrin **müxtəlif növləri** məlumdur.

Münaqişələrin araşdırılmasından aydın olur ki, tam vahid xarakterli münaqişə olmasa da, hər halda bir çox cəhətlərinə görə oxşar münaqişələr də az deyildir.

Beynəlxalq münaqişələrin təsnifatında onları **simmetrik** və **asimmetrik** münaqişələrə ayınrlar. (4. s. 150) **Simmetrik (uyğun, mütənasib, həmahəng)** münaqişə dedikdə münaqişəyə cəlb edilmiş tərəflər demək olar ki, eyni güclü olurlar. Güc baxımından bir-birinə uyğun olurlar. Onu da qeyd etməliyik ki, burada yalnız güc amili deyil, başqa xarakterli cəhətlər də vardır (münaqişənin baş vermə səbəbi, obyektiv və subyektiv hallar, münaqişəyə cəlb edilən tərəflərin məqsədi, münaqişənin aradan qaldırılması yollanndakı uyğunluq və s.).

**Asimmetrik münaqişə dedikdə isə münaqişə tərəfləri kəskin fərqlənirlər. Kanadalı alim-siyasətşünas A.Rappo-port** beynəlxalq münaqişəli vəziyyətin ilkin yaranması formasını əsas amil kimi götürür. Bu mənada münaqişələri **üç** növə ayırır: **1. Vuruşma, döyüşmə forması; 2. Oyun forması; 3. Müzakirə və yaxud mübahisə forması.**

Əlbəttə aydındır ki, münaqişənin **"vuruşma"** forması daha təhlükəlidir. Adından da göründüyü kimi bu formada münaqişəyə cəlb olunan tərəflər bir-birinə hər cürə zərər vurmaqdan çəkinmirlər.

Başqa bir qrup siyasətçilər beynəlxalq münaqişələrin üç növünü fərqləndirirlər. Bu münaqişələr öz təbiəti, motivi, iştirakçıları və miqyasına görə fərqləndirilir. **Birinci qrup münaqişələrə** dövlətlərarası **klassik** münaqişələr; inteqrasiya meylli dövlətlərarası münaqişələr; milli azadlıq müharibələri və s aid edilir.

**ikinci qrup münaqişələrə** - ərazi üstündə olan münaqişələr daxil edilir. Burada sosial-iqtisadi, ideoloji motivlər də əsas götürülə bilər ki, bu da qeyri-ərazi münaqişəsi adlanır.

Nəhayət **üçüncü qrup münaqişələr** miqyasına görə daha çox dövləti əhatə edir ki, bu nəticə etiban ilə dünyavi münaqişəyə çevrilə bilər.

Bütün bunlarla yanaşı münaqişələrin növləri baxımından digər təsnifatlar da vardır.

## 2. Beynəlxalq münaqişələrin quruluşu və artması prosesi

Beynəlxalq münaqişələr beynəlxalq münasibətlər sistemində demək olar ki, müstəqil bir hadisə hesab olunurlar. Beynəlxalq münaqişələrin subyektləri dövlətlər, dövlətlərarası birliklər, beynəlxalq təşkilatlar, dövlət daxilində mövcud olan ictimai-siyasi qüvvələr və s. qurumlar ola bilərlər. Hər bir münaqişə müxtəlif fazalardan ibarətdir. **Birinci faza** prinsipial siyasi münasibətləri əks etdirir. Bu faza obyektiv və subyektiv ziddiyyətlərə əsaslanır.

**ikinci fazada** münaqişə tərəfləri subyektiv olaraq öz mənafelərini, məqsədlərini, strategiyanı qiymətləndirirlər. Bu fazada qarşılıqlı hərəkətlər də müəyyənləşdirilir.

**Üçüncü fazada** tərəflər - iqtisadi, siyasi, ideoloji, psixoloji, mənəvi, hüquqi, diplomatik, hərbi və digər vasitələrdən istifadəni genişləndirirlər.

**Dördüncü fazada** - tərəflər arasındakı mübarizə daha yüksək pilləyə çatır və siyasi xarakter alır. Beynəlxalq siyasi böhrana səbəb olur.

**Beşinci faza** - beynəlxalq silahlı münaqişə və silahlı mübarizələrlə xarakterizə olunur. Bu fazada münaqişənin ərazisi genişlənir. Münaqişəyə daha çox dövlət cəlb edilir.

Deməli beynəlxalq münaqişələrin baş verməsi qanuna-uyğunluqlannm öyrənilməsi ilə onların aradan qaldırılması və tənzimlənməsi yollan da araşdırılmış olur.

**“Soyuq müharibə”** illərində bir çox münaqişələr baş vermişdir. Onlannda başında birbaşa **SSRİ** və **ABŞ** dururdu. **“Soyuq müharibənin”** qurtarması ilə münaqişələrin bir çoxu öz həllini tapmışdır. Bütün bunlara baxmayaraq bu gün də

ümumdünya miqyasında təhlükəsizliyin təmin edilməsi problemi öz aktuallığım saxlayır.

Bütün qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olur ki:

**Birincisi** - son dövrlərdə münaqişələrin səbəbləri və mənbələri dəyişmişdir:

- Belə ki, münaqişələr daha çox etnik və dini zəmində baş verir. Hər şeydən əw/əl iqtisadi və maliyyə sahəsində ziddiyyətlər, bazar və ehtiyatlar üstündə ziddiyyətlər özünü göstərir;
- Qeyri-sabitlik, zəif inkişaf, aclıq münaqişələrin və böhranların əsas mənbəyinə çevrilmişdir;
- Son dövrlərdəki sosial-iqtisadi və sosial-demoqrafik dəyişikliklər, ayrı-ayrı dövlətlər arasında, ayrı-ayrı regionlarda gəlirlər arasındakı fərqlər, şəhərləşmənin artması və bu kimi problemlər yeni nəslin münaqişələrinin əsas mənbəyinə çevrilmişdir;
- Müasir qloballaşma prosesinin artmasım da münaqişələrin səbəbi hesab edirlər.

**İkincisi** - münaqişələrin iştirakçıları da dəyişilir. Dövlətlərarası münaqişələrdə qeyri-dövlət qurumlan-ekstremist dini cərəyanlar, cinayətkar qruplaşmalar, terrorçu birləşmələr və s. qurumlar da münaqişələrin iştirakçılarına çevrilmişlər.

**Üçüncüsü** - deməli, münaqişələrin xarakteri, məzmunu da dəyişir. Bu münaqişələr daha az dövlətlərarası olmaqdan, daha çox dövlətlər daxili olmaq xarakteri kəsb edirlər. Münaqişələr daha uzunmüddətli olurlar.

**Dördüncü** - münaqişələrin həll edilməsində beynəlxalq təşkilatlann, xüsusilə BMT-nin fəaliyyətində müəyyən irəliləyişlər artmışdır.

## 3. Beynəlxalq münaqişələrin tənzimlənməsi yollan

Əvvəlcədən qeyd etməliyik ki, münaqişələrin tənzimlənməsi barədə vahid metodologiya və yaxud nəzəriyyə işlənməmişdir. Etiraf etməliyik ki, cəmiyyətin inkişafının bütün mərhələlərində ziddiyyətlər, münaqişələr mövcud olmuşdur. Odur ki, onların nisbətən azaldılması, mülayimləşdirilməsi, tənzimlənməsi yolları da araşdırılır. Nəzəri və praktiki baxımdan münaqişəli vəziyyətdən çıxılmasmda müxtəlif yollardan, metod və vasitələrdən istifadə edilir.

Beynəlxalq münaqişənin **«Silahlı mübarizə»** fazasında tərəflər artıq qalib gəlməyə can atırlar. Qalib tərəf öz tələblərini irəli sürür.

Məsələn birinci dünya müharibəsində Almaniya məğlub olmuşdur. **1919-cu** ildə məlum **Versal sülh müqaviləsinin** qərarlarına əsasən Almaniya üçün ağır şərtlər qoyulmuşdur. Bunu almanlar özləri üçün alçaldılmış yanaşma hesab edirdilər. Odur ki, Almanlar qisasçılıq psixologiyası ilə yaşayırdılar. Onlar Hitlerin hakimiyyətə gəlməsi ilə yeni dünya müharibəsinin başlanmasına zəmin hazırlamış olmuşlar. Beləliklə ikinci dünya müharibəsi başlanmışdır.

Ümumiyyətlə beynəlxalq münaqişələrin beynəlxalq hüquq normaları ilə tənzimlənməsi obyektiv səbəblərə görə çox çətindir. Burada siyasi metodlara daha çox üstünlük verilir. Bu metodlar şərti olaraq **ənənəvi və institusional** metodlar adlamr.

Münaqişələrin tənzimlənməsində **ənənəvi metodda** üç əsas proses və yaxud yanaşma üsulu nəzərdə tutulur; **Danışıqlar aparılması; müəyyən razılıq əldə edilməsi üçün üçüncü tərəfin köməkliyi; vasitəçilik edilməsi.** Aydındır ki, üçüncü tərəfin köməkliyi və vasitəçilik məsələlərində qərəzli və hərtərəfli mövqelər barışığa o qədər də zəmin yarada bilmirlər.

**İnstitusional metodlarda** əsasən beynəlxalq təşkilatların rolu nəzərdə tutulur. Münaqişənin aradan qaldırılmasında tərəflər BMT-nin təhlükəsizlik şurasına müraciət edə bilərlər. Təkcə XX əsrdə BMT-nin işə qarışması nəticəsində 14 münaqişənin nisbətən yeri dəyişdirilib. 76 münaqişə də demək olar ki, heç bir nəticə əldə edilməyib. 18 münaqişədə dolayı yolla müəyyən razılıq əldə edilib, 21 münaqişədə onun müəyyən qədər rolu olub. Cəmisi 4 münaqişədə gözə çarpacaq dərəcədə rola malik olubdur. Bütün bunlardan aydın görünür ki, münaqişələrin tənzimlənməsi çox mürəkkəb və çətinliklərlə müşahidə olunur. Münaqişələrin tənzimlənməsindəki institusional yanaşmada humanitar əməliyyatların rolunun, sülhməramlı qurumların rolunun artmasını, informasiya elementlərinin rolunun artmasını da qeyd etmək olar.

Bütün qeyd etdiklərimizdən aydın görünür ki, münaqişələrin sülh yolu ilə tənzimlənməsi münaqişəyə cəlb olunan tərəflərdən daha çox iradə tələb edir. Burada vəziyyətdən çıxmağın mümkün istiqamətləri müəyyən edilir və müəyyən şərtlər təsdiqlənir.

Beynəlxalq münaqişələrin araşdırılmasının əsas istiqamətləri işində **«Sülhün tədqiq edilməsi»** probleminin şərhi diqqəti daha çox cəlb edir. Burada da əsasən tənzimlənmə və sülhə nail olmaq imkanlan əks etdirilmişdir. Bu problemdə əsasən üç yanaşma forması araşdırılmışdı. Bu yanaşma formasının biri **«anqlosakson»** məktəbinin **«münaqişələrin tən- zimlənməsi»** ənənələri ilə bağlıdır. **«Sülhün tədqiq edil- məsi»ndə** ikinci yanaşma Avropa cərəyanına xas olan görüntüləri əsas götürür.

**Üçüncü yanaşmada** isə yenə də beynəlxalq danışıqlar prosesi nəzərdə tutulur. «Anqlosakson» məktəbinin ənənəsi dedikdə 1955-ci ildə ABŞ-da Miciğan universitetində yaradılmış «münaqişələrin tənzimlənməsi)) mərkəzinin mülahizələrini qeyd etmək olar. (5. s.410) Bu yanaşmaların tərəfdarlan münaqişələrin baş verməsi və həlli sahəsində olan bir çox

məsələləri təhlil etməklə əksdurmadan əməkdaşlığa keçmək yollanm tədqiq etmişlər. Sosial münaqişələrin öyrənilməsində **«riyazi»** və **«oyun»** metodlarına üstünlük verilir. Burada ən geniş yayılmış ideyalardan biri ondan ibarətdir ki, münaqişələr ictimai həyatın bütün dairələrinə xas olan ən universal fenomenlərdən biridir. Odur ki, beynəlxalq münasibətlər sahəsində olan münaqişələri də aradan qaldırmaq olmaz. Onların idarə edilməsi mexanizminin yaranması daha məqsədəuyğun olardı. Bu mənada sosial münaqişələrin həllində dörd üsuldan istifadə edilməsinə üstünlük verilir:

1. Bütün tərəflərin fikirlərinin üst-üstə düşməsi razılığı;
2. Qanunçuluq və mənəvi tələblər zəminində razılıq;
3. Tərəflərdən birinin məhkum etdiyi münaqişə ilə razılaşma;
4. Bəzən vaxtı keçmiş münaqişə öz aktuallığını itirir və demək olar ki, özlüyündə həll olunur.

Bu mənada beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsində Norveçin paytaxtı **Oslo** şəhərində xüsusi jurnal da nəşr edilir. Burada verilən ideya-nəzəri istiqamətlər ondan ibarətdir ki, sülh ancaq müharibəni inkar etmir. O, eyni zamanda dövlətlərarası qanunçuluq və ədalət deməkdir. Sülh ancaq birbaşa zorakılığın deyil, hər cürə zorakılığın olmamasını nəzərdə tutur.

Bu sahədə qərb mütəxəssisləri sülh işinə yüksək dəyər verərək onun tərəfdarlarında fəallığın artırılmasım arzulayırlar. Bu cərəyanın tərəfdarları sülh əldə edilməsi yolunda hətta güc amilini də istisna etmirlər. Onu da qeyd etməliyik ki, bu iki cərəyan arasında elə bir köklü fərq yoxdur. Hər iki cərəyan münaqişələrin tənzimlənməsində danışıq amilinə üstünlük verirlər.

Beləliklə 1960-cı illərin ortalarından Qərb dünyasında danışıqlar problemi müstəqil bir cərəyan kimi formalaşmışdır. Sülh yolu ilə tənzimlənmə bütün hallarda danışıqlar aparıl

masını tələb edir. Aydındır ki, bu danışıqlar prosesi çox mürəkkəb bir prosesdir.

**Bu danışıq prosesi bir neçə mərhələdən keçir: 1.** Birinci mərhələdə danışığa hazırlıq işləri gedir; 2. İkinci mərhələdə tərəflər öz təkliflərini bildirirlər. Eyni zamanda əks tərəflərə öz iradlarını bildirirlər; 3. Üçüncü mərhələdə danışığın gündəliyi barədə müzakirələr aparırlar; **4.** Dördüncü mərhələdə (son mərhələ) danışıqlar qurtarır, birgə dəyanət qəbul edilir və yaxud vəziyyət gərginləşir.

Qeyd etdiklərimizdən aydın olur ki, danışıqlar böyük əhəmiyyətə malik olub daha zəruri vəzifələr yerinə yetirir:

- Danışıqlar mərkəzində qoyulan problemlərin həlli yolları axtarılır;
- Danışıqlar informasiya-kommunikasiya vəzifəsini yerinə yetirir. Danışıqlar gedişində tərəflər (danışıqlar prosesinə aid olan və hətta kənar məsələlər) problemlərə dair məlumatlar əldə edirlər;
- Beynəlxalq problemlərə dair aparılan danışıqlar müəyyən şəraitdə bəzi daxili siyasi məsələlərin həllini də nəzərdə tuta bilər;
- Danışıqlar təbliğat funksiyasına da malikdirlər.

Bu funksiyanı belə başa düşmək lazımdır ki, danışıqda iştirak edən şəxslərin digər tərəflərə olan müraciəti, təklifləri onun ölkəsinin ictimai fikrini ifadə edir.

**Bu beynəlxalq ictimaiyyətə, ayrı-ayrı sosial qruplara, siyasi qüvvələrə müraciət kimi qiymətləndirilməlidir.** Etibarı ilə Beynəlxalq danışıqların aparılması üçün xüsusi hazırlıq işləri gedir, danışıqlann vaxtı, yeri müəyyən edilir. Gündəlik məsələ formalaşdırılır. Nümayəndələr müəyyənləşdirilir və s. Aydındır ki, münaqişə şəraitində məsələlərin həlli o qədər də asan olmur, odur ki, müəyyən hazırlıq danışıqları da aparılır.

Nəticə etibarı ilə münaqişələrin tənzimlənməsində **ənənəvi** və **institusional (ictimai qurumlar) metodlar** əsas götürülür.

Aydındır ki, ölkədaxili münaqişələr həmin dövlətin hüquq qaydaları ilə tənzimlənir. Beynəlxalq münaqişələr isə çox halda beynəlxalq hüquq normaları ilə tənzimlənə bilmir. **Burada siyasi normalar** əsas götürülür. **Məhz bu siyasi normalar** çərçivəsində **ənənəvi** və **institusional** metodlar əsas götürülür.

**Ənənəvi metodlar** - beynəlxalq münaqişələrdə hələ qədimdən də mövcud olubdur. Bu danışıqlar, üçüncü tərəfin xidmət göstərməsindən vasitəçilikdən ibarətdir. Əlbəttə tərəflər bu metodao qədər də üstünlük vermirlər, (daxili iş)

Bu barədə **1899-cu ildə Hanka Konvensiyası** (Beynəlxalq münaqişələr) münaqişələr səbəbləri və s. Aydınlaşdırmaq üçün komissiya yaradılmasını müəyyən etmişdi.

Bu komissiyaya üçüncü tərəf sədrlik edir və s.

İkinci dünya müharibəsindən sonra münaqişənin həllində **«Banşmaq metodu»** yaranmışdı. Burada da münaqişənin elementləri üçüncü tərəfin vasitəsi ilə aydınlaşdırılır. -

Komissiya faktları ancaq aydınlaşdırır. Qərar da qəbul edə bilər. Zorakılıq, məcburiyyət ola bilməz, tərəflər razılığa gəlməlidir.

**İnstitusioanal qaydalar metodu** - burada ən universal təşkilat olan Millətlər Birliyinin (1919) və BMT-nin (1945) qarışması nəzərdə tutulur.

Buna əsasən münaqişələrin tənzimlənməsində iki istiqamət nəzərdə tutulur;

1. Hər hansı bir güc tətbiq edilməsində bu təşkilatlar məsuliyyət daşıyırlar. (Qanunu müdafiədən başqa). BMT-nin nizamnaməsi əsasında tərəflər rəftar etməlidir. Sonra onlar təhlükəsizlik şurasına müraciət edə bilərlər. Təhlükəsizlik şurası suveren qərar çıxara bilər.

2. İnstitusional mexanizmdən istifadə edilməsi münaqişənin həllinə kollektiv xarakter verir. Burada dövlətlərarası təşkilat belə bir qərar qəbul edə bilər - Komissiya yaradaraq münaqişənin həllini öz üzərinə götürər.

## «Veni nəslin münaqişələri»nin əsas xüsusiyyətləri

Soyuq müharibə dövründə ziddiyyətlərin həlli iki əsas gücdən asılı idi. SSRİ-nin dağılması ilə bir çox dondurulmuş münaqişələr etnik, milli, sosial azlıqlarla bağlı, mədəni və s. yenidən özünü göstərməyə başlamışdır. Bunlann bir çoxu dövlət daxili münaqişələrdir. Qeyd etməliyik ki, təkcə 1993 - 1994-cü illərdə dünyada 30-dan artıq beynəlxalq silahlı münaqişədə qeydə alınmışdır. Bundan 16 beynəlxalq (ərazi, sərhəd tələbi); 12-si isə dövlətdaxili münaqişə idi. 1996-cı ildə 27 silahlı münaqişədən ancaq 1 -ini beynəlxalq münaqişə hesab etmək olardı -qalanı isə yenə də ölkədaxili münaqişə idi.

Bütün bu münaqişələrin yeni cəhəti ondan ibarətdir ki, onlar ancaq üçüncü dünya ölkələrinə deyil, Avropaya, Balkana, keçmiş SSRİ respublikalarına da toxuna bilir.

Münaqişələrin xarakterində diplomatiyaya nisbətən iqtisadiyyatın və maliyyənin rolu artır.

## «Müasir münaqişələri»n səbəbi, iştirakçıları və məzmunu

Belə nəticəyə gəlmək olar ki:

1. Son dövrlərdə münaqişələrin səbəbləri və mənbələri dəyişibdir. Münaqişələr əsasən etnik və dini əsasda baş verir.

2. münaqişələr iqtisadi və maliyyə səbəblərindən daha çox baş verir. Bazar və xammal üstündə mübarizə bu münaqişələr hər cürə müharibələrə səbəb ola bilərlər.

3. Dövlət hakimiyyətinin daha effektiv təsir dairəsinə malik olmaması qeyri-sabitlik, zəif inkişaf, yoxsulluq və s. dini çəkişmələrə yol açır.

4. Sosial-iqtisadi və sosial-denıoqrafık dəyişikliklər (gəlirlər arasındakı fərq, şəhərləşmə, kasıb ölkələrdə əhali artımı və s.) kənd yerlərindən şəhərlərə axın.

5. Keçid iqtisadiyyatı ölkələrində gəlirlərdəki kəskin fərq fərdi və qrup halında gərginliyi artırır.

6. Qloballaşma.

7. Münaqişələrin iştirakçıları dəyişir. Dövlətlərarası (o cümlədən hərbi) münaqişələrdə bir tərəfdə dövlət digər tərəfdə qeyri dövlət subyektləri çıxış edir. Ekstremist dini cərəyanlar, müəyyən cinayətkar qruplaşmalar, transmilli birliklər, terror qruplaşmalar və s. iştirak edirlər.

8. BİT-lərin və xüsusilə BMT-nin fəaliyyətində dəyişiklik özünü göstərir.

9. Münaqişələrin tənzimlənməsi mexanizmi də dəyişir. Daha mürəkkəb xarakter alır. Humanitar əməliyyatların rolu artır.

# IX Fəsil.
# MÜASİR DÜNYADA BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK PROBLEMİ

1. Beynəlxalq təhlükəsizlik və əsas nəzəri baxışlar.
2. Beynəlxalq təhlükəsizliyin hərbi-siyasi cəhətləri.
3. Terrorizm və ona qarşı mübarizə problemi.

## 1. Beynəlxalq təhlükəsizlik və əsas nəzəri baxışlar

Beynəlxalq münasibətlər sistemində beynəlxalq təhlükəsizlik problemi məsələsi əsas yerlərdən birini tutur. **Beynəlxalq təhlükəsizlik dedikdə bilavasitə hərbi təhlükənin olmaması nəzərdə tutulur.** Beynəlxalq təhlükəsizlik məsələsində **iki cəhət** ön plana çəkilir:

**1.** Hər bir dövlət öz fiziki mövcudluğu üçün çalışır, öz müstəqilliyi ilə beynəlxalq sistemdə mövqeyini saxlamaq hüququna malikdir.

**2.** Müəyyən məkanda dövlətlər arasında sülhün saxlanılmasına təminat yaradılması.

Beynəlxalq təhlükəsizliyin təmin edilməsində hər şeydən əvvəl kütləvi qırğın silahlarının yayılmasının aradan qaldırılması əsas götürülür. Burada silah satan dövlətlərin nüvə silahlan yaratmalanna yol verilməməsi nəzərdə tutulur. Bu problem də beynəlxalq terrorizmlə mübarizədə aktuallığı ilə seçilir. Belə ki, atom elektrik stansiyalarında, kimya müəssisələrində terrorçuluq cinayətləri törədilməsi böyük fəlakətlərə səbəb ola bilər.

Təhlükəsizliyin təmin edilməsində iqtisadi və informasiya cəhətlərinin də rolu az deyildir. Belə ki, ayrı-ayrı dövlətlər bir-birindən uzaqda yerləşsələr də qloballaşma şəraitində iqtisadi böhranlar qısa bir müddətdə hər yana yayıla bilir.

Ərzaq, ekologiya, eneıji və s. kimi qlobal problemlər də beynəlxalq təhlükəsizliyin məzmununa daxildir. Bir məsələni də qeyd etməliyik ki, əvvəllər dövlətin fəaliyyətində bir- birindən tam fərqlənən iki sahədaxili və xarici sahənin hər birində mövcud olan təhlükəsizlik müxtəlif yollarla təmin edilirdi. Əvvəllər daxili sabitlik əldə edən hər bir dövlət xarici təsirləri də aradan qaldırmağa qadir idi.

Müasir dünyada isə xarici amillərin təsiri daha qorxuludur.

Təhlükəsizliyin təmin edilməsi probleminə **Beynəlxalq rejim nəzəriyyəsi** əsasında da yanaşmaq olar. Hər bir dövlət öz mənafeyi baxımından beynəlxalq təhlükəsizlik rejimində iştirak edə bilər. Burada milli təhlükəsizliyin təmin edilməsi mənafeyi nəzərdə tutulur. Deməli beynəlxalq təhlükəsizliyin müəyyən edilməsində milli təhlükəsizlik əsas baza rolu oynayır.

**Milli təhlükəsizlik dedikdə şəxsiyyətin, cəmiyyətin və dövlətin daha həyati mənafelərinin daxili və xarici təhlükələrdən qorunması nəzərdə tutulur.**

Təhlükəsizlik fenomeninə (hadisəsinə) hərbi-siyasi baxımdan yanaşdıqda **üç** təhlükəsizlik rejimi modeli ayırmaq olar: **ümumi təhlükəsizlik rejimi, kollektiv təhlükəsizlik rejimi, əməkdaşlığa əsaslanan təhlükəsizlik rejimi.**

Beynəlxalq ümumi təhlükəsizlik rejimi könüllü, qarşılıqlı qarşıdurmadan imtina etməyi nəzərdə tutur. Bu kimi rejimin əsas prinsipləri aşağıdakılardır:

**1.** Beynəlxalq münaqişələrin tənzimlənməsində hərbi gücdən istifadə edilməməsi;

**2.** Başqa dövlətlərə nisbətən mövcud olan hərbi üstünlük strategiyasından imtina edilməsi;

**3.** Dövlətin təhlükəsizliyi onun hərbi gücündən asılı olmamalıdır;

**4.** Silahlı qüvvələrin ixtisarının qəbul edilməsi və ümumi təhlükəsizlik prinsipi çərçivəsində silahlanmağa yol verilməsi.

Kollektiv təhlükəsizlik ideyası da qədim tarixə malikdir. Lakin əsasən XX əsrdən praktiki baxımdan təcrübədən keçirilməyə başlanmışdır.

Dövlətlərarası əməkdaşlıqda bu dövlətlərin hər hansı birinə edilən təcavüz bütün digərlərinə qarşı təcavüz hesab edilir. Belə halda kollektivin bütün üzvləri birgə tədbirlər görürlər. Bu kollektiv təhlükəsizlik adlanır. Bununla da kollektiv təhlükəsizlik rejimi ümumi sabitlik yaranmasına səbəb olur.

Əməkdaşlığa əsaslanan təhlükəsizlik rejiminin də kollektiv təhlükəsizlik rejimi ilə müəyyən oxşarlığı vardır. Burada da birgə fəaliyyət nəzərdə tutulur. Burada təhlükəsizliyin təmin edilməsi barədə dövlətlərarası diplomatik əməkdaşlıqlara üstünlük verilir.

## 2.Beynəlxalq təhlükəsizliyin hərbi-siyasi cəhətləri

Soyuq müharibə illərinin qurtarması ilə əlaqədar olaraq böyük miqyaslı hərbi münaqişələr nisbətən azalmışdır. Nüvə silahının tətbiqi demək olar ki, aradan götürülmüşdür. Nüvə silahı təhlükəsizliyin təmin edilməsi mexanizmlərindən biri kimi bu silah növünün yayılmaması barədə keçirilən rejim böyük rola malikdir. Belə bir rejim 1968-ci üdə müqavilə ilə təsbit edilmişdir. Burada müəyyən tələblər də öz əksini tapmışdır.

Hazırda dünyada nüvə silahının yayılmaması barədə belə bir vəziyyət yaranmışdır. Nüvə silahına malik olan və yaxud belə bir iqtisadi, texnoloji imkanı olmayan dövlətləri beş qrupa bölmək olar.

Birinci qrupa nüvə silahına malik olan, rəsmi qaydada qəbul edilmiş beş ölkə daxildir. Bunlar - ABŞ, Rusiya, Çin,

**Böyük Britaniya və Fransadır.** Bu dövlətlər eyni zamanda BMT-nin təhlükəsizlik şurasının daimi üzvləridir. Aydındır ki, bu dövlətlərin nüvə ehtiyatları da müxtəlifdir. Burada ABŞ və Rusiya fərqlənirlər. Rəsmi cəhətdən tanınmış bu dövlətlər dünya üçün elə bir təhlükə deyildirlər. Bu dövlətlər bu məsələdə çox ehtiyatlı və məsuliyyətlidirlər. **Onlar bu məsələyə Itıərbi fəaliyyət vasitəsi kimi deyil, siyasət yeridilməsi vasitəsi kimi baxırlar.**

**İkinci qrupa İsrail, Pakistan və Hindistan daxildir.** İsrail - 1970-ci illərdən, Hindistan və Pakistan isə 1998-ci ildən belə silahlara malikdirlər. Bu dövlətlər nüvə silahlarının yayılması barədəki müqavilədə iştirak etmirlər. İsrail nüvə silahının həcmi barədə heç bir məlumat vermir.

**Üçüncü qrup Əlcəzair, Liviya, İran, İraq, Şimali və Cənubi Koreya və digər dövlətlərdən ibarətdir.** Bunlardan Cənubi Koreya, Əlcəzair və Liviya nüvə silahı hazırlamaq planından imtina etmişlər. **İran, İraq və Şimali Koreya Xalq Demokratik Respublikası** isə Amerika mütəxəssislərinin deyiminə görə daha təhlükəlidirlər.

Odur ki, ABŞ həmişə bu dövlətləri təzyiq altında saxlamağa çalışır. Onu da qeyd etməliyik ki, ABŞ tərəfindən İraqın darmadağın edilməsi və Səddam Hüseynin öldürülməsinə baxmayaraq orada kütləvi qırğın silahı aşkar edilməmişdir.

**Dördüncü qrup dövlətlər Əlcəzair, Argentina və Braziliya hesab edilir.** Bu dövlətlər əvvəllər nüvə silahı hazırlamaq sahəsində tədqiqat işi aparırdılar. Sonra bu plandan imtina etmiş və nüvə silahı olmayan dövlətlər kimi **1968-ci il** müqaviləsinə qoşulmuşlar.

**Keçmiş Sovet Respublikalarından - Belarusiya, Qazaxıstan və Ukrayna da bu qrupa yəni beşinci qrupa daxildir.** Onlann ərazilərində Rusiyanın strateji hərbi mərkəzləri vardı. Bu mərkəzlərin Rusiyaya keçirilməsi ilə bu

dövlətlər də 1968-ci il müqaviləsində (nüvəsiz dövlət kimi) iştirak edirlər.

1987 - 1990-cı **illərdə** bir çox silahlann ləğv edilməsi barədə ABŞ ilə SSRİ arasında yeni müqavilə bağlanmışdı. **2002-2003-cü illərdə** yenə müqavilə bağlanmışdır.

Nüvə silahından başqa kütləvi qırğın silahı kimi kimyəvi və bakterioloji vasitələr də mövcuddur. Bu növ silahlar da tam qadağan edilibdilər.

**1972-ci ildə** beynəlxalq sazişə əsasən bakterioloji, toksiki silahlar hazırlanması da qadağan edilibdir.

Be)məlxalq təhlükəsizliyin təmin edilməsində bu kimi kütləvi qırğın silahlan üzərində olan nəzarətdən başqa adi silahların və hərbi qüvvələrin məhdudlaşdırılması sahəsində də ciddi iş aparılır. Bu sahədə Avropa qitəsində olan nailiyyətləri qeyd etmək olar.

**Avropanın tarixini vərəqlədikdə demək olar ki, bu fasiləsiz silahlı münaqişələr tarixi olmuşdur.** XX əsrdə iki dünya müharibəsi də Avropada başlanmışdı. Uzun müddət Avropanın mərkəzində müharibə təhlükəsi mövcud olmuşdur. Belə bir vəziyyət 1975-ci ilədək davam etmişdir. **1975-ci ildə Helsinki şəhərində "Avropada təhlükəsizlik və əməkdaşlığa dair" razılaşma keçirilmişdir.** Bu müşavirədən soma dövlətlər arasında inam artmış, hərbi təhlükə azalmışdır.

Eyni zamanda adi hərbi qüvvələrin azaldılması barədə razılaşmalar da əldə edilmişdir. Nəhayət Avropada silahlı qüvvələr barədə (Vyanada) 1990-cı ildə müqavilə bağlanmışdır. Lakin etiraf etməliyik ki, Avropada hərbi qarşıdurma vəziyyətinin azaldılması praktikası başqa regionlara o qədər də yayılmamışdır.

## 3.Terrorizin və ona qarşı mübarizə problemi

**“Terror** ” və **“Terrorizm”** anlayışları 200 ildən artıq bir müddətdir ki, siyasi lüğətə daxil olubdur. Demək olar ki, müasir dövrdəki terrorizmin kökü böyük fransız inqilabındakı hadisələrdə yaranmışdı. Çünki **inqilabi terrorizm terrorizmin ilk növü hesab edilə bilər.**

Qərbi Avropada ilk inqilabçı terroristlər - Babuvistlər, Blankistlər, Anarxistlər, Rusiyada xalqçılar öz hərəkətləri ilə hökumət işinə qanşır, idarəçilik orqanlannı qorxutmağa çalışırdılar. Beləliklə XX əsrdə inqilabı zorakılıq bir növ sosial və Milli problemlərin həlli vasitəsinə çevrilmişdi.

**XIX** əsrdə sol-inqilabçı terrorçuluğun əksinə sağ terroristlər meydana gəlmişdir. **İnqilabçılar** müxtəlif yollarla ictimai tərəqqiyə çalışırdılar. **Sağlar** isə bir çox çatışmazlıqları milli, irqi fərqdə görürdülər. Hər halda öz ideoloji əsasına görə sol və sağ terrorizmin hər ikisi siyasi fenomendir.

Beynəlxalq münasibətlərin xarakterinə və gedişinə bir çox ciddi amillərlə yanaşı terrorizm kimi gözlənilməz faciəli hadisələr də təsir edir. **Terrorizm siyasi məqsədə çatmaq üçün istifadə edilən zorakılıq metodudur.** Məhz bu yolla dövlət orqanlarına beynəlxalq və ictimai xadimlərə, ayrı-ayrı şəxslərə və qruplara təsir etməyə çalışırlar.

**XX - XXI əsrlərdə** terrorizm problemi və ona qarşı mübarizə aparılması ayrı-ayrı dövlətlərin və bütünlükdə dünyanın ən vacib problemlərindən birinə çevrilmişdi.
**XIX - XX əsrlərdə** terroristlər fərdi terror metodu ilə hərəkət edərək siyasi və dövlət xadimlərini öldürürdülər. Müasir dövrün terroristlərinin qurbanı isə çox vaxt heç nə ilə qorunmayan, günahsız sakinlər olur. Keçmişdə terroristlər öz hərəkətinə bəraət qazandırmağa çalışırdılar.

**Müasir dövrün terroristləri çox vaxt utanmazlıq, düşmənçilik, əxlaqsızlıq nümayiş etdirirlər.** Tam məsuliy-

' ***Terror latınca - qorxu, zorakılıq deməkdir.***

yətlə qeyd etmək olar ki, erməni terroristləri də belə hesab edilirlər. Son dövrlərdə terrorizm həyata keçirmək vasitələri də dəyişmişdir. Belə ki, əvvəllər soyuq silah və yaxud odlu silahdan istifadə edilirdisə, müasir dövrdə partlayıcı maddələrdən istifadə olunur. Son on illiklərdə terroristlər qazdan zəhərləyici maddələrdən, hətta sərnişinlərlə birlikdə təyyarəni həbs edərək girov götürmək kimi metodlardan istifadə edirlər.

İnsan ölümü və maddi dəyərlərin dağıdılmasından başqa, terrorizm digər neqativ nəticələr də doğurur. Məsələn, terrorizm qorxusu yüksək olan regionlarda işgüzarlıq həvəsi zəifləyir, iqtisadi itki baş verir.

**İspaniyada Baskları, İsraili və Fələstin ərazisini, Dağlıq Qarabağı buna misal göstərmək olar.** Aydındır ki, terror hərəkətinin ilkin obyekti dövlət xadimləri və müəssisələrdir. İkinci obyektləri isə dövlətin fəaliyyəti daxilində olan ictimai münasibətlərdir. Deməli terrorizm hər bir dövlət hakimiyyəti üçün təhlükədir.

Həmişə olduğu kimi son on illiklərdə də terrorizm əleyhinə mübarizə aparmaq üçün hüquqi baza yaradılır və bir çox beynəlxalq sazişlər həyata keçirilir. Bu sazişlərdə dövlətlərin birgə qarşılıqlı fəaliyyəti - öhdəçilikləri əsas götürülür. Bu sazişlərdən 1963-cü ildə Tokio (Yaponiya) sazişini, 1973- cü ildə Haaqa (Niderland) sazişini, 1970-ci ildə Monreal (Kanada) sazişini, 1973-cü və 1979-cu illərdə Nyu-York (ABŞ) sazişlərini göstərmək olar. Terrorizmə qarşı birgə mübarizə aparmaq üçün 2000-ci ildə dövlətlərarası əməkdaşlıq proqramı hazırlanmışdır. Onu da qeyd etməliyik ki, 2001-ci ilin sentyabr ayının 11 -də Nyu-yorkda məlum **ticarət mərkəzinin** partladılmasından sonra terrorizmə qarşı mübarizə daha da güclənmişdir. Bütün bunlara baxmayaraq beynəlxalq münasibətlərin tarixindən görünür ki, terrorizmə qarşı mübarizədə bəzi dövlətlərin əməkdaşlığı o qədər də səmimi olmur. Bir çox digər məsələlərdə olduğu kimi burada da ikili standartlara yol verilir.

## **X** Fəsil.
## BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ SİYASƏT VƏ HÜQUQ

1. Beynəlxalq münasibətlərdə əxlaq, hüquq və siyasət.
2. Beynəlxalq hüquq.
3. Beynəlxalq hüquq norma və prinsipləri.
4. Müasir dünya və beynəlxalq hüquq.

### 1. Beynəlxalq münasibətlərdə əxlaq, hüquq və siyasət

1. Biz keçmiş fəsillərdə beynəlxalq münasibətlərdə əsasən inzibati-iqtisadi amillərin şərhinə üstünlük vermişik. Bu fəsildə isə hüquqi, siyasi amillərlə yanaşı əxlaq (mənəviyyat) normalarının yeri məsələsi də araşdırılır.

Deməli beynəlxalq münasibətlərin sosial normalarla tənzimlənməsi dedikdə, əlbəttə əxlaq (mənəviyyat) normaları, siyasi hüquq normaları nəzərdə tutulur.

Aydındır ki, bu normalann hər birinin özünəməxsus üstünlükləri və yaxud çatışmazlıqları da vardır. Hər halda bu normalara riayət edilmədən sağlam beynəlxalq həyat barədə fikirləşmək olmaz.

Əvvəlcə siyasi normalar barədə öz mülahizələrimizi qeyd edək. Siyasi normalar dedikdə dövlət tərəfindən müəyyən edilən davranış qaydalan və onlara riayət edilməsi nəzərdə tutulur.

Məsələn iki dövlət ümumi düşməndən qorunmaq üçün öz aralarında razılığa gəlirlər. Bu ittifaq yazılı və yaxud şifahi ola bilər. Neçə ki, burada hər iki tərəf üçün ümumi məqsəd və ümumi mənafe vardır, onlar götürdükləri öhdəçiliyi yerinə yetirirlər. Lakin ümumi məqsəd bitdikdən sonra mənafelər də üst-üstə düşmür. Beləliklə, birgə hərəkət etməyin motivi də aradan qalxır. Mənafelərin və məqsədlərin dəyişməsi nəticə

sində bir çox hallarda ayrı-ayn tərəflər götürdüyü öhdəçiliyi yerinə yetirməkdən imtina edirlər. Belə şəraitdə digər tərəfin beynəlxalq təşkilatlara və yaxud hüquq sahələrinə müraci;ıt etməsi yersizdir. Çünki bu kimi razılaşmalar, öhdəçiliklər hüquqi gücə malik deyildir.

Onu da qeyd etməliyik ki, siyasi normalar nisbi məna daşıyırlar. Bu normalar hər bir dövlətin cari mənafeyindən asılıdırlar. Odur ki, uzun müddət üçün bu normalaıra əsaslanmaq olmaz. Siyasi normalar müxtəlif bəyannamələrdə, razılaşmalarda və bəyanatlarda öz əksini tapmış olur. Çox vaxt siyasi normalarla beynəlxalq hüquq normalarının mənbələri oxşarlıq təşkil edirlər. Çünki, hər iki halda yazılı sənədlər yuxarı səlahiyyətli dövlət nümayəndələri tərəfindən imza edilir.

**Bu fəsildə digər bir problem əxlaq normalarının beynəlxalq** münasibətlərə və beynəlxalq siyasətə təsiri məsələsidir.

**Qeyd etməliyik ki, əxlaq normaları dedikdə istər fərdi qaydada və istərsə də cəmiyyət miqyasında mədəmi səviyyə, mədəni davranış qaydası, insanın cəmiyyətə qarşı rəftarı, cəmij'yət qarşısındakı borcunun, məsuliyyətinin dərk edilməsi və bu kimi normalar sistemi nəzərdə tutulur.** Əlbəttə bütün bu normalar adi adamlardan daha çox və əsasən dövlət idarəçiliyi adamlarına aid olmalıdır. **Çünki** beynəlxalq **münasibətlər və beynəlxalq siyasət dedikdə bu əxlaq normalarının mahiyyətinə daha yuxarı səviyyədə baxırıq.** Bu kimi amillərin beynəlxalq münasibətlərə və beynəlxalq siyasətə təsiri məsələsinə dair fikir müxtəlifliyi mövcuddur.

Belə ki, beynəlxalq siyasətin araşdırılmasında **realist yanaşma** baxışlarının davamçısı olan **Nikola Makiavelli** (keçmiş fəsillərdə) istər daxili və istərsə də xarici (beynəlxalq) siyasətdə əxlaq nomıaları məsələsini kənara qoymağın tərəfdarı idi.

**V.İ.Lelin də göstərirdi ki, siyasətdə əxlaq yoxdur, -i-ancaq məqsədyönlülük vardır.**

Alman filosofu İ.Kant isə bunlara əks fikirdə idi. O göstərirdi ki, hüquqa, eləcə də dövlət və siyasətə baxanda **əxlaq normaları, mənəviyyat birincidir.**

Aydındır ki, bu kimi fikirlər hər şeydən əvvəl əxlaqla siyasətin qarşılıqlı münasibətlərinin mürəkkəbliyindən irəli gəlir.

Əlbəttə yüksək sivilizasiya şəraitində ictimai qarşılıqlı münasibətləri adət-ənənə əsasında formalaşmış əxlaqla tənzimləmək olar. Burada artıq siyasətsiz ötüşmək olar.

Əxlaq qaydalannda müəyyən çatışmazlıqlar yarandıqda onun tamamlayıcısı kimi **siyasət meydana** gəlir. Deməli **siyasətlə əxlaqın əsas sosial funksiyaları üst-üstə düşür.** Lakin onlann baza cəhətdən səciyyələndirilməsi fərqlənir.

Alman filosofu K.Smit göstərirdi ki, ictimai hadisələri mənəvi cəhətdən qiymətləndirdikdə iki anlayış yada düşür - "Xeyir" və "Şər" (yaxşı-pis).

**Siyasi** cəhətdən qiymətləndirdikdə isə eyni dərəcədə düzgün olan **"özümün-başqasının"** sözlərinə əsaslanırsan.

Onu da qeyd etməliyik ki, bir çox hallarda müəyyən məsələlərin həllində siyasi prinsiplər əxlaq-mənəvi cəhətlərlə əvəz edilir. Belə olduqda siyasi həyatda da qeyri-mənəvi cəhətlər baş verir.

Məsələn bəzən çox qürurla deyirlər ki, ABŞ 200 illik demokratiyaya malikdir. Lakin belə bir dövlətdə hər vaxt prezidentliyə seçki kompaniyası keçiriləndə **ermənilərə soyqırımı** (genosid) edilməsi məsələsi qaldırılır. Və yaxud Türkiyə ilə bağlı hansı bir məsələ müzakirə edildikdə yenə də **"soyqırım" məsələsi** ortaya atılır. **Əxlaqla - mənəviyyatla siyasi prinsiplərin qarışdırılması burada özünü daha aydın** büruzə vermiş olur.

Bununla da aydın görünür ki, bəzi siyasi xadimlər əks tərəfin qeyri-mənəvi hərəkətlərinə əsaslanaraq öz həmfikir-

***Kant İmmanuil (1724-1804). Alman klassik fəlsəfəsinin yaradıcısı.***

larinin, tərəfdarlanmn qeyri-əxlaqi davranışına göz yumurlar. Deməli siyasi fəaliyyətdə, siyasi həyatda qeyri-əxlaqi cəhətlərə yol verməmək üçün etik normalara riayət edilməsi üzərində ciddi nəzarət olmalıdır.

Bu məsələnin izahında **Alman sosioloq və tarixçisi** (iqtisadçı və hüquqşünas) Maks Veberin də (1864-1920) maraqlı yanaşması vardır.

M. Veber burada iki anlayışın şərhinə geniş yer vermişdir. **“İnam (əqidə) etikası” və “məsuliyyət etikası”.**

**“İnam etikası”** dedikdə insan öz hərəkətində birdəfəlik əxlaq normalarına tabe olub-olmamasını müəyyənləşdirir.

**İkinci halda isə - yəni “Məsuliyyət etikası”nda** isə hər hansı bir vəziyyətin harada və nə zaman baş vemıəsindan asılı olaraq insan öz hərəkətini müəyyənləşdirir. **Veberin** mülahizələrinə əsaslanan **Henri Morqentau “Beynəlxalq münasibətlər”in** tənzimlənməsində əxlaqın yeri və rolu barədə öz fikirlərini formalaşdırmışdır.

**H.Morqentau**[1] **, P.Aron**[2] **və Beynəlxalq münasibətlər nəzəriyyəsi** üzrə digər mütəxəssislər belə hesab edirdi ki, xarici-siyasi qərar qəbul edən dövlət xadimləri mənəvi baxımdan **ehtiyatlı, səbirli** olmalıdır. Onlar hər hansı bir məqsəd və bu məqsədə nail olmaq arasmdakı qanunauyğunluğu əlaqələndirməyi başa düşməlidirlər.

Bu müddəaları əsas götürsək qətiyyətlə demək olar ki, 2012-ci ilin əvvəlində Fransanın parlamentində Türkiyə tərəfindən (1915-ci ildə) ermənilərə qarşı soyqırımı edilməsinin qəbul edilməsi çox yanlış və məsuliyyətli bir addımdır.

Onu da qeyd etməliyik ki. Beynəlxalq əxlaq normalarının formalaşması hələ çox qədimlərdən beynəlxalq hüquq normalarının formalaşması ilə yanaşı baş vermişdir. Lakin

[1] ***Morqentau (1891-1967) 1934-45-ci illərdə ABŞ-ın maliyyə naziri.***
[2] ***P. Aron (1905-83) Fransa sosioloqu.***

əxlaq normalarının təkamülü qismən də olsa beynəlxalq hüquq normalanmn inkişafını qabaqlamışdır.

Təcavüz, başqa əraziləri zəbt etmək, qul ticarəti, müstəmləkəçilik və digər qeyri-mənəvi (qeyri-insani) hərəkətlər barədə təsəvvürlər qədimdən də məlumdur. O dövrün hüquq normaları baxımından bu kimi hadisələr qanunauyğun hesab edilirdi. Ancaq XX əsrdən sonra Beynəlxalq hüquq bu məsələlərə **Beynəlxalq əxlaq normaları** baxımından yanaşmağa başlamışdır.

Onu da qeyd etməliyik ki. Beynəlxalq münasibətlərə əxlaq normalarının təsiri mexanizmi o qədər də geniş deyildir. Bu mexanizmi iki formada özünü göstərir:

1. Ayrı-ayrı adamların idrakı, inamı səviyyəsində;
2. İctimai rəy-ictimai fikir səviyyəsində.

**Birinci** halda belə qərar qəbul edən hər bir şəxs üçün əxlaq normaları nəzərə alınır, öz vəzifə borcunu vicdanla yerinə yetirir və qeyri-əxlaq normalanna yol vermir. (Aydındır ki, hakimiyyətdə əxlaqsız adamlar da ola bilər. M. A.Hitler kimi)

**ikinci.** Əxlaqın beynəlxalq siyasətə təsirinin ikinci yolu. Burada ictimai rəyi öyrənən inkişaf etmiş institut tələb olunur. **Avtoritar və totalitar** sistem şəraitində müstəqil bir varlıq kimi ictimai rəy mövcud olmur. **Demokratik** cəmiyyətdə isə ictimai rəyin siyasətə təsiri hər vaxt eyni səviyyədə olmur. Məsələn seçki kompaniyalarında ictimai rəyə ehtiyac artır.

Qeyd etdiklərimizdən aydın olur ki, siyasi və mənəvi normalar beynəlxalq münasibətlərə təsir etmək imkanına malikdirlər.

Hər halda müasir dünyada sabitliyin və təhlükəsizliyin təmin edilməsində beynəlxalq hüquq normaları və prinsiplərinin rolu daha böyükdür.

## 2. Beynəlxalq hüquq

Beynəlxalq hüquq dedikdə dövlətlərarası və beynəlxalq hüququn digər subyektləri arasındakı münasibətləri tənzimləyən hüquq prinsipləri və normalarımn məcmusu nəzərdə tutulur.

Beynəlxalq hüququn subyekti beynəlxalq hüququn daşıyıcılarıdır.

Bu subyektləri iki kateqoriyaya bölmək olar:

1. Birinci və yaxud ilkin subyektlər-müstəqil subyektlər;
2. Törəmə subyektlər (qeyri müstəqil subyektlər).

**Beynəlxalq hüququn ilkin subyekti dedikdə dövlət - xalq - millət başa düşülür.**

Dövlət beynəlxalq hüququn əsas aparıcısıdır. Məhz suverenlik onu başqa subyektlərdən fərqləndirir.

Beynəlxalq hüququn törəmə **(qeyri suveren) subyektləri dedikdə** hökumətlərarası təşkilatlar və dövlətin yaratdıqları dövlət-xidmət qurumları nəzərdə tutulur.

Bəzi siyasi-ərazi qurumları da Beynəlxalq hüquq statusundan istifadə edirlər. **Məsələn, azad şəhər, dövlət tipli şəhər və s.** Azad şəhər Polşada Krakov (1815), Polşada Dançik (1919); Şimali İtaliyada Triest (1947), Qərbi Berlin və s.

**Vatikan - şəhər, dövlət hesab edilir.** Beynəlxalq hüququn əsas subyekti olan dövlət üç cəhəti ilə səciyyələnir - **əhalisi, ərazisi və müstəqil hakimiyyəti ilə.**

Beynəlxalq hüquq aşağıdakı fıınksiyalan yerinə yetirir:

- Tənzimləyici funksiya;
- Təminedici funksiya;
- Mühafizəedici funksiya.

Tarixi baxımdan yanaşdıqda Beynəlxalq hüquq da dövlətin yaranması və beynəlxalq münasibətlərin baş verməsi ilə əmələ gəlmişdir. Qədim dünyada beynəlxalq hüquq hüquq adətləri kimi çıxış edirdi, (məsələn barışıq adətləri).

Orta əsrlərdə beynəlxalq hüquq praktikasına suverenlik, açıq dəniz, neytral kimi anlayışlar daxil olmuş, səfirliklər meydana gəlmiş, yeni, daha təkmil müqavilələr yaranmışdır.

**Hollandiya hüquqşünası H.Qrosiya^ (1583-1645)** və onun davamçıları bu problemə dair bir çox əsərlər yazmışlar. O vaxtdan, da "Beynəlxalq hüquq" müstəqil bir elm sahəsi kimi tədqiq edilmişdir.

XVII-XVIII əsrlərdəki inqilablardan sonra beynəlxalq münasibətlərin formalaşmasında və eləcə də beynəlxalq hüquq sahəsində keyfiyyət dəyişiklikləri baş vermişdir. Beynəlxalq münasibətlərə yeni ideyalar daxil olmuşdur. **Bərabərlik, suverenlik, daxili işlərə qarışmamaq, dövlət ərazisinin toxunulmazlığı, insan hüquqları və azadlığı və s.**

**1815-ci** ildə Vyana konqresinə əsasən ilkin olaraq **Diplomatiya hüququ** qanun halına salınmışdı. **1856-cı ildə Parisdə "dəniz müharibəsi üçün bir qrup hüquq normaları"** hazırlanmışdı.

Müharibə aparılması və vəhşilik metodlarına qarşı **1899-cu** ildə **Haaqada** Konfrans keçirilmiş və beynəlxalq saziş əldə edilmişdir. **1905-1907-ci** illərdə yenə də **Haaqada Konfrans** keçirilmiş **"beynəlxalq mübahisələrin** həlli hüququ" barədə razılıq əldə edilmişdir.

Beynəlxalq miqyasda iqtisadi, texniki, hərbi və s. əlaqələrin artması ilə bağlı olaraq beynəlxalq müqavilələr və beynəlxalq sazişlər yaranmışdır.

Birinci Dünya müharibəsindən sonra **1919-cu** ildə ilk universal beynəlxalq təşkilat olan **Millətlər Liqası** təsis edilmişdir. **1945-ci** ildə **BMT** kimi nüfuzlu bir institut yaranmışdır. **1970-ci** illərdən böyük dövlətlər tərəfindən bir çox beynəlxalq- hüquq normaları işlənib hazırlanmışdır. *

* ***Qrosiya (Qito de Qrost 1583-1645). Holland hüquqşünas, sosioloq, dövlət xadimi, əsər, (azad dəniz)-1609; Müharibə və sülh hüququ haqqında - 1625 və s.).***

## 3. Beynəlxalq hüquq norma və prinsipləri

Beynəlxalq hüquq problemində beynəlxalq-hüquq normaları əsas yeri tutur. Bu hüquq normaları müəyyən sahələr üzrə beynəlxalq hüquq institutları vasitəsi ilə qruplaşdırılır.

Beynəlxalq hüququn əsas mənbəyi **Beynəlxalq müqavilələr** hesab edilir. Beynəlxalq müqavilələr ayrı-ayn tərəflərin qarşılıqlı hüquq və öhdəçiliyini özündə əks etdirir.

**Beynəlxalq hüququn** digər mənbəyi **Beynəlxalq adətlərdir.** Beynəlxalq hüququn bu normaları heç yerdə yazılmamışdır. Lakin elə əxlaq qaydaları vardır ki, bunlara mütləq riayət edilməlidir.

Beynəlxalq təşkilatlann qərarları beynəlxalq hüququn mənbəyi **hesab edilmir.** Lakin hüquq normalarının formalaşmasında əlbəttə bu təşkilatların rolu vardır.

**Məsələn BMT-nin təhlükəsizlik şurası BMT-nin** nizanmaməsinin **25-ci** maddəsinə əsasən üzv olan dövlətlər üçün qərar qəbul edir. Lakin belə qərarlar ayrı-ayrı halları nəzərdə tutur və mövcud olan beynəlxalq hüquq normalarına uyğun olmalıdır.

Bütün Beynəlxalq hüquq normalarım fəaliyyət dairəsinə görə aşağıdakı təsnifata ayırmaq olar: **universal, lokal, və regional.** Lakin normativ fəaliyyət gücünə görə isə **imperativ və dispozitiv** normaları fərqləndirmək olar.

Beynəlxalq hüququn **universal normaları** beynəlxalq hüququn bütün subyektləri üzrə olan münasibətləri tənzimləyir. Universal normalar beynəlxalq hüququn ən ümumi cəhətlərini özündə əks etdirir.

**Lokal normalar** məhdud iştirakçılar çərçivəsində fəaliyyət göstərir. Bu normaların əsas mənbəyi ümumi beynəlxalq hüquqa daxil edilmir.

**Regional normaların** fəaliyyəti regional çərçivədə beynəlxalq hüququn subyektlərinə aid edilir.

**İmperativ normalar** dedikdə bu normaların dəqiqliyi, konkret həddi nəzərdə tutulur. Beynəlxalq hüququn subyektləri öz hüquq və öhdəliklərinin həcmini, məzmununu dəyişə bilməzlər.

**Dispozitiv normalar dedikdə** beynəlxalq hüquq çərçivəsində subyektlər müəyyən razılaşmalar əsasında öz qarşılıqlı hüquq və öhdəliklərini dəyişdirə bilərlər.

**Beynəlxalq hüququn prinsipləri onun əsasını təşkil edir.** Bütün subyektlər üçün eyni prinsiplər mövcuddur. Bu prinsiplər adət-ənənə və müqavilələrə əsasən formalaşır.

**İlk əvvəllər** beynəlxalq hüquq prinsipləri beynəlxalq-hüquq **adətləri** formasında özünü göstərirdi. BMT-nin nizamnaməsinin qəbul edilməsi ilə bu prinsiplər **müqavilə - hüquq forması** almışdır.

**1960-cı ildə** BMT-nin nizamnaməsinin prinsiplərinin dəqiqləşdirilməsi üzərində geniş iş apanimasma başlanmışdır. Bu işlə bağlı olaraq 1970-ci ildə BMT-nin Baş Asambleyası beynəlxalq hüquq barədə bəyannamə qəbul etmişdir. Burada dövlətlərarası dostluq münasibətləri və əməkdaşlığın inkişaf prinsipləri öz əksini tapmışdır.

Bəyannamədə 7 əsas prinsip təqdim olunmuşdur:

1. Güc tətbiq edilməməsi prinsipi;
2. Mübahisələrin sülh yolu ilə həll edilməsi;
3. Dövlətlərin suveren bərabərliyi;
4. Bir-birinin daxili işlərinə qarışmamaq;
5. Xalqların öz müqəddəratım təyin etmək hüququ;
6. Əməkdaşlıq etmək prinsipi;
7. Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi.

Onu da qeyd etməliyik ki, Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair **Helsinski** razılaşmalarının yekun aktında yenidən üç prinsip də əlavə edilmişdir.

**1.** S ərhədlərin toxunulmazlığı;
**2.** İnsan hüququna və azadlığına hörmət edilməsi;

**3.** Dövlətin ərazisinin bütövlüyü məsələsi.

Beynəlxalq hüququn bütün bu prinsiplərini iki qrupa bölmək olar:

**Birinci** qrupa daxil edilən prinsiplər - Sülhün saxlanılması və ümumi təhlükəsizliyin təmin edilməsi prinsiplərini özündə birləşdirir. Məsələn: **güc tətbiq edilməməsi; beynəlxalq mübahisələrim sülh yolu ilə həll edilməsi; dövlətlərin ərazi bütövlüyü; sərhədlərin toxunulmazlığı və s..**

**İkinci qrup prinsiplər** isə aşağıdakılardan ibarətdir:

Dövlətlərin suveren bərabərliyi; dövlətlərin bir-birinin daxili işinə qarışmaması; xalqların bərabərhüquqlu olması və öz müqəddəratını təyin etməsi; dövlətlərin əməkdaşlığı prinsipi; insan hüququna hörmət edilməsi prinsipi; beynəlxalq öhdəçiliklərin vicdanla з'^erinə yetirilməsi prinsipi.

**1648-ci** ildən məlum **Vestfal'** müqaviləsinə əsasən Avropa dövlətləri bir-birinin suverenliyinə hörmətlə yanaşmağa başlamışlar. Lakin faktiki olaraq - dövlətlərin suveren bərabərliyi prinsipi XX əsrdə bərqərar olmuşdur. Bu vaxtadək böyük və **kiçik dövlət, xristian, qeyri-xristian dövlət** və bu kimi bölgü formaları vai'dır.

Aydındır ki, beynəlxalq hüququn bu normaları və prinsiplərinə riayət edilməsi bütün dövlətlərin əsas öhdəçiliklərindən biridir. Lal:in real siyasi proseslərdə bu o qədər də asan deyildir. Bu yalnız tarixi baxımdan deyil, son dövrlərdə beynəlxalq münasibətlərin praktikasında da özünü göstərir.

## 4. Müasir dünya və beynəlxalq hüquq

Aydındır ki, beynəlxalq hüquq norma və prinsiplərinin həyata keçirilməsi mexaniki olaraq baş verə bilməz. Çox vaxt bu proses siyasi mübarizələrlə rastlaşır. Milli mənafelərlə

***1648-ci ildə Vestfal sülh müqaviləsinə əsasən bir çox ərazi və siyasi hüquqi razılaşmalar əldə edilmişdir.***

dövlətlərin mənafeyi üst-üstə düşmür və s. Bu baxımdan insan hüquqlan və azadlıqlannm qorunması və təmin edilməsi sahəsindəki norma və prinsiplərin yerinə yetirilməsində də mürəkkəbliklər az deyildir.

BMT-nin nizamnaməsində ilk dəfə olaraq birbaşa qeyd edilmişdir ki, insan hüququ məsələsində dövlətlər arasında (müqavilə əsasında) əməkdaşlıq olmalıdır. **1948-ci** il dekabr ayının 10-da BMT-nin Baş Asambleyası insan hüququ barədə bəyannamə qəbul etmişdir.

Bu normalann daha da dəqiqləşdirilməsi məqsədi ilə yenidən **1966-cı** ildə iki sənəd qəbul edilmişdir.

Vətəndaşlıq və siyasi hüquq barədə **beynəlxalq pakt; iqtisadi, sosial və mədəni hüquq barədə beynəlxalq pakt.** Bu sənədlər **1976-cı** ildən qüvvəyə minmişdir.

Bütün bunlarla yanaşı ayn-ayn dövrlərdə də bu barədə bir çox rəsmi sənədlər olmuşdur. Belə ki, **1950-ci** ildə Avropa beynəlxalq sazişi (1953-cü ildə qüvvəyə minmişdi); **1969-cu** ildə Amerika sazişi (1978-ci ildə qüvvəyə minmişdi); **1981-ci** ildə Afrika xartiyası (1988-ci ildə qüvvəyə minmişdi); 1994-cü ildə Ərəb xartiyası; 1995-ci ildə MDB sazişi və s.

İnsan hüququ **iki səpgidə vətəndaşlıq və siyasi baxımdan və sosial-iqtisadi** baxımdan araşdırılmışdır.

**Vətəndaşlıq və siyasi hüquqa** aşağıdakılar aid edilir:

1. Bərabərlik və irsi eynilik;
2. Yaşamaq hüququ;
3. Dövlət idarəçiliyində iştirak etmək hüququ;
4. Qeyri insani yanaşmalardan qorunmaq hüququ;
5. Azadlıq və şəxsi toxunulmazlıq hüququ;
6. Öz yaşayış yerini dəyişmək hüququ;
7. Fikir, vicdan və dini azadlıq hüququ;
8. Öz fikrini bildirməkdə azadlıq hüququ;
9. Dinc məqsədlər üçün yığışmaq hüququ;
10. Birlik yaratmaqda sərbəstlik hüququ.

**Sosial-iqtisadi hüquqa** aşağıdakılar aiddir;

1. Əmək hüququ;
2. Ədalətli və yaxşı şəraitli əmək hüququ;
3. Həmkarlar yaratmaq hüququ;
4. Tətil hüququ;
5. Sosial təminat hüququ;
6. Ailə, ana və uşaqların mühafizəsi hüququ;
7. Həyat səviyyəsinin artınıması hüququ;
8. Təhsil hüququ və mədəni həyatda iştirak etmək hüququ.

Beləliklə, insan hüququ sahəsində daha effektivli əməkdaşlıq etmək üçün kifayət qədər nəzarət mexanizmi hazırlanmışdır. Aydındır ki, bu nəzarət mexanizmində BMT daha mərkəzi yer tutur.

Belə ümid etmək olardı ki, soyuq müharibə qurtardıqdan sonra insan hüququnun qorunması barədə sanki elə bir problem olmayacaqdır!

**F.Fukyamm "tarixin sonu"** fikirlərinə görə sərbəst dəyərlər hakim olmalıdır. Praktikada isə bir çox ölkələrdə insan hüququ ilə bağlı olan vəziyyət daha da pisləşmişdir. Bir çox ölkələrdə **öz müqəddəratını təyin etmək** hüququ daxili ziddiyyətləri daha da kəskinləşdirir.

**XX əsrin 80-90-cı** illərindən Çexoslovakiya, Yuqoslaviya Sosialist Federativ Respublikası və SSRİ kimi dövlətlərin parçalanması, dünya sosialist sisteminin dağılması yeni problemlər yaratmışdır.

# XI Fəsil.
# XARİCİ SİYASƏT VƏ DİPLOMATİYA

1. Xarici siyasət üzrə nəzəri baxışlar.
2. Xarici siyasət üzrə qərar qəbul edilməsinin nəzəri və praktiki tərəfləri.
3. Diplomatiya və diplomatiya xidməti.

## 1. Xarici siyasət üzrə nəzəri baxışlar

Məlumdur ki, hər hansı bir siyasətin mahiyyəti müəyyən məqsədi əks etdirir. Burada qarşı tərəfin maraqlanna nəzarət etmək, öz maraqlanna uyğunlaşdırmaq əsas götürülür. Tanınmış poltioloqlardan biri olan Corc Modelski belə iddia edirdi ki, xarici siyasətdə əsas məqsəd qarşı dövlətlərin fəaliyyətini öz dövlətinin xeyrinə tənzimləməkdən ibarətdir. Deməli, xarici siyasət vasitəsilə başqa dövlətin fəaliyyəti öyrənilir, mənimsənilir, ona təsiretmə mexanizmi hazırlanır. Müəyyən dəyişiklik etmə imkanları müqayisə edilir. Xarici siyasətin məqsədləri, prinsipləri, vasitələri, siyasi xadimlərin işləri, xarici siyasətlə daxili siyasətin qarşılıqlı əlaqəsi və s. xarici siyasətin öyrənilməsi elementləri hesab edilirlər. Xarici siyasətə təsir edə bilən hər hansı bir qeyri-siyasi fəaliyyət də xarici siyasətin öyrənilməsi obyekti ola bilər.

Hər bir dövlətin xarici siyasətinin formalaşmasında və həyata keçirilməsində siyasi xadimlər böyük rol oynayırlar. Onlar öz fəaliyyətlərində nəzəri müddəalara əsaslandıqda daha yüksək nəticələr əldə edə bilirlər.

Hər bir dövlətin ictimai-iqtisadi varlığında onun daxili və xarici siyasəti bir-birindən fərqləndirilir. Aydındır ki, bütün başqa sahələrdə olduğu kimi hər bir dövlətin istər daxili və istərsə də xarici siyasəti də müəyyən nəzəri baxışlara, yanaşmalara əsaslanır. Bu yanaşmalar da ya beynəlxalq qurumlar

tərəfindən işlənib hazırlanır və yaxud o sahədə çalışan mütəxəssislərin, alimlərin fikirləri, araşdırmalan əsas götürülür.

Bu məsələdə də Amerika alimi Q.Allisonun fikirləri daha çox marağı cəlb edir. O, xarici siyasətin formalaşdırıl- masmda **üç modeli** fərqləndirmişdir.

**Birinci model** klassik model adlanır. Bu modelə görə xarici siyasətə hər bir dövlətin (hökumətin, rəhbərliyin) düşünülmüş, məqsədyönlü, səmərəli fəaliyyətinin nəticəsi kimi baxılır.

**İkinci modelə** görə xarici siyasət təşkilatlar və proseslər kompleksinin nəticəsi kimi götürülür.

**Üçüncü modelə** görə xarici siyasət liderlərin, müəssisə və təşkilatların (daxili çəkişmələr nəticəsində) sövdələşmələrinin nəticəsidir. Bu model Dağlıq Qarabağ üstündə yaranan münaqişədə Azərbaycanda yaranan müxtəlif qurumların vəzifə uğrunda gedən mübarizəsində istifadə etdiyi siyasətə tam uyğun gəlir.

Q.Allisonun təqdim etdiyi klassik model geosiyasətdə **"siyasi realizm"** baxışlarında da öz əksini tapmışdır. Bu modeldə dövlətin xarici siyasəti, onun necə aparılması ilə eyniləşdirilir. Dövlət bütöv, vahid şəklində götürülür və bir şəxslə eyniləşdirilir. Qədim dünya və orta əsrlər dövrü üçün siyasətə belə baxış düzgün olardı. O dövrdə beynəlxalq münasibətlər faktiki olaraq hakim monarxlar arasında olan münasibətlərdən ibarət idi. Xarici siyasətə bu cür yanaşma özünü doğruldurdu.

Xarici siyasət özlüyündə beynəlxalq aləmdə dövlətin ayn-ayn hərəkətlərini əks etdirir. Hər bir hərəkət müəyyən proseslərin nəticəsini göstərir.

Dövlətin xarici siyasətdə istifadə etdiyi vasitələr (siyasi-diplomatik, iqtisadi, hərbi, hüquqi, informasiya və s.) ayn-ayn qurumlar (Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Maliyyə Nazirliyi və s.) tərəfindən həyata keçirilir. Xarici siyasətdə nəzərdə tutulmuş ümumi məqsədin formalaşmasında

da hər bir qurumun öz mənafeyi vardır. Dövlət aparatına daxil olan hər bir qurum müəyyən məhdud çərçivədə işlər görülməsinə səy göstərir. Dövlət aparatı isə ayn-ayn tədbirlər layihəsini əlaqələndirir.

**Q.Allison üçüncü modelə uyğun gələn bürokratik nəzəriyyə deyilən fikri də irəli sürürdü.** Bu nəzəriyyə müəssisə təsisat nəzəriyyəsi hesab edilir. Yəni xarici siyasət müəssisələr arasındakı mürəkkəb münasibətlərin məcmusu kimi əks oluna bilər. Burada hər bir müəssisənin mənafeyi toqquşmuş olur. Bir çox alimlərin tədqiqatlarında ümumiyyətlə dövlətin siyasətinin və o cümlədən xarici siyasətinin işlənib hazırlanmasında ölkənin elitasımn və obyektiv amillərin rolu məsələsinə də üstünlük verilmişdir.

Real gerçəklikdə hər bir dövlətin xarici siyasətinin formalaşmasında və həyata keçirilməsində qeyd etdiyimiz hər üç modelin elementlərini görmək olar.

## 2. Xarici siyasət üzrə qərar qəbul edilməsinin nəzəri və praktiki tərəfləri

Dövlətin xarici siyasətinin formalaşmasında siyasi xadimlərin fəaliyyəti əsasən iki səviyyədə aparılır:

1. Müəyyən funksiyaların yerinə yetirilməsində yerli ictimaiyyətin fikirlərinin nəzərə alınması;
2. Başqa dövlətlərlə olan fəalij^ətin tənzimlənməsi səviyyəsində.

Göstərilən birinci səviyyədə aparılan fəaliyyəti **«təsir etmək»,** ikinci səviyyədə apanlan fəaliyyət isə **«nəticə»** adlandırılmışdır. Odur ki, bəzi tədqiqatçılar belə hesab edirlər ki, siyasi xadimlər tərəfindən qərar qəbul edilməsi xarici siyasətin əsas məğzini təşkil edir.

Bir çox hallarda dövlət özünün xarici siyasətinin məqsədlərini açıq bəyan etmir, onları başqa məzmunda təqdim

edir. Bu problemdə daxili və xarici siyasətin qarşılıqlı əlaqəsi məsələsinə də xüsusi fikir verilir. Daha doğrusu ölkədaxili sabitlik və yaxud qeyri-sabitlik olması xarici siyasətin vəziyyətinə birbaşa təsir təsir edir.

Ölkədaxili qeyri-sabitlik hər bir dövlətin xarici mövqeyini zəiflədir. Aydındır ki, xarici siyasətdə əldə edilən uğurlar daxili vəziyyətə və daxili siyasətə müsbət təsir göstərir. Hakimiyyət orqanlarının mövqelərinin möhkəmlənməsinə və müxalifətin zəifləməsinə səbəb olur. Beləliklə, xarici siyasət üzrə qərar qəbul edilməsində mövcud olan əsas şərtlərdən biri daxili və xarici siyasətin qarşılıqlı vəziyyətdə olmasıdır.

Beynəlxalq münasibətlərin və eləcə də xarici siyasətin tədqiq edilməsində nəzəri və metodoloji yanaşmalardan geniş istifadə edilir. Bu mənada təbiət və sosial-humanitar elmlərin roluna da üstünlük verilir.

Bu elmlər içərisində **siyasi psixologiya** mərkəzi yerlərdən birini tutur. Xarici siyasi qərar qəbul edilməsi prosesinin öyrənilməsi üzı-ə siyasi psixologiyada bir neçə yanaşma formalaşmışdır.

Tarixən ilk tədqiqat Z.Freyd və onun ardıcıllarının psixi təhlil metodologiyası əsasında aparılmışdır. Amerikada siyasi elmin əsasını qoyanlardan biri **Q.Lassuel** bəzi siyasi liderlərin patoloji cəhətlərini öyrənməyə cəhd göstərmişdir. Daxili və xarici siyasət barədə qərar qəbul etdikdə onların davranışı, qərar qəbul etmə səbəbi öyrənilmişdir. Yenə də Amerika psixoloqu **U.Lanqer** kəşfiyyat xidmətinin tapşınğına əsasən **A.Hit- lerin** şəxsiyyətini öyrənmək üçün xüsusi tədqiqat işi aparmalı olmuşdur. Bu nasist diktatorun tərcümeyi-halının öyrənilməsi əsasında onun anası və atası ilə münasibətləri, davranışı araşdırılmışdır.

**Z.Freyd in** metodologiyasına əsaslanaraq hansı vəziyyətdə nə qərar qəbul edəcəyi barədə nəticə çıxarılmışdır.

**Amerika siyasi psixologiyasında** digər istiqamətin nümayəndələri liderlərin şəxsi keyfiyyətinin onların qərar

qəbul etməsinə və ümumi vəziyyətinə təsirinə diqqəti artırmışlar. Onlar belə qərara gəlirdilər ki, müəyyən beynəlxalq siyasi vəziyyətlərdə, xüsusilə böhranlar zamanı ayrı-ayrı liderlərin şəxsi keyfiyyəti böyük əhəmiyyət kəsb edir. Bu istiqamətdə apanlan tədqiqatlarda son dövrlərdə də istifadə edilən **operasional^ kodlaşdırma deyilən anlayışdan** istifadə edilir. Bura ən ümumi formada xarici siyasi strategiyanın müəyyən edilməsində dövlət liderinin əsas götürdüyü prinsiplər sistemi daxil edilir. Eləcə də qərar qəbul edilməsində lazım olan məhdudiyyətlərin aradan qaldırılması da öz əksini tapmış olur. (Məsələn vəziyyət barədə tam informasiya olmaması kimi cəhətlər). Bu sənəddə siyasət, onun məqsədi, siyasi münaqişə barədə ümumi təsəvvürlər, onların həlli yolları, beynəlxalq siyasi proseslərin inkişaf qanunauyğunluqları öz əksini tapır. Eləcə də siyasi liderlərin şəxsi keyfiyyətləri, onların psixoloji cəhətləri, riskə gedə bilmək hazırlığı, diqqətli olmaq qabiliyyəti, cəsarətli olub-olmaması və digər keyfiyyətləri bura daxildir.

Xarici siyasət üzrə **inam sistemi** problemində (bu operasional kod ilə eyniləşdirilir) **A.Corc** iki qrup inamı fərqləndirir:

**Birinci qrup şərti olaraq fəlsəH inam adlanır, ikinci qrup isə instrumental inam adlanır.**

**Fəlsəfi inam** xarici siyasətin və beynəlxalq münasibətlərin əsl təbiəti barədə inam yaratmaq, düşmən qəbul edilməsi surəti, hər hansı bir xarici siyasi məqsəd barədə təsəvvür əldə etmək kimi cəhətləri özündə əks etdirir.

**instrumental inama** görə isə siyasi liderlərin xarici siyasi məqsədə nail olmağa düzgün strategiya və taktika seçmələri daxildir. Amerika siyasi psixologiyasında son on

***Operasional kodlaşdırma - fəlsofədə istiqamət, təcrübə ilə praktikanın əlaqələndirilməsi, subyektiv cəhətlərin öyrənilməsi.***

illiklərdə ABŞ-ın bəzi prezidentlərinin xarici siyasi qərar qəbul etmələrinin xarici müəyyən cəhətləri tədqiq edilmişdir.

Məsələn **Cimmi Karter** və **Ronald Reyqanm** şəxsi keyfiyyətləri barədə bəzi mülahizələri qeyd etmək olar. C.Karterin şəxsi keyfiyyətlərini araşdıran siyasətçilər və psixoloqlar onun çox yüksək intellektə, fenomen yaddaşa, çox yüksək işgüzarlıq səviyyəsinə malik olduğunu göstərmişlər. Bütün bu yüksək keyfı>7ətlərə malik olmasına baxmayaraq o, öz prezident vəzifəsinin öhdəsindən tam gələ bilməmişdir.

Bəzi xarici siyasi qərarlar qəbul edilməsində ABŞ-m mənafeyinə zərər gətirən ciddi nöqsanlara yol verilmişdir.

Siyasi psixoloqlar göstərirlər ki. Karter prezident olduğu dövrdə özünə inam hallarını çox şişirtmişdir. Bundan əlavə o çox çətinliklə öz fikrini dəyişirdi (hətta onun səhv etməsi aydın olduqda belə). Hətta o, prezidentliyə gəldiyi ilk vaxtlardan mütəxəssislər proqnoz etmişdilər ki, o, Amerikanın xarici siyasətində ciddi problemlər yarada bilərdi. Əslində elə də olmuşdur. Onun prezident müddətinin axırında amerikalıların **İraqda** girov götürülməsi və Sovet İttifaqı ilə qarşıdurmanın yeniləşməsi özünün göstərirdi.

**C.Karterdən** fərqli olaraq **Ronald Reyqan** öz işgüzarlığı ilə fərqlənirdi. Prezident seçilənədək o, beynəlxalq siyasəti çox zəif bilirdi. Dünya görüşü çox dar idi. Hətta o fəxr edirdi ki, **Bibliyadan** sonra heç bir kitab oxumayıbdır. Buna baxmayaraq ABŞ-m tarixində Reyqan ən yaxşı prezidentlərdən biri hesab edilir. Onun dövründə Amerika iqtisadiyyatı böhranlardan çıxaraq başqa sahələrdə də, xarici siyasət sahəsində də >niksək nailiyyətlər əldə edə bilmişdi.

Məşhur Amerika siyasi psixoloqu **Marqaret Xermani** göstərirdi ki, başqa dövlətlərin liderlərindən fərqli olaraq Reyqanda yüksək millətçilik və qarşıda duran vəzifəni yerinə yetirməkdə səfərbərlik xarakterikdir. Xermani qeyd edirdi ki, Reyqanda **“İmperiya yaratmaq”** cəhəti çox güclüdür. Bütün bu kimi nailiyyətləri ona imkan yaratmışdır ki, hakimiyyəti öz

əlində cəmləşdirərək təkbaşına daxili və xarici siyasət barədə qərarlar qəbul edə bilsin.

Siyasi psixologiyada **üçüncü istiqamət** siyasi liderlərin şəxsiyyətinin modelləşdirilməsində **"davranış" (ingiliscə - bixeviorizm)** metodologiyasının tətbiq edilməsidir. Burada **"həvəs-hərəkət"** formulu əsas götürülür. Məsələn beynəlxalq münasibətlər sahəsində tanınmış alim **Ceyis Rozenau** xarici-siyasi qərar qəbul edilməsi prosesini üç fazaya ayırır. **Birinci faza** liderin xarici-siyasi qərara olan münasibəti və beynəlxalq vəziyyətə təsir etmək həvəsi ilə bağlıdır, **ikinci faza** qərarın yerinə yetirilməsi fazasıdır. **Üçüncü fazada** isə hər iki fazanın əks təsiri özünü göstərir.

Xarici-siyasi qərar qəbul edilməsində şəxsiyyətdən ibarət lider surəti yaradılmasında digər bir istiqamət də mövcuddur. Bu sahədə araşdırma göstərirdi ki, xarici-siyasi qərar qəbul edən siyasi lider aşağıdakı motivi əsas götürməlidir:

Hakimiyyətə gəlmək tələbatı, məqsədə çatmaq tələbatı, tərifə olan tələbat (bəyənilmə) və s. bu tələbatlar arasında olan nisbət xarici-siyasi inamın tipini və eləcə də siyasi davramşm variantını müəyyən edir.

## 3. **Diplomatiya və diplomatiya xidməti**

Xarici siyasət diplomatiya' ilə birbaşa bağlıdır. Bu qarşılıqlı əlaqə o dərəcədə vəhdət halında götürülür ki, bir çox hallarda onları eyniləşdirirlər. Buna baxmayaraq bu anlayışlar arasında fərq də vardır. Diplomatiyanın tərifi və yaxud daxili məzmunu barədə fikirlər müxtəlifliyi mövcuddur. **Diplomatiya heç də xarici siyasətin özü olmayıb onun həyata keçirilməsinin metod və üsullarının məcmusundan ibarətdir.**

***Diplomatiya - fransız sözüdür. Xarici ölkələrdə dövlət işi aparan səlahiyyətli adam***

**ingilis alimi və diplomatı Q.Nikolson** göstərirdi ki, **«diplomatiya»** sözü bir neçə mənada işlədilir. Bəzən diplomatiya xarici siyasətin sinonimi kimi işlədilir. Digər mənada **diplomatiya** dedikdə danışıq aparılması nəzərdə tutulur. Diplomatiya anlayışı eyni .zamanda **Xarici İşlər Nazirliklərinin xarici ölkələrlə olan əlaqələrini də özündə əks etdirir.**

Bu anlayış eyni zamanda beynəlxalq danışıqlarda yaxşı mənada danışıq qabiliyyəti, məharət, zirəklik və s. cəhətləri, pis mənada isə naqislik, xislət və digər cəhətləri özündə əks etdirir.

**Q.Nikolson belə hesab edir ki, diplomatiya danışıqlar yolu ilə beynəlxalq münasibətlərin həyata keçirilməsi metodudur. Fransız diplomatı Qarden (XIX əsrin birinci yarısı) göstərirdi ki, diplomatiya xarici işlər barədə elmdir.** Daha dəqiq desək diplomatiya danışıqlar və ya mahirlik (məharət) elmidir. Diplomatiya nümayəndəlik funksiyası yerinə yetirir. **Diplomatiya münasibətləri** (siyasi, iqtisadi, və digər münasibətləri həyata keçirməklə) dövlətlərarası münasibətlərin bir forması hesab olunur. Hər bir gərgin vəziyyətdə belə dövlətlərarası əlaqələr saxlanılmasına diplomatik protokollar köməklik edir. Deməli diplomatiya hər bir dövlətin mənafeyini ifadə edən damşıqlar vasitəsi ilə **xarici siyasəti həyata keçirən rəsmi fəaliyyətdir. Diplomatiyanın məqsədi razılıq əldə etməkdir.** Deməli, razılıq əldə edilməyən yerdə diplomatiya daha münasibdir. Diplomatiya elə bir metoddur ki, beynəlxalq münasibətlər onun vasitəsilə tənzimlənir. Diplomatların fəaliyyəti dövlətin siyasəti ilə məhdudlaşır. Onlar xarici siyasət barədə olan qərarları istədiyi kimi əyişə bilməzlər. Odur ki, hər bir diplomatın uğuru onun şəxsi keyfiyyəti ilə yanaşı, təmsil etdiyi dövlətin xarici siyasətinin məzmunundan da asılıdır. Dövlətin xarici siyasətinin səmərəliliyində onun qüdrətli dövlət olub-olmaması, güc amili də mühüm rol oynayır. Tarixi baxışdan yanaşdıqda məlum olur ki, müxtəlif diplomatik vasitələrdən istifadə edilmişdir. Bəzi dövlətlər diplomatiyaya

daha çox əhəmiyyət verdiyi halda, bəzi dövlətlər əksinə bu sahəni o qədər də qiymətləndirməmişlər.

Bunlardan əlavə bəzən köhnə və yeni diplomatiya anlayışları da bir-birindən fərqləndirilir. Ümumiyyətlə tarixi baxımdan Yunan, İtalyan və Fransız diplomatik metodlarının təcrübəsi daha çox vurğulamr. Fransız metodu köhnə diplomatiya metodu hesab edilir. Demək olar ki, XVII əsrdən XX əsrin əwəllərinədək bütün Avropa dövlətləri Fransız metodunu qəbul etmişlər. Burada beş əlamət əsas götürülürdü:

1. Avropa əsas və ən mühüm qitə hesab edilirdi. Asiya, Afrika və Latın Amerikası isə Avropanın siyasi təsir dairəsinə tabe idi.

2. Dövlətlərarası münasibətlərdə kiçik dövlətlərin roluna əhəmiyyət verilmirdi.

S.Dövlətlərarası münasibətlərdə böyük dövlətlər kiçik dövlətlərin hərəkətinə məsuliyyət daşıyırdılar. Yəni onlann daxili işlərinə müdaxilə edirdilər.

4. Avropa ölkəsində peşəkar diplomatik xidmətin təsis edilməsinə ciddi fikir verilirdi. Bilikli diplomatlar yetişdirilməsi nəzərdə tutulurdu. Onlara müstəqil fəaliyyət göstərmək imkanı verilirdi. Onlar müharibələrin qarşısının alınmasında öz səylərini birləşdirirdilər.

5. Danışıqlann bir qayda olaraq gizli aparılması tövsiyə edilirdi. Xalqın danışıqlara təsir edə bilməməsi üçün danışıqların gizli aparılması əsas götürülürdü.

Aydındır ki, vaxt keçdikcə köhnə diplomatiyanın müəyyən tərəfləri daha da genişlənmiş və yeni diplomatiya tələbləri yaranmışdır. Kommunikasiya vasitələrinin təkmilləşdirilməsi ilə yeni diplomatiyaya keçilməsinə zəmin yaranmışdır.

İkitərəfli, çoxtərəfli diplomatiya və yaxud yüksək səviyyəli, əla səviyyəli diplomatiya növləri də fərqləndirilir. İkitərəfli diplomatiya daha çox yayılmış diplomatiya növü hesab olunur. Burada ancaq iki dövlətin nümayəndələri arasındakı

nazirləri arasında olan danışıqlar. Əgər diplomatiya münasibətlərində ikidən artıq dövlətin nümayəndəsi iştirak edirsə, bu artıq çoxtərəfli diplomatiya hesab edilir. Məsələn beynəlxalq konfransların işi, beynəlxalq təşkilatların fəaliyyətləri də çoxtərəfli diplomatiyaya aid edilir.

**Əgər diplomatiya funksiyası peşəkar diplomatlar deyil, dövlətlə hökumət başçdarı və yaxud digər yüksək rütbəli şəxslər tərəfindən həyata keçirilərsə, bu yüksək və yaxud zirvə səviyyəli diplomatiya adlanır.**

Aydındır ki, müəyyən sahələr üzrə olan diplomatiya həmin sahələrin adı ilə adlanır. Məsələn "hərbi" diplomatiya, "iqtisadi" diplomatiya, aviasiya, dənizçilik, kosmos və s. sahələr üzrə apanlan diplomatiya və s.

Onu da qeyd etməliyik ki, diplomatiya anlayışı «diplomatiya qulluğu» anlayışı ilə çox yaxın əlaqədədir. Diplomatiya qulluğu dedikdə dövlətin xarici siyasətini həyata keçirən mərkəzi aparatda və xaricdə çalışan diplomatik kadrların işi nəzərdə tutulur. Deməli diplomatiya qulluğu müəyyən dövlət orqanları və səlahiyyətli şəxslərin funksional vəzifələri hesab olunm-. Aydındır ki, diplomatik işlə məşğul olmaq üçün hər bir şəxs müəyyən biliyə, şəxsi keyfiyyətə və yeniliyə malik olmalıdır. Dövlət diplomatik orqanları dövlət ərazisində çalışan xarici işlər orqanları və digər dövlətin ərazisində yerləşən xarici işlər orqanlarından ibarətdir.

Xaricdə yerləşən xarici işlər orqanlan da daimi və müvəqqəti formada həyata keçirilir. Daimi xarici işlər orqanları - diplomatik və səfirlik adı altında həyata keçirilir. Diplomatik nümayəndəlik səfirlik və ikinci dərəcəli diplomatik nümayəndəlik formasında olur. Səfirlə bu nümayəndəlik arasında fərq ondan ibarətdir ki, səfirliyə daha yüksək **ranqda olan diplomat** rəhbərlik edir. **İkinci dərəcəli vəzifə** isə nisbətən aşağı **ranqda olan diplomat** tərəfindən həyata keçirilir. Müasir diplomatiya münasibətləri praktikasında ancaq səfirlik şəklində olan diplomatiya nümayəndəliyi xarakterikdir.

Səfirliyin təyin edilməsi qaydası belə olur; səfir təyin edilməzdən əvvəl həmin şəxsin namizədliyi barədə qarşı dövlətdən razılıq alınır (bəzən şəxsi münasibətlər mövcud ola bilər). Sonra isə təyinat baş verir.

Səfirliyin əsas funksiyaları aşağıdakılardan ibarətdir:

- Həmin ölkədə öz dövlətinin Milli mənafelərini və xarici siyasət kursunun təmin edilməsi;
- Yerləşdiyi ölkənin vəziyyəti barədə məlumat toplamaq;
- Başqa ölkələrin nümayəndəliklərinin fəaliyyəti barədə məlumat əldə etmək;
- Dövlətlərarası əməkdaşlıqların vəziyyətini öyrənmək və s.

**Diplomatik nümayəndəliklərin fəalij'yəti 1961-ci ildə Vyana Konvensiyasmda müəyyən edilmiş normalara əsaslanır. Onların toxunulmazlıq hüququ vardır.**

Diplomatik heyət - səfirdən, ondan aşağı vəzifəli işçilərdən, müşavirdən (məsləhətçi), ticarət nümayəndəliyindən, attaşe, katiblər və s.-dən ibarətdir. Bununla yanaşı inzibati- texniki heyət, xidmət edən heyət də (sürücü, santexnik, bağban, qulluqçu və s.) bura daxildir.

Beləliklə, diplomatlar müxtəlif funksiyalan yerinə yetirməklə hər bir dövlətin xarici siyasətində mühüm rol oynayırlar. Daha doğrusu:

1 .Dövlətlərarası əlaqə yaradılmasını həyata keçirirlər;

2. məlumat əldə etmək, təbliğat işi aparmaq funksiyasını yerinə yetirirlər;

3. Münaqişələrin tənzimlənməsində əsas şəxs kimi iştirak edirlər;

4. Dövlətlərarası əlaqələrin genişlənməsinə və yaxşılaşmasına zəmin yaradırlar;

5. Konkret məsələlərin həlli üzrə danışıqlar aparırlar;

6. Xarici siyasət sahəsində ümumi rəhbərlik proqramı həyata keçirirlər.

# II Bölmə

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ XARİCİ SİYASƏTİN TARİXİNƏ DAİR

Bu bölmədə əsasən avropa dövlətləri arasında yaranan beynəlxalq münasibətlər və xarici siyasət məsələləri araşdırılmışdır. Tarixi baxımdan 1600-cü illərdən 2000-ci illərədək olan dövr əhatə olunmuşdur.

Həmin dövrdə Avropanın ən qabaqcıl dövlətləri arasında yaranan siyasi əlaqələr - münasibətlər və münaqişələrin xarakteri açıqlanmışdır. Ayrı-ayrı dövrlərdə beynəlxalq müqavilələr və razılaşmaların xarakteri göstərilmişdir. Həmin dövrdə dünya dövlətlərinin formalaşması, sərhədlərinin müəyyənləşməsi və beynəlxalq sülh danışıqları aparılması kimi mütərəqqi tarixi proseslər baş vermişdir. Bununla yanaşı bu dövrü dövlətlərarası mübarizələr tarixi də adlandırmaq olar. Bö bölmənin istənilən mövzusunu oxuyan hər bir şəxs Dağlıq Qarabağ münaqişələrinin həll edilməsində yaranan ceperat danışıqların tarixi baxımdan mövcud olmasının və təkrarlanmasımnşahidi ola bilərlər.

# I Fəsil.
# XVII ƏSRİN ORTALARINDA AVROPADA ÜxMUMİ SİYASİ VƏZİYYƏT VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

XVII əsrdə Avropada olan siyasi vəziyyət bir tərəfdən XVI əsrdə yaranmış hadisələrin məntiqi nəticəsi kimi özünü binizə verirdi, digər tərəfdən isə gələcək yüzilliyə olan inkişafın əsas istiqamətini müəyyən edirdi. XVI əsrdə Avropa xalqlarının həyatında çox köklü dəyişikliklər yaranmışdır. Siyasi, iqtisadi, dini, mədəni sahələrdə olan mütərəqqi dəyişikliklər beynəlxalq münasibətlərin və xarici siyasətin xarakterində və mahiyyətində də əsaslı dəyişikliklər yaratmışdır. Orta əsrlərdə qonşu dövlətlər arasında baş verən ərazi münasibətləri və hərbi münasibətlər yeni ziddiyyətlərlə əvəz olunurdu. Orta əsrlər və ilk yeni dövrün başlanğıcı böyük coğrafi kəşflər və müstəmləkə işğalçılığı ilə xarakterizə olunurdu.

Amerikanın Hindistana və Cənubi - Şərqi Asiya torpaqlarına yeni dəniz yolunun kəşfi və ilk səyahətlər dünya haqqında avropalılarda yeni təsəvvürlər yaratmışdır. Bütün bunlar Avropa dövlətlərində geosiyasi mənafelərin dəyişməsinə səbəb olmuşdur. Bir tərəfdən vahid və bütöv Avropanın formalaşması prosesi gedirdi, digər tərəfdən isə böyük coğrafi kəşflər beynəlxalq əlaqələrə olan marağı artınrdı.

Bu isə öz növbəsində əmtəə bazarının genişləndirilməsinə, qitələrarası əlaqələrə və Avropanın Amerika, Asiya və Afrikaya yaxınlaşmasına zəmin yaradırdı. Müstəmləkəçilik siyasətinin güclənməsi, siyasi, iqtisadi və hərbi imkanların artırılması Avropa dövlətləri arasında barışmaz ziddiyyətlər yaradırdı. Müstəmləkə talançılığmm nəticəsi olan sərvət hər hansı bir ölkənin Avropa siyasətindəki rolunu müəyyən edirdi. Beləliklə, XVI əsr Portuqaliya və İspaniyanın tarixində çox əhəmiyyətli bir dövr olmuşdur. Daha doğrusu, Avropa tarixində «İspaniya əsri» olmuşdur.

XVI əsr Qərbi Avropanın siyasi həyatında milli zəmində mərkəzləşmiş dövlətlərin formalaşması dövrü olmuşdur. Bu dövlətlərin əksəriyyəti **mütləq monarxiya** quruluşu formasında idi. **İngiltərə, fYansa, İspaniya, Portuqaliya, Danimarka, İsveç, Niderlandda** əyalətlərin Birləşmiş Respublikası (İspaniyaya qarşı mübarizə nəticəsində meydana gəlmişdi) və s. O dövrdə milli dövlətlərin formalaşması və tam suverenlik əldə etməsi, heç də orta əsrlərdə yaranmış universal xristian imperiyası yaratmaq prinsiplərinə uyğun gəlmirdi.

**V Kari Habsburq** orta əsrlər siyasi mədəniyyəti və xarici siyasətinə xas olan cəhətlər əsasında öz sülaləsi adı altında **İspaniya, Almaniya, Niderland, İtaliyanın** bir hissəsi, Aralıq dənizi adaları və eləcə də, Avropada bəzi əraziləri İspaniyanın bütün müstəmləkələrini idarə etməyə səy göstərirdi.

Bütün bu kimi prinsipial ziddiyətlər xeyli miqdarda konkret dövlətlərlarası münaqişə və mübahisələrə səbəb olurdu. Aydındır ki, ilk yeni dövrdə milli dövlətlər yaradılması və mütləq dövlət forması həmin dövrdə ideologiyanın formalaşmasına zəmin yaradırdı. Beləliklə, İtaliyanın siyasi mütəfəkkiri, tarixçi Maknavellinin (1469-1527) vaxtından **Siyasət-** insan fəaliyyətinin müstəqil bir sahəsinə çevrilir. Humanistlərin əsərlərində **«yeni siyasi anlayış»** formalaşmağa başlayır. **«Dövlət mənafeyi»** və **«İctimai neməb>** prinsipi yaranır. Dövlətin özü isə monarxın mülkiyyəti olmaqda qalır. Milli dövlətlərin siyasətlərində konkret olaraq **«dövlət mənafe- yinin» öz əksini tapması ticarət müharibələrinə, dəniz yollarının ələ keçirilməsi uğrunda müharibələrə, müstəmləkələrin istismarında, inhisarçılığa, Avropa syiasətində hökmran olmağa və digər hadisələrə** səbəb olurdu.

Avropa dövlətlərində iqtisadiyyatın təkamül inkişafı beynəlxalq münasibətlərə daha çox təsir edirdi. Kapitalist münasibətlərinin artması və onun sabitliyi beynəlxalq siyasətdə ayrı - ayrı dövlətlərin hakimiyyətlərini daha da sürətləndirirdi. Beləliklə, **Almaniya, İtaliya və İspaniya** tədricən öz liderlik

mövqelərini itirirdi. **İngiltərə, Fransa və Hollandiya** irəli çıxırdı.

Odur ki, XVI əsrdə Avropada dini yanaşma vəziyyəti əsaslı surətdə dəyişilmişdir. Dinə qarşı ictimai - siyasi hərəkat nəticəsində bir çox ərazilər **katolizm** dünyasından ayrılmışlar: - Almaniyanın bir çox əraziləri, **İsveçrə, İngiltərə, Danimarka, İsveç, Norveç, Birləşmiş əyalətlər Respublikası** və s. Uzun müddət Almaniya və Fransada dini müharibələr olmuşdur. Katolik və protestant (dini inamları) ölkələri arasında qarşıdurmalar baş verirdi.

**Burada İspaniya Kralı II** Flipp çalışırdı ki, «Protestant tərəfdarlarım məhv etsin»
və bütün Avropada katolizmi bərpa etsin. Beləliklə, XVIII əsrin ortalarınadək **dövlətlərarası ittifaqların və hərbi münaqişələrin formalaşması dini prinsipə əsaslanmışdır.**
Aydındır ki, orta əsrlərdə beynəlxalq münasibətlərin formalaşmasına dini amillər az təsir etməmişdir. Beləliklə, vaxt keçdikcə dini qarşıdurmaların xarakteri dəyişilmişdir. Xristian kilsəsi daxilində müxtəlif dinlərin nümayəndələri daha prinsipial siyasi rəqib kimi çıxış edirdilər. Bu isə Avropada dövlətlərarası qarşıdurmaya səbəb olmuş və xristian Avropa vahidliyini pozmuşdur. Bütün bunlar nəticə etibarı ilə Avropanın **Osmanlı imperiyası** ilə (Müsəlman dininin genişlənməsi ilə) mübarizəsini zəiflətmişdir.

**Osmanlı İmperiyası** orta əsrlərdə və ilk yeni dövrdə güclü dünya dövləti kimi Avropa siyasi quruluşunun aynimaz bir hissəsinə çevrilmişdir. Bu imperiya Balkan ölkələrində və Şərqi Aralıq dənizində **möhkəmlənmiş.** Macar Krallığının böyük bir hissəsini zəbt etmiş. Mərkəzi və Qərbi Avropa üçün təhlükəyə çevrilmişdir.

O dövrdə Avropanın beynəlxalq münasibətləri sistemində **Portuqaliya** siyasəti, onun hərbi və maddi qüdrəti də həlledici rola malik idi. **İstanbul** ən zəruri diplomatik mərkəzə çevrilmişdir. Avropa dövlətləri arasında **Türkiyə** əleyhinə bir-

ləşməyə üstünlük verilirdi. Yaxın qonşuluqda olan bəzi dövlətlər isə sülh yaranmasına ümid edirdilər.

**Avropadaxili** qarşıdurmada güclü müttəfiq kimi **Portudan^** istifadə etməyə səy göstərilirdi (Məsələn, 1536-cı ildə I Süleyman ilə Fransa kralı I Fransisko arasında olan müqavilə). Yeni dövrün beynəlxalq həyatında siyasi tarazlıq sistemi də böyük əhəmiyyət kəsb edirdi. Bu mənada böyük dövlətlər arasında olan ziddiyyətlər nəzərdə tutulurdu. Bu böyük dövlətlər də orta və kiçik dövlətləri öz ətrafında birləşdirməyi əsas götürürdü. Beləliklə, diplomatik və hərbi münaqişələr kifayət qədər böyük və kiçik dövlətləri özünə cəlb edirdi. **Özlüyündə** münaqişələr isə ümumi Avropa xarakteri alırdı. İttifaq xarakterli birləşmələr bir dövlətin başqa dövlətlər hesabına çox güclənməsinə imkan verməməyə çalışırdı. Hər halda həmin dövrdə beynəlxalq problemlərin həllində **müharibə əsas vasitə olaraq qalırdı.** Hərbi əməliyyatların miqyası genişlənirdi. Bu isə əsasən muzdlu hərbçilər hesabına formalaşan daimi ordu yaradılmasına olan zərurəti artırırdı. Mərkəzləşdirilmiş dövlətlərdə isə əsgəri çağırış metodu tətbiq edilməyə başlanırdı. Beynəlxalq mədəni - iqtisadi bağlaşmalar və eləcə də hərbi - siyasi münaqişələr kimi qloballaşma prosesi dəniz limanlannm rolunun artmasına səbəb olurdu. Dövlət mənafelərinin təmin edilməsində və ticarətin quldurlardan qorunmasında bu amilin rolu artırdı. Daha sürətli, çox yük- götürən, ağır silahlarla silahlanan yeni növ gəmilər meydana gəlirdi.

**İtaliya, İspaniya, Portuqaliya, İngiltərə və Skandinaviya** ilə yanaşı. **Birləşmiş Əyalətlər Respublikasında** da
gəmiqayırma sürətlə inkişaf etdirilirdi. Artıq XVII əsrin ortalarına **hollandlar və zelandiyalılar** bu sahədə liderlik səviyyəsinə yüksəlmişlər. Həmin dövrdə mövcud olan ziddiyyətləri məntiqi ardıcıllıqla araşdırsaq, demək olar ki, əvvəl Franko - Habsburq ziddiyyəti diqqəti cəlb edir (İspan və Avstriya

**' Portu -(Osmanlı imeriyası nəzərdə tutulur)**

Habsburqları nəzərdə tutulur). XVI əsi'in birinci yarısında bu qarşıdurma açıq silahlı mübarizə fonnası almışdır. **1494 - 1559-cu illərdəki İtaliya müharibəsi** bu dövrün əsas hərbi münaqişəsi olmuşdur.

Müstəmləkəçilik soyğunçuluğu uğrunda **İspaniya ilə İngiltərə** arasında yaranan ziddiyyətlər də az əhəmiyyət kəsb etmirdi. Bu ziddiyyətlər XVI əsrin axırlarında ingilislərlə ispanlar arasında elan edilməmiş dəniz müharibəsinə səbəb olmuşdur.

Beynəlxalq ziddiyyətlərdə növbəti - **üçüncü düyün nöqtəsi** şimal dəniz yollanmn ələ keçirilməsi idi (Şimal dənizi və Baltik dənizi nəzərdə tutulur). Burada **İsveç, Danimarka, Almaniyanın** şimal şəhərləri, **Birləşmiş Əyalətlər Respublikası, Polşa və Moskva** dövlətləri arasındakı ziddiyətlər nəzərdə tutulur. Niderland ilə İspaniya arasındakı ziddiyyətlər də əks - səda yaratmışdır.

**İlk müstəmləkə** imperiyaları olan Portuqaliya ilə İspaniya ai'alarmda da ziddiyyətlər, çəkişmələr ara vermirdi. **Fransa və İngiltərə** arasında da çəkişmələr (mövqe və müstəmləkə uğrunda) mövcud idi. Qeyd etməliyik ki, göstərdiyimiz beynəlxalq münaqişələrin heç biri **XVI əsrdə** tam həll edilə bilinməmişdir. Bu münaqişələr demək olar ki, **XVII əsrdə də** mövcud olmuş və həmin yüzilliyin siyasətinin əsas istiqamətini müəyyən etmişdir. Bütün bunlar nəticə etibarı ilə beynəlxalq aləmdə məlum olan 30 (1618 - 1648) illik müharibənin başlanmasına səbəb olmuşdur.

Bütün bunlarla yanaşı, erkən yeni dövrdə siyasi mədəniyyətin əsası yaranmışdır. Diplomatiya daha böyük rol oynamağa başlayırdı. Diplomatik qulluğun yaranması, təkmilləşdirilməsi baş verirdi. **Daimi səfirlik sistemi yaranırdı. Diplomatik protokol** formaları işlənib hazırlanmış və beynəlxalq hüquqda səfir toxunulmazlığı barədə təlim yaradılmışdır.

# II Fəsil.
# OTUZİLLİK MÜHARİBƏ VƏ VEST^FAL SÜLHÜ

XVII əsrdə baş verən irimiqyaslı müharibələrdən biri də 1618-1648-ci illərdə gedən **30 illik** müharibə olmuşdur. Bu müharibə ümumi Avropa miqyaslı bir müharibə idi. Belə çoxillik müharibələr demək olar ki, bütün Avropa dövlətlərinin xarici siyasi mənafelərinin müəyyən edilməsində həlledici rol oynamışdır.

Bu otuzillik müharibədə Avropanın siyasi inkişafında **iki xətt** özünü biruzə verirdi. **Birinci** inkişaf xətti orta əsrlərin siyasi adət - ənənəsinə əsaslanırdı. Ümumavropa vahid xristian monarxiyası yaratmağa üstünlük verilirdi. Burada «dövlət» və «milli mənafe» anlayışları nəzərə alınmırdı. Bu xətt Avstriya və İspan Habsburqlarının siyasətini əks etdirirdi. Bu Habs- burqlar sülaləsi Avropa miqyasında Katolik siyasətinə rəhbərlik edirdi.

Avropanın siyasi inkişafının **ikinci istiqamətində** əsas prinsip **İngiltərə, Fransa, Hollandiya və İsveç** tərəfindən müəyyən edilirdi. Bu xətt milli zəmində güclü dövlət yaradılmasını nəzərdə tutuıdu. Bu dövlətlərdə (Fransadan başqa) **protestant** dini üstünlük təşkil edirdi. Bu ölkələrin iqtisadiyyatında da kapitalist təsərrüfatçılığı daha geniş idi.

Otuzillik müharibənin başlanmasından əvvəl Almaniyada daxili ziddiyyətlər kəskinləşmişdi. 1608 - 1609-cu illərdə dim əsasda Alman knyazlarının iki hərbi siyasi ittifaqı meydana gəlmişdi.

Bunların hər ikisi xaricdən kömək alırdı. Odur ki, Almaniyada baş verən hər bir hərbi münaqişə dövlətlərarası münasibətləri kəskinləşdirə bilərdi. Beləliklə, Almaniya hərbi ziddiyyətlərin mərkəzi meydanına çevrilirdi. Qərbi Avropanın siyasi həyatında olan əsas qarşıdurmalar Fransa ilə İspan və Avstriya Habsburqlan arasında yaranan münaqişələrdən ibarət

idi. Hər iki tərəf Avropa siyasətində öz mövqelərini artırmağı nəzərdə tuturdu. **Fransa iki Habsburq** monarxiyalarının birləşməsinin əleyhinə idi (Habsburqlar və Fransa hər ikisi güclü dövlət idi). Elzasda, Lotaringiyada, Cənubi Niderlandda, Şimali İtaliyada, İspaniya ilə həmsərhəd ərazilərdə Fransanın ərazi iddiaları vardı. Fransa Evangil liqasına kömək etməyin tərəfdan idi. Birləşmiş Əyalətlər Respublikası da Habsburqlara qarşı Evangil liqasına təbii müttəfiq kimi baxırdı. Danimarka və İsveç özlərini Şimal dəniz yollarındakı münaqişələrdən qorumağa çalışırdı. İngiltərə İspaniya ilə daimi mübarizədə idi.

**OtuziIlik müharibənin tarixində dörd dövr fərqləndirilir:**

**Çexlərin müharibəsi (1618 - 1623-cü** illər); **Danimarka (1625 - 1629-cu illər); İsveçlər (1630 - 1635); Fransa - İsveç müharibəsi (1635-1648-ci illər).**

Qeyd etməliyik ki, ilk üç mərhələdə Habsburq birləşməsi üstünlük təşkil edirdi. Sonuncu dövrdə isə Habsburq imperiyası və onun müttəfiqləri məğlubiyyətə uğramalı olmuşdur. Uzunmüddətli müharibə, demək olar ki, iştirakçı dövlətlərin hamısını haldan salmışdır. Orduların təmin edilməsi çətinləşmiş, sosial gərginlik artmışdır. Odur ki, müharibənin dayandırılmasına zərurət artırdı. **1638-ci ildə Roma Papası** və **Danimarka kralı** müharibənin dayandırılması barədə müraciət etmişdir.

**1640-cı** ildə reyxstaq Reqensburq (Almaniyada liman) yığıncağında sülh danışıqları ideyasını müdafiə etmişdir. 1644- cü ildə Vestfaliyada - Myunster (Almaniya) şəhərində sülh konqresi açılmışdır. Burada Habsburq imperiyası ilə Fransa arasında münasibətlər müzakirə olunurdu. 1645-ci ildə Vestfalın digər şəhəri olan **Osnabryukda İsveç - Alman** münasibətləri müzakirə edilirdi. İmperiyada İspaniya, İsveç və Fransam çox güclü diplomatlar təmsil edirdilər. Beləliklə, **1**648-ci il oktyabr ayının 24-də eyni zamanda **Myunsterdə və Osnabryukda** sülh müqaviləsi həyata keçirilirdi. Bu müqavilə

tarixdə Vestfei sülh müqaviləsi kimi qalm Bu müqavilə yalnız konkret ərazi və siyasi - hüquqi razılaşmalara yekun vurmamışdır, eyni zamanda Avropada yüzillik dini əsasda qarşıdurmaya yekun vurulmuş və güc mərkəzlərinin dəyişməsinə səbəb olmuşdur.

Müqavilədə Avropada ərazi dəyişikliyi; Alınan imperiyasının siyasi qumculugu; onun ərazisində dini inam və beynəlxalq hüquqda Hollandiya və İsveçrənin müstəqilliyinin təsdiqlənmə.si məsələləri öz əksini tapmışdır.

Bu sülh müqaviləsində ərazi problemləri ço>: geniş yer tutur. İsveçin ərazi tələbləri, demək olar ki, yüksək səviyyədə təmin edilmişdir. Kətta İsveçə böyük məbləğdə hərbi cərimə də- ödənilmişdir. Onun beynəlxalq statusa da yüksəlmişdir. Fransanın ərazi tələbləri də əsasən müsbət həll edilmişdir. Bəzi Alman knyarÜKijarmda ərazi dəyişikliyi baş ve.rmişdir.

Vestffji sülhü Almaniyamn siyasi cəhətdən parçalamiia- smın iki əsrllyədək davarn etməsi məsələ.sini hüquqi cəlrətdan əsaslandınlm/Ş oldu. Alman knyazlarmm suverenliyini təmin etmiş oldu. Onlar .knyazlıqlararası və eləcə də xarici ölkələrlə müqavilə bağlamaq hüququna malik idilər. Müqavilədən sonra beynəlxalq miqyasda İsveçrə ittifaqı və Birləşmiş Əyalətlər Respublikasının dövlət müstəqilliyi tanınmışdır.

Vestfai sülh müqaviləsinin gedişi qıutarmamış İspaniya danışıq pros-esini kəsmiş. Birləşmiş Əyalətlər Respublikası üə saziş bağlamış və onun müstəqilliyini tanımışdır. İspaniya ilə Fransa arasında gedən müharibə də davam edirdi. iS39-cn ildə noyabrın 7-də keçirilmiş Pireney sülh müqaviləsinin şərtlərini imzaladıqdan sonra müharibə day.andınlmışdır. Müəyyən ərazilər Fransaya verilmiş, o da İspaniya ilə müharibə edən Portuqaliyaya köməklik etməkdən imtina etmişdir. Bu dövlətlər arasında ticarət münasibətləri bəıpa edilmişdir.

Pireney müqaviləsinə əsasən Fransa Kxah XIV Lüdo- vikin İspaniya şahzadəsi

**Mariya Tereziya** ilə ailə qurmağı da öz təsdiqini tapmışdır. Bu müqavilə XIV Lüdovikə imkan vermişdir ki, o İspaniya qarşısında müəyyən vərəsəlik hüququ qazansın. Beləliklə, Fransanın sərhədləri genişlənmiş, İspaniya tərəfdən olan təhlükə aradan qaldırılmış və Fransanın siyasi gücü artmışdır. Almaniya üçün bu müharibə, demək olar ki, faciəyə çevrilmişdir. Əhali xeyli azalmışdır (Çexiyada üç dəfə, Almaniyada 5-10 dəfə). Maddi və mədəni dəyərlər məhv edilmiş, istehsalda durğunluq yaranmış, sosial - iqtisadi böhran baş vemıişdir.

Ümumiyyətlə, bu uzunmüddətli müharibədə Habsburq əleyhinə olan dövlətlər birliyi daha çox üstünlük əldə etmişlər. Fransa monarxiyası üçün otuzilük müharibənin və İspaniya ilə olan müharibənin müvəffəqiyyətlə qurtarması Avropada hegemonluq etməyə zəmin yaratmışdır.

**İsveç Avropamn** güclü dövlətinə çevrilmişdir. Şimali Avropada onun üstünlüyü artmışdır. Hollandiyanın İspaniyadan asılılığı tam aradan qaldırılmış, iqtisadi artım üçün zəmin yaranmış, müstəmləkə uğunda mübarizə imkanı artmış və Avropa məsələlərində siyasi çəkisi dəyişmişdir. Avropada Habsburqların hegemonluğu qurtarmışdır.

**Otuzillik müharibə** Avropada bir əsrlik kəskin dini qarşıdurma dövrünə yekun ^'urmuş olmuşdur. Beynəlxalq münasibətlərdə dini amillərin rolu kəskin surətdə azalmışdır. Otuzillik müharibənin nəticələri göstərmişdi ki, mərkəzləşdirilmiş milli dövlətlərin (Fransa, İngiltərə, Hollandiya, İsveç) siyasi perspektiv gələcəyi dalıa inamlıdır.

Vestfal sülhü Avropada xarici - siyasi vəziyyəti kökündən dəyişdirirdi. Qüvvələr balansı dəyişdirilirdi. Avropa beynəlxalq münasibətlər sistemi, onun hüquqi əsası və gələcək istiqaməti müəyyənləşmiş olurdu.

## m Fəsil.
## Ä^^ROPADA BEYNƏLXALQ MÜNASİBƏTLƏR
*(XVII əsrin ikinci yarısı ~ XVIII əsrin əvvəlləri)*

XVII əsrin ortalarından Avropada beynəlxalq münasibətlərin inkişafına yeni dövr açılmışdır. Qərbi və Mərkəzi Avropanın siyasi həyatında **Fransa, İngiltərə, Niderland,** İsveç, eləcə də **İspaniya** və **Habsburqlar** dövləti böyük-hökmran dövlət statusu almışlar. XVII-XVIII əsrlərdə bu **Habs- burqiar** dövlətinin əsasını Avstriya, Çexiya, Macarıstan (bura daxil idi - Moraviya, Sileziya, Ştiriya, Tirol, Karintiya, Xorvatiya, Sloveniya, Transiivaniya və digər torpaqlar) təşkil edirdi. **Habsburqlar** dövlətinin başçısı alman millətinin Müqəddəs Roma İmperiyası tacma malik idi. **Habsburqlarm** bütün vərəsəlik torpaqları bu imperiyaya daxil deyildir. Lakin hər halda Avropanın siyasi proseslərində müəyyən rola malik idilər. Almaniyadan - Brandenburq, Saksoniya və Bavariya, İtaliyadan - Venesiya Respublikası, Savoy və Papa vilayətləri (hersoqluqdan) və eləcə də Portuqaliya və Danimarka fərqlənirdilər.

Şərqi Avropada Rusiya daha aparıcı rola malik idi. Rusiyanın İsveç, Poişa və Habsburqlar ölkəsi ilə olan münasibəti də ürnunıi vəziyyətin müəyyənləşməsinə təsir edirdi. Bis qitəfflin eənubımda isə Osmanlı imperiyası **hökmranlıq** edirdi.

Beynəlxalq münasibətlərdə ideoloji dəyişikliklər və Avstriya ilə İspan Habsburqlanmn rəhbərlik etdiyi islahat əleyhdariarımrı tarixi səhnədən getməsi itə Habsburqltır əleyhinə ittifaqı saxlamağa zərurət qalmırdı. Dini mübalrisələr geridə qalmışdı. Ticarət-iqtisadi qarşıdunnadan ön plana çəkilirdi.

XVII əsrin ikinci yansı İngiltərə, Fransa və Niderlandın müstəmləkə imperiyalarına çevrilməsi dövrü kimi xartfutarlzə ediİir. Həmin dövrdə müstəmləkələrin rolu da artırdı. i;s}>a3:!İya

və Portuqaliyanın müstəmləkə torpaqlan jiesauma mübarizə
Fransa və Hollandiya arasında müstəmləkə uğrunda

Vestfa! sülhündən sonra bu dövlətlərin əksəriyyətinin siyasi çəkisi dəyişilmişdir. XVO əsrin ikinci yansmdan sonra və XVIII əsrin əwəllərindən Qərbi Avropada Fransa daha hakim mövqedə idi. Mütləq feodal ıtionarxiyasına əsaslanan Fransada kapitalist təsərrüfat bölməsi də genişlənirdi. Frsnsa ərazisinə görə, əhalisinin sayma görə, <iaimi ordusuna görə də Avropanın digər dövlətlərindən fərqlənirdi.. Kanada, Missisipi çayı üzərində Luiziana, bəzi Antil adalan, Hindistanda Pon- dişeri, Afrikada - Madaqaskar Fransanın müstəmləkəsi hesab edilirdi.

Avropanın bu yeni həyatı XIV Lüdovikin hakimiyʒ^əti dövrü ilə eyni vaxta düşürdü. O, görkəmli diplomat Kardinal Mazarininin yetirməsi hesab edilirdi. XIV Lüdovik monarx kimi bütün hakimiyyəti öz əlinə almiişdı. O, mürtəce xarici siyasi kurs yeridirdi. Beləliklə, Almaniyanın torpaqlarını da özünə tabe etməyə çalışırdı. XIV Lüdovik hərbi və diplomatik metodlardan istifadə edərək sərhəd to:rpaqlar üzərində vassal hüququ yaratmağa çalışırdı.

**İngiltərəyə** olan münasibətdə də oram öz nəzarəti altına almaq istəyirdi. Onların ticarət və müstəmləkəçilik mənafeləri toqquşurdu. Cənubi Niderlandı ələ keçirmək cəhdi Hollandiya ilə toqquşmalara səbəb olmuşdu. Fransa diplomatiyasında əsas cəhətlərdən biri də ondan ibarət idi ki, dəniz dövləti olarx bıgüllərə **ilə Hollandiya** və **İngiltərə** iSə İspaniya arasmda olan əməkdaşlığa yol verməsin. Portuqaliya ilə İspaniya arasında müharibə gedirdi. Piriney sülh müqaviləsinə əsasən Fransa onların işinə qarışa bilməzdi.

XIV Lüdovik İspaniyanın güclənməsinin əleyhinə idi. Odur ki, İngiltərənin Portuqaliyaya köməklik göstərməsini məqsədəuyğun sayırdı.

Beləliklə, Fransanın Avropada liderlik iddiası neçə-neçə müharibələrə səbəb olmuşdur. Müharibəyə cəlb edilən dövlətlərin böyük bir qismi Fransaya qarşı koalisiya yaradırdılar. Bu da Fransa üçün böyük maliyyə çətinlikləri törədirdi. XVII əsrin 70-ci illərində bu vəziyyət özünü daha qabarıq göstərirdi.

**Vestfal və Pireney** sülh müqavilələri İspaniyanın da hərbi gücünə və siyasi üstünlüyünə təsir göstərmişdir. 1655-ci ildə İspaniya kralı IV Filipp öldükdən sonra taxtda onun vərəsəsi xəstə və ağılsız oğlu II KarI Habsburq qalmışdır. IV Filipp öldükdən sonra vəziyyətdən istifadə edən Fransa ərazi iddiası qaldırmışdı.

İspaniyanın zəifləməsi müqabilində Avropada qüvvələr balansında Hollandiyanın iqtisadi və siyasi təsiri artırdı. Niderland inqilabı nəticəsində İspaniya əsarətindən azad olan **Hollandiya XVII** əsrin ikinci yarısında ən güclü dəniz dövlətinə çevrilmişdir. Çox güclü dəniz və hərbi limana malik olan bu ölkə gəmilərin sayına görə bütövlükdə Avropanı üstələyirdi. Ən inkişaf etmiş bank sistemi yaratmışlar. Hollandiyanın cəmi ticarət mənfəətinin 10%-i müstəmləkə ticarətindən əldə edilirdi. İspaniya və Portuqaliya müstəmləkələri Hollandiyanın müstəmləkə obyektinə çevrilmişlər.

Müstəmləkə siyasəti əsasən holland **Ost-Hind və Vest-Hind** kompaniyaları vasitəsilə aparılırdı. Beləliklə, XVII əsrin ortalarında otuzillik müharibənin Avropa ölkələrinə vurduğu zərər nəticəsində (burjuaziya inqilabları, vətəndaş müharibələri) onların zəifləməsi Hollandiyanın mövqeyini artırmışdır. Hollandiya öz qonşuluğunda güclü Fransadansa, zəif alman torpaqlarına və köməksiz ispan Niderlandımn (ərazicə İspaniyadan çox aralı idi) olmasına üstünlük verirdi. Odur W, məhz Hollandiya Fransa əleyhinə olan bütün ittifaqların təşkilatçısı idi. **1626-cı ildə mərkəzi yeni Amsterdam olmaqla yeni Hollandiyanın əsasını qoymuşlar.**

**İngiltərənin** mövqeyinə gəlincə qeyd etməliyik ki, hələ XVII əsrin ortalarından bu ölkə inqilabların baş verməsi,

vətəndaş müharibəsi, Stüartların bərpası (1660) və s. Problemlərə məruz qalmışdır. **II Kari** və onu taxtda əvəz edən **II Yakov** mütləqiyyəti yeniləşdirməyə çalışırdı. Odur ki, Fransanın maliyyə yardımından asılı vəziyyətə düşmüşdü. Bu isə onun **xarici siyasətində** dinamiq olmağı çətinləşdirirdi.

İngiltərədə kapitalist təsərrüfat forması bərqərar olurdu. Bu burjuaziya dövlətçiliyinin ilk mərhələləri hesab edilirdi. Qanunçuluqda və xarici siyasətdə burjuaziyanın mənafeyi üstünlük təşkil edirdi. Dövlətin xarici siyasət xətti o qədər də təkmil deyildi. **1688-ci il** inqilabından sonra İngiltərənin xarici siyasətinə bir aydınlıq gəlmişdir. O vaxtdan Hollandiyanın başçısı Vilhelm III Oran İngiltərənin kralı olmuş, Fransa ilə olan ziddiyyətlər isə ön plana çəkilmişdir. Yüzilliyin axırlarına Hollandiya ilə mübarizədə İngiltərənin üstünlüyü özünü açıq-aşkar büruzə verirdi. Şimali Amerikada, Hindistanda, Atlantik adalarında və Afrikada geniş müstəmləkə ərazisinə sahib olmuşdu.

**Vestfal sülh** müqaviləsindən sonra Avropada beynəlxalq münasibətlər sistemi siyasi tarazlıq prinsipinə əsaslanmalı idi. Lakin bu prinsip Fransa tərəfindən pozulurdu. Ona görə də öz müstəqilliyini saxlamağa çalışan əksər dövlətlər Fransaya qarşı ittifaq yaradırdılar. Burada da Hollandiya daha fəal rol oynayırdı.

**XVII əsrin ikinci yarısı** ilə **XVIII əsrin əvvəllərinə** Fransanın hərbi-siyasi genişlənmə planı dörd müharibəyə səbəb olmuşdur. 1667-1668-ci illərdə olan ilk müharibədə məqsəd ispan Niderlandının Fransaya birləşdirilməsi idi. **Hollandiya, İngiltərə** və **İsveç** arasında Fransya qarşı **üçlük ittifaqı** yaranmışdı. **İsveç Vestfal sülh** müqaviləsinin təminatçısı kimi çıxış edirdi. Belə bir şəraitdə **XIV Lüdovik** müharibəni dayandırmalı olmuşdur.

**İkinci müharibə** 1672-1679-cu illəri əhatə edir. Fransa kralı XIV Lüdovik Hollandiyaya qarşı hücuma keçmişdi. İngiltərə və İspaniya da Hollandiyaya köməklik gö.stərirdilər.

Nəhayət **1679-cu ildə Nimvehen** sülh müqaviləsi bağlanmışdır. Bu müqaviləyə əsasən Fransa Hollandiya ərazilərini azad etmiş, onun müqabilində isə İspaniyadan, Cənubi Niderlanddan müəyyən ərazilər almışdır. Bu ilk beynəlxalq müqavilə idi ki, sənədləşmə latınca deyil, **fransız yazısı ilə aparılmışdır.** Bu müqavilə Fransa üçün sərfəli olmuşdur. Belə şəraitdə **Versal Almaniyanın** zəifliyindən istifadə edərək özbaşına olaraq Almaniyanın bəzi torpaqlarım öz torpağına birləşdirirdi. Fransaya bəraət qazandırmaq üçün xüsusi **"Birləşdirmə Palatası"** təsis edilmişdir. Beləliklə, 1681-ci ildə Strasburq ələ keçirilmişdi.

**Üçüncü müharibə 1688-1697-ci illəri əhatə edir. XIV** Lüdovikin bu üçüncü müharibəsi, demək olar ki, ümumavropa müharibəsinə çevrilmişdir. Həm quruda və həm də dənizdə 10 il müharibə getmişdir. Hərbi döyüşlər Alman, Niderland, İtaliya, İspaniya torpaqlarında gedirdi. Burada Fransa məğlub olmuş, 1697-ci ildə sülh müqaviləsi bağlanmışdı.

**İspaniya kralı II Kari (1700-cü il)** öldükdən sonra XIV Lüdovikin nəvəsi V Filipp Kral elan edildi. Bu vaxt XIV Lüdovik öz ordusunu İspaniyaya göndərmişdir. O, öz nəvəsi adından özü İspaniyanı və müstəmləkələri idarə etmək fikrində idi. Bu isə bir çox Avropa dövlətlərini qıcıqlandırmışdır. Odur ki, geniş ittifaq yaratmalı olmuşlar.

**XIV Lüdovikin dördüncü müharibəsi** başlamışdı. Bu müharibə İspan vərəsəliyi uğrunda gedən müharibə idi. Bu müharibə **1701-1713-cü illəri** əhatə edirdi. Müharibədə, demək olar ki, bütün Qərbi Avropa iştirak edirdi. Həmin vaxtlar - **1700-1721-ci illərdə** Şimal müharibəsi də gedirdi (Şimali və Cənubi Avropa arasında gedirdi).

İspaniya vərəsəliyi uğrunda müharibə **Almaniya, Fransa, İtaliya və İspaniya arasında** gedirdi. Fransa məğlub olmuş və sülh istəmişdir. Beləliklə, **1713-1715-ci illərdə** Utrextdə sülh konqresi keçirilmişdir. Konqresdə **Fransa, İngiltərə,** Hol

**landiya, Savoyya, Portuqaliya, Venesiya, Papa vilayətləri, İspaniya** və digər dövlətlər iştirak etmişlər.

Müharibənin qurtarması barədə olan bu **Utrext** sülh müqaviləsində İspaniyanın vərəsəliyi barədə bir neçə müqavilənin şərtləri də yad edilmişdir.

Alman imperatoru VI Kari üçün Utrext müqaviləsinin şərtləri o qədər də sərfəli deyildi. Odur ki, öz diplomatlarını geri çağırmışdır. Sonra o, 1714-cü ildə ayrılıqda **Fransa ilə Raştatt** sülh müqaviləsi bağlamışdır. İspaniya 1713-cü ildə **İngiltərə** və **Hollandiya** ilə, 1715-ci ildə **Portuqaliya** ilə müqavilə bağlamışdır. Beləliklə, Avropada Fransanın siyasi liderliyinin sonu çatmışdı. **1680-cı** illərin ortalarına Qərbi Avropanın tarixində "Fransa erası" qurtarmışdı. Qüvvələr balansı dövrü başlanmışdır.

**XVII əsrin** ikinci yarısında Şimali və Cənubi Avropada beynəlxalq münasibətlərin taıixində **İsveçə** üstünlük verilirdi. Lakin sonralar çox keçmədən **İsveç** əleyhinə də qüwələr artırdı. Rusiya çarı **I Pyotr (1682-1725) Polşa kralı** ilə, Danimarka kralı IV Fridrix (1699-1730) və digər qüvvələrlə "Şimal müqaviləsi" bağlanmışdır. **1700-cü ildə** Rusiya Türkiyə ilə sülh müqaviləsi bağlamışdır. Bundan sonra İsveçlə müharibəyə girişmək imkanı əldə etmişdir.

**1721-ci ildə Rusiya ilə İsveç** arasında **Niştdat** sülh müqaviləsi bağlanmışdır. Beləliklə, Şimal müharibəsi Avropada qüwələr nisbətində dəyişiklik yaratmışdır. **İsveç** birdəfəlik böyük-güclü dövlət statusunu itirmişdir.

# IV Fəsil.
# XVIII ƏSRİN ORTALARINDA HƏRBİ MÜNAQİŞƏLƏR

XVIII əsrin əvvəllərində İspan vərəsəliyi uğrunda gedən müharibələrdən və Şimal müharibəsindən sonra Avropada prinsipcə yeni qüvvələr nisbəti formalaşmışdır. Yeni ziddiyyətlər məskəni və mənafelər müəyyənləşirdi. Beləliklə, Avropada beynəlxalq münasibətlər tarixində yeni mərhələ meydana gəlirdi. Bu mərhələdə üç əsas münaqişəni qeyd etmək olar;

- İngiltərə və Fransa arasında gedən dəniz və müstəmləkəçilik liderliyi üstündə olan münaqişə;
- Mərkəzi Avropada üstünlük qazanmaq uğrunda Avstriya ilə Prussiya arasında olan münaqişə;
- Baltikdə tam qərarlaşmaq və Qara dənizə çıxış uğrunda Rusiya münaqişəsi.

Yeni dövlətlər sisteminin bərqərar olmasında beş dövlət daha hakim rol oynamışdır: **Fransa, İngiltərə, Rusiya, Avstriya və Prussiya.**

Müharibələrin əksəriyyəti ittifaq xarakterinə malik idi. Lakin blok və ittifaq yaratmaq prinsipi də dəyişmişdir. XVI əsrin ortalarından **Vestfal** sülh müqaviləsinədək Avropa dövlətləri əsasən dini prinsip baxımından iki bloka ayrılırdı: **Habsburqların "Ümumdünya Monarxiya"** yaratmaq planına qarşı blok. Burada əsas rolu Fransa oynayırdı. **Fransa əleyhinə yaranan blok:** burada isə əsas rolu Hollandiya oynayırdı. Beləliklə, **1715-ci ildən** sonra dövrlər arasındakı mübarizə bu iki qruplaşma arasında gedirdi. Bu qruplaşmalar qüvvələr balansı prinsipi əsasında yaradılmışdır. Burada hər bir dövlət öz məqsədini, öz mənafeyini nəzərdə tuturdu.

**XVIII əsrin** beynəlxalq münasibətlərində Avropanın tarazlığı ideyası yaranmışdır.

Belə ki, **Utrext sülhü** Fransanın liderliyinin qeyri-mümkünlüyünü göstərmiş, **Niştdat sülhü** isə İsveçin böyük-güclü dövlət olması statusunu ləğv etmişdi.

Avstriya və Prussiya arasındakı qarşıdurma hətta Mərkəzi Avropada onların heç birinə üstünlük əldə etməyə imkan verməmişdi. Qeyd etdiyimiz əsas münaqişələrlə yanaşı, bəzi Avropa ölkələrində olan qarşılıqlı problemlər də müharibələr vasitəsilə həll edilirdi. Bunlardan: Cənubi Niderlandda Fransa-Avstriya qarşıdurmasını; Balkan uğrunda Avstriya ilə Osmanlı İmperiyası arasındakı mübarizəni; Qərb yarımkürəsində müstəmləkəçilik üstündə İngiltərə ilə İspaniya arasındakı münaqişəni; Şimali Amerikada Britaniya müstəmləkəçiliyi müharibəsi və s. qeyd etmək olar.

Qüvvələr balansı prinsipində - yəni dövlətin qüdrətli olmasında ölkənin ərazisi; əhalinin sayı; işçi qüvvəsinin qədəri; ordunun formalaşması imkanları; təbii ehtiyatlar; iqtisadi inkişaf səviyyəsi; xarici ticarətdəki nailiyyətlər; ordunun və hərbi flotun sayı; müstəmləkələrin mövcudluğu və s. Elementlər əsas götürülürdü. Hər bir dövlətin digər real imkanlarının qiymətləndirilməsi, siyasi gedişlərin proqnozlaşdırılması problemləri, diplomatiyanın inkişafını tələb edirdi. Daha doğrusu, diplomatik qulluğun inkişafı, diplomatik sahədə mahirlik və peşəkarlıq göstərilməsi kimi cəhətlər nəzərdə tutulurdu. Beləliklə, bütün əsas ölkələrdə daimi **diplomatik** işçilərin sayı artırdı.

**XVIII əsrdən fransız dili beynəlxalq diplomat dili** hesab edilmişdir (Latın dilini əvəz etmişdir). Çox tez-tez Avropanın bütövlüyündən söhbət gedirdi, Fransanın İngiltərə ilə barışmazlığı bir neçə müharibələrə səbəb olmuşdur. İngiltərə ilə Fransa arasında gedən müharibə **35 ilə bərabər** olmuşdur. İngiltərənin siyasəti planlı surətdə ticarətin genişlənməsi və müstəmləkə ələ keçirməkdən ibarət idi. Özünün əsas düşməni olan **Fransanın** rəqiblərinə köməklik göstərməyə

üstünlük verirdi. Fransa yenə də Avropada ən güclü orduya malik bir dövlət olaraq qalırdı.

**XVIIl əsrin ortalarında** Mərkəzi Avropanın **beynəlxalq münasibətləri** tarixində Avstriya ilə Prussiya qarşıdurması və digər dövlətlərin də bura qanşması mərkəzi yer tuturdu. Burada Avstriya ilə Prussiya arasında olan qarşıdurma Ümumavropa miqyaslı iki müharibə ilə nəticələnmişdir: Avstriya vərəsəliyi uğrunda (1740-1748 və 1756-1763-cü illər) yeddi illik müharibələri qeyd etmək olar.

**1730-cu illərdə (1733-1738)** baş verən müharibələr Polşa vərəsəliyi uğrunda gedən müharibələr idi. Bura da bir neçə dövlət cəlb edilmişdir. Bu müharibənin əsas səbəbi **1733- cü ildə Polşa kralı II Avqustun** ölümü olmuşdur. Hakimiyyət uğrunda mübarizə başlamışdır. Hakimiyyətə keçməyə ölən Kralın oğlu **Fridrix Avqust** və **Stanislav Leşinski** (bu artıq bir dəfə Polşa hakimiyyətində olmuşdur) iddialı idi. Fransa Leşinskini müdafiə edirdi. Leşinski XV Lüdovikin qızı Mariya ilə evlənmişdi. Nəticədə Stanislav Leşinski Polşa hakimiyyətinə seçilmişdir (bu seçki 3 milyon livrə başa gəlmişdi). Lakin onun hakimiyyəti ancaq **üç həftə** çəkmişdi. 1733-cü ilin noyabr ayında Rus ordusunun nəzarəti altında Fridrix Avqust yeni kral seçilmişdir (III Fridrix adı ilə).

Bu hadisəyə cavab olaraq Fransa Avstriyaya müharibə elan etmişdir. İsveç və Türkiyəni isə Rusiyaya qarşı yönəltmək istəyirdi (bu nijyət baş tutmamışdı). Rus flotu Fransa flotuna qalib gəlmişdi. Beş ildən sonra 1738-ci ildə Avstriya ilə Fransa arasında **Vyana** müqaviləsi bağlanmışdır. 1739-cu ildə Rusiya da bu müqaviləyə qoşulmuşdur. Avstriya İtaliya və Almaniyadan bəzi əraziləri Fransaya güzəştə getmiş və hər iki **Silezi- yanın** krallığından imtina etmişdir. Fransa **III Avqustun** Polşa krallığını tanımışdır. Stanislav Leşinski ömürlük kral tituluna layiq görülmüşdür.

İngilis-fransız qarşıdurması bütün **XVIII əsr** boyu gərgin olmuşdur. Fransa Prussiya ilə ittifaqda olduğu halda, İngil

tərə Avstriya ilə yaxın münasibətə üstünlük verirdi. İngilislərin niyyəti tam aydın idi - Amerikanı ələ keçirmək.

**1740-cı ildə** Avstriya imperatoru **VI Karlın** ölümü yeni hərbi qarşıdurmalara səbəb olmuşdur. Xüsusi qaydalara uyğun olaraq **Habsburq** torpaqlarının vərəsəliyi onun qızı **Mariya Tereziyaya** çatırdı (oğlu olmamışdı). Bu zaman bir çox Avropa torpaqları bu cür xüsusi qaydalara qarşı çıxırdılar. Beləliklə də, Avstriyada Habsburqların **300** illik hakimiyyətinə son qoymaq istəyirdilər. Mariya Tereza **(1740-1748)** bu mübarizədə yüksək siyasi iradə nümayiş etdirmişdir. O oz hüququnu və Habsburqlar ərazisinin bötüvlüyünü saxlamağa çalışırdı. Onun əsas düşməni Almaniyada Prussiya taxt-tac sahibi **II Fridrix** və **Kari Albrext** idi. II Fridrix yubanmadan Sileziyaya hücuma keçərək oranı zəbt etdi. Bu hadisə hərbi münaqişəyə səbəb olaraq ümumavropa miqyası aldı. Sileziyanın zəbt edilməsi Prussiya əleyhinə koalisiya yaradılmasına zəmin yaratmışdı. **Avstriya, Rusiya; İngiltərə, Niderland, Saksoniya və Sardiniya bu ittifaqa daxil olmuşlar.** Fransa və İspaniya isə Prussiya ilə ittifaqa girmişlər.

Beləliklə, **Avstriya** vərəsəliyi uğranda gedən mübarizə 1740- 1748-ci il (yeddi illik) müharibəsinə səbəb olmuşdur. Sileziya müharibəsi Avropa müharibəsinə çevrilmişdir. Fransa 1741- **ci ildə** öz ordusunu Almaniya və Niderlanda yeritmiş, İngiltərə ilə İtaliyanı məğlubiyyətə uğratmış, İspaniya ilə müttəfiq olmuşdur. Bavariyaçılar isə Avstriyaya daxil olmuş. Fransızlarla birlikdə Praqanı işğal etmişlər.

**1745-ci ilin** dekabr ayında Avstriya ilə Prussiya arasında separat **Drezden** sülh müqaviləsi bağlanmışdı. Bu müqaviləyə görə bütün Sileziya Prussiyaya verilmişdi. Bunun müqabilində Prussiya kralı **Mariya Terezanın** həyat yoldaşı **Frans Stefanm** alman imperatoru seçilməsini tanıdı. O, I Frans adı altında 20 il (1745-1765) imperiyaya rəhbərlik etmişdir.

1739-cu ildə İngiltərə ilə İspaniya arasında müstəmləkəçilik müharibəsi olmuşdur.

1743-cü ildə Paıis ilə Madrid arasında ittifaqın bərpasından sonra ingilis-fransız müharibəsi başlamışdır.

İ748-Cİ ildə İngiltərə ilə Hollandiya arasında, digər tərəfdən isə Fransa arasında Aaxen sülhü bağlanmışdı.

Bu müqavilə Avstriya vərəsəliyi uğrunda gedən müharibəyə yekun vurmuş oldu. Avstriya, İspaniya və Sardiniya da bu sülhə qoşulmuşlar,

Bütünlükdə XVIII əsrdə Avropa siyasətinin inkişafı göstərmişdir ki, istər gənc ölkələr və istərsə də feodal mütləqiyyətini devinnəyə əsaslanan ölkələr bir çox hallarda münaqişələrin artmasına özləri zəmin yaradırdılar. Hər halda XVIII əsrdə Avropada siyasi qüvvələrin beynəlxalq münasibətlərə təsiri məsələləri özünü çox açıq büruzə vermişdir.

## V FəsiL
## ABŞ-ın YARANMASI V3 BEYNƏLXALQ MÜNASİBƏTLƏRƏ ONUN TƏSİRİ

Cəmiyyətin inkişaf tarixi siyasi mübarizələrlə daha çox səciyyələnir, illər, əsrlər dəyişdikcə siyasi mübarizələr bir- birini əvəzləyir. Ayrı-ayrı ərazilər və xalqlar baxımından da sanki, bir ölkədən başqasına, bir xalqdan başqasına keçmiş olur.

Bir vaxt müstəmləkəçilik ugrunda gedən mübarizə müəyyən müddətdən sonra həmin xalqlann azadlığı ugrunda gedən mübarizə ilə əvəz olunur.

Beləliklə, 1775-ci ildə Avropanın öz sərhədlərindən kənarda yerləşən Şimali Amerikanın Atlantik sahillərində ingilis müstəmləkələri müharibəyə başlamışlar. Müharibə 8 il davam etmişdir. 1783-cü ildə Versal (Paris) sülh müqaviləsinə görə müharibə dayandırılmışdır. Bu müharibə azadlıq mübarizələrinin gedişinə, müstəmləkələrin beynəlxalq vəziyyətinə və eləcə də gənc Amerika Birləşmiş Ştatlarının azad olmasına zəmin yaratmışdır.

1776- cı il iyul ayının 2-də Qitələrarası Konqres müstəqillik barədə bəyannamə qəbul edərək Amerika Birləşmiş Ştatlarının müstəqilliyini elan etmişdir (Bu tarixi hadisə 4 iyulda qeyd edilir). Bəyannamə Virciniyadan olan görkəmli ədib, gənc hüquqşünas, Tomas Cefferson tərəfindən hazırlanmışdı. Tomas Cefferson bəyannamədə Con Adams, Beniami??. Franklin və Corc Vaşinqtonun fikirlərinə də yer vermişdir.

Bu sənəd dünyada ilk sənəd idi ki, cəmiyyətdə feodal və monarxiya təməlini açıq-aşkar inkar edirdi. Demokratik azadlıqlara üstünlük verilirdi: qanun qarşısında bərabərlik, xalqın suveren olması, idarəçilik formalarının dəyişdirilməsi hüququ, hər kəsin azad yaşamaq kimi təbii hüquqlara malik olması və s. öz əksini tapırdı. Aydındır ki, bəyannamə Avropada olan mütərəqqi qüvvələrin diqqətini cəlb etmişdir. Hərbi münaqi-

sələrin başlaması ib bəzi Avropa dövlətləri - Fransa. İspaniya və Rusiya özlərinin neytral vəziyyətdə olduqlarını bəyan edirdilər. İngikərəinn vəziyyəti onlara da təsir etməyə bilməzdi. Odur ki, belə siyasətə üstünlük verirdilər. Belə bir vəziyyətdə İngiltərə kralı Hİ Gecrq Avropa dövlətləri arasında ittifaq yaratmaq ideyasına ə! atsa da, bu fikir baş tutm.a- mışdır.l 775-1777-ci illərdə gedən hərbi hərəkata Corc Vaşinqton rəhbərlik edirdi. Amerika ordusu bir neçə dəfə məğlubiyyətə uğramışdı. Belə bir şəraitdə Amerika dipİomatian beynəlxalq köməklik siyasəti yeridirdilər (maliyyə, silah, paltar və s. nəzərdə turalurdu). 1776-eı üdə «məxfı məktublaşma komitəsi)) yaratmışlar. Ayn-ayrı ölkələrin müəyyən qurumlarına müraciət edirdilər. Bu ölkələrin bəziləri ney-tr-ailıq e).an etsələr də İngiltərəni zəiflətmək məqsədi ilə xəlvəti olaraq ABŞ-a müstəmləkə azadhğma yardım edirdilər. Belə ki, 1776- 1778-ci illərdə Fransa Amerikaya 30 rain muşket (tüfəng), 100 ton banı, 200 top, 20 min nəfə.riik paltar (cəmi 21 min livr) göndərmişdir. İspaniya 300 min dollai' vermişdir.

Fransız zabiti I.afayei öz vəsaiti hesabına böyük bir gəmini silahla təchiz etmiş və İngiltərə əleyhinə vuruşmağa göndənnişdir. .ABŞ-m müstəqilliyi barədə bəyannamə qəbul edildikdən sonra o, öz rəsmi nümayəndəsini Fransaya göndərmək irnkam əldə elmişdir. Odur ki, ABŞ ilk səfirini Fransaya göndəmrişdir.

İlk äə'Jİr Benjamin Franklin təyin (görkəmli alim, ictimai xadim) edilmişdir Tərkibdə Saylaç Din, Nyu-York ştamnın baş hakimi Con Cey, Artur-l,s və Eduard Bankroft da vardı. 1778-ci ildə Franklin vahid, sərbəst səfir olmuşdur.

ABŞ-m diplomatlarının qarşusmda iki məsələ dumrdu. Birinci ən azı Fransadan hərbi və maddi yardımın alınmasına çalışmaq. İkinci Fransanı İngiltərəyə qarşı müharibəyə cəlb etmək. Fransa ABŞ-a yardım etməyi davam etdirirdi. 1776-cı i! ildə amerikalılara 2 mln livr əvəzsiz, 1 mln. livr borc şəklində

yardım etmişdir. Lakin amerikalılarla müttəfiq olmaqdan imtina etmişlər.

I777-Cİ ilin axırlarında Vaşinqtonun rəhbərliyi altında ordu böyük üstünlük əldə etmişdir. Bu vaxt ingilis-amerika danışıqları başlanırdı. Odur ki, Franklin vəziyyətdən istifadə edərək XVI Lüdoviki ABŞ ilə müttəfiq olmağa inandırırdı.
1778- ci ildə fevral ayının 6-da Franklin Fransa ilə iki müqaviləyə imza etdi-ticarət və müttəfiqlik barədə. Bu amerika diplomatiyası üçün çox böyük nailiyyət idi. Müttəfiqlik barədəki müqavilə o demək idi ki, Fransa neytrallıq siyasətindən imtina edərək İngiltərəyə qarşı müharibəyə qoşulmalıdır. İspaniya da Fransaya qoşulmuşdu, (Şimali Amerikadakı və Avropada itirilmiş ərazilərini qaytarmaq ümidi ilə) müqavilədə Birləşmiş Ştatlar suveren və bərabər hüquqlu ölkə kimi tanınmışdır.

Fransa onun müstəqiliyinin təminatçısı olmağı öz öhdəsinə götürmüşdür. Amerika da Fransanın buradakı sahib olmuş ərazilərinin toxunulmazlığına təminat vermişdir. İspaniya da itirilmiş Floridaya sahib olmuşdur. 1781-ci ildə Vaşinqtonun komandanlığı ilə birləşmiş ordunun gücü ilə hərbi hərəkatda güclü çevriliş yaranmışdır. Bu isə İngiltərəni sülh bağlamağa məcbur etmişdir. 1782-ci ildə Parisdə sülh danışıqları hazırlanırdı. 1783-cü ildə Versalda müqavilə bağlanmış, ABŞ-ın müstəqillik uğrundakı İngiltərə üzərindəki qələbəsi müqavilə ilə təsdiq edilmişdi. Müqavilədə ABŞ-ın sərhədləri də müəyyənləşdirilmişdi.

ABŞ-m müttəfiqləri ilə münasibətdə - İngiltərə Afrikada Seneqalı qaytardı, Vest-İndiyada Tobaqonu Fransaya güzəştə getdi. Flər iki ölkə Hindistandakı əraziləri bir-birinə qaytardılar. Kanada ingilis müstəmləkəçiliyində qaldı. Florida və Aralıq dənizində Menorka adası İspaniyada qaldı. Siyasi ədəbiyyatlarda ABŞ-ın müstəqilliyi uğmndakı mübarizəsinə Avropanın hərbi, maliyyə və maddi köməkliyindən çox bəhs edilir. Doğrudan da, məsələn 1779-cu ildə Fransa ilə İspa

niyanın İngiltərəyə qarşı mübarizəsi, La-Manşla, İrlandiya və Hindistan sahillərində hərbi əməliyyat aparmalan, Rusiyamn və digər Avropa dövlətlərinin hərbi neytral vəziyyətdə olması İngiltərə üzərində qələbə çalmağa az köməklik etməmişdir. Aydındır ki, Amerika inqilabının qalib gəlməsi böyük beynəlxalq nəticələr doğurmuşdur. **Beynəlxalq münasibətlərin** keyfiyyətcə yeni subyekti meydana gəlmişdir. Müstəmləkə xalqlarının milli azadlıqları uğrundakı mübarizələrinə inam oyatmışlar.

# VI Fəsil.
# XVIII-XIX ƏSRLƏRDƏ AVROPADA BEYNƏLXALQ VƏZİYYƏT

XVIll əsrin axırlarında Avropada ən əsas hadisələrdən biri **Fransa inqilabı** olmuşdur. Bu hadisə istər Avropada və istərsə də dünya miqyasında **beynəlxalq münasibətlərin** ümumi vəziyyətinə və inkişafına güclü təsir etmişdir. Həm də bu hadisə Avropa dövlətləri arasında olan qarşıdurmaları müəyyən mənada geri atmış olmuşdu. Rusiya imperatoru II Yekatirina öz çıxışında göstərirdi ki, Fransada Monarxiya hakimiyyətinin zəifləməsi bütün digər monarxiya dövlətləri üçün də təhlükə törədə bilər. Fransada inqilab istər-istəməz onu zəiflətmişdi. Bəzi dövlətlərin əlinə imkan düşmüşdü.

**Fransa əleyhinə ittifaq yaradılması.** Fransa İngiltərə, Prussiya və Rusiyanın diqqət mərkəzində idi. İngiltərə açıq- aşkar Fransa ilə müharibəyə hazırlaşırdı.

Rusiyanın güclənməsinə imkan verməmək üçün onu da müharibəyə cəlb etmək istəyirdi. Odur ki, bu məsələ üzrə Rusiya ilə müttəfiqlik əldə etmək istəyirdi. Lakin bu plan baş tutmamışdı. Belə olduqda İngiltərə Prussiya ilə Hollandiyaya təsir etməyi qərara almışdı. İngiltərə Fransa ətrafında dövlətlər bloku yaratmaq istəyirdi. Bununla da guya inqilabın yayılmasına imkan vermirdilər. O vaxt artıq inqilab Belçikaya da daxil olmuşdu. Hər halda inqilab qorxusu digər dövlətlərin birgə fəaliyyət planı hazırlamasını tələb edirdi. Beləcə, onların siyasi və diplomatik yaxınlaşması baş verirdi. Avstriyada da monarxiyanın yaşaması təhlükəsi özünü göstərirdi. Odur ki, Avstriya Türkiyəyə olan diqqəti azaltmış, Avropada vəziy>'ətin sabitləşməsinə diqqəti artırmışdır.

Bu vaxt Prussiya da Avstriyanın zəifləməsi üçün müəyyən praktiki addımlar atırdı. Avstriyalılar istəyirdilər ki. Polşadan Dansik və Torna şəhərləri onlara birləşdirilsin. Bu Visla çayı rayonunda Prussiyanın mövqeyini gücləndirə

bilərdi. Prussiyanın bütün hərəkətləri Londonda izlənirdi. Prussiyanın Avstriya ilə müharibəyə girişməsi xəbərini bilən kimi, İngiltərə ona köməklik etməyəcəyini bildirmişdi (o istəyirdi ki, Prussiya zəifləsin) İngilis diplomatı U.Pit istəyirdi ki, Avropa məsələlərində İngiltərə əsas rol oynasın.

1790-cı ilin iyul ayında Reyxenbaxda Prussiya ilə Avstriya arasında müharibə olmaması barədə müqavilə bağlanmışdı. Avstriya Türkiyə torpaqları hesabına öz ərazisini genişləndirməkdən imtina etmişdi. Açıqlığı ilə qeyd etmək olar ki, məhz Reyxenbax müqaviləsi ilə U.Pit Fransaya qarşı ittifaqın başlanğıcım qoymuş oldu. İngilis diplomatiyasının yaxından köməkliyi ilə 1792-cü ilin fevral ayında Prussiya ilə Avstriya arasında bəyannamə imzalanmışdı. Onlar belə qərara gəlmişlər ki, hərbi müdaxilə ilə Fransada monarxiyanı tam bərpa edə bilərlər. İngiltərə Fransa əleyhinə ittifaqın genişlənməsinə daha çox diplomatik səy göstərirdi.

1793-cü ilin yazına İngiltərə, Rusiya, Avstriya, Prussiya, İspaniya, Hollandiya və digər dövlətlər ittifaqda təmsil olunurdu. Beləliklə, Avropa dövlətlərinin ordusu Fransa ərazisinə daxil olmuşlar. Aydındır ki, hər bir dövlətin özünün xüsusi məqsədi - tələbi vardır. 1793-cü ilin may-iyun aylarında Fransada vəziyyət çox gərgin idi.

**1793-cü il iyun** ayının 24-də Fransanın milli məclisi yeni konstitusiya qəbul edərək diplomatiyanın əsas prinsiplərini müəyyənləşdirirdi. Konstitutsiyada göstərilirdi ki, Fransa xalqı bütün azad xalqların təbii dostu və müttəfiqidir. O başqa millətlərin hökumət işlərinə qarışmayın Başqa millətlərin də onun işinə qarışmasına dözməyir. Fransanın ərazisini zəbt edən hər hansı düşmənlə sülh bağlamaq olmaz. Fransada yaradılmış **«İctimai xilasetmə komitəsi»** müxtəlif diplomatik gedişlərlə Fransanı iqtisadi və siyasi vəziyyətdən çıxarmağa çalışırdı. Odur ki, Fransa əleyhinə olan ittifaqa qarşı əks ittifaq yaratmaq qərarına gəlmişlər. İngilis gəmilərinin Fransa limanlarına gəlməsinə qadağa qoymuşlar (1793-cü ilin mart ayında Rusiya ilə

İngiltərə də müqavilə bağlayaraq Fransaya müəyyən qadağalar qoymuşlar). Hər halda Fransa ordusu xarici müdaxilə təhlükəsinin qarşısını almış, daxili və beynəlxalq vəziyyəti sabitləşdirə bilmişlər.

Polşada vəziyyət. (Polşanın üçüncü dəfə bölgüsü) Avropanın başqa dövlətlərində də beynəlxalq gərginlik mövcud idi. Belə ki, 1794-cü ildə Polşanın Krakov şəhərində üsyan baş verərək bütün Polşam bürümüşdü. Bu hərəkata general Tateuş Kostyuşko rəhbərlik edirdi. A.V.Suvorovun komandantlığ altında rus ordusu, Prussiya kralının və Avstriya imperatorunun ordusu üsyançılara qarşı vuruşurdu. Üsyanın yatırılmasmdan sonra Polşanın üçüncü dəfə bölgüsü baş verdi. Bu bölgü nəticəsində Litva, Kurlyandiya, Neman və Buqa qədər olan Belo- rus və Ukrayna torpaqları Rusiyaya verildi.

Varşava ilə birlikdə Polşanın bütün şimal hissəsi Prusiyaya, Lyublin və Krakov isə (vilayətlərlə birlikdə) Avstriyaya verilmişdir. Beləliklə, Polşanın bölüşdürülməsi Prussiya, Rusiya və Avstriya arasındakı ziddiyətləri nəzərə çarpacaq dərəcədə tənzimləmiş oldu.

1794-cü il Termidorian çevrilişindən sonra Fransanın xarici siyasəti. 1794-cü ilin iyul ayının 27-də Fransada çevriliş baş vermiş, iri burjuaziya nümayəndələri hakimiyyətə gəlmişlər. Danışıq proseslərinin aparılması üçün real zəmin yaranmışdır. 1794-1795-ci illərdə müharibə iştirakçılarının bir çoxları ilə sülh müqavilələri bağlanırdı. 1795-ci ilin aprel ayında Bazeldə Fransa - Prussiya müqaviləsi bağlanmışdır.

Yenə Bazeldə 1795-ci ilin may ayında Fransa ilə Hollandiya arasında, iyul ayında İspaniya ilə müqavilə bağlanmışdı. 1795-ci ildə Termidorion məclisi yeni konstitusiya hazırlamalı olmuşlar. İcra hakimiyyəti direktorluga keçmişdir. Direktorluq beş üzvdən ibarət idi. Direktorluğun hakimiyyəti dövründə Fransa Almaniya və İtaliya ilə müharibə vəziyyətində idi. Bu vaxt general Bonapart meydana gəlmişdi. O, İtaliyada müəyyən qələbələrdən soma Misir üzərinə getmişdi.

Misir ekspedisiyası da İngiltərə əleyhinə yönəldilmişdi. Bu isə İngiltərənin Hindistana qarşı olan planı üçün təhlükə yaradırdı. İngilis eskadrası admiral Nelsonun komandanlığı altında Aralıq dənizində Fransa flotunu darmadağın edə bilmişdi.

Rusiyanın Fransa əleyhinə 2~ci İttifaqda iştirakı. Fransaya qarşı ittifaq yaradılması məsələsində İngiltərə yenə də aparıcı rol oynayırdı. Bu İttifaqa İngiltərə, Rusiya, Avstriya, Türkiyə və Neapolitan Krallığının* daxil edilməsi nəzərdə tutulurdu. Lakin II Yekaterinanın ölümündən sonra (1796) hakimiyyətə gələn I Pavel Rusiyanın müharibələrdə iştirak etməsinin əleyhinə idi.

Buna baxmayaraq A.V.Suvorovun komandanlığı ilə rus ordusu İtaliya üzərinə göndərilmişdir. Onlar bir həftə müddətində İtaliyanın şimalını fransız inqilabçılarından təmizləmişdilər. Rus ordusunun güclü olmasına Avstriya ild mənada yanaşırdı. Bir tərəfdən buna yaxşı hal kimi baxdıqları halda, digər tərəfdən isə Avropanın mərkəzində Rusiyanın güclənməsini heç də istəmirdilər. Elə həmin vaxtlar Bonapart Misir yürüşündən Fransaya qayıtmışdır. Onun da şöhrəti günbəgün artırdı. Respublikanın müdafıyəsi şüaıa altında 1799-cu ildə müəyyən çevrilişlər edərək özünü hakimiyyətə yaxınlaşdırırdı. 1799-cu ildə Fransa artıq rəsmi olaraq respublika idi. 1799-cu il konstitusiyasına əsasən Respublikanı üç səfir idarə edirdi.

Birinci səfir qoşun qəbul edir, daxili və xarici siyasətə rəhbərlik edir. Bununla yanaşı o, ordunun ali baş komandam hesab olunurdu. Bu vəzifələr Napoleon Bonaparta həvalə edilmişdir. Bonapart çox tezliklə özünü qabiliyyətli bir diplomat kimi nümayiş etdirirdi. O, Roma papası ilə, Avstriya ilə, Rusiya ilə və bir çox digər yerlərlə sülh müqavilələri bağlayırdı. Bütün bu kimi işlərdə diplomat, xarici işlər naziri.

*** Neopalitan krallığı Apenin yarımadasının cənub hissəsində dövlət (1282- 1504) Siciliyə, krallığının dağılması nəticəsində yaranıb**

**Ş.M.Taleyran** və polis naziri J.Fuşe ona köməklik edirdilər. Taleyran 1797-ci ildə Fransamn xarici işlər naziri təyin edilmişdir. O, məşhur bir kübar ailədən olmuş, XIX əsrin ən tanınmış xarici siyasi xadimlərindən biri hesab edilirdi. Taleyran dəfələrlə başqa ölkələrin nümayəndələri ilə xəlvəti danışıqlar aparılmasına yol vermişdir.

Həmin dövrdə Rusiyanın vəziyyətinin şərhinə gəldikdə qeyd etməliyik ki, o dövrdə **Rusiya artıq** Avropanın ən güclü dövlətlərindən birinə çevrilirdi. O, diplomatik yollarla da, hərbi yollarla da yüksək qələbələrə nail olurdu. **A.V.Suvorovun, M.İ.Kutuzovun, F.F.Uşakovun** rəhbərlik etdiyi rus ordusunun qələbələri ölkənin nüfuzunu yüksəklərə qaldırırdı. Bütün bunlara baxmayaraq XVIII əsrin axırları, XIX əsrin əvvəllərinə Rusiyanın beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Onun cənub sərhəddində olan **Türkiyə, İngiltərə və Prussiya** ilə birlikdə Dunay və Qafqaz rayonlarında bəzi torpaqları tutmağa çalışırdılar. Şimalda İsveç də İngiltərəni dəstəkləyirdi.

**Hələ 1787-ci ildə** Türkiyə-Rusiyaya ultimatum verərək Knmm qaytarılmasım və **Gürcüstanı Türkiyənin** vassalı kimi tanımasını tələb edirdi. Nəhayət, 1788-ci ildə Türkiyə 150 min nəfərlik ordu ilə Rusiya üzərinə hücum etmiş və məğlub olmuşdur. 1791-ci ildə Rusiya ilə Türkiyə arasında sülh müqaviləsi bağlanmışdır. Türkiyə bəzi iddialarından imtina etmişdir. Bundan bir qədər əvvəl - 1790-cı ildə Rusiya ilə İsveç arasında **Versal** sülh müqaviləsi imzalanmışdır.

Rusiya ilə Fransanın münasibətinə gəldikdə qeyd etməliyik ki, Rusiya Fransa inqilabından ehtiyatlanırdı. Lakin Kralın tərəfdarlarına siyasi sığınacaq verməmək barədə inqilabçı Fransanın tələblərindən imtina edirdi. Bonapartm təşəbbüsü ilə bu iki ölkə arasında danışıqlar gedirdi. **1800-cü ildə I Pavel** Fransa ilə müttəfiqliyə girdi. Bütün bunlar Rusiyanın Hindistan üzərinə yürüşünə hazırlıq idi. Bu isə Rusiya ilə İngiltərə arasında olan münasibəti pisləşdirirdi. **1801-ci ildə I Pavelin** oğlu I Aleksandr Rusiya çan olduqdan sonra Rusi

yanın xarici siyasi kursu dəyişmişdir. I Pavel Fransa ilə münasibətlərin tərəfdan olduğu halda, gənc 23 yaşlı Aleksandr əksinə İngiltərə ilə münasibətlərin yaxşılaşdmlması, Napoleon ilə mübarizə aparmağın tərəfdan idi.

Aleksandr öz ətrafına çox talantlı adamlar yığaraq Rusiyanın xarici siyasi kursunu müəyyənləşdirirdi. **1802-ci ildə** Rusiyanın xarici işlər Nazirliyi yaradılmışdır. İlk xarici işlər naziri A.R.Voronsov olmuşdur. I Aleksandr Napoleon Fransası ilə mübarizə aparmaqda Avropa dövlətləri ilə birgə hərəkət etməyi nəzərdə tuturdu.

Beləliklə, XVIII əsrin sonu və XIX əsrin əvvəllərindəki hadisələr Avropa dövlətləri arasındakı münasibətlərin inkişafına zəmin yaratmışdır. Beləliklə, Beynəlxalq münasibətlərə olan ictimai maraq da artmışdır.

## VII Fəsil.
## NAPOLEON MÜHARİBƏSİ İLLƏRİNDƏ AVROPA VƏ RUSİYA ARASINDA OLAN MÜNASİBƏTLƏR

**Napoleonun xarici siyasəti. Napoleon Bonapart** (1769-1821). Əvvəlcə Fransanın I səfiri, 1804-cü ildən isə imperatoru olmuşdur. O, hakimiyyətdə olduğu 1,5 üdə bütün Avropanın gərgin vəziyyətdə qalmasına səbəb olmuşdur. O, ancaq hərbi qələbələri ilə deyil, həm də çox mahir diplomat kimi şöhrət tapmışdı. Fransanın xarici işlər naziri Taleyran dəfələrlə etiraf edirdi ki, diplomatiyanın ən çətin incəliklərini Napoleon ona öyrətmişdir. Bəzi mütəxəssislər Napoleonun xarici siyasətində iki dövrü fərqləndirirlər: **1) İngiltərəni** qitə blokadasına alan dövrədək; 2) 1806-cı ilin noyabrından sonrakı dövr (blokada haqqında dekret imzalandıqdan sonrakı dövr).

Etiraf etmək lazımdır ki, Napoleon hələ səfir olduğu vaxt o, çox çətinliklərlə qarşılaşmalı olmuşdur. Başda İngiltərə olmaqla demək olar ki, bütün Avropa dövlətləri Fransaya qarşı durmuşlar. Başqa dövlətlərlə münasibətləri gərginləşdirmədən Fransa ilk zərbəni Avstriyaya endirmişdir. Akademik Tarle özünün **«DipIomatiya tarixi»** əsərində Napoleon diplomatiyasına geniş yer vermişdir. O, göstərirdi ki, XIX əsrin birinci onilliyində Napoleon qarşısına iki əsas məqsəd qoymuşdur.

1. O, **İngiltərə üzərində qələbəyə can** atırdı. 2. **Rusiya ilə hərbi ittifaq (müttəfiq)** bağlamaq istəyirdi.

*Rusiya-Fransa münasibətləri* Napoleon hadisələrə real qiymət verərək başa düşürdü ki, İngiltərəyə qalib gəlmək üçün Rusiya ilə mütləq ittifaqa girmək və yaxud onu neytrallaşdırmaq lazımdır. Odur ki, o, fransız diplomatlarına xüsusi tapşırıq veımişdi ki, hansı yolla olur olsun Rusiya ilə münasibətlər yaxşılaşdırmaq və onu öz tərəfinə döndərmək lazımdır. Dəfələrlə nümayiş etdirirdilər ki, ancaq rus ordusunun sayəsində fransızlar **İtaliya** üzərində qələbə çalmışlar. **I Pavelin vaxtında da, I Aleksandrın** vaxtında da fransız diplomatiyası bu

taktikanı əsas götürmüşdür (Baxmayaraq ki, I Aleksandr Fransa əleyhinə ümumi Avropa İttifaqı yaratmağın tərəfdarı idi). İngiltərəyə qarşı yaxşı münasibətdə olan Çar Napoleon ilə də münaqişəyə girmək istəmirdi. Odur ki, rus diplomatları da Fransa ilə danışıqlar aparırdı. Beləliklə, **1801-ci ilin** oktyabr ayının 8-də Parisdə Rusiyanın Fransadakı səfiri **A.Markov** ilə Fransanın xarici işlər naziri Taleyran sülh müqaviləsi imzalamışlar. Elə həmin vaxtdan Almaniya ilə İtaliyanın məsələsini birlikdə həll etmələri barədə razılığa gəlmişlər. Beynəlxalq müqavilə imzalandıqdan dərhal sonra Fransa diplomatları onun hər bir bəndini təhlil etməyə və öz xeyrinə üstünlüyə malik olmağa çalışırdı.

**Lyunevil müqaviləsi.** 1800-cü ildə fransızlar Avstriyanın bir neçə şəhərini tutduqdan sonra onları sülh bağlamağa məcbur etmişlər. Beləliklə, 1801-ci il fevral ayının 9-da Fransanın **Lyunveil** şəhərində sülh müqaviləsi imzalanmışdır. Müqaviləyə əsasən Avstriya ərazisindən **Reyn** çayının sahili, **Belçika** və **Lüksenburq** Fransaya verilmiş, Avstriya ərazisinin müəyyən hissəsi isə Fransanın vassalına çevrilmişdir. Bununla da Fransa əleyhinə ikinci ittifaq öz mövcudluğunu itirmişdir.

**Amen müqaviləsi.** Avstriya məğlub olduqdan sonra İngiltərə özü sülh danışıqlarına getməyi təklif etmişdir. Napoleon sülh danışıqlanna getməyə hazır olduğunu bildirmiş və danışıqlar başlanmışdır. Londonda müqavilənin şərtləri müzakirə edilmiş, sonra Fransanın **Amen** şəhərində sülh müqaviləsinin ikinci turu başlanmışdır. Danışıqlar 6 ay davam etmiş, **1802-ci il** mart ayının 27-də müqavilə imzalanmışdır. Müqavilə bir tərəfdən Fransa, **İspaniya, Batav Respublikası (Hollandiya),** digər tərəfdən isə İngiltərə tərəfindən imzalanmışdır. Müqavilənin şərtlərinə əsasən Fransa ordusu Misirdən, Elba adasından, Romadan və Neapoldan çıxır. Fransa Misirin Türkiyəyə qaytarılmasına da razılıq verməli olur. İngiltərə Hollandiyanın, İtaliyanın, İsveçrənin, Alman dövlətlərinin işinə qarışmamaq və öz ordusunu Maltadan çıxarmaq barədə öhtəçilik

götürür. Bundan əlavə İngiltərə Fransaya və onun müttəfiqlərinə məxsus olan müstəmləkə və digər əraziləri qaytarmalı olur. Lakin demək olar ki, bütün bunlar müvəqqəti nəfəs almaq üçün idi.

Bütün bunlara baxmayaraq Fransa ilə İngiltərə arasında olan münasibətlər pisləşirdi. Nəhayət, 1803-cü il may ayının 12-də İngiltərənin səfiri Fransadan getməli olmuşdur.

*Fransa əleyhinə 3-cü İttifaqın yaranması.* Bir-birinə qarşı dayanan İngiltərə və Fransa Avropadakı qüw'ələr nisbətinə çox diqqətlə - siyasətlə yanaşırdılar. Napoleon çox tələsirdi ki, Avropanı özünə tabe etdirsin. İngiltərənin Nazirlər Soveti **U.Pit** də öz ölkəsinin xarici siyasi kursunu izləyərək Fransa əleyhinə üçüncü İttifaq yaratmağa çalışırdı. Avstriya və Rusiya da bu ittifaqın tərəfdarı idi. Hətta bu barədə 1804-cü ildə I Aleksandr İngiltərəyə məxfi məktub da göndərmişdi. O yazırdı ki, Rusiya ilə İngiltərənin qüvvələrinin birləşdirilməsi çox yaxşı nəticələrə səbəb ola bilər.

Göründüyü kimi I Aleksandr bir tərəfdən Fransa ilə əlaqə yaratmağa çalışdığı halda, digər tərəfdən İngiltərə ilə İttifaqa girib Napoleonla mübarizə aparmaq istəyirdi. Bu vaxt Prussiyanın **Kralı III Fridrix Vilhelm** Fransanın onun ölkəsi üzərinə hücum etməsindən ehtiyatlanai'aq Fransa əleyhinə ittifaqa qoşulmaqdan imtina etdi. O, açıqca bəyan etmişdi ki. Prussiya Fransaya qarşı çıxış etməyəcəkdir.

*Fransa əleyhinə 3-cü İttifaqın dağılması.* Napoleon 1805-ci ildə Avstriyaya daxil olaraq onun 32 minlik ordusunu mühasirəyə alıb darmadağın etdi. Bu məcburiyyətdən sonra Avstriya qalan ordusu ilə nə Prussiyaya, nə də Rus ordusuna heç bir köməklik edə bilmədi. **M.İ.Kutuzov** fransızlarla üz-üzə gəlməyərək geri çəkilməli oldu. Lakin I Aleksandr və Avstriya imperatoru Fransa Napoleon ilə döyüşü davam etdirməyə üstünlük verirdilər. Nəticədə 1805-ci il dekabr ayının 2-də Napoleon rus və Avstriya ordusuna ağır zərbə vurdu.

**Beləliklə, Fransa əleyhinə olan üçüncü ittifaq dağıldı.** Rus və Avstriya ordusu çoxlu itki vermiş, 20 min əsgər və zabit fransızlara əsir düşmüşdü. Beləliklə, ruslar Napoleon ilə sülh danışıqları aparmağa məcbur olmuşdur. 1805-ci il dekabr ayının 26-da Fransa ilə Avstriya arasında da **Presburq** sülh müqaviləsi bağlanmışdı.

**Rus-türk müharibəsi.** Napoleon ilə müharibədə rus ordusunun ağır məğlubiyyətindən sonra Avropada onun beynəlxalq vəziyyəti xeyli pisləşmişdir. Rusiya ilə Türkiyə arasında ittifaq mövcud idi. Lakin Türkiyə tez-tez Fransanın təsirinə məruz qalırdı. Napoleon diplomatiyası Rusiya ilə Türkiyə arasında olan ittifaqın pozulmasına yönəldilmişdir. Fransa Türkiyəyə söz vermişdi ki, Rusiya müharibəyə başlasa ona kömək edəcək və Krım ilə Gürcüstanın da qaytarı'lmasına kömək edəcəkdir. Türkiyənin maraqlarına uyğun olmasa da ruslarla müharibəyə başladı. Lakin nə Gürcüstana, nə də Dunay knyazlığına (Moldova və Valaxiyaya) girə bilmədi.

**Prussiyada hərbi kompaniya,** İngiltərənin baş naziri **U.Pit** öldükdən sonra İngiltərə ilə Fransa arasında müəyyən yaxınlaşma müşahidə olunurdu. Bu isə Prussiyanın vəziyyətinin pisləşməsinə səbəb olurdu. Onun sərhədlərində çoxlu miqdarda Napoleon ordusu toplanmışdır. Odur ki. Prussiya kralı kömək üçün **I** Aleksandra müraciət etmişdir. İsveç və İngiltərə də köməklik göstərməyə razılıq vermişlər. **Beləliklə Fransa əleyhinə yeni dördüncü ittifaq yaranmışdır.** Lakin bu proses uzun çəkmədi. 1806-cı ilin oktyabr ayında Napoleon ordusu, çox asanlıqla Saksoniya və Prussiyaya və oradan da Berlinə daxil oldu. Bu 1806-cı il kompaniyası hərbi mahiyyətindən başqa, istər Fransa və istərsə də bütün Avropa üçün böyük siyasi nəticələrə səbəb olurdu. Böyük Britaniya əleyhinə iqtisadi və siyasi tədbirlər həyata keçirilməsi barədə Napoleonun dekreti yayılmış oldu.

Beləliklə, **o, Britaniya adalarının necə deyərlər qitə baxımından blokadaya alınmasının əsasını qoymuş oldu.**

**Dekretdə açıq-aşkar yazdırdı ki, «Britaniya adaları blokada vəziyyətində elan edilir».** Avropa ölkələrinin İngiltərə ilə olan bütün əlaqələri qadağan edilir. Fransa ilə müttəfiq olan ölkələrin ərazilərində olan bütün ingilislər həbs olunsun və bütün ingilis malları müsadirə edilsin.

*I Aleksandrın xarici siyasi* A«rÄ«.1806-1807-ci illərdə Rusiya Türkiyə və İran ilə müharibə aparırdı və eləcə də Avropanın mərkəzi və Balkan da müharibə şəraitində idi. Qafqazda Gürcüstan üstündə müharibə gedirdi. 1806-cı ildə Rus ordusu Dərbəndi və Bakım zəbt etmişdi. I Aleksandr öz xarici siyasətində İngiltərənin siyasi xəttinə də yeni nəzər salmışdır. Fransaya qarşı münasibətdə Rusiya rəhbərliyində fikir birliyi yox idi. Hər halda çoxlannm fikri belə idi ki, müharibəni qurtarmaq və sülh yaratmaq lazımdır. Onlar Rus- Türkiyə məsələsinə Fransanın qarışmasının da əleyhinə idilər. Napoleon da Rusiya ilə ittifaqa üstünlük verirdi. Lakin onun əsas şərti Rusiyanın İngiltərənin qitə blokadasına qoşulması idi.

Napoleon İngiltərə ilə mübarizədə Rusiyadan istifadə etməsi ilə həm də onu zəiflətməyə çalışırdı. 1807-ci ildə iyunun 8-də Rusiya ilə Fransa arasında yenə hərbi müqavilə bağlandı. Bu sülh müqavilələrində bir çox məxfi razılaşmalar da nəzərdə tutulmuşdur. Rusiya qitə blokadasına qoşulmağa razılıq vermişdir. Napoleon Polşanın bərpa edilməsini və Prussiyanın tamam parçalanmasım təklif edirdi. Rusiya çarı I Aleksandr bu məsələdə Napoleonla razılaşmamış və Prussiyanın torpaqlarının qajdarılması, millətlər arasında dostluq, qardaşlaşma münasibətləri yaradılmasını istəmişdir. Napoleon hörmət əlaməti olaraq onu eşitmiş və ərazilərini, sərhədlərini müəyyənləşdirmişdir.

*Erfurtdə görüş.* 1808-ci ildə Napoleon İspaniya üzərinə hücuma keçməyi qərara almışdır (Portuqaliya üzərində asanlıqla qələbə qazandığı halda). İspaniya Napoleona çox güclü müqavimət göstərirdi. Bu çətinlikdən istifadə edən Avstriya yeni qüv\'ə toplayırdı. Prussiyada da Fransa siyasətinə

qarşı müəyyən narazılıq yaranırdı. Odur ki, Avstriyanın hücumunu gözləyirdilər. Napoleon Avstriyanın məqsədini başa düşdüyü üçün öz yeni müttəfiqi olan Rusiyanı bu məsələyə cəlb etmək qərarına gəldi.

Odur ki, Napoleon I Aleksandrı görüşə dəvət etdi. Görüş 1808-ci il oktyabr ayının 12-də Almaniyanın Erfurt şəhərində baş vermişdir. Fransa nümayəndəsi J.B.de Şapani və Rusiya nümayəndəsi N.P. Rumyansev Rus - Fransa müttəfiqliyi müqaviləsini imzaladılar. Burada bəzi ərazi məsələləri ilə yanaşı Rusiya ilə Fransanın Türkiyə və Avstriyaya olan münasibəti də öz əksini tapırdı. Orada göstərilirdi ki, Avstriya Fransaya qarşı müharibəyə başlayarsa, Rusiya Fransa ilə birləşərək Avstriyaya qarşı çıxış edəcəkdir.

*Şenbrun (Vyana) müqaviləsi.* Növbəti dəfə Napoleon ilə Avstriya arasında gedən müharibədə Rusiya iştirak etmirdi. Napoleon Avstriya üzərində qəti qələbə qazandı. 1809-cu il oktyabr ayının 14-də **Vyanada Şenbrun sarayında sülh müqaviləsi** bağladılar. Müqaviləyə əsasən Avstriyanın ərazisi xeyli azaldıldı. Rusiya müharibədə iştirak etməsə də Avstriyadan Tamapol və Tamapol vilayəti ona verildi (bununla da Napoleon Rusiya ilə Avstriya arasında gələcəkdə ixtişaş yaratmağa yer qoyurdu).

*Rus - İsveç müharibəsi* Bütün bu amillər onu göstərirdi ki, rus fransız münasibətləri nisbətən pisləşirdi. I Aleksandr Finlandiyanı tutmaqla öz ərazisini artırmağa çalışırdı. Finlandiya İsveçə tabe idi. Odur ki, 1809-cu ildə Rusiya ilə Finlandiya arasında müharibə başlandı. Ruslar isveçliləri Finlandiyadan qovub çıxardılar. Finlandiya və Aland adası Rusiyanın əlinə keçdi.

*Rusiyanın Şərqə qarşı siyasəti* 1807-ci ildə Rusiya ilə Türkiyə və İran arasında olan müharibə qurtarmış və Parisdə barışıq danışıqları başlamışdır. Danışıqlar uzanmış və 1809-cu ildə Rusiyanın Türkiyəyə qarşı hərbi hücumu yenidən başlanmışdır. 1811-ci ildə Dunay ordusunun baş komandam

**M.İ.Kutuzovun** rəhbərlik etdiyi ordu türk ordusuna ağır zərbə vurmuşdur. Bu müharibə Qafqaz ərazisinə də keçmişdir. Ruslar Suxumini və sonra Gürcüstanı ələ keçirmişlər. Nəhayət, 1812- **ci il may** ayının 16-da Buxarada sülh müqaviləsi imzalanmışdı. Aydındır ki, müəyyən ərazi razılaşmaları da olmuşdur.

*Napoleonun Rusiyaya hücumu.* Demək olar ki. Napoleon Avropada ağalıq edirdi. Bununla da o öz hökmranlıq ərazisini genişləndirməyə çalışırdı. Odur ki, Rusiya kimi böyük bir ölkəni və ərazini ələ keçirməyi qarşısına məqsəd qoymuşdur. O, müxtəlif yollarla Rusiyanı zəiflətməyə çalışır, qonşu dövlətlərlə əlaqələrini pisləşdirirdi. Elə bu məqsədlə də Rusiyam qitə blokadası sisteminə cəlb etmişdi.

**Napoleon Rusiya** ilə müharibəyə hazırlıq işlərini sürətləndirirdi. Bunun üçün **1200** min adam səfərbər edilmişdir. Ancaq Moskva üzərinə hücuma keçmək üçün 600 min daha tanınmış, hazırlıqlı hərbçi aynimışdır. Beləliklə, **1812-ci** il iyun ayının 12-də qəflətən Napoleonun ordusu Rusiya üzərinə hücuma keçmişdir. Bu vaxt I Aleksandr Napoleona təklif göndərdi ki, müharibəni dayandırıb müəyyən mübahisəli məsələləri müzakirə etsinlər. Napoleon Rusiya üzərində asanlıqla qələbə qazanacağına arxayın olduğu üçün danışığa getmədi.

Fransa ordusunun çoxluğuna baxmayaraq **Kutuzovun** komandanlığı altında rus ordusu **Mojayskidən** 12 km qərbdə Borodino kəndində Napoleon ordusunu darmadağın etdi. Sonra Kutuzov özü bilərəkdən Moskvanı müdafiə etməyib cənub tərəfə çəkilmişdir. Beləliklə, müəyyən güc toplayaraq və müdafiə xətti seçərək oktyabr ayında Napoleonun ordusunu Moskvadan tamamilə qovmuşlar. Bu vaxt Prussiya və Avstriya Rusiya ilə ittifaqa girməyə razılıq verdilər. 1813-cü ildə rus- Avstriya və rus-Prussiya müqaviləsi imzalandı. Yenə Fransa əleyhinə ittifaq yarandı. Buna baxmayaraq Napoleon yenə də Prussiya və Rusiya ordularına müəyyən zərbələr vururdu. Nəhayət, Avstriya öz müttəfiqləri ilə müəyyən şərtlər əsasında

Fransaya sülh təklif etmişlər. Varşava hersoqluğundan imtina etməli, Prussiyanın müstəqilliyini qaytarmaq, İtaliyam Avstriyaya qaytarmaq və s. bu kimi şərtlər Fransa üçün daha məqbul idi. Lakin Napoleon kimi qarşısı alınmaz imperator üçün bu kimi təkliflər qəribə görünürdü. İngiltərə üzərində qələbə əldə etmədən heç bir idarəçilikdən söhbət gedə bilməzdi. Belə bir şəraitdə hətta İngiltərədə müəyyən fəallıq göstərməli olmuşdur. Beləliklə, Napoleon üzərində tam qələbə çalmaq barədə bütün Avropa dövlətləri müqavilə bağlamağı qərara almışlar.

1814-cü il mart ayının 1-də **Böyük Britaniya, Rusiya, Avstriya** və Prussiya arasında (Şomonda) müqavilə bağlanır. **Onlar Fransanı tam nıəğiub edənədək müharibəni davam etdirmək razılığına gəlmişlər.** Bu birgə müdafiə və hücum müqaviləsi 20 illiyə bağlanmışdır. 8 illiyə Avropa dövlətlərinin xarici siyasətinin əsas istiqaməti də müəyyən edilmişdir.

Hər üç dövlət Napoleona qarşı mübarizə üçün 150 min ordu ayırmışlar. 1814-cü ildə Rusiya, Avstriya və Prussiyanın ordusu (İngilis bankirlərinin maliyyələşdirməsi ilə) Parisə daxil olurlar. Napoleon hakimiyyətdən salınır. **Yenə Burbonlar meydana gəlir. 1814-cü** il may ayının 18-də Fransa əleyhinə **6-cı** İttifaqın iştirakçıları ilə (İsveç, İspaniya və Portuqaliya da daxil olmaqla) Fransa arasında sülh müqaviləsi bağlanmışdır. Aydındır ki, Napoleonun məğlub edilməsində Rusiyanın böyük rolu olmuşdur.

**Vyana konqresi və Rusiya.** Napoleon imperiyası darmadağın edildikdən sonra Avropada ictimai münasibətlərin sülh yolu ilə tənzimlənməsi məsələləri gündəlikdə dayanırdı. Elə bu məqsədlə də Vyanada Avropa dövlətlərinin Konqresi keçirilmişdir. Konqres **1814-cü ilin sentyabr ayından 1815-ci ilin iyun ayınadək** davam etmişdir. Vyana Konqresində gündəlikdə duran əsas məsələlər - Monarxiyanın bəipa edilməsi, Napoleonun zəbt etdiyi torpaqların azad edilməsi, İnqilabi hərəkata qarşı mübarizə aparılması, Fransada Bonapartçılığm

dirçəlməsinə yol verməmək və qalib tərəflərin ərazi iddialarını təmin etmək və şairədən ibarət idi. Aydındır ki. Napoleon ordusunun darmadağın edilməsində Rusiya daha həlledici rol oynamışdır. **Rusiya daha güclü dövlət idi. İngiltərə, Prussiya, Fransanın özü** isə uzunmüddətli müharibələr nəticəsində üzülmüş və var yoxdan çıxmışlar. Buna baxmayaraq **İngiltərə, Fransa, Prussiya, Avstriya Avropa qitəsində** Rusiyanın təsirinin artmasını istəmirdilər. Konqresdə söhbət **«ədalətli bölgüdən»** getsə də əslində bütün iştirakçılar - hər kəs özü üçün çalışırdı.

Vyanada konqresdə qalib ölkələrdən **216** nümayəndə iştirak edirdi. Rusiya nümayəndəliyinə I Aleksandr, Böyük Britaniya nümayəndəliyinə əvvəlcə Kaclri, sonra isə Vellinq- ton, Avstriya nümayəndəliyinə Fransa, Prussiya nümayəndəliyinə isə Qardenberq rəhbərlik edirdi. Konqresdə **I Aleksandr və Avstriya kansleri Metternix** daha aparıcı rol oynayırdılar. Fransanı Taleyran təmsil edirdi. O təklif edirdi ki, Fransanın ərazisi 1792-ci il vəziyyətində qalsın. Bu qalmaqal ustası yenə də Fransa, İngiltərə və Avstriya ilə birlikdə məxvi danışıq apararaq Rusiyaya qarşı fikir formalaşdırmağa çalışırdı. Hətta Rusiya və Prussiya ərazi məsələsi üzrə Komissiyasının işində onun iştirak etməsinin əleyhinə idi. Lakin Avstriya Konslerinin məsləhətçisi K. Metternix və İngiltərənin Konsleri onun iştirak etməsini təkid edirdilər. Almaniya dövlətinin taleyinə gəldikdə konqresin iştirakçılan onun parçalamnasmm tərəfdarı idilər. Avstriyanın nümayəndəsi təklif edirdi ki, Avstriya və Prussiya da daxil olmaqla **38 alman** dövlətini birləşdirən Alman ittifaqı yaradılsın. İdarəçilik də bu ittifaqa daxil olan dövlətlərin sey- minə tapşırılsın. Fransa daha çox Prussiyanın güclənməsindən ehtiyat edirdi.

Taleyranın səyi nəticəsində Prussiya və Rusiyanın əleyhinə olaraq İngiltərə, Avstriya və Fransa arasında İttifaq yaranmışdır. Onlar hətta belə qərara gəlmişlər ki, əgər Saksoniya zorla Prussiyaya birləşdirilərsə Fransa, Avstriya və İngiltərə

150 minlik ordu ilə hərbi gücə əl ata bilərlər. Beləliklə, Met- temik Fransanı dəstəkləmiş və Saksoniya hesabına Prussiya ilə Rusiyanın güclənməsinə imkan vermişdir. Konqres danışıqlarının qızğın vaxtı 1815-ci il mart ayının **19-da Napoleon bir dəstə hərbiçi** ilə yenidən Parisdə peyda oldu. Bu hadisə konqres iştirakçılanmn daha qətiyyətli olmalanna zəmin yaratdı.

1815-ci il iyim ayının 9-da Rusiya, Avstriya, İspaniya, Fransa, Böyük Britaniya, Portuqaliya, Prussiya və İsveçin nümayəndələri Vyana konqresində son yekun aktını imzalamışlar. Bu sənəddə **leqitizm** əsas götürülmüş, 25 illik fasiləsiz mübarizəyə sanki son qoyulmuş və Avropadakı real vəziyyət əks etdirilmişdir. Konqresin iştirakçıları belə qənaətə gəlmişlər ki, Avropada köhnə nizam-intizam bərqərar olmuş və o yeni təhlükə yaradılmasından xilas edilmişdir.

Avstriya konslerinin müşaviri (Vyana konqresinin baş katibi) F.Hens çox yüksək ifadələr yazırdı. Avropada sosial nizamın yeniləşməsi, siyasi sistemin yeniləşməsi, qüvvələrin ədalətli bölgüsünə əsaslanan həmişəlik sülh və s. i.a. Beləliklə, Avropa dövlətləri daha qətiyyətli hərəkət etməli olmuşlar. Fransa zəbt etdiyi bütün ərazilərdən məhrum edilmişdir. Belçika və Hollandiya Niderland krallığında birləşmişlər (Lüksemburq da bura birləşmişdi). Vyana konqresinin iştirakçıları İsveçrənin neytrallığına təminat vermişlər.

Polşa ərazisi Varşava ilə Rusiyaya birləşdirilmişdi (Polşa krallığı adı ilə). Rusiyada onların öz nümayəndəlikləri vardı. Bütün bunlara baxmayaraq bu dövlətlərin heç birinin digərinə o qədər də etibarı yox idi.

*Müqəddəs ittifaq yaradılması.* I Aleksandr başa düşürdü ki. Konqresin qərarı təşkilatı baxımdan yaxşı sənədləşdirilməlidir. O, Avropa dövlətləri ittifaqı yaradılmasını zəruri hesab edirdi. **Beləliklə, «Müqəddəs İttifaq»** yaradılması ideyası meydana gəlmişdi. Belə bir ittifaq yaradılması aktı **I Aleksandr tərəfindən hazırlanmışdır.** Bu akt 1815-ci il

sentyabr ayının 26-da Parisdə Rusiya və Avstriya imperatorları və Prussiya Kralı tərəfindən imzalanmışdır. İki aydan sonra 1815-ci ilin noyabr ayında Fransa Kralı XVIII Lyudovik də müqəddəs ittifaqa qoşulmuşdur. Sonralar demək olar ki, bütün Avropa monai-xiyaları bu İttifaqa daxil olmuşlar.

Bu ittifaqı yaradanlar nəzərdə tuturdular ki, «Müqəddəs İttifaq» bir tərəfdən milli-azadlıq hərəkatlarını və inqilabı hərəkatları boğmağa köməklik göstərəcəkdir.

Digər tərəfdən isə sərhədlərin qorunmasında, nizam-intizamın yaradılmasında birləşərək siyasi təminatçı bir qurum kimi çıxış edəcəkdir.

Aktda göstərilirdi ki, son üç il müddətində Avropa ölkələrində olan müəyyən dəyişikliklər barədə, ittifaqın üzvləri bir-birinə məlumat, vəsait ötürməli, inamı, sülhü və həqiqəti saxlamalıdırlar. Aktın 3-cü bəndində əks olunurdu ki, ittifaqın üzvləri bütün bu tələbləri qəbul etməyə borcludurlar.

# VIII FəsiL
# MÜQƏDDƏS İTTİFAQ İLƏ 1848-ci İLLƏR İNQİLABI ARASINDAKI DÖVRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

«Müqəddəs İttifaq» yaradıldıqdan sonra Avropa dövlətləri demək olar ki, həmişə bir cəbhədən çıxış edirdilər (əlbəttə müxtəlif baxışlar da vardı). Azad fikirli olamağa o qədər də imkan vermirdilər. Bununla yanaşı onlar o qədər də bir-birinə inanmırdılar, bir-birini izləyirdilər.

Avstriyanın Kansleri Metternix Rusiyada baş qaldıran inqilabi hərəkatları öz ölkəsi üçün təhlükə hesab edirdi. I Aleksandr da ölkə daxilində olan hadisələrlə narahat idi. Eyni zamanda İttifaqın üzvlərinə və xüsusilə Mettxemixə inanmırdı. Prussiya Kralı III Vilhelm də öz növbəsində rus inqilabından, Rusiya imperatonından və Fransa Kralından ehtiyatlanırdı.

*Müqəddəs İttifaqın Konqresləri* «Müqəddəs tttifaq>> mövcud olduğu dövrdə dörd dəfə konqres keçirmişdir. 1818-ci ildə Araxendə, 1820-ci ildə Troppauda, 1821-ci ildə Laybaxda, 1822-ci ildə Veronda.

Birinci konqresdə Rusiya, Avstriya, Prussiya, Böyük Britaniya və Fransanın nümayəndələri iştirak edirdilər. Burada Fransanın «Müqəddəs İttifaqa» bərabər hüquqlu üzv olması barədə qərar qəbul edilmişdir. Fransanın ərazisindən digər orduların çıxarılması məsələsi qoyulmuş və eyni zamanda Fransadan 265 mln.frank hərbi təzminat müəyyən edilmişdir. Onu da qeyd etməliyik ki, hələ sentyabr ayından Fransa nümayəndəliyi Avstriya, Rusiya, Prussiya və İngiltərəyə müraciət edirdi ki, dördlər ittifaqını beşlər ittifaqı adlandırsınlar. Bu hər dörd dövlət razılığa gəlmişlər ki, Fransada müəyyən nizam yaratmaq üçün hərbi birlik də yaratmaq olar. Deməli, «Mü- qəddəs İttifaqm» hər dörd üzvü Avstriya, Rusiya, Prussiya və İngiltərə çox ehtiyatla Fransanı 1818-ci il noyabr ayının 1- də İttifaqa qəbul etmişlər.

**ikinci Konqres** 1820-ci ilin oktyabr-dekabr aylarında keçirilmişdir. Bu konqres Avstriya Kansleri Mettemixin təşəbbüsü ilə keçirilmişdir. O, **Neapolitian Krallığında** baş qaldıran inqilabi hərəkatlardan ehtiyatlamrdı. Konqresdə I Aleksandr , I Frans və III Fridrix Vilhelm (Prussiya) və eləcə də çoxlu diplomatiya nümayəndələri iştirak edirdi. **Konqresdə üç dövlətin - Rusiya, Avstriya və Prussiyanın** razılığı ilə Neapolitian krallığında inqilabi hərəkatı yatırmaq üçün ordu yeridilməsi qərara alınmışdır. Beləliklə, I-Konqresin qərarının əksinə olaraq bu ikinci konqresdə bir dövlətin digər dövlətin daxili işinə hərbi müdaxilənin olması (dəvət etməsə də) qərara alınmışdır.

Onu da qeyd etməliyik ki, bu cür inqilabi hərakatların boğulması məsələsi əsasən Troppau və sonra isə Laybax konqresində müzakirə edilmişdir. Neapoldan başqa **İspaniya, Pyemont** və digər yerlərdə də inqilabi hərəkatlar baş qaldınrdı.

**Laybaxda (hazırda Lyublyana) 1821-ci ildə yanvar - mart aylarında üçüncü** konqres olmuşdur. Bu Troppau konqresinin davamı hesab edilirdi. Odur ki, çox vaxt buna **Troppau - Laybax** konqresi deyirlər. Burada da Neapol Krallığında və İspaniyada olan inqilabi hərəkatların yatınıması müzakirə edilmişdir. Neapola Avstriya ordusu, İspaniyaya isə Fransa ordusu yeridilmişdir.

**Müqəddəs İttifaqın dördüncü konqresi** 1822-ci ildə **Veronda** keçirilmişdir. Konqres başlayana yaxın İngiltərənin Xarici İşlər Naziri Kaslri intihar etmişdir. Odur ki, 1922-ci ilin sentyabrından C.Kanninq (onun yerində Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin Katibi) işləməyə başlamışdır. Bu vaxtdan da ayn-ayn dövlətlərin siyasətlərində müxtəliflik özünü göstərirdi. Konqresdə rus nümayəndəliyinə I Aleksandr, Avstriyaya - I Frans, Prussiyaya III Fridrix Vilhel rəhbərlik edirdilər. İtaliyanın dövlət başçısı, Fransa və digər dövlətlərin nümayəndələri də iştirak edirdilər.

Konqres çox mürəkkəb xarici siyasi vəziyyətdə keçirdi. İspaniyada inqilabi vəziyyət, Almaniyada tətillər, rus-türk münaqişələri kimi qanşıq dövr idi. Eləcə də Cənubi Amerikada İspaniya müstəmləkələrinin taleyi məsələsi də müzakirə edilirdi. Rusiya, Avstriya və Prussiya təcili olaraq İspaniyada üsyanlan əzmək və monarxiyanı bərpa etməyi təklif edirdilər. Fransa qoşunlarını İspaniyaya göndərməyə tələsirdilər. Eləcə də Cənubi Amerikadakı İspan müstəmləkələrinə ordu yeritməyi planlaşdırırdılar. Qəbul edilmiş qərara əsasən 1823-cü ilin fevral ayında Fransa ordusu üç aydan sonra Madridə daxii oldu. Payız İspan Kralı VII Ferdinand yenidən Kral oldu.

İspaniyanın Cənubi Amerikadakı müstəmləkələrinin vəziyyətinə gəldikdə, əvvəla İngiltərə bu planın əleyhinə idi. O, bu məsələni səfir vasitəsilə ABŞ -a çatdırmışdı. İngiltərə Amerika ilə birlikdə əməliyyat aparmağı təklif edirdi.

Amerika Prezidenti **C.Monro 1823-cü ilin** dekabr ayında Konqresə məktub göndərmişdi. O göstərirdi ki, biz Avropanın işinə qarışmırıq. Avropa da **Şimali və Cənubi Amerikanın işinə qarışmamalıdır.** Bu siyasət «**Monro doktrinası**» adlanır. O qeyd edirdi ki, biz özümüz bu ölkələrdə əməliyyat apararıq. Əlbəttə, İngiltərə bundan razı qalmamışdır. «**Monro doktrinası**» ispan müstəmləkələrinin öz müstəqilliyi uğrunda mübarizə apannasma zəmin yaratmışdı. «**Müqəddəs Ittifaqın**» dağılmasında da «Monrodoktrinası»nm rolu az olmamışdı.

«**Monro doktrinası**» obyektiv olaraq ABŞ-ın öz iqtisadi üstünlüklərindən istifadə etməsinə, İspaniyanın keçmiş müstəmləkələri ilə ticarət əlaqələrinin genişlənməsinə şərait yaradırdı. Bütün bunlar İngiltərə-Amerika münasibətlərini daha da genişləndirirdi.

**C. Kanninqin xarici siyasi kursu (Böyük Britaniya xarici işlər naziri).** Qeyd etməliyik ki, Kanniniq Fransadakı səfiri Ç.Stuarta İspaniyanın Amerikadakı müstəmləkələri və İngiltərənin onlara qarşı münasibəti barədə öz fikrini yazmışdı.

7 aydan sonra 1823-cü ilin oktyabr ayında iki günlük konfransda o, Fransanın səfiri knyaz Polinyak ilə görüşmüşdür. Hər ikisi İspaniyanın Latın Amerikasmdakı müstəmləkələri barədə öz fikirlərini açıqlamışdır.

Onların hər ikisi bildirmişlər ki, İspaniyanın Latın Amerikasındakı ərazilərlə heç bir əlaqə yaratmaq fikirləri yoxdur. Sonralar **Kanninq** Argentina ilə (o vaxt Buenos Ayres Respublikası idi) ticarət əlaqələri yaratmaq barədə müqavilə bağlamağı təklif etmişdir. **1825-ci ilin əvvəlində İngiltərə rəsmi olaraq Argentina, Kolumbiya və Meksikanın müstəqilliyini tanımışdır.** Bu məsələdə Avstriya, Prussiya və digər dövlətlər Kanninqin siyasətini o qədər də alqışlamırdılar. I Aleksandr isə əksinə onları dəstəkləmirdi. Kanninqin nailiyyətləri **«MUqəddəs İttifaqa»** da zərbə idi.

**Yunan məsələsi.** 1821-1822-ci illərdə yunanlar türk zülmünə qarşı üsyana başlamışlar. Türklər üsyançılara böyük zərbə endirmişlər. Bu vaxt II Sultan* Mahmud Konstantinopolun Patriarxının asılmasına da əmr verdi, əlbəttə Avropa dövlətləri və Rusiya buna çox pis baxmışlar. **Kanninq** bütün bu hadisələrə çox tez əks hal kimi baxaraq 1823-cü il mart ayının 25-də açıq-aşkar bəyan etdi ki, müharibə edən hər iki tərəf (türk və yunan) bərabər hüquqlu tərəfdirlər. Yunanların üsyanları da qanunidir.

Kanninqin bu siyasəti (üsyan edən yunanları müdafiə etməsi) I Aleksandrı Türkiyəyə münasibətdə fikirləşməyə vadar etmişdir. 1823-cü ildə Türkiyənin əyaləti olan yunan ərazilərinin bölgüsü barədə Rusiya plan hazırlamışdı. Bu plana əsasən yıman ərazisi üç hissəyə bölünməli idi. Ona muxtariyyət verilməsi təklif edilirdi ki. Tabeçilik Türkiyədə qalmaqla idarəçilik Avropanın nəzarəti altında olmalı idi. Rusiyanın nüfuzunun artmasını istəməyən Mettemix (Avstriya) bu fikrin əksinə idi. Kanniq də (İngiltərə) başqa fikirdə idi. O, Yunanıstanı müstəqil görmək istəyirdi. Odur ki, 1824-1825-ci

illərdə Yunan məsələsi barədə Rusiya ilə fikir birliyi yarada bilmişdi.

*I Nikolayın dövründə Rusiyanın xarici siyasəti.* 1825- ci ilin noyabr aymda Rusiya imperatoru I Aleksandr Taqanroq şəhərində qəflətən vəfat etmişdir. Onun xai'atkerində olan müəyy'ən ziddiyyətlərə baxmayaraq, hər halda çox çətin beynəlxalq şəraitdə belə o, mahir bir diplomat kimi özünü göstərə bilirdi. I Nikolay yeni imperator seçilmişdir. O, xarici siyasət problemində təcrübəsiz olsa da, bu sahəyə çox diqqətlə yanaşırdı. Xarici siyasət sahəsində iki cəhəti əsas götürürdü:

1. Türkiyə ilə mübarizə və Rusiyanın Balkana yaxınlaşması;
2. İstənilən hər bir inqilabi hərəkatın yatırılması.

Yunan məsələsində I Nikolay İngiltərə və Fransa ilə yaxınlaşmağa (həmfikir olmağa) üstünlük verirdi.

Rus imperatorunun mövqeyi belə idi ki, Rusiyanın Türkiyə üzərinə hərbi əməliyyatı mümkündür. Lakin bu, ancaq İngiltərə ilə birlikdə olmalıdır. Türkiyənin gələcək taleyi isə uzun müddətdən sonranın işidir. Bununla yanaşı I Nikolay Türkiyəyə ultimatum xarakterli bir məktub göndərmişdir. Məktubda aşağıdakı şərtlər qoyulmuşdur:

1. Dunay knyazhqlarında 1821-ci ilə qədərki kimi muxtariyyat idarəçiliyini bərpa etmək (siyasi, hərbi və vətəndaşlıq baxımından); 2. 1812-ci ildə Buxara sülh müqavi-ləsinə əsasən Serbiyaya aid olan əraziləri qaytarmaq; 3. Bütün depu- tatlan həbsdən azad etmək; 4.Türk nümayəndələri ilə danışıq aparmaq üçün Rusiya sərhəddinə gəlmək.

Məktuba cavab vermək üçün 6 həftəlik vaxt müəyyən edilmişdir.

Ultimatum göndərdikdən sonra I Nikolay İngiltərə ilə müqavilə bağlamağa hazırlaşırdı. Beləliklə, 1826-cı il aprel ayının 4-də Peterburqda Böyük Britaniya ilə Rusiya arasında protokol imzalanmışdı. Orada qeyd edilmişdir ki, **Yunanıstan müstəqil dövlət olmalıdır.**

**Londonda protokolun mətni** müsbət qarşılansa da **Kanninq** başa düşürdü ki, İngiltərə Rusiyanı deyil, Rusiya onu Türkiyə ilə müharibəyə cəlb edir. **Avstriya Kansleri Met- ternix** məktub ilə tamş olduqda başa düşdü ki, Rusiyanın London ilə birlikdə olması yenə də **«müqəd.dəs ittifaqa»** ziddir.

Türkiyə sultanı II **Mahmud Rusiya ilə İngiltərənin** birlikdə hərbi əməliyyatından ehtiyatlanaraq I Nikolayın məktubunda olan bütün tələbləri yerinə yetirdi. O, İranı Rusiya ilə müharibəyə cəlb etmək istəsə də bu fikri baş tutmadı. 1 avqust **1826-cı ildə rus-türk** damşıqları başlanmışdı. Türkiyənin ağır danışıqları başlanmışdı. Türkiyənin ağır vəziyyətini başa düşən Rusiya daha ağır şərtlər qoyurdu. Nəhayət 1826-eı il oktyabr ayının 7-də **Akkermanda** beynəlxalq müqavilə imzalanmışdır. Sonralar **London və Peterburq** danışıqlarında **Fransa da Türkiyə** əleyhinə İttifaqa daxil olmuşdur.

**1827-ci ildə** üç dövlət Türkiyə üzərinə hücuma keçərək Türk-Misir **Flotuna** ağır zərbə endirdilər. **1827-ci ilin avqust aymda** İngiltərənin xarici işlər naziri **Kanninqin** ölümündən sonra bu əməliyyat az da olsa zəifləmişdir.

Avstriya Rusiyanın Türkiyə üzərinə hücuma keçməsinə ~ Balkana yaxınlaşmasına razı deyildi. Bu barədə İngiltərə, Fransa və Prussiya monarxlanna da öz fikrini bildinnişdir. Lakin Rusiya onun hərəkətlərini seperat danışıq hesab edirdi. Nəhayət, 1829-cu ilin yayında II Mahmud sülh danışıqları aparılmasını təklif etdi. 1829-cu ilin sentyabr aymda **Adriano- polda** sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən Rusiyanın ticarət gəmilərinin Dardanel və Bosfor boğazlarından keçmək hüququ qazanması, Dunay knyazlıgı, Moldova və Valaxiyanm muxtariyyat alması təsdiqləmnişdir.

**Qara dənizin Qafqaz** sahilləri, Acariryanm şimal sərhədləri, Gürcüstan, İmeretiya, Minqreliya, Quriya, İrəvan və Naxçıvan xanlığı Rusiyaya birləşdirilmişdir. Beləliklə, 1828-
1829- cu illərdəki Rusiya-Türkiyə müharibəsi Dunay və Qafqazda Rusiya ərazilərini xeyli genişləndirdi. Yunanıstanı

azad edərək Avropanın cənubunda Rusiyanın mövqeyini və təsir dairəsini möhkəmlətmiş oldu.

*Türkmənçay sülh müqaviləsi.* 1826-1828-ci illərdə Rusiya ilə İran arasında olan münasibətlər də gərgin vəziyyət almışdı. Türkiyə ilə münasibətləri pisləşdikdən sonra Rusiya çox istəyirdi ki, İran sərhədlərində sakitlik olsun. Belə vəziyyət Qafqazda sülh yaradılmasına təminat verə bilərdi. Lakin İranın bəzi daxili qüvvələri Gürcüstanı və Şimali Azərbaycanı qaytarmaq üçün Rusiya ilə müharibəyə hazırlaşırdılar. Burada ingilis diplomatlarının da az rolu yox idi. Vəziyyəti sakitləşdirmək məqsədi ilə Peterburq knyaz A.S. Menşikovu Tehrana səfir göndərməli olmuşdur.

Lakin bundan da bir nəticə çıxmamışdır. 1826-cı ilin yayında İran 60 minlik ordu ilə Rusiya üzərinə hücum etmiş və müharibədə məğlub olmuşdur (ingilis diplomatları vəziyyəti belə görüb sülhə getmək üçün tədbirlər görmüşlər).

**1828-ci il fevral ayının 10-da Rusiya ilə İran arasında Türkmənçay** sülh müqaviləsi bağlanmışdır. Müqaviləyə əsasən İrəvan və Naxçıvan xanlıqları Rusiyada qalmış, hər iki ölkənin sərhəddi Araz çayı olmuş, Rusiyanın tica-

hakimiyyətə **Hersoq Orleanski** keçmişdir (O Lui Filipp adı götürmüşdür).

Rusiya Avstriya və Prussiya ilə birlikdə Fransaya müdaxilə təklif etsə də, Avstriya və Prussiya buna razılıq vermədilər. Fransaya qarşı olan bu münasibət sonralar Rusiyaya müəyyən qədər zərər də vurdu. İngiltərə və Avstriya da Rusiyaya qarşı münasibətlərini xeyli dəyişdirdi. Fransa ilə münasibətlər pozuldu.

1830- cu ilin yayında inqilabi hərəkatlar rus imperatorluğu tabeçiliyində olan Polşada başlamışdır. Lakin inqilabi üsyanlar Rusiya ordusu tərəfindən yatırılmışdır. Lakin XIX əsrdə baş verən inqilabi hərəkatlar bununla qurtarmamışdır.

Fransada baş verən 1830-cu il inqilabı az bir zamanda İtaliya, Polşa, Belçika, İspaniya və digər ərazilərdə yayılmışdır. Beləliklə, 1848-ci islədək inqilabi çıxışlar artmışdır.

**İtaliyada inqilabi hərəkat.** Apenin yarımadasında baş verən hadisələr Fransa və İngiltərəni də düşündürürdü. 1832-ci ilin əvvəllərində Fransa rəhbərliyi Roma papasına müraciət edərək bildirirdi ki, Fransa katolik dövləti kimi sizin hakimiyyətinizə daha sədaqətli olaraq Avstriya ilə birlikdə nizam-intizamın pozulduğu yerlərdə qanun-qayda yaradılmasında sizə yardım edə bilərik. Vatikan onların fikrini rədd etmişdir. Çünki hər bir dövlətin öz maraqları vardır. Polşada olan üsyan vaxtı da, onun təşkilatçıları və rəhbərləri Fransanın və digər dövlətlərin köməkliyinə bel bağlamışlar. Avstriya və Prussiya da işğalçılara qarşı düşmənçilik mövqeyini almışlar. İngiltərə və Fransa Polşalılara heç bir köməklik göstərməmişdir.

*Belçikada inqilab.* Demək olar ki. Polşa ilə eyni vaxtda Belçikada da inqilabi üsyanlar kışlanmışdır. Bu üsyan Belçikanın Niderlanddan azad olması uğrunda gedirdi. 1830-cu il oktyabr ayının 4-də Belçikanın müvəqqəti hökuməti Niderlanddan tam ayrılmaq barədə qərar qəbul etdi.

Niderland görürdü ki, təklikdə Belçikanın öhdəsindən gələ bilməyəcəkdir. Kral Avropa dövlətlərinə köməklik üçün

müraciət etməli olmuşdur. Ancaq Prussiya köməklik edəcəyini bildirmişdir. Fransa Prussiya kralının bu fikrini bilən kimi, bəyan etmişdir ki, Prussiya ordusu Belçika ərazisinə daxil olarsa, Fransa ordusu da onun ərazisinə görəcəkdir. Çünki Fansa kralı Lui Filip öz oğlu qersoq Neurekini Belçikaya dövlət başçısı qoymaq istəyirdi. Lakin bütün avropa dövlətləri xəlvəti danışıq apararaq buna imkan verməmişlər. Belçikanın milli konqresi 1831-ci il iyul ayının 4-də şahzadə **Leopold Sakksen Koburqskitıi** səs çoxluğu ilə dövlət başçısı seçmişdilər.

Fransadan başqa bütün Avropa dövlətləri bu namizədi dəstəkləmişlər. Beləliklə, 1831-ci il noyabr ayının 15-də Londonda Rusiya, Avstriya, Fransa, Böyük Britaniya, Prussiya və Belçika Belçika Krallığının yaradılması barədə olan müqaviləni imzalamışdılai'. Belçikanın sərhədləri müəyyən edilmişdi. Müqavilənin bütün maddələrinə riayət etmək üçün Rusiya, Avstriya, Fransa, İngiltərə və Prusiya təminatçı olmaq missiyası götürmüşlər. l830-cu il inqilabına yekun vuraraq belə qərara gəlmək olar ki, 1832-ci illərdə Avropa müəyyən qədər sakitləşmişdir. Polşa hadisələri yatırılmış, Belçika müstəqillik qazanmış, xəritədə yeni bir dövlət yaranmışdır. Fransa öz problemləri ilə məşğul olmağa başlamışdır.

*Türkiy3~Misir münasibətləri.* Elə həmin vaxtlarda Misir ilə Türkiyə arasında münasibətlər pisləşmişdir. **O vaxt Misir Türkiyənin vassalı idi.** Misir Paşası Məhəmməd Əli
1831- ci ildə türk sultanına qarşı ordu yeritmişdi. 1832-ci il dekabr ayının 21-də Misir paşasının oğlu İbrahim Türk ordusunu əzərək Suriyanı tutmuşdu.

*II* Mahmud Misir ordusunun qarşısını almaq üçün yollar axtarırdı. Şərqdə yaşanan bu böhran şəraitində Rusiya, İngiltərə və Fransa arasında diplomatik mübarizə gedirdi. Fransa çoxdan Misir ilə Suriyaya göz dikmişdi. Odur ki, o istəmirdi ki, Rusiya şərq münaqişəsinin həllində iştirak etsin. İngiltərə də Rusiyanın bu işə qarışmasını istəmirdi. Odur ki, Avstriyaya təklif etdi ki.

Türkiyəyə hərbi köməklik etsin. Avstriya isə Rusiya ilə münasibətləri pozmaq qəranna gəlmək istəməmişdir.

Rusiya isə münaqişənin lap əvvəlindən II Mahmuda kömək etməyi bildirmişdir. İbrahimin ordusu getdikcə irəliləyirdi. Odur ki, II Mahmud rəsmi olaraq 1833-cü ildə köməklik barədə I Nikolaya müraciət etmişdir. Çox tez bir müddətdə rus donanması Sevostopoldan Konstantinopola daxil olmuşdu. Ardıcıl olaraq Rusiyanın hərbi gəmiləri və 40 min qoşun da Bosfor sahillərinə daxil oldu. Fransa və İngiltərə hərbi gəmiləri də Aralıq dənizinin şərq sahillərinə daxil oldular. Bütün bunlar Türkiyə ilə Misir arasında sülh müqaviləsi bağlamnasına səbəb ola bilmişdir.

Müqavilə 1833-cü ilin may ayında bağlanmışdı. Məhəmməd Əli Türkiyənin vassalı kimi qalmasını qəbul edərək ordunu geri çəkdi. Bunun müqabilində Suriya, Fələstin və Kilikin idarəçiliyini özündə saxladı.

*Unkiyər-İskelessey müqaviləsi:* Qeyd etməliyik ki, elə həmin illərdə çar generalı - adyutantı qraf A.F.Orlov Konstatinopolda çox böyük işlər görmüşdür. Belə ki, o vaxt Rusiya ilə Türkiyə arasında heç bir müharibə əlamətləri belə yox idi. Lakin A.F.Orlov 8 iyul 1833-cü ildə II Mahmudun nümayəndələri Rusiya ilə Türkiyə arasında birgə müdafiə barədə müqavilə imzalamışlar.

Müqavilə Rusiya ilə Türkiyə arasında ittifaq, sülh və dostluğu əks etdirirdi. Müqavilə Unkiyər - tskelessey müqaviləsi adlanır. Bu Rusiya üçün çox böyük bir diplomatik qələbə idi. Hər iki dövlətin birgə müdafiəsi nəzərdə tutulurdu. Burada eyni zamanda Rusiya ilə Türkiyə arasında olan Andrianopol, Konstantinopol və digər müqavilələrdəki müddəlar da öz təsdiqini tapırdı.

Məxfi sənədlərdə göstərilirdi ki, Rusiya başqa bir dövlətin müharibə edəcək olarsa, Türkiyə Dardanel boğazını bağlayaraq ora heç bir hərbi gəmi buraxmamalıdır. Bosfor isə Rus gəmiləri üçün açıq idi.

Əlbəttə bu müqavilə İngiltərə ilə Fransa tərəfindən yaxşı qarşılanmamışdır. Onların Rusiya ilə olan münasibətləri nisbətən pisləşmişdir. Hər iki dövlət Rusiyaya nota vermişlər ki, Türkiyə ilə yarana biləcək hərbi vəziyyətdə biz bu müqaviləni nəzərə almayacağıq. Rusiya Xarici İşlər Nazirliyi isə belə bir cavab vermişdir - Rusiya hər bir şəraitdə bu müqavilənin şərtlərini əsas götürəcəkdir. Belə hesab edəcəkdir ki, Fransa ilə İngiltərənin notası heç olmayıbdır.

*Rusiyanın Prussiya və Avstriya ilə yaxınlaşması.* Rusiya ilə Fransa münasibətlərinin pisləşməsi onun Avstriya və Prussiya ilə yaxınlaşmasına zərurət yaratmışdır. Avstriyanın konsleri **Metternix** də çox səy göstərirdi ki, Rusiya və Prussiya ilə birgə əlaqələr yaratsın. Bu Almaniya və Şimali İtaliyada inqilabi hərəkatların yatınimasına da köməklik edərdi. Bu məqsədlə də 1833-cü ildə **Münxenqradda** monarxların qurultayı keçirildi. Rus imperatoru I **Nikolay** inqilabi mübarizənin yatırılmasında **Avstriyaya** kömək etməyə söz verirdi. O, şərt qoyurdu ki, rus ordusu Konstantinopola hücum etsə də siz də maneçilik göstərməyin.

Lakin Avstriya bu şərti qəbul etmədi. İngiltərə də Rusiyanın bu hərəkətinə razı deyildi. İngiltərənin xarici işlər Naziri **Palmerston** istəyirdi ki, bütün Avropa dövlətlərini Unkiyər-İskelessey müqaviləsinə cəlb etsin. Bununla da rus- türk müqaviləsinin məzmununu dəyişdirsin. Münxenqradda ardıcıl olaraq bir neçə beynəlxalq müqavilə bağlanmışdı;

**1. 1833-cü** nin **sentyabr ayında (18-də) Avstriya-Rusiya müqaviləsi.** Burada əsas məsələ Osmanlı imperiyasında mövcud sülalənin qalması idi. Hər iki tərəf öhtəçilik götürmüşlər ki, əgər dövlət çevrilişi olarsa, birlikdə Türkiyəyə köməklik göstərsinlər.

**2. Həmin il sentyabr ayının 19-da yenə də Avstriya** ilə Rusiya arasında müqavilə bağlanmışdır. Burada nəzərdə tutulmuşdur ki. Polşada baş verən hər hansı bir hərəkat birlikdə yatırılmalıdır.

Monarxlar qurultayının bütün iştirakçıları və eləcə də **«Müqəddəs Ittifaqm»** tərəfdarlan yekdilliklə **«başqa dövlətin daxili işinə qarışmamaq** prinsipi»nə tərəfdar olduqlarını bildirmişlər. Elə bu məqsədlə də 1833-cü ilin oktyabr (15) ayında **Münxenqradda 3-cü** müqavilə bağlanmışdır. Müqavilə Rusiya, Avstriya və Prussiya arasında bağlanmışdı. Müqaviləyə əsasən hər bir dövlətin daxilində baş verən qarşıdurma və yaxud xarici təhlükəsizlik zamanı **Avstriya, Rusiya, Prussiya** və digər dövlətlərə müraciət edə bilərlər. Beləliklə, hər üç dövlətin imperatoru sanki «Müqəddəs İttifaqı» bərpa etməli olmuşlar.

*1834-cü il Rusiya-Türkiyə müqaviləsi.* Türkiyə ilə onun vassalı olan Misir arasındakı münaqişədən sonra Şərqdə müvəqqəti sabitlik yaranmışdı. Əlbəttə, burada Avropa az rol oynamamışdır. Avropa istəmirdi ki, Şərqdə Rusiyanın rolu artsın. Rusiya da İngiltərə, Fransa və Almaniya ilə münasibətləri gərginləşdirmək istəmirdi. Odur ki, 1834-cü il yanvar ayının 29-da **Port** ilə müqavilə bağladı. Müqavilənin şərtlərinə əsasən Unkiyər - İskelesey və digər müqavilələrin şərtləri nisbətən yüngülləşdirilirdi. Müqaviləyə əsasən porta hərbi cərimənin verilməyən hissəsindən azad edilmişdir. Eyni zamanda Rusiya öz ordusunu Dunay Knyazlığından çıxarmalı oldu. İngiltərə və Fransada da gərginlik azalmışdır. Hər iki dövlətin hərbi qüvvələri Aralıq dənizi sahillərindən geri çağırılmışdır.

*1839-1841-ci illərdə Türkiyə Misir müharibəsL* Məlumdur ki, 1832-1833-cü illərdə Misir öz azadlığı uğrunda üsyana qalxmış və müəyyən üstünlüklər əldə etmişdir. Odur ki, Türkiyə sultanı II Mahmud bunun qisasını almaq üçün 6 il müharibəyə hazırlaşmışdır. 1839-cu ildə böyük bir ordu ilə onlar Suriyaya daxil oldular. Avropa dövlətləri müharibə dalğalarının Avropaya keçməsindən və Rusiyanın bu işə qarışmasından narahat idilər. I Nikolay Avropa dövlətləri ilə təklikdə müzakirələr aparmağa üstünlük verirdi. Avstriya isə beş

dövlətin konfransını çağırıb, Türkiyə üzərində Rusiyanın təkbaşına protektorat olmasını Avropanın kollektiv qəyyumluğu ilə əvəz edilməsi ideyasını irəli sürürdü. İyun ayının axırlarında Avropa dövlətlərinin daha qətiyyətli hərəkətləri tələb olunurdu. Nəhayət, Məhəmməd Əlinin oğlu İbrahim yenə də Suriyada Türkləri darmadağın etdi. Bir neçə gündən sonra Konstantinopolda II Mahmud vəfat etmişdir. Onun yerinə 16 yaşlı oğlu Mahmud Əbdül-Məcid keçdi. Bununla bağlı olaraq öz atasının əmrinə əsasən İbrahim müharibəni dayandırmalı olmuşdur.

*1840-1841-ci U London müqavibsL* Belə bir vəziyyətdə hər bir dövlət şərqdə öz mövqeyini möhkəmlətməyə çalışırdı. Fransa və İngiltərə daha çevik hərəkət etmək istəyirdi. 1840-cı ildə (iyun ayının 15-də) Böyük Britaniya, Avstriya, Prussiya və Rusiya Türkiyə sultanına kömək etmək barədə beynəlxalq müqavilə imzalamalı olmuşlar. Müqavilədə bildirilirdi ki, əgər Məhəmməd Əli öz ordusunu Konstantinopola tərəf yeridərsə, bu dörd dövlət ona hərbi və diplomatik təsir göstərməlidir. Bu məqsədlə Bosfor və Dardanel boğazlarının da müdafiəsi möhkəmlənmişdir.

1840-cı il London müqaviləsində Fransa iştirak etməmişdi. Sonra iyul ayının 17-də Fransa səfiri Qizo müqaviləyə imza atmışdır. Aydındır ki, müqaviləyə münasibət eyni olmamışdır. Əvvəla bütün bəndlər barədə Fransa vaxtında xəbərdar edilməmişdir. O, çoxdan idi ki, Misir və Suriya üzərində təsir dairəsini artırmaq istəyirdi. Odur ki, bu müqavilə Fransanın mənafeyinə zidd idi. Odur ki, I Nikolay bundan istifadə edərək İngiltərə ilə öz ittifaqını möhkəmlətmək istəyirdi.

Nəhayət, bir ildən sonra 1841-ci ilin i)oıl ayında Rusiya, Böyük Britaniya, Avstriya, Prussiya və Fransa Türkiyə ilə müqavilə bağlamışlar. Müqavilədə Bosfor və Dardanel boğazlarından gəmilərin keçməsi şərtləri qoyulmuşdur. Orada qeyd edilirdi ki, sülh şəraitində Bosfor və Dardanel boğazları bütün dövlətlərin gəmiləri üçün bağlı hesab edilir. Bu isə şərq

məsələsində Fransanın rolunu heçə endirirdi. Belə olduqda Paris başa düşürdü ki, dörd dövlətin birgə fəaliyyətinə qarşı çıxa bilməyəcəkdir. Odur ki, Məhəmməd Əliyəköməklik etmək fikrindən əl çəkmişdir.

*Rusiya-İngiltərə münasibətlərinin inkişafı.* Belə bir mürəkkəb dövrdə Rusiya İngiltərə ilə yaxınlaşmaq üçün yollar axtarırdı. Bu məqsədlə I Nikolay 1844-cü ilin may ayında Londona gəlmişdi. O, İngiltərənin baş naziri C.EIerdin ilə söhbətində Türkiyənin ağır vəziyyətdə olduğu barədə söhbət açmış və Türkiyə məğlub olduğu şəraitdə kimə nə çatacağı barədə müzakirə aparmışdır. O, açıq-aşkar qeyd etmişdir ki, belə olduqda Konstantinopolu heç kəsə verməyəcəkdir.

Bu fikri 1946-cı ildə (dekabrda) Vyanada Metternix ilə söhbətində də demişdir. Fransanın Misir və Suriyaya qarşı maraqlarına gəldikdə I Nikolay İngiltərəyə təklif edirdi ki, Türkiyə məğlub olduğu şəraitdə kimə nə çatması barədə təqribi razılığa gəlmək lazımdır. Britaniyanın Xarici İşlər Naziri R.Pil bildirmişdi ki, belə olduqda İngiltərə Misiri götürməyə üstünlük verir. I Nikolay Peterburqa qayıdan kimi bütün bu şifahi söhbətləri yazılı sənədə çevirməyi qərara aldı. Lakin onun bu fikri baş tutmadı. 1946-cı ilin yayında İngiltərədə Nazirlər Kabinetində Ç.Rasseli R.Pill əvəz etmişdir. Q.Pal- merston isə dövlət katibi olmuşdur. Palmerston Avropa işlərində və Şərqdə Rusiyanın rolunun artmasını istəmirdi.

Elə həmin vaxtlar Avropa dövlətlərində inqilabi hərəkatlar genişlənirdi. Prussiya və Avstriya rəhbərləri inqilabi hərəkatların yatırılmasında ancaq I Nikolaya ümid edirdilər. Nəhayət, 1848-ci ildə Avropa dövlətlərində çox güclü inqilabi hərəkatlar başlanmışdır.

# IX **Fəsil.**
# *1848-* **Cİ İL İNQİLABİ VƏ KRIM MÜHARİBƏSİNİN BEYNƏLXALQ MÜNASİBƏTLƏRƏ TƏSİRİ**

**1848-Cİ** il fevral ayının 22-də Fransada fəhlələr, tələbələr və peşə məktəblilərinin güclü çıxışları başlanmışdır. Bu inqilabi hərəkatlar genişlənərək Avstriyaya, Prussiyaya, Alman İttifaqının bütün şəhərlərinə yayılmışdır. Avstriyanın baş naziri Mettemix qaçmışdır. **I** Ferdinand hakimiyyətdən düşmüşdür. **18 yaşlı** Frans İosif Avstriyanın imperatoru olmuşdur. Martın 15-də Macarıstanda inqilab olmuşdur. 1848-
*1849-* cu illərdə beynəlxalq münasibətlərdə silahlı mübarizələr diplomatiyanı əvəz etmişdir.

*Avstriya — Alman münasibətləri.* Alman dövlətlərində olan çıxışlar Prussiyaya birləşmək uğrunda gedirdi. Alman dövlətlərində və İtaliyanın şimalında inqilabi hərəkatların artması artıq Avstriya hakim dairələrini məcbur edirdi ki, üsyan edən macarlarla olan rəftarı zəiflətsinlər.

İnqilab istəməyənlər Avstriya ətrafında birləşməyi nəzərdə tuturdular. Belə bir mürəkkəb şəraitdə Alman dövlətlərində Milli Məclisə seçkilər keçirilirdi. Birinci iclas 18 may 1848-ci ildə **Mayn üzərində Frankfurtda** keçirilmişdir. Bu vaxt Avstriyanın yeni baş naziri knyaz Şvarsenberq Frankfurt parlamentinə nota göndərmişdir. O qeyd edirdi ki, birinci Avstriyanın məqsədi Avstriya imperiyası ilə tam vahid şəklə düşməkdir.

İkinci Avstriya imperatoru Almaniyanın konstitusiyasında müəyyən dəyişiklik etmək hüququ qazanarsa Almaniyanın konstitusiyasını tanıyacaqdır. Aydındır ki, bu nota Alman İttifaqı ilə Avstriya arasındakı münasibətlərin pisləşməsinə səbəb olmuşdur. Alman imperiyası yaradılmasında mərkəz kimi Prussiyanın rolu isə nisbətən artmışdır. Elə bu

vaxtdan da Alman dövlətlərinin birləşdirilməsində O, **Fon Bismarkın rolu** artmışdır.

*Avstriya və Rusiya münasibətləri.* Avstriyanın imperatoru, Frans İosif və yeni baş nazir **Şvarsenberq** həmişə özlərinin iqtisadi və siyasi inkişaf planlarını Rusiya ilə əlaqələndirirdilər. Çətin vəziyyətə düşən Avstriya Macarların üsyanını yatırmaq üçün Rusiyadan köməklik istəyirdi. Peterburqa bu barədə vahid fikir yox idi. Bir qisim diplomatlar Avstriyaya kömək etməyin əleyhinə idi. Çünki lazım gələndə onlar Rusiyaya kömək etmirdilər. Buna baxmayaraq, 1849-cu il ilin may ayında I Nikolay öz əsgərlərini Avstriyaya göndərmişdir. Beləliklə, Qabsburq monarxiyası macar üsyançılarından azad edildi. Daha doğrusu, Rusiya öz düşmənini inqilabçılardan azad etmişdir. Buna baxmayaraq sonralar Avstriya dəfələrlə Rusiyaya qarşı əks mövqedə çıxış etmişdir. Macarların da ruslara qarşı inamı pisləşmişdi.

*1850- ci il London və Olmyus müqaviləsi.* Çoxlu miqdarda olan Alman dövlətlərinin birləşdirilməsi məsələsi həmişə gündəlikdə dayanırdı. Avropa dövlətləri isə buna yol vermirdilər. Odur ki, 1850-ci il avqust ayının 2-də **Böyük Britaniya, Fransa, Rusiya və Avstriya Londonda Alman** dövlətlərinin birləşməsi əleyhinə müqavilə imzalamışlar. Bu dörd dövlət belə qərara gəlmişlər ki, Danimarkanı Qolşteynə versinlər. Bununla da Prussiyanın işini çətinləşdirməli olurdular. Sonra yenə də Avstiya - Macar münaqişəsi şəraitində 1850-Cİ il noyabr ayının 29-da Avstriya ilə Prussiya arasında **Olmyus** müqaviləsi imzalanmışdı. Avstriya Rusiyanın köməkliyi ilə Almaniyanın bəzi şəhərlərində olan inqilabi üsyanları yatırda bilmişdir. Beləliklə, Rusiyanın və bəzi dövlətlərin köməkliyi ilə Almaniyanın birləşməsinə yol verməmişdir.

*1S50-Cİ illərdə Rusiya diplomatiyasının bəzi məqamları.* Demək olar ki, 50 ilə qədər Rusiya ordusu ən güclü ordu olmaqla bir çox hərbi və diplomatik nailiyyətlər əldə etmişdir. Həmin dövrdə İngiltərə və Fransa Rusiyanın xarici siyasi

fəaliyyətini dəqiqliklə izləyirdilər. Rusiyanın çox tezliklə cənuba yürüş etməsi onun **ən böyük taktiki və strateji səhfı kimi qiymətləndirilir.** Belə ki, 1849-cu ilin avqust ayında I Nikolay Türkiyə sultanı Əbdül-Məciddən tələb edirdi ki, Türkiyədə olan Polşa və Macar inqilabçılarını Rusiyaya versin. İngilis və fransız diplomatları isə məsləhət görürdülər ki, Əbdül-Məcid bundan imtina etsin.

**Britaniya hökuməti - Avstriya və Rusiyaya** məsləhət görürdü ki, Türkiyəyə təzyiq göstərməyə son qoysunlar. Həmin dövrdə I Nikolayın Fransa ilə olan münasibətləri də pisləşirdi. 1848-ci ilin dekabr ayında **Lui Napoleon** Fransanın prezidenti seçilmişdir (inqilab vaxtı Kral Lui Filip İngiltərəyə qaçmış. Monarxiya devrilmişdi). Napoleonun bacısı oğlu **Lui Bona- part** hamıdan çox səs qazanmışdı.

Dörd ildən sonra Fransa yenə imperiyaya çevrilmişdi. Belə bir şəraitdə Rusiya, İngiltərə və Fransa Şərqə və xüsusilə Türkiyəyə münasibətdə öz mənafelərindən əl çəkmirdilər. İngiltərə və Fransa Rus ordusunun Dunay knyazlıqlanna tərəf olan hərəkətini izləyirdilər. Rusiya İngiltərə ilə müəyyən razılaşmalar əldə etməyə çalışırdı. O, İngiltərəyə məsləhət görürdü ki, Misiri və Krit adasını tutsun. Rusiya isə Bolqarıstanı, Serbiya, Vanaxiya və Moldovanı öz protektoratı etsin.

**1853-** cü ilin əvvəllərində Rusiya İngiltərəni Türkiyə ilə müharibəyə cəlb etmək istəyirdi. İngiltərə isə buna razılıq verməmişdi. İngiltərə **əwəla** Türkiyəni (Rusiyanın hesab etdiyi qədər) o qədər də zəif hesab etmirdi. **İkincisi** - İngiltərə istəmirdi ki, Rusiya Konstantinopolu tutsun. **Üçüncü** isə Fransa ilə Avstriyanın rolunu qiymətləndirməmək olmazdı. Nikolayın bu səhfı üzündən Rusiya ilə Avropa dövlətləri arasındakı münasibətlər pisləşmişdir. Bundan əlavə müqəddəs yerlər. Slavyan və Katolik kilsələrinin üstünlüyü barədə olan məsələlərdə də Fransa və Türkiyə ilə olan münasibətlərində gərginlik mövcud idi. Müqəddəs yerlər üstündə də Türkiyə ilə mübarizə aparırdı. Bu məqsədlə I Nikolay Dəniz naziri

A.S.Menşikovun rəhbərliyi altında Türkiyəyə böyük bir nümayəndə heyəti göndərmişdir. Menşikovu Türkiyənin səlahiyyətli adamlan ilə yanaşı yunan əhalisi də çox ehtiramla qarşılamışlar. Rus ordusunun Besarabiyada olmasını nəzərə alan **Sultan Abdül - Məcid** Rusiyanın bir çox təklifini qəbul etmişdir. Nikolayın təklifləri isə artırdı. 1853-cü ilin mart ayında ardıcıl olaraq iki nota da göndərmişdi.

Rusiyanın Türkiyə üzərində təsir dairəsinin artmasını istəməyən İngiltərə Türkiyə sultanına təklif edirdi ki, Rusiyanın şərtlərini qəbul etməsin. Menşikov bunları başa düşürdü. İngilislərin məsləhəti ilə 1853-cü il, iyun ayının 4-də provaslav kilsələrinin hüquq təminatı haqqında fərman vermişdi. Əslində, Rusiyada bu danışıqlar deyil, Moldava və Valaxtyanı tutmaq lazım idi. Beləliklə, 21 iyul 1853-cü ildə Rus ordusu heç bir xəbər vermədən Dunay knyazlığına daxil olmuşlar. Bunu görən Fransa və İngiltərə Aralıq dənizinin şərq sahillərinə hərbi gəmilər çıxarmalı oldular.

Bu məsələlərdə Prussiya İngiltərə və Fransaya köməklik etməyəcəyini bildirmişdir. Avstriya isə Prussiyasız heç bir mövqe bildirməmişdi.

1853-cü il bu cür mürəkkəb danışıqlar şəraitində başa çatmış oldu.

*Krım müharibəsi.* Rusiyanın Türkiyə üzərinə hücuma keçməsi qorxusunu nəzərə alaraq **1853-cü ilin mart** ayında **Böyük Britaniya, Fransa və Türkiyə** arasında Konstantinopolda İttifaq müqaviləsi bağlanmışdır. Hər iki dövlət öhdəçilik götürmüşlər ki. Rus ordusunun Türkiyədən çıxanimasma köməklik göstərəcəklər. Sultan da öz növbəsində öhdəçilik götürmüşdür ki, seperat müqavilə bağlamayacaqdır. M.D. Qorçakov rus ordusunu Dunay knyazlıqlarından çıxarmadığına görə **İngiltərə ilə Fransanın** təkidi ilə Türkiyə Rusiyaya müharibə elan etmişdir. Bu 1853-cü ilin oktyabr ayında baş vermişdir. Noyabr ayında rus ordusu Sinop buxtasında Türkiyə flotunu məhv etmiş və sahil bəndlərini dağıtmışdı. Bunu

görən Fransa və İngiltərə müharibənin gedişinə qarışmalı olmuşlar. 1854-cü il yanvar ayının 4-də İngilis və Fransız hərbi gəmiləri Qara dənizə daxil olmuşdu.

**1854-** cü il mart ayının 27-də və 28-də rəsmi olaraq İngiltərə və Fransa Rusiyaya qarşı müharibə elan etmişdilər. Onlar öz diplomatik səylərini birləşdirirdilər, müvəffəqiyyətlə hərbi əməliyyat keçirirdilər, Avstriyam Rusiyaya qarşı çevirə bilmişdilər. Bütün bunlar I Nikolayın səhfı üzündən baş vermişdir. **1854-cü il** aprel ayının 10-da **İngiltərə ilə Fransa arasında (Rusiyaya qarşı) ittifaq** müqaviləsi bağlandı. Həmin ilin dekabr ayında **Avstriya da bu ittifaqa daxil oldu.** Prussiya isə neytral vəziyyətdə qalmışdı. Beləliklə, Krım müharibəsi 1853-cü ildən 1856-cı ilədək davam etmişdi. Burada Türkiyə, İngiltərə, Fransa və Sardin Krallığı Rusiyaya qarşı birlikdə iştirak edirdilər. Müharibənin bütün gedişində müxtəlif səviyyələrdə danışıqlar gedirdi.

İngiltərə Rusiyaya qarşı ittifaq yaratmağa çalışırdı. O, Avstriya, Danimarka, İsveç və Prussiyanı müharibəyə cəlb etmək istəyirdi. Müharibənin ilk illərində İngiltərə və Fransa birgə və qarşılıqlı hərəkət edirdilər. Sonralar görünürdü ki, Fransa İngiltərənin Şərqdə güclənməsini o qədər də istəmirdi. Beləliklə, müharibə uzandıqca Fransa İngiltərə ilə birgə hərəkət etməkdən çəkinirdi. Rusiya da müharibənin gedişində Avstriyanı neytrallaşdırmağa çalışırdı.

**1855-** ci ilin fevral ayında I Nikolay vəfat etdi. Onun ölümü ilə də 30 illik bir dövr başa çatmış oldu. 1855-ci ilin fevral ayından hakimiyyət başına onun oğlu II Aleksandr gəldi. O, mövcud hadisələri daha real qiymətləndirməyi bacarırdı. O, təkidlə müharibənin qurtarmasını istəyirdi. 1855-ci ilin payızında II Aleksandr ilə III Napoleon arasında müəyyən yaxınlaşmalar olmuşdu. Müharibənin qurtarması istəyini Rusiya konsleri Avstriya konsleri Buola bildirmişdir. 1855-ci ilin dekabr ayında müharibə aparan dövlətlərin adından Avstriya Rusiyaya sülh danışıqlarının şərtlərini bəyan etmişdi. Da-

mşıqlai'da-Dunay knyazlığına münasibət; Dunayda gəmilərin sərbəst üzməsi; Qara dənizin neytral adlandınıması; xristianlara münasibət və digər məsələlər də müzakirə edilmişdir. **Beləliklə, 1856-cı il mart ayının 30-da Paris sülh müqaviləsi imzalanmışdı.** Müqavilənin şərtlərinə əsasən Rusiya Kars şəhərini Türkiyəyə qaytarmış, Fransa, İngiltərə və Sardiniya isə Sevostopol, Balaklavu, Kamış, Evpatoriya, Kerç, Yeni Kala, Kinburn və s. əraziləri Rusiyaya qaytarmalı olurlar.

Türkiyə sultam Türkiyədə yaşayan bütün xalqlar üçün bərabər hüquq yaradılması barədə fərman verir. Beləliklə, Rusiya Qara dənizdəki limanlardan məhrum olmuşdu. Eləcə də Valaxiya, Moldova və Serbiya üzərindəki protektorat hüququnu itirmişdi. Rusiya Qara dənizdəki flotundan məhrum edilmişdir.

Beləliklə, Krım müharibəsi 1853-cü ilin oktyabr ayından 1856-cı ilin fevral aymadək davam etmişdir. Burada Rusiyaya qarşı Türkiyə, İngiltərə, Fransa və Sardina krallığı birgə vuruşurdu. Krım müşaribəsini 4 mərhələyə ayırmaq olar.

**Birinci mərhələ** - 1853-cü ilin oktyabrından 1854-cü ilin mtırt. ayına qədər olan dövrü əhatə edir. Bu mərhələdə Türkiyə Rusiyaya müharibə elan etmiş, İngiltərə və Fransa müharibəyə qoşulmuşlar;

**İkinci mərhələ** -1854-cü ilin mart ayından avqust aymadək olan dövr. Bu mərhələdə İngiltərə ilə Fransa Dunay knyazhğmda Rusiyaya qarşı fəal mübarizə aparmışlar.

**Üçüncü mərhələ** -1854-cü ilin sentyabr ayından 1855- ci ilin avqust aymadək olan dövrdür. Bu mərhələ əsasən Sevostopolun müdafiəsi xarakterizə edilir.

**Dördüncü mərhələ** -1855-ci ilin sentyabr ayından **1856-** cı ilin fevral aymadək olan dövrdür.Bu mərhələdə Parisdə rəsmi sülh danışıqları başlanmışdı.

**Krım** müharibəsindən qalib çıxdılar. İngiltərə Rusiya əleyhinə möhkəm koalisiya yarada bilmədi.

## Avropa krim müharibəsi və Paris sülhündən sonra avropada vəziyyət

Krım müharibəsi və Paris sülh müqaviləsindən sonra Avropada tədricən yeni vəziyyət yaranırdı. Vyana Konqresində Rusiyanın müəyyən edilmiş mövqeyi zəifləmiş, **Avstriya - Rusiya - Prussiya ittifaqı** dağılmışdır. Avstriya Rusiyanın düşmənləri tərəfə keçmişdir (İngiltərəyə söykənirdi). **İngiltərə-Avstriya-Fransa bloku** yaranırdı.

*Rusiya - Fransa yaxınlaşması.* Krım müharibəsindən sonra Avropada qüvvələr nisbətinin dəyişməsini görən Rusiya özünə yeni müttəfiq ajctarmalı olmuşdur. Rusiyanın bu xarici siyasəti əsasən İmperator **II Aleksandr** və yeni Xarici İşlər naziri **A.M. Qorçakov** ilə bağlı idi. Qorçakov işə təyin olunan kimi xarici siyasətin əsas istiqamətləri barədə imperatora məlumat vermişdir. Avropa dövlətlərinin səfirlərinə məlumat vermişdir ki, Rusiya müharibə aparmaq fikrində deyil. O göstərirdi ki, Rusiya bir daha «Müqəddəs İttifaqm» prinsipləri xatirinə öz mənafeyini qurban vermək fikrində deyil. Bir sözlə, Rusiya Paris sülh müqaviləsinin qoyduğu məhdudlaşdıncı vəziyyətdən çıxmaq üçün özünə yeni müttəfiq axtarırdı. Belə bir müttəfiqliyi o Fransada görürdü. Hər iki dövlət Avstriyanı İtaliyadan sıxışdırmaq və onun yerini tutmaq istəyirdi. Rusiya isə Krım müharibəsi dövründə Avstriyanın ona qarşı olan hərəkətlərini, münasibətlərini unutmurdu. Beləliklə, 1856-cı ildə II Aleksandr təntənəli surətdə Fransanın yeni səfiri Ş. Momi qəbul etmişdi. Hər iki dövlətin biri-birinə xeyirxahlıqla yanaşmalarını bildirmişlər.

**1857- ci ildə** Rusiya ilə Fransanın imperatorları və xarici işlər nazirlərinin Ştutqartda görüşü olmuşdur. Fransanı əsasən İtaliya məsələsi və Dunay Knyazlığının vəziyyəti (onun tarixi təsir dairəsi) maraqlandırırdı. II Aleksandr və Qorçakov isə Fransa imperatorunun fikrini Paris sülh müqaviləsinin şərtlərinə yönəltməyə çalışırdı. Qeyd etməliyik ki, Paris müqavi

ləsindən (1856) sonra İngiltərənin baş naziri Palmerston Rusiya əleyhinə siyasətini gücləndirmişdir (Qafqazda, İranda, Türkiyədə və s.). İngiltərə ilə Fransanın münasibətləri də pisləşirdi. Buna bir məsələ də səbəb olmuşdur. Çox təsadüfi məlum olmuşdur ki, III Napoleona sui-qəsd etmək üçün İtaliya inqilabçılanna verilən silahlar İngiltərədə gizlədilmişdir. Bu hadisə İngilis elitasımn da narazılığına səbəb olmuşdur. Bu hadisə ilə bağlı olaraq baş nazir Palmerston 1858-ci ildə istefaya getməli olmuşdur. Lord Derbi İngiltərənin baş naziri, Lord Malmsberi isə xarici işlər naziri təyin edilmişlər.

*Av/sriya ilə Fransa arasında qarşıdurma.* Almaniya dövlətlərinin birləşdirilməsi ideyası üstündə Avstriya ilə Prussiya arasındakı münasibətlər kəskinləşmişdi. Hər iki tərəf istəyirdi ki, bu birləşmədə onlar hakim olsun. Bir çox tərəflər Prussiyanın rəhbərliyinə üstünlük verirdilər. Odur ki, Fransa arxayın idi ki, Avstriya ilə müharibə etdiyi şəraitdə nə Prussiya, nə də Rusiya Avstriyaya köməklik göstərməyəcəkdir. Odur ki, III Napoleon diplomatik fəallıq göstərərək, 1858-ci il iyul ayının 20-də Sardiniya Krallığımn baş naziri Kavur ilə görüşmüşdü. Beləliklə, birlikdə Avstriyaya qarşı vuruşmaq barədə razılığa gəlmişlər. Avstriyanı İtaliyadan sıxışdırmaq və Lombardiya ilə Venesiyanı tam azad etmək barədə birgə razılığa gəlmişlər.

Lakin Fransa bu barədə Rusiya ilə razılaşmamışdır. Odur ki, 1859-cu il fevral ayının 19-da Parisdə Rusiya ilə Fransa arasında neytral olmaq və əməkdaşlıq barədə müqavilə bağlanmışdı. Alman İttifaqı ilə olan müdafiə müqaviləsinə əsasən Avstriya Alman dövlətlərinə hərbi kömək üçün müraciət edə bilərdi. Avstriya monarxı müharibədən ehtiyat etdiyi üçün gözləmə mövqeyi tuturdu. Belə olduqda Sardiniya Krallığı müəyyən bicliklərə əl atmalı olmuşdur. Kavur Sardiniya ordusunun zəifliyi, pozğunluğu barədə şayələr yaymağa başlamışdır. Bu şayiələrə inanan Avstriya 1859-cu il

aprel ayının 23-də Sardiniyaya ultimatum vermişdir. Beləliklə, III Napoleon və Kavur öz niyyətlərinə çata bilmişlər.

Avstriya müharibəyə başladığı üçün Alman İttifaqından hərbi yardım istəyə bilməzdi. Avstriya ordusu bir çox döyüşlərdə məğlub oldu və geri çəkilməyə başladı. Fransa və Sardiniya qarşıya qoyduğu məqsədə nail olurdular ki, III Napoleon Avstriya imperatoruna barışıq protokolu imzalamağı təklif etdi. Bunun əsas səbəbləri belə izah oluna bilərdi ki, əvvəla o istəmirdi ki, müharibə uzansın. Belə olduqda. Alman İttifaqından müəyyən təhlükə ola bilərdi. III Napoleon Sardiniyamn xətrinə Fransa ordusuna itki vermək istəmirdi. Bunlardan əlavə, Fransa imperatoru Toskan, Parmı və Moden kimi İtaliya dövlətlərinin Sardiniya Krallığı ilə birləşməsini və Fransa sərhəddində yeni güclü dövlət yaranmasını istəmirdi. Bu müharibədə Savoy və Nissu Napoleonun əlinə keçdİ. Beləliklə, Fransa öz ərazisini xeyli genişləndirmiş oldu. İtaliyanın maraqlarına toxtjnmayaraq Sardina Krallığını (Cavuru) pis vəziyyətdə qoydu. Avstriyanın zəifləməsi Prussiyanı qane edirdi. III Napoleonun nailiyyətləri ilə Rusiya da razı olduğunu bildirirdi. Bütün bunlarla yanaşı, bu müharibə İtaliyalılarm Napoleona qarşı olan nifrətini artırmışdır. İtaliyada olan inqilabi çıxışlar Rusiya tərəfindən asanlıqla yatırıldı. Avstri- yalılarm Lombardiya və Venesiyaya daxil olmasına Rusiya imkan vermirdi.

Rusiyanın Xarici İşlər naziri Qorçakov 1860-cı ii oktyabr ayının 22-də Varşavada üç imperatorun görüşünü təşkil etmişdir. Bunlar Rusiya, Avstriya və Prussiya imperatorları idi. Burada II Aleksandr Avstriya imperatoru Frans İosifə məsləhət görürdü ki, İtaliyaya qarşı heç bir hərəkətə yol verməsin.

*III Napoleonun Şərq və Meksika siyasəti.* Avropada öz siyasi vəziyyətini nizama salan Napoleon bir neçə müstəmləkəçilik müharibələri aparmışdır. XIX əsrin 50-60-cı illərində Fransa Hind-Çində müharibə aparmışdır. Uzun döyüşlərdən sonra onlar Koxinxini zəbt etmiş və Kamboca üzərində

protektorat hüququ qazanmışdır. Napoleon 1860-cı ildə Suriyada möhkəmlənmək istəyirdi. Bu məqsədlə anqlikan' və katolik missionerləri kilsələr, dostlar arasında münaqişə yaratmağa nail olmuşdur. Faktiki olaraq anqlikan missionerlərinin arxasında ingilis diplomatları, katoliklərin arxasında isə fransız diplomatlan dayanırdı. Bu mübarizə çox qanlı vuruşmaya çevrilmiş, Dəməşqdə, Beyrutda və digər şəhərlərdə çoxlu qan tökülmüşdür. 5 mindən çox adam ölmüşdür. Belə şəraitdə Fransa müəyyən diplomatik tədbirlər görmüş, İngiltərə ilə müqavilə imzalamış və öz ordusunu Suriyadan geri çəkmişdir.

Suriya üstündə gedən mübarizə İngiltərə ilə Fransanın birlikdə Çinə ekspedisiyaya çıxmasına mane olmamışdır. 1858- ci ildə Fransa və İngiltərə Çini məcbur etmişlər ki, onlarla ticarət və siyasi müqavilə imzalasın. Çin bu müqaviləyə qarşı çıxdığına görə ingilislər və fransızlar Pekinə (Beyrin) qədər irəliləyərək, İmperatorun yay sarayını yandırmışlar. Hər iki dövlətin mübarizəsi Fransanın xarici işlər naziri baron Qro və İngiltərənin Xarici İşlər naziri lord Eidcinin nəzarəti altında gedirdi (bir-birini aldatmaqdan ehtiyatlanırdılar). Bütün bunlara baxmayaraq, Napoleona xas olan yeni bir saxtakarlıq özünü göstərmişdir.

1862-ci ildə III Napoleon Meksikaya yürüş edərək onu öz vassalına çevirməyi qərara almışdır. Burada yüksək qazanc əldə etmək məqsədi ilə yerli burjua, bankirlər Napoleona köməklik edirdilər. Fransa, İngiltərə və İspaniya ilə birlikdə Meksika sahillərində silahlı nümayişlər keçirirdi. Lakin meksikahlar hər üç müttəfiqə qarşı güclü müqavimət göstərirdi. Odur ki, İngiltərə və İspaniya öz ordusunu geri çəkdi. Fransa yerli mürtəce qruplara arxalanaraq tək vuruşmağa üstünlük verirdi. Lakin prezident Xuaresanm rəhbərliyi altında Meksi- kalılar Napoleona və yerli sahibkarlara qarşı güclü müqavimət

**anqlikan -protestant dinin bir qolu**

göstərərək Napoleonu öz niyyətindən əl çəkməyə məcbur etmişlər. Bu vaxt ABŞ-da vətəndaş müharibəsi getdiyi üçün Fransamn bu müstəmləkəçilik ekspedisiyasına əks təsir göstərə bilməmişdir. Lakin Meksikalılar güclü müqavimət göstərmiş və III Napoleonun niyyəti baş tutmamışdır.

*Bismarkın hakimiyyətə gəlməsi* Həmin vaxtlar Avropada baş verən ən mühüm problemlərdən biri ondan ibarət idi ki, Fransa ilə həmsərhəd ərazidə yeni böyük dövlət yaranırdı. 1862-ci il sentyabr ayının 24-də Ottofon Bismark Prussiyanın Nazirlər Şurasının prezidenti olmuşdur. 1862-ci il sentyabr ayının 29-da vəzifəyə başlayan Bismark göstərirdi ki, Prussiya bütün qüvvələrini səfərbər etməlidir. 1848 və 1849-cu illərin səhvlərini düzəltməliyik.

**1854-cü il** Vyana müqaviləsinin müəyyən etdiyi sərhədləri bizi qane etmir. Biz çox əlverişli anları buraxmışıq. Daha böyük məsələləri çıxışlar qərarlar hesabına deyil, **dəmir və qan hesabına həll etmək lazımdır.** Beləliklə, onun bütün fəaliyyəti buna yönəldilmişdi, 1862-ci ilin axırlannda Polşada da üsyanlar baş qaldırmışdır. Bismark Rusiyaya kömək etməyi əvvəlcədən qərara almışdır. İngiltərə, Fransa və Avstriya isə onun əleyhinə idilər. Polşa məsələsi üzrə Prussiya ilə Rusiya arasında Sankt-Peterburqda (8 fevral 1863-cü ildə) müqavilə imzalanmışdır. Müqavilə Rusiyaya gəlmiş Prussiya generalı Alvensleben müqaviləsi adlanmışdır.

*Rusiya əleyhinə koalisiya yaratmaq cəhdi.* Polşada inqilabi üsyan genişləndikcə III Napoleon üsyançılara qarşı öz xeyirxahlığını nümayiş etdirmək istəyirdi. Eyni zamanda II Nikolayın da inciməsinə yol vermək istəmirdi. Fransa imperatoru dostcasına II Aleksandra müraciət edərək Polşa Krallığının bərpa olunmasını istəyirdi. II Aleksandr isə bu fikirləri rədd edirdi. Odur ki. Polşa Krallığının bərpa edilməsi barədə III Napoleonda müxtəlif planlar yaranırdı. O, öz planları ilə Mərkəzi Avropada sərhədləri dəyişdirmək istəyirdi. O, Avstriyanı bu plana qoşmaq istəyirdi. Əgər Polşa müstəqillik

alardısa, o vaxt Avstriya Qalisiyanı itirirdi. Bunun müqabilində Sileziya ona qaytarılırdı. İtaliyaya verilmiş Venesiya vilayətinin müqabilində isə Adriatik dənizinin sahilindəki Türkiyə əyalətləri Avstriyaya verilirdi. Digər ərazi dəyişiklikləri də nəzərdə tutulurdu. İngiltərə bütün bu təklifləri rədd edirdi. Avstriya isə Fransa planının əleyhinə olmasa da, bu planın hərtərəfli öyrənilməsini təklif edirdi.

**Parisdə, Londonda və Vyanada** çox geniş müzakirələrdən sonra rus imperatoruna nota göndərmək qərarına gəlmişlər. 1863-cü **il aprel ayının 17-də** ingilis və fransız səfirləri Polşadakı vəziyyət barədə Rusiyanın Xarici İşlər Nazirliyinə öz qəti fikrini bildirmişlər. İki gündən sonra **Avstriya** da öz əks fikrini bildirmişdir. Xarici İşlər naziri **Qorçakov** hər üç ölkənin heç bir ciddi addım atacağını gözləmədiyi üçün onların müraciətinə məhəl qoymamışdır. Napoleonun planından **II Aleksandrın** xəbəri vardı, lakin bu məsələyə hələki soyuqqanlılıq göstərirdi. Rusiya üsyançılara qarşı amnistiya elan edərək silahlan yerə qoymağı təklif etmişdir. Qorçakov müəyyən məlumatlar əldə etməklə belə nəticə çıxarırdı ki, İngiltərə bu üçlüyə qoşulmayacaqdır. **III Napoleon Meksika** ilə müharibə apardığı üçün Rusiya ilə müharibəyə başlamaz. Bu fikirlərin dolaşıqlığı açılmamış, 1863-cü **il** iyun ayının 17-də İngiltərənin Xarici İşlər naziri Rassel Rusiyaya daha ciddi bir nota verir. **Notada 6 bənd vardı:** Polşa ilə sülh bağlamaq əsasında - tam amnistiya; milli rəhbərliyə imkan verilməsi; Polşahlardan dövlət rəhbərliyinə təyin edilməsi; vicdan azadlığı; katolik kilsəsinə məhdudiyyətin ləğvi; Polşa dininin tanınması və s. bu kimi notalara baxmayaraq. Polşa hadisəsinə görə Paris, London və Vyananın Rusiyaya qarşı baxışları (buna münasibət deməzdik) müxtəlif idi. Bütün bunları başa düşən Qorçakov onların notalarına çox düşünülmüş ustalıqla cavab verirdi.

Belə çıxırdı ki, ingilis və fransız hökuməti özləri özünü çətin vəziyyətə salmışlar. Onlar bir tərəfdən polşalıları qızış

dırırdılar, digər tərəfdən isə Rusiya onların təkidlərinə məhəl qoymurdu. Bütün bunlara baxmayaraq, Rassel bir nota da hazırladı. O, Rusiyanı günahlandırırdı ki, götürdüyü öhdəçiliyə əməl etmir. Lakin bu nota ünvanına çatdırılmamışdır. III Napoleon bu notanın məzmunu ilə tanış olan kimi Rusiya əleyhinə müharibəyə qoşulmaqdan imtina etdi. Vəziyyəti belə görən Rassel də 1863-cü ilin sentyabr ayında açıq-aşkar bəyan etdi ki, onun ölkəsi Polşaya görə Rusiya ilə müharibə etmək fikrində deyil. Beləliklə II Aleksandr və Qorçakov III Napoleon (Fransa), Polrnerston və Rassel (İngiltərə) üzərində diplomatik qələbə çalmış oldular. Hər halda İngiltərənin Rusiyaya qarşı düşmənçiliyi özünü biruzə vermiş oldu. III Napoleon isə öz hərəkətləri ilə Fransanı daha da zəiflətdi. Gələcəkdə Bismark bu cəhətlərdən istifadə etməli oldu.

# X Fəsil.
# ŞİMALİ AMERİKADA VƏTƏNDAŞ MÜHARİBƏSİ VƏ AVROPA DÖVLƏTLƏRİNİN MÖVQEYİ

XIX əsrin ortalarında Şimali Amerikamn cənub ştatları müəyyən ərazilər ələ keçirmişlər. 1845-ci ildə Meksikadan Texası qoparmışlar, iki illik müharibədən sonra 1848-ci ildə Meksikanın məhsuldar kənd təsərrüfatı ərazilərinə sahib olmuşlar. Birləşmiş Ştatların özündə sənaye şimalı ilə kənd təsərrüfatı cənubu arasında müəyyən ziddiyyətlər yaranırdı.

Şimal ştatlan daha çox siyasi, iqtisadi və sosial üstünlüklərə malik idi. 23 şimal ştatında 23 mln. nəfər, 11 cənub ştatında isə 9 mln. nəfər əhali yaşayırdı (bunun da 4 mln. nəfəri qul-zənci idi). Deməli, ölkənin bütün sənayesi şimalda mərkəzləşmişdi. Şimal ilə Cənub arasında münaqişə getdikcə güclənirdi. Hər iki tərəf öz qələbəsinə inanırdı. Cənublular İngiltərə ilə Fransanın köməkliyini də istisna etmirdilər.

*İngiltərənin mövqeyi* Qısaca desək, İngiltərə heç də güclü sənaye dövləti yaranmasını istəmirdi. O, Şimali Amerika ştatlarının zəifləməsini və yaxud məhv edilməsini, müstəmləkəyə çevrilməsini istəyirdi. 1861-ci ildə rus diplomatları Vaşinqtondan və Londondan müharibə şəraitində İngiltərənin mövqeyi barədə Peterburqa məlumat verirdilər. Onlar göstərirdi ki, ancaq pambığın xatirinə İngiltərə Cənuba hərbi yardım etməyi qərara almışdır. İngiltərə istəyirdi ki. Şimali Amerikada iki bərabər hüquqlu respublika yaransın və onlar biri-birinə nəzarət etsinlər.

*Cənub və Şimal qarşıdurması.* Qarışıq dövr olmasına baxmayaraq, 1860-cı ildə prezident seçkisi keçirilmişdir. Respublikaçılar partiyasından A. Linkoln qalib gəlmişdir. O, güclü siyasi xadim idi. Onun əsas daxili və xarici siyasəti Şimalda burjuaziya demokratiyasının qalib gəlməsindən ibarət

idi. Cənub isə Şimaldan ayrılmaq uğrunda mübarizəni davam etdirirdi.

1861- ci ildə (fevralda) plantasiya sahibkarları olan cənublular Konqres keçirərək Amerika ştatlarında Konfederasiya elan etmişlər. Böyük plantasiya sahiblərindən biri polkovnik C.Denis Konfederasiyanın prezidenti seçilmişdir. Cənub öz hökumətini yaratmaqla Şimal ilə müharibəyə hazırlaşırdı. Şimal isə sülh yolu ilə vahid dövlət yaratmağın tərəfdarı idi. Artıq gec idi. Vətəndaş müharibəsi başlanmışdı. 1861-ci il aprel ayının 11-də cənublular müharibəyə başlamışlar.

Prezident Linkoln cənub torpaqlara blokada elan edərək 75 min könüllü ordu səfərbərliyə almışdı. Cənubun müharibə iştirakçılarına müharibəni dayandırmaq və öz yaşayış yerlərinə qayıtmaq üçün 20 günlük möhlət verildi.

*Avropa dövbtbrinin siyasəti* Bütün başqa dövrlərdə olduğu kimi, ABŞ-da olan vətəndaş müharibəsi şəraitində də Avropa dövlətlərinin siyasətində torpaqlar, ərazilər tutmaq, hərbi müdaxiləni genişləndirmək əsas məqsəd idi. Kubada İspaniyanın hərbi meydanı olduğu üçün San-Donino zənci respublikasının şərq hissəsi hesabına öz ərazisini genişləndirmək istəyirdi.

İspaniya zənci respublikasının qəsb edilməsi barədə rəsmi məlumat vermişdi. İngiltərə və Fransa da öz mənafelərinə bu vəziyyətdən istifadə etməyə çalışırdılar. İngiltərə belə güman edirdi ki. Birləşmiş Ştatlardakı bu ittifaq pozularsa, onlar iqtisadi cəhətdən İngiltərədən asılı vəziyyətə düşə bilərlər. Həmin ilin may ayında bu müharibəyə münasibətdə İngiltərə özünün neytar olmasım bildirmişdir.

Beləliklə, Cənubda yaranan Konfederasiya qiyam deyil, müharibə edən tərəflər kimi qəbul edilmişdir. İngiltərədən som'a Fransa da neytral olduğunu bildirmişdir. 1861-ci ilin oktyabr ayında Böyük Britaniya, Fransa və İspaniya Meksikaya birgə müdaxilə barədə müqavilə imzalamışlar. Çox keçmədən

ispan ordusu Meksika sahillərinə daxil olmuşdur. 1862-ci ilin yanvar ayında isə İngiltərə ilə Fransanın ordusu gəlmişlər.

Cənub ştatlarına İngiltərənin köməkliyi nəticəsində Şimal ştatlarına mənsub olan 65 gəmi batırılmışdır. Bununla da Birləşmiş Ştatlara ciddi ziyan dəymişdi. Beləliklə, London və Paris Şimali Amerikadakı hadisələri çox diqqətlə izləyirdilər ki, əlverişli bir bəhanə yaranan kimi müharibəyə başlasınlar.

*Linkolun faaliyyəti.* Aydındır ki, Şimal ştatlarında çox ciddi vəziyyət yaranmışdır. İngiltərə və Fransanın köməkliyi sayəsində cənublular qalib gələrdilərsə siyasi mübarizənin güclənəcəyi gözlənirdi. Odur ki, radikal respublikaçıların bir qrup nümayəndələri hökumətdən həlledici tədbirlər görülməsini tələb edirdilər. Belə bir şəraitdə **1862-ci** ilin may ayında **Linkoln** hökuməti yeni bir qanun qəbul etmişdir. Qanunda göstərilirdi ki, hər bir ABŞ vətəndaşı 10 dollar ödəməklə 160 akr' torpaq ala bilər. Hər bir şəxs 5 il həmin torpağı ardıcıl becərərsə, onun tam sahibinə çevrilə bilər. Beləliklə, fermerlərin və müstəqil təsərrüfatçıların hesabına Linkoln tərəfdarları artmışdır.

Hərbi zərurətlə bağlı olaraq, 1862-ci ilin sentyabr ayında **Linkoln «azad edilmə»** barədə bəyannamə imzaladı. Bu sənəd 1863-cü il yanvar ayının 1-dən qüvvəyə minmişdir. Nəticədə 4 min zənci azad edilmişdir (öz sahiblərinə heç nə ödəmədən). Linkolnun bu qərarı ancaq daxili mənada deyil, çox beynəlxalq mənada da böyük əhəmiyyət kəsb etmişdir. Avropada Birləşmiş Ştatlara və onun Prezidentinə qarşı hörmət - rəğbət artmışdır.

*III Napoleonun Cənuba münasibəti.* 1862-ci ilin payızında III Napoleon təklif edirdi ki, Fransa, İngiltərə və Rusiya birlikdə cənub respublikalarına köməklik göstərsinlər. Bununla da, təkid edərək 6 aylıq müddətinə barışıq yaratsınlar. Cənub ştatlarına qoyulan blokada aradan götürülsün. Avropa dövlətləri ilə ticarət aparmaq üçün Amerika limanları açılsın.

**Akr - təqribən 4000 kv.m**

1862- ci il oktyabr ayının 30-da Fransanın Xarici İşlər naziri bu təklifi səfirlər vasitəsi ilə Britaniya və Rusiya rəhbərliyinə çatdırmışdı. Hər iki dövlət bu təklifi rədd etmişdi. Hər halda, bu münaqişələrin həllinə, doğrudan da, daxildəki mütərəqqi hadisələr kifayət qədər təsir etmişdir. Bir çox şəhərlərdə fəhlələrin inqilabi çıxışları, mitinqlər, cənub quldarlığına qarşı çıxışlar artırdı. Şimal Respublikalanmn özündə ciddi dəyişikliklər baş verirdi. Quldarlığın ləğv edilməsi Konfederasiyanın vəziyyətini pisləşdirirdi. Cənub ştatları rəhbərlərinin bəziləri quldarlığın ləğvini alqışlayırdılar. Bütün bunlar Şimal ştatların xeyrinə müharibədə dönüş yaratmışdır.

*Rusiya-Amerika münasibətləri.* Açıq etiraf etməliyik ki, Amerikadakı vətəndaş müharibəsi dövründə Rusiya ilə Birləşmiş Ştatlar arasında müəyyən yaxınlaşma müşahidə olunurdu. Bıma əsasən aşağıdakı amillər də səbəb olmuşdur: birinci, İngiltərə, Fransa və İspaniyanın ABŞ-a olan münasibəti onu məcbur edirdi ki, özünə müəyyən dayaq tapsın, **ikincisi** isə Rusiyanın özünün də İngiltərə və Fransaya olan münasibəti özünə digər müttəfiq tapmaq zərurəti yaradırdı. 1861-ci ilin iyun ayında Rusiyanın Xarici İşlər naziri Rusiyanın Vaşinqtondakı nümayəndəsi **E.Steklu** vasitəsi ilə Amerika rəhbərliyinə belə bir məlumatı çatdırırdı ki, Amerika İttifaqı bizim rəğbətimizə arxayın ola bilər. Amerikaya iki rus eskadrası göndərilməsi də qərara alınmışdır.

1863- cü ilin sentyabr ayında bir rus eskadrası Nyu-Yorka, biri isə San-Fransiskoya yaxınlaşmalı olmuşdu. Beləliklə, rus gəmiləri Cənubluların hərbi gəmilərinə müəyyən təsir göstərməklə Avropa dövlətlərində Rusiyanın nüfuzunu daha da qaldırmışdır.

## XI Fəsil.
## ALMANİYANIN BİRLƏŞDİRİLMƏSİ YOLUNDA İLKİN ADDIMLAR

*Avropa dövlətlərinin siyasəti* 1860-1870-ci illərdə beynəlxalq həyatın əsas hadisələri, demək olar ki, Avropanın mərkəzində cəmlənmişdir. Bütün bu hadisələrdə alman torpaqlarının Prussiya adı altında birləşməsi məsələsi mərkəzi yeri tuturdu. 1856-cı il Paris sülh müqaviləsindən sonra Avropada ərazi dəyişikliyi məsələsi az-çox sabitləşmişdi. Rusiyaya münasibət isə elə olduğu kimi davam edirdi. Polşada olan üsyan vaxtı da bu münasibət özünü daha aydın biruzə verirdi. İngiltərə ilə Fransa arasında da elə bir fikir birliyi yox idi. Bu dövlətlərin heç biri və xüsusilə Avstriya istəmirdi ki, qonşuluqlarında güclü bir dövlət yaransın.

Avstriya istəyirdi ki. Alman İttifaqı dövlətləri Prussiyanın deyil, onun rəhbərliyi altında birləşsin. Prussiya ancaq Rusiyanın köməkliyinə ümid edirdi. Rusiya da və xüsusilə Qorçakov Bismarkı Rusiya üçün güclü və təhlükəli düşmən kimi görürdü. Bütün bunlarla yanaşı, Bismark bilirdi ki, öz planlarının həyata keçirilməsində Rusiya ona maneəçilik etməyəcəkdir. Köməklik göstərmək məsələsində isə 1866-cı ildə Avstriya ilə, 1870-ci ildə Fransa ilə olan münaqişələrdə Rusiya neytral olmuşdur.

*Almaniyanın birləşməsinin başlanğıcı.* 1863-cü ilin axırlarında başda Bismark olmaqla Prussiya hökuməti birləşmə barədə praktiki fəaliyyətə başlamışdır. Otto fon Bismark özünü sadə Prussiya əsgəri sayaraq, Almaniyanın mənafeyinə xidmət etdiyini bildirirdi. Aydındır ki, alman torpaqlarının birləşdirilməsi çox mütərəqqi bir hərəkət idi. Lakin bu proses Prussiya monarxiyası himayəsi altında «dəmir və **qanla»** baş verirdi. Odur ki, Bismark «dəmir **Kansler»** adı almışdır.

İlk dəfə Qolştyen və Şlezviq knyazlıqları birləşdirilmişdir. Bu hersoqluq çox strateji əhəmiyyətə malik idi. Onlar

Danimarkaya tabe olub, muxtariyyət hüququna malik idilər. Danimarka kralı VII Fridrixin ölümündən sonra IX Xristian onun yerinə gəlmişdir. Vərəsəlik hüququna baxmayaraq, Bismark bu knyazlıqları Prussiyaya birləşdirirdi. O, İngiltərə ilə Fransanın əksdurmasmdan qaçmaq üçün onları inandırırdı ki, heç bir məqsədi yoxdur. 1865-ci il sentyabr ayının 13-də İngiltərənin Baş naziri **Palmerston** Xarici İşlər naziri Rasselə yazırdı ki, Şlezviq və Qolşteynin Danimarkadan alınması düzgün iş deyildir. 1863-cü ilin noyabr ayında Danimarka yeni Konstitusiya qəbul edərək Şlezviqi tamamilə Danimarkaya birləşdirdi.

Bu hersoqluqda yaşayan almanlar Danimarka Krallığına birləşməyin əleyhinə idilər. Bu vaxt Bismark Avtsriyadan köməklik istəmiş və onun razılığını almışdır. Avstriya ilə birlikdə Danimarka Kralına konstitusiyanı ləğv etmək barədə ultimatum vermişlər. İngiltərə və Fransa Danimarkanı dəstəkləmişlər. Beləliklə, Danimarka təklənmişdir. Rusiya neytral vəziyyətdə olmuşdur. Bir neçə məğlubiyyətdən sonra Danimarka kralı III Napoleona müraciət edərək köməklik istəmişdir. O, isə köməklikdən imtina etmişdir.

Nəticədə, Danimarka 1864-cü il oktyabr ayının 30-da barışığa gedərək Prussiya ilə Avstriyanın bütün tələblərini qəbul etmişdir. Beləliklə, həmin tarixdə **Vyanada Avstriya və Prussiya ilə** sülh müqaviləsi bağlamışlar. 1865-ci il avqust ayının 15-də Qolşteyndə Avstriya ilə Prussiya arasında müqavilə bağlandı. Müqaviləyə əsasən Şlezviq Prussiyanın, Qolş- teyn isə Avstriyanın tərkibinə daxil oldu. Lakin Avstriyanın özündə də Qolşteyn Prussiyaya güzəştə getməyə razı idilər. Beləliklə, alman torpaqlarının birləşdirilməsi başlanmışdır. Artıq onun yolunda Avstriya dayanmışdı.

*Avstriya ilə müharibəyə hazırlıq.* Bismark müharibəyə hazırlaşmaqla yanaşı, diplomatik gedişlər də edirdi. O bilirdi ki, Avstriyanı ancaq zorla qovmaq lazımdır. Fransa və Rusiyadan isə ehtiyat edirdi. III Aleksandr yaddan çıxarmamışdı ki.

1863-cü ildə Polşa məsələsində Prussiya ona kömək etmişdir. Eləcə də Krım müharibəsi və Paris konqresində də Avstriyanın satqınlığını da yaddan çıxarmamışdır. Odur ki, Rusiya imperatoru Bismarkın planlarına kömək etməyi qərara almışdı. Rusiya Avstriya-Prussiya müharibəsinin uzun çəkdiyini zənn edib neytral vəziyyət seçməli olmuşdur. Bu vaxt III Napoleon müəyyən ərazi əldə etmək məqsədi ilə Prussiya və Rusiya ilə danışığa başladı. O, Avstriyanın mənsub olduğu ərazilərdən tutmaq üçün razılıq almaq istəyirdi. Bismark Fransanı neytrallaşdırmaq məqsədi ilə 1865-ci ildə sentyabrda kurort şəhəri olan **Biarrisə** getdi. Orada olan Napoleonla görüşdü. Bismark ona təklif etdi ki, Lüksemburqu Fransaya daxil etməklə neytral vəziyyətə razılaşsın. Lakin III Napoleon Belçikanı da tələb edirdi. Heç bir razılıq əldə etmədən onlar aynidılar. Lakin Bismark başa düşürdü ki, Avstriya ilə olan müharibə uzanarsa, Fransa bundan istifadə edib Prussiyaya qarşı çıxa bilər. Hər halda Prussiya Avstriyaya qarşı müharibəyə hazırlaşırdı. Müharibəni tez qurtarmaq, İtaliyam da Avstriyaya qarşı qoymaq nəzərdə tutulurdu. Bu barədə İtaliya kralı **Viktor Emmanuil** də razılıq vermişdir. Bismarkın planını bilən III Napoleon iki cəbhədə vuruşmaqdan qaçmaq üçün Avstriyanın imperatoru **Frans İosifə** təklif edirdi ki, könüllü olaraq Venesiya vilayətini versin İtaliya kralına. Viktor Emmanuil III Napoleonun bu hərəkəti barədə Bismarka məlumat vermişdi. Beləliklə, Bismark III Napoleon ilə görüşmək üçün yenidən **Biorrisə** getməli olmuşdur. Beləliklə o. Napoleonla razılaşmışdır ki, əgər müharibə uzanarsa, Fransa müəyyən ərazi iddiası ilə işə qarışa bilər. **Bu Bismarkın diplomatik qələbəsi idi. 1866-cı il aprel ayının 8-də Prussiya ilə İtaliya arasında Avstriyaya** qarşı müharibədə müttəfiq olmaq barədə müqavilə imzalanmışdı.

Prussiya İtaliyaya 120 mln. frank pul ödəməli olmuşdu. Döyüşdə İtaliya ordusu çox

tez məğlub oldu. Prussiyalılar isə Avstriyalılara qalib gəldilər. Bismark Avstriyaya təklif etdi ki, Almaniya İttifaqından çıxsın, Qolşteyndən imtina ertsin və Alman İttifaqının Prussiya adı altında birləşməsinə razı olsun. Avstriya bütün təklifləri qəbul etməli oldu. Beləliklə, Almaniyanın birləşdirilməsi barədəki **II raund da Bismarkın qələbəsi ilə başa** çatmış oldu.

**1866-cı il avqust aymm 23-də Praqada** Avtsriya ilə Prussiya arasında sülh müqaviləsi bağlanmışdır. Bu müqaviləyə əsasən əvvəlki formada mövcud olan Almaniya İttifaqının ləğvini və Avstriyasız Alman dövlətlərinin birləşdirilməsini rəsmi tanımışdır. Şlezviq və Qolşteynin bütün hüquqları Prussiyaya verilmişdir. Bununla yanaşı, Avstriya 40 mln.taler' pul ödəmişdir. Hər iki dövlət Venesiyanın İtaliya ərazisi olmasını da tanımışdır. Müharibədə Avstriyanın məğlub olması bir çox ciddi islahatlar keçirilməsinə zərurət yaratmışdır. Nəticədə, Avstriya ikili bir monarxiyaya - Avstriya-Macarıstana çevrilmişdir.

## Fransa - Prussiya müharibəsi
## və beynəlxalq münasibətlər

Avstriya-Prussiya müharibəsindən və 1866-cı il sülh müqaviləsindən sonra Avropanın mərkəzində Prussiyamn xeyrinə müəyyən dəyişikliklər baş vermişdir. Bütün bunlara baxmayaraq, Avstriya yenə də Bismarkdan ehtiyat edirdi.

*Almaniya İttifaqında ziddiyyətlər.* Avstriya Alman İttifaqının üzvü olmadığı üçün Prussiya Alman dövlətlərini öz himayəsi altında birləşdirə bilərdi. Lakin Alman dövlətləri İttifaqında ziddiyyətlər vardı. Şimal dövlətləri Almaniyanın Prussiya ətrafında birləşməsinin tərəfdarı olduğu halda, Baden, Bavariya, Vyurtemburq və Qessen kimi cənub dövlətləri Prussiyanın güclənməsini və onun təsiri altına düşməyi istəmirdilər.

**' Taler - qədim Alman gümüş pulu**

Avstriya cəmiyyətinə birləşmək, Fransaya meylli olmaq qorxusu da vardı. Cənubi Alman dövlətlərində müxtəlif baxışlann olması Bismarkı yeni müharibəyə hazırlayırdı.

*Şimali-Alman İttifaqı Konstitusiyası.* Birliyin idarə edilməsi üçün Bismark Konstitusiya layihəsi hazırlamışdı. Əlbəttə, bütün knyazlıqlan razı salmaq çətin idi.l866-cı ilin dekabr ayında bütün səlahiyyətli nümayəndələr konstitusiya layihəsini müzakirə etmək üçün Berlinə toplaşmışlar. Konstitusiyaya görə Muxtar Hökumətlər öz muxtariyyatını saxlayırlar. Qalan bütün məsələlər Prussiya Krallığının ixtiyanna verilir. Bəzi nümayəndələr konfransın gedişini pozmağa çalışsalar da. Prussiyanın təkidi ilə danışıqlar bərpa olunmuşdur.

1867-ci il fevral ayının 8-də Bismarkın layihəsi qəbul edirlmişdir. Konstitusiya Prussiya Kralı üçün ölkədə mütləq hakimiyyəti təmin etmiş olmuşdur. O, vahid xarici siyasət yeritmək, müharibə etmək, sülh bağlamaq, orduya rəhbərlik etmək və bir çox digər hüquqlara malik olmuşdur. **Şimal- Alman İttifaqı yaranmışdı.** Bu ittifaqa Prussiyadan başqa 20- dən artıq hersoqluq, knyazlıqlar və eləcə də Hamburq, Bremen və Lyubek kimi azad şəhərlər daxil idi.

*Avropa diplomatiyası.* Bismark çox diqqətlə Parisdə, Londonda və Peterburqda niyyətləri izləyirdi. Öz növbəsində onun hərəkətlərini də izləyirdilər. Almaniyanın birləşdirilməsində Fransa əsas maneə hesab edilirdi. Avstriya - Prussiya müharibəsində Fransa öz neytral mövqeyi müqabilində nə isə almalı idi. Hətta Bismark özü Lüksemburqu təklif etmişdi. Lakin Bismarkın artıq neytrallığa ehtiyacı yox idi və ona heç nə də vermədi. III Napoleon görürdü ki, Prussiya güclənir. Odur ki, gələcəkdə müəyyən yaxınlıq üçün tədbirlər görməyə əl atırdı. Ona görə də Prussiya ilə məxfi müqavilə bağlamağı təklif edərək, Belçikanı birləşdirmək qəranna gəlmişdir.

Bismark bu təklifi qəbul etməmişdi. Lakin diplomatik olaraq damşıqları da dayandırmamışdı. Vaxtı uzatmağa üstünlük verirdi. O, Fransa səfirindən bütün təklifləri təfsilatı ilə

yazılı tələb etdi ki, Kral I Vilhelimə çatdırsın. Yazılı təklifi aldıqdan sonra Bismark bu barədə İngiltərəni məlumatlandırırdı. İngiltərənin Fransadakı səfiri III Napoleonu görərək, ondan yazılı arayış tələb etmişdi. Bu vaxt Fransa imperatoru, onu inandırırdı ki, Fransa güclə heç bir ərazini birləşdirmək; fikrində deyil. Bu barədə rəsmi bəyanat da vermişdilər. Bu məlumat Bismarka da çatdırılmışdır.

Hər halda, Avropada dövlətlər arasında toqquşma şəraiti yetişmişdi. Rusiya Paris müqaviləsində nəzərdə tutulmuş məhdudlaşdınima maddələrinin ləğvinə köməklik göstərən müttəfiqlər axtarırdı (Qara dənizdə Rusiyanın hərbi flotunun qadağan edilməsi barədə 1856-cı il Paris sülh müqaviləsinin tələbi). Prussiyanın qələbəsi ilə Rusiyanın sərhəd- dində yeni bir güclü dövlət yaranırdı. Odur ki, Rusiya Prussiya ilə yaxınlaşmağa üstünlük verirdi. 1867-ci ildə U. Qorçakov Paris sülh müqaviləsinin nəzərdə tutduğu məhdudlaşdırıcı maddələr barədə Prussiyanın mövqeyini öyrənməyə cəhd, etmişdir. Bu vaxt Bismark o qədər də dəqiq olmayan şəkildə demişdir ki, Prussiya Rusiyanın arzusunu dəstəkləyə bilərdi.

Xarci İşlər naziri Polmerstonun ölümündən sonra İngiltərə də Prussiyanın güclənməsinin əleyhinə deyildi. Onlar Fransaya qarşı tarazlıq yaradılmasında buna böyük əhəmiyyət verirdilər. Bu vaxt II Aleksandr da Fransa ilə yaxın münasibət saxlamaq istəyirdi. Lak;in III Napoleonun diplomatik bacarıq- sızlığı üzündən Bismark Fransanın İngiltərə və Rusiya ilə olan münasibətlərini pislşədirməyə nail ola bilmişdir. Bütün bunlara baxmayaraq, Fransa Lüksemburq, Landau və Saapbryukkeni özünə birləşdirməkdə qərarlı idi. Lüksemburq 1867-ci ildə yaradılan Şimal-Alman İttifaqına daxil edilməmişdi. Odur ki, Hollandiya hökuməti Lüksemburqu Fransanın ərazisinə birləşdirmişdi.

Bismark burada da biclik işlətmiş, bu sənədə imza etməmişdir. Sonra isə müxalif qüvvələri qızışdırmış, fransızlara güzəştə qarşı çıxışlar güclənmişdir. Lüksemburq məsələsində

III Napoleonun uduzduğunu görən A.M.Qorçakov bu məsələ üzrə Avropa dövlətlərinin konfransım çağırmağı təklif etmişdi. Bütün dövlətlər konfransın çağırılması barədə öz razılıqlarını bildirdilər. Beləliklə, 1867-ci il may ayının 7-də Londonda konfrans çağırıldı. Konfransda İngiltərə, Fransa, Prussiya, Rusiya, Avstriya - Macarıstan, Belçika, Niderland, İtaliya və Lüksemburq iştirak edirdilər. Rusiya Lüksemburqun neytral olması təklifini verdi. Bu təklif hamılıqla qəbul edildi. Lüksemburq açıq şəhər elan edildi. Prussiya oradan öz qoşununu çıxartdı. III Napoleonun yanlış diplomatiyası üzündən Meksika ilə müharibədə də çoxlu itki verdilər. 1867-ci ilin yazında Fransa ordusu vətənə qayıtmışdır.

İtaliyada da Fransa əleyhinə baxışları artırdı. Bütün bunlarla yanaşı. Prussiya Fransa ilə müharibəyə hazırlaşırdı. Odur ki, Rusiya ilə danışıqlar aparmışdır. 1870-ci ildə Prussiyanın imperatoru I Vilhelmin qohumu şahzadə **Leopol- dun** İspaniya kralı seçilməsi qərarı' III Napoleonu hərəkətə gətirir. Bu vəzifədən imtina etmək barədə Kral I Vilhelmə ultimatum xarakterli tələb göndərmişdir. Onun bu ultimatumu alman xalqının o qədər də xoşuna gəlmirdi. Beləliklə, yeni müharibə üçün zəmin yaranırdı.

*Yeni müharibə.* 1870-ci il iyul ayının 15-də Fransanın qanunvericilik məclisi Prussiya ilə müharibəyə başlanmasına razılıq vermişdir. Həmin il iyul ayının 20-də Fransa Prussiyaya müharibə elan etmişdir. Demək olar ki, Bismark öz siyasəti ilə buna nail olmuşdur. Bu müddətdə Fransanın əksinə olaraq müharibə barədə az danışılmış, lakin çox hazırlıq işləri görülmüşdür. Odur ki, müharibənin lap başlanğıcında Fransa ordusu ardıcıl olaraq məğlub olmuş, almanlar tezliklə Fransa-Belçika sərhədlərinə çıxmışlar. Sentyabr ayının 1-də Sedanda Fransanın 120 minlik ordusunu (III Napoleon da orada olub) mühasirəyə almışlar. Fransızlar təslim olmuşlar. Fransız monarxiyasının taleyi həll edilmişdir. 1870-ci il sentyabr ayının 2-dən Fransada **III Respublika elan edilmişdir.**

*Sülh danışıqları.* Prussiyanın qələbəsi çox tezliklə ancaq Fransada deyil, bütün Avropada əks səda yaratmışdı. Daxili qanşıqlıq düşməmək üçün Fransa da hakimiyyəti bərqərar etməyə çalışırdı. Xarici İşlər naziri barışıq barədə Bismarka müraciət etməli olmuşdur.

Uzun danışıqlardan sonra fevral ayının 26-da Prelimimu-sülh müqaviləsi imzalamışdı. Müqaviləyə görə Fransa Elzas və Lotaringiyanı itirməli olmuşdur, nəticədə Fransa 5 mlrd, frank hərbi cərimə ödəməli olmuşdu. Müqavilə təsdiq olanadək Alman ordusu Parisdə qalmalı oldu. İngiltərə və Rusiya da müharibənin tez qurtarmasının tərəfdarı idilər. Lakin Almaniyada bəzi qüvvələr Fransanı tam diz çökdürməyi və bəzi ərazilərini tutmağı tələb edirdilər. Belə olduqda Fransanın Milli müdafiə hakimiyyəti ölkəsinin alçaldılmasına yol verilməməsi üçün Rusiyaya müraciət etmişdir. Odur ki, Rusiya sülh bağlanmasım təklif etmişdir.

**Elə bu vaxt Paris Kommunası yaranırdı.** Milli müdafiə hakimiyyəti Bismarka müraciət edib Paris Kom- munasını dağıtmaq üçün köməklik istəyirdi. Kommunaya qarşı mübarizə aparmaq üçün Bismark Fransanın hərbi əsirlərinin bir qismində ayırmalı olmuşdu. Bismark da tezliklə sülh bağlamağın tərəfdarı idi. Bismark bilirdi ki, haçansa Fransa yenə müharibəyə başlayacaqdır. Tarix onun fikirlərinin düzgün olduğunu göstərmişdir. Ona görə də bəzi hərbçilər istəyirdilər ki, Fransanı bəzi müdafiə şəraitinə münasib ərazilərdən məhrum etsinlər. Odur ki, Elzas və Lotarningiyanı qala ilə birləşdirmişlər. Beləliklə, 1871-ci il may aynmın 10-da Mayn üzərində Frankfurtda sülh müqaviləsi bağlanmışdı. Müqaviləyə əsasən Almaniyaya keçən ərazilərdəki fransızlar öz əmlaklan ilə Fransaya gedə blilərdilər. Fransa Almaniyaya aşağıdakı həcmdə hərbi təzminat verməli olmuşdur: 30 gün ərzində 500 mln. frank; Parisdə hakimiyyətin bərpasından sonra - bir il müddətində - İmlrd. frank 1872-ci ilin may ayınadək 0,5 mlrd. 1874-cü il mart ayınadək 3 mlrd, frank ödəməli idi.

*Paris müqavihsinə yeni baxış. London konfransı.* Demək olar ki, Fransa Prussiya müharibəsi Avropanın xəritəsini dəyişmişdi. O qədər də böyük olmayan Prussiya ərazisində Avropanın mərkəzində güclü alman dövləti yaramrdı. Avstriyanın vəziyyəti pisləşirdi. Müharibə göstərdi ki, Rusiyanın köməkliyi olmadan Fransa Almaniyanın qarşısında dura bilməyəcəkdir.

Avropada qüvvələr nisbəti tez-tez dəyişməkdə idi. Fransa Almaniya ilə müharibədə əldən düşmüşdü. Onun köməkliyi olmadan Avstriya-Macanstan da müstəqil olaraq heç bir müharibəyə girişə bilməzdi. İngiltərə də müəyyən qədər təcrid olunmuş halda idi. Türkiyə də müstəqil hərəkət etməməli idi. Bütün bu kimi vəziyyətdən istifadə edən Rusiyanın Xarici İşlər naziri Qorçakov 1870-ci ilin oktyabr ayında 1856- cı il Paris sülh müqaviləsinin bəzi bəndlərində xüsusi ilə Qara dəniz barədə dəyişiklik olunmasmı tələb etmişdir (onların qəbul olunmasından imtina etmişdir). Aydındır ki, Qorçakovun bu təşəbbüsü Avropa dövlətlərinin xoşuna gəlməmişdi.

Damşıqlar nəticəsində, 1871-ci ilin yanvar ayında Londonda Konfrans çağrılmışdır. Konfransda bəzi dəyişikliklər edilmiş, o cümlədən Qara dənizdə Alman gəmilərinin olmasım qadağan edən bənd də ləğv edilmişdi. Konfrans Qara dəniz boğazlannda xarici hərbi gəmilərin olmaması barədəki prinsipi də təsdiq etmişdir.

## **XII** Fəsil.
## FRANKFURT MÜQAVİLƏSİNDƏN SONRA YARANAN MÜNASİBƏTLƏR

Aydındır ki, Frankfurt müqaviləsi bütün ziddiyyətləri həll edə bilməzdi. Fransanın məğlub olması və Almaniya kimi güclü bir dövlətin yaranması ilə qüvvələr nisbəti dəyişmişdi. Almaniya ilə İngiltərə arasındakı ziddiyyətlər kəskinləşirdi. Almaniya öz dövlətçiliyini və hərbi qüdrətini artınrdı. Fransa mütləq Almaniyadan intiqam almağa hazırlaşırdı. 1871-ci ildən sonra Parisin xarici siyasətində müəyyən dəyişikliklər yaranırdı. Rusiya ilə əlaqələrə daha çox diqqət verilirdi. Bununla yanaşı, Rusiya ilə aranı vurmaq istəyən qüvvələr də az deyildi.

Avstriya da istəyirdi ki, Bismarkı Rusiyaya qarşı qoysun. Lakin Bismarkm öz plam vardı. O, Avstriya- Macanstan və Rusiya ilə münasibət yaradıb onlann Fransaya yaxınlaşmasına imkan vermək istəmirdi. Rusiya isə Almaniya İttifaqı ilə olduğu kimi Fransa ilə də yaxınlıq etmək fikirində idi.

*Rusiya-Avstriya-Almaniya ittifaqı.* 1872-ci ilin sentya-bnnda Berlində üç imperatorun görüşü olmuşdur: I Vilhelm (Alman), Frans-İosif (Avstriya) və II Aleksandr (Rusiya) . Hər üç dövlətin Xarici İşlər Nazirləri də görüşdə iştirak edirdi. Görüşdə Balkan məsələsi barədə Rusiya ilə Avstriya arasında əks fikirlər vardı. Hər halda Rusiya bu ölkələrlə eyni ittifaqda olmaqla onlann çox yaxınlaşmasına imkan verməməyi nəzərdə tuturdu. Həm də Orta Asiya məsələsinə görə İngiltərəyə qarşı onlardan istifadəyə ümid edirdi. Beləliklə, Rusiya ilə Almaniya arasında hərbi müqavilə bağlanmışdı. İki aydan sonra 1873-cü il iyul ayının 6-da II Aleksandr Avstriyaya gəlmişdir. Burada Rusiya-Avstriya siyasi müqaviləsi bağlanmışdır.

1873-cü ilin oktyabr ayında imperator Frans İosif (Avstriya) və Vilhelm (almaniya) Almaniyanın Rusiya-Avstriya müqaviləsinə qoşulmasını imzalamışlar. Beləliklə üç

**imperatorun ittifaqı tam sənədləşdirilmişdir.** Müəyyən müddətdən sonra Orta Asiya məsələsinə görə Rusiya ilə İngiltərə arasında ziddiyyət yaranmışdı.

*Fransa - Almaniya münasibətləri.* Fransada yeni monarxistlər hakimiyyətə gəlmişlər. Odur ki, burada olan hadisələrin gedişini Berlində çox diqqətlə izləyirdilər. Ölkədə çox sürətlə ordu bərpa olunurdu. Hərbi baxımdan Almaniya açıq - aşkar Fransadan üstün idi. Odur ki, Fransanı münaqişəyə qızışdırırdı. Almanlar Fransanın müharibə hazırlığına dair müxtəlif məqalələr dərc etdirirdilər. Fransada müəyyən diplomatik tədbirlər həyata keçirilirdi. Fransa Rusiya, İngiltərə və Avstriya-Macarıstana xahiş ilə müraciət edirdi ki, Almaniya ona hücum etsə, köməklik göstərsinlər.

London, Peterburq və Vyana da öz növbəsində Almaniyanın güclənməsini istəmirdilər. Rusiya ilə Avstriyanın Xarici İşlər Naziri 1874-cü ildə Peterburqda Fransa səfirliyinə gələrək açıq-aşkar Bismarkın hərəkətini pisləmişlər. İngiltərə İcraliçası da Prussiya Kralı I Vilhelxmə şəxsi məktub göndərərək bildirmişdir ki, yeni müharibə daha ağır nəticələrə səbəb ola bilər. Beləliklə, birgə səy nəticəsində müharibə qorxusu aradan götürülmüşdür.

Son neçə illərdə ilk dəfə idi İd, Bismark öz planını həyata keçirə bilməmişdi. Burada əsas maneəçilik Rusiya tərəfindən idi. Odur ki, Bismark yollar axtarırdı ki, Rusiyanı, Avropa işlərinə qarışmaqdan kənarlaşdırsın. O, belə qərara gəlmişdi ki, Rusiyanın diqqətini Yaxın Şərqə yönəltsin. Elə bu məqsədlə də, 1875-ci ildə o, öz şəxsi nümayəndəsi **Radovisi** Peterburqa göndərmişdi. Radovis ilk əvvəllər gəlməsinin əsas məqsədini biruzə vermirdi. Əslində, o, Fransa ilə müharibə olduqda Rusiyanın mövqeyini öyrənməli idi. Bismark yenə də Fransada hərbi islahatlar keçirilməsini şişirtməklə məşğul idi. Bütün bu kimi hərəkətlər Avropada beynəlxalq gərginliyi daha da artın rdı. Odur ki, bu dövr Avropa tarixinə və beynəlxalq

münasibətlər tarixinə «1875-ci hərbi həyəcan ili» kimi daxil olmuşdur.

Rusiyanın Berlindəki səfirliyinin işçisi Ubri Qorçakova məlumat göndərmişdi ki, Bismarkın fikrincə belə bir sülh şəraitində Fransa 700 min silahlı ordu saxlayır. Deməli Fransanın xəlvəti fikri vardır (Belçika nüamyəndəsi isə bunun əksini deyirdi. İddia edirdi ki, Fransanın heç nəyi - ordusu, müdafiəsi yoxdur). Bir neçə vaxtdan sonra Rusiyanın Fransadakı səfiri Orlov Fransanın ehtiyatlanması və özünə müttəfiq axtarması barədə Qorçakova məlumat vermişdi. Qorçakov II Aleksandrın adından bildirirdi ki, Almaniya Fransaya hücum edərsə, biz siyasi dəstək verə bilərik. İngiltərə isə müharibə olmasını istəmirdi. Fransızlar ancaq II Aleksandra ümid edirdilər. Çünki o vaxt Rusiyanın mövqeyi daha yüksək idi.

*Şərq böhranı.* 1875-ci illərdə bütövlükdə Avropada gərginlik nisbətən azalmışdır. Lakin Rusiya ilə Almaniya arasında elə bir münasibət yaranmamışdı. Əsas hadisələr Yaxın Şərq üstündə cərəyan edirdi. Odur ki, bu dövr tarixi ədəbiyyatlarda «1875-1877-ci illərdə Şərq böhranı» kimi məlumdur.

1861-ci ildə təhkimçiliyin ləğv edilməsi ilə Rusiyada iqtisadi inkişaf az-çox dirçəlirdi. Lakin bütövlükdə Rusiya Avropadan çox geri qalırdı. Rusiya cənub rayonlarında möhkəmlənmək - ticarəti artırmaq istəyirdi. Bosfor və Dardanel boğazlarına çıxış zəruri tələbata çevrilmişdir. Elə bu vaxtlar Türkiyədə də böhran şəraiti özünü göstərirdi. Osmanlı imperiyasında Avropa kapitalına ehtiyac artırdı. Türkiyənin Avropa əraziləri olan - Bolqanstan, Serbiya, Bosniya, Hersoqovina və digər yerlərdə milli-azadlıq hərəkatı genişlənirdi.

1875-ci ilin yayında Hersoqovina və Bosniyanın xristian əhalisi türk istismarına qarşı mübarizəyə qalxmışdır.

Avstriya-Macarıstan bəyan edirdilər ki, bu Türkiyənin daxili işidir və biz ona qarışmayacağıq. Lakin sonralar bəzi yuxarı təbəqələr Bosniya və Hersoqovinanı Avstriya-Macarıstana birləşdirməyin tərəfdan kimi çıxış edirdilər. 1875-ci

ildə Rusiya Avstriya - Macarıstanla birlikdə Türk-Hersoqovina münaqişəsində iştirakını bəyan etmişdi. Onlar Hersoqovinaya muxtariyyət verilməsini təklif edirdilər. Lakin eyni zamanda Avstriya öz daxilindəki Slavyan xalqlarının tələbindən qorxaraq kiməsə muxtariyyət və yaxud müstəqillik verilməsini istəmirdi.

1875-ci ildə Balkan ölkələrində islahatlar aparılması barədə Avtsriya - Macarıstan dövləti müəyyən layihə hazırlayaraq Türkiyə sultanına göndərmişdi. Lakin bu layihənin ancaq Avstriya-Macanstan və Türkiyə üçün sərfəli olduğunu iddia edən digər nümayəndələr sənədə imza etməmişlər. 1876-cı ildə Rusiya Berlinə öz planını gətirmişdir. O, Balkan yarımada- sındakı Slavyan vilayətlərinə muxtariyyət verilməsini, idarəçilik - quruculuq işlərinə isə Rusiya və Avstriya - Macans- tanm rəhbərlik etməsini təklif edirdi. Avstriya-Macarıstan isə Balkanda Rusiyanın təsir dairəsinin artmasım istəmirdi. Odur ki, bu layihənin əksinə səs verməli olmuşdur. Bir çox dəyişikliklər, düzəlişlər aparıldıqdan sonra layihə 1876-cı il may ayının 13-də qəbul edilmişdi. **Bu sənəd tarixdə Berlin Memorandumu adlanır.** Paris və Roma Balkan məsələsinə dair Berlin Memorandumu ilə razılaşdıqlan halda, London bunu Türkiyənin daxili işinə qanşmaq kimi qiymətləndirirdi. İngiltərənin öz planı vardı. O da Balkanda Rusiyanın rolunun artmasını istəmirdi (xüsusilə Qara dəniz boğazında). O həmişə öz müstəmləkəsi olan Hindistan üçün qorxurdu. 1873-cü ildə Rusiya Xivəni tutduqdan sonra, İngiltərə bunun Rusiya- İngiltərə münasibətlərinə zidd olması barədə bəyanət vermişdi.

İngiltərə Berlin sənədini dəstəkləmədiyi üçün Balkanda vəziyyət kəskinləşirdi. Türkiyə Bolqanstanda olan hərəkatları ciddiliklə aradan qaldırırdı. Ardıcıl olaraq Serbiya və Çernoqoriyada da çıxışlar güclənirdi. Slavyan xalqları bilirdi ki, Rusiya onlara kömək edəcəkdir. Beləliklə, 1876-cı ilin iyulunda müharibə başlanmışdı. Rusiya din qardaşlarına köməklik üçün Balkana könüllülər göndərməli olmuşdur.

Balkandakı vəziyyət 1876-cı ilin iyulunda Çexiyada Rusiya ilə Avstriya-Macarıstan rəhbərləri arasında müzakirə edilmiş və daxili işə qarışmamaq barədə razılığa gəlmişlər. Hər halda Serbiya və Çernoqoriya hərəkatının genişlənməsi baş vermişdir. Bu görüşün nəticəsi kimi Rusiya-Avstriya razılaşması olmuşdur. Qərara alınmışdır ki, üsyançılar qalib gəldiyi təqdirdə Bolqarıstan, Bosniya və Hersoqovinaya muxtariyyat verilsin (Macarıstan və Rusiya böyük Slavyan dövləti yaranmasının tərəfdarı deyildir). Cənubi Bessarabiya Rusiyaya, Xorvatiya və Bosniya isə Avstriyaya birləşməli olacaqdır. Əgər Türkiyə qalib gələrsə, tələb edilirdi ki, Bosniya və Hersoqovinaya muxtariyyət verilsin. Sonra Rusiya ultimatum verərək Türkiyə ilə Serbiya arasında barışıq müqaviləsi bağlanmasını tələb etdi. Türkiyə bütün tələbləri qəbul etməli oldu.

Sonra Rusiyanın Xarici İşlər Naziri Qorçakov Konstantinopolda konfrans çağırılımasmı təklif etdi. Konfrans 1876- cı ilin dekabr ayında çağırıldı. Konfransda Rusiya, Almaniya, Avstriya - Macarıstan, İtaliya, Fransa və İngiltərənin səfirləri iştirak edirdi. Burada Rusiya daha aparıcı rol oynayırdı. Bolqarıstan, Hersoqovina və Bosniyaya muxtariyyət verilməsi üzrə razılıq əldə edilmişdir. Elə bu vaxt Türkiyə sultanı Avropa dövlətlərinin şərtlərini qəbul etmədən öz tabeçiliklərində olan ərazilərə Konstitusiya hüququ verdi. Beynəlxalq münasibətlər yenidən gərginləşdi. Rusiya Türkiyə ilə müharibənin qaçılmaz olduğunu görüb Avstriya - Macarıstanla danışıqları təzələmişdir. Avstriya - Macarıstan neytral qalacağını bildirmişdir.

## **XIII** Fəsil.
## RUSİYA -TÜRKİYƏ MÜHARİBƏSİ (1877-1878) VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

Türkiyə London konfransının təkliflərini rədd etdikdən sonra Rusiya hərbi səfərbərliyə başlamış və 1877-ci il aprel ayının 24-də Türkiyəyə müharibə elan edilməsi barədə bəyanat vermişdir. Bu vaxt Avstriya - Macarıstan neytral vəziyyətdə idi. İngiltərə isə istəmirdi ki, Rusiya Misirə və Türkiyəyə hərbi təsir göstərsin və Konstantinopola daxil olsun. Xarici İşlər Naziri Qorçakov 1877-ci ilin may ayında Londonu da (müəj^ən şərtlərlə) neytral olmağa razı sala bilmişdir.

Rusiyanın tərəfində Rumıniya və Çernoqoriya da (partizan dəstələri) vuruşurdular. Rusiya guya sadəcə olaraq Balkan xalqlarına köməklik göstərməyi qarşısına məqsəd qoymuşdu.

*Rus - ingilis və İngiltərə Avstriya danışıqları.* Rusiya ilə Türkiyə arasında gedən müharibə çox ağır nəticələrə səbəb olurdu. Odur ki, çar hakimiyyəti müharibənin tez qurtarmasını arzulayırdı. İngiltərənin Baş naziri Dcrbi Rusiyanın Londondakı səfiri Şuvalova nota vermişdi ki, Rusiyanın Misiri işğal etməsi, Süveyş Kanalını blokadaya alması, Konstantinopola girməsi onları qane etmir. Qorçakov isə bildirirdi ki, əgər Türkiyə sülh danışığı istərsə də Rusiya Bessarabiyanın cənub - qərbini və Batumu tutmaqla kifayətlənə bilər.

İngiltərə Rusiyaya inanmırdı. Odur ki, Avstriya-Macarıstana Rusiyaya qarşı birgə vuruşmağı təklif edirdi. Avstriya- Macarıstan isə Rusiyaya qarşı vuruşmaqdan imtina etmişdi.

Hərbi hərəkat. İngiltərə-Avstriya danışıqları baş tutmadığına görə Rusiyanın Dunay ordusu irəliləyirdi. 1877-ci ilin iyul ayında Rusiya ordusu Şipkin keçidini, 1878-ci ilin yanvar ayında (bolqarlarla birlikdə) Sofiyanı, Plevni tutaraq cənub

**Sülh müqaviləsinin şərtləri.** Qorçakov bəyan edirdi ki, əgər rus ordusu Balkana keçənədək Türkiyə sülh istəyərsə şərtlər başqadır. Məğlub olan məqamda isə başqa şərtlər qoyulacaqdır. Beləliklə, birinci halda (həm də əgər Avropa dövlətləri arzu edərlərsə), Serbiya və Çernoqoriya öz ərazilərini müəyyən qədər genişləndirir, öz vassal muxtariyyətlərini saxlayır, Bolqarıstan ya vassal və yaxud inzibati muxtariyyat alır. Kritdə' Albaniya , Həbəşistan və Fessalidə barədə Konstantinopolun təklifi ilə referendum keçirilməsi nəzərdə tutulmuşdur.

İkinci halda isə daha radikal şərtlər qoyulmuşdur. Serbiya, Çernoqoriya və Bolqarıstana müstəqillik verilməsi təklif edilmişdir. Epir, Fessaliya və Krit isə Yunanıstana birləşdirilirdi. Hər iki halda Avstriya-Macanstamn da mənafeyi (neytral olduğu üçün) nəzərə alınmalı idi. Qorçakov Rusiyanın quruculuq planını Berlin və Vyanaya təqdim etmişdir. Peterburqun təklifi belə idi: Bolqarıstanda knyazlıq yaratmaq; Bosniya və Hersoqovinaya muxtariyyət verib idarəçiliyini Avstriyaya həvalə etmək; Serbiya, Çernoqoriya və Rumıniyaya müstəqillik vermək; Bessarabiycinın Cənubi-Qərbini Rusiyaya qaytarmaq; Dobrudu Rumıniyaya vermək; Karam, Batum, Ardaqan və Bayaziti Rusiyaya vermək; Qara dəniz ilə bağlı olan qaydaları dəyişmək. Sultanın razılığı ilə Rusiyamn gəmilərinin boğazlardan keçməsinə icazə vermək.

*İngiltərənin mövqeyi* Hətta müvəqqəti olsa da Rusiyanın Konstantinopolu tutmasına London qəti razı deyildi. Odur ki, hər bir yolla Avstriyanı Rusiyaya qarşı qoymağa çalışırdı. İngilis flotu Dardanelə girməyə hazır idi. Lakin hələ ki. Sultan buna razılıq vermirdi. Buna baxmayaraq, bir müddət sonra 1877-ci ilin dekabrında Türkiyə İngiltərənin müharibəyə qoşulmasını xahiş etdi. Bu vaxt Qorçakov bildirmişdir ki, əgər Türkiyə müharibənin qurtarmasını istəyirsə, onda müəyyən şərtlər əsasında Rusiyanın baş komandanlığına müraciət etməlidir.

**' Krit-Aral dənizində ada. Yunanıstan, tərkibi**

*Müharibdnin son marhalasL Adrianopol' sülh müqaviləsi* 1878-ci il yanvar ayının 8-də Porta Rusiyaya barışıq üçün müraciət etmişdir. Danışıqların başlamasına baxmayaraq, Rusiya ordusu Konstantinopola tərəf hərəkətini dayandırmamışdı. London və Vyana təklif edirdilər ki, Rusiya-Türkiyə sülh danışıqları və qoyulan şərtlər beynəlxalq konfransda müzakirə olunsun. 1878-ci il yanvar ayının 31-də müəyyən banşıq imzalansa da rus ordusu yeni ərazilər ələ keçirirdi. Həmin ilin fevral ayının 15-də yenə ingilis flotu Sultandan icazə almadan Dardanel boğazından keçməli olmuşdu. İngiltərə və Avstriya-Macarıstan Peterburqa xəbərdarlıq etmişdilər ki, əgər rus ordusu Konstantinopola daxil olarsa, biz öz səfirliyimizi geri çağırmalı olacağıq. Rusiya yeni münaqişəyə yol veımərnək üçün döyüşü dayandırdı. 1878-ci il mart ayının 3-də San- Stefanda sülh müqaviləsi imzalandı.

*San - Stefan sülhü.* Sülh bağlanmazdan əvvəl ardıcıl olaraq bir çox diplomatik danışıqlar aparılmışdır. Danışıqlar çox gərgin keçirdi. Bolqar knyazlığı ərazisi ətrafında aparılan danışıqlar daha gərgin xarakter alırdı. San-Stefan sülh müqaviləsinə əsasən Çernoqoriya və Rumıniyanın müstəqilliyi qəti olaraq tanınmalı idi. Sülh danışıqlarına əsasən Bolqariya knyazı xalq tərəfindən sərbəst seçilir. Makedoniya Bolqarıstanın tərkibinə daxil olaraq vassal statusu alır. 50 mindən artıq rus ordusu 2 il müddətinə Bolqarıstanda qalmalı olur. Rusiya bir çox ərazilərə sahib olur. Beləliklə, Rusiya Slavyan xalqlarının Türkiyə əsarətindən azad olmasında böyük rol oynamalı olur. Beləliklə, Rusiya-Türkiyə müharibəsi Şərq böhranına yekun vurmuş olmuşdur. San-Stefan müqaviləsi Balkan yarımadasının siyasi xəritəsində ciddi dəyişikliklər əmələ gətirə bilmişdir.

*San-Stefan müqaviləsinin bəzi bəndlərinin dəyişdirilməsi* Qeyd etməliyik ki, müqavilənin bir çox bəndləri İngiltərə ilə Avstriyanın mənafeyinə zidd idi. Bolqarıstanın yeni

**Adrianopol - yunanca Edime**

sərhədləri demək olar ki, Konstantinopoladək gedib çıxırdı. Sultan da, İngiltərə də bununla razılaşmırdı. Avstriya-Macarıstan isə istəmirdi ki, Balkan xalqları üzərində Sla\'yanların təsiri artsın.

Belə bir qarışıq vəziyyətdə 1878-ci il iyun ayının 4-də Türkiyə ilə İngiltərə arasında **Kipr** müqaviləsi imzalanırdı;. Müqavilədə göstərilirdi ki, əgər Rusiya Batum, Ərdahan, Kars və digər əraziləri tutarsa, onda Sultanın razılığı ilə Kipr İngiltərə tərəfindən işğal olunaraq onun idarəçiliyinə verilsin. Beləliklə, İngiltərə də San-Stefan müqaviləsinin bəzi maddələrinin dəyişilməsinə çalışırdı. Odur ki, 1878-ci il may ayının 30-da Rusiya ilə İngiltərə arasında müqavilədə dəyişiklik edilməsinə dair razılıq imzalanmışdır.

Müqavilədə deyilirdi ki, İngiltərə Bolqarıstanın yeni sərhədlərini rədd edir, Rusiya öz baxışlarında qalmaq hüququna malikdir, Bolqarıstanın sərhəddi Egey dənizindən ayrılır. San-Stefan müqaviləsində aparılan dəyişikliklər Berlində keçiriləcək Konqresin qərarlarının hazırlanması üçün əsas olmalıdır. £501! zamanda Avstriya-Macanstan, İngiltərə və Almaniya Rusiya-Türkiyə sülh müqaviləsi barədə də konqres çağırılmasını təklif edirdilər.

Nəhayət, 1878-ci il iyun ayımn 14-də Berlində konqres öz işinə başlamışdı. Konqresdə iştirak edirdilər: Rusiyadan-Qorçakov, Almaniyadan - Bismark, İngiltərədən -Bikonsfild (Dizrasli); Avstriya - Macanstandan - Andraşi, Fransadan - Vaddinqton, İtaliyadan -Korti, Türkiyədən - Karateodoripaşa; Balkan dövlətlərinin nümayəndələri isə məşvərətçi kimi dəvət edilmişdilər.

Hər halda İngiltərə və Avstriya Rusiyanın ələ keçirdiyi bəzi ərazilərin onun əlindən çıxmasına nail ola bilmişdilər. Kipr İngiltərənin əlinə keçmişdi. Bosniya və Herseqovinanın idarəçiliyi isə Avstriyaya həvalə edilmişdi. Əslində, Berlin konqresi Türkiyənin sahib olduğu ərazilərin bölüşdürülməsinə yönəldilmişdir. Berlin konqresinin əhəmiyyəti ondan ibarət

olmuşdur ki, Balkan dövlətləri müstəqillik almış, Bolqanstan isə siyasi muxtariyyat əldə edə bilmişdir.

## XIX əsrin son illərində Rusiyanin xarici siyasəti

XIX əsrin axırlarında dünyamn bütün ictimai həyatında ümumi gərginlik yaşanırdı. Rusiya Rus-Türk müharibəsində qalib gəlsə də, onun beynəlxalq nüfuzu o qədər də artmamışdır. Yenidən Rusiya ilə İngiltərə arasında olan münasibət kəskinləşmişdi. İngiltərə bütün Şərqə - Türkmənistan, Balkan, İran, Əfqanıstan, Çin və s. ərazilərə qarşı tamam başqa siyasət aparırdı.

*Rusiya-Almaniya münasibətlərinin gərginləşməsi.* Berlin Konqresindən (1878) sonra qüvvələr nisbətində müəyyən dəyişikliklər baş vermişdir. Rusiya-Almaniya münasibətləri pisləşmişdir. Almaniya ilə Avstriya -Macarıstan arasında isə müəyyən yaxınlaşma baş vermişdir. Rusiyada Slavyan- Fin təbəqələri Rusiya diplomatiyasından o qədər də razı deyildilər. Onlar San-Stefan (3 mart 1878) sülh müqaviləsinin bəzi maddələrinin həyata keçirilməsindən narazı idilər. İki dövlət arasında olan iqtisadi ziddiyyətlər də bu münasibətlərə təsir edirdi. Yerli fermerlərin tələbi ilə 1879-cu ildə Rusiyadan iri buynuzlu mal-qara və az sonra taxıl alınmasım dayandırmışlar. Bu isə Rusiya - Almaniya münasibətlərinə təsir etməyə bilməzdi. Bu məqsədlə I Vilhelmlə II Aleksandr görüşməli olmuşlar. Lakin Almaniyanın xarici işlər naziri Bismark bu danışıqları Vyanada davam etdirməyi qərara almışdır. 1879- cü ildə Rusiyanın Berlindəki səfiri P.A.Saburov ilə Bismark arasında Balkeın ölkələri barədə geniş müzakirələr aparılmışdır. Onlar Balkan ölkələrinə qarşı vahid siyasət yeritmək arzusunda idilər. Bu məqsədlə Avstriyanın Balkan ölkələrinə olan təsirinin artmasına və İngiltərənin boğazlara girməsinə imkan verməmək barədə birgə qərara gəlmişlər. Bu danışıqlara

baxmayaraq, Bismark Avstriya ilə müttəfiqlik barədə müqavilə bağlamağa da hazırlaşırdı.

*Almaniya ilə Avstriya arasında Rusiya əleyhinə müqavilə.* 1879-cu ildə oktyabr ayının 7-də Almaniya ilə Avstriya arasında müttəfiqlik və birgə müdafiə barədə müqavilə imzalanmışdır. Bismark çox istəyirdi ki, bu iki ölkə arasında olan müttəfiqlik ancaq Rusiya ilə Fransa əleyhinə yönəldilsin (Ancaq Avstriya kansleri Andraşi Rusiyaya qarşı ittifaqın əleyhinə idi).

Müqaviləyə görə, hər iki dövlət bir-birinə kömək etməli idi. Müqavilə müddəti 5 il nəzərdə tutulurdu. Bu müqavilə sülh xarakteri daşısa da, əslində Rusiyaya qarşı yönəldilmiş bir hərəkət idi. Bu müqavilə XIX əsrin axırları - XX əsrin əvvəllərində bağlanan ilk müqavilələrdən biri idi. Bismark belə hesab edirdi ki, Avstriya ilə olan müqavilə Rusiya ilə olan münasibətlərə o qədər də təsir etməməlidir. Çünki, o vaxt Rusiya orduda islahat aparırdı və İngiltərə ilə olan ziddiyyətlər də onu Almaniyaya yaxınlaşmağa vadar edirdi. Daha doğrusu, o çarəsiz idi.

*Rusiyanın xarici siyasi kursunun dəyişilməsi* . 1881-ci ilin mart ayında imperator II Aleksandr vəfat etmişdir. Onun yerinə II Aleksandr keçmişdir. Həmin vaxt (1879-cu ildə) xarici işlər naziri A.M. Qorçakovun 81 yaşı vardı. Formal olaraq nazir qalsa da, real olaraq onun müavini N.K. Qirs işi aparırdı. Nəhayət, 1882-ci il aprel ayının 8-də Qirs Rusiyanın xarici işlər naziri təyin edilmişdir. Qirs milliyyətcə İsveç idi, Pribaltikanın kasıblaşmış zadəganlarından idi. 1850-1875-ci illərdə xarici işlər nazirliyi sistemində işləmişdir. Qorçakovdan fərqli olaraq, onun əsas xarici siyasi meyli, diplomatiyası Vyana və Berlin istiqamətinə yönəldilmişdi. Onun nə o qədər nüfuzu və nə də o qədər dəstək verəni yox idi. O, çarın hər bir göstərişinə sözsüz əməl edirdi. Həmin illərdə xarici siyasətin formalaşmasına müdafiə naziri D.A Milyutin köməklik göstərirdi. Almaniya ilə münasibətlərin normallaşdırılması üçün

Saburov Berlinə səfir göndərilmişdir. Saburov göstərirdi ki, Avstriyasız Almaniya ilə münasibətləri yaxşılaşdırmaq qeyri mümkündür.

1880-1885-ci illərdə İngiltərədə hakimiyyətə yeni rəhbərliyin - U.Qladsonun gəlməsi ilə Rusiya ilə münasibətlər az-çox yaxşılaşmışdı. Berlin konqresinin şərtlərinin (xüsusilə Çernoqoriya və Yunanıstanla bağlı) yerinə yetirilməsinə təkid edirdilər. Avstriyanın Balkana qarışmaq cəhdi Qirs ilə Mil- yutini daha çox narahat edirdi. 1880-1890-cı illərdə İngiltərə ilə Rusiya Türkiyə sultamna hədə-qorxu gələrək Yunanıstanla- Çernoqoriya barədə Berlin konqresinin şərtlərinin yerinə yetirilməsini tələb edirdilər.

İngiltərə-Rusiya münasibətlərinin yaxşılaşması Avstriya və Prussiyanı da Rusiyaya yaxınlaşmağa vadar edirdi. Avstriya başa düşürdü ki, İngiltərənin hər hansı bir dəstəyinə bel bağlamaq olmaz. Odur ki, Avstriya - Macanstan Avstriya, Rusiya və Almaniya İttifaqının bərpa edilməsi ilə razılaşırdı. Bu üç dövlət arasında 1881-ci il iyun ayının 18-də müqavilə bağlanmışdı. Bu müqavilə tarixdə **üç imperatorun ittifaqı** və **yaxud 1873-cü il** Beynəlxalq məsləhətləşmə sazişi kimi məlumdur. Əslində, bu ittifaq deyildi. Müharibə şəraitində neytrallıq barədə öhdəçilik idi, yəni bu sazişi neytrallıq haqqında siiziş də adlandırmaq olardı. Bu müqavilə ilə Rusiya Fransa ilə olan münasibətləri pisləşdirirdi. Bu isə Almaniyaya sərf edirdi.

*İngiltərə və Fransanın müstəmləkə siyasəti* XIX əsrin axırlannda bəzi böyük dövlətlərdə müstəmləkə ərazisi tutmaq arzusu artmışdır. İngiltərə ərəb şərqində öz mövqelərini möhkəmlətmək üçün 1875-ci ildə Süveyş kanalı üzrə səhmlərin nəzarət paketini öz əlinə keçirmişdir. Türkiyə sultanına pulla yardım edərək onu Rusiya ilə münaqişəyə girişməyə təhrik edirdi.

1878-ci ildə ingilislər Əfqanıstana qarşı müharibə aparırdı. Beləliklə Cənub-Şərqi Asiyada öz mövqelərini möhkəmləndirirdi. Türkiyənin maliyyə və iqtisadi çətinliklərindən isti

fadə edən İngiltərə onu daha çox sıxışdınrdı. Eyni ilə Misiri də özündən asılı vəziyyətə salmağa çalışırdı.

1870-ci illərə qədər Fransa kapitalı Misirdə daha geniş mövqedə idi. Odur ki, Misirə sahib olmaq üçün İngiltərə Fransa ilə mübarizə aparmalı olurdu. Beləliklə, Fransanı Misir ərazisindən uzaqlaşdırmışdı. Müflisləşmiş Misir Fransadan maliyyə köməkliyi istəməyə məcbur idi. Beləliklə, Misir İngiltərə ilə Fransanın maliyyə təsiri altına düşmüşdür.

Müstəmləkəçi ölkələr yavaş-yavaş Afrikanın dərinliyinə girirdilər. 1881-ci ildə Fransa Tunisi zəbt etmiş və Aralıq dənizində öz hökmranlığını möhkəmlətmişdir. Müstəmləkəçilik siyasəti artdıqca ayrı-ayrı dövlətlərin bir-birinə yaxınlaşması meyli də yüksəlirdi, onlar öz təhlükəsizliyini qorumaq üçün ittifaqa girirdilər.

*Üçlər İttifaqı.* Yuxarıdakı fəsillərdə də qeyd etdiklərimizdən aydın görünür ki, ayn-ayrı dövlətlər arasında nə qədər müqavilələr bağlansa da yenə də müəyyən təhlükələr yaranırdı.Avstriya Qərbdə Rusiya ilə müharibə qorxusundan özünün təhlükəsizliyini təmin etmək üçün İtaliya ilə yaxınlaşmağa səy göstərirdi. Çox uzun danışıqlardan sonra 1882-ci ilin may ayında Avstriya - Macanstan, Almaniya və İtalij'a İttifaq müqaviləsi imzalamışlar. Bu müqavilə Üçlər İttifaqı adlanır. **Faktiki olaraq, Almaniya , Avstriya və İtaliya arasında yaradılan hərbi-siyasi blok Birinci Dünya müharibəsinin başlanğıcına ilk addım idi.**

*Avropa və XIX əsrin sonu.* XIX əsrin axırlarında Avropada hərbi siyasi bloklar və ittifaqlar yaranması daha çox xarakterik idi. Bu isə siyasi qüvvələrin nisbətinə təsir göstərirdi. 1880-ci illərin axırlanna Balkanda vəziyyət kəskinləşirdi. Bolqarıstanda üsyan başlanmışdı. Balkan məsələsinə görə, Avstriya ilə Rusiya arasında qarşıdurma güclənirdi. Bolqarıstan Türkiyə əsarətindən azad olandan sonra Avstriya-Macarıstanın iqtisadi və maliyyə asılılığına düşmüşdür. Şərq rayonları üstündə İngiltərə, Almaniya və Rusiya arasında mübarizə daha

da genişlənirdi. Fransa Avropadakı vəziyyəti reallıqla qiymətləndirərək özünün şərq sərhədlərini möhkəmləndirir və Rusiyaya daha diqqətlə yanaşırdı.

Fransanın niyyətlərini başa düşən Bismark da Rusiya imperatoru ilə münasibətləri yaxşılaşdırmağa səyləri artınrdı. Öz növbəsində Rusiyada da Almaniya ilə yaxınlaşmağa səy göstərən qüvvələr az deyildi. 1880-ci illərin axırlarında (1870- 1871-ci illərdə Fransa-Prussiya müharibəsi ərəfəsində olduğu kimi) Bismark səfirlər vasitəsi ilə inandırmağa çalışırdı ki, Almaniya Fransa ilə müharibə etmək fikrində deyil.

*Rusiya-Almaniya müqaviləsi.* Bismarkm səyi nəticəsində Rusiyanın səfiri Şuvalovla danışıqlar aparılmış və Almaniya ilə Rusiya arasında ikitərəfli müqavilə bağlanmışdır. Müqavilə 1887-ci il iyun ayının 18-də imzalanmışdır. Müqavilənin şərtlərinə əsasən, üçüncü bir ölkə bu tərəflərin hər hansı biri ilə müharibə etmiş olarsa, belə halda o, səmimiyyətlə neytral olmalı və münaqişənin aradan qaldınimasma köməklik göstərməli idi. Lakin bu şərtlər Avstriya və Fransa əleyhinə yarana biləcək müharibəyə aid edilmirdi. Deməli, Fransa ilə Almaniya arasında müharibə olarsa, Rusiya ona qarışa bilməzdi. Rusiya ilə Avstriya arasında yaranan münaqişəyə isə Almaniya qarışa bilməz. Tarixdə bu müqavilə **«Özünü sığortalama»** müqaviləsi kimi məlumdur. Bu müqavilədə Almaniya və Rusiyanın hər ikisi hər hansı bir ərazi dəyişikliyinə yol verilməməsi barədə öhdəçilik də götürm.üşlər.

Müqaviləyə əsasən, Almaniya Rusiyanın Balkan üzərindəki hüquqlarını da tanımışdır. Eləcə də Rusiyanın Bolqarıstan üzərindəki hüquqlarının bərpa edilməsinə də yardım göstərməli olmuşdur.

*Rusiya-Almaniya münasibətlərinin kəskinləşməsi.* Maraqlıdır ki, çox hallarda bu müqavilələr o qədər də səmimi olmurdu. Rusiya-Almaniya arasında bağlanan müqavilədən az keçməmiş bu ölkələr arasındakı münasibətlər pisləşməyə başlamışdır. Bunun ilk səbəbi Balkan ölkələri ilə bağlı idi.

Bolqarıstan üzərində təsir dairəsinə görə Rusiya ilə Avstriya-Macarıstan arasında mübarizə gedirdi. Avstriya sərhədlərindən Rusiya ordusunun ləng çıxarılması onu narahat edirdi. 1887-ci ilin payızında III Aleksandra məlum olmuşdur ki, Bismark bu məsələdə Avstriya - Macarıstana köməklik etməklə yanaşı, Bolqar knyazını da dəstəkləmişdir. Belə olduqda aydındır ki, Rusiyanın Fransaya qarşı meyli yüksəlmişdir. Bu isə Almaniyaya sərf etmirdi. Beləliklə, Bismarkm səhvi üzündən Rusiya ilə Fransa arasında müəyyən yaxınlaşma yaranmışdı. Belə olduqda Bismark İngiltərə ilə İttifaqa girməyi qərara almışdır.

İngiltərə isə onun təklifini rədd etmişdir. Bismark 28 il Prussiya və Almaniyada hökumət başçısı olmuşdur. Bu illərdə Bismark ilə imperator II Vilhelm və yeni müdafiə naziri arasında ciddi fikir müxtəlifliyi də olmuşdur. Burada ən əsas fikir müxtəlifliyi Almaniya ilə Rusiya arasındakı münasibətlərə dair idi. Nəhayət, 1890-cı ildə Bismark istefaya getmişdir. Bismark Rusiyaya qarşı neqativ münasibətdə olsa da, onunla müharibəyə girişməyin tərəfdarı deyildi. Yeni rəhbərlik isə əksinə, Rusiya ilə müharibədən o qədər də çəkinmirdi.

Hər halda Bismark Almaniyanın birləşdirilməsində də çox iş görmüş oldu. O, istər daxili və istərsə də beynəlxalq siyasət məsələlərində çox çevik, hiyləgər bir siyasətçi idi.

*Fransa - Rusiya İttifaqı.* Avropada tarixi hadisələrin obyektiv inkişafı XIX əsrin axırlarında Fransa ilə Rusiya arasında ittifaq yaranmasına səbəb olmuşdur. Bu müqavilə Rusiyaya nisbətən Fransa üçün daha çox əhəmiyyət kəsb edirdi. Odur ki, ilk təşəbbüs Fransa tərəfdən olmuşdur. 1891-ci ilin yayında Fransa nümayəndələri Kronştata gələrək diplomatik danışıqlar aparmağa başlamışlar.

Fransa-Rusiya münasibətlərinə maneçilik etmək üçün Almaniya gömrük müharibəsinə başlamışdır. Rusiyaya qarşı gömrük dərəcələrini artırmış və ölkədə silahlı qüvvələrin gücləndirilməsi barədə qanun qəbul etmişdir. 1882-ci ildə bağlanmış «Üçlər İttifaqı»nm müddəti 1891-ci ildə yenidən üçüncü

dəfə uzadılmışdır. Odur ki, bu İttifaqın üzvləri İngiltərəyə qarşı xoş münasibətdə olduqlarını bildirmiş və Fransa da Rusiyaya olan münasibətini yaxşılaşdırmışdır.

Müqavilə barədə 2 il danışıqlar davam etmişdir. Həmin müddətdə Rusiya ilə Fransa arasında yaxınlaşma da genişlənirdi. Beləliklə, bu iki ölkə arasında olan ittifaq 1891-ci ilin avqustundan 1893-cü ilin dekabrınadək sənədləşdirilmişdir. Hər iki ölkə 1892-ci ilin avqust ayında hərbi müqavilə də bağlamışlar. Müqavilədə deyilirdi ki, Almaniya və İtaliya Fransaya hücum edərsə, Rusiya ona hərtərəfli köməklik etməlidir. Əgər Rusiya Almaniya və Avstriyanın hücumuna məruz qalarsa, belə şəraitdə Fransa bütün gücü ilə Almaniyaya təzyiq göstərməlidir. Eləcə də qeyd edilmişdir ki, təcili olaraq «Üçlər İttifaqı»nın ordusu səfərbərliyə alınsın. Müqavilənin üçüncü bəndinə əsasən, Fransanın 1,3 mln. nəfərlik, Rusiyanın isə 800 min nəfərlik ordusu hərəkətə gətirilməli idi. Beləliklə, bu İttifaqın razılaşmaları 1891, 1892 və 1893-cü illərdə tam məxfi olmuşdur.

Nəticədə, Almaniya, Avstriya və İtaliya «Üçlər İttifaqı»na qarşı - İngiltərə, Fransa və Rusiyadan ibarət yeni koalisiya - «Üçlər İttifaqı» yaranmışdı.

# XIV Fəsil.
# XIX VƏ XX ƏSRLƏR ƏRƏFƏSİNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

XIX əsrin son illəri və XX əsrin əvvəlləri zəruri hadisələrlə daha zəngin olmuşdur. Beynəlxalq münasibətlərdə daha çox gərginlik yaşanırdı. İmperializm dünyası yaranmışdı. Bu isə böyük dövlətlərin xarici siyasi fəaliyyətlərinin xarakterində öz əksini tapırdı. Bu dövlətlər arasında dünyanın yenidən bölüşdürülməsi uğrunda mübarizə gedirdi. Böyük dövlətlər müstəmləkəçiliyin yeni fazasına qədəm qoymuşlar.

İlk çəkişmə də Kuba üstündə gedən İspaniya-Amerika müharibəsi olmuşdur.

*Latın Amerikasında ABŞ-ın siyasəti.* XIX əsrin son illərində ABŞ iqtisadiyyatı sürətlə inkişaf etdirilirdi. 1877-ci illərdən sonra burada daha fəal xarici siyasət həyata keçirilirdi. 1888-ci illərdən müxtəlif istiqamətlərdə xarici siyasət nəzəriyyələri yaranırdı. **Ternerin*** «hərəkətdə olan sərhəd» nəzəriyyəsi, Mexenin **«dəniz gücü»** doktrinası və s. Bütün bunlar ABŞ-ın beynəlxalq münasibətlərə qanşmasma zərurət yaradırdı və ABŞ-ın təcavüzkar siyasətinə bəraət qazandırmağa xidmət edirdi. Bununla da ABŞ-ın xarici siyasəti barədə ictimai rəy formalaşırdı. Latın Amerikası kontinenti də belə beynəlxalq hadisələrin mərkəzlərindən biri idi. 1889-cu ildə ABŞ-ın təşəbbüsü ilə ilk dəfə olaraq Panamerika konqresi çağırılmışdır. Dominikan Respublikasından başqa Latın Amerikasının bütün ölkələri bu konqresdə iştirak etmişlər. 18 dövləti özündə birləşdirən Pan Amerika ittifaqı yaradılmışdır. Bununla da ABŞ bu ölkələrlə ticarət əlaqələrinin artırılmasına, sənaye müəssisələrinin inkişafına, kapitalın hərəkətinə nail ola bilirdi. Həmin dövrdə Venesuela ilə Britaniya Qvineyası arasındakı sərhəd üstündə İngiltərə ilə Venesuelanm diplomatik əlaqələri pozulmuşdur. Venesuela vasitəçilik üçün ABŞ-a müraciət etmişdir.

**' Temer Fredrik Cekson (1861-1932) Amerika tarixçisi**

Bu məsələdə ABŞ prezidenti Klivesid Stiven Qrover (1837- 1908) və dövlət katibi Olin ABŞ-ın qəti mövqeyini bildirmiş və Amerika qitəsində ABŞ-ın hakim rolunu qeyd etmişlər.

XIX əsrin son onilliklərində ABŞ Sakit okeanda və Atlantik okeanında da fəal siyasət apannağa başlamışdır. 1893-cü ildə ABŞ Havay adalarım zəbt etmişdir. 1895-ci ildə Kubada İspaniya əleyhinə üsyan başlamışdır. Beləliklə, ABŞ-ın köməkliyi ilə 1898-ci ildə İspaniya Kubadan qovulmuşdur. 1898- ci il dekabr ayının 10-da Parisdə İspaniya ilə ABŞ arasında sülh müqaviləsi imzalanmışdır. Kuba ABŞ-ın protektoratına çevrilmiş Puerto - Riko və Filippin ABŞ-a daxil olmuşlar, Dünyanın bölüşdürülməsi üstündəki ilk akt belə başa çatmışdır.

*Avropada qarşıdurma.* Həmin illərdə qabaqcıl ölkələr arasında iqtisadi və hərbi üstünlüklər uğrunda kəskin mübarizə gedirdi. Beynəlxalq münasibətlərin bütün istiqamətlərində gərginlik yaşanırdı. İngiltərə və Almaniya arasında, Almaniya ilə Fransa və Rusiya arasındakı ziddiyyətlər daha da kəskinləşmişdir. Fransa Elzas və Lotaringiyanı özünə qaytarmağa çalışırdı.

İngiltərə kifayət qədər müstəmləkə və protektorat ərazisinə malik olduğu üçün yeni ərazilər arzusunda deyildi. Almaniya isə əksinə, yeni ərazilər ələ keçirməyə çalışırdı.

*Uzaq Şərqdəki vəziyyat.* Avropada olduğu kimi, digər ərazilər də ziddiyyətlərdən azad deyildi. Belə ki, ziddiyyətlərin bir düyünü də Uzaq Şərqdə mövcud idi. Koreya, Tayvan və Çinin (Mançjuriya) ərazisi Yaponiyanı çox maraqlandırırdı. Bu mənada Yaponiya çox fəallıq göstərərək Çinə qalib gəlmişdir. 1894-cü ildə Tayvan və Lyaodun yarımadası da Yaponiyanın əlinə keçmişdi. Bundan əlavə, sülh müqaviləsinə əsasən, Çinin üzərinə kifayət qədər hərbi cərimə də qoyulmuşdur.

Yaponiyanın bu cür tezliklə beynəlxalq aləmə çıxması Rusiya, İngiltərə, Fransa, Almaniya və digər dövlətləri narahat etməyə bilməzdi. Çünki bu dövlətlərin də Uzaq Şərqdə öz maraqları vardı. Nəticədə, Avropa dövlətlərinin diplomatik

səyləri və diplomatik təsiri nəticəsində Lyaodun yarımadası Çinə qaytarılmışdır. Çinin Sinqao limanı Almaniyaya, Port~ Artur limanı isə Rusiyaya veilmişdir. Bununla yanaşı, Rusiya Lyaodun yarımadasını və Şərqi dəmir yolunun istifadəyə verilməsini icarəyə götürmüşdü.

ABŞ da Avropa dövlətlərindən kənarda qalmaq istəmirdi. Odur ki 1899-cu ilin payızında ABŞ hökuməti Çində **«açıq qapı»** tətbiq etmək prinsipi irəli sürmüşdür. Bu təklif beynəlxalq münasibətlər tarixində C.M.Xey doktrinası kimi məlumdur. C.M.Xey Amerikanın tanınmış siyasətçilərindən biri olmuşdur. 1898-1905-ci illərdə dövlət katibi işləmişdir. ABŞ-m Avropa dövlətləri ilə olan münasibətlərində onun böyük rolu olmuşdur. Latın Amerikasında müxalifətin güclü təsirinə baxmayaraq, o, 1903-cü ildə Panama Kanalının çəkilməsi barədə Panama ilə müqavilə bağlanmasına nail olmuşdur.

M.Xey qabaqcıl dövlətlərə xüsusi nota göndərmişdi. O, tələb edirdi ki, ayrı - ayrı dövlətlər müqavilə vəziyyətində olan ərazilərin və dövlətlərin hüququna toxunmamaq barədə öhdəçilik götürsünlər. 1902-ci ildə bütün Avropa dövlətləri Xeyin bu təklifini qəbul etdiklərini bildirmişlər. Bu məsələ üzrə ancaq Rusiya özü bəzi təkliflər vermiş və xüsusi mövqe tutmuşdur. Odur ki, Uzaq Şərq məsələsi üzrə Rusiyaya qarşı ABŞ, İngiltərə və Yaponiya arasında müəyyən yaxınlaşma, söz birliyi yaranmışdır.

*İngiltərə ilə Almaniya arasında olan ziddiyyət.* XIX əsrin son illərində İngiltərə müxtəlif regionlarda öz təsir dairəsini genişləndirmək siyasəti yeritməklə Almaniya ilə mübarizə aparmış, öz iqtisadi və hərbi gücünü artırmış və öz müstəmləkəçilik imperiyasını genişləndirmişdir. Almaniyanın dənizçilik naziri (1897-1916-cı illər) admiral A.Fon Tripis öz xatirələrində yazırdı ki, Almaniyanın kansleri Bismark çoxdan etiraf edirdi ki, ingilis xalqı da başa düşür ki, Avropada iki böyük, bir-birinə qarşı duran barışmaz qüvvə, iki böyük millət - İngiltərə və Almaniya mövcuddur. Samoa adası üstündə də

İngiltərə ilə Almaniya arasında çox kəskin münaqişə baş vermişdir. Nəhayət, İngiltərə güzəştə getmişdir (1899-cu il müqaviləsinə əsasən).

ABŞ da arxipelaqdan iki ada ələ keçirmişdi. İngiltərə ilə Almaniya arasında müqavilə bağlanmasına baxmayaraq, onla- nn arasmdakı münasibət yaxşılaşmamışdır. Afrikada İngiltərənin çətinliyə düşməsi yalnız Almaniya və ABŞ üçün deyil (Samoa adasmı ələ keçirməklə), Rusiya üçün də sərfəli olmuşdur. Orta Asiyada Rusiyanın mövqeyi möhkəmlənmiş, Əfqanıstan və İran ilə münasibətləri yaxşılaşmışdır.

*İngiltsrə - Amerika münasibətləri.* Avropadakı mürəkkəb vəziyyətin olduğunu nəzərə alan London həm də uzaq Şərqdəki mövqeyini saxlamaq üçün ABŞ ilə münasibətləri yaxşılaşdırmağa çalışırdı. Onu da nəzərə almaq lazımdır ki, İspaniya ilə ABŞ arasında gedən müharibə zamanı İngiltərə çox xeyirxahlıq göstərərək neytral olmuşdur. Eləcə də Britaniya Qvianası ilə Venesuela arasında sərhəd münaqişəsi zamanı ABŞ bu işə qarışdıqda İngiltərə güzəştə getmişdir. Aydındır ki, bütün bu münasibətlərin yaxşılaşmasına baxmayaraq, ABŞ öz siyasətini yeritməyə çalışırdı. 1903-cü ildə Panama Kanalımn çəkilişinə dair müqaviləyə əsasən, bütün gəmilərin sərbəst sürətdə buradan keçməsinə təminat verməyi öhdəsinə götürmüşdür. Bununla yanaşı, ABŞ hərbi mühafizə saxlamaq hüququ da almışdı. 1903-cü ildə 6 mil (dəniz mili =1852 m) enliyində olan Panama Kanalı boğazını 99 illiyə icarəyə götürmüşlər.

*Hərbi - siyasi blok yaradılması.* Qeyd etdiyimiz iki yüz illik bir dövrdə bir tərəfdən ayrı-ayn ölkələrdə kəskin parçalanma, digər tərəfdən isə müəyyən bloklar və ittifaqlar yaradılması müşahidə olunur. Bütün bunlar da beynəlxalq münasibətlərin xarakterində öz əksini tapmışdır. 1879-cu ilin oktyabr ayında Avstriya ilə Almaniya arasında olan müqavilə bu prosesin başlanğıcını qoymuşdur. İki - üç ildən sonra Almaniya, Avstriya-Macarıstan və İtaliya arasında yaranan müt

təfiqlik müqaviləsi - **«üçlük ittifaqı» reallığa** çevrilmişdir. Tədricən İngiltərə, **Fransa və Rusiya bloku (Antanta)** yaranmışdır. Bu Antanta İttifaqı Birinci Dünya müharibəsi dövründə tam formalaşmışdı.

Qeyd etməliyik ki, Antanta İttifaqının yaranması öz başlanğıcım **1893-cü ildə** Fransa-Rusiya İttifaqımn yaranmasından götürmüşdür. Bu İttifaqın yaranması da Avropada Almaniyanın mövqeyinin güclənməsi qorxusundan irəli gəlmişdir.

*Sülh konfransları.* XIX əsrin son illərində silahlanmanın genişlənməsi və yeni silah növlərinin meydana gəlməsi mütərəqqi təbəqələri düşündürməyə bilməzdi. Odur ki, silahlanmanın məhdudlaşdırılması barədə beynəlxalq konfrans çağ- rılması ideyası yaranmışdır. Tarixdə bu ilk belə bir konfransın çağrılması təşəbbüsü Rusiya tərəfindən irəli atılmışdır.

**Konfrans 1899-cu** ilin may-iyun aylannda Haaqada keçirilmişdir. Konfransda 27 dövlətin nümayəndəsi iştirak etmişdir. Konfrans o qədər də praktiki nəticə verməmişdir. Çünki böyük dövlətlər silahlanmanın məhdudlaşdırılması ilə razılaşmamışlar. Odur ki, müharibə qorxusu aradan qaldırılmamışdır.

Hər halda üç razılıq əldə edilmişdir:

- Beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi;
- Quru ərazilərdə müharibənin qaydaları və adətləri;
- Dəniz müharibələrində Cenevrə müqaviləsinin şərtlərinə (yaralılar və xəstələr barədə) riayət edilməsi.

Bundan əlavə, hərbi yürüşlərin məhdudlaşdırılmasma dair **üç bəyannamə** də qəbul edilmişdir. Beynəlxalq çəkişmələrin sülh yolu ilə həll edilməsi barədəki beynəlxalq saziş üç bölmədən ibarətdir:

- Ümumi sülhün saxlanılması;
- Xeyirxah xidmət və vasitəçilik;
- Beynəlxalq istintaq komissiyası.

1907-ci ildə (iyun ayında) Amerika prezidenti **T.Ruz-**

**fransı»** çağnlmışdır. Burada artıq 44 dövlət iştirak etmişdir. Bu konfrans 10 yeni beynəlxalq razılaşma qəbul etmişdir (əsasən, neytrallıq və dəniz m.üharibəsi hüququ barədə).

## Rusiya - Yaponiya müharibəsi və beynəlxalq münasibətlər

XX əsrin ilk illərində Uzaq Şərqdə yaranan vəziyyət bütövlükdə dünya miqyasında baş verən hadisə və proseslərdən heç nə ilə fərqlənmirdi. Bölüşdürülmüş dünyanın yenidən bölüşdürülməsi uğrunda gedən mübarizə, hərbi-siyasi blokların yaradılması bu dövrün xarakterik cəhətləri idi. Bütün bunların nəticəsi idi ki, dövlətlərarası qarşıdurmalar sürətlə güclənirdi. Dünya siyasətinin önündə ABŞ, Almaniya, Yaponiya, Çin, Türkiyə, İran dayanırdı. Afrika ölkələri isə onların siyasi təsiri və iqtisadi asılılığı altına düşmüşlər.

*Uzaq Şərqdə Yaponiya iqtisadiyyatının güclənməsi.* Yaponiya 1900-cu illərdə Koreyada və Çində xammal bazan uğrunda geniş kompaniya aparırdı. Yaponiya öz sənayesi üçün əlavə dəmir filizi və kömür bazası yaratmağa çalışırdı. O, hələ Rus-Yapon müharibəsindən çox-çox əvvəl belə Uzaq Şərqdə öz mövqeyini möhkəmlətməyə hazırlaşırdı.

Belə ki, hələ 1873-cü ildə ümumi hərbi çağırış həyata keçirilmişdir. 1894-1895-ci illərdə Çinlə müharibə aparmışdır. Yaponiya ordusu sayca çox, hazırlıqlı və nizam-intizamlı idi. 1895-ci ilin aprelində Simon şəhərində Yaponiya ilə Çin arasında sülh müqaviləsi bağlanmışdır. Müqaviləyə əsasən, Lyaodun yarımadası ilə birlikdə Mançj^oriya sahili Yaponiyaya verilmiş, Koreya isə Yaponiyanın protektoratma çevrilmişdir. Rusiya, Fransa və Almaniya Yaponiyanın bu cür işğalçılıq siyasətinə qarşı çıxmışlar. Nəticədə, Yaponiya Formoza və Peskador adaları ilə kifayətlənərək Lyaodun yarımadasından imtina etmişdir.

Yaponiyanın güclənməsi bu Ölkədə yavaş-yavaş işğalçılıq meyllərinin artmasına zəmin yaradırdı. Böyük Yaponiya ideyası təbliğ edilirdi. Bu ideya ilə Kuril adalarını, Saxalin, Kamçatka, Formoza, Mançjuriya adalarını, Koreya və Şərqi Sibirin böyük bir hissəsini Yaponiyanın tərkibində görürdülər. Yaponiyanın rəhbərliyi 1895-ci ildən artıq bu proqramın həyata keçirilməsi kursuna başlamışdır.

Yaponiya Çinə soxulmağı gücləndirirdi. İngiltərə, Almaniya, Fransa, ABŞ da ondan geri qalmaq istəmirdilər. Rusiya da öz növbəsində Uzaq Şərqə olan öz təsir dairəsini möhkəmləndirirdi. Sakit okeanda donmayan liman əldə etməyə çalışırdı. Sibir dəmir yolunun tikintisinə başlanmışdır. Rusiyanın Çinə təsiri möhkəmlənirdi. Dünyanın böyük dövlətləri tərəfindən Çinin bölüşdürülməsi geniş xalq kütləsinin narazılığına səbəb olmuşdur. XIX əsrin axırlarında bəzi şəhərlərdə çıxışlar başlaimıışdır. 1901-ci ilin yazında bu çıxışlar xalq üsyanına çevrilmişdir (Bu üsyan tarixdə «bokslaşma» adı kimi qalmışdır).

Pekindəki diplomatik nümayəndələr həbs edilmiş, Almaniya nümayəndəsi isə öldürülmüşdür. Uzun müddətli mübahisədən sonra İngiltərə, Fransa, Almaniya, Rusiya və Yaponiya razılığa gəlmişlər ki, öz hərbi heyətlərini Çinə göndərsinlər (alman feldmarşahnm ümumi rəhbərliyi altında). Alman feldmarşalı Çinə çatmamış, rus generalı Lineviçin rəhbərliyi altında beynəlxalq ekspedisiya korpusu çinliləri məğlubiyyətə uğradaraq xarici nümayəndələri azad etmiş, üsyanı da yatırmışdır. Üsyançılar Mançjuriya dəmir yolunu dağıtdığına görə Rusiya Çinin bu ərazisində öz ordusunu yerləşdirmişdir. Çinə bildirmişdir ki, Mançjuriyada sakitlik yarandıqda ordu Çini tərk edəcəkdir. Lakin başqa dövlətlərdə öz ordusunu çıxarmamışlar.

Ayrı-ayrı dövlətlərin Çin barədəki diplomatik mübarizələri aydındır ki, Rusiyanın mənafeyinə zidd idi. Yaponiya, ABŞ, İngiltərə və Almaniya Rusiyanın Uzaq Şərqdəki möv

qeyinin zəifləməsinə çalışırdılar. Rusiya isə Pekin ilə müqavilə bağlamağa səy göstərirdi. Rusiya ordusunun Çin ərazisində qalması məsələsində də Rusiya rəhbərliyində fikir müxtəlifliyi vardı.

*Yaponiyaya qarşı Avropa dövlətlərinin siyasəti.* Almaniya bir tərəfdən Yaponiya ilə danışıqlar aparır, digər tərəfdən isə istəyirdi ki, Rusiya onunla müharibəyə başlasın. O, Rusiyanı Uzaq Şərqdə müharibəyə cəlb etməklə özü Fransaya qarşı sərbəst hücum etmək imkanı qazanmaq istəyirdi (Çünki Fransa ilə Rusiya arasında müttəfiqlik müqaviləsi vardı). Fransa da Rusiyanın müttəfiqi olduğu üçün Rus ordusunun Şərqə yönəldilməsini istəmirdi. O da bilirdi ki, bu, Almaniyanın xeyrinədir.

Rusiya ilə münasibətdə Yaponiyada iki mövqe mövcud idi. Bir qrup rəhbərlik Yaponiya üçün əlverişli şərtlər əsasında Rusiya ilə müqavilənin tərəfdarı idi. Baş nazir X. İto öz proqramında «Koreya - Yaponiya» - «Mançjuriya - Rusiya» (yəni Mançjuriyeım Koreya ilə dəyişmək) əsasında müqavilə təklif edirdi. İkinci ideya ondan ibarət idi ki, **hələ ki Yaponiya güclüdür, Rusiya ilə müharibəyə girişmək lazımdır.** Yaponiya hökuməti Almaniya və İngiltərə ilə də danışıqlar aparırdı. Almaniya neytral olmağına söz vermişdir. İngiltərə isə çox ehtiyatla, tərəddüdlə müttəfiqlik barədə müqavilə bağlamağa razılıq vermişdir. Elə həmin qarışıq bir zamanda Yaponiyanın rəhbərliyində dəyişiklik baş vermişdir. Baş Nazir **İtonu Kasura əvəz** etmişdir. O, danışıq apaımaq üçün müavinini Peterburqa göndərmişdir. Burada iki məqsəd nəzərdə tutulurdu. Bir tərəfdən Peterburqda müəyyən saldtlik inamı yaratmaq, digər tərəfdən isə İngiltərəni müqavilə bağlamağa tələsdirmək. Doğrudan da, Yaponiyanın bu siyasəti İngiltərəni hərəkətə gətirmişdi.

Beləliklə, 1902-ci il yanvar ayının 30-da İngiltərənin xarici işlər naziri Q. Lensdaun Yaponiya ilə müqavilə imzalamışlar. Əslində, bu müqavilə ABŞ, Almaniya və Rusiya

əleyhinə olan hərbi-siyasi müttəfiqlikdən ibarət bir müqavilə idi. Müqavilədə Çin üzərində təsir dairəsi və Yaponiyanın Koreya barədəki mənafeyi də öz əksini tapırdı. İngiltərə və Yaponiya Çin ilə Koreya üzərində tam ağalıq etməyi, daxili işlərinə qarışmağı, xarici müdaxilədən qorumağı nəzərdə tuturdular. Digər dövlətlərlə müharibə baş verdiyi halda neytral olmaq və müharibənin gedişinə maneçilik göstərmək, başqa dövlətlərlə əməkdaşlıq etməmək öhdəçiliyi də götürmüşlər.

Bu müqavilə 5 illiyə bağlanmışdır. Bu müqaviləni bağladıqdan sonra İngiltərə Rusiya ilə danışıqlara getmişdir. Burada da yenə əsas səbəb Almaniyanın güclənməsi qorxusu olmuşdıa. Elə bu vaxtlar Almaniya ikinci «dəniz proqramı» qəbul etmişdir. İngiltərə ilə Almaniya arasında ziddiyyətlərin artması bütünlükdə Avropada vəziyyətin dəyişməsinə təsir edə bilərdi. İngiltərə ilə Rusiya danışıqlarında əsas obyekt onda;a ibarət idi ki. Uzaq Şərqdə Rusiya Mançjuriyadan o tərəfə irəliləməsin. Orta Asiya və Qafqazda Rusiya İngiltərə üçün müəyyən güzəştlər etsin, Əfqanıstanla diplomatik əlaqələri kəssin və İran üzərində təsir dairəsi bölgüsündən də imtina etsin. İngiltərə - Rusiya danışıqları şəraitində Yaponiya sürətlə müharibəyə hazırlaşırdı.

*Rusiya-Yaponiya münasibətləri.* Yaponiyanın Koreya və Mançjuriyanı ələ keçirmək və Çinin dərinliyinə doğru irəliləmək səyi başqa dövlətlərdə narazılıqlar yaradırdı. Ümumiyyətlə, Rusiya, Almaniya, İngiltərə, Fransa və ABŞ-m Çin barədəki siyasətləri ciddi ziddiyyətlərə səbəb olurdu. Bu kimi rəqibləri qabaqlamaq üçün Yaponiya öz mövqeyini möhkəmləndirərək Çin ilə müharibəyə başlamış və sonra da Rusiya ilə mühai'ibəyə hazırlaşmışdır. Uzaq Şərq barədəki strateji plana əsasən, Yaponiyanı dayandırmaq lazım idi (Yaponiyanın planı geniş idi - Çin, Koreya, Sibir və s.).

*Yaponiya ilə müharibənin başlanması.* Yaponiya öz hərbi hazırlığını gizlətmək üçün Rusiya ilə danışıqları bərpa etməyə başlamışdır. Yaponiya aşağıdakı tələbləri qoyurdu:

Koreya üzərində protektoratlığın tanınması, Koreya ilə Cənubi Mançjuriyanı birləşdirən dəmir yolu çəkilişinə razılıq verilməsi, Mançjuriya üzərində Rusiya ilə bərabər hüquqa malik olması. Rusiya bütün bu tələblərə razılıq versə də, Yaponiya 1903-cü il dekabr ayının 23-də ultimatum formada tələb qoymuşdur. Bütün bunlara baxmayaraq, 1904-cü il fevral ayının 6- da Yaponiya Rusiya ilə diplomatik əlaqələri kəsərək iki gündən sonra xəbərdarlıq etmədən Yaponiya ordusu Fort Artur və Çemulepo hərbi-dəniz bazalarına hücuma keçmişdir. Beləcə (1904-1905), Rusiya-Yaponiya müharibəsi başlanmışdır.

Müharibədən əvvəl də, sonra da Uzaq Şərq barədəki siyasətdə Peterburqda vahid fikir yox idi. Məsələn: dövlət katibi A.M. Bezobrazov hələ «bokslaşma» vaxtı Çinə daxil olmuşdu. Bezobrazov və daxili işlər naziri V.K.Pleve Koreyada xüsusi cəmiyyətlər - rus müəssisələri yaratmaq və gəlirini mənimsəməyi təklif edirdilər.

Maliyyə naziri S.İ.Vitte, xarici işlər naziri V.N.Lamzdorf və hərbi naziri A.N.Kuropatkin isə Rusiya ordusımun Mançjuriyadan çıxanimasının tərəfdarı idi. Müharibənin başlanması ilə məlum oldu ki, Bezobrazovçulann «yeni kursu» cəfəng bir siyasət idi.

*Rusiya və Yaponiya sülh danışıqları.* Müharibənin ilk mərhələlərində Yaponlar açıq-aşkar üstünlüyə malik idilər. Tez bir zamanda Koreyanı tutaraq Port Artura çıxmışlar. Yaponların hərbi üstünlüyü Uzaq Şərqdə vəziyyəti kökündən dəyişmişdir. Bu isə ABŞ, İngiltərə, Fransa və Almaniyanın mövqeyində dəyişiklik yaratmışdır. İngilis hökuməti Yaponiyanın London Bankları ilə əməliyyat aparmasını dayandırmışdı. İngiltərə və ABŞ Yaponiyanın daha çox güclənməsini və Rusiyanın Uzaq Şərqdəki mövqeyinin azalmasını istəmirdilər.

Fransa İsə ümumiyyətlə, Rusiyanın Şərqə böyük ordu yeritməsini istəmirdi. Odur ki, bütün dövlətlər müharibənin tez qurtarmasını istəyirdilər. ABŞ-ın prezidenti T.Ruzvelt Rusiya ilə Yaponiya arasında vasitəçilik edirdi. Demək olar ki, hər iki

tərəf müharibənin qurtarmasının tərəfdarı idilər. Yaponiyanın hərbi üstünlüyünə baxmayaraq, iqtisadi və maliyyə çətinliyi açıq-aşkar duyulurdu. Müharibəni davam etdirmək imkanlan tükənmişdi.

Rusiya müəyyən iqtisadi üstünlüyə malik olsa da, hərbi geriliyi çox idi. Bundan əlavə, Rusiyada artıq inqilab dalğalan duyulurdu. Beləliklə, Rusiya ilə Yaponiya arasında danışıqlar 1905- ci il avqust ayının 19-da Portsmut kurort şəhərciyində aparılmışdır. Danışıqlar 27 gün davam etmişdir. Yaponlar Saxalin adasını tələb etməklə yanaşı, 1200 mln. ien hərbi cərimə ödəməyi də tələb edirdilər. Cərimə məsələsində Rusiya nümayəndələri ümumiyyətlə danışıqları dayandırmaq qərarına gəlmişlər. T. Ruzvelt də Rusiya nümayəndələrini müdafiə etmişdir. II Nikolay Saxalin adasının cənub hissəsini yaponlara vermişdir.

Nəhayət, 1905-ci il sentyabr ayının 5-də **Port-smutda** Rusiya ilə Yaponiya arasında sülh müqaviləsi imzalanmışdı. Müqavilə 15 əsas və 2 əlavə bənddən ibarət olmuşdur. Müqaviləyə əsasən, Rusiya Yaponiyanın Koreya üzərindəki bütün maraqlarını tanımış, Yaponiya hökumətinin Koreyadakı fəaliyyətinə hər hansı bir mənada maneçilik etməyəcəyinə söz vermişdir. Hər iki dövlət Mançjuriyadan öz qoşunlarını qismən çıxarmalı olmuşlar. Beləcə, 1904-1905-ci il Rusiya-Yaponiya müharibəsi qurtarmışdır. Bu vaxtdan da beynəlxalq miqyasda qüvvələrin yenidən qruplaşması prosesi dəyişmişdir.

# XV Fəsil.
# AVROPADA İKİ ƏKS BLOKUN YARADILMASI VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

Əvvəlinci fəsillərdə qeyd etmişdik ki, XIX əsrin axırları - XX əsrin əvvəllərində bir-birinə əks iki blok yaradılmışdır. Dövlətlər arasında müqavilələr yaransa da, onlar çox ziddiyyətli xarakter daşıyırdılar. Avropa dövlətləri tədricən öz diplomatik fəaliyyətlərini artırmışlar. Fransa ilə Almaniyanın hər biri öz üstünlüyü üçün həmişə müharibəyə hazırlaşmış və özlərinə müttəfiq axtarmalı olmuşlar.

Fransa-İngiltərə, İtaliya və Rusiya ilə danışıqlar aparırdı. Almaniya da Rusiyanı öz tərəfinə çəkməyə çalışırdı və İtaliya ilə danışıqlar aparırdı. Beləliklə, Fransa Almaniyanı qabaqlayaraq 1902-ci il noyabr ayının 1-də İtaliya ilə (bir- birinə hücum etməmək barədə) müqavilə bağlamışlar. Başqa dövlətlərin hücumuna məruz qaldıqda isə neytral olmaq barədə öhdəçilik götürmüşlər.

*Fransa - İngiltərə razılaşmaları.* Bir neçə vaxt idi ki, Fransa ilə İngiltərə arasında soyuq münasibət davam edirdi. Fransanın xarici işlər naziri Delkasse münasibətlərin yaxşılaşdırılması məqsədi ilə bir neçə dəfə danışıqlar aparmışdır. Nəhayət, 1903-cü ildə (yazda) İngiltərənin Kralı VII Eduard Parisdə olmuşdur. Hər iki tərəf İngiltərə ilə Fransa arasında dostluğun vacibliyindən danışmışdı. Həmin ilin yaymda Fransa prezidenti Lube Emil (1838-1929) Londona getmişdir. Bu vaxtdan da İngiltərə-Fransa əlaqələri ardıcıl xarakter almışdır. Müstəmləkə məsələsi üzrə onların arasında müəyyən qarşı-dmmalar vardır.

Uzun müddətli damşıqlardan sonra 1904-cü il aprel ayının 8-də Londonda Fransa ilə İngiltərə arasında müqavilə imzalanmışdır. Bu müqavilə «Qəlbən razılıq» adlamr (Entente Cordial) (rus dilində Antanta). Müqavilə İngiltərənin Xarici

işlər Naziri Laıısdaun və Fransanın Londondakı səfiri Kamben tərəfindən imzalanmışdır. Müqavilə iki hissədən ibarət idi: Açıq və məxvi.

**Açıq** hissədə Misir və Mərakeş barədə, Siam, Madaqaskar və yeni Hebrid adaları barədə bəyannamələr əks olunmuşdur. Məxvi hissədə isə İngiltərə ilə Fransanın müstəmləkə məsələləri, Almaniyaya qarşı birgə mübarizə məsələləri öz əksini tapmışdır. Bununla yanaşı, İngiltərənin Misirə, Fransanın isə Mərakeşə sərbəst hərəkəti barədə də razılıq əldə edilmişdir. Misirlə Mərakeşdə müəyyən dəyişiklik edilməsi mümkünlüyü də qeyd edilmişdir.

*İngiltərə-Almaniya blokunun genişlənməsi.* Rusiya da Antantanın iştirakçısı olmağa səy göstərirdi. Lakin bəzi maneçiliklər olmuşdur, Almaniya İngiltərə ilə Fransa arasındakı 1904-cü il müqaviləsi barədə bildikdən sonra Rusiyanın bu ittifaqa qoşulmasına hər cür maneçilik göstərirdi. Eləcə də Fransa ilə Rusiya arasında sədd çəkməyə çalışırdı. Beləliklə, bu müqavilədən sonra Almaniya İngiltərəyə əks duran bir qüvvə axtarırdı. Berlində Rusiyaya qarşı xüsusi maraq göstərirdilər. Bu isə Londonla Peterburq arasında olan ziddiyyəti nisbətən artırırdı. Beləliklə, Berlin Rusiya ilə müttəfiqlik barədə müqavilə bağlamaq fikrində idi. Bu müqavilənin layihəsini Almaniya diplomatları hazırlamışlar. Müqavilənin əsas məz:- munu bundan ibarət idi ki, Avropa dövlətləri onların hər hansı birinə hücum edərsə, bütün hərbi qüvvələri ilə bir-birinə köməklik etsinlər.

Lakin Rusiyanın Fransa ilə müqaviləsi vardı. Deməli, Rusiya Almaniya ilə ittifaqa girərsə, Fransa ilə münasibətlər pozulurdu. Fransa Rusiyanın əsas kreditoru idi. Yaponiya ilə müharibədə Rusiya ondan kifayət qədər maliyyə vəsaiti almışdı. Odur ki, Rusiya Fransa ilə məsləhətləşmək istəyirdi. Almaniya buna razı olmurdu. Odur ki, Almaniya ilə Rusiyanın ittifaqı baş tutmamışdı.

Fransanın mövqeyini zəiflətmək üçün Mərakeş barədə Fransa ilə İngiltərə arasındakı 1905-ci il razılaşmalarının həyata keçirilməsinə Almaniya maneçilik etmək istəyirdi.
1905- ci ilin yayında II Vilhelmlə II Nikolay Berke (Baltikdə) adasında görüşmüşlər. Yenə də müqavilə barədə danışıqlar həyata keçirilmişdir. Almanlar təklif edirdilər ki, bu müqavilə Rusiya-Fransa müqaviləsinin davamı kimi götürülsün. Əslində, bu layihə 1904-cü il layihəsindən heç də fərqlənmirdi. Odur ki, Peterburqda tamamilə bu ittifaqın əleyhinə çıxmışdılar. Vəziyyətdən çıxmaq üçün II Nikolay məcbur olub (1905-ci il sentyabr ayının 24-də) müqavilənin qüvvəyə minmək müddətinin uzadılmasını bildirmişdir.

Fransa isə istəyirdi ki, Rusiya İngiltərə ilə ittifaq müqaviləsi bağlasın. London da Rusiya ilə yaxınlaşmağa üstünlük verirdi. Rusiyasız İngiltərə - Fransa İttifaqı o qədər də real görünmürdü. Lakin İngiltərə ilə Fransa arasında hərbi əməkdaşlıq da möhkəmlənirdi. 1906-cı ildə Rusiya ilə Fransanın baş ştablarının rəisləri görüşmüşlər. Fransa və İngiltərə yaponlarla müharibədən sonra Rusiya ordustmun bərpa edilməsində maraqlı idilər. Rusiya diplomatiyasında olan dəyişikliklər də İngiltərə - Rusiya yaxınlaşmasına zəmin yaradırdı.
1906- cı ilin yazında xarici işlər naziri Lamzdorfu A.P. İzvols-kiy əvəz etmişdir. O, İngiltərə - Rusiya İttifaqının yaradılmasım daha çox dəstəkləyirdi.

1906-1907-ci illərdə Rusiya müəyyən qədər bəzi zəruri xarici siyasi məsələləri həll edə bilmişdir. Bolqarıstanla gömrük ittifaqı barədə müqavilə, balıq tutulmasına dair və siyasi razılaşmalar barədə Yaponiya-Rusiya müqavilələri imzalanmışdır. İngiltərə Fransa ilə müqavilədən sonra Rusiyam da **«Antanta»ya** cəlb etmək istəyirdi. İngiltərə burada həm Almaniya ilə müharibəni və həm də Şərqdə öz mövqeyini möhJcəm- lətməyi nəzərdə tuturdu. Rusiyanın mənafeyi də onu İngiltərə ilə yaxınlaşmağa sövq edirdi. Deməli, burada hər iki dövlətin Orta Şərqə olan marağı əks olunurdu.

Beləliklə, 1907-ci il avqust ayının 31-də Peterburqda İngiltərə ilə Rusiya arasında müqavilə imzalanmışdı. Müqavilə Rusiyanın xarici işlər naziri **A.P. İzvolski** və İngiltərənin səfiri **A.NikoIson** tərəfindən imzalanmışdır. Bu müqavilədə İran və Əfqanıstana olan münasibət məsələsi də öz əksini tapmışdır. Əslində, isə bu, Rusiyanın **«Antanta»ya** qoşulması demək idi. Beləliklə, 1907-ci ilin payızında İngiltərə, Fransa və Rusiya arasında yaranan ittifaq reallığa çevrilmişdir. «Antanta»nm formalaşmasında və möhkəmlənməsində Fransanın baş naziri J.Klemansçonun böyük rolu olmuşdur.

# XVI Fəsil.
# BALKAN MÜHARİBƏSİYƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

*İngiltərə-Almaniya qarşıdurmasının əsas cəhətləri* Antantanın yaradılması, Avropada iki blok arasındakı ziddiyyətləri daha da artırmışdır. Almaniya yeni tipli gəmilər istehsal etməyə başlamışdır. Silahlanmanın azaldılması barədə İngiltərənin diplomatiyası da Almaniyaya təsir etməmişdir. 1907-ci ildə Haaqa Konfransında və 1908-ci ildə İngiltərə Kralı VII Eduard ilə II Vilhelmin görüşündə də bir nəticə əldə edilməmişdir. Almaniyada gəmi quruculuğunun sayı artırdı. Nəticədə, İngiltərə belə qərara gəlmişdir ki, Almaniyada hər bir gəmi müqabilində iki ədəd gəmi hazırlansın.

Yalmz dəniz üstünlüyü deyil, hər iki blok Balkanda və Yaxın Şərqdə öz mövqeyini möhkəmlətməyə çalışırdı. Almaniya Türkiyəni də özünə tabe etdirməyə çalışırdı. Bağdad dəmir yolunun çəkilişi barədə razılıq aldıqdan sonra onun təsiri daha da artmışdı. Türkiyə də almanların köməkliyi ilə öz hakimiyyətini möhkəmlətməyi nəzərdə tuturdu. Bütün bunlar İngiltərənin siyasətinə zidd idi (Hindistana aparan yol olduğu üçün) İngiltərə Berlinin Yaxın Şərq regionundakı hərəkətlərini diqqətlə izləyirdi. Beləliklə, hər cürə maneçiliklər göstərməyə çalışırdı. Bağdad dəmir yolunun çəkilişini maliyyələşdirməkdən imtina etmişdir. Türkiyəyə təsir edir, onu Makedoniya üzərindəki hakimiyyətindən məhrum edilməsi ilə hədələyirdi.

*Rusiya-Avstriya münasibətləri* Avstriya-Macarıstan Rusiyanın çətinliklərindən istifadə edərək Balkan ölkələrinə təsiri artırırdı. Beləliklə də. Egey dənizi sahilinə olan çıxışı genişləndirməyə çalışırdı. 1908-ci ilin əvvəllərində məlum olmuşdur ki, Salonikiyə dəmir yolu çəkilişi layihəsi hazırlanmışdır. Makedoniya üzərində Avstriya-Macarıstanın mövqelərinin artdığını görən Rusiya Balkan hadisələrinə daha ciddi fikir verməyə başlamışdır.

Xarici işlər naziri A.P. İzveolskiy İngiltərə ilə danışığa girərək Rusiyanın onlarla birgə hərəkət etməsini və müdafiə mövqeyindən əl çəkməsini təklif edirdi. Lakin hökumət nümayəndələri onu o qədər də dəstəkləmirdilər. Serbiyanın Avstriya-Macarıstanın iqtisadi və siyasi asılılığından azad olmasına köməklik etmək üçün Rusiya Dunaydan Adriatik dənizi sahilinədək dəmiryolu çəkilişi layihəsi hazırlanmışdı. Avstriya bu layihənin əleyhinə çıxmışdır. İngiltərə isə bu layihəni dəstəkləyirdi. Onun müqabilində isə Rusiya Makedoniyada islahat aparmaq üçün İngiltərəni dəstəkləməli idi. Dəmiryolu çəkilişi barədəki danışığa Türkiyədə baş verən hadisələr də təsir etmişdir. Türkiyədə zabitlərin üsyanı olmuşdur. Yeni Konstitusiya qəbul edilmişdir.

Türkiyənin xarici siyasi kursu Almaniyadan İngiltərəyə keçmişdir. Avstriya-Macarıstan öz planlarını həyata keçirmək üçün Rusiyaya söykənməyi qərara almışdı. Avstriya-Macarıstan belə hesab edirdi ki, Qara dəniz boğazı məsələsində Rusiyaya köməklik etməklə o da Bosniya Herseqovinanın Avstriya-Macanstana birləşməsinə razılıq verərdi. 1908-ci ilin sentyabr ayında Avtsriyanın xarici işlər naziri Erental və Rusiyanın xarici işlər naziri A.P.lzvolski Buxlau sarayında şifahi razılıq əldə etmişlər. Bu danışıqlar tam qurtarmamışdır. 1908- ci ilin oktyabr ayında Avstriyanın imperatoru Frans İosif Bosniya və Hersoqovinanın təslimçiliyi barədə sənədi imzalamışdı. Beləliklə, xarici işlər naziri İzvoskinin Fransaya və İngiltərəyə səfəri elə bir nəticə verməmişdi. Qara dəniz boğazı məsələsinə də yenidən baxılması baş tutmamışdı.

*İtaliya ilə məxvi razılaşma.* Bu uğursuzluqdan sonra Rusiya İtaliya ilə müqavilə bağlamağı zəruri hesab edirdi. Burada Balkan üzərindəki hüququ saxlamaq və hazırki mövcud vəziyyətə zidd hərəkətlərə qarşı birgə cavab vermək nəzərdə tutulurdu. Bu müqavilə 1909-cu il oktyabr ayının 24-də Rakkonidcidə İtaliyanın xarici işlər naziri Titoni və Rusiyanın xarici işlər naziri A.P. İzvolski tərəfindən imzalanmışdır. Beş

maddədən ibarət olan bu sənəd məxvi olaraq iki nazirin qarşılıqlı məktubu kimi saxlanırdı.

Müqavilədə İtaliyanın öhdəçiliyi Qara dəniz boğazı məsələsində Rusiyanı dəstəkləmək, Rusiyamn öhdəçiliyi isə Tripoolitani və Kirenankedə İtaliyanın maraqlarını dəstəkləməkdən ibarət idi.

*Almaniyanın Rusiyaya ultimatumu.* Avstriya - Macarıstanın Balkandakı siyasəti Serb xalqımn qəzəbinə səbəb olmuşdu. Rusiyada da ictimai rəy serblərin tərəfində idi. Bu isə Vyanaya sərf etmirdi. Rusiyaya təsir etmək üçün Vyana öz müttəfiqi olan Almaniyadan istifadə etmək qərarına gəlmişdi. 1909-cu ilin mart ayında Almaniyanın Rusiyadakı səfiri Portales Izvolskiyə ultimatum xarakterli nota vermişdi. Berlin Rusiyamn Serbiya barədəki dəqiq mövqeyini bilmək istəyirdi. Əgər Rusiya Serbiyaya kömək edərdisə, onda Almaniya Avstriyanın Balkanda sərbəst hərəkətinə yol verəcək idi. Odur ki, II Nikolay II Vilhelmə məlumat verdi ki, Rusiya almanların şərtini qəbul edir. Beləliklə, bir neçə gündən sonra Serbiya Avstriyaya təslim oldu.

*Mərakeşdə vəziyyət* Aydındır ki, beynəlxalq münasibətlərdəki bu qarışıqlıq yalnız Balkanda deyil, başqa regionlarda da mövcud idi. Fransa Mərakeşə olan təsirini daha da artırırdı. Bu isə Almaniyanı qıcıqlandırırdı. 1908-ci ilin avqust ayında Mərakeşdə olan qarışıqlıq zamanı Sultan Mulay Havid və onun qardaşları öldürülmüşdür. Bir nəfər də fransız vətəndaşı öldürülmüşdür. Bundan istifadə edən Fransa hökuməti Əlcəzairin sərhəd rayonlarına ordu yeritmiş və Kasablanka limanım zəbt etmişdir. Almaniya Fransanın belə hərəkətini izləyirdi. Qarışıqlıq salanların həbsi zamanı Alman səfirliyinin katibi də zərər çəkmişdir. Bu vəziyyəti daha da gərginləşdirmişdir. Berlin müəyyən diplomatik danışıqlarla kifayətlənmişdir. Fransa isə alman vətəndaşı üçün Mərakeşdə bərabər hüquqlu kommersiya fəaliyyəti aparmasına zəmin yaratmışdır. Rusiyanın xarici işlər naziri İzvolskiy qeyri-səmərəli xarici

siyasətinə görə istefaya buraxılmış və 1910-cu ildə S.D. Sazo- nov xarici işlər naziri təyin edilmişdir. Sazonov ehtiyatlı və düşünülmüş siyasətin tərəfdarı idi.

*Antantanın dağılmasına Almaniyanın təsiri.* 1910-cu ilin axırlarında Potsdamda II Nikolay ilə II Vilhelmin görüşü olmuşdur. Hər iki xarici işlər nazirləri də burada görüşmüşlər. Potsdam görüşündə Almaniya yenə Rusiyaya qarşı xeyirxafı münasibətdə olduğunu bildirirdi. O, eyni zamanda bildirirdi ki, Avstriya - Macarıstanın Balkan barədəki siyasətini gələcəkdə də dəstəkləməyəcəkdir. Bundan əlavə, Rusiya ilə Almaniya arasında müqavilənin layihəsi də hazırlanmışdı. Bu layihəni Berlin təqdim edirdi. Layihədə Bağdad dəmir yolu çəkilişinə olan münasibətdən başqa tərəflər arasında qarşılıqlı öhdəçiliklər də öz əksini tapmışdır.

Əslində, bu layihə Rusiyamn açıq-aşkar Antantadan çıxması demək idi. Layihə uzun müddət Peterburqda müzakirə edilmiş , 1911-ci il avqust ayının 19-da (10 aydan sonra) imzalanmışdır. Müqavilədə hər iki dövlətin Bağdad dəmir yolu çəkilişinə, İran və Türkiyəyə olan münasibəti - siyasəti əks olunurdu. Hər halda Almaniyanın səylərinə baxmayaraq Rusiya Antantadan çıxmamışdı.

*Almaniyanın Mərakeşdə möhkəmlənməsi səyləri.*
1911- ci ildə Mərakeşdə baş verən hadisə Avropaya səs salmışdı. Yazda Mərakeşin **mərkəzinin** Fes rayonunda üsyan baş vermişdir. Bundan istifadə edən fransızlar oranı zəbt etmişlər. Almaniya buna çox tez reaksiya vermişdir. Berlində belə qərara gəlmişlər ki, ya Fransadan Mərakeşin ərazisinin bir hissəsini və yaxud müəyyən məbləğ pul istəsinlər. Müəyyən məsləhətləşmələrdən sonra Mərakeşin Mahador və Aqadir (burada almanların müəssisələri vardı) rayonlarını zəbt etməli olmuşlar.

1 iyul 1911-ci ildə Almaniyanın hərbi **«Pantera»** gəmisi Aqadirə daxil olmuşdur (tarixdə bu «Panteranm» tullanması adlanır). Bundan əlavə, Almaniya Mərakeş sahillərinə yüngül

kreyser də (sürətli gəmi) göndərmişdi. Beləliklə, Almaniya və Fransa diplomatlan arasında danışıqlar başlanmışdır. Burada Londonun da böyük təsiri vardır. Britaniyanın xarici işlər nazirliyi qəti xəbərdarlıq etmişdir ki, Almaniyanın Mərakeşə soxulmasına heç vaxt imkan verməyəcəkdir.

1911-ci ildə Fransa ilə Almaniya arasında müqavilə imzalanmışdı. Almaniya Mərakeş üzərində Fransanın Protektorluq hüququnu tanımışdır. Bunun müqabilində o, Konqonun bir hissəsini Almaniyaya güzəştə getmişdir. Mərakeş hadisələri bütünlükdə bir tərəfdən Almaniya ilə Fransa, digər tərəfdən İngiltərə ilə olan münasibətləri daha da kəskinləşdirmişdir. İngiltərə və Fransada da Almaniyaya qarşı əks fikirlər artmışdır. Fransa və Almaniyada şovinist cəhətlər özünü göstərirdi. Artıq Almaniyada Fransaya qarşı müharibəyə başlamaq səsləri duyulurdu.

*Balkanda vəziyyət-* Balkanda gərginlik artmaqda davam edirdi. 1911-ci ilin sentyabrında İtaliya Türkiyəyə ultimatum göndərmişdir. O, Tripoli və Kerenankunu əldə etmək üçün müharibəyə başlamışdır. İtaliya donanması Türkiyə sahillərinə yaxınlaşaraq bəzi limanları bombalamışdır. Rusiya bu müharibədən istifadə edərək öz səfiri Çarıkov vasitəsilə vəzir Səid paşaya müqavilə üçün layihə təqdim etmişdir. Rusiya hərbi gəmilərinin boğazlardan sərbəst hərəkəti üçün razılıq əldə etmək istəyirdi. Burada Fransa və İngiltərə Rusiyanı dəstəkləməmişdi. Beləliklə, Rusiyanın niyyəti baş tutmamışdır.

*İngiltərə-Almaniya danışıqları.* Avropada uzun müddət İngiltərə ilə Almaniya arasında qarşıdurma mövcud olmuşdur. Buna baxmayaraq, 1912-ci ilin fevral ayında İngiltərənin hərbi naziri XoJden Berlinə gəlmişdir. Bu hadisə bir çox dövlətlər üçün, xüsusilə, Fransa və Rusiya üçün gözlənilməz olmuşdur. Burada əsas məqsəd guya müharibə barədə olan gərginliyi azaltmaqdan ibarət idi.

İngiltərənin nümayəndəsi əvvəlcədən Parisə bildirmişdi ki, bu səfər onlann xarici siyasətində heç bir dəyişiklik

etməyəcəkdir. Onlar hər hansı bir sahədə müqavilə bağlanmasım da nəzərdə tutmamışlar. Almaniyanın xarici işlər naziri Betman-Halvet əksinə Xolden ilə müəyyən danışıqlar aparmaq istəyirdi. Bunımla da, bir tərəfdən İngiltərə, digər tərəfdən isə Fransa və Rusiya ilə olan münasibətlərdəki inamsızlığı aydın bildirmək istəyirdi. Bu məqsədlə də neytrallıq barədə müqavilə bağlamağı təklif edirdi. Lakin nə neytrallıq barədə müqavilə bağlanmadı, nə də Xoldenin Berlinə getməsi bir nəticə vermədi. Bütün bunlar onu göstərmişdir ki, İngiltərə və Almaniya müxtəlif mövqelərdə dayanırlar. İngiltərə 1912-ci ildə qərar qəbul etmişdir ki, Almaniyada yaradılmış bir gəmi əvəzinə 2 gəmi yaradılmalıdır.

*Balkan blokunun formalaşdırılması.* Balkanda yaranan vəziyyət, Avstriya- Macanstanın mürtəce hərəkətləri, İtaliya ilə Türkiyə arasında müharibə kimi hadisələr Balkan dövlətlərində Türkiyə əleyhinə ittifaq yaratmaq ideyası aşılayırdı. Rusiya bu qüvvələrin birləşməsini dəstəkləyirdi. Lakin Türkiyə əleyhinə deyil, Avstriya-Macanstan əleyhinə olmasını arzulayırdı. Bolqarıstan və Yunanıstan isə Türkiyəyə qalib gəlmək və bununla da Türklərin əsarətindən tam azad olmağı nəzərdə tuturdular.

Serbiya Avstriyaya qarşı mübarizə apararaq dənizə çıxış əldə etməyə çalışırdı. Serbiya və onun baş naziri Milonoviç Makedoniyaya təsir dairəsinin bölüşdürülməsi. Balkan dövlətlərinin blokunun yaradılması və beləliklə Türkiyəyə qarşı birgə mübarizə ideyası ilə çıxış edirdi. Rusiya bu ideyanı dəstəkləyirdi. Lakin qorxurdu ki, Almaniya Avstriya-Macarıstan da müharibəyə qoşulmuşlar. Rusiyada gedən hərbi qüvvələrin islahatı qurtarmamış onu da müharibəyə cəlb edərlər. Qeyd etməliyik ki. Balkan dövlətlərinin özündə də birlik yox idi. Serbiya Makedoniyanın bölüşdürülməsini nəzərdə tuturdu. Bolqarıstan isə bütün Makedoniya ərazisinin birləşdirilməsini istəyirdi. Belə bir fikir müxtəlifliyi şəraitində Bolqarıstanla-Serbiya arasında 1912-ci ilin mart ayında müttəfiqlik müqavi

ləsi bağlanmışdır. Müqavilə 7 bənddən və məxvi hissədən ibarət idi. Hər iki dövlət biri-birinin müstəqilliyinə və ərazi bütövlüyünə təminat vermişdir. Eyni zamanda, bunların hər hansı birinə kənardan hücum olarsa, bütün qüvvələri ilə köməklik etmək barədə öhdəçilik götürmüşlər.

Məxfi hissədə qeyd edilirdi ki Türkiyədə hər hansı bir (jarışıqlıq yaranarsa (Balkan yanmadasına zərər dəyməməsi üçün), Rusiya ilə məsləhətləşərək hərbi fəaliyyətə başlaya bilərik. Birinci müqavilədən 2 ay sonra 1912-ci ilin may ayında hər iki ölkə arasında hərbi müqavilə bağlandı (Burada Türkiyə və Avstriya ilə yaranacaq müharibə nəzərdə tutulurdu). Bolqarıstan və Serbiya, eyni zamanda, Yunanıstan və Çernoqoriya ilə də danışıqlar aparırdı. Razılaşmaya uyğun olaraq, Serbiya 150 min, Bolqarıstran isə 200 min nəfər ordu çıxarmağı qərara almışlar. Elə həmin vaxt Bolqarıstanla Yunanıstan arasında da müttəfiqlik müqaviləsi bağlanmışdı. Bolqanstan və yaxud Yunanıstana kiminsə hərbi müdaxiləsi olduqda, hər iki tərəf bütün gücü ilə köməklik göstərmək barədə öhdəçilik götürmüşdür. Dəfələrlə qeyd etdiyimiz kimi, Rusiya Balkan dövlətlərinin birliyinin yaradılmasını dəstəkləyirdi. Lakin Türkiyə üzərinə hücum etmələrini istəmirdi. Balkan dövlətləri isə öz fikrindən dönməyirdi.

1912- ci ildə oktyabr ayının 9-da Çernoqoriya hərbi hərəkətə gələrək 1-ci Balkan müharibəsinin başlanğıcını qoydu. Bir neçə gündən sonra Serbiya Bolqarıstan və Yunanıstan da müharibəyə qoşuldular. Balkan dövlətləri qısa bir müddətdə Türkiyə ordusunu sıxışdıraraq Türkiyənin Avropa ərazisinin böyük bir hissəsini tutdu. Bolqanstan ordusu Konstantinopola yaxınlaşırdılar. Bu vaxt Türkiyə sülh bağlamağı təklif etməli olmuşdur.

# XVII Fəsil.
# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ DİPLOMATİYA

«Balkan müharibəsi» Avropada olan gərginliyi daha da artırmışdı. Balkan ölkələri üzərində olan Türkiyə sahibliyinə son qoyulmuşdur. İndi də Türkiyə ilə müharibə aparan dövlətlər arasında mübarizə başlanmışdır. Avstriya-Macarıstanın bu regionun Şimal-Qərbində, Türkiyənin isə şərqində müəyyən planları vardı. Avstriya Serbiyanı vurmağı, Türkiyə isə Egey adasını qaytarmağı nəzərdə tuturdu. Berlin və Peterburq da bunlan izləyirdilər.

Almaniya vaxt gözləyirdi ki, dünyanın bölüşdürülməsi üstündə müharibəyə başlasın.

Rusiya isə Serbiyanın taleyi ilə maraqlanırdı. Onu gələcəkdə Avstriya-Macarıstana qarşı özünə müttəfiq hesab edirdi. Bütün bu hadisələr Fransa və İngiltərəni də maraqlandırırdı. Paris bilirdi ki, Rusiya məğlub olarsa zəifləyəcəkdir və demək Almanlara da hər hansı bir mənada təsir etmək imkanından məhrum olacaqdır.

İngiltərə də Fransa ilə müttəfiq kimi öz müttəfiqinin və «Antanta»nm zəifləməsini istəmirdi. İngilis diplomatiyası 1914-cü il iyulun sonunadək öz məqsədini gizlədirdi. Bundan əlavə ingilislər Almaniya ilə bəzi danışıqlar da aparırdı. Bəzi məsələlərə görə isə - Bağdad dəmir yolunun çəkilməsinin maliyyəlşədirilməsi, Portuqaliya müstəmləkələrinin taleyi, Albaniya sərhədlərinin müəyyən edilməsi və s. ikinci dərəcəli mövqedə qalırdı. Bütün bunlarla yanaşı İngiltərə Fransa ilə dostluq münasibətlərində olduğunu nümayiş etdiridi.

*Müharibə ərəfəsində ziddiyyətlərin kəskinləşməsi.*
1913- cü ilin axırları-1914-cü ilin əvvəllərində Rusiya ilə Almaniya arasındakı münasibətlər kəskinləşmişdir. 1913-cü ilin noyabr ayında Almaniya Türkiyəyə hərbi nümayəndə qrupu göndərmişdir. Bu hərbi nümayəndə qrupu İstanbulda

ordu koıpusuna rəhbərlik edərək Bosforu nəzarətdə saxlamalı idi. Müəyyən ciddi danışıqlardan sonra hərbi nümayəndənin rəhbəri Liman Fon Sanders öz komandanlığının rəhbərliyindən imtina etmişdir. Buna baxmayaraq Almaniya Türkiyədə müəyyən qədər ordu saxlayırdı. Bu, Almaniyanın müəyyən qədər təsir dairəsinin olmasını göstərirdi. Bu isə Rusiya- Almaniya münasibətlərinin pisləşməsinə təsir edirdi. Həmin vaxtlar Fransanın təşəbbüsü ilə İngiltərə ilə Rusiya ai'asmda da danışıqlar gedirdi.

Danışıqlar əsasən hərbi-dəniz məsələləri üzrə aparılırdı. FLusiya donanmasının zəifliyindən istifadə edən İngiltərə daha çox güzəştlər tələb edirdi. Rusiya isə razılaşmırdı. Beləliklə heç bir müqavilə bağlana bilməmişdi.

*Müharibənin başlanması.* 1914-cü ilin yayında «Üçlər ittifaqı)) və «Antanta)), demək olar ki, müharibənin başlanmasına hazır idi. 1914-cü il iyun ayının 28-də Sarayevoda Avstriya taxtının vərəsəsi Ersqersoq Frans Ferdinand öldürülmüşdür, Elə bu da müharibənin başlamaisına bəhanə olmuşdur. Beləliklə Avstriya Serbiyaya qarşı müharibəyə başlamışdır. Bu dəfə Berlin çox qəti mövqedən çıxış edirdi. Avstriya - Macarıstanı dayandırmaq fikri yox idi.

II Vilhelm Avstriya səfirini qəbul edərək sürətlə irəliləməyi məsləhət bilirdi. Kayzerin belə bir mövqeyi Vyanada müharibə tərəfdarlarını daha da qızışdırmışdır. Avstriya-Macarıstan ultimatum hazırlayaraq iyulun 23-də Belqrada göndərmişdir. Ultimatumda Serbiyadan bir neçə öhdəçilik tələb olunurdu: Avstriya-Macarıstanın əleyhinə heç bir məqalə, yazı dərc etdirməməlisiniz; Avtsriya-Macarıstanın əleyhinə təbliğat aparan hər bir qurumun bütün əmlakını, avadanlıqlarını müsadirə etmək; İnqilabi hərəkatları yatırmaq üçün Vyana hökumət orqanlarım maneəsiz Serbiyaya buraxmaq; Frans Ferdinandm öldürülməsi ilə bağlı olaraq aparılan tədqiqatda da Avstriya-Macarıstanın nümayəndələri iştirak etməlidir. Ultimatuma 48

saat vaxt verilmişdir, Avstriya - Macarıstan ultimatum barədə London, Paris və Peterburqa da məlumat vermişdir.

*Avropada siyasi vəziyyət.* Rusiya rəhbərliyi ultimatum barədə məlumat aldıqdan sonra belə qərara gəlmişdir ki, hərbi toqquşmaya qoşulmaqdan qaçsın. Rusiya rəhbərliyinin bir qismi isə Serbiyanı köməksiz qoymağı məsləhət bilmirdi. II Nikolay da II Vilhelm ilə danışıq aparmaq istəyirdi. II Vilhel- min cavabında açıq bildirilirdi ki, Almaniya Avstriya - Macanstanı dəstəkləyəcəkdir. Rusiya nə iqtisadi, nə də hərbi cəhətdən müharibəyə hazır deyildi. Lakin bilirdi ki, müharibədən qaçmaq mümkün deyil. Odur ki, ümumi səfərbərlik etməyi qərara almışdır.

Paris isə müharibə gözləyirdi və Rusiyaya təsir göstərməyə çalışırdı. Bu məqsədlə də Fransanın prezidenti R. Puankare Peterburqa gəlmişdir. Bu vaxt İngiltərə (xarici işlər naziri E. Qrey) müharibə üçün bütün hazırlıqları görmüşdü. Lakin öz fikirlərini açıq bildirmirdilər. Nəhayət avqustun 3-də İngiltərə müharibəyə qoşulmaq qərarına gəlmişdir.

Qrey Parlamentdə çıxış edərək İngiltərənin Almaniya ilə müharibəyə qoşulmasının səbəblərini açıqlayırdı (Fransaya köməklik edilməsini nəzərdə tuturdu). Müəyyən mənada Almaniya özü Qreyə köməklik etmiş oldu. Belə ki, Almaniya Belçikanın neytarllıq prinsipini pozaraq ona hücum etmişdir (İngiltərə onun neytrallığına təminat vermişdir). Odur ki, bir gündən sonra İngiltərə ultimatum formasında Almaniyadan neytrallığa əməl olımmasını tələb etmişdir. Almaniya belə hesab edirdi ki, Rusiya hələ müharibəyə hazır deyil, odur ki, Almaniya üçün ən əlverişli vaxt idi. İki hərbi -siyasi blokun qarşıdurması şəraitində Avstriya - Macarıstanla Serbiya arasında gedən müharibə çox keçmədən Almaniya və Avstriya - Macarıstanla Fransa və Rusiya arasındakı müharibəyə çevrilmişdir. Beləliklə Balkanda olan lokal müharibə dünya müharibəsinə yüksəlmişdir.

*«Antanta» dövlətlərinin və Almaniyanın müharibəyə qoşulması.* Beləliklə, Avropa dövlətləri arasında baş verən müharibə sürətlə genişlənirdi. İyul ayının 28-də Avstriya - Macarıstan Serbiyaya müharibə elan etmiş və hücuma keçmişdir. İyulun 29-da Britaniya donanması öz hərbi -dəniz bazası olan Skapa-Flouya yollanmışdır.

İngiltərənin xarici işlər naziri Qrey Almaniyaya bildirmişdir ki, biz Almaniya ilə dostluq şəraitində qalırıq. Ancaq əgər Avstriya və Rusiya müharibədə iştirak edərsə, onda İngiltərə müharibəyə qoşulmayacaqdır. Əgər Fransa və Almaniya müharibəyə cəlb olunarsa, onda İngiltərə təcili tədbirlər görməli olacaqdır.

Avqust ayının 1-də Almaniya Rusiyaya müharibə elan etmişdir. Qrey Berlinə bildirmişdir ki, əgər Almaniya Fransaya hücum etməsə və Belçikanın neytrallığını pozmasa İngiltərə neytral vəziyyətdə ola bilər. Əlbəttə, bu, Almaniyaya sərf etmirdi. Çünki onun əsas məqsədi Fransanı darmadağın etmək idi. Rusiyada iyul ayının 29-da ümumi səfərbəfrlik elan edilmişdir. İyul ayının 31-də Almaniyanın səfiri Purtales Rusiyanın xarici işlər naziri Sazonova müraciət edərək bildirmişdir ki, əgər Rusiya səfərbərliyi dayandırmasa (ləğv etməsə) Almaniya da səfərbərlik elan edəcəkdir. Avqustun birində Almaniyada ümumi səfərbərlik elan edilmiş və həmin günün axşamına Purtales müharibə elan edilməsi barədə Sazonova nota vermişdir.

Almaniya çalışırdı ki, çox tez bir zamanda Fransaya qarşı hərbi əməliyyata başlasın və Rusiya ordusunun geniş manevr etməsinə imkan verməsin. Fransaya da neytrallığa riayət etməsi barədə müraciət edilmişdir. Fransa bu müraciətə cavab verməmiş və səfərbərlik elan etmişdir. Avqust ayının 3- də Almaniya Fransaya müharibə elan etmişdir.

İngiltərədə yuxarı təbəqənin böyük bir qismi müharibənin əleyhinə olmuş və istefaya getmişlər. İngiltərənin müharibəyə girməsi bütün Britaniya imperiyasının müharibəyə

qoşulması demək idi. Beləliklə 1914-cü ilin avqustımda Avropada başlanan müharibə çox tezliklə dünya müharibəsi xarakteri almışdı. Bəzi ölkələr Almaniya tərəfdə, bəziləri isə «Antanta» tərəfdə idilər.

*Müharibədə çevriliş prosesi.* Müharibənin başlaması və gedişi diplomatik fəaliyyəti daha da gücləndirmişdir. Müharibənin bütün gedişində **«Uçlər ittifaqı»** iştirakçıları arasında «Antanta» iştirakçılan arasında, Balkanda, Yaxın və Uzaq Şərqdə damşıqlar gedirdi. Hər bir qruplaşma özünə müttəfiq axtarırdı. Almaniya Türkiyədə öz təsirini artırmağa çalışırdı.
1914- cü ildə (avqustun 2-də) Almaniya ilə Türkiyə arasında müttəfiqlik müqaviləsi bağlanmışdı. Belə bir şərt nəzərdə tutulurdu ki, Türkiyə ordusu tamamilə Almaniyanın tabeçiliyinə keçsin. Alman hərbi missiyası isə daimi Türkiyədə qalsın. Müqavilədə qeyd edilirdi ki, əgər Rusiya Avstriya-Macarıstan və Serbiya münaqişəsinə qarışarsa, onda Almaniya öz müttəfiqlik borcunu yeminə yetirməlidir. Belə olduqda Türkiyə də öz növbəsində Rusiyaya müharibə elan etməlidir. Bu müqavilə imzalandıqdan sonra Türkiyə səfərbərlik elan etməli olmuşdu. Türkiyə sahillərini müdafiə etmək məqsədilə Almaniyanın iki hərbi gəmisi - **«Herben» və «Breslau»** Dardanel bağazmdan keçmişdilər. Tədricən Türkiyə ordusu və hərbi- dəniz flotu Alman zabitlərinin komandanlığı altında hərəkət edirdi. Türkiyə flotu Sevostopolu, Odessanı, Novorossiyskini, Feodesiyanı atəşə tutmuşdu. Bu vaxt Rusiya Türkiyə ilə münasibətləri kəsərək noyabrın 2-də Türkiyəyə müharibə elan etmişdilər. Üç gündən sonra İngiltərə və Fransa da Türkiyəyə müharibə elan etmişdilər. Elə həmin vaxt İtaliya uğrunda diplomatik mübarizə başlanmışdı. Belçikada Almanların fəal hərəkəti, müharibənin əvvəlində Fransada olan üstünlükləri İtaliya hökumətinə təsir edirdi. İtaliyanı öz tərəflərinə çəkmək üçün Antranta Triyesti, Trentino və Volonu, İtaliyaya, Almaniyaya isə Fransanın Şimali Afrikada və Aralıq dənizi sahilində olan torpaqlarından verməyi təklif edirdilər. Uzun müddətli

çəkişmələrdən sonra 1915-ci ilin yazında İtaliya Antantaya tərəf meyilli olduğunu bildirmişdi. Beləliklə, aprelin 26-da Londonda Rusiya, Böyük Britaniya və Fransa ilə xəlvəti müqavilə imzalamışlar.

İtaliya öz müttəfiqləri ilə birgə vuruşacağı barədə öhtəçilik götürdü. Müttəfiq dövlətlər isə sülh müqaviləsinə görə Trentino, Sizolpiyskiy Tirol və Triyest, Qorisu qraflıgı və Qradisku və digər əraziləri İtaliyaya vennəli idilər. 1915-ci ilin may ayında İtaliya Avstriyaya müharibə elan etmişdir. Almaniyaya isə 1916-cı ildə müharibə elan edilmişdir. İtaliya «Üçlər ittifaq»mdan çıxıb «Antanta»ya daxil olduqdan sonra hər iki blok Bolqarıstan uğrunda mübarizə apannağa başlamışlar. İstər hərbi və istərsə də coğrafi mövqeyinə görə Bolqarıstan Balkanda əsas yerlərdən birini tuturdu. Bolqarıstan üçün isə Serbiya daha maraqlı idi. «Antanta» dövlətlərinin Bolqarıstanla olan danışıqları heç bir nəticə verməmişdi.

Bolqarıstan «Üçlər ittifaqı»na qoşulmuşdu. 1915-ci ilin oktyabrında Türkiyə ilə də müqavilə imzalamışdı. Az sonra Bolqarıstan, Türkiyə və Avstriya arasında müttəfiqlik barədə müqavilə imzalanmışdı. Beləliklə, Almaniya Bolqarıstan ərazisi vasitəsilə birbaşa Türkiyəyə çıxış əldə etdi. Oktyabr ayının 14-də Bolqarıstan Serbiyaya da hücum etmişdi. Bolqarıstan məsələsində «Antanta» uduzduğu halda Rumıniya ilə danışıqlar başqa cür oldu. Belə ki, 1916-cı ilin avqust ayında Rumıniya, Rusiya, Fransa və İtaliya arasında müqavilə bağlanmışdı. Müqaviləyə əsasən Rumıniya Avstriya Macarıstanla müharibəyə başlamalı idi (Bu, avqustun 28-də baş vermişdi). Bunun müqabilində ona Transilvaniya, Elukavin və Banatın bir hissəsi verilməli idi. Sonra Avstriya Macarıstanın ərazisi ilhaq edilməli və sərhəddi müəyyənləşdirilməli idi.

Belə bir müharibə şəraitində müəyyən təminat əldə etmək üçün 1915-ci ilin sentyabr ayında Rusiya, Böyük Britaniya və Fransa arasında müqavilə bağlamnışdı. Belə razılığa

gəlmişlər ki, müharibə şəraitində heç bir separat danışığa yol verilməsin.

*Gahcək sülh planı.* 1914-cü ilin sentyabr ayında Rusiyanın xarici işlər naziri Sazonov İngiltərənin və Fransanın səfirləri ilə görüşmüşdür. Görüşdə gələcək sülh planının əsas cəhətləri açıqlanmışdı. Onun təqdim etdiyi layihədə müəyyən ərazi bölgüləri nəzərdə tutulurdu: Belə ki, Neman və Qalisi- yanın aşağı hissəsi Rusiyanın tərkibinə verilir, Rusiyanın tabeçiliyində Polşa Muxatriyyəti bərpa edilir (Poznan, Sileziya və qərbi Qolisiya onun tərkibində olur).

**Fransa üçün** Elzas və Lotaringiya Fransaya verilir. Belçika üçün Almaniya hesabına Belçikanın ərazisinin artırılması nəzərdə tutulur.

**Avstriya üçün** Avstriya, Macarıstan və Çexiya üçlükdən ibarət Monarxiya təşkil edilir.

**Serbiya üçün** Bosniya, Herseqovina, Daimasıya və Albaniyanın bir hissəsi Serbiyaya birləşdirilməli olur.

**Bolqarıstan üçün** Makedoniya ona verilir. Yunanıstana da Albaniyanın cənub hissəsinin verilməsi nəzərdə tutulurdu. Rusiya üçün Qaradəniz boğazı məsələsi çox əhəmiyyətli idi. Bu məsələ barədə Sazonov nə qədər cəhd etmişdisə, müttəfiqlərin səfirlərinin heç birisi razılığa gəlməmişdir. Sazonov formal da olsa müəyyən öhdəçilik götürməyi də təklif etmişdi. Eyni zamanda müəyyən dərəcədə hədələmək elementlərinə də yol verdi. Özünün istefaya gedəcəyini və onun yerinə «Üç imprerator ittifaqı»nın tərəfdarlarının gələ biləcəyini bəyan etmişdir.

Odur ki, London və Paris az da olsa fikirlərini dəyişmişlər. İngiltərə 1915-ci ilin aprel ayında nota verərək göstərmişdir ki, müharibə qurtardıqdan sonra Konstantinopol (Bosfor və Mərmərə dənizinin sahilində müəyyən torpaq sahəsi ilə). Mərmərə dənizinin bəzi adaları Rusiyaya çatacaqdır. Fransa da çox tezliklə İngiltərə - Rusiya razılaşmalarına qoşulmuşdu.

Beləliklə, Avropada yaşanan gərgin bir vaxtda diplomatlar gələcəkdə sülh məsələlərini araşdınrdılar. Uzun müddətli danışıqlardan sonra **«Antanta»** dövlətləri Asiya Türkiyəsinin bölüşdürülməsi barədə qərar qəbul etmişlər. **İngiltərə ilə Fransa** arasında müəyyən razılaşmalar edilmişdir. Razılığa əsasən Mesopotamiya İngilətərəyə, Suriya, **Kiçik Ermənistan, Kürdüstanın bir hissəsi** Fransaya; Trapezunda vilayəti, Ərzurum, Bəyazit, Kürdüstamn digər hissəsi. Qara dəniz sahili Rusiyaya çatmalı idi. İtaliya «Antanta»ya daxil olduqdan sonra Anadolunun bir hissəsinə sahib olmalı idi. Fələstin üzərində Beynəlxalq nəzarət planlaşdınimışdır. Xayfa və Akçala limanlanmn İngiltərəyə verilməsi nəzərdə tutulmuşdur. Türkiyənin özündə isə Anadolunun Mərkəzi və Şimal-Şərq hissəsi qalmalı idi.

Bütün bunlar «Antanta»nm planı idi. Almaniya blokunun da özünəməxsus plam vardı: Berlin Avropanın mərkəzində böyük bir iqtisadi ittifaq yaratmaq fikrində idi. Bu ittifaq da Almaniyaya tabe edilməli idi. Almaniyamn özündən əlavə Avstriya-Macanstan, Belçika, Hollandiya, Danimarka, Polşa və Fransanın bir hissəsi də bu ittifaqa daxil olmalı idi. Gələcəkdə isə İtaliya, İsveç, Norveç də bura daxil edilməli idi. Beləliklə Almaniya bloku Avropada qalib gələrsə yeni siyasi bir birlik (hərbi imperiya) yarammş olardı.

Bunlardan əlavə Almaniyanın niyyətlərində Finlandiya, Baltikyanı (Pribaltika) vilayətlər hətta Ukrayna, Belorusiya, Knm və Qafqaz da vardı, lakin qeyd etməliyik ki, ABŞ «An- tanta»ya az-çox köməklik göstərirdi. Almaniyanın isə imkanları tükənirdi.

*Yaponiyanın işğalçılıq siyasati.* Hər bir dövlət Avropada gedən müharibədən bir cür istifadə edirdi. Yaponiya da 1914-cü ilin avqust ayında Almaniyaya müharibə elan etmişdir. Aydındır ki, əsas məqsəd işğalçılıq idi. Yaponiya ordusu Sakit okeanda Almaniyaya məxsus olan adaları tutaraq Çin ərazisinə tərəf irəliləmişlər. Onlar **Kiao-Çaonu** zəbt etmişlər. Yaponiya

belə iddia edirdi ki, bununla da Çinin öz ərazisini özünə qaytaracağıq. Yaponiya 1915-ci ilin yanvar ayında Çinə nota göndərmiş və orada 21 tələb qoymuşdur. Çinə çox ağır şərtlər qoymuşdur. Şandun əyaləti üzərində Almaniyanın hüquqlan necə idisə, Yaponiyanın tələblərində də eyni şərtlər öz əksini tapırdı. Şərqi və Mərkəzi Monqolustan, Cənubi Mançuriya tara. Yaponiyanın asılılığına keçməli idi. 21 tələbi qəbul edən Çin, demək olar ki, Yaponiyanın protektoratma çevrilirdi.

Yaponiyanın bu hərəkəti «Antanta» ölkələrində, Vaşinqtonda, Londonda, Petroqradda müəyyən mənada həyəcan yaratmaya bilməzdi. Yaponiya nəzarətsiz olaraq Uzaq Şərqdə öz mövqelərini möhkəmləndirirdi. Bununla yanaşı Almaniyam da vurduğu üçün Rusiya onun Çindəki hərəkətinə o qədər də fikir vermirdi.

*Müharibədə çevriliş.* Müharibənin əvvəllərində hərbi baxımdan Almaniya hərbi bloka daxil olan dövltələrin hamısından da üstün idi. Onun müttəfiqləri olan Avstriya-Macarıstan, Türkiyə Almaniyadan çox geri idilər. «Antanta»nın, İngiltərə, Fransa və Rusiyanın (1917-ci il ABŞ-da bura daxil olmuşdur) isə hərbi-iqtisadi potensialı Almaniyadan və onun müttəfiqlərindən çox üstün idi.

Almaniya ordusunun Belçika və Parisə doğnı sürətli hücumunun qarşısını Rusiya ordusu dayandırmışdı. 1916-ci ildə açıq-aşkar məlum oldu ki, «Antanta» Almaniya - Avstriya blokundan üstündür. 1917-ci ilin yazına Almaniya praktiki olaraq strateji təşəbbüsünü itirmiş olmuşdu. Ölkədə çox kəskin sosial-iqtisadi böhran başlanmışdı.

*Almaniyanın separat sülh bağlamaq cəhdi.* Müharibənin başlanmasından iki il keçdikdən sonra Almaniyada separat sülh bağlamaq həvəsi yaranmışdır. Diplomatik danışıqlar müxtəlif istiqamətlərdə aparılırdı. Məsələn, 1916-cı ildə Rumıniyanı tutduqdan sonra Berlin neytral dövlətlərə sülh danışıqları təklif edirdi. Almaniya nəzərdə tuturdu ki, «An- tanta» dövlətləri danışığa gələrsə, gələcəkdə onların içərisində

parçalanma sala bilər. Lakin «Antanta» razılığa gəlməmişdir. «Antanta» qeyd edirdi ki, ancaq xalqların hüquqları bərpa edildikdən sonra sülhdən danışmaq olar. Buna baxmayaraq, Almaniya Rusiya ilə separat sülh bağlamağa ümid edirdi.

1916-cı ildə Rusiyanın iqtisadi vəziyəti pisləşmişdi. İnqilabi hərəkatlar genişlənirdi. Burada da Almaniya ilə separat sülh tərəfdarı artmışdı. Bu bir qrup separat tərəfdarları 1916-cı ilin dekabr ayında xarici işlər naziri Sazonovun istefasına nail olmuşlar. Onun yerinə həmin qrupdan Ştyurmer gəlmişdir. Sülh üçün Berlin rus çarının qohumlarının köməkliyindən istifadə etməkdən də çəkinmirdi.

Həmin vaxt İngiltərə rəhbərliyində də dəyişiklik baş vermişdir. 1916-cı ilin dekabr ayında baş nazir vəzifəsinə L.Corc gəlmişdir. Onun gəlməsilə müharibədə İngiltərənin rolu artmışdır. O vaxt ABŞ prezidenti (4-cü dəfə seçilmişdi) Vil- sonun tapşırığı ilə konkret sülh təklifləri hazırlanırdı. 1917-ci il fevral ayının 3-də ABŞ Almaniya ilə diplomatik əlaqələri kəsmiş və aprel ayının 6-da Almaniyaya müharibə elan etmişdi. 1916-cı ilin axırlarına cəbhədə Antanta dövlətlərinin üstünlüyü artmışdı. ABŞ-m müharibəyə qoşulması isə müharibənin gedişini tamam dəyişmişdi.

## XVIII Fəsil.
## BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN QURTARMASI VƏ RUSİYADA VƏZİYYƏT

**Rusiyada vəziyyət.** 1916-1917-ci illərdə Rusiyada çox köklü hadisələr baş verirdi. Rusiya imperiyası iqtisadi, hərbi və siyasi baxımdan «Antanta»nm ən zəif üzvlərindən biri idi. Ölkədə böhran vəziyyəti mövcud idi. Odur ki, hərbiləşmə əleyhinə, hökumət əleyhinə hərəkatlar artırdı. Rusiyanı inqilabi təlatümdən qurtarmaq üçün dövlət başçısının dəyişdirilməsi qərarına gəlmişlər. II Nikolayı onun qardaşı Mixail əvəz etmişdi (Mixail taxta çıxmaqdan imtina edirdi). Lakin artıq gec idi. Monarxiyanı xilas etmək mümkün olmadı. Fevral inqilabı çarizmə yekun vuraraq müvəqqəti hökumət yaratdı. Əvvəlcə müvəqqəti hökumətə knyaz Q.S.Lvov, sonra A.F. Kereneskiy rəhbərlik etmişdir.

Müvəqqəti hökumətin xarici işlər naziri P.N. Milyukov, sonra isə İ.İ.Tereşenko olmuşdur. 1917-ci ilin fevral ayında «Antanta» dövlətlərinin konfransında qərar qəbul etmişlər ki, tam qalib gələnədək müharibə davam etdirilsin. Bu konfransda Fransa və Rusiya xəlvəti belə qərara gəlmişlər ki, Almaniya ilə sərhədlərini özləri müstəqil müəyyən etsinlər. Müvəqqəti dövlətin xarici işlər naziri qeyd edirdi ki, Almaniya üzərində qələbə çalmadan sülhə getmək olmaz. 1917-ci ilin mart-aprel aylarında bir çox dövlətlər müvəqqəti hökuməti hüququ cəhətdən tanımışlar. Rusiyada baş verən hadisələrlə bağlı olaraq müvəqqəti hökumət Almaniyaya qarşı ümumi hücumu yay ayına keçirmək istəyirdi. Lakin İngiltərə və Fransa hücumu sürətləndirməyi qərara almışdılar. Rusiyanın yeni hökuməti «Antanta»dan daha çox asılı idi. İngiltərə Fransa və ABŞ-ın təkidi ilə Kereneskiy zəif silahlanmış rus ordusu ilə hücuma keçmişdi. Qoşun tam məğlub olaraq çoxlu itki vermişdi. Beləliklə, Rusiyada çox kəskin siyasi böhran başlanmışdı.

*Astriya-Macarıstanda və Almaniyada vəziyyst.* Aydındır ki, müharibənin digər tərəfi olan («Antanta»nın düşmənləri) Avstriya-Macarıstan və digər dövlətlərdə də vəziyyət ağır idi. İqtisadi çətinliklər, millətlər arasında qarşıdurma artırdı. Avstriyanın imperatoru I Kari (Frans İosifi əvəz etmişdir) siyasi hadisələrdən qorxurdu. Odur ki, **separat** sülh bağlamaq yolları axtarırdı. O, özü Elzas və Lotaringiyanı Fransaya qaytarmağa tələsirdi. Avstriya - Macanstan üçün isə müharibəyə qədərki sərhədlərin bərpa edilməsini arzulayırdı. İtaliya da Triest, Dalmaniya və Trentinonu tələb edirdi. Almaniyanın daxili vəziyyəti nisbətən yaxşı idi. Lakin Rusiyada olan fevral inqilabı Almaniyaya da təsir etmişdi. Tətillər olur, hərbi flotda da qarışıqlıqlar baş verirdi.

*İngiltərə və Fransanın Rusiyaya qarşı siyasəti.* Hələ çarın vaxtında müttəfiqlərin gözündə Rusiyanın mövqeyi aşağı düşmüşdü. Fevral inqilabından sonra bu münasibət dalıa da artmışdı. Odur ki, İngiltərə və Fransa Rusiyanın daxili vəziyyətini də öz nəzarəti altına alaraq **onu müharibədən çıxmağa qoymurdular.**

**İngiltərə və Fransa ABŞ ilə birlikdə** Rusiyanın daxili işlərinə qarışmağa razılaşmışlar. 1917-ci ilin payızında rəhbərlik belə bir razılığa gəlmişdir ki, Rusiyada dəmir yolunun yenidən qurulması ilə ABŞ, Rusiya dəniz flotu ilə İngiltərə, ordunun yenidən təşkili və modernləşməsi ilə Fransa məşğul olmalıdır. Burada yalmz Rusiyanın daxili işlərinə qarışmaq deyil, əsas məqsəd İngiltərə, Fransa və ABŞ-a nisbətən onun təsir dairəsini azaltmaqdan ibarət idi.

*Sovet dövlətinin sülh təşəbbüsü.* Məlumdur ki, 1917-ci ildə Rusiyada sosialist inqilabı baş vermişdir. Nə müvəqqəti hökumət, nə də «Antanta» dövlətləri Rusiyada yaranan proseslərdən baş çıxara bilmirdilər. Onları ancaq Almaniya üzərində tam qələbə maraqlandırırdı. Bu siyasətin əksinə olaraq bolşeviklər müharibəni tez qurtarıb sülh bağlamağa tələsirdilər.

inqilabdan bir gün sonra **Ümumrusiya Sovetlər Qurultayı «Sülh haqqında dekret»** qəbul etdi.

Aydındır ki, sülh haqqında dekret Sovet Rusiyasının tarixi inkişafında böyük rol oynamışdır. Sülh haqqında dekret iki sistemin sülh şəraitində yaşaya bilməsi barədə **nəzəri bir əsas idi.** 1917-ci il noyabr ayının 8-də Sovet hökuməti Baş Komandan general N.N. **Duxoninə** göstəriş vermişdir ki, müharibə edən bütün dövlətlərə sülh təklifi edilməlidir. **Duxonin** hökumətinin bu tapşırığına əməl etmədiyinə görə vəzifəsindən uzaqlaşdırılmışdır. Elə bu vaxt İngiltərə ilə Fransanın nümayəndələri Mogilev şəhərinə - **Duxoninin** yanma gələrək ondan tələb etmişlər ki, tabe olmayıb hərbi fəaliyyəti davam etdirsin. Lakin Rusiyanın iqtisadi, siyasi, hərbi vəziyyəti çox ağır idi.

Almaniya da çox ağır iqtisadi, siyasi vəziyyətdə idi. Almaniyada yuxarı təbəqə həmişə Rusiya ilə sülh bağlamağı arzulayırdılar. 1917-ci il dekabr ayının 3-də Brest Litovskidə Sovet Rusiyasının nümayəndələri arasında danışıqlar başlanmışdır. Sovet nümayəndələri sülh haqqında dekretdəki müddəaları əsas götürürdü. Almaniya nümayəndələri isə barışıq haqqında konkret danışıq təklif edirdilər.

Nəhayət, Almaniya bloku ilə Rusiya arasında 28 gün müddətinə barışıq əldə edilmişdir. Sovet hökuməti Brest-Litovskidə gedən danışıqlar barədə ABŞ, Fransa, İtaliya, Çin, Yaponiya, Rumıniya, Belçika və Serbiyanın səfirlərinə təkliflərlə müraciət etmişdir. Ayrı-ayrı dövlətlər gənc sovet Respublikasının vəziyyətindən istifadə etməyə çalışırdılar. 1917-ci ilin dekabr ayında Rumıniya Bessarabiyaya soxularaq onu zəbt etmişdir. 1918-ci ilin aprel ayında isə Rumıniyaya birləşdirilmişdir.

*«Brest süUıü».* 1917-ci il dekabr ayının 22-də Brest-Litovskidə Rusiya ilə Almaniya və müharibə edən digər dövlətlər arasında sülh danışıqlan başlanmışdır. Bu danışıqları üç mərhələyə bölmək olar:

**Birinci mərhələ** -1917-ci ii dekabr ayının 22-dən 28- dək olan müddət;

**ikinci mərhələ** - 1918-ci il yanvar ayımn 9-dan fevral ayının 1 O-dək;

**Üçüncü mərhələ-** 1918-ci il mart ayının 1-2-ni əhatə etmişdir.

Danışıqlarda alman nümayəndələri güclü təzyiq göstərərək öz şərtlərini həyata keçirməyə çalışırdılar. Sülh müqaviləsi ikinci mərhələdə də imzalana bilərdi. Lakin Sovet nümayəndəliyinin rəhbəri Trosskiy şərtlərə etiraz etdiyi üçün bu mümkün olmamışdır. Nəticədə Alman ordusu (Baltik dənizindən Qara dənizədək) bütün cəbhə boyu hücuma keçmişdi. Odur ki, Rusiya hökuməti bildirmişdi ki, Almaniya tərəfinin şərtlərinə razıdır və sülhə hazırdır.

**Beləliklə, 1918-ci il mart ayının 3-də Brest- Litovskidə Rusiya ilə Almaniya** bloku (Almaniya, Avstriya - Macanstan, Bolqanstan və Türkiyə bıina «Dördlük ittifaqı» da deyirdilər) arasında sülh müqaviləsi imzalandı. Rusiya üçün bu sülhün çox çətin şərtləri olmuşdur. Polşa, Litva, Kurlyandiya , Liflyandiya, Estiyandiya Rusiyanın ərazisindən aynimışlar.

Qafqazda Kars, Ərdahan və Batumi Türkiyəyə verilmişdir. Ukrayna və Finlandiya müstəqil dövlət olmuşlar. Brest- Litovskdə ayrı-ayn dövlətlər (Rusiya-Almaniya; Rusiya - Avstriya; Rusiya-Bolqarıstan və Rusiya - Türkiyə) gömrük- taarif dərəcələri barədə də müqavilə imzalamışlar. Mart ayının 15-də Ümumrusiya Sovetlər qurultayı Brest müqaviləsini təsdiq etməli olmuşdur.

*Müharibənin qurtarması* **mərhələsi.** Almaniya müharibədə Ukraynadan, Belorusiyadan, Rusiyanın müxtəlif vilayətlərindən əldə etdiklərini daşımaqla yanaşı, həm də öz tələblərini, nizamım tətbiq etməyə çalışırdı. Bununla yanaşı cəbhədə bir çox üstünlüklərinə baxmayaraq uğursuzluqları da az olmamışdır. **1918-ci ilin yazında** ABŞ müharibəyə qoşul- duqdan sonra qüvvələr nisbəti dəyişmişdir.

1918-ci il yanvar ayının 8-də ABŞ-ın prezidenti 14 bənddən ibarət müqavilə layihəsi təqdim edirdi. Bu layihə V. I.Leninin **«Sülh haqqında dekreti»nin müddəalarına çox yaxın** idi. Bunu ABŞ-m prezidenti Vilson da etiraf edirdi. Bu kimi tədbirlərə baxmayaraq, 1918-ci ilin yayında Almaniya yenidən geniş miqyaslı (sonuncu dəfə) hücuma keçdi. Almanlar bu dəfə Parisə tərəf irəliləyirdi. Lakin almanlann gözlədiyi olmamışdı.

Fransızlar tankların və artilleriyanın köməkliyi ilə təşəbbüsü ələ almışlar. Avqust ayının 8-də ingilis və fransız ordusu cəbhəni yararaq almanları darmadağın etdilər. Elə bununla da **«Dördlük ittifaqı»** özünə gələ bilməmişdi. 1918-ci ilin payızında onlar bir-birinin ardınca sülh bağlamağı təklif edirdilər. İlk dəfə Bolqanstan təslim olmuşdu və 1918-ci il oktyabr ayının 3-də Bolqanstan çan Ferdinand taxtdan imtina etmişdi. Sonra Türkiyə təslimçiliyi qəbul edib Almaniya ilə müttəfınliyə son qoydu. Sonra növbə Avstriya-Macarıstana çatmışdı. 1918-ci ilin oktyabr ayında Habsburqlar sülaləsi monarxiyasının sonu çatmış oldu. Noyabr ayının 3-də Avstriya- Macarıstan ordusunun komandanlığı barışığı imzalamışlar. Almaniyanın özündə isə çox güclü inqilabi hadisələr baş verirdi. 1918-ci ilin oktyabrında alman matrosları üsyan edirdilər. Onlar Kili zəbt edərək Hamburqa keçmişlər. Beləliklə üsyan bütün Almaniyanı bürüyürdü. Belə bir şəraitdə Antanta ordusu hücuma keçərək alman cəbhəsini yarmış və Almaniyanın mərkəzinə doğru irəliləyirdilər. Bu vaxt Almaniyada yeni rəhbərlik İsveçrə rəhbərliyi vasitəsilə ABŞ prezidenti Vilsona barışıq haqqında müraciət etmişdir.

Vilson 14 bənddən ibarət banşıq layihəsi hazırlamışdı. İttifaq üzvləri ilk növbədə günahkarlann hakimiyyətdən uzaq-laşdırılmasmı tələb edirdilər. Daha doğrusu ilk növbədə II Vilhelmin kənarlaşdırılması nəzərdə tutulurdu. Sonra Almaniyanın tam təslimçiliyi həyata keçirilməli idi. 1918-ci il oktyabr ayının 25-də müttəfiqlər yığışaraq barışığın şərtlərini müzakirə

etmişlər. Burada da İngiltərə ilə Fransa arasında fikir müxtəlifliyi yaranmışdı.

Belə ki, İngiltərə müəyyən dərəcədə mülayim tələblər təklif edirdi. Fransanın və Belçikanın ərazisinin azad edilməsi və Elzas, Lotaringiyanın qaytarılmasını təklif edirdilər. Fransızlar isə tələb edirdi ki, bunlardan əlavə Almaniya ordusunu ağır silahlardan məhrum etmək, Reyn sahilinin 50 kilometrliyi dərinliyində ərazini tutmaq və digər tələblər də qoymaq lazımdır. Nəhayət, aşağıdakı tələblər qoyulmuşdur:

- Belçika, Fransa və Lüksemburqun zəbt edilmiş ərazilərini azad etmək; - Elzas, Lotaringiya və Rumıniyadan qoşunların çıxarılması; - Reynin sol sahilinin azad edilməsi.

Hərbi cərimə aşağıdakı kimi olmalıdır: İttifaq üzvlərinə 5 min parovoz, 5 min ağır silah, 150 min vaqon, 1700 təyyarə çatmalıdır. 1918-ci il noyabr ayının 11-də müttəfiqlərin birgə ordusunun baş komandanı marşal F.Foş barışığa imza etmişdi. İki gündən sonra Sovet rəhbərliyi 1918-ci il mart ayının 3-də «Dördlük»lə bağladığı «Brest sülh müqaviləsi»ni ləğv etməli olmuşdur.

*Sovet Rusiyasına qarşı müdaxilə.* Oktyabr inqilabının qələbəsindən sonra İngiltərə və Fransa Rusiyanın ərazisində hərbi əməliyyat aparmaq qərarına gəlmişlər. Hətta çar generalına kifayət qədər vəsait də ayırmışlar. Bu məqsədlə ilk dəfə 1918-ci il mart ayının 9-da 200 nəfərdən ibarət bir dəstə ordu Murmanska düşmüşlər. Bunun ardınca fransız ordusu bura gəlmişdir. 1918-ci ilin yayına İngiltərə ilə Fransa ordusu Arxangelski və Soloves adalarını tutmuşlar. Uzaq şərqdə isə yaponlar Rusiya ərazisinə girmişlər. 1918-ci ilin yanvar ayında 3 kreyser (ikisi İngiltərənin, biri isə Yaponiyanın) Vladivostok limanına daxil olmuşlar. Artıq Amerikadan da bir kreyser gəlmişdir.

Sovet hökumətinin rəsmi etirazına İngiltərənin Moskvadakı nümayəndəsi belə cavab vermişdi ki, yaponların əsas məqsədi orada olan öz vətəndaşlarını və öz mülkiyyətlərini

qorumaqdır. Müdaxilə Şimala, Uzaq Şərqə yayılmış və Sibiri də əhatə etmişdir. Burada Çexoslovakiya korpusundan da istifadə edilirdi. Müqaviləyə əsasən bu korpus Vladivostok limanından keçib Fransaya getməli idi. Lakin yaponlar Vladi- vostoka gəldikdən sonra çexlər bu razılaşmalan pozmuş və qiyam qaldırmışlar. Rusiyanın mərkəzi rayonları ilə Ural və Sibir arasındakı əlaqəni kəsmişlər. Bütün bunlara baxmayaraq xarici diplomatların köməkliyi ilə yaradılan üsyanlar yatırılmışdır.

## XIX Fəsil.
## MÜHARİBƏDƏN SONRA DİNC TƏNZİMLƏMƏ PROBLI^EMLƏRİ PARİS VƏ VAŞİNQTON 7 KONFRANSLAR]!

*Paris konfransı.* Müharibədən sonra gündəlikdə dinc yolla tənzimlənmə məsələləri dayanırdı. Bu məqsədlə 1919-cu ildə Parisdə yanvar ayının 18-dən iyun ayının 28-dək beynəlxalq konfrans keçirilmişdir. Konfranslarda 27 dövlətin nümayəndəsi iştirak etmişdir. Rəsmi nümayəndələrdən başqa bir çox müstəmləkə ölkələrdən, ictimai təşkilatlardan da nümayəndələr gəlmişlər. Qeyd etməliyik ki, konfrans çox genişmiqyaslı olmuşdur. Ancaq rəsmi nümayəndələr 1000 nəfərdən artıq idi.

Bununla yanaşı hər bir nümayəndə heyətinin tərkibində ekspertlər və xidmətlçilər də vardır. Konfransın açılması ərəfəsində dövlət başçıları, müxtəlif nazirlər, xarici işlər nazirləri, deleqasiya rəhbərləri görüşlər keçirmişlər. Etiraf etməliyik ki, bu təntənənin hamısı yenicə yaranmış Sovet cəmiyyətinin fəlsəfəsi ilə də bağlı idi. Bu vaxtadək çağınlan konfransların heç biri bu səviyyədə əks-səda verməmişdir. Konfransın gündəliyi çox idi - konfransın hansı dildə (inigilis, fransız) aparılması, iştirakçı dövlətlərin rolu, reqlament və s.

Konfransın iştirakçısı olan 27 dövlət dörd qrupa bölünmüşdür.

**Birinci qrupa** ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya daxil idi.

**İkinci qrupa** Britaniya dominnonu və 19 başqa dövlət daxil idi.

**Üçüncü qrupa** dörd Latın Amerikası ölkəsi daxil idi.

**Dördüncü qrupa** neytral dövlətlər və yeni yaranmaqda olan dövlətlər daxil idi.

Konfransı Fransa prezidenti Puaııkara açmışdır. O, Almaniyanın ünvanına bir çox ciddi təhqiramiz ifadələr

işlədərək daha həlledici tədbirlər görməyi tələb edirdi ki, bir də yeni müharibələrə yol verilməsin. Bütün vacib məsələləri üç şura həll edirdi: Onluqdan ibarət şuralar, dördlükdən ibarət şuralar, beşlikdən ibarət şuralar.

**Onluqdan ibarət şuraya** ABŞ-dan Vikon və Lansin, İngiltərədən Lloyd Corc və Balfur, Fransadan J.Klemanso və Pişon, İtaliyadan -Orlando və Soşnito, Yaponiyadan Makino və Şinda daxil idilər.

**Dördlükdən ibarət şura** aşağıdakı tərkibdə fəaliyyət göstərirdi; ABŞ, Böʒhik Britaniya, Fransa və İtaliyanın dövlət rəhbərləri.

**Beşlikdən ibarət şura** ABŞ, Böyük Britaniya, Fransa və İtaliyanın xarici işlər Nazirlərini və Yaponiyanın xüsusi nümayəndəsini təmsil edirdi. Əslində, bir çox məsələlər üç dövlətin - ABŞ, Böyük Britaniya və Fransanın qərarı ilə həll edilirdi. Sovet Rusiyasından nümayəndəlik dəvət edilməmişdir. «Rusiya məsələsi» bütün söhbətlərdə müzakirə edilirdi. Bir qrup nümayəndələr təklif edirdi ki, müttəfiqlərin ordusunu Rusiyaya yeritsinlər, digər qrup nümayəndələr isə belə hesab edirdi ki, A.V. Kolçaka, A.İ. Denikinə köməklik göstərmək daha faydalıdır.

Elə həmin vaxtlar Böyük Britaniyanın Baş Naziri Lloyd Corc və ABŞ-ın prezidenti Vilson təklif edirdi ki, yeni konfrans çağırmaq və Sovet hökuməti nümayəndəliyini və eləcə də müharibədə iştirak edən bütün qüvvələri dəvət etmək lazımdır. Sovet hakimiyyətinin möhkəmləndiyini görən London və Vaşinqton burjuaziya cəmiyyətinin təhlükəsizliyi barədə müəyyən tədbirləri görürdülər.

*«Versal sülh müqaviləsi».* «Paris konfransı» «Millətlər Liqası»nın nizamnaməsini qəbul etdikdən sonra Almaniya ilə sülhün şərtlərini müzakirə etməyə başlamışdır. Fransa, ABŞ və digər müharibə iştirakçısı olan digər dövlətlər Almaniyanın zəiflədilməsini istəyirdilər. Beləliklə, istəmirdilər ki, Almaniya iqtisadi və ticarətin inkişafı baxımından rəqabət qabiliyyətli

olsun. Fransa daha barışmaz mövqedə dayanmışdır. Fransa nümayəndələri çox təkidlə tələb edirdilər ki, Almaniya müharibədə dəymiş bütün zərəri ödəməlidir. Onlar Almaniyadan 800 mlrd, qızıl marka hərbi cərimə tələb edirdilər.

Fransa, İngiltərə və ABŞ-ın xeyrinə cəmi hərbi cərimə 1,5 trln. qızıl marka təşkil edirdi. Almaniyada ordunun əsaslı surətdə azaldılması da qəti qoyulurdu. 1919-cu il aprel ayının 25-də Almaniya deleqasiyası Versala dəvət edilmişdi. Nümayəndəliyə xarici işlər Naziri qraf Broklorf Ranstau rəhbərlik edirdi. «Versal müqaviləsi»nin şərtləri Alman nümayəndələrinə verildikdə onlar heç bir şərtlə razılaşmamışlar. Ancaq Elzas və Lotaringiyanı qaytarmağa razılıq vermişlər. Poznan əyalətinin də bir hissəsini Polşaya qaytarmağa razılıq vermişlər. Hərbi cəriməyə gəldikdə isə 400 mlrd, qızıl verəcəklərini bildirmişlər. Müharibənin bütün günahlarını almanlarda görməyi düzgün hesab etmirdilər. Bu kimi imtinalara baxmayaraq, Fransa nümayəndəsi Klemanso açıq - aşkar qeyd edirdi ki, siz müharibədə məğlub olubsunuz, odur ki, sülhün bütün tələblərini qəbul etməlisiniz. Əgər yenə belə siyasət aparsanız, «Antanta» dövlətləri hərbi işə yenidən başlamalı olacaqdır. Bu tələb elə- belə söz deyildi. «Dördlük şura»nın qərarı ilə Marşal Foş bütün xərcin ödənməsi planım hazırlamışdı.

Vəziyyətin çətin olduğunu görən almanlar uzun danışıqlardan sonra sülh müqaviləsini imzalamağa razılıq vermişdir. 1919-cu il iyun ayımn 28-də Versal sarayında Almaniya ilə sülh müqaviləsinin imzalanması bəyan edilmişdir. «Versal Sülh Müqaviləsi)) 440 bənddən ibarət idi. Almaniya Elzas və Lotaringiyanı Fransaya qaytarmışdır (1870-ci il sərhəddində), Eypen, Malmedi və Morene rayonlan Belçikaya keçmişdi. Reynin sol sahilində 50 km sahə xüsusi zona yaradılmışdır. Almanlann hərbi istehkamlar, qurğular tikmələrinə imkan verilməməsi qeyd edilmişdi. Reynin qərb sahili ittifaq ordusu tərəfindən zəbt edilmişdir. Saar kömür hövzəsi Fransaya verilmişdir (15 il müddətinə «MillətIər liqasi))nm idarəçiliyi

ilə). Almaniya Polşanın müstəqilliyini tanımış və yuxan Silezi-yanın bir hissəsini ona vermişdir.

Şlezviqin şimal hissəsi və Klaypeda (Memel) Danimarkaya qatılmışdır. Beləliklə, Almaniya ərazisinin 12,5%-ni, əhalisinin isə 8%-dən çoxunu itirmişdir. «Antanta» dövlətləri Almaniyanın Afrikada olan bütün müstəmləkələrini, Sakit Okeandakı adalarını ələ keçirmişlər. Müqavilədə Almaniyada hərbi sahədə ciddi məhdudiyyətlər nəzərdə tutulmuşdur. Hərbi cərimə edilmişdir. İlk 20 mlrd, marka 1921-ci ilin may ayının 1-dək ödənilməli idi. Batırılmış gəmilərin müqabilində öz gəmilərinin müəyyən qismini verməli idi. 10 il müddətinə Almaniyanın Fransaya 140 mln.ton, Belçikaya 80 mln. ton , İtaliyaya 77 mln.ton kömür göndərməsi qeyd edilmişdir.

Bütün bu kimi tarixi hadisələri təhlil etdikdə aydın olur ki, tarix təkrarlanır. Daha doğrusu başqasına etdiyin zülm və yaxud hər hansı bir güzəşt sənin özün üçün də təkrarlanır. 50 il bundan əvvəl, yəni 1871-ci ildə Frankfurt müqaviləsinə görə Almaniya Fransa üçün bundan da ağır şərtlər tələb etmişdir. İndi isə bu kimi tələblər Almaniya qarşısında qoyulmuşdur.

*«Vaşinqton konfransı».* Birinci Dünya Müharibəsindən sonra dünya hadisələrində çox dəyişikliklər beynəlxalq münasibətlərə də yeniliklər gətirmişdir. Burada yalnız Avropa dövlətləri deyil, artıq bütün dünya dövlətləri əhatə olunur. Odur ki, yeni bir beynəlxalq konfransın çağırılmasına zərurət yaranmışdır. Beləliklə, 1921-ci il noyabr ayının 12-də «Vaşinqton konfransı)) işə başlamışdır. Birinci Dünya Müharibəsindən sonrakı dünya quruculuğu adətən **«VersaI-Vaşinqton Sistemi» adlanır.** Lakin «Versal müqaviləsi))ndə, əsasən, Avropa dövlətləri əks olunurdusa, Vaşinqton konfransında Uzaq Şərqin tənzimlənməsi də öz əksini tapırdı. Bu konfransda ABŞ, Yaponiya, Fransa, İtaliya, Belçika, Hollandiya, Portuqaliya, Çin, Britaniya imıperiyasım təşkil edən 6 dövlət (İngiltərə, Kanada, Avstriya, Yeni Zelandiya, Cənubi Afrika İttifaqı və Hindistan) iştirak edirdilər.

Sovet Rusiyası və Uzaq Şərq Respublikası Vaşinqtona dəvət edilməmişlər. Lakin Uzaq Şərq Respublikasından qeyri rəsmi də olsa nümayəndələr gəlmişlər. Konfransın işində iki əsas məsələ diqqəti daha çox cəlb edirdi:

- Quru və dəniz silahlı qüvvələrin məhdudlaşdınıması;
- Sakit okean və Uzaq Şərq məsələsi.

Bu məsələlərin müzakirəsində İngiltərə və Yaponiya arasında və eləcə də Yaponiya ilə ABŞ arasında fikir müxtəlifliyi yaranmışdır. Konfransın apanidığı müddətdə üç müqavilə bağlanmışdır.

**Birinci müqavilə 13 dekabr** 1921-ci ildə bağlanmışdır. Bu müqavilə ABŞ, Böyük Britaniya, Fransa və Yaponiya tərəfindən imzalanmışdır. Bu, «Dördlük ittifaqı» adlamr. Bu müqavilədə əsas məsələ Sakit okean adalarında və Uzaq Şərqdə azadlıq hərəkatlarımn yatırılmasında müstəmləkəçi dövlətlərin birgə fəaliyyəti nəzərdə tutulurdu.

**«Doqquzlar»ın müqaviləsi** ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, Belçika, Hollandiya, Portuqaliya və Çin arasında olmuşdur. Burada Çinin ərazi bütövlüyü və suverenliyi məsələsi müzakirə edilirdi.

**Üçüncü müqavilə** beş dövlətin müqaviləsidir. ABŞ, Böyük Britaniya, Yaponiya, Fransa və İtaliya. Burada da dəniz silahlı qüvvələrinin məhdudlaşdınıması müzakirə edilmişdir. Bütövlükdə «Vaşinqton konfransı»nı «Versal konfransı»nın davamı kimi qiymətləndirmək olar.

**1919-** *1922-ci U sülh müqavilələri.* «Versal konfransı »nda Birinci Dünya Müharibəsinə yekun vurulmuşdur. «Antanta» Almaniya və onun müttəfiqləri ilə müqavilələr bağlamaqla məşğul olmuşdur. Belə imzalamalar Avstriya, Bolqanstan, Macarıstan və Türkiyə ilə həyata keçirilmişdir. Müharibələr nəticəsində Avstriya-Macanstan imperiyası dağılmışdı. Onun əvəzində ayrıca Avstriya və Macarıstan yaranmışdır. Çexoslovakiya da ayrılmışdır.

**Serbiya, Çernoqoriya, Bosniya, Hersoqoviaa, Xorvatiya, Sloveniya, Dalmasiya,** Makedoniya və Cənubi Macanstanm bir hissəsini özündə birləşdirən **Serb-Xorvat-Sloven** dövləti yaranmışdır. Sonralar daha ümumi şəkildə Yuqoslaviya adlanmışdır. 10 sentyabr 1919-cu ildə Avstriya ilə müqavilə imzalanmışdı. Bu müqavilə Habsburqlar sülaləsinə son qoymuş oldu. Avstriya mənsub olduğu ərazilərin bir qismini qonşu dövlətlərə İtaliya, Yuqoslaviya, Rumıniya və Çexoslovakiyaya verməli olmuşdu. Avstriya qonşu dövlətlərin müstəqilliyini tanımışdı. Müqavilədə Avstriyanın Almaniya və yaxud digər dövlətlərlə birləşdirilməsi məsələsi qadağan edilmişdir. Onun flotu qalib ölkələrə verilmiş, 30 mindən artıq ordu saxlamaq qadağan edilmişdi. Hərbi cərimə də kəsilmişdir.

**27 noyabr 1919-cu ildə Bolqarıstanla** müqavilə bağlanmışdır. Bolqarıstan bütün günahları çar Ferdinandın üstünə ataraq Almaniyanın tərəfində vuruşduğunu inkar etmək istəyirdi. Lakin bu bəhanələr baş tuta bilməzdi. Bolqarıstanın ərazisinin də bir qismi Yuqoslaviya, Yunanıstan və Rumini- yaya verilmişdi. Ona da kifayət qədər məhdudiyətlər tətbiq edilirdi. 20 min nəfərdən artıq orduya icazə verilməmiş, hərbi aviasiya qadağan edilmişdi. 2,5 mlrd, qızıl frank cərimə ödəməli olmuşdu. Beş il müddətinə Yuqoslaviyaya kömür göndərməli olmuşdu.

**Macarıstanla sülh müqavilələri 4 iyun 1920-ci ildə** həyata keçirilmişdir. Bu müqavilə Versalın böyük bir sarayında imzalanmışdır. Macarıstanın Avstriya, Yuqoslaviya, Çexoslovakiya və Rumıniya ilə sərhədləri müəyyənləşdirilmişdir. Macarıstanın da ərazisinin müəyyən hissəsi həmin ölkələrə verilmişdir. Ordunun 35 min nəfərdən artıq olması qadağan edilmişdir. Aviasiya işi dayandırılmışdır. Bütün flot qalib ölkələrə verilmişdir. Əhalisinin cəmisi 30%-i və ərazisinin 50%-i qalmışdı.

***Türkiyə ilə müqavilə bağlanması.*** **Bu müqavilə 10 avqust 1920-ci** ildə Parisin yaxınlığında Servdə imzalanmışdır.

Müqaviləyə əsasən Türkiyə Suriya, Livan, Fələstin, Mesopotamiyadan və Ərəbistan yarımadasındakı bütün ərazilərdən məhrum edilmişdir. Türkiyə İngiltərənin Misir üzərindəki, Fransanın isə Mərakeş və Tunis üzərindəki protektorat hüququnu tanımalı olmuşdur. Türkiyəyə məxsus bəzi ərazilərin hesabına İtaliya və Yunanıstan öz ərazilərini genişləndirmişlər.

Ordunun 50 mindən artıq olması qadağan edilmişdir. Hərbi-dəniz flotunun böyük bir qismi qalib ölkələrə verilmişdir. Başqa müqavilələrdə olduğu kimi 1919-1922-ci illərdə də aparılan müqavilələr açıq göstərirdi ki, qərb dövlətləri (qalib dövlətlər) öz hökmranlıqlarını artırmaq və milli azadlıq hərəkatlarını boğmaqdan başqa bir məqsəd daşımamışlar.

# XX Fəsil.
# 1920- Cİ İLLƏRİN BİRİNCİ YARISINDA BEYNƏLXALQ VƏZİYYƏT VƏ SOVET DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ

Vətəndaş müharibəsi illərində xarici dövlətlərin müdaxiləsinin artdığı şəraitdə gənc Sovet hökuməti qonşu dövlətlərə və Avropanın digər dövlətlərinə dəfələrlə sülh müqaviləsi bağlamağı təklif edirdi.

*((Antantanın üç yürüşü».* 1919-1920-ci illərdə İngiltərə, Fransa və ABŞ Sovet Rusiyasına qarşı üç dəfə güclü yürüş hazırlamış və hücuma keçmişlər. Tarixi ədəbiyyatlarda bu yürüşlər **«Antantanın üç yürüşü»** kimi məlumdur. Ağqvardiyaçıların orduları da bu yürüşlərdə fəal iştirak etmişdir.

**İlk birinci yürüş** 1919-cu ilin yazında və yayda keçirilmişdir. Qərbin köməkliyi ilə admiral Kolçak' Şərq cəbhəsindən hücuma başlamışdı. Lakin onun ordusu «Qızıl Ordu» tərəfindən dəf edilmişdi. **İkinci yürüş** 1919-cu ilin iyul ayından 1920-ci ilin fevral ayı arasında olmuşdur. Bu dəfə Qərbin əsas ümidi general Denikinə" və onun könüllülərdən ibarət ordusuna idi. Lakin bu dəfə də «Antanta»nın rəhbərliyinin hesablamaları özünü doğrultmuş, Denikinçilər darmadağın edilmişdi.

«Antanta»nın üçüncü yürüşü **1920-ci ilin** aprel-noyabr ayları arasında olan müddəti əhatə etmişdir. Bu yürüşdə Polşa və general Vrangelin' ordusu da iştirak etmişdir. **İngiltərə və Fransanın** hakim dairələrinin təkidinə baxmayaraq, **1920-ci üdə Estoniya,** Latviya, Litva və Finlandiya ilə sülh müqaviləsi bağlanmışdır. 1920-ci ilin yanvarına Antantanın Ali Şurasının qərarı ilə Rusiyanın üzərindən iqtisadi blokada götürülmüşdür.

**' Kolçak (1873-1920) vətənd.müh.dövr.əks.inql.təşk-sı (1920-ci ddə güllələnibdir)**
**- Denikin (1872-1947) vətənd.müh.dövründə əks.inqilab.təşkilatçısı ^ Vrangel (1878-1928) vətənd. müh. dövr, əks inqilabçı**

Buna baxmayaraq Sovet dövlətinə qarşı mübarizə davam etdirilirdi.

*Sovet - Polşa müharibəsi.* Polşa ilə sülh müqaviləsi bağlanması səyinə baxmayaraq bu iki ölkə arasındakı münasibətlər kəskinləşirdi. Polşanın öz rəhbərliyi də. Qərb ölkələrinin hakim dairələri də Polşanı Rusiya ilə müharibəyə sürükləyirdilər. 1920-ci il aprel ayımn 10-da Polşa rəhbərliyi Rusiya nümayəndələri ilə danışıqlar aparmağa razılıq vermişdir. Damşıqlar Borisov şəhərində gedirdi. Lakin Varşavanın barışmaz və ultimatum xarakterli mövqeyi bu danışıqları pozmuşdur. Polşa ordusu sərhəddə yaxınlaşaraq aprel ayının 25-də Belorusiya istiqamətində hücuma keçmişdir. Polşanın Baş Naziri Y.U.Pilsudsiky açıq-aşkar Ukraynanı zəbt etmək istəyini bəyan etmişdir. Elə həmin gün general Vrangel qalan ağqvardiyaçılarla Knmdan hücuma keçmişdir. Beləliklə, «Qızıl ordunun» vəziyyəti pisləşmişdir.

Buna baxmayaraq Sovet qoşünları Polşa ordusunun hücumunu dəf edərək əks hücuma keçmiş və Varşavaya tərəf irəliləmişlər. Polşa İngiltərə və Fransadanköməklik aldığı üçün sülh damşıqları aparmaqdan imtina edirdi. 1919-cu ilin dekabr ayında Böyük Britaniyanın xarici işlər Naziri C. Kerzon Polşa ilə Sovet Rusiyası arasında sərhəd barədə təklif dərc etdirmişdir. 1920-ci ilin iyul ayında London ultimatum formada «Qızıl ordu»dan hücumu dayandırmağı və sərhəddi müəyyənləşdirməyi tələb edirdi. Sovet Rusiyası müharibəni qurtarıb sülh bağlamağa və Kerzonun təklif etdiyi xətt üzrə sərhəddi müəyyən etməyə razı olduğunu bildirmişdir. Lakin Polşa tərəfi açıq damşıq aparmağı uzadırdı. Nəhayət, Rusiyanın səyi nəticəsində 1920-ci il oktyabr ayının 12-də Polşa ilə Sovet Rusiyası arasında banşıq olmuş, 1921-ci il mart ayının 18-də isə sülh müqaviləsi imzalandı.

*Vətəndaş müharibəsinin son mərhələsi.* 1920-ci ilin sonunda Qızıl Ordu Krımda gözə çarpacaq dərəcədə nailiyyətlər əldə etmişdir. Həmin ilin noyabrında Perekonsk-

Çonqarsk əməliyyatında Vrangelin ordusu darmadağın edilərək Krım azad edilmişdir. Elə həmin vaxtdan Qərbdə Sovet Rusiyasının bütün vuruşması qurtarmış və sərhəd müəyyənləşmişdir. 1921-1922-ci illərdə Zaqafqaziyada, Orta Asiya və Uzaq Şərqdə ağqvardiyaçıların son qüvvələri məhv edilmişdir. Uzaq şərq respublikasının xalq - inqilabi ordusu ağqvardiyaçılar üzərində bir - birinin ardınca qələbə qazanmışlar. 1922-ci ilin oktyabrında Vladivostoka daxil olmuşlar. Həmin ilin noyabr ayında Uzaq Şərq Respublikası Sovet Rusiyasına birləşdirilmişdir.

Hələ vətəndaş müharibəsi qurtarmamışdan V.İ.Lenin 1920- ci ilin noyabr ayında bəyan etmişdir ki, biz kapitalist ölkələrinin əhatəsində beynəlxalq miqyasda yaşamaq hüququ əldə etmişik. Bu yeni bir dövrdür.

*«Kann' konfransı».* Vətəndaş müharibəsi qurtardıqdan və xaricin Rusiyaya qarşı müdaxiləsi iflasa uğradıqdan sonra beynəlxalq vəziyyət əhəmİ37^ətli dərəcədə normallaşmışdı.
1921- ci ildə Rusiya ilə Böyük Britaniya arasında ticarət müqaviləsi bağlanmışdır. Qərbdə artıq Rusiya ilə əlaqələr yaradılması barədə mülahizələr artırdı. Odur ki, 1922-ci ilin yanvar ayında Kann şəhərində «Antanta» dövlətlərinin konfransında qərara alınmışdır ki, 1922-ci ilin yazında Genuya şəhərində Avropa dövlətlərinin iqtisadi konfransı keçirilsin.

Yekun aktında iki əsas məsələ qoyulmuşdur: Birinci - heç bir millət başqasının mülkiyyətini mənimsəyə bilməz. İkinci - xarici mülkiyyətin tələb edilməsi və keçmiş hakimiyyətdən qalan bütün borclann hesaba alınması.

«Kann konfransı»nda qəbul edilən plana əsasən Avropada siyasi və iqtisadi vəziyyəti möhkəmlətmək məqsədi ilə beynəlxalq forum keçirilməsi nəzərdə tutulurdu:

*«Genuya konfransı».* «Antanta» dövlətlərinin birgə qərarı ilə yeni konfrans keçirilməsi nəzərdə tutulmuşdur. İtaliyanın Genuya şəhərində keçiriləcək bu konfransda nəzərdə

**' Kann Aral, dənizində C.Fransada Liman şəhəri**

tutulan əsas məsələlərdən biri də Avropada sülhün bərqərar olması və maliyyə və iqtisadi məsələlərin həllindən ibarət idi. Bununla da Almaniyanın hərbi cərimə verməsi işi yüngülləşdirilə bilərdi. Lakin Fransa konfransın keçirilməsinə mane olmaq istəyirdi. Buna baxmayaraq London konfransının 1922- ci ilin aprel ayında keçirilməsini təkid etmişdir. Sovet hökuməti də bu barədə güclü təbliğat aparırdı.

Həmin il fevral ayının 22-də RSFSR, Azərbaycan, EiTnənistan, Gürcüstan, Ukrayna, Belorusiya, Buxara, Xarəzm və Uzaq Şərq Sovet Respublikaları arasında razılıq imzalanmışdır. Bu razılığa əsasən Rusiya onların əvəzindən sənədləri imza etmək hüququ qazanmışdır. Konfrans 1922-ci il aprel ayının 10-da açılmışdır. Konfransda 29 dövlət iştirak etmişdir (Britaniya dom.innonları ilə birlikdə 34 dövlət).

Konfransda Rusiyanın müharibəyə qədər olan borclarının qaytarılması və ona vurulan zərərin ödənilməsi məsələləri müzakirə edilmişdir. Rəsmi olaraq konfrans 1922-ci il may ayının 19-da öz işini qurtarmışdır.

*«Rapall müqaviləsi».* Hələ «Genuya» danışıqları zamanı Sovet Rusiyası ilə Almaniya nümayəndələri arasında da danışıqlar gedirdi. Nəticədə 16 aprel 1922-ci ildə Genuya yaxınlığında Rapalloda Sovet-Alman müqaviləsi imzalanmışdı. Tərəflər təcili olaraq diplomatik əlaqələri və səfirlik müna- sibətələri yaratmaq, iqtisadi münasibətələri inkişaf etdirmək və qarşılıqlı olaraq hərbi xərclərin ödənilməsindən imtina etmək qərarına gəlmişlər.

Bu müqavilə; 1) Dövlətlər arasında heç bir öhtəçilik olmadan sülh münasibətlərinin mümkünlüyünü sübut etmiş olurdu; 2) Bu müqavilə ən böyük kapitalist dövlətlərindən birinin Sovet Rusiyasını tanımasını hüququ cəhətdən sübut edirdi; 3) Bu müqavilə iki dövlət arasındakı iqtisadi inkişafa zəmin yaratmış olurdu.

*«Haaqa konfransı».* «Genuya konfransı»nda danışıqlar zamanı xalis iqtisadi məsələlərə dair yeni bir konfrans

çağrılması da qərara alınmışdır. Bu konfrans Niderlandın Haaqa şəhərində (1922-ci ildə iyun ayının 15-dən iyul ayının 19-dək) keçirilmişdir. Konfransda «Genuya»da iştirak edən dövlət nümayəndələri (Almaniyadan başqa) iştirak edirdilər. Əslində, Rusiyadakı inhisar birliklərini təmsil edən ekspertlər iştirak edirdilər. Onlar Rusiyadakı milliləşdirilmiş mülkiyyətin ödənilməsini tələb edirdilər. «Antanta» dövlətləri çalışırdı ki, Çar Rusiyasından qalmış borcların qaɜharılmasma razılıq əldə etsinlər.

Sovet Rusiyası isə bu məsələyə baxılmasına razılıq verirdi. Lakin şərt qoyurdu ki, öz iqtisadiyyatını bərpa etmək və həmin borcları qaytarmaq üçün ona kredit versinlər. Bu şərtlərlə razılaşmayan xarici sahibkarlar və Qərb dövlətləri bu məsələnin müzakirəsinin nəticəsiz olduğunu görüb konfransın işini davam etdirməmişlər.

*Sovet Rusiyasının xarici siyasi nailiyyathri.* «Genuya» və «Haaqa konfrans»lan nəticə etibarı ilə gənc Sovet dövlətinin xarici siyasətinin sözsüz nailiyyətlərini göstərmiş olurdu. İmperialist dövlətləri öz şərtlərini ona qəbul etdirə bilməmişlər. Onların planları boşa çıxırdı. ABŞ, İngiltərə, Fransa və digər dövlətlərin mürtəce-irticaçı qüvvələrinin səylərinə baxmayaraq Sovet Rusiyası beynəlxalq aləmdə öz vəziyyətini möhkəmləndirirdi. 1923-1925-ci illərdə Sovet Rusiyası bir çox dövlətlərlə diplomatik əlaqə yarada bilmişdi. Bu dövr Sovet xarici siyasəti tarixinə **«Təsdiqləmə dövrü»** (və yaxud tanıma dövrü, etiraf zolağı) kimi daxil olmuşdu. 1922-ci ilin axırlarına Sovet İttifaqı yaradılması və onun beynəlxalq vəziyyətinin möhkəmlənməsi yenidən Sovetlər əleyhinə kompaniyanın artmasına səbəb olmuşdur. 1923-cü ilin yazında Avropanın bir çox dövlətlərində belə kompaniyalar daha da güclənmişdir.

İngiltərə SSRİ ilə münasibətləri gərginləşdirməkdə hər cür bəhanə axtarırdı. 1923-cü ilin mart ayında Sovet sahil keşikçi gəmisi İngiltərənin **«Ceyms Conson»** balıq tutan gəmisini (sərhəddi pozduğuna görə) tutmuşdu. İngiltərədə Sovetlər

əleyhinə hay-küy qalxmışdı. Həmin vaxtlar İngiltərə Sovetlərə hər cür təzyiq göstərməyə çalışırdı. 1923-cü il may ayının 8-də Böyük Britaniyanın xarici işlər naziri C. Kerzon Sovet hökumətinə **(tarixən məlum «Kerzon ultimatumu»)** memorandum (xəbərdarlıq) göndərmişdi. O Britaniya əleyhinə təbliğat aparmaqdan əl çəkməyi tələb edirdi. Sovet Rusiyası İrandan və Əfqanıstandan guya təbliğat aparan öz nümayəndələrini geri çağırmalı idi. İngiltərənin gəmisi azad edilməlidir, dəymiş zərər ödənilməlidir və s. Ultimatum hədə-qorxu ilə qurtararaq bildirilirdi ki, əgər 10 gün müddətinə bu tələblər yerinə yetirilməzsə, İngiltərə diplomatik əlaqələri kəsəcəkdir. Bu hədə-qorxu hərbi tədbirlərlə nümayiş etdirilmişdir. İki ingilis gəmisi iki ədəd hərbi gəmi ilə may ayının 26-da Murmanska gələrək (bir neçə gün) Sovet sularında qalmışdır. Başqa bir hərbi gəmi Arxangelsk su sahəsinə daxil olmuşdur. Elə həmin vaxt Lozanno (İsveçrə) şəhərində konfrans keçirilirdi. Vəziyyəti daha da qızışdırmaq məqsədi ilə Sovet nümayəndəsi V.V. Vorovskiy öldürülmüşdü. İsveçrə məhkəməsi caniyə bəraət qazandırmışdı. İngiltərənin hərəkətləri başqa dövlətlər, o cümlədən ABŞ tərəfindən də dəstəklənmişdir.

Aydındır ki, «Kerzon ultimatum» və İngiltərənin Sovetlər əleyhinə olan hərəkətləri Sovet adamlarında ciddi narazılıqlar yaratmışdır. Kütləvi nümayişlər keçirilirdi. Moskvada may ayının 12-də 500 min nəfərlik nümayiş keçirilmişdi. 1923- cü il may ayının 11-də Kerzonun əsassız xəbərdarlıqları Sovet hökuməti tərəfindən təkzib olunmuşdur. Qeyd etməliyik ki, İngiltərədə və eləcə də bəzi ölkələrdə əhali arasında Sovetlər əleyhinə apanlan açıq düşmənçiliklə razılaşmayanlar da az deyildi. Dünyada beynəlxalq münasibətlər, iqtisadi-ticarət münasibətləri dəyişirdi. Beynəlxalq münasibətlər o qədər də sabit deyildi.

O vaxt İngiltərədə Baş Nazir olmaq istəyən Kerzon səs qazana bilməmişdi. 1923-cü il may ayının 23-də Bolduin baş nazir vəzifəsini tutmuşdu. Həmin ilin axırlarına SSRİ ilə

münasibətlər az-çox yaxşılaşmışdı. 1923-cü ilin dekabr ayında İngiltərədə parlament seçkilərində **Leyboristlər partiyası** qalib gəlmişdi. Onlar öz xarici siyasi proqramlarına əsasən Sovet Rusiyası ilə siyasi, iqtisadi əlaqələr yaratmağa üstünlük verdiklərini bildirmişlər. Lakin İngilis sahibkarlarının milliləşdirilmiş mülkiyyətləri üzrə olan borcların ödənilməsində müəyyən güzəşt əldə etmək məqsədi ilə SSRİ -ni tanımağa o qədər də tələsmirdilər. Bütün bunlara baxmayaraq Makdonald' hökuməti 2 fevral 1924-cü ildə xarici işlər üzrə Xalq Komissarlığına bildirmişdir ki, o SSRİ-ni tanıyır və ticarət üzrə müqavilə bağlamağa hazırdır. Fevral ayının 8-də Xalq Komissarlar Soveti danışıqlara hazır olduğunu bildirmişdir. Beləliklə, İngiltərə SSRİ ilə diplomatik əlaqə yaradaraq onu tanıyan 11 -ci dövlət olmuşdu.

Rusiyanın, 1922-ci ildən isə SSRİ -nin artan sosial-iqtisadi inkişafı yeni sosialist dövlətinin möhkəmliyini göstərmiş olmuşdu. Vətəndaş müharibəsində qələbə, xarici müdaxilənin qarşısının alınması, xalq təsərrüfatının bərpa edilməsi, hərbi kommunizmdən yeni iqtisadi siyasətə keçid, təhsil sisteminin inkişafı və s. bütün bu kimi nailiyyətlər qərb ölkələrini məcbur edirdi ki, öz siyasətlərinə münasibətlərinə yenidən baxsınlar. 1924-cü ilin fevral ayında SSRİ İtaliya və Avstriya ilə, mart ayında isə Türkiyə, Çin və İsveçrə ilə diplomatik əlaqələr yaratmışdı. İngiltərədə olduğu kimi Fransada da Çar Rusiyası dövründən yaranan borcların ödənilməsini təkid edirdilər. Lakin diplomatik əlaqə yaratmağın tərəfdarları da az deyildi.

Lakin Puankara^ hökuməti öz tələblərində çox iddialı idi. SSRİ ilə münasibətlərin kəskinləşməsində Bessarabiya məsələsi də gündəlikdə dayanırdı. Rumıniya 1918-ci ildə

**‘ Makdonald Ceyms Ramsey (1866-1937) Leyb.part.lider. biri 1924-1931-ci illərdə baş nazir**

**■ Puankara raymon (1860-1934). 1913-1920 Fr.proezid. 1922-1924; 1926- 1929-baş nazir**

Bessarabiyanı işğal etmişdi və özünə birləşdirmək istəyirdi. Sovet hökumətinin Rumıniya ilə danışıqlar aparmasına Fransa maneəçilik göstərirdi.

1924-cü ilin may ayında Fransada Parlament seçkiləri keçirilmişdir. Qalib gələn **«Sol blok»** seçkiqabağı SSRİ-ni tanıyacağını bəyan edirdi. Nəhayət Enio' hökuməti beş aydan sonra 1924-cü il oktyabr ayımn 28-də SSRİ-ni tanımışdır. Amerilcadan ilk dəfə Meksika SSRİ -ni tanımış (4 avqust 1924-cü ildə), 1925-ci il yanvar ayının 20-də Yaponiya ilə diplomatik və səfirlik münasibətləri yaranmışdır. 1925-ci ildə Yaponiya ilə SSRİ arasında bağlanan müqavilə, demək olar ki, tarixdə məlum olan **«Təsdiqləmə** dövrü»nə yekun vurmuş olurdu. 1920-ci illərin ortalanna SSRİ 22 dövlət ilə diplomatik əlaqə yaratmışdı.

*Yaxın Şərqdə vəziyyət.* Məlumdur ki, 1920-ci illərin əvvəlinə İngiltərə Yaxın Şərq regionunda öz mövqelərini möhkəmlətməyə çalışırdı. Odur ki, bu regionda vəziyyət o qədər də sakit ötüşmürdü. İngiltərə planlaşdınrdı ki. Afrikada olan öz müstəmləkələrini Hindistan, Fələstin, Suriya və Mesopotamiya ilə birləşdirsin. Bu yolda Türkiyə onun üçün əsas maneə idi. Türkiyə ilə Yunanıstan arasında yaradılan müharibə də İngiltərə üçün **«xoşbəxtlik»** gətirməmişdir. Türkiyə ordusu Yunamstanı ağır məğlubiyyətə uğratmışdı.

Yaxın Şərqdə gərginliyin aradan qaldırılması məqsədilə Rusiyanın Xalq Komissarlar Soveti 1922-ci ilin sentyabr ayında İngiltərə, Fransa, İtaliya, Yuqoslaviya, Bolqarıstan, Ru- miniya, Yunanıstan və Misirə təklif edirdi ki, əgər Yaxın Şərq böhranının tənzim olunmasım istəyirsinizsə konfrans çağırılsın. Bu təklif qəbul olunmamışdır. Türkiyə ordusu hücumu davam etdirərək yunanları sıxışdırırdı. Odur ki, ingilislər türklərlə danışıqlar aparmaq qəranna gəlmişlər.

**Yunanların məğlubiyyəti** Yunamstanda və İngiltərədə iki hökumət başçısının istefasına səbəb olmuşdur. Yunan kralı

**' ErrioGduar (1872-1957). 1924-1925-1926-1932 baş nazir**

Konstnatin və İngiltərənin Baş Naziri Lloyd Corc istefaya getmişlər. Parlament seçkilərindən sonra İngiltərədə B.Lou Baş Nazir olmuşdur. Yaxın Şərqdə vəziyyətin sabitləşməsində Sovet hökuməti ilə İran arasında olan müqavilə də böyäik rol oynamışdır.

1921-ci ilin fevral ayının 26-da Sovet-İran müqaviləsi bağlanmışdır. Bu müqavilənin qərarı ilə Çar Rusiyası ilə İran arasında olan bütün müqavilələr, razılaşmalar ləğv edilmişdir. İki gündən sonra 28 fevral 1921-ci ildə Sovet Rusiyası ilə Əfqanıstan arasında müqavilə imzalanmışdı. Hər iki dövlət bir- birinin müstəqilliyini tanımışdır.

## XXI Fəsil.
## 1920-Cİ İLLƏRİN İKİNCİ YARISINA DÜNYANIN QABAQCIL ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN VƏ XARİCİ SİYASƏTİN İNKİŞAFI

**1920-Cİ** illərin ikinci yansına Avropada beynəlxalq münasibətlərin vəziyyətinin qiymətləndirilməsində üç əsas cəhəti qeyd etmək olar;

**Birinci** - Bir tərəfdən Almaniyanın sürətli iqtisadi inkişafı, digər tərəfdən isə «Versal sülh müqaviləsi»nin ağır şərtlərinin təsiri altında Veymar Respublikası güclü təbliğat apanlması ilə bu vəziyyətdən çıxmalı idi.

**İkincisi** - Məğlub olmuş Almaniya ilə Sovet Rusiyasının gələcəkdə yaxınlaşması Qərbi qorxudurdu. Hələ o vaxt bəziləri artıq iddia edirdi ki, güclənən Almaniya öz qüw'əiərini Şərqə deyil. Qərbə («Versal sülh müqaviləsi»nin iştirakçılarına qarşı) tərəf yönəldə bilər.

**Üçüncüsü** - Qalib ölkələr arasında fikir ayrılığı və ziddiyyətlər olduğu üçün Almaniya ilə ümumi iqtisadi və siyasi xətt yeridə bilmirdilər. Odur ki, «Almaniya problemi» Avropa siyasətində ən kəskin bir problem idi. Almaniyanın ödəməli olacağı hərbi cərimə istər Almaniyanı və istərsə də Qərb dövlətlərini düşündürürdü. Bu məsələ ancaq iqtisadi deyil, siyasi cəhətdən də böyük əhəmiyyət kəsb edirdi. Bu məqsədlə 16.08.1924-cü ildə Londonda konfrans çağırılmışdır. Konfransda, əsasən, Almaniyanın üzərinə qoyulan cərimə, onun ödənilməsi şərtləri, onu ödəmək üçün, iqtisadiyyatın bərpası üçün Almaniyaya köməklik göstərilməsi və s. problemlər müzakirə edilirdi. Almaniyaya **132 mlrd, marka** hərbi cərimə edilmişdir. Bundan əlavə sənayeləşmə, hərbi iş və digər sahələrin inkişafı üzrə də bir çox məhdudiyyətlər qoyulmuşdur. Bütün bunları ödəmək üçün Almaniyanın inkişaf planı da olmalı idi. Belə bir plan hazırlamaq üçün bö>dik ekspertlər

qrupu yaradılmışdır. Bu qrupa Amerikada Çikaqo banklarından birinin direktoru Ç. Daues' rəhbərlik etmişdir.

«Morqan» bank qrupu ilə sıx bağlı olan «Daues planı» 1924-cü il sentyabr ayının 1-dən qüvvəyə minmişdir. Cərimə öhtəliklərini həyata keçirmək üçün «Daues planı»nda üç əsas mənbə nəzərdə tutulurdu. 1) Kütləvi istehlak malları üzrə daxil olan rüsumlar və dolayı vergilər, xüsusi istiqrazlar buraxılması;
2) Almaniya dəmir yollarının istifadəsindən olan gəlirlər;
3) Sənayenin vergiyə cəlb edilməsi.

Onu da qeyd etməliyik ki, «Daues planı» işə düşəndən sonra Amerika kreditorları Almaniyaya **800 mln.marka** borc vermişlər, təkcə Amerikadan və İngiltərədən 21 mlrd, marka kredit almışlar. 1920-ci illərin axırlarına alman maqnatları itirilmiş beynəlxalq mövqelərini qaytara bilmişlər. «Daues planı» dövründə (1924-1932-ci illər) Almaniya öz ağır sənayesini və hərbi sənayesini təzələmiş və inkişaf etdirə bilmişdir. Bir az əvvələ keçərək qeyd edək ki, 1929-cu ildə dünya iqtisadi böhranının gərginləşdiyi bir şəraitdə **«Daues planı» «Yunq planı» ilə əvəz edilmişdir.** O, «Yunq Daues planı»nın iştirakçılanndan biri idi. Morqanın elektrotexniki trestinin prezidenti idi. Cərimə problemi üzrə ekspertlər komitəsinin sədri idi. Yunq cərimənin cəmi məbləğini 113,9 mlrd, markaya endirmiş, ödəniş müddətini 37 ilə nəzərdə tutmuşdur. Digər dəyişikliklər də edilmişdir.

Almaniyanın inkişafına hərtərəfli köməklik göstərilməsi ilə yanaşı hər halda «Lokaro konfransı»nm (5-16.10.1925) iştirakçılan Almaniyanın gələcək silahlanmasından ehtiyatlanırdılar. Həmin konfrans «Reyn təminat paktı» adlanır. Burada Almaniya, Belçika, Fransa, Böyük Britaniya və İtaliya öhtəçilik götürmüşlər ki, ərazi toxunulmazlığına təminat verilsin. Bu təminat müqaviləsinə əsasən Polşa və Çexoslovakiya sərhədlərinin pozulması baş verərsə köməklik barədə Fransa öhdəçilik götürmüşdür. 1 dekabr 1925-ci ildə Londonda

**' Daues Çariz (1865-1951) bankir, ABŞ -1925-1929 vitse prezident**

imzalanan Almaniya, Fransa, Belçika, İngiltərə və İtaliya arasındakı müqavilə də öz ilk başlanğıcını «Lokam müqaviləsi»ndən götürmüşdür. Adları çəkilən ölkələr bir tərəfdən Almaniya digər tərəfdən isə Fransa və Belçika ilə sərhədlərin toxunulmazlığına təminat vermişlər.

«Lokam konfransı»ndan sonra Avropada vəziyyət daha da gərginləşmişdir. Avropa dövlətlərinin qruplaşması artmışdır. İngiltərənin mövqeyi daha da artmış, Fransanın mövqeyi nisbətən zəifləmişdir. Almaniyanın qərb sərhədləri müəyyənləşdirildiyi halda, şərq sərhədləri açıq qalmışdır. Yenə də «Lokam konfransı»mn qərarına əsasən 1926-cı ilin sentyabr aymda Almaniyanı Millətlər Birliyinə qəbul etmişlər. İngiltərə diplomatiyası Şərqi Avropaya Fransamn təsirini artırmağa və Sovetlər əleyhinə qruplaşma yaradılmasına özü rəhbərlik etmək fikrində idi. O, Baltikyanı respublikaları Finlandiya və Polşam da bura qoşmaq istəyirdi (Baltikyanı «Lokarn» yaratmaq istəyirdi).

Öz növbəsində Sovetlər tərəfi də Baltikyanı dövlətlərlə müqavilə bağlamağa səy göstərirdi. İngiltərənin əks təsirinə baxmayaraq 1926-cı ilin sentyabr ayında Sovet İttifaqı ilə Litva arasında müqavilə bağlanmışdır. Bu, ticarət müqaviləsi idi, 1927-ci ildə qüvvəyə minmişdir. Bundan sonra İngiltərə yeni bir blok (Sovetlər əleyhinə) yaratmağa əl atırdı. Finlinadiya, Baltikyanı dövlətlər və Polşadan başqa Almaniyanı da bura qoşmaq istəyirdi. Ancaq Polşa bu layihəni dəstəkləyirdi. Almaniya burada iştirak etmək istəmədiyini bildirmişdir. 1926- cı ilin aprel aymda Sovet İttifaqı ilə dostluq və neytrallıq barədə müqavilə imzalamışlar (hər iki tərəfə aid siyasi və iqtisadi məsələlərin bütün tərəfləri üzrə razılaşma müqaviləsi). Bu müqavilə Sovetlər əleyhinə qruplaşmaya qarşı bir əksdurma idi.

İngiltərə hökuməti açıq-aşkar Sovetlər əleyhinə təbliğat aparırdı. Bunların başında Baş Nazir S.Bolduin və xarici işlər Naziri O.Çemberlen dumrdu. S.Bolduin 1927-ci ilin fevral

ayında İngiltərə-Sovet münasibətlərinin kəsiləcəyini də bildirmişdir. Beləliklə, 1927-ci il may ayının 27-də İngiltərə (1921-ci ildə yaradılmış)ticarət üzrə müqaviləni ləğv etmiş və diplomatik münasibətləri də pozmuşdur. Sonra ardıcıl olaraq bir çox araqızışdıncı hərəkətlər törətmişdir.

1927-ci il iyun ayının 7-də Polşada SSRİ-nin səlahiyyətli nümayəndəsi P.L. Voykov öldürülmüşdür. 1926-1927-ci illərdəki Sovetlər əleyhinə olan hərəkətlərə Çini də qoşa bilmişlər. Aprel ayının 6-da bir neçə əsgər və milis işçisi Sovet İttifaqının Çindəki səfirliyinə girərək müəyyən dağınıqlıq etmişlər, Şanxayda ingilis əsgərləri Sovet səfirliyinə soxulmuş və dağınıqlıq yaratmışlar. Lakin İngiltərənin planları özünü doğrulda bilməmişdir. Onlar belə hesab edirdi ki, Sovetlər əleyhinə təbliğatda başqa dövlətlər də onlara qoşulacaqlar. Belə olmadı. SSRİ ilə ticarət əlaqələri kəsildiyinə görə İngiltərənin ticarəti xeyli azalmışdır. Qeyd etməliyik ki, yalnız iki ildə (1927-1928) Almaniya SSRİ-yə İngiltərədən 700 mln. manat artıq məhsul satmışdır.

Beynəlxalq vəziyyətin qarışıqlığından istifadə edən Almaniya öz hərbi sənayesini artırırdı («Versal sülh müqa-viləsi»nin qərarlarımn əksinə). Bunu görən Fransa və onun müttəfiqləri olan Rumıniya, Polşa, Yuqoslaviya və Çexoslovakiya da hərbiləşməni artırırdılar. 1925-ci ilin sentyabr ayında Millətlər Birliyinin sessiyasında konfrans çağrılması qərara alınmışdır. Konfransda silahlanmanın məhdudlaşdırılması məsələlərinin müzakirə edilməsi nəzərdə tutulmuşdur.

Konfransa hazırlıq üçün komissiya da yaradılmışdır. ABŞ və SSRİ də dəvət edilmişdir (onlar bu təşkilatın üzvü deyildilər). Bir neçə layihə hazırlanmışdır. Fransa layihəsində beynəlmiləl ordu yaradılması təklif edilirdi. İngiltərə, əsasən, aviasiyanın və sualtı flotun azaldılmasına üstünlük verirdi. Konfrans İsveçrədə keçdiyi üçün Sovet İttmfaqı ora getməmişdi. Çünki o vaxt V.V. Vorovskinin öldürülməsindən sonra İsveçrə ilə bütün əlaqələr kəsilmişdir. Sonra 1927-ci ilin aprel

aymda İsveçrə bu hadisəni pisləmişdir. Odur ki, Sovet nümayəndələri də İsveçrəyə gəlmişlər. Bütün bu kimi gərginliklə və müharibə qorxusu ilə bağlı olaraq Fransanın xarici işlər Naziri A.Briam Amerika xalqına təklif göndərmişdir. O, göstərirdi İd, hər iki ölkə müharibəni pisləmək barədə bəyannamə hazırlasın. 9 aydan sonra Amerikamn dövlət katibi F.Kelloq ona məktub yazaraq bildirmişdir ki, ancaq bəyannamə ilə kifayətlənmək olmaz, digər təkliflər də hazırlansın və böyük dövlətlər də bu təkliflərə qoşularaq öz razılıqlarını bildirsinlər.

1928-ci il aprel ayının 13-də Kelloq öz layihəsini məktubla İngiltərə, Almaniya, İtaliya və Yaponiyanın xarici işlər nazirlərinə göndərmişdir ki, müzakirə etsinlər. Bu iş «Brianın başının üstündən» olduğu üçün fransızların o qədər də xoşuna gəlməmişdi. Lakin Fransa da bu layihə ilə razılaşmalı olmuşdur. 1928-ci il avqust ayının 27-nə 15 dövlət bu layihəyə imza etmişdir. Həmin ilin sentyabr aymda SSRİ xarici işlər Naziri M.M.Litvinov da Fransa səfiri vasitəsi ilə bu beynəlxalq müqaviləyə qoşulduğunu bildirdi. Sonra Polşa, Rumıniya, Estoniya, Latviya, Litva, Türkiyə, İran da bu layihəyə qoşulduqlarmı bildirmişlər. Beləliklə, 1927-1928-ci illərdəki beynəlxalq hadisələrin inkişafı göstərirdi ki, sülhün saxlanılması və normal münasibətlər yaradılması ancaq böyük dövlətlərin sağlam əməkdaşlığı şəraitində mümkün ola bilər.

## Dünya iqtisadi böhranı illərində beynəlxalq vəziyyət

1920-1930-cu illərdə dünya miqyasında iqtisadi böhran baş verirdi. İlk əvvəl böhran vəziyyəti 1929-cu ildə ABŞ-ın birjalarında özünü göstərmişdir. Sonra böhran vəziyyəti Avropaya keçərək bütün sənaye ölkələrini bürümüşdü. Böhranın ilk illərində sənaye istehsalının həcmi kəskin surətdə azalmışdır. Sonra ticarət azalmışdır. Bu isə maliyyə iflasına səbəb olmuşdur. Böhran ABŞ-ın bütün iqtisadiyyatını bürümüşdü.

Bundan sonra müflisləşmə başlanmışdır. 135 min firma, 10 min bank öz fəaliyyətini dayandırmışdır. Demək olar ki, bütünlükdə istehsal 50% ixtisara düşmüşdür. İki il ərzində kapitalist ölkələrində istehsalın həcmi 40% azalmışdır. 1932-ci ildə bütün işsizlərin sayı 30 mln nəfər təşkil etmişdir.

Aydındır ki, bu cür iqtisadi vəziyyət həmin illərdə beynəlxalq münasibətlərə təsir etməyə bilməzdi. Satış bazarı uğrunda mübarizə dalıa da güclənirdi. Ayrı-ayrı ölkələr arasındakı ziddiyyət daha çılpaqlığı ilə özünü göstərirdi. Birinci Dünya Müharibəsində məğlub olmuş, hərbi cərimə verməli olan bəzi ölkələr belə vəziyyətdən istifadə edərək həmin hərbi cəriməni ödəməkdən boyun qaçırırdılar. Bunlar Almaniya, Avstriya, Macarıstan və Bolqarıstan idi. Beləliklə «Versal sülh müqaviləsi»nin qərarı iflasa uğrayırdı.

***Almaniyanın hərbi cəriməsinə yenidən baxılması.*** Hələ 1919-cu il «Versal müqaviiəsi»nin qərarına əsasən Almaniyaya cərimələr müəyyən edildikdə o, bir çox maddələrlə qəti razı deyildi. Lakin demək olar ki, məcbur edilmişdir. O vaxtdan artıq 10 il keçmişdir. Almaniya bu cərimələrin təsiri altında müəyyən mövqe tuta bilmirdi. Odur ki, Almaniya hökuməti dövlətlərarası iqtisadi münasibətlərə və hərbi cərimələrə və «Daues plam»na yenidən baxılması məqsədi ilə konfrans çağrılmasmı tələb edirdi. Beləliklə, 1929-cu il fevral ayının 11-də Parisdə bəzi dövlətlərin ekspertləri toplantı keçirmişlər. «Daues plan»ı müzakirə edilirdi.

Bu plana Morqanm elektrotexnika trestinin prezidenti Amerika bankiri O. Yunq sədrlik edirdi. Əvvəldən də məlumdur ki, cərimə alınmasında ən maraqlı tərəf Fransa idi. Lakin Fransa da «Daues planı»na yenidən baxılmasına razılıq vermişdir. Bir neçə aydan sonra ekspertlər komitəsi işi yekun- laşdınb yekun sənədi hazırlamışlar. Bu sənəd «Yunq planı» adlanmışdı. Bu plana əsasən hərbi cərimə 113,9 mlrd, marka müəy>'ən edilmişdir. Cərimənin ödənmə müddəti 37 il, orta illik ödəmə məbləği 2 mlrd, marka müəyyənləşmişdi.

«Paris yığıncağın»da bir çox digər qərarlar da qəbul etmişdir. Belə ki , cərimə komissiyası ləğv edilmişdir, dəmir yolu və müəssisələr üzərindəki nəzarət götürülmüşdür. Reyn zonasındakı ordunun çıxarılması məsələsi də həll edilmişdir. «Yunq planı» 1930-cu ilin iyun ayında qüvvəyə minmişdir. Bir ildən sonra Almaniya ABŞ-a müraciət edərək (cərimənі ödəmək üçün) yardım istəmişdir. Amerika bankirləri yardım etməyə çox ehtiyatla yanaşırdılar. ABŞ-ın prezidenti Q.Quver hərbi cərimənin ödənilməsi və hərbi borc barədə moratorium keçirilməsini təklif etmişdir. Bu Fransa üçün ildə 2 mlrd frank itki demək idi. Buna baxmayaraq cərimələrin ödənilməsi üzrə ardıcıl olaraq müəyyən dəyişikliklər həyata keçirilirdi. 1931-ci ilin ortalarında ABŞ-m prezidenti Q.Quver cərimə ödəmələrini bir illiyə dayandırmağı təklif etmişdir. Bir ildən sonra isə 1932- ci ilin iyun ayında «Lozann konfrans»mda hərbi cərimənin ödənilməsi ləğv edilmişdir.

Bankirlər və sənayeçilər öz iqtisadi və maliyyə vəziyyətlərini hesablamaqda olarkən siyasi və diplomatik dairələrdə pan avropa yaratmaq layihəsi meydana gəlmişdi. 1930-cu il may ayının 17-də Fransanın xarici işlər naziri A.Brian Avropamn 27 dövlətinə təkliflə müraciət etmişdir. O, Avropa Federal ittifaqı yaratmağı təklif edirdi. O, göstərirdi ki, bu dövlətlərarası birlik iki orqana malik olacaqdır.

Biri Avropa Komissiyası kimi fəaliyyət göstərəcək. Biri isə icra orqanından ibarət Avropa Komitəsi olacaqdır. Burada ilk əvvəl Fransa öz mövqeyini artırmağa səy göstərirdi. Bu layihə Avropada və Millətlər Birliyində İngiltərənin təsir dairəsinin azaldılmasına yönəldilmişdir. İkinci tərəfdən isə Fransanın pan-avropa planı Sovetlər əleyhinə yönəldilmiş bir layihə idi. Lakin Fransamn layihəsi kağız üzərində qaldı. İngiltərə, Almaniya, İtaliya onun əleyhinə çıxdılar. Həmin dövrdə ikinci bir plan meydana çıxdı. İki dövlətin birləşməsi planı. 19 mart 1931-ci ildə Avstriya ilə Almaniya arasında «Gömrük ittifaqı yaradılması barədə» müqavilə bağlandı. Bu

xəbər avropada və xüsusilə Fransada çox narahatlıq yaratdı («Versal sülh müqaviləsi»nin şərtlərinə görə hər hansı iki dövlətin birləşməsi qadağan idi). Odur ki, Fransa Almaniya ilə Avstriyanın birləşməsi məsələsini Beynəlxalq Məhkəməyə verməli olmuşdur.

Daimi Beynəlxalq Tribunal Avtsriyanın əvvəlcə götürdüyü öhtəliklə bu birliyin bir araya sığmaması barədə qərar qəbul etmişdir. Vəziyyəti belə görən Almaniya və Avstriya Gömrük İttifaqı yaratmaq planından imtina etmişlər.

*Silahlanma uğranda bəhsləşmə.* «Vaşinqton konfransın»da (12.11.1921) bəzi hərbi gəmilərin istehsalı qadağan edilmişdir. Odur ki, başqa növ gəmi quruculuğu uğrunda mübarizə gedirdi. İngiltərə başqa ölkələrə məxsus olan bütün növ gəmilərin yaradılması ilə məhdudlaşırdı. İngiltərə «Va- şinqton müqaviləsi»ni imza edən beş dövlətin konfransını çağırmağı təklif etmişdi. Konfransın işi 1930-cu ildə yanvar ayının 21-dən aprel ayının 22-dək Londonda apanimışdır. Bəzi fikir müxtəlifliyi olsa da hər halda müəyyən hərbiləşmə işinin azaldılması barədə «Vaşinqton razılaşma»larını tamamlaya bilən qərar qəbul edilmişdir. Üç böyük ölkədə hərbi gəmilərin müəyyən məhdud tonnajda olması dəqiqləşdirilmişdi.

Sürətli böyük hərbi gəmilərin (kreyserlərin) ümumi tonnajı: İngiltərədə 339 min ton, ABŞ-da 323 min ton, Yaponiyada 209 min ton qəbul edilmişdir. Hər üç dövlət üçün sualtı qayıqların ümumi tonnajı 52,7 min ton müəyən edilmişdi.

*Tərksilah haqqında aCenevrə konfransım.* Demək olar ki, bütün dövlətlərin iqtisadiyyatı çox kəskin vəziyyətə düşmüşdü. Almaniyaya kəsilmiş hərbi cərimənin ödənilmə müddətinin uzadılması da kredit böhranının dayandırılmasına kömək edə bilmirdi. İngiltərə bankları kapitalın azalmasının və qızıl ehtiyyatınm tükənməsinin qarşısını ala bilmirdilər. Odur ki, İngiltərə hökuməti 21 sentyabr 1931-ci ildə qızıl standartını dəyişməli olmuşdur. Avropanın başqa dövlətləri də qızıl standartını dəyişmişlər. Avropada fundsterlinqin əvəzinə ABŞ

dolları artırdı. Bir ayın ərzində Avropaya dollar axını 330 mln.dollar təşkil etmişdir.

İqtisadi böhran Avropanı siyasi böhrana gətirərək dövlətlərarası münasibətləri daha da kəskinləşdirirdi. Odur ki, uzun müddətli hazırlıq işləri apanidıqdan sonra 1932-ci il fevral ayının 2-də tərksilah barədə Cenevrədə beynəlxalq konfrans açılmışdır. Konfransa 12 dövlətdən nümayəndə gəlmişdir. Sovet hökumətindən olan nümayəndələr tərksilah barədə çox hərtərəfli hazırlanmış layihə təqdim etmişlər. Əlbəttə, başqa layihələr də vardır.

Fransa öz layihəsində yenə də «Versal müqaviləsi»nin qərarlarına əsaslanmağı tövsiyə edirdi. İngiltərə öz layihəsində sualtı qayıqlann ləğv edilməsini və ordunun məhdudlaşdınl-masını təklif edirdi. Almaniya öz hərbi qüvvələrinin başqa böyük dövlətlərlə bərabərləşməsi barədə məsələ qaldırırdı. ABŞ və İngiltərə Almaniyanın layihəsini dəstəkləyirdi. Bununla da Fransaya və xüsusilə **SSRİ-yə** qarşı güclü dövlətin yaranması işi öz həllini tapmış olurdu.

Konfransın birinci sessiyası 23 iyul 1932-ci ildə öz işini qurtarmışdır. Lakin bu sessiyada heç bir qərar qəbul edilməmişdir. Həmin ilin dekabr ayında Cenevrədə beş dövlətin yığıncağı olmuşdur: İngiltərə, Fransa, ABŞ, İtaliya və Almaniya. Burada başqa dövlətlərlə birlikdə Almaniyaya da öz təhlükəsizliyini təmin etməkdə bərabər hüquq verilmişdir. 1918-ci ildən sonra ilk dəfə idi ki, Almaniyaya belə bərabərlik qeyd edilmişdir. Bununla da alman hərbi potensialının bərpasına imkan yaranmışdır.

*Sovet-Fransa münasibəthri.* Yuxarıdakı paraqraflarda olan açıqlamalardan aydın görünür ki, ABŞ-ın və İngiltərənin təsiri altında Fransanın mövqeyi aşağı düşürdü. Almaniyanın mövqeyi isə nisbətən artırdı. Ona görə də Fransada Sovet İttifaqı ilə ticarət əlaqələrini artırma meyli güclənirdi. 1930-cu illərin axırlannda Fransanın təşəbbüsü ilə Fransa ilə Sovet İttifaqı arasında iqtisadi və ticarət əlaqələrinin inkişafı barədə

danışıqlar artmış və eyni zamanda bir-birinə hücum etməmək barədə müqavilə bağlanması üzrə danışıqlar aparılmışdır. Əlbəttə, bu danışıqları istəməyən mürtəce qüvvələr də az deyildi. Bu danışıqları pozmağa çalışırdılar. May ayının 6-da ağqvardiyaçılardan biri Fransanın prezidenti P.Dumeranı öldürmüşdür. Fremsada parlamentə seçkiqabağı baş verən bu hadisə münasibətləri tamam poza bilərdi. Lakin seçkilərdə sol blok qalib gəlmişdi. Beş-altı aydan sonra 1932-ci il noyabr ayımn 29-da hücum etməmək barədə Sovet - Fransa müqaviləsi imzalandı. Hər iki ölkə bir-birinin daxili işinə qanşmamaq barədə öhtəçiliyə də imza atmışlar. Buradan da SSRİ-nin təcrid olması cəhdinə də son qoyulurdu.

# XXII Fəsil.
# UZAQ ŞƏRQDƏ VƏ AVROPADA İKİ MÜHARİBƏ OCAĞININ YAIU^DILMASI VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

1932-ci ilə iqtisadi böhran ən yüksək həddə çatmışdı. Birinci Dünya Müharibəsi ərəfəsində olduğu kimi yenə təsir dairəsinin bölüşdürülməsi, xammal mənbələri üstündə mübarizə, satış bazarları uğrunda mübarizə məsələləri qaldırılırdı. Yenə də müharibə barədə fikirlər gəzirdi. Birinci Dünya Müharibəsindən sonra məğlub olmuş dövlətlər özlərini bölüşdürülmüş hesab edir və iddialannı bildiridilər.

1931-ci ilin payızında belə bir ilk addım Yaponiya tərəfindən atılmışdır.

*Yaponiyanın işğalçılıq siyasəti.* 1927-ci ilin yayında Yaponiyanın hərbi və mülkİ məmur nümayəndələrinin məxfi konfransı keçirilmişdir. Konfransa general Tanaka sədrlik edirdi. Konfransda Yaponiyanın Çinə qarşı siyasəti barədə sənəd ha;^ırlanmışdı. Bu sənəd **«Tanakanın memorandumu»** adlanırdı. Sənəd **«Mançuriya və Monqolustanda pozitiv siyasətin əsaslan»** adı ilə imperatora göndərilmiş, 1929-cu ildə isə Çində dərc etdirilmişdir. Bu sənədin əsas məqsədi Çinin birləşməsinə imkan verməmək və onu müstəqillikdən məhrum etməkdən ibarət idi. Sənəddə Çinin Şimal şərq əyalətlərini və Monqolustanı işğal etmək, bunlardan müharibə meydanı kimi istifadə edərək Çinin və Asiyanın digər dövlətlərini də ələ keçirmək planı öz əksini tapmışdır.

O vaxtlar Yaponiya iqtisadiyyatı sürətlə inkişaf etdirilirdi. Odur ki, xarici bazarı genişləndirməyə çalışırdı. Yaponiyanın hərbi dairələri bilirdi ki, bu kimi planları həyata keçirmək üçün ancaq Rusiya ilə deyil, ABŞ ilə də qarşılaşmalı olacaqdır. ABŞ Çinə olan xarici əlaqələri, ticarəti, təsir dairəsini genişləndirirdi.

ABŞ Çan Kayşi hakimiyyətinin möhkəmlənməsinə köməklik edirdi. 1927-ci ildə bağlanmış məxfi müqaviləyə əsasən Çinin hakimiyyət orqanlarına Amerika müşavirləri məsləhət verirdilər.

ABŞ və İngiltərə Yaponiyanın hərbi gücünün artmasını ardıcıllıqla izləyirdilər. 1930-cu ildə konfransda **«Dəniz qanunu»** qəbul edilmişdir. Bu qanuna əsasən Yaponiya öz hərbi gəmilərinin tonnajını ABŞ və İngiltərənin gəmi donanmasının 70%-i həcminədək azaltmalı idi.

Bütün bunlara baxmayaraq Yaponiya müharibəyə hazırlaşmaqda davam edirdi. O, müharibəni ilk əvvəl Çin ilə başlamağı qərara almışdı. Beləliklə, 1931-ci ildə sentyabr ayının 18-19-da onlar hərbi yürüşə başlayaraq Çinin Şimal- Şərq hissəsini tutmuşlar. Burada Yaponiyanın gənc zabitləri daha böyük rol oynayırdılar.

**Millətlər Birliyinin fəaliyyəti.** Elə həmin vaxt 1931-ci ildə sentyabr ayının 19-da Çinin və Yaponiyanın nümayəndələri Millətlər Birliyinin sessiyasında Uzaq Şərqdəki vəziyyət barədə məlumatla çıxış etmişdilər. İki gündən sonra Çin hökuməti Millətlər Birliyinə köməklik göstərməsi üçün müraciət etmişdir.

Lakin İngiltərə, Fransa, İtaliya və Almaniya dövlətlərinin heç biri müəyyən tədbirlər görülməsinə səy göstərməmişlər.

ABŞ isə Yaponiya ilə birlikdə öz təsir dairəsini artırmağa çalışırdı. Nəhayət, 1931-ci ilin dekabr ayında Millətlər Birliyi komissiya yaratmalı olmuşdur. Komissiyaya Hindistanın vitse-kralı lord V.P. Litton başçılıq edirdi. Bu Komissiyanın tərkibinə Böyük Britaniya, Fransa, İtaliya, Almaniya və ABŞ nümayəndələri daxil idi (ABŞ Birliyin üzvü deyildir).

1932-ci ilin yazında Komissiya Çinə gələrək fəaliyyətə başlamışlar. ABŞ rəsmi olaraq Yaponiyanın hərəkətini pisləyirdi. ABŞ-ın dövlət katibi **Stimson Çinə** və Yaponiyaya

nota göndərərək bildirirdi ki, ABŞ Çində heç bir ərazi dəyişikliyini tanımayacaqdır.

Yaponiya qərb dövlətlərinin həqiqi mövqeyini bilirdi. Odur ki, o, Komissiyanın işinə heç bir məhəl qoymadan hücumu davam etdirirdi.

Hətta qatara basqın edərək Sovet qulluqçularım həbs etmiş və nəqliyyat əmlakını ələ keçirmişlər.

193 3-cü il fevral ayının 24-də Millətlər Birliyinin məclisində Çinin Şimali-Şərqinin tənzimlənməsi barədə qətnamə qəbul edilmişdi. Yaponiya bu sənədə məhəl qoymayaraq 1933-cü il mart ayının 27-də Millətlər Birliyindən çıxmasım bildirirdi. Beləliklə, Yaponiya açıq-aşkar öz hərbi hərəkətini davam etdirməli olurdu. Beləliklə, Uzaq Şərqdə müharibə mənbəyi yaranmışdı.

**Almaniya faşizmi.** Yalnız Uzaq Şərq deyil Avropada da hadisələr çox təhlükəli istiqamət alırdı. Yaponiya təcavüzü üçün «Tanaka memorandumu» proqram rolu oynayırdısa, Almaniya hərbisi üçün hərəkət proqramı A. Hitlerin **«Mənim mübarİzəm»** kitabı olmuşdur. O, bu kitabı 1924-cü ildə yazmışdır. Bu kitabda Almaniyanın milli-sosial partiyasının mürtəce proqramı öz əksini tapmışdır. Bu partiya 1930-cu illərdən hakimiyyətə gəlməyə can atırdı.

Milli sosialistlər alman xalqını öz ətrafına cəlb etmək üçün onları «Versal sülh müqaviləsi»nin qərarlarından imtina etməyə çağırırdı. Xalqı **«milli inqilab»a** səsləyirdi. Ayn-ayrı partiyalar arasında möhkəm birlik yox idi. Odur ki, ölkə daxilində faşizmin qarşısını almaq, Hitlerin hakimiyyətə gəlməsinə maneçilik törətmək mümkün deyildi.

Faşizmin hakimiyyətə gəlməsindən əvvəl 1931-ci ilin axırlannda faşist partiyasının nəzəriyyəçilərindən biri **A. Rozenberq** İngiltərəyə gedərək orada görüşlər keçirmişdir. O, ingilisləri inandırmağa çalışırdı ki, «Versal sülh müqavi- ləsi»nin qərarlanm ləğv etmək lazımdır. Xahiş edirdi ki, milli- sosialist partiyasını dəstəkləsinlər. 1932-ci ilin yayında Alma

niyada siyasi böhran başlamışdı (Hitlerin vəzifəyə gəlməsi ilə bağlı olaraq) Hitler yığıncaqlarda, qurultaylarda, konfranslarda alman xalqını əmin etməyə çalışırdı ki, ancaq onlar Almaniyanı sosial-iqtisadi böhrandan çıxara bilərlər. Sənayeçilərə çoxlu hərbi sifarişlər verməklə onların gəlirlərinin artmasına həvəs yaradırdılar.

Hitler 1933-cü ildə vitse-kansler F.Fon Papen ilə hakimiyyət bölgüsü baıədə də razılığa gəlmişdir.

1933-cü il yanvar ayının 30-da **Hitler reyxs - kansler, F.fon Papen** isə vitsekansler vəzifəsini tutmuşlar. Daha doğrusu , həmin vaxt Almaniyada maliyyə-maqnatlarının tələbi əsasında prezident **Hindenburq** hakimiyyəti real olaraq Hitlerə vermişdir. Hitler özünü alman xalqının xilaskarı kimi göstərirdi. Beləcə, Almaniyada faşist, terrorist bir rejim yaranırdı. Kommunistlərə qarşı çox ciddi tədbirlər həyata keçirirdilər. Kommunist partiyasının rəhbərlərindən biri olan E. Telmanı həbs etmişlər. Beynəlxalq aləmdə özlərini əməkdaşlıq tərəfdan kimi göstərərək 1933-cü il iyul ajanm 15-də Böyük Britaniya, Fransa, Almaniya və İtaliya ilə **«Dördlük mü- qaviləsi»** bağlamışlar. Əslində bu sənəd Avropa demokratiyasını arxayın salmaqdan başqa bir şey deyildi.

*Almaniyanın Millətlər Birliyindən çıxması.* Qeyd etmək olar ki, Almaniyanın əməkdaşlığa can atmasına nisbətən normal münasibətlərə qarşı olan saymazlığı daha aydın özünü biruzə verirdi. Elə bu kimi münasibətlərin nəticəsi idi ki, 1933- cü ilin payızında tərksilaha qarşı keçirilən konfransda **xarici işlər Naziri fon Neyrat** Almaniya üçün də Birinci Dünya Müharibəsində qalib ölkələrlə tam bərabərlik olmasını tələb etdi.

Fransa Almaniyanın silahlanmasından ehtiyatlanaraq təsdiqlənmiş həddə silahların saxlanılmasına təkid edirdi. İngiltərə və İtaliya Almaniyanı müdafiə etsə də ABŞ-ın dəstəyi ilə Fransanın təklifini müzakirə etmək üçün dörd dövlət arasında razılaşma həyata keçirilmişdi: Böyük Britaniya, Fransa,

İtaliya, ABŞ-ın birgə rəyi ilə Almaniyada tərksilah məsələsinin iki mərhələdə həyata keçirilməsi qərara alınmışdır. Neyrat bu layihəni qəbul etməmiş və oktyabr ayının 6-da Almaniya Londona və Romaya bu aynseçkilik barədə nota göndərmişdir. Hər iki tərəfin cəhdləri nəticə verməmiş, Almaniya Yaponiya kimi 14 oktyabr 1933-cü ildə Millətlər Birliyindən çıxmışdır. Bu fakt bir daha onu göstərmişdir ki, Almaniya beynəlxalq təşkilatla da hesablaşmayır.

*«Şərq paktı» (müqaviləsi).* Almaniya «Versal Sülh müqaviləsi»nin qərarlarından imtina edərək silahlanmanı artırmaqda davam edirdi. Bu isə Avropam və ilk növbədə Fransanı narahat edirdi. Fransanın Mərkəzi və Cənubi-Şərqi Avropadakı mövqeyini sıxışdırırdı. Belə bir şəraitdə Fransanın xarici işlər Naziri **L. Bartu** bəzi Avropa dövlətləri arasında qarşılıqlı yardım sistemi yaradılmasını təklif etmişdir. Almaniyanın təcavüzü olarsa bu sistemə əsasən bu dövlətlər biri- birinə köməklik edə bilərdilər. **Beləcə «Şərq paktı» ideyası yaranmışdır.**

1934-cü il yanvar ayının 2-də Almaniya Avropada yaranan bu sistemi dağıtmağa çalışmışdır. Daha doğrusu yanvar ayının 26-da Berlində Polşa ilə hücum etməmək və qarşılıqlı yardım barədə müqavilə imzalamışlar.

1934-cü ilin yazında Fransa Sovet İttifaqı ilə danışıqlar apararaq Almaniya, SSRİ, Polşa, Çexoslovakiya, Litva, Latviya, Estoniya və Finlandiyanın da bu «Şərq paktı»na daxil olmasını təkid edirdi. SSRİ bu təklifi qəbul etdiyi halda Almaniya və Polşa damşıqlarda iştirak etməmiş, Finlandiya isə ümumiyyətlə bu müraciətə cavab verməmişdir. İngiltərə də əvvəlcə bu müraciətə dəstək verdiyi halda sonralar fikrindən dönmüşdür.

Fransanın bu diplomatiyası Balkan ölkələrində də müsbət qarşılanmışdır. 9 fevral 1934-cü ildə Afinada Yunanıstan, Rumıniya, Türkiyə və Yuqoslaviya arasında «Bağdad

**paktı»** imzalanmışdır. Lakin Almaniya və İtaliyanın təsiri altında Bolqarıstan və Albaniya bu pakta qoşulmamışlar.

*AvstriyamnAlmaniyaya birləşdirilməsi siyasəti.* Belə bir qarışıq zamanda Avropada yeni bir problem meydana çıxmışdı. Almaniya Avstriyanı işğal etməyə hainrlaşırdı. Avstriyanın işğal edilərək Almaniyaya birləşdirilməsi əleyhinə Avstriyanın federal kansleri Dolfue çıxış etmişdir. Əvvəlcə onu İtaliya hökumətinin başçısı B. Mussolini dəstəkləyirdi. Lakin sonra (14-15 iyun 1934-cü ildə) Venesiyada B. Mussolini Hitler ilə görüşdükdən sonra vəziyyət dəyişmişdi.

İki həftədən sonra 1934-cü il iyun ayının 30-da Avstriyanın federal kansleri Dolfue öz kabinetində nasistlər tərəfindən öldürülmüşdür. Elə həmin vaxt Avstriya hökuməti istefa vermişdir.

Avstriyanın nasist nazirlərinin bu kimi üsyanı o qədər də faydalı olmamışdı. Çünki Mussolini Dunay regionunu İtaliyanın təsir dairəsi hesab edirdi.

Odur ki, qiyamçılara qarşı çox kəskin hərəkət edərək Avstriya sərhəddinə üç diviziya göndərmişdi. Həmin vaxt Hitler İtaliyanın bu hərəkətinə qarşı o qədər də hazır deyildi. Lakin Hitler Almaniyası İngiltərənin köməkliyinə arxayın olduğu üçün başqa dövlətlərlə heç də razılaşmırdı. Beləliklə eyni vaxtda **iki faşist dövlətin** - Almaniya və İtaliyanın əlaqələri möhkəmlənirdi.

*SSRİ-nin sülh diplomatiyası.* 1933-cü ildə Franklin **Delano Ruzvelt (1882-1945)** ABŞ-ın prezidenti seçildikdən sonra ABŞ ilə Sovet İttifaqı arasında diplomatik əlaqələr yaranmışdır. Həmin ilin noyabr ayında Vaşinqtonda və Londonda müəyyən danışıqlar apanlmış və F. **Ruzvelt** ilə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri M.İ. Kalinin (1875- 1946) arasında kifayət qədər məktublaşmalar da olmuşdur. Yenə 1933-cü ildə SSRİ ilə İspaniya və Uruqvay arasında da diplomatik münasibətlər yaranmışdır.

193 3-cü ilin sentyabrında Sovet İttifaqı ilə İtaliya arasında dostluq, hücum etməmək və neytral olmaq barədə müqavilə imzalanmışdı. Paktın adında **«dostluq»** sözünün yazılması şəxsən **Mussolinin** təkidi əsasında həyata keçirilmişdir. Bu cür müqavilələr digər ölkələrlə də imzalanmışdır.

**SSRİ-nin Millətlər Birliyinə daxil olması.** 1919-cu ildə «Paris konffansı»nda Millətlər Birliyinin nizamnaməsi qəbul edildikdə Sovet Rusiyası ora daxil olmamışdır. Bu təşkilat beynəlxalq münasibətlərin möhkəmlənməsində və təcavüzkarlığa qarşı mübarizədə o qədər də təsirli tədbirlər görə bilmirdi. Onun rolunun artınimasma zərurət yaranırdı. Odur ki. Qərb dövlətlərinin bəzi siyasi xadimləri Sovet İttifaqım bu təşkilata dəvət etməyə üstünlük verirdilər. Bu fikrin əsas müəlliflərindən biri Fransanın baş naziri sonra xarici işlər naziri **Bartu Lui (1862-1934)** olmuşdur. Fransa diplomatiyasının təşəbbüsü ilə Birliyin üzvü olan 30 dövlətin imzası ilə SSRİ-yə teleqram göndərmişlər. Sovet İttifaqı bu təşkilata daxil olmağa razılıq verərək bildirirdi ki, SSRİ-yə Millətlər Birliyinin şurasında daimi yer verilməlidir. Beləliklə, 1934-cü il sentyabr ayının 18-də Millətlər Birliyinin iclasında SSRİ bu təşkilata üzv qəbul edilmişdi. Birliyin şurasında da SSRİ nümayəndəliyinə daimi yer verilmişdir.

*Yeni təcavüzkar aktı.* Təcavüzkarlıqla mübarizəyə, sülh uğrunda, kollektiv təhlükəsizlik uğrunda gedən mübarizəyə cavab olaraq faşist ölkələri daha qanlı hadisələr törətməkdən çəkinmirdilər. Belə ki, 1934-cü il sentyabr ayının 9-da yeni cinayət hadisəsi baş vermişdi. Həmin günü **Marsel** şəhərində Fransanın xarici işlər Naziri **Bartu və Yuqoslaviya Kralı Aleksandr** öldürülmüşlər. Bartunu P.Laval əvəz etmişdir. O, Hitler Almaniyasına çox rəğbət bəsləyirdi. Beləliklə, ikinci müharibə mənbəyi Avropada yaradılırdı.

## XXIII Fəsil.
## HİTLER ALMANİYASI İTTİFAQININ GENİŞLƏNMƏSİ SSRİ-NİN XARİCİ SİYASƏTİNİN FƏALLAŞMASI

1935-ci illərdə beynəlxalq gərginlik daha da artmaqda davam edirdi. Almaniya və İtaliya açıq-aşkar müharibəyə hazırlaşırdılar. Almaniyanın bütün hərəkətləri «Versal sülh müqaviləsi»nin əksinə idi. 1935-ci ildə ümumi hərbi hazırlıq keçirilmişdir. «Versal sülh müqaviləsi»ndə nəzərdə tutulan 7 diviziya əvəzinə 36 diviziya formalaşdırılmışdır. Bütün Alman təbliğatı ölkədə hərbi vəziyyət yaradılmasına qulluq edirdi.

*İtaliyanın Həbəşistana qarşı təcavüzü.* İtaliya hökumətinin başçısı Mussolini Benito (1883-1945) çoxdan Şərqi Afrikada torpaq ələ keçirmək həvəsində idi. O, Eritreyanı Somali ilə birləşdirmək və Həbəşistanı da oraya daxil edərək böyük bir müstəmləkə yaratmağı planlaşdmrdı. Elə bu məqsədlə də hələ 1934-cü ilin axırlannda Eritreyaya ordu və hərbi yük göndərmişdi. O, öz planlarını həyata keçirmək üçün 1935-ci ilin yanvar ayında Fransanın xarici işlər Naziri Lavalı Romaya dəvət etmiş və Afrikada Fransa-İtaliya sərhədlərini müəyyənləşdirmişlər.

Nəticədə öz planını həyata keçirmək üçün əlverişli müharibə meydanı əldə etmişdir. Laval ilə Mussolini «Dunay paktı» bağlamaq barədə də razılığa gəlmişlər.

Mussolini «Həbəşistan məsələsi» barədə İngiltərə ilə də söhbətlər apanrdı. İngiltərə İtaliyanın Şimali Afrikaya (Hindistana tərəf) tərəf getməsindən ehtiyatlanırdı.

İngiltərə və İtaliya bu məsələnin müzakirəsinə sonra qayıtmışlar. Millətlər Birliyi işi üzrə İngiltərənin naziri A.İden Romaya gəlmiş və Həbəşistanın Oqaden əyalətinin bir hissəsini İtaliyaya verməyi təklif etmişdir. İtaliya isə bütün Həbəşistanı tutmağı planlaşdmrdı. Beləliklə, 3 oktyabr 1935-ci ildə İtaliya elan etmədən Həbəşistana daxil olmuş və onu işğal etmişdir.

Həbəşistan Millətlər Birliyinə müraciət etmişdir. Millətlər Birliyi Şurası İtaliyanı işğalçı kimi tanımışdır. Sonra İtaliyaya təsir etmək məqsədilə ona borc verməmək, silah ixrac etməmək, İtaliya məhsulları idxalını dayandırmaq, neft və neft m.əhsulla:rı ixracını dayandırmaq kimi ciddi təkliflər verilmişdir. Bütün bunlara baxmayaraq İtaliya ordusu hücumu davam etdirirdi. 5 may 1936-cı ildə Həbəşistanın paytaxtı Əddis-Əbəbəni tutaraq Mussolini öz dekreti ilə Həbəşistam İtaliyaya birləşdirmişdir. Onu da qeyd etməliyik ki, güclü dövlətlər olan ABŞ, İngiltərə və Fransa Həbəşistana heç bir yardım etməmişlər.

*Almaniyada silahlanmanın artması.* Kənar dövlətlərin etimadsızlığını görən Almaniya güclü ordu və donanma yaratmaqda davam edirdi (Heç təsadüfi deyildir ki, 1946-cı ildə keçirilən «Nyunberq prosesi»ndə Faşist Almaniyasının iqtisadiyyat Naziri A.Şaxt qeyd edirdi ki, Almaniya nə edirdisə başqa dövlətlər tərəfindən heç bir maneəçilik yox idi).

13 yanvar 1935-ci ildə Saar şəhərində ümumxalq sorğusu keçirilmişdir. Bu sorğuda 539 min adam iştirak etmişdir. Bunlardan 477 min nəfəri Saann Almaniyaya birləşməsinə səs vermişlər. Həmin sorğuqabağı Fransanın xarici işlər Naziri Laval bəyanat vermişdir ki, Fransa üçün Saar o qədər də əhəmiyyət kəsb etmir.

16 mart 1935-ci ildə Almaniya «Versal sülh müqaviləsi»nin hərbi sahədə olan maddələrindən imtina etdiyini bildirmişdi. Odur ki, artıq İngiltərə də öz hərbi xərclərini aıtırmağa başlamışdı.

İngiltərənin hər hansı bir yanaşmasına məhəl qoymadan Almaniya birbaşa bəyan edirdi ki, o, «Versal Sülh müqaviləsi»nin şərtləri ilə hesablaşmır. Bu kimi müəyyən yazışmalardan sonra İngiltərə və Almaniya sakitləşmişlər. Almanların bütün hərəkətləri Fransa əleyhinə yönəldilmişdir. Belə olduqda Fransa hökuməti də gənclərin 21 yaşdan deyil 20 yaşından

orduya çağrılması barədə qanun layihəsi hazırlayaraq parlamentin təsdiqinə vermişdi.

Almaniyada hərbi aviasiya yaradılması barədə də məlumat nəşr edilmişdir. Bu məsələ barədə də İngiltərə və Fransa, demək olar ki, susmuşdular. Almaniyada ümumbəşəri hazırlığa keçilməsi barədə dekret də verilmişdir. Ancaq bundan sonra London və Paris «Versal müqaviləsi»nin şərtlərinin pozulmasına qarşı qəti etirazlarını bildirmişlər. Qeyd etməliyik ki, Almaniyada silahlanmanın artması barədəki xəbərlərə ABŞ- a məhəl qoymamışdır.

18 iyun 1935-ci ildə Londonda A.Hitlerin xüsusi səlahiyyətli nümayəndəsi Ribbentrop və İngiltərənin xarici işlər Naziri S. Xor **«Dəniz müqavnəsi»ni** imzalamışlar. İngiltərə «Versal sülh müqaviləsi»nin bəzi maddələrinin ləğv edilməsi ilə razılaşdığını bildirmişdir (burada Almaniyanın dəniz ordusu nəzərədə tutulur). Beləliklə, İngiltərə ilə Fransanın susaraq razılıq bildirməsi nəticəsində Almaniyanın hərbi qüvvələri (gücü) nəinki onlarla bərabərləşmiş, hətta onların birlikdə hər ikisini ötüb keçmişdir.

**«Kollektiv təhlükəsizlik sistemi» yaradılması cəhdi.** Hər bir tərəfdən çox təhlükəli xəbərlər gəldiyi bir şəraitdə London və Parisin əksinə olaraq Sovet İttifaqı özünün xarici siyasi fəaliyyətini daha da artırırdı. 1935-ci ilin yanvar ayında Sovet hökuməti Millətlər Birliyi Şurasına müraciət edərək bildirirdi ki, bu beynəlxalq təşkilatın üzvləri təcavüzkarlığa qarşı öz qüvvələrini birləşdirməlidirlər.

Elə həmin vaxtlar Hitleri dayandırmaq üçün real imkanlar vardı. Təcavüz harada yaranırsa, orada mübarizə aparılmalıdır. Lakin Millətlər Birliyi Həbəşistanın (Abissinin) İtaliyaya birləşdirilməsi barədəki hərəkətini dayandırmadığı üçün İtaliya təcavüzkarlığı reallaşdıra bilmişdir.

Almaniya «Versal sülh müqaviləsi»nin hərbi bəndlərindən imtina etdikdən sonra Sovet İttifaqı ümumi bir fikir yaratmaq məqsədilə İngiltərədən (sonralar Baş Nazir olmuş)

tanınmış siyasi lider olan A.İdeni Moskvaya dəvət etmişdir. O, 1935-ci il mart ayının 28-də Moskvada olmuş İ.V. Stalin, V.M. Molotov və M.M. Litvinovla fikir mübadiləsi aparmışlar. Onlar belə razılığa gəlmişlər ki, **«Avropada kollektiv təhlükəsizlik sistemi»** yaradılsın. Danışıqların rəsmi məlumatında da qeyd edilmişdir ki, kollektiv sülhün təşkili və təhlükəsizlik ən zəruri şərtlərdən biridir.

Sovet İttifaqı **«Şərq paktı»** yaradılmasında özünün fəal iştirak edəcəyini bildirirdi. Bütün bu danışıqlardan sonra İden Moskvadan Varşavaya və Praqaya getmişdir. Praqada bu ideya yaxşı qarşılandığı halda Polşa rəhbərliyi **«Şərq paktı»** barədə heç danışmaq da istəməmişdi. Aydındır ki, bu kimi hadisələr Fransanı çox narahat edirdi. Odur ki, təcili olaraq Millətlər Birliyi Şurasının çağrılmasını təklif etmişdir.

Şuranın sessiyasının çağrılması ərəfəsində Fransa hökumətinin təkidilə İtaliyanın **Streza** şəhərində Böyük Britaniya, Fransa və İtaliyanın Baş Nazirləri ilə xarici işlər Nazirlərinin birgə konfransı olmuşdur. Bu danışıqlar bir daha göstərirdi ki, hər hansı bir tərəfin razılığı, arzusu olmadan kollektiv təhlükəsizlik sistemi yaratmaq qeyri mümkündür.

*«İtaliya-Alman İttifaqı»mn möhkəmlənməsi.* Aydındır ki, belə bir şəraitdə Berlin ilə Roma arasında müntəzəm olaraq danışıqlar gedirdi. Onlar İngiltərə və Fnmsamn heç bir təsirinə məruz qalmadan gələcək birgə hərəkətlərini planlaşdırırdılar. Bu iki faşist dövlətinin birgə əməkdaşlığı tarixdə **«Berlin- Roma oxu»** adı ilə məlumdur.

İngiltərə və Fransanın daxilində də bu ölkələrin hökumətlərinin xarici siyasətini tənqid edənlər də az deyildi. Məsələn, İngiltərənin xarici siyasi kursu Lloyd Corc və U. Çörçill tərəfindən tənqid edilirdi. Onlar göstərirdilər ki, belə təsirsiz xətt yeritmək Millətlər Birliyini zəiflədir və «Kollektiv təhlükəsizlik sistemi» yaradılması məsələsini çətinləşdirir.

Fransaya gəldikdə qeyd etməliyik ki, **Bartu** öldürüldükdən və **Laval** xarici işlər nazirliyinə gəldikdən sonra faşizm

və hərbiləşmə əleyhinə müxaliflik çətinləşmişdir. O, açıq-aşkar barışdırıcı siyasət yeridirdi. Sovetlər əleyhinə siyasət aparırdı. Faşist Almaniyası ilə əməkdaşlıq edirdi.

Bütün bunlara baxmayaraq «Kollektiv təhlükəsizlik sistem.i» yaradılması və sülhün möhkəmlənməsi üzrə olan ümumi fikirlər qalırdı. Bu ümumi rəylər və Sovetlərin fəal xarici siyasi diplomatiyasının təsiri altında Laval Sovet İttifaqı və Çexoslovakiya ilə müqavilə bağlamalı olmuşdur. 2 may 1935-ci ildə SSRİ ilə Fransa arasında qarşılıqlı yardım barədə müqavilə bağlanmışdır.

Müqaviləyə əsasən bu ölkələrin hər hansı birinə hərbi hücum olarsa digəri ona köməklik göstərməlidir. Hətta SSRİ hərbi müqavilə bağlamağı da təklif etmişdir. Lakin Laval buna razı olmamışdır. Bununla yanaşı Laval müqavilənin təsdiqlən- məsini 27 mart 1936-cı ilə kimi ləngitmişdir. Eyni zamanda SSRİ ilə Çexoslovakiya və Fransa ilə Çexoslovakiya arasında da belə müqavilələr bağlanmışdır.

*«Sovet~Çexoslovakiya qarşılıqlı yardım» müqavibsL* Bu müqavilə 1935-cİ il may ayının 16-da Praqada imzalanmışdır. Bu müqavilənin bağlanmasında da əsas məqsəd başqa dövlətlər tərəfindən hücuma məruz qaldıqda biri-birinə köməklik göstərməkdən ibarət idi.

Faşizmin irəliləməsi. 1936-cı ilin yazından Hitler Almaniyasının təcavüz hərəkatı daha da fəallaşırdı. Reyn zonasının yenidən hərbiləşdirilməsi həyata keçirilmişdir. Mart ayının 7-də Almaniya hökuməti «Lokam müqaviləsi»ndən (5-16.X.1925-Cİ itdə) imtina etdiyini bildirmişdir. Elə həmin gün də Alman ordusu Reyn vilayətinə daxil olmuşdur. Təcavüzkarların bu hərəkəti cəzasız qaldığı üçün Hitlerçilərin cəsarəti dalıa da artırdı.

Birləşmiş Millətlər Təşkilatı Şurasımn mart ayında keçirilən iclasında Sovet nümayəndəsi Litvinov çıxış edərək göstərirdi ki, Reyn zonasının işğalı çox uzağa gedən işğalçılıq

planının başlanğıcıdır. Odur ki, təcavüzün qarşısının alınması çox zəruridir.

Lakin Şuranın digər üzvləri Almaniyanın bu hərəkətini tənqid etsələr də konkret tədbirlər görülməsindən yan keçirdilər. Əksinə, onlar belə hesab edirdi ki, müəyyən ciddi tədbirlərlə Almaniyanı və Avropanı müharibəyə gətirib çıxarmaq olar. Hətta Böyük Britaniyanın təşəbbüsü ilə İtaliyanın Həbəşistana qarşı apardığı müharibədə İtaliya üçün nəzərdə tutulmuş sanksiya da Millətlər Birliyinin 4 iyun 1936-cı il qərarı ilə ləğv edilmişdir.

*İspaniyada vəziyyət.* Seçkilərlə əlaqədar olaraq 1936-cı ilin yayında «İspaniya hadisələri)) dünyanın diqqətini daha çox cəlb edirdi. 1936-cı il fevral ayının 16-da parlament seçkilərində Xalq Cəbhəsi Partiyası qalib gəlmişdir. Sonra Fransada seçkilər keçirilmiş və burada da Xalq Cəbhəsi qalib gəlmişdir. Əlbəttə, bu vəziyyət sülhün möhkəmlənməsinə köməklik etmişdir. Burada SSRİ ilə Fransa arasındakı və eləcə də bu hər iki dövlətlə Çexoslovakiya arasındakı müqaviləni də nəzərə alsaq, demək olar ki, faşizm işğalçılığı əleyhinə müəyyən əsas yaranmışdır. Belə zənn etmək olardı ki, **«KoIlektiv** təhlü**kəsizlik sistemi))** yaratmaq üçün sülhsevər qüvvələr qarşısında müəyyən perspektiv inkişaf yaranır. Lakin Berlində başqa plan hazırlanırdı. Burada, əlbəttə, İngiltərə, ABŞ və Fransanın da günahı az deyildi. Burada elə qüvvələr vardır ki, Almaniya ilə, demək olar ki, əməkdaşlıq edirdi. Bu da sülhün əvəzinə müharibəyə gətirib çıxarırdı. Mürtəce qüvvələr açıq-aşkar demokratiya və sülhə qarşı mübarizə aparırdılar. 1936-cı il iyul ayının 18-də xüsusi şərti siqnal olan «Bütün **İspaniya üzərində buludsuz səma))** adı altında üsyan başlanmışdı. Bu üsyan qanunla seçilmiş respublika hakimiyyətinə qarşı idi. Bu üsyanın təşkilatçıları və demək olar ki, iştirakçıları Alman və İtaliyan faşistlərindən ibarət idi. Onlar birbaşa üsyanda iştirak edirdilər. Beləcə, İspaniyada vətəndaş müharibəsi başlanmışdı.

Beləliklə, ilk dəfə olaraq İspaniyada demokratik - mütərəqqi qüvvələrlə faşizm arasında toqquşma baş vermiş olmuşdur. Respublika hakimiyyəti tərəfindən 100 minlərlə müxtəlif millətlər, sənət sahibləri, siyasi inam sahibləri vuruşurdu. Almaniya və İtaliyadan İspaniya üsyançılarına silah, hərbi gəmilər göndərilirdi. Faktiki olaraq iki faşist dövləti İspaniyaya müdaxilə edirdi.

İspaniyada vətəndaş müharibəsi getdiyi müddətdə Almaniyada məxfi olaraq Almaniyanın gələcək hərəkəti barədə dipIom,atik sənəddən ibarət plan hazırlanırdı. Bu sənəd 26 avqust 1936-cı ildə Hitler tərəfindən imzalanmışdır. Bu plan əsl alman dəqiqliyi ilə yerinə yetirilirdi. Təkcə 1936-cı illərdə silahlı qüvvələrə çəkilən xərclər birlikdə İngiltərə və Fransadan 2,5 dəfə artıq idi. i936-cı ildə İspan hökuməti müdaxiləçilərə qarşı mübarizə üçün Millətlər Birliyinə müraciət etməli olmuşdur. Lakin bu Birlikdə də İngiltərə və Fransanın rolu böyük olduğu üçün heç bir tədbir görülməmişdir. Birlik daxili işlərə qarışmamaq üzrə Beynəlxalq Komitə yaratmışdır.

Fransada Xalq Cəbhəsi qalib gəldikdən sonra L.Blyum sağ sosialistlərin liderləri ilə birlikdə yeni hökumət formalaşdırmışdır. O, İspan hökumətinə qarşı silah göndərilməsini dayandırmağa çalışırdı. O, bu məqsədlə Londona gedərək müəyyən fikir birliyi yarada bilmişdir. Buna baxmayaraq İspaniyada vətəndaş müharibəsi davam etməkdə qalmış, Hitler Almaniyası isə Avropada digər mürtəce aktlar həyata keçirmək planlarım davam etdirməkdə qalmışdır.

*«Komintern^ əleyhinə pakt'».* Həmin vaxtlarda beynəlxalq məsələlərə baxışda Almaniya ilə Yaponiyanın mövqeləri, demək olar ki, eyni idi. İqtisadi və hərbi əməkdaşlıqları da müvəffəqiyyətlə həyata keçirilirdi. 1936-cı ilin fevral ayında Yaponiyada hərbi faşist qüvvələrin üsyanı nəticəsində Xirota hakimiyyətə gəlmişdir.

**Snoska Komintern - Kommunist beynəlmiləlçiliyi. 1919-1943-cü illərdə beynəlxalq inqilabi proletar təşkilatı**

Bununla da Tokio ilə Berlin arasında yaxınlıq daha da artmışdır. 25 noyabr 1936-cı ildə Berlində Almaniya ilə Yaponiya arasında **«Komintern əleyhinə pakt»** imzalanmışdır. Burada, əsasən, üç bənd nəzərdə tutulurdu:

-Komintemin fəaliyyətini izləyərək bir-birimizi məlumatlandırmaq və ona qarşı mübarizə aparmaq;

-Kommunist beynəlmiləlçiliyinin təhlükə törədə biləcəyi hər hansı bir dövlətə müdafiə tədbirləri üçün təkliflər vermək;

-Bu müqaviləyə 5 illik müddət müəyyən etmək.

Komintemin işinə hər hansı bir formada köməklik göstərən hər bir kəsə qarşı ciddi tədbir görülməsi də yaddan çıxanimamışdır. Bununla yanaşı Komintemə qarşı mübarizə bəhanəsi ilə başqa dövlətlərin daxili işlərinə qarışmaq barədə də razılığa gəlmişlər. 6 noyabr 1937-ci ildə İtaliya da bu akta qoşulmuşdur. Beləliklə, Almaniya, Yaponiya və İtaliyadan ibarət üçlük bloku yaranmışdır.

*«Hücum etməmək barədə Sovet Çiny> müqaviləsi.* 1937-ci ilin iyun ayında Yaponiya yenidən Çinə müdaxilə etmişdir. Çin ordusu var gücü ilə təcavüzkara müqavimət göstərirdi. Əlbəttə, burada SSRİ siyasətinin də böyük rolu vardır. Belə ki, 21 yanvar 1937-ci ildə «Sovet İttifaqı ilə Çin arasında hücum etməmək barədə» müqavilə imzalanmışdır. Sovet İttifaqı Millətlər Birliyində də Çini dəstəkləyirdi (Çin Birliyə müraciət etmişdi).

Bu məsələnin müzakirəsi zamanı Sovet nümayəndəsi işğalçılığa yol verdikləri üçün Qərb dövlətlərini pisləyərək göstərmişdir ki. Millətlər Birliyi İspaniyaya və eləcə də Çinə köməklik göstərməlidir.

*«Qarışmamaq» siyasəti.* 1938-ci ilin yazında Avropada vəziyyət daha da gərgin xarakter alırdı. Hitler 1938-ci il fevralın 20-də Reyxstaqda çıxış edərək göstərmişdir ki, yaxın vaxtlarda Almaniya Avstriya və Çexoslovakiyada yaşayan almanları öz müdafiəsinə götürəcəkdir. Böyük Britaniya və

Fransa Almaniyanın qarşısının alınması və Avstriya dövlətinin ləğv olunmaması üçün heç bir tədbir görməmişlər.

Böyük Britaniyanın yeni xarici işlər Naziri Qalifaks 11 mart 1938-ci ildə Almaniyanın xarici işlər Naziri Ribbentrop ilə damşıqlar aparmış və ona bildirmişdir ki, bizim ölkəmiz Almaniya ilə Avstriyanın işinə qarışmayacaqdır.

Bir gündən sonra Alman ordusu artıq Avstriya torpağına daxil olmuşdu. Mart ayının 13-də Avstriya Almaniyaya birləşdirilmiş oldu. İngiltərə ilə Fransa bu barədə Almaniyaya etiraz notası versə də bu nota Almaniya tərəfindən qəbul edilməmişdir. Ancaq Sovet İttifaqı Almaniyanı ciddi pisləmişdi və Millətlər Birliyinin Konfransına çıxarmağı, sülhün möhkəmlənməsi üzrə praktiki tədbirlər görülməsini təklif etmişdir. Lakin yenə də London və Paris qətiyyət göstərməmişlər.

*Çexoslovakiya «tohlükosi».* Almaniya Avstriyam ələ keçirdikdən sonra Çexoslovakiyam işğal etməyə hazırlaşırdı. Çexoslovakiyanın Sudet vilayətində 3 mln. alman yaşayırdı. Ona görə də elə o vilayətdən başlamağı planlaşdırmışlar.

Çexoslovakiyanın belə bir çətin vaxtında Sovet İttifaqı bildirirdi ki, Çexoslovakiya ilə müqaviləyə əsasən biz öz öhtəçiliyimizi yerinə yetirməli idik. Məntiqə görə Fransa da öz öhtəçiliyini yerinə yetirməli idi. Lakin İngiltərə və Fransa isə Çexoslovakiyanın müdafiəsi haqqında fikirləşmirdilər. Yəqin ki, öz gələcəklərini düşünürdülər.

Vəziyyətin daha da ağırlaşdığı bir şəraitdə İngiltərənin Baş Naziri Çemberlen 15 sentyabr 1938-ci ildə Berxtes- qardenə gələrək Hitlerlə görüşmüşdür. Çexoslovakiyanın vəziyyəti barədə danışıqda Hitler Sudet vilayətini Almaniyaya birləşdirəcəyini bildirmişdir. Fransa rəhbərliyi də İngiltərə ilə həmrəyliyini bildirərək Çexoslovakiyanın prezidenti E. Benoşuya ultimatum xarakterli nota göndərmişlər. Ondan tələb edirdilər ki, Sudet vilayətinin Almaniyaya birləşdirilməsinə razılıq versin.

Çexoslovakiya rəhbərliyi xahiş edirdi ki, 1925-ci ildə imzalanmış Alman - Çexoslovakiya müqaviləsinə arbitrajda baxılsın. Bunun müqabilində İngiltərə Çexoslovakiyaya daha ciddi məktub göndərmişdir. **Bense** məcbur qalıb bu təkliflə razılaşmalı olmuşdur. Sovet İttifaqı isə təkid edərək göstərirdi ki, o müqaviləyə uyğun olaraq Çexoslovakiyaya köməklik edəcəkdir. Beləliklə, Çexoslovakiya xalqı mübarizəyə qalxmalı olmuşdur. İkinci dəfə **Çemberlen** Hitler ilə görüşdükdə Hitler ona yeni planı barədə məlumat vermişdir. Çexoslovakiya Macarıstanla Polşanın ərazi iddialarını təmin etməlidir.

Hitlerin bütün iddiaları ilə **Çemberlenin** razılaşması İngiltərə ictimaiyyəti tərəfindən o qədər də yaxşı qarşılanmırdı. Müəyyən danışıqlardan sonra dörd dövlətin - **Almaniya, Böyük Britaniya, Fransa** və **İtaliyanın** konfransının çağrılması qərara alındı.

**«Münhen sazişi» (sövdələşməsi).** 29 sentyabr 1938-ci ildə Münhendə **Çemberlen** (İngiltərə), Daladye (Fransa), Mussolini (İtaliya) və Hitler (Almaniya) arasında görüş olmuşdur. Əlbəttə, buna konfrans da demək olmazdı. Çox qısa danışıqdan və Hitlerin çıxışından sonra çox qeyri-münasib bir sənəd hazırlamışlar. Bu razılıq sənədinə əsasən Çexoslovakiyanın ərazisinin 20%-i Almaniyaya verilmişdir. Sentyabr ayının 30-da Münhendə Almaniya ilə Böyük Britaniya arasında hücum etməmək barədə bəyannamə imzalanmışdır. Bir müddətdən sonra Almaniya ilə Fransa arasında da belə müqavilə imzalanmışdır. Beləliklə, kim hesab edirdi ki, «Münhen müqaviləsi)) sülhü azad edəcəkdir, o yanılırdı. 30 sentyabr 1938-ci ildə müharibə reallığa çevrilirdi. O ki qaldı Sovet İttifaqının köməkliyi məsələsinə, bu da baş tutmamışdır. Əvvəla, Polşa və Rumıniya öz ərazilərindən Sovet ordusunun keçməsinə razılıq verməmişlər. İkincisi isə Çexoslovakiya hökuməti köməklik üçün Sovet İttifaqına rəsmən müraciət etməli idi. Lakin Çexoslovakiya bundan imtina etmişdir. Beləliklə, Münhen Avropadakı hadisələrin başlanğıcı oldu.

## XXIV Fəsil.
## BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ SSRİ-nin XARİCİ SİYASƏTİ

22 iyun 1941-ci ildə Alman ordusu Sovet İttifaqının sərhədlərinə yaxınlaşmışdı. Burada Almaniya ilə yanaşı İtaliya, Macarıstan, Rumıniya və Finlandiya da iştirak edirdilər.

**Böyük Britaniya və ABŞ-ın mövqeyi.** Əvvəllər olduğu kimi yenə də İngiltərənin mövqeyi Hitleri çox maraqlandırırdı. Məlumdur ki, birinci dünya müharibəsi ərəfəsində II Vilhelimi maraqlandıran o idi ki, İngiltərə Fransa ilə Rusiyanın tərəfində olacaq və yaxud neytralmı qalacaq? Bütün bunları aydınlaşdırmaq məqsədilə Almaniyanın İngiltərədəki səfiri **Lixnevskiy** Britaniyanın xarici işlər naziri E. Qrey ilə kifayət qədər danışıqlar aparmışdır. Lakin E. Qrey öz dövlətinin mövqeyi barədə əsl həqiqəti gizlətmişdir. Ancaq müharibənin başlanması artıq reallığa çevrildikdə bildirmişlər ki, İngiltərə nejdral olmayacaqdır. Almaniya artıq ikinci dünya müharibəsinin başlanğıcım qoymuşdur. Hitler ümid edirdi ki, İngiltərə neytral qalacaqdır. Müharibədən bir ay əwəl- may ayının 10- da Hitler öz partiyasının müavini **Q.Qessi** xəlvəti olaraq İngiltərəyə göndərmişdi (o hərbi təyyarədə uçaraq paraşütlə Şotlandiyaya düşmüşdü). Aydındır ki, danışıqlar məxfi aparılmışdır (onların mətni dərc edilməmişdir). Qess müəyyən adamların köməkliyi ilə İngiltərənin hökumət başçısı ilə görüşmüş və İngiltərə ilə müqavilə bağlayaraq Sovet İttifaqına qarşı müharibədə iştirakını təklif etmişdir. Aydındır ki, İngiltərə Sovet İttifaqına qarşı vuruşmaqdan imtina etmişdir. Lakin danışıqların məzmunu da məlum deyil, çünki, İngiltərə öz fikrini aydın və konkret desə idi yəqinki Almaniya müharibəni başlamağa tələsməzdi. Hər halda İngiltərə necə deımşmışsa Almaniyanı özündən uzaqlaşdırmış və SSRİ ilə müharibəyə yuvarlamışdı.

Aydındır ki, Almaniyanın Sovet İttifaqına qarşı müharibəyə başlaması bütün dünyada və o cümlədən Avropada əks- səda oyatmışdır. Böyük dövlətlərin əksəriyyətində faşizm əleyhinə mitinqlər keçirilirdi. İyun ayının 22-də İngiltərənin baş naziri **Çerçili Yunston Leonard** (1874-1965) radio ilə çıxış edərək bəyan etmişdir ki, biz SSRİ-yə hər cürə iqtisadi və texniki köməklik etməyə hazırıq. Bir gündən sonra iyun ayının 23-də faşizmə qarşı bütün qüvvələrin birləşməsinə çağıran ABŞ-m bəyanatı dərc edilmişdir. Qeyd etməliyik ki, bu dövlətlərin hər ikisinin ümumi siyasəti SSRİ-nin xeyrinə idi. Lakin heç birisi qəti addım atmağa tələsmirdi. O vaxt ABŞ-m senatoru, 1945-1953-cü illərdə isə prezident **Qarri Truraen** (1884-1972) belə bir bəyanatla çıxış etmişdi - biz görsək ki, Almaniya qalib gəlir — Rusiyaya kömək edəcəyik. Əgər görsək ki, Rusiya qalib gəlir, onda Almaniyaya köməklik göstərmək lazım gələcəkdir. Qoy onlar biri - birini daha çox qırsınlar.

*Almaniya əleyhinə birliyin formalaşmasının başlanğıcı.* Hələ Böyük Vətən müharibəsinin ilk vaxtlarından Sovet hökuməti Hitler Almaniyasına qarşı birgə mübarizə aparmaq üçün bir çox müqavilələr bağlamış və qarşılıqlı yardım əlaqələri yaratmışdır. Belə ki, 12 iyul 1941-ci ildə Böyük Britaniya ilə belə müqavilə imzalanmışdı. Tərəflər müharibədə bir-birinə yardım etmək və seperat müqavilə bağlamamaq barədə öhdəçilik götürmüşlər. Elə həmin ayda Çexoslovakiya və Polşa rəhbərliyi ilə müqavilə imzalanmışdı. Sovet İttifaqı öz ərazisində Çexoslovakiya və Polşa hərbi hissələrinin formalaşmasına icazə vermişdir.

1941-ci ilin avqust ayında SSRİ ilə İngiltərə qarşılıqlı razılaşma əsasında öz ordularını İrana keçirmişlər. Ölkənin şimalında - Sovet ordusu, cənubunda isə- İngiltərə ordusu yerləşdirilirdi. Bu tədbir nəticəsində İranm Almanlar tərəfindən işğalı aradan qaldınimışdır. Həm də İngiltərə və ABŞ bu ərazidən Sovet İttifaqına hərbi və digər köməkliklər edirdi.

1941- ci ilin iyul ayında ABŞ-ın prezidenti Delano Ruzvelt (1882-1945) öz köməkçisi Q.Qopkinsi Moskvaya göndənnişdi. 1 sentyabr 1941-ci ildə dövlətlərarası konfransda Sovet İttifaqı ABŞ ilə Böyük Britaniya arasında imzalanan Atlantik xartiyasına qoşulmuşdur (Atlantik xartiyası 14.08.1941-ci ildə ABŞ və İngiltərə hökumət başçıları bəyannamə qəbul etmişlər. Faşist Almaniyasının apardığı müharibəyə münasibət əks olunurdu).

Bununla da o, Atlantik Xartiyasının əsas müddəalarım qəbul edərək birgə hərəkət proqramı hazırlamağı təklif etmişdir. Faşizm əleyhinə koalisiya yaratmaq prinsiplərini ön plana çəkmişlər.

Demək olar ki, 5 aylıq geri çəkilmələrdən soma Sovet ordusu 1941-ci ilin dekabr ayında Moskva altında Almanların hücumunun qarşısını almış və irəliləyiş əldə edə bilmişlər. Bu hadisə böyük beynəlxalq səda yaratmışdır. Əvvəla almanların az vaxt içərisində müharibəni qurtarmaq planlarını pozmuşdur. İkincisi isə işğal edilmiş Avropa dövlətlərində bir inam, canlanma yaratmışdır. Belə bir qarışıq şəraitdə Yaponiya da yeni torpaqlar əldə etməyə çalışırdı. 1941-ci ilin dekabr ayında Yaponiya ABŞ-ın Havay adalarındakı əsas hərbi-dəniz donanması bazasına hücum etmişdir. Bu cür təcavüzdən sonra ABŞ Yaponiyaya və eyni zamanda Almaniyaya müharibə elan etmişdir. 1942-ci ildə Vaşinqtonda 26 dövlətin iştirakı ilə faşizm əleyhinə dövlətlərin və xalqların qüvvələrinin birləşdirilməsi barədə qətnamə qəbul edilmişdir (Bu sənəd BMT-nin qətnaməsi adı ilə məşhurdur).

1942- ci ilin may ayında Sovet İttifaqının xarici işlər üzrə Xalq Komissarı V.M. Molotov hərbi təyyarə ilə Londona və Vaşinqtona gəlmiş, may-iyun aylarında ABŞ və İngiltərə ilə müqavilə bağlamışlar. 26 may 1942-ci ildə İngiltərə ilə bağlanan müqavilədə Hitler Almaniyasına qarşı müharibədə müttəfiq olmaq, bir-birinə hərbi və digər yardımlar etmək, Hitler Almaniyası ilə heç bir danışığa getməmək kimi öhdəçiliklər

götürülmüşdür. Bunlarla yanaşı müharibədən sonra da hər iki dövlətlər arasında geniş siyasi və iqtisadi əlaqələrin yaradılması nəzərdə tutulmuşdur.

İyun ayının 2-də isə Vaşinqtonda müqavilə imzalanmışdır.ABŞ SSRİ-ni müdafiə materialları ilə təchiz etməyi öhdəsinə götürmüşdür. SSRİ də öz növbəsində ABŞ-ın müdafiəsinin möhkəmlənməsinə, ona müdafiə materialları və məlumatlar göndərməsinə zəmanət vermişdir. Hər halda həmin illərdə müəyyən silahlar və texniki yardımlar kifayət qədər olmuşdur.

ABŞ ilə İngiltərə arasında olan müttəfiqlik münasibətlərində əsas məsələ ikinci cəbhənin açılması idi. 1942-1943-cü illərdə İngiltərə və ABŞ-da ikinci cəbhənin açılması barədə müzakirələr olmuşdur. Bu barədə **Stalin, Ruzvelt və Çerçili** arasında olan yazışmaları da qeyd etmək olar. 1942-ci ildə Molotov Vaşinqtonda olduğu dövrdə də ikinci cəbhənin açılması vaxtının çatması bildirilmişdir. Bütün bunlara baxmayaraq çox keçmədən Çerçili Stalinə məktubunda bildirmişdir ki, müttəfiqlər **1942-ci ildə** ikinci cəbhəni açа **bilməyəcəklər.**

Beləliklə ikinci cəbhənin açılması 1943-cü ilə qalmışdır. Avropada ikinci cəbhənin olmaması Alman hərbi komandanlığına imkan verirdi ki, Avropanm şərqində ordusunu daha da artırsın. Onu qeyd etmək kifayətdir ki, 1942-ci ilin payızına Sovet Alman cəbhəsində 266 alman diviziyası vardı. Bu, ilin əvvəlkindən 29 diviziya artıq idi. Elə həmin vaxtlar Alman ordusu Stanlinqrada və Qafqaza can atırdı.

İngiltərənin baş naziri Çerçili 1942-ci ilin avqust ayında Moskvaya gəlmiş və yenə də həmin ildə Avropada ikinci cəbhənin açıla bilməməsi barədə məlumat vermişdir. Eyni zamanda o bildirmişdir ki, ABŞ və İngiltərə Afrikada Romel- lin’ ordusuna qarşı əməliyyat aparmağa başlayacaqdır.

**Romell. Alman generalı feld marşalı**

1942- ci ilin axırlarında da (noyabr ayında) So\'et ordusu Volqa sahillərində və Qafqaz dağlannda düşmən ordusuna çox ciddi müqavimət göstərərək hücumu dayandırmışdır. Noyabr ayının 19-da Sovet ordusu Stalinqradda almanların (Poulyusun) 300 minlik ordusunu mühasirəyə almış və əsir götürmüşdür.
1943- cü ilin yayında Almaniya ordusu Kurskda hadisələrin gedişini dəyişməyə cəhd edirdilər.

Lakin ağır vuruşmalardan sonra Sovet ordusu cəbhənin yarılmasma imkan verməmiş, hücuma keçərək payız aylannda Dneprə yaxınlaşmış və Kiyevi azad etmişdir.

Beləliklə əgər Moskva altındakı vuruşma Alman ordusunun qarşısı alınmazlığmı göstərmişsə, **Stalinqrad** vuruşması açıq göstərmişdir ki, Almaniya məğlub olacaqdır. Kursk döyüşləri isə Hitler ordusunun fəlakət-faciə qarşısında olduğunu sübut etmişdir.

1943- cü ildə ikinci cəbhənin açılması əvəzinə İngiltərə və Amerika qoşunları Şimali Afrikada qalib gəldikdən sonra İtaliyaya daxil olmuşlar. Bu **Mussolinin** faşist rejiminin iflasa uğraması demək idi. Beləliklə 1943-cü ilin sentyabr ayında İtaliya təslim olmuşdu.

**Moskva Konfransı.** 1943-cü ilin payızında müttəfiqlər arasında danışıqlar gedirdi. Burada müharibənin qurtarması və müharibədən sonrakı quruculuq işləri geniş müzakirə edilirdi. Elə bu məqsədlə də 19-30 oktyabr 1943-cü ildə Moskvada SSRİ-nin, ABŞ və İngiltərənin xarici işlər Nazirlərinin konfransı keçirilmişdir. Konfransda Çinin Moskvadakı səfiri də iştirak edirdi. Konfransda aşağıdakı məsələlər müzakirə edilirdi. Müharibənin tez qurtarması; müharibədən sonra Almaniyada quruculuq işləri; İtaliyanın vəziyyəti; Avstriyanın vəziyyəti; müharibədən sonra təhlükəsizliyin təmin edilməsi; beynəlxalq təşkilatlar yaradılması və s. Konfransda Avropa Məsləhət Komissiyası da (AMK) təsis edilmişdir. Bu komissiya qeyd etdiyimiz məsələlər və Hitler koalisiyasının təslimçiliyi məsələləri barədə geniş təkliflər hazırlayaraq hər üç

hökumətə təqdim etməli idi. Qeyd etməliyik ki, hər bir məsələ barədə aydın qətnamə qəbul edilmişdir.

**«Italiya haqqındakı qətnamə»də** göstərilirdi ki, ABŞ, SSRİ, Böyük Britaniya nümayəndələri və Fransa mili azadlıq Komitəsi nümayəndələrindən ibarət (Yunanıstan və Yuqoslaviya nümayəndələri də daxil olmaqla) məsləhət şurası yaradılsın. Bu şura İtaliyada müttəfiqlərin siyasətinin əlaqələndirilməsinin sənədləşdirilməsini dəqiqləşdirməli idi.

**«Avstriya haqqındakı qətnamədə»** qeyd edilirdi ki, bu ölkə Almaniya hökmranlığından azad edilməlidir.

1938-ci ildə Avstriyamn Almanlar tərəfindən işğal edilməsi qeyri düzgün hesab edilmişdir (tanınmamışdır). Hər üç dövlət - ABŞ, SSRİ və İngiltərə **«Hitlerçilərin müharibə vaxtı törətdikləri vəhşiliklərin məsuliyyəti barədə» də qətnamə qəbul etmişlər.** Hər üç dövlətin nümayəndələri qəti qənaətə gəlmişlər ki, hərbi cinayətkarlar ciddi cəzalandırılmalıdırlar.

Bütün bunlarla yanaşı Moskva kofnransmda **Birləşmiş Millətlər Təşkilatının** yaradılması barədə də ilk addım atılmışdır. Hər üç dövlətin «Ümumi təhlükəsizlik barədə»ki bəyannaməsində göstərilirdi ki, düşmənin sözsüz təslim olması barədəki mübarizə davam etdirilməlidir.

Moskva Konfransında SSRİ ilə ABŞ və İngiltərə arasında ciddi müxtəlifliklər də az olmamışdır. Lakin bütün bunlara baxmayaraq bu konfransda çox əhəmiyyətli nailiyyətlər əldə edilə bilmişdir. Çox mühüm məsələlərdə fikir birliyi yaranmışdı. Bu konfrans müttəfiqlərin **1943-1945 -ci iliər ərzində keçirilən konfranslar seriyasının birincisi hesab edilirdi.**

*Tehran konfransı.* **Müttəfiqlərin** - SSRİ, ABŞ və İngiltərənin ikinci konfransı İranın paytaxtı Tehranda keçirilmişdir. Konfrans 1943-cü ildə noyabr ayının 28-dən dekabr ayımn 1-dək olan müddətdə aparılmışdır. Konfrans dövlət başçılannın rəhbərliyi və iştirakı ilə apanimışdır. Konfransda

İ.V. **Stalin (SSRİ), F. Ruzvelt (ABŞ) və U. Çerçili** (İngiltərə) iştirak etmişlər. Həmin dövrdə artıq Sovet-Alman cəbhəsində köklü dönüş yaranırdı. Bu isə həm konfransın gedişinə və həm də beynəlxalq münasibətlərin ümumi vəziyyətinə təsir etməyə bilməzdi. **Qızıl Ordunun** müvəffəqiyyətləri faşizm bloku üzərində tam qələbəyə böyük inam yaradırdı. Müttəfiqlər tərəfindən Avropada 1942-1943-cü illərdə ikinci cəbhənin açılmasının gecikdirilməsi müharibənin gedişinin uzanmasına və ölüm hallarının artmasına səbəb olmuşdur.

Tehran konfransında müzakirə olunan əsas məsələlərdən biri ikinci cəbhənin açılması idi. Ruzvelt və Çerçili Konfransda 1944-cü ilin may ayında ikinci cəbhənin Fransada açılmasına razılıq vermişlər. Bu barədə ABŞ və İngiltərənin adından rəsmi olaraq İngilis generalı, **feld-Marşal Bruk Alan Frensis** (1883-1963) məlumat vermişdir.

**İ.V. Stalin** konfransın iclasında çıxış edərək göstərmişdir ki, ordunun Fransa sahillərinə enməsində Alman ordusunun maneəçiliyinə rast gəlməmək üçün Qızıl Ordu hücumu gücləndirə bilər. Beləliklə Tehran konfransında üç dövlətin birgə hərəkəti barədə də bəyannamə qəbul edilmişdir.

Tehran Konfransında həmçinin müharibədən sonrakı quruculuq işləri və dövlətlərarası sərhəd məsələsi də müzakirə edilmişdir. **Yaponiya ilə** müharibə məsələsi də diqqətdən kənarda qalmamışdır. Hər üç dövlət **İran** haqqında da bəyannamə qəbul etmişlər. İranın tam müstəqil qalması və ərazi toxunulmazlığını arzulamışlar.

1944- **cü il.** 1944-cü ildə Qızıl Ordu artıq Avropa ərazisində müharibə aparırdı. 6 iyun 1944-cü ildə ikinci cəbhə açılmışdır. İngiltərə və ABŞ ordusu ilə birlikdə Fransa vətən-pərv'ərləri də (Şari de-Qolun başçılığı ilə) Fransanın Normandiya vilayətinə enmişlər.

1944- cü ilin ortalarında Qızıl Ordunun hücumları bütün Qərb cəbhəsi boyu genişlənmişdi. Polşa, Rumıniya, Çexoslovakiya, Macarıstan, Bolqarıstan və Yuqoslaviya tamamilə

almanlardan azad edilmişdir. Müttəfiqlər adından 12.09.1944- cü ildə Rumıniya ilə, 28.10.1944-cü ildə Bolqarıstanla, 20.01. 1945- ci ildə Macarıstanla barışıq müqaviləsi bağlanmışdır.

Qeyd etməliyik ki, bu məsələlərin bir çoxu barədə Moskva Konfransında qərar qəbul edilmiş, 1943-cü il Tehran konfransında isə bir daha təsdiqlənmişdir. Bu qərarların həyata keçirilməsi işi də davam etdirilirdi. Yenə də SSRİ, ABŞ və İngiltərə nümayəndələrinin Vaşinqtonda qeyri rəsmi bir görüşü keçirilmişdir. Onların əsas məqsədi Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsini hazırlamaq idi. Bu proses **«Ən ümumi Beynəlxalq Təhlükəsizlik təşkilatı yaradılması barədə təklif»** qəbul edilməsi ilə qurtarmışdır. Vaşinqton yaxınlığındakı Dumbarton-Okse imarətindəki görüşdə bu təşkilatın məqsədi, prinsipləri, quruluşu, üzvlük məsələləri və s. aydınlaşdırılmışdır. Onun necə adlandırılması da burada dəqiqləşdirilmişdir. Sonra başqa dövlətlər də öz təkliflərini və iradlarını bildirmişlər.

Krım konfransı. SSRİ, ABŞ və Böyük Britaniya rəhbərlərinin növbəti görüşü Krımda - Yaltada olmuşdu. Bu konfrans 4-11 fevral 1945-ci ildə keçirilmişdir. Son vaxtlarda keçirilən konfranslarda olduğu kimi bu konfransda da əsasən hərbi məsələlər və müharibədən sonra sülh quruculuğu işləri barədə müvafiq qərarlar qəbul edilmişdir. Müəyyən fikir müxtəlifliyi olsa da hər halda qarşılıqlı anlaşılma daha üstün idi. Konlfansda düşmənin tam məğlub edilməsi planı, vaxtı, hərbi əməliyyatların əlaqələndirilməsi məsələləri üzrə razılaşmalar əldə edilmişdir. Düşmən tam təslim olanadək müttəfiqlərin birgə vuruşmasının davam etdirilməsi qərara alınmışdı. ABŞ, SSRİ və İngiltərə xüsusilə bəyan edirdilər ki, bizim əsas məqsədimiz Alman millitarizmini məhv etməkdir. Elə bir təminat yaratmaq lazımdır ki, Almaniya bir də dünyada sülhü pozmaq imkanına malik olmasın. Daha sonra hər üç dövlət başçısı bildirirdi ki, onlar heç də alman xalqının məhv edilməsinə çahşmayırlar. Nasizmin və millitarizmin kökü kəsi

lәndәn sonra onlar yenә dә dünya miqyasında özlәrinә layiqli bir yer tuta bilәrlәr. ABŞ, SSRİ vә İngiltәrә Almaniyanı üç **zonaya ayırmaq qәrarına gәlmişlәr.** İdarәçilik vә nәzarәt üçün müttәfiqlәrdәn ibarәt nәzarәt orqanı yaradılması qәrara alınmışdır.

Almaniyanın hәrbi cәrimә vermәsi barәdә dә qәrar qәbul edilmişdir.

Konfransda Polşa mәsәlәsi dә çox danışıqlara sәbәb olmuşdur (Əsasәn Stalin ilә Çerçili arasında Alman-Polşa sәrhәddi barәdә fikir müxtәlifliyi vardı). Krımda Yuqoslaviya mәsәlәsinә dә baxmışlar. **«Azad oimuş Avropa»** barәdә bәyannamә qәbul edilmişdir.

Amerika tәrәfinin tәklifi ilә Almaniya tәslim olduqdan üç ay sonra SSRİ-nin Yaponiyaya qarşı müharibәyә qoşulması barәdә dә razılıq әldә edilmişdir. Belәliklә müharibәnin tez qurtarması vә müharibәdәn sonrakı quruculuq işlәri barәdә Krım Konfransının böyük rolu olmuşdur. İ may 1945-ci ildә Berlin devrilmiş, may ayının 9-da isә Almaniya tәslimçilik aktına imza atmışdır.

Aydındır ki, nisbi dә olsa müharibәdәn sonra dәqiq quruculuq dövrü başlanmışdır. Beynәlxalq münasibәtlәrdә köklü dәyişikliklәr baş vermişdir.

## Böyük vәtәn müharibәsindәn sonra sülhün tәnzimlәnmәsi problemlәri

Müharibәnin qurtarması ilә Avropa dövlәtlәrinin xarici siyasәtindә sülhün tәnzimlәnmәsi mәsәlәsi әsas yeri tuturdu. Burada sәrhәdlәrin müәyyәn edilmәsi vә qarşılıqlı münasibәtlәrdәn başlamış, sosial vә iqtisadi vәzifәlәrin hәllinәdәk olan bir çox problemlәr әhatә olunurdu. Müharibәdәn sonrakı tәnzimlәmә problemlәrindә әsas vәzifәlәrdәn biri dә beynәlxalq tәşkilatların yaradılması idi.

## San-Fransisko Konfransı. BMT-nin yaranması.

Müharibənin qurtarmasına iki həftə qalmış 25 aprel 1945-ci ildə ABŞ-ın Kolifomiya ştatının San-Fransisko şəhərində (Sakit okeanda liman) konfrans keçirilmişdir (Konfrans aprel ayının 25-dən iyun ayının 26-dək davam etmişdir). Konfransda müharibədən sonrakı dövrdə xalqın təhlükəsizliyi məsələsi müzakirə edilirdi. Elə bu məqsədlə də BMT yaradılmış və onun nizamnaməsi qəbul edilmişdir.

Konfransa 50 ölkədən nümayəndə gəlmişdi. Onlara xarici işlər nazirləri rəhbərlik edirdi. Konfransı ABŞ-ın o vaxtkı (1945-1953-cü illərdə) prezidenti **Qarri Trumen (1884- 1972)** açmışdır. Uzun sürən kəskin müzakirələrdən sonra 1945- ci il iyun ayının 26-da BMT-nin nizamnaməsi qəbul edilmişdir. Nizamnamə 1945-ci il oktyabr ayının 24-də qüvvəyə minmişdir. O vaxtdan da bu tarix BMT-nin yarandığı gün kimi qeyd edilir.

Aydındır ki. Nizamnamədə yeni təşkilatın vəzifələri və onun həyata keçirilməsi metodları öz ifadəsini tapmışdır. İlk dəfə olaraq beynəlxalq münasibətlərin əsas başlanğıcı kimi **bərabərlik və xalqların öz müqəddəratını təyin etmək prinsipi göstərilmişdir.** 7-ci maddənin 2-ci bəndində xüsusi olaraq göstərilirdi ki. Nizamnamə BMT-nin daxili işlərə qarışmasına yol vermir (bu şərtlə həmin daxili işlər başqa ölkələr üçün təhlükə törətməsin).

Nizamnaməyə əsasən BMT-nin əsas məqsədi aşağıdakılardan ibarətdir:

-Beynəlxalq hüququ dəstəkləmək və beynəlxalq münaqişələri ədalətli həll etmək üçün birgə tədbirlər görmək;

-Bərabərlik və xalqlann öz müqəddəratını təyin etmək prinsipi əsasında dövlətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək;

-İnsanların irqindən, cinsindən, dilindən, dinindən asılı olmayaraq onların arasında iqtisadi, mədəni əməkdaşlığı həyata keçirmək və insan hüququna hörmət etmək;

-Bütün bu ümumi məqsədlər üçün dövlətlərarası fəaliyyətdə mərkəz rolu oynamaq.

Sülhsevər hər bir dövlət BMT-nin üzvü ola bilər.

BMT-nin 6 əsas orqanı vrır:

Baş məclis; Təhlükəsizlik şurası; İqtisadi və Sosial Şura (EKOSOS); Qəyyumluq Şurası; Beynəlxalq məhkəmə və Katiblik.

Baş məclis BMT-nin əsas məsləhətçi orqanıdır. BMT-nin bütün üzvlərinin nümayəndələri Baş Məclisin işində iştirak edirlər. BMT-nin hər bir üzvü Baş məclisdə bir səsə malikdirlər.

Təhlükəsizlik Şurası əsas siyasi orqan hesab edilir. Təhlükəsizlik Şurasının üzvləri daimi və qeyri daimi (müvəqqəti) üzvlərdən ibarətdir. Daimi üzvləri - Rusiya, ABŞ, Böyük Britaniya, Fransa və Çin dövlətləridir. Qeyri daimi üzvləri isə Baş məclis tərəfindən iki illiyə seçilir. Bu üzvlərin hər biri növbə ilə Təhlükəsizlik şurasına bir ay sədrlik edir. Konkret beynəlxalq problemlər üzərində işləmək üçün BMT- nin tərkibində dövlətlərarası ixtisaslaşdırılmış müəssisələr fəaliyyət göstərir.

*Müharibədən sonra tənzimləmələr. Podstam konfransı.* Hitler Almaniyasının darmadağın edilməsində əsas rol oynayan hər üç dövlət - SSRİ, ABŞ və İngiltərə müharibədən sonrakı sülh tənzimlənməsi probleminə müxtəlif səpgidə baxırdılar. SSRİ Avropada öz mövqelərini genişləndirməyi nəzərdə tuturdu. ABŞ - Avropada öz iştirakım azaltmaq, başqa regionlarda isə təsir dairəsini artırmaq fikrində idi.

İngiltərə Avropada tarazlığın saxlanılmasını və regionda baş verən proseslərə təsir etməyi nəzərdə tuturdu. Beləliklə
1945- ci ilin iyun ayında SSRİ, ABŞ, İngiltərə və Fransa Almaniyanın məğlub olması barədə bəyannamə yaydılar.

Almaniya barədə bütün hakimiyyəti bu dörd dövlət öz öhdəsinə götürmüşdü. *«Almaniyada siyasi rejim»* barədə

bəyannaməni Sovet İttifaqı hazırlamışdı. Bu bəyannamənin əsas müddəaları iki səpgidə ifadə olunurdu:

- Alman xalqı ilə Hitler iddiasmı (onun çağırışım) eyniləşdirmək olmaz. Onlara qarşı işğalçılıq siyasəti yeritmək olmaz;

-Almaniyanın vahid, sülhsevər bir dövlət kimi inkişafına zəruri şərait yaratmaq lazımdır.

Almaniya ilə bağlı məsələlərin tənzimlənməsi məqsədi ilə 1945-ci il iyul ayının 17-dən avqustun 2-dək Almaniyanın Potsdam şəhərində Konfrans çağrılmışdır (çox vaxt buna Berlin Konfransı deyilir). Konfransın nümayəndələrinə SSRI- dən İ.V. Stalin, Amerika nümayəndələrinə Q. Trumen, İngiltərə nümayəndələrinə U. Çerçili və onun müavini K. Ettli başçılıq etmişlər. Berlin konfransının qərarına əsasən SSRİ, ABŞ, İngiltərə və Fransa Almaniya üzərində tam işğalçılıq rejimi müəyyən edərək vahid idarəçilik orqanı (müttəfiq Nəzarət Şurası) yaratmışlar. Üç ölkə hərbi cinayətkarların məsuliyyətə cəlb edilməsini tələb edirdi. İkinci Dünya müharibəsinin əsl günahkarlarını müəyyənləşdirmək üçün SSRİ, ABŞ, İngiltərə və Fransa Beynəlxalq hərbi tribunal yaratmışlar.

Hərbi tribunal 1945-ci ildə noyabr ayının 20-də Almaniyanın Nyunberq (Bavariya torpağında) şəhərində başlanmışdır. Hərbi tribunal 1 oktyabr 1946-cı ildə öz işini qurtarmışdır. Bu prosesdə 12 nəfərə ölüm hökmü verilmişdir - Qerinq, Ribbentrob, Keytel, Kaltenbrunner, Razenberq, Frank, Frik, Şter>ocer, Zukel, Yodlyu, Zeyss-İnkvart və Bormana.

Aşağıdakılara ömürlük həbs hölanü verilmişdir: Qess, Funk, Reder, Şpreer və Şirax 20 il, Neyrat - 15 il, Denis - 10 il azadlıqdan məhrum edilmişlər.

SSRİ, ABŞ və İngiltərənin hər üçü hərbi cərimə də almışlar, Almaniyanın hərbi-dəniz və ticarət donanması da bu üç dövlət arasında bölünmüşdü. Ərazi məsələlərinə də baxılmışdır. Bütün bunlarla yanaşı İtaliya, Finlandiya, Rumıniya, Bolqarıstan və Macarıstanla da sülh :müqaviləsi bağlanması

məsələsinə də baxılmışdır. Bu müqavilənin sənədlərini hazırlamaq üçün xarici işlər nazirlərinin şurası yaradılmışdır.

Bütünlükdə qeyd etmək olar ki, müharibədən sonrakı tənzimləmələrdə Potsdam konfransında qəbul edilmiş qərarların böyük rolu olmuşdur (istər Avropada və istərsə də bütün dünyada).

*Yaponiyanın darmadağın edilməsi.* SSRİ, ABŞ və İngiltərənin hökumət başçılarının 4-11 fevral 1945-ci ildə Krımda (Yaltada) keçirilən konfransında bir çox problemlərlə yanaşı Yaponiyanın işğalçılığa son qoyması məsələsi də müzakirə edilmişdir. Qərara alınmışdır ki, Almaniyanın təslimçilik aktı təsdiqləndikdən üç ay sonra Sovet Hökuməti Yaponiyaya qarşı müharibə elan etmək zərurətində olmalıdır (hətta burada müəyyən şərtlər də qeyd edilmişdir).

Odur ki, 9 avqust 1945-ci ildə Sovet Hökuməti Yaponiya ilə müharibəyə başladı (Bundan üç gün əvvəl avqust ayının 6-da Amerikalılar Yaponiyanın Xirosima şəhərinə atom bombası atmışlar). Elə həmin gün - avqustun 9-da amerikalılar Naqasaki şəhərinə atom bombası atmışlar.

Beləliklə cəmiyyət - dünya belə bir təhlükəli silahın şahidi oldu. Bir tərəfdən Yaponiyanın bombalanması və digər tərəfdən Uzaq Şərqdə SSRİ -nin müharibəyə başlaması Yaponiyada hərbi işğalçılıq rejiminə son qoydu. Qeyd etmək olar ki, Yaponiyaya qarşı nüvə silahının işlədilməsi hərbi cəhətə nisbətən daha çox siyasi əhəmiyyət kəsb edirdi. Bununla da ABŞ bütün dünyaya öz gücünü göstərmiş oldu. Beləliklə 2 sentyabr 1945-ci ildə Yaponiyanın təslimçiliyi barədə akt imzalandı. Yaponiya üzərində qələbə nəticəsində Sovet İttifaqı Cənubi Saxalini və Kurş adalarını qaytarmış oldu. Beləliklə, bu iki təcavüzkar dövlət - Uzaq Şərqdə Yaponiya, Avropada Almaniya öz müttəfiqləri ilə tam iflasa uğradılar.

*Məğlub dövlətlərlə müqavilə bağlanması.* Məlumdur ki, Potsdam konfransının (1945) qərarına əsasən müharibədən sonra sülhün tənzimlənməsi üçün hazırlıq işləri aparmaq məq

sədi ilə Xarici İşlər Nazirlərindən ibarət Şura yaradılmışdır. Bu Şura məğlub edilmiş beş ölkə - İtaliya, Finlandiya, Rumıniya, Bolqarıstan və Macanstanla sülh müqaviləsi bağlamaq üçün (Parisdə) 6 sentyabr 1945-ci ildə (sülh tənzimlənməsi işinə) hazırlıq işinə başlamışlar. Aydındır ki, bir çox məsələlər üzrə fikir müxtəlifliyi yaranmışdır. Sülh müqaviləsinin mətninin müzakirəsi 1946-cı ilin dekabr ayınadək davam etdirilmişdir.

Sovet nümayəndələri məğlub edilmiş ölkələrin suverenliyinin saxlanılması və heç bir iqtisadi yolla xalqın rifahına təsir etməməyin tərəfdarı olduğunu bildirirdi. Bütün bunlarla yanaşı Sovet İttifaqı bu ölkələrdə faşizmin kökünün kəsilməsini və hərbi kontingentin sayının azaldılmasını tələb edirdi. Sülh müqaviləsinin hazırlanmasında əsas məsələlərdən biri də sərhəd məsələləri idi. Yunanıstanla Bolqarıstan, Finlandiya ilə SSRİ, Macarıstanla Rumıniya arasındakı sərhəd məsələlərinə yenidən baxılmışdır. İtaliya ilə Yuqoslaviya arasındakı sərhəd məsələsində də ciddi danışıqlar olmuşdur.

İqtisadi sahədə olan fikir müxtəlifliyi daha çox hərbi cərimə barədə idi. Məsələn SSRİ İtaliyadan 100 mln. dollar cərimə istədiyi halda İngiltərə 2880 mln. funtsterlinq istəyirdi. Bu SSRİ-nin tələb etdiyindən 110 dəfə artıq idi (əslində İtaliya ordusu İngiltərənin ərazisində olmamışlar). Parisdə keçirilən sülh konfransı 1946-cı ilin iyul ayının 29-dan avqust ayının 15- nədək bir sıra qərarlar qəbul etmişdir. Bu qərarlar müzakirə edilərək baxılmaq üçün xarici işlər Nazirləri Şurasının sessiyasına təqdim edilmişdir (sessiya 1946-cı ilin axırlarında Nyu- Yorkda keçirilirdi). Beləliklə, İtaliya, Rumıniya, Bolqarıstan, Macarıstan və Finlandiya ilə olan sülh müqaviləsi 10 fevral 1947-ci ildə Parisdə imzalanmışdır. 1947-ci il sentyabr ayının 15-də isə SSRİ, ABŞ, İngiltərə və Fransa tərəfindən təsdiq edilərək qüvvəyə minmişdir. Beləliklə, Potsdam konfransı və beş sülh müqaviləsi Hitler əleyhinə olan birliyin son siyasi işi idi.

# XXV Fəsil.
# 1940-1950-ci İLLƏRDƏ BEYNƏLXALQ VƏZİYYƏT VƏ SSRİ-NİN XARİCİ SİYASƏTİ

**Tərk - silah problemi.** Müharibədən sonrakı dövrdə beynəlxalq münasibətlərdə yaranan əsas problemlərdən biri də tərksilah məsələsi idi. Müharibənin qurtarması ilə ordu sıralarının azaldılması və müxtəlif növ silahların ləğv edilməsi tələb olunurdu. Elə həmin illərdə bir çox hərbi müəssisələr sülh məramlı məhsullar istehsalına keçmişdi. Bu cür ağır, dəhşətli müharibədən sonra, on milyonlarla insan ölümündən, maddi və mədəni dəyərlərin itgisindən sonra tərksilah problemi heç vaxt gündəlikdən düşmürdü. Bununla yanaşı bir çox məsələlər öz həllini də tapa bilmirdi. Bunun əsas səbəbi ayrı-ayrı ölkələr arasında və xüsusilə SSRİ ilə ABŞ arasında olan ideoloji və siyasi qarşılıqlı münasibətlərdə idi.

Hitler Almaniyasına qarşı müttəfiq ölkələr artıq bir-birinə qarşı o qədər də etibar etməməyə başlamşlar. Hər iki **tərəfdə düşmən obrazı yaranmışdır.** Nüvə silahı yaradılmasına can atılması da elə bu etibar etməməkdən irəli gəlirdi.

**Nüvə silahı ixtirası.** Keçmiş müttəfiqlər arasında yaranan inamsızlığın əsas səbəblərindən biri **atom silahının** yaradılması məsələsi idi. ABŞ və İngiltərənin nüvə silahı yaradılması layihəsi üzərində işləməsi və bunu SSRİ-dən gizlətməsi əlbəttə münasibətlərə təsir etməyə bilməzdi. Bütün bu kimi silahların nə dərəcədə faciəli olması bir çox insanlara o qədər də çatmırdı.

Bunu ancaq bəzi qabaqcıl alimlər - fiziklər dərk edirdi. Atom enerjisindən hərbi məqsədə istifadə edilməsini istəməyən - pisləyən ilk alimlərdən biri Danimarkalı fizik Bor Nils Xenrik David' olmuşdur. Bor ABŞ və İngiltərənin rəhbər-

**Bor Nils (1885-1962) fizik ABŞ-da işləmişdir (1943-1945). Atom nəzəriyyəsi yaratmışdı. Atom silahının tətbiqinə qarşı çıxırdı. 1922-ci ilə**

liyini inandırmağa çalışırdı ki, atom silahı üzərində inhisar yaratmaq düzgün deyildir.

1944-cü il aprel-may aylarında F.Ruzvelt və U. Çerçili onu qəbul etmişlər. O, təklif edirdi ki, bu layihə barədə mütləq Sovet İtitifaqı ilə əməkdaşlıq etmək lazımdır. Onu dəstəkləyən başqa alimlər də az deyildi. ABŞ-da R. Oppenqeymer Los-Alomos' laboratoriyasını təltif etdikdən sonra demişdir: Vaxt gələcək ki, insanlar bizi lənətləyəcəklər (Los-Alomos və «Xirosimo» sözlərini lənətləyəcəklər).

Qeyd etməliyik ki, tanınmış fizik A. Eynşteyn^ demişdir ki, mən bilsəydim ki, Hitlerdə atom bombası olmayacaqdır, ABŞ-ın atom layihəsini dəstəkləməzdim.

**Tərk-silah danışıqları.** Müharibədən sonrakı bütün illərdə böyük dövlətlər arasında, xüsusilə kütləvi qırğın silahlarının azaldılması barədə danışıqlar getmişdir. Bu danışıqları bir neçə dövrə bölmək olar. Məsələn - *1945-1949- cu ilhr.* Bu mərəhələ atom silahımh yaradılması və onun üzərində ABŞ-ın inhisarçı mövqeyi ilə fərqlənir.

*1949-1955-ci ilhr.* Bu mərhələdə Sovet İttifaqında da atom silahı yaradılmışdı. 1955-1960-cı illərdə silahların azaldılması barədə real şans yaradılmışdır. ABŞ-İngiltərə və

**Nobel mükafatı almışdı. Oğlu Bor da (1922 təv.) atom enerjisi üzrə mütəxəssisdir. 1975-ci ildə Nobel mükafatı alıbdır.**

**'R. Oppenqeymer (1904-1967) Amerika fiziki, 1943-1945-ci illərdə atom bombası yaradılması rəhbəri. Sualtı bombaların yaradılmasına qarşı çıxırdı. Odur ki, 1953-cü ildə məxfi işlərdən kənarlaşdırıldı. Los Alomos Nyu-Meksiko şt. kiçik şəhər. ABŞ-ın enerji tədqiqatları mərkəzi. Əsasən nüvə enerjisi problemləri iləməşğul olurlar.** COBCTCKHH OHUHKJIO- **neflHHecKHÖ cnoBapt. MocKBa. 1987**

**^ Albert Eynşteyn- (1879-1955) Almaniyada doğulub, 1893-cü illərdə İsveçrədə yaşayıb, 1933-cü ildə ABŞ-a gedib, 1930-cü illərdə faşizmə qarşı çıxış edib. 1940-cı illərdə nüvə silahı işlədilməsinə qarşı çıxıb. Bu barədə ABŞ prezidentinə məktubda yazıb. 1921-ci ildə Nobel mükafatı nalayiq görülüb**

SSRİ Xarici İşlər Nazirlərinin 1945-ci il Moskva müşavirəsinin qərarlarına uyğun olaraq BMT-nin Baş Məclisinin birinci sessiyasında atom enerjisi üzərində BMT-nin nəzarət komissiyası təsis edilmişdir. Bu komissiya təhlükəsizlik komitəsinin beş daimi üzvlərindən və Kanadadan ibarət idi.

**1946-cı il yanvar** ayının 24-də Baş Məclis qətnamə qəbul etmişdir. Bu qətnaməyə əsasən komissiya atom enerjisi üzərində nəzarət barədə təklif hazırlayıb **Təhlükəsizlik Şurasına** təqdim etməli idi. Aydındır ki, ABŞ öz inhisarçı vəziyyətindən qalmaq istəmirdi. 1946-cı il iyun ayının 14-də ABŞ-ın dövlət departamentinin komissiyasında ABŞ nümayəndəsi **B. Baruxa** atom silahı üzərində ABŞ-m dalıa çox səlahiyyətə malik olması barədə plan hazırlamışdı. Bu sənəd **«Baruxa planı»** adlamr. Bu plan atom silahı üzərində ABŞ-ın inhisarçı vəziyyətini uzatmağa xidmət edirdi. Lakin atom silahının yaradıldığı ilk vaxtlardan SSRİ onun istehsalı və istifadə edilməsini dayandırmağı tələb edirdi.

1946-**cı il 29 oktyabrda** BMT Baş məclisinin sessiyasının ikinci hissəsində ümumiyyətlə silahların azaldılması və xüsusilə atom silahının hərbi məqsədlər üçün istifadəsinin qadağan edilməsini təklif edirdi.

1947- **ci ilin fevral** ayında BMT-nin Təhlükəsizlik Şurası adi silahların da azaldılması barədə komissiya yaradılmasına nail olmuşdu.

**1949-cu ilin sentyabr** ayında Sovet İttifaqı atom bombasını sınaqdan keçirdikdə artıq ABŞ-m bu sahədəki inhisarçıhğı başa çatmış olurdu. Lakin aydındır ki, vaxt keçdikcə daha yeni silah növləri yaradılırdı. Əlbəttə bütün bunlar beynəlxalq münasibətlərdə öz əksini tapırdı. Ayrı-ayrı dövlətlərin xarici siyasətlərinə təsir edirdi. Məsələn 1950-ci ilin iyul ayında ABŞ-m dövlət departamenti «Atom eneıjisi və Amerika rəhbərliyinin xarici siyasəti» barədə sənəd hazırlamışdı.

1952-1953-cü illərdə SSRİ, sonra isə ABŞ, Yaponiya və Fransa müxtəlif növ silahların azaldılması barədə təkliflər irəli sürmüşlər. 1954-cü ildə İngiltərə və Fransa üç mərhələdə silahların azaldılması barədə layihə hazırlamışlar.

Qeyd etdiklərimizdən aydın görünür ki, İkinci Dünya müharibəsi qurtardıqdan sonra çox keçmədən ABŞ, İngiltərə Sovet İttifaqı ilə əməkdaşlıq etməyə o qədər də səy göstərmirdilər.

Almaniya və Yaponiya darmadağın edildikdən sonra və İngiltərə ilə Fransanın zəifləməsindən istifadə edən ABŞ özünün hərbi strateji və maliyyə-iqtisadi imkanları ilə dünyada hegemonluq etməyə can atırdı. ABŞ-ın hakim dairələri belə hesab edirdilər ki, Hitler Almaniyası ilə gedən müharibənin ağırlıqlarından çıxmış SSRİ öz iqtisadiyyatını çətin bərpa edə biləcəkdir. Odur ki, hər hansı bir məsələdə Qərbə güzəştə getməli olacaqdır. Ona görə də güc amilinə üstünlük verirdilər. Bu barədə ABŞ-ın prezidenti Q. **Trumenin** və eləcə də İngiltərənin baş naziri **U. ÇerçilMn** sonralar yazdıqları memuarlarda da açıq etiraflar vardır. Rəsmi sənədlərdən məlum olur ki, İkinci Dünya müharibəsi qurtardıqdan sonra **U. Çerçili** SSRİ-yə qarşı müharibəyə başlamağı planlaşdırmışdı. Hətta 22 may 1945-ci ildə bütün hazırlıq işlərinin qurtarması barədə məlumat da vardı.

**Çerçilin Fultonda çıxışı.** Yaponiyanın iki şəhərinə atom bombası atıldıqdan sonra demək olar ki, ABŞ və İngiltərə özlərinin tam üstünlüyə malik olmasını açıq - aşkar nümayiş etdirirdilər. 1946-cı il mart ayının 1-də U. Çerçili Amerikanın prezidenti Q. Trumenin iştirakı ilə Fultonda SSRi-ni atom bombası ilə hədələyərək çıxış etmişdir. Onun kommunizmə qarşı olan bu çıxışını alqışlayanlar da az olmamışdır. Bununla da onlar bütün dünyanı və SSRi-ni qorxutmaq istəyirdilər. Aydındır ki. Sovet İttifaqı bu çıxışa o qədər də məhəl qoymamışdı. **İkinci bir yol yox idi.** Əlbəttə ABŞ və

İngiltərənin belə siyasəti beynəlxalq münsibətlərə təsir etməyə bilməzdi.

Lakin vaxt keçdikcə asılı ölkələrin azadlığı uğrunda xalq hərəkatları da artırdı. Elə bu vaxtlar İngiltərə də Türkiyəyə maliyyə yardımı edə bilmirdi. ABŞ bu regionda özünün hərbi-strateji və iqtisadi mövqeyini möhkəmlətməyə çalışırdı. 1947- ci ü mart ayının 12-də prezident Trumen Yunanıstana və Türkiyəyə köməklik etmək üçün Konqresin 400 mln. dollar ayırmasını xahiş etmişdir. «Trumen doktrinası» adlanan bu siyasi kursu yerinə yetirmək üçün konqress göstərilən məbləği ayırmışdı. Lakin Qərbin siyasi dairələrində ABŞ-m belə kurs götürməsinə ehtiyatla yanaşırdılar. Bütün bu kimi baxışlar Amerika hökumətini «Trumen doktrinası» deyil, başqa metoda keçməyə məcbur etmişdir.

«Marşal planı». Həmin dövrdə Qərbi Avropa dövlətlərinin iqtisadiyyatı İkinci dünya müharibəsindən əvvəlki 1936- cı il səviyyəsindən də aşağı idi. Odur ki, «Trumen doktrinası» hərbi məqsədə deyil, iqtisadi məqsədə yönəldilmişdir. ABŞ Qərbi Avropanın iqtisadiyyatını bərpa etməyi qərara almışdır. O vaxt ABŞ-ın dövlət katibi C. Marşal 5 iyun 1947-ci ildə Harvard Universitetində çıxış edərək bu iqtisadi köməkliyin proqramım açıqlamışdı. Bu plana əsasən Qərbi Avropa ölkələrinə 17 mlrd, dollar həcmində (bu günkü indeksləşmə ilə 100 mlrd, dollardan artıq) köməklik edilməsi qərarlaş- dırılmışdır. Həmin məbləğin yarıdan çoxunu İngiltərə, Fransa, qərbi Almaniya almışdı. Onu da qeyd etməliyik ki, «Marşal planı» üzrə köməklik Sovet İttifaqına, Mərkəzi və Şərqi Avropa ölkələrinə də təklif edilmişdir. Lakin SSRİ Amerikanın bu təklifini digər ölkələrin daxili işinə qarışmaq və onları özündən asılı vəziyyətə salmaq kimi qiymətləndirmiş və ondan imtina etmişdir.

ABŞ nə qədər öz mənafeyini nəzərdə tutmuş olsa da, hər halda bu ölkələrin iqtisadiyyatımn bərpa edilməsində və bəzi ölkələrdə, xüsusilə Fransa və İtaliyada artan inqilabi

hərəkatların yatınimasında bu köməkliyin böyük rolu olmuşdur.

**Hərbi-siyasi blok yaradılması.** Eyni vaxtda Böyük Britaniya və Fransa hökumətinin dəstəyi ilə ABŞ-la birlikdə Qərbi Avropada siyasi blok yaratmağa başlamışlar. Elə bu məqsədlə də **1948-ci ilin** fevral ayında ABŞ, İngiltərə və Fransa birlikdə müşavirə keçirmişlər. Bir aydan sonra **İngiltərə Qərbi Avropa** dövlətlərinin hərbi-siyasi blokunun yaradılması barədə təşəbbüs qaldırmışdır. Bu bloka **Böyük Britaniya, Fransa, Belçika, Hollandiya və Lüksemburq** daxil idi. Tarixi ədəbiyyatlarda bu blok **«Qərb İttifaqı»** adlanırdı.

1948-ci il mart ayının 17-də Brüsseldə Şimali **Atlantika Paktı (NATO)** yaradılması barədə razılıq əldə edilmişdir (bu 50 illiyə nəzərdə tutulmuşdu). Bu paktın iştirakçıları qarşılıqlı köməklik və kollektiv hərbi tədbirlər görmək barədə öhdəliklər götürmüşlər.

**Şimali Atlantika (NATO) ' təşkilatı yaradılması hazırlığı** 14 yanvar 1949-cu ildə canlanmışdır. Bu müqavilə 4 aprel 1949-cu ildə Vaşinqtonda imzalanmışdı. NATOnun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşlar:

ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Kanada, Belçika, Hollandiya, Portuqaliya, Danimarka, Norveç, İslandiya və Lüksemburq 1952-ci ildə Türkiyə və Yunanıstan, 1955-ci ildə AFR, 1982-ci ildə İspaniya, 1999-cu ildə Polşa, Macarıstan və Çexiya bura qoşulmuşlar.

1949-cu ildə Avropanın mərkəzində AFR və ADR yaranması da beynəlxalq münasibətlərdə yeni hadisə idi. Həmin dövrdə - 1949-cu ildə Mərkəzi və Cənubi Şərqi Avropa dövlətlərini birləşdirən qarşılıqlı iqtisadi yardım şurası (QUlŞ) yaradılmışdır.

Bura əvvəlcə Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya, SSRİ və Çexoslovakiya, sonralar isə AFR, Monqolustan, Kuba və Vyetnam da daxil olmuşlar.

Koreya hadisələri. Məlumdur ki, İkinci dünya müharibəsində Koreya iki hissəyə bölünmüşdü. Cənub hissəsində Amerika ordusu, Şimal hissəsində isə Sovet ordusu yerləşdirilmişdir. Bu iki tərəf arasında çox tez-tez münaqişələr baş verirdi.

Sovet İttifaqı KXDR hökumətinin razılığı ilə öz qoşununu Koreyadan çıxartmışdı. Buna baxmayaraq 1950-ci ilin yayında münaqişələr daha ciddi xarakter almışdı. Amerika ordusu Cənubi Koreya ordusuna köməklik edirdi. Bu hər iki ordu Şimali Koreyanı sıxışdırdığı vaxt Çinin könüllü dəstələri onlara köm.əklik edirdilər. Beləliklə, Amerika və Cənubi Koreya öz ordusunu geri - öz sərhədlərinə qaytarmalı olmuşlar. Beləliklə müharibə dayandırılmış və sülh bağlanmışdı.

*İndoneziyanın müstəqillik uğrunda mübarizəsi.* Məlumdur ki, İndoneziya əvvəllər (XVI əsrdə) Portuqaliyanın təsiri altında olmuşdur. XVII əsrin əwəllərindən isə Niderlandın təsiri altına düşmüş, 1945-ci ilə kimi onun müstəmləkəsi olmuşdur. 1945-ci ildə müstəqillik əldə etmişdir.

İndoneziyanın inqilabi hərəkatlarını yatırmaq üçün İngiltərənin və ABŞ-m mürtəce qüvvələri Hollandiyaya köməklik edirdilər. Bu vaxt Sovet İttifaqı ona köməklik göstərməli olmuşdu. Beləliklə Hollandiya rəhbərliyi İndoneziya ilə danışıqlara başlamamışdı. Danışıqlar 1949-cu il avqust ayının 23-dən noyabr ayının 2-dək davam etmişdi. Nəha;>^ət İndoneziya Respublikasının yeni statusu qəbul edilmişdir. Həmin illərdə başqa dövlətlərin ərazisində olan orduların (SSRİ-nin, İngiltərənin, Fransanın) çıxarılmasında da çox müsbət dəjd-şikliklər olmuşdur.

## Soyuq müharibə» dövrü və beynəlxalq münasibətlər

«Soyuq müharibə)) anlayışı İkinci dünya müharibəsindən sonrakı dövrləri əhatə edir. Bu dövrdə Qərb dövlətləri və xüsusilə ABŞ sistemli olaraq Sovet İttifaqına və sosializm

sistemi ölkələrinə qarşı düşmənçilik siyasəti yeridirdilər. Beynəlxalq münasibətlər tarixində bu dövr 1940-1960-cı illərdə daha kəskin xarakter almışdır. Bir çox alimlər soyuq **müharibə** dövrünün başlanğıcını elə İkinci Dünya müharibəsinin qurtarması vaxtından götürürlər. «Soyuq müharibə» haqqında müxtəlif fikirlər vardır. Kommunizm ilə demokratiya arasında olan müharibə «Böyük soyuq müharibə» adlanır. İki böyük dövlətlərin tarixçiləri arasında olan müharibə isə «kiçik soyuq müharibə» adlanır. İkinci dünya müharibəsi qurtardıqdan sonra iki əks blok yaranmışdı. Bir blokun başında SSRİ, digərinin başında isə ABŞ dururdu.

Burada bir neçə cəhəti səbəb kimi qeyd etmək olar. Göstərməliyik ki, ABŞ-m və İngiltərənin rəhbərliyi atom emalı yaradılması barədə SSRİ-yə məlumat verməməklə açıq - aşkar soyuqluq münasibətləri yaradırdılar. Bundan əlavə Çörçill ikinci cəbhənin açılmasını Fransadan deyil. Balkandan başlamağa cəhd edirdi. Bununla da qəfbdən şərqə tərəf deyil, cənubdan şimala tərəf irəliləməyi təklif edirdi. Bununla da Qızıl Ordunun yolunu kəsməyi planlaşdırırdı. Sonra 1945-ci ildə Sovet qoşunlarını Avropanın mərkəzindən müharibəyə qədər olan sərhədərədək sıxışdırmaq planı da soyuq müharibə işində az rol oynamamışdı.

Eləcə də 1946-cı ilin yazında (1946-cı il mart ayının 1-də) Çörçill Fultonda amerika prezidenti Trumenin iştirakı ilə olan yığıncaqda çıxış edərək SSRİ-ni atom bombası ilə hədələmişdi. Bu barədə ABŞ Qərb müttəfiqləri ilə öz xüsusi mövqeyini bildirməyi Almaniyadan başlamışlar. Belə ki, 1947- ci ilin yazında Xarici İşlər Nazirlərinin sessiyasında ABŞ, İngiltərə və Fransa nümayəndələri Sovet İttifaqı ilə olan əvvəlki razılaşmalardan imtina etdiklərini bildirmişlər. Onlar öz hərəkətləri ilə Almaniyanın şərq zonasını ağır vəzi>yətə salmışlar. 1948-ci ilin iyun ayında işğal edilmiş üç qərb zonasmda pul islahatı keçirmişlər. Bu üç dövlət Berlin böhranı yaratmışlar. Bütün bunlar Sovetlər əleyhinə təbliğatı artırırdı.

Aydındır ki, ABŞ və İngiltərənin belə siyasəti beynəlxalq münasibətlərə təsir etməyə bilməzdi. ABŞ qərb dövlətlərinə təzyiq göstərməklə onları öz xarici siyasət kursuna tabe etdirməyə və dünyada öz rolunu artırmağa çalışırdı. 1946-cı ildən başlayaraq müxtəlif hərbi, siyasi, iqtisadi bloklar və ittifaqlar yaradırdı. ABŞ tədricən asılı ölkələrin xalq hərəkatına qarşı irticaçı qüvvələrin mərkəzinə çevrilirdi.

İkinci Dünya müharibəsi qurtardıqdan sonra ABŞ Latın Amerikasma, Qərbi Avropaya, Yaxın, Orta və Uzaq Şərqə iqtisadi, siyasi və hətta hərbi təsir etməyə çalışırdı. Bunun üçün Konfranslarda danışıqlardan tutmuş BMT-də hər cür vasitələrdən istifadə edirdi. Onların əsas siyasi məqsədləri **«Kom- munizmə qarşı»** pərdəsi altında aparılırdı. Deməli **«Soyuq müharibə»** illərində ABŞ-ın xarici siyasətində əsas fikir **«Gərgin vəziyyətdə saxlamaq».** Bununla da onlar Sovet İttifaqmı zəiflətməyə çalışırdılar.

**«Əksdurma siyasəti»** hələ Prezident Trumenin vaxtında 1950-ci illərin sənədlərinin vərəqlənməsindən açıq-aşkar məlum olur ki, ABŞ o vaxtlardan **SSRİ ilə** olan münasibətləri daimi böhranlı, əksdurma şəraitində qurmağa çalışırdı. 1951-ci ilin sentyabr ayında ABŞ-m Konqresi **«Təhlükəsizliyin birgə təmin edilməsi haqqmda»** qanun qəbul etmişdir. Bu qanuna əsasən Sovetlər əleyhinə olan **emiqrantlarm və əks inqilabçılar təşkilatlarının** maliyyələşdirilməsi hüququ artırılırdı. Elə bu məqsədlə də Sovet İttifaqında və Şərqi Avropa dövlətlərində yaşayan adamlardan ələ almaq, yüksək əmək haqqı vermək və təxribat yaratmaq işində istifadə etmək planlaşdırılırdı.

ABŞ həmişə də SSRİ-ni qabaqlamağa çalışırdı. Siyasətdə, iqtisadiyyatda və xüsusilə hərbi işdə təşəbbüs sahibi olmağa can atırdı. Bütün bunlar isə hər bir dövləti məcbur edir ki, xalqın rifah halının yaxşılaqdırılması əvəzinə hərbi sahəni, ordunu gücləndirsin.

Qarşılıqlı təhlükəsizliyin təmin edilməsi pərdəsi altında hərbi bloklar və ittifaqlar yaradılması genişlənirdi. Belə ki.

1951-ci ilin sentyabr ayında ABŞ, Avstraliya və Yeni 2jelandiya hərbi-siyasi ittifaq yaratmışlar (ANZYUS).

25 may 1952-ci ildə bir tərəfdən ABŞ, Böyük Britaniya və Fransanın nümayəndələri, digər tərfdən isə AFR (Bonnda) Qərbi Almaniyanın Avropanın müdafiəsi Birliyində iştirakı barədə sənədə imza atmışlar (EOS). May ayının 27-də isə AFR, Fransa, İtaliya, Belçika, Hollandiya və Lüksemburq Parisdə bu blokun yaradılması barədə müqavilə bağlamışlar.

1954- cü ilin sentyabr ayında Manilada (Filippin) ABŞ, Böyük Britaniya, Fransa, Avstraliya, Yeni Zelandiya, Pakistan, Filippin və Tailand Cənubi-Şərqi Asiyanın kollektiv müdafiəsi barədə müqavilə imzalamışlar (SEATO).

1955- ci ilin fevral ayında Türkiyə-İraq hərbi İttifaqı (Bağdad paktı) yaradılmışdır.

Aydındır ki, ABŞ və onun müttəfiqlərinin hərəkəti Sovet İttifaqım da hərəkətə gətirməli idi. Odur ki, bütün bunlara cavab olaraq 1955-ci il may ayının 14-də Sosialist dövlətlərinin kollektiv müdafiəsi ittifaqı -Varşava müqaviləsi təşkilatı yaradılmışdır. Bu hərbi blok olan NATO yaradılmasına qarşı cavab idi. Varşava müqaviləsinə aşağıdakı dövlədər daxil olmuşdur - Albaniya, Bolqarıstan, Macarıstan, ADR, Polşa, Rumıniya, SSRİ və Çexoslovakiya. Bu blok müdafiə xarakteri daşıyırdı və kiməsə qarşı yönəldilməmişdi. Müharibədən sonrakı illərdə SSRİ-nin ümumi vəziyyətinin çətinləşdirilməsi üçün ABŞ SSRİ ilə və eləcə də Mərkəzi və Cənub-şərqi Avropa dövlətləri ilə iqtisadi əlaqələrə və ticarətə qadağa qoymuşdur. Hətta bu dövlətlərə əvvəlcədən sifariş verilmiş və hazırlanmış avadanlıqlar, nəqliyyat vasitələri və s. materialların göndərilməsi də dayandırılmışdı. SSRİ-yə və Sosialist dövlətlərinə göndərilməsinə qadağa qoyulan bir çox məmulatların siyahısı barədə məlumat dərc edilmişdi. Əlbəttə, bu tədbir SSRİ üçün müəyyən çətinliklər törətmiş və Qərbin sənaye müəssisələrinə də ziyan vurmuşdu,

Amerika hökuməti 1951-ci ilin sentyabr ayında 1937-ci ildə SSRİ ilə olan ticarət barədəki müqaviləni ləğv edərək 1952-ci ildə sosialist ölkələrinə göndərilməsinə məhsulların yeni siyahısı verilmişdir. Bir sözlə, «soyuq müharibə» illərində beynəlxalq vəziyyət o qədər də sadə deyildi. Tərəflər bir - birinə inanmır, etibar etmirdilər.

1960-cı illərdə SSRİ, ABŞ, Böyük Britaniya və Fransa rəhbərlərinin Paris görüşü Nazirlər Sovetinin sədri N.S.Xruşovun qeyri-düzgün siyasəti nəticəsində baş tutmamışdı. Həmin illərdə Kuba məsələsində də Sovet rəhbərliyinin səhvi olmuşdur. (Kuba sahillərinə hərbi raket çıxarılmışdı).

Bütün bu kimi mənzərəyə yekun vuraraq «Soyuq müharibə» dövrünü üç mərhələyə bölmək olar:

Birinci mərhələ - 1945-1948-ci illəri;

İkinci mərhələ - 1948-1962-ci illəri;

Üçüncü mərhələ - 1962-1969-cu illəri əhatə edir.

«Soyuq müharibə)) illərinin təhlilindən belə nəticəyə gəlmək olar ki, ABŞ kommunizmə və inqilabi hərəkatlara qarşı durmaqla dünya üzərində özünün hökmranlığını bərqərar etmək məqsədi daşıyırdı.

## XXVI Fəsil.
## MÜSTƏMLƏKƏ SİSTEMİNİN DAĞILMASI VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

Faşizm üzərində demokratik qüvvələrin qalib gəlməsi və bu işdə Sovet İttifaqının hərtərəfli dəstəyi Asiya, Afrika və Latın Amerikasında Milli azadlıq hərəkatlarının genişlənməsinə səbəb olmuşdur. Beləliklə ikinci dünya müharibəsi müstəmləkə və asılı ölkələrin öz azadlıqları üçün hərtərəfli mübarizə aparmalarında böyük rol oynamışdır.

**Cənubi - Şərqi Asiya.** Müstəmləkə sistemindən azad olmaqda hərəkat edən regionlardan biri də Cənubi Şərqi Asiya ölkələri olmuşdur. Hələ İkinci Dünya müharibəsi illərində müharibə vəziyyətindən istifadə edən **İndoneziya** xalqı Yaponiyaya qarşı mübarizəyə qalxmışlar. Məlumdur ki, İndoneziya Hollandiyanın müstəmləkəsi olmuşdur. 1942-1945-ci illərdə Yaponiya tərəfindən işğal edilmişdir.

1945-ci ilin avqust ayında Yaponiya hərbiləşməsinin məhv edilməsi artıq reallığa çevrilmişdi. Bu vaxt İndoneziyada milli-azadlıq hərəkatının liderlərindən biri olan **Sukarno** (1901-1970) İndoneziyanın müstəqilliyini elan etmiş və İndoneziya Respublikasının Prezidenti olmuşdu (1945-1967).

Müstəqilliyin ilk günləri sakit keçsə də çox keçmədən **İngilis qoşunları «Yava»** adasına daxil olmuşlar. Onlar özləri ilə general - qubernator **Van-Mookanı da** gətirmişlər. O, Hollandiyanın qoyduğu nizam-intizamı bərpa etməli idi. 10 noyabr 1945-ci ildə müstəmləkəçiliyə qarşı İndoneziyada silahlı mübarizə başlanmışdı. Bu mübarizə bir neçə il davam etmişdi. Nəhayət 1954-cü il avqust ayının 10-da Hollandiya - **İndoneziya İttifaqı** ləğv edilmişdi.

1956-cı ilin may ayında bu ittifaqın ləğv edilməsi barədə qanunu prezident Sukarno imzalayaraq parlamentə təqdim edilmişdi.

İ946-C1 ilin tyul ayının 4-də Filippin Respublikası müstəqillik əldə etmişdir (məlumdur ki, XVI -XVII əsrlərdə Filippin İspaniyanın müstəmələkəsi olmuş, milli-azadlıq mübarizəsi nəticəsində 1896-1898-ci illərdə respublika elan edilmişdir. 1898-ci ildə İspaniya-Amerika müharibəsi nəticəsində Filippin ABŞ-ın müstəmləkəsi olmuşdur. **1934-cü ildə** ona muxtariyyat, 1946-cı ildə isə müstəqillik verilmişdir).

• 1951-ci ildə Nepal müstəqillik əldə edərək konstitu- siyalı monarxiya dövləti yaratmışdır (Nepal uzun müddət Hindistanın təsiri altında olmuşdur).

• **Birma** (Myanma). Birma cənubi-şərqin qədim dövlətlərindən biridir. XIX əsrdə - üç müharibə - 1824-1826; 1852- 1853; 1886-ci illər nəticəsində Böyük Britaniya buranı ələ keçirmişdir.

İngiltərə buranı əvvəlcə Britaniya Hindistanının tərkibində, sonra isə aynca Birma kimi müstəmləkə etmişdir. 1941- 1945-ci illərdə yaponlar tərəfindən işğal edilmiş (1945-ci ildə azad edilmiş). 1947-ci ilin oktyabr ayında müstəqillik verilmişdir. 1948-ci il yanvar ayının 4-də İngilis bayrağı endirilmiş və yerində Birma İttifaqının bayrağı ucaldılmışdır.

• 15 avqust 1947-ci ildə Dehlidə Müstəqil Hindistanın bayrağı ucaldılmışdı. XVIII əsrin axırlarından Hindistan İngiltərənin müstəmləkəsi olmuş, 1947-ci ildə dominiona çevrilmiş, 26 yanvar 1950-ci ildə tam müstəqillik əldə etmişdir.

9 Hindistana müstəqillik verildikdə onun ərazisi iki hissəyə bölünmüşdü: Hindistan və Pakistan. Pakistan da iki hissədən ibarət idi - Şərq və Qərb. Uzun sürən münaqişədən som-a Şərq hissəsi də müstəqil Banqladeş dövləti kimi aynl- mışdır. Beləliklə 14 avqust 1947-ci ildə Pakistan müstəqillik əldə etmişdir. 23 mart 1956-cı il Pakistan günü hesab edilir.

• Banqladeş - 1947-ci ilədək Hindistanın tərkibində olmuşdu. Sop-ra Şərqi Pakistan hesab edilirdi. 1970-ci ildə tam muxtariyyat almış, 1971-ci ildə isə müstəqil dövlət olmuşdur.

• 1948-ci ildə Seylon adasına dominion huququ verilmişdir.

• 1957-ci ildə Malayziya müstəqillik əldə etmişdir. XVIII əsrin axırlarından XX əsrin əvvəllərinədək İngiltərə bu ərazini ələ keçirmək üçün mübarizə aparıbdır (1941-1945-ci illərdə Yaponiyanın işğalında olubdur. Sonra inqilabi mübarizə nəticəsində həm Yaponiya və həm də İngiltərə əsarətindən azad olublar).

• Vyetnam - Vyetnam uzun müddət Çinin idarəçiliyi altında olubdur. XIX əsrin ikinci yarısından Vyetnam Fransanın müstəmləkəsinə çevrilmişdir. 1941-1945-ci illərdə Yaponiya tərəfindən işğal edilmişdir. 1945-ci ildə Xo Şi Minin rəhbərliyi altında Demokratik Vyetnam Respublikası elan edilmişdir. 1945-1954-cü illərdə Fransa müstəmləkəçilərinə qarşı mübarizə aparmışlar. Cenevrə müqaviləsinə əsasən Vyetnam iki hissəyə ayrılmışdır. Şimalda Demokratik Vyetnam respublikası, cənubda isə Vyetnam Respublikası (bura Amerika qoşunu yeridilmişdir). 1964-1973-cü illərdə hər iki Vyetnam arasında müharibə getmişdi. Əslində faktiki olaraq Demokratik Vyetnam Respublikası ilə ABŞ arasında müharibə gedirdi. Nəhayət müharibə qurtarmış, cənub ilə Şimali Vyetnam birləşmiş və Vyetnam Sosialist Respublikası yaranmışdır. Demək olar ki, 30 illik mühai-ibədən sonra Vyetnam azad, müstəqil demokratik respublikaya çevrilmişdir.

*Yaxın* va *orta şərqi Afrika.* Müstəmləkəçilikdən azad olmaq, müstəqillik əldə etmək dalğası demək olar ki, bütün müstəmləkə ölkələrə yayılmışdı. Belə bir mübarizə yaxın və orta şərq xalqlarını da oyatmışdı. Suriya, Livan, Misir, İraq, Yəmən, İordaniya xalqları müstəqillik uğrunda mübarizəyə qalxmışlar.

Fələstin dövləti. BMT-nin Baş məclisinin qətnaməsinə əsasən 1948-ci ii noyabr ayının 29-da Böyük Britaniyanın protektoratı sayılan Fələstin ərazisində Fələstin Ərəb Dövləti və İsrail yəhudi dövləti yaradılması qərara alınmışdır. O

vaxtdan da hər iki tərəf arasında münaqişələr davam edir. Həmin vaxtdan İsrail Fələstinin bütün ərazisini özünə birləş- dinnəyə can atır. Hər halda hələ də Fələstin müstəqil, azad dövlət yarada bilməyibdir.

**Misir Ərəb Respublikası.** Bu ölkə ən qədim dövlətlərdən biridir. XIX əsrin ikinci yarısından Misir Muxtariyyat hüququ almışdır. 1882-ci ildən Türkiyənin təsir dairəsindən İngiltərənin təsir dairəsinə keçmişdir. 1914-1922-ci illərdə İngiltərənin protektoratı olmuşdur. 1922-ci ildə Misirə müstəqillik verilmişdir. Lakin İngiltərə onun üzərində öz təsir dairəsini saxlamışdır.

• 1952-ci ildə başda Kamal Abdul Nasir olmaqla, vətənpərvər **«Azad zabitlər»** təşkilatına daxil olan hərbçilər hərbi çevriliş etmişlər. Beləliklə 18 iyun 1953-cü ildə Misir Respublikası elan edilmişdir.

• 1950-ci ildə Liviya müstəqillik əldə etmişdir. Liviya XVI əsrdən XX əsrədək Türkiyəyə tabe olmuşdur. 1911-ci ildə İtaliyanın, İkinci Dünya müharibəsi illərində ingilis - fransız hərbçilərinin və ABŞ-ın hərbi bazasının nəzarəti altında olmuşdur. 1951-ci ildə müstəqil Birləşmiş Krallıq elan edilmişdir. 1-09-1969-cu ildə başda **M. Qəddafi olmaqla** Monarxiya rejimi devrilmiş Liviya Ərəb Respublikası yaradılmışdır.

• 1956-cı ildə Sudan müstəqillik almışdır. Sudan əslində XIX əsrin axırlarından İngiltərənin müstəmləkəsi olmuşdur. 1820-ci ildə Misir tərəfindən işğal edilmişdir. 60 il Misirin əyaləti olmuşdur.

• 1956-cı ildə Tunis müstəqillik qazanmışdır. Tunis XVI əsrdə Osmanlı imperiyasına daxil idi. 1881-1956-cı illərdə Fransanın protektoratı olmuşdur.

İraqda 1958-ci ildə monarxiyanın yerində respublika yaranmışdır. İraq XVII əsrdən Birinci Dünya Müharibəsinədək Osmanlı imperiyasının tərkibində olmuş, müharibə qurtardıqdan sonra Türkiyənin məğlub olması ilə bağlı olaraq Böyük

Britaniya İraqı işğal etmişdi. İ930-cu ildə İraq formal olaraq müstəqillik əldə etmişdir.

Beləliklə 1950-ci illərin axırlarına yaxın və Orta Şərqin və Şimali Afrikanın bütün ölkələri asılılıqdan azad olmuşlar.

Belə bir tarixi proses digər ölkələri də əhatə etmişdi. Milli-azadlıq hərəkatları bütün Afrikanı bürümüşdü.

- 1957-ci ilin mart ayında Qana müstəqillik almışdı.
- Qana əvvəllər «Qızıl Sahil» adlanırdı (Atlantik okeanının Qvineya hövzəsində yerləşir) çoxlu qızıl çıxarılır. 1482-ci itdə Portuqaliya buradan qızıl və qul aparırdı. 1642-ci ildə hollandlar Portuqaliyaları sıxışdırmışlar. 1901-ci ildən İngiltərənin müstəmləkəsi olmuşdur. Qərbi Afrikada və Ekvatorial Afrikada Fransa müstəmləkələri də azadlıq mübarizəsi aparmışlar.
- 2 oktyabr 1958-ci ildə Qvineya müstəqillik əldə etmişdir. Qvineya 1830-cu illərdə Fransam maraqlandırmışdır (qızıl, fıl sümüyü, qırmızı ağac və s.). XIX əsrin axırlanndan 1958-ci ilədək Fransanın müstəmləkəsi olmuşdur.
- 25 oktyabr 1959-cu ildə Kamerun azadlıq əldə etmişdir. 1884-cü ildə Almaniya Kamerunu ələ keçirmiş və 1914-cü ildə bütün ərazini tutmuşdur. Birinci Dünya müharibəsindən sonra Millətlər Liqası Kamerunu Fransa ilə İngiltərənin idarəçiliyinə vermişdir.
- 27 aprel 1960-cı ildə Toqo müstəqillik əldə etmişdir. 300 ilədək bu torpaqlar üstündə Portuqaliya, Danimarka, İngiltərə, Fransa və Almaniya arasında mübarizə gedibdir. Nəhayət 1884-1914-cü illərdə Toqo Almaniyanın protektoratı olubdur. Birinci Dünya müharibəsi dövründə Toqo İngiltərə ilə Fransa tərəfindən işğal edilmişdi. 1956-1957-ci illərdə bir hissəsi Qanaya birləşdirilmiş, Fransanın tabeçiliyində olan hissəsi isə özünüidarəçilik statusu almışdır.

Bütün bunlar Fransanın müstəmləkəçiliyi birliyinin dağılmasına səbəb olmuşdur. Seneqal, Yuxarı Volta, Daqo-m.eya, Sudan Mali Federasiyasında birləşmişlər və müstəqillik

tələb edirdilər. Fransanın müəyyən təzyiqlərinə baxmayaraq 1960-cı ilin iyun ayında **Madaqaskar** (Malqaş) və Mali Federasiyası müstəqillik əldə edə bilmişlər.

• Yenə də 1960-cı ildə 17 Afrika dövləti müstəqillik əldə etmişdir (ÇAD Respublikası, Mərkəzi Afrika Respublikası, Konqo (Brazzovil), Qabon, Daqomeya Respublikası, Niger Respublikası, Kot *d!* Uvyar və s.).

Bütünlükdə 1960-cı illər tarixə Afrika ili kimi daxil olmuşdur . Beləliklə, 1960-cı ildə Şərqi və Mərkəzi Afrika dvölətləri də azadlıq əldə etmişlər. Bunlardan Britaniyanın təsir dairəsində olan Keniya, Uqanda, Zanzibar, Nyasalend, Şimali Rodeziya və s. Dövlətləri qeyd etmək olar. Sonra isə xammal mənbələrini əldən vermək istəməyən müstəmləkəçi dövlətlər bu prosesi uzatmağa nail ola bilmişlər. Məsələn Anqola ancaq 1975-ci ildə müstəqillik əldə edə bilmişdir.

Afrika dövlətlərinin tərəqqi tapması üçün onların qüvvələrinin birləşdirilməsinə böyük ehtiyac vardır. Odur ki, 1963-cü ildə müstəqil Afrika dövlətləri başçılarının görüşü olmuş, konfransda **Afrika Birliyi Təşkilatı** (ABT) yaradılmışdır. Təşkilat 50 dövləti özündə birləşdirir.

• **Kuba -1511** -ci illərdən İspaniya müstəmləkəçiləri tərəfindən işğal edilmişdir. 1868-1878-ci illərdə azadlıq mübarizəsi aparmışlar. 1895-ci ildə yenidən müstəmləkəçiliyə qarşı mübarizəyə qalxmışlar. 1898-1902-ci illərdə ABŞ tərəfindən işğal edilmişdir. 1950-ci illərdə Kuba vətənpərvərləri Amerikaya qarşı mübarizə apanrdılar. Nəhayət 1 yanvar 1959-cu ildə diktator rejimi devrilmişdi. 1961-ci ildən Kubada sosialist inqilabı qalib gəlmişdi. Aydındır ki, müstəmləkə xalqlarının azadlıq hərəkatlarına Sovet İttifaqının hərtərəfli köməkliyi olmuşdur.

# XXVII Fəsil.
# 1900-1960-cı İLLƏRİN BEYNƏLXALQ MÜNASİBƏTLƏRİ və SOVET İTTİFAQININ XARİCİ SİYASƏTİ

1960-cı illərdə beynəlxalq siyasət əsasən tərksilah və atom silahımn qadağan edilməsi, bir çox regionlarda - xüsusilə Hindi-Çin və yaxın Şərqdə münaqişələrin, hərbi hərəkatların aradan qaldırılması problemləri ilə səciyyələnir. ABŞ açıq- aşkar SSRİ-ni qorxutmağa can atırdı. 1960-cı illərdə Amerika xəfiyyə orqanları 20 min müxtəlif obyektlərin yerini müəyyənləşdirmiş və atom bombası atmağı planlaşdırmışlar. Bütün bunlar Sovet rəhbərliyini məcbur edirdi ki, hərbi sahəyə ayrılan xərcləri artırsın. Amerika təbliğatı isə öz xalqını və qərb dövlətləri xalqlarım sovetlərdən olan təhlükə ilə qorxudurdu.

1960-cı illərdə hadisələrin belə ziddiyyətli xarakter almasına baxmayaraq hər halda bu kimi qarşıdurmaların perspektivsiz olduğunu dərk edən qüvvələr də vardı. Danışıqlar aparılmasının zəruri olduğunu başa düşən qüvvələr də nəzərə çarpırdı. Bu cür **«ara vermə»** (müəyyən mənada möhlət) qərbdə **«Gərginliyin zəiflədilməsi»** kimi qiymətləndirilirdi. Həmin illərdə ABŞ ilə Sovet İttifaqı arasında da danışıqlar gedirdi ki, bu da müsbət hal kimi qiymətləndirilirdi.

ABŞ-ın o vaxtkı prezidenti **C. Kennedi** özünün xarici siyasi proqramında diplomatik metodlara çox üstünlük verirdi. Nüvə silahının sınaqdan keçirilməsinin dayandırılması barədə 1960-cı ildə Cenevrədə ABŞ, SSRİ və İngiltərə nümayəndələri arasında danışıqlar çox gərgin gedirdi. Fransa və Çin də müxtəlif bəhanələrlə belə bir müqavilənin əleyhinə idilər. Bütün bunlara baxmayaraq danışıqlar müəyyən nəticələr verə bilirdi. 1962-ci ilin noyabr ayında BMT - baş Məclisinin XVII sessiyası nüvə silahı olan ölkələr üçün qətnamə qəbul etmişdi. Qətnaməyə əsasən nüvə silahımn sınaqdan keçirilməsi məsələsi 11 yanvar 1968-ci ildən dayandırılmalı idi.

Lakin 1963-cü ilin yayında məlum oldu ki, Qərb ölkələri nüvə silahının sınaqdan keçirilməsini dayandırmağa o qədər də razı deyildirlər. Belə olduqda Sovet rəhbərliyi başqa bir şərt irəli sürmüşdü. Bu sınağın üç sahədə - atmosferdə, kosmos məkanında və su altında keçirilməsi qadağan edilsin. Hər üç ölkənin nümayəndələri 15 iyul 1963-cü ildə Moskvada danışıqlara başlamış, avqustun 5-də danışıqlar qurtarmış və razılıq əldə edilmişdir. Moskva müqaviləsi 10 oktyabr 1963- cü ildən qüvvəyə minmişdir.

Danışığa və müqaviləyə əsasən Sovet İttifaqı öz raket və hərbi təyyarələrini Kubadan çıxarmışdı. ABŞ isə rəsmən bəyan etmişdi ki, Kubaya qarşı hərbi münaqişəyə getməyəcəkdir.

*Nüvə silahının yayılmamasına dair sülhə hazırlıq.*

Qeyd etməliyik ki, 1960-cı illərdə artıq nüvə silahına malik olan, dövlətlərin sayı artmışdı. Odur ki, Moskva müqaviləsindən sonra (Nüvə silahının sınaqdan keçirilməsində qismən qadağalar barədə) tərəflər tərksilah barədə müqavilələr bağlamaq üçün tədbirlər görməyə səy göstərirdilər. 1960-cı illərdə adi silahların ixtisar edilməsi barədə də danışıqlar gedirdi. Kosmik fəzanın mənimsənilməsi kimi yeni problemlər də yaranmışdır. Burada əsas məsələ kosmik məkanın hərbi məqsədlər üçün istifadə edilməməsi və ora nüvə silahı çıxar- mamaqdan ibarət idi.

Sovet İttifaqı və digər sosialist dövlətləri müəyyən tədbirlər görürüdülər ki, AFR və Yaponiyada atom silahı yaradılmasına imkan verilməsin. ABŞ-da və Qərbdə Nüvə silahlarının artırılması və onun dağıdıcı gücünün artması siyasətçiləri və mütəxəssisləri düşündürməyə bilməzdi. Odur ki, 1960-cı illərdə gedən danışıqlar ictimaiyyətin diqqətini cəlb edirdi. Elə həmin illərdə 38 dövlətdə nüvə reaktorları üzərində tədqiqat işləri aparılırdı. Bundan əlavə 1968-ci ildə hərbi məqsəd üçün 23 dövlətdə süni kimyəvi elementlər istehsal edilirdi. BMT-nin baş məclisi öz üzvlərini tam tərksilah aparılması

barədə müqavilə bağlanmasına hazırlıq görülməsinə çağınrdı. Odur ki, BMT-nin XX sessiyasında 18 dövlətdən ibarət komitəyə həvalə edilmişdir ki, nüvə silahının yayılmaması barədə məsələyə baxılsın.

1960-cı illərin ikinci yansına bir çox dövlətlərdə, o cümlədən ABŞ, İngiltərə və Fransada da nüvə silahının yayılması barədə müəyyən rəsmi sənədlər hazırlanması qərarına gəlmişlər. Müqaviləyə hazırlıq barədə danışıqlar əsasən SSRİ- nin xarici işlər naziri A.A. Qromıko və ABŞ-m dövlət katibi

*D.* Pask arasında gedirdi. Beləliklə BMT Baş Məclisinin XXII sessiyasında və növbəti sessiyalarda, 18-lər komitəsinin iclaslarında müqavilənin şərtləri, ayrı-ayrı maddələri hazırlanmışdı. SSRİ, ABŞ və İngiltərə müqavilənin layihəsini XXII sessiyaya təqdim etmişlər. Baş Məclis layihəni 12 iyun 1968-ci ildə Moskva, Vaşinqton və Londonda imzalamışdı. Müqavilə təsdiqləndikdən sonra 1970-ci il mart ayının 5-də qüvvəyə minmişdir. Bu vaxtadək artıq 100 ölkə həmin müqaviləni imzalamışdılar.

1960-1970-ci illərdə strateji silahlanma baxımından ABŞ ilə SSRİ demək olar ki, bərabər səviyyədə idilər. Avropa ölkələri ilə də vəziyyət tədricən yaxşılaşırdı. Fransa və AFR - Sovet İttifaqı ilə münasibətləri normallaşdırmışdı. Qərb ölkələri ilə sosialist inkişaf yolunda olan ölkələr arasında müqavilələr və müəyyən razılaşmalar əldə (idilirdi. AFR ilə ADR arasında Sovet İttifaqının xarici siyasəti fəallaşırdı. Mərkəzi Komitənin birinci katibi L.İ. BrejnevAFR-də, A.N.Kosıgin Avstriyada olmuşlar. 1972-ci ilin may ayında ABŞ-ın prezidenti R.Nikson Moskvaya gəlmişdir. Bütün bu görüşlərdə bir çox vacib sənədlər imzalanmışdır.

Dəniz və okeanların dibinin mühafizəsi barədə müqavilə. Bu məsələ BMT Baş Məclisinin XXV sessiyasında 1969-cu ilin dekabrında müzakirə edilmişdir. Müqavilənin layihəsi 7 dekabr 1970-ci ildə razılaşdırılmış və 11 fevral 1971- ci ildə SSRİ, ABŞ və İngiltərə tərəfindən imzalanmışdır. 1971-

ci ilin axırlarına bu müqaviləyə 90 dövlət imza atmışdır. Müqavilə 18 may 1972-ci ildə qüvvəyə minmişdir.

İmzalanan bütün müqavilələrdə öhdəçilik götrırülmüş - dür ki, dəniz və dəryaların dibində hər hansı bir nüvə silahı, kütləvi qırğın silahı, müəyyən qurğular yerləşdirməyəcəkdir.

Silahların məhdudlaşdırılması. 1960-1970-ci illərdə çox vacib beynəlxalq hadisələr baş verirdi. Bu isə beynəlxalq münasibətlərdə və xa].ici siyasət məsələlərində öz əksini tapırdı. Sovet - Amerika danışıqları, Vyetnamda müharibənin dayandırılması, Təhlükəsizlik və Avropada əməkdaşlığa dair yığıncağa hazırlıq işləri kimi hadisələr gündəlikdə dayanırdı. Nüvə silahı sahəsindəki qüvvələr balansı dövlətləri danışıqlar aparmağa vadar edirdi. Beləliklə silahların azaldılmasına dair 1970-1972-ci illərdə ABŞ ilə SSRİ arasında bir neçə müqavilə imzalanmışdı.

SSRI-nin sülh təşəbbüsü. Sovet İttifaqı beynəlxalq təhlükəsizliyin təmin edilməsində, müxtəlif növ silahların azaldılmasında və yaxud istehsalının tamamilə dayandırılmasında ardıcıl səy göstərirdi. Odur ki, dövlət başçılarının tez-tez görüşləri, danışıqları olurdu. Bu baxımdan 1973-cü ilin iyun ayında L.İ. Brejnevin ABŞ-a olan səfəri və 1974-cü ildə ABŞ- m prezidenti R. Niksonun SSRİ-yə səfəri böyük əhəmiyyət kəsb etmişlər.

Eləcə də yenə 1974-cü ilin noyabr ayında ABŞ-ın prezidenti A. Ford ilə L.İ. Brejnevin Vladivostokda olan görüşü yeni müqavilələr üçün geniş yol açmışdır.

1976-cı ildə BMT-nin Baş Məclisinin XXXI sessiyasında Beynəlxalq münasibətlərdə güc tətbiq edilməməsi barədə ümumdünya müqaviləsi barədə məsələ müzakirə edilmişdir. 1978-ci ilin payızında SSRİ təklif edirdi ki, beş nüvə silahı dövləti olan SSRİ, ABŞ, İngiltərə, Fransa və Çin arasında danışıqlar aparıism. 1979-cu ilin iyun ayında Vyanada SSRİ Ali Sovetinin sədri L.İ. Brejnev ilə ABŞ-ın prezidenti C. Karter arasında görüş olmuş və bir çox strateji silahlann azaldılması

barədə razılıq əldə edilmişdir. Bir sözlə Sovet rəhbərliyi bir çox hallarda Qərb dünyasında sülhün, tərksilahın daha perspektivli olması barədə inam yarada bilmişdir.

*1980-ci Uhrdə Beynəlxalq münasibətlər və Sovet ittifaqında yenidənqurma problemi.* 1960-1970-ci illərdə bir çox konkret müqavilələr, razılıqlar əldə edilmiş, Vyetnam müharibəsinin dayandırılması barədə qərarlar qəbul edilmişdir. Nüvə silahı dövlətləri arasında kifayət qədər razılığa gələ bilmişlər. Silahların azaldılması sahəsində də nailiyyətlər, razılıqlar olmuşdur. Bütün bunlara baxmayaraq 1988-ci illərdə ABŞ-ın xarici siyasi xətti dəyişmişdi. Bu isə dünyada gərginliyi artırırdı. 1979-cu ilin dekabr ayında Sovet İttifaqının Əfqanıstana hərbi qoşun yeritməsi də bu gərginliyi artırmış və beynəlxalq münasibətlərin inkişafına əks təsir göstərmişdir. Beləliklə SSRİ ilə ABŞ arasında yaranan soyuqluq beynəlxalq münasibətlərin ümumi vəziyyətinə də əks təsir etmişdi.

Həmin illərin beynəlxalq münasibətlərində də nüvə silahlarının qadağan edilməsi əsas problem olaraq qalırdı. ABŞ rəhbərliyi hər bir yolla SSRİ üzərində hərbi üstünlüyə nail olmağa çaşlışırdı. Bu barədə ABŞ-m o vaxtkı prezidenti C. Karterin tələbi açıq-aşkar bildirilirdi. 1980-ci illərdə beynəlxalq münasibətlərin tarixində **«ulduz müharibəsi»** proqramı da öz əksini tapmışdır.

1980-1985-ci illərdə ABŞ-m yeni prezidenti R.Reyqan 1983-cü ildə Kosmik məkanın hərbi məqsədlər üçün istifadə edilməsi məqsədi ilə uzun müddətli proqramla çıxış edirdi. Bu da hərbiləşmənin yeni bir xətti idi. ABŞ bu proqramın həyata keçirilməsinə 50 mlrd dollar vəsait xərcləmişdi. Bununla da onlar istəyirdi ki, Sovet İttifaqı da bu sahəyə daha çox vəsait ayırsın. Bu isə iqtisadiyyata zərər gətirirdi.

Kosmik fəzada hər hansı bir hərbi silah yerləşdirilməsinin qadağan edilməsi barədə 1981-ci ildə Sovet rəhbərliyi BMT Baş məclisinin XXXVI sessiyasına təklif vermişdi. 1983-

cü ildə yenidən Varşava müqaviləsinin üzvləri bu kimi iki təklif vermişlər.

Kosmosun hərbiləşdirilməsinin yol verilməz olması barədə 1984-cü ildə SSRİ yenə təşəbbüs qaldırmışdır. Bütün bu kimi təşəbbüslərə baxmayaraq ABŞ-da ardıcıl olaraq yeni silahlar, təyyarələr, raketlər yaradılırdı.

1985-1990-cı illərdə həm SSRİ-də və həm də ABŞ-da bu cür sürətli silahlanmanın zərərli nəticələrini etiraf etməli olurdular. Xarici siyasətdə olan bəzi yanlışlıqları aşkarlamaq lazım gəlirdi. Burada Sovet İttifaqının Əfqanıstana daxil olması kimi ABŞ-m da Vyetnama qarşı olan müharibəsi lüzumsuz hesab edilirdi. Beynəlxalq prosesləri gərgin vəziyyətdən çıxarmaq məqsədi ilə 1983-cü ilin yayında Sovet İttifaqı bir tərəfli olaraq bütün nüvə sınaqlarını dayandırmışdır. Beləliklə nüvə sınaqlarını tam dayandırmaq üçün danışıqları bərpa etməyi təklif etmişdir

1988-ci ildə SSRİ yenə birtərəfli olaraq hərbi qüvvələrin azaldılmasına başlamışdır. Sovet Ordusunun bir qismi Monqolustandan çıxarılmışdır. Moskvanın razılığı ilə Berlin divarı uçurulurdu. İki Alman dövləti birləşmişdi. Varşava paktı öz fəaliyyətini dayandırdı. Lakin ABŞ və Qərb heç də Sovet İttifaqı kimi etmirdi.

SSRİ-də aparılan **«yenidənqurma»** beynəlxalq münasibətlərə o qədər də müsbət mənada yenilik gətirmirdi.

# XXVIII Fəsil.
# XX-XXI ƏSRLƏRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN ƏSAS CƏHƏTLƏRİ

XX əsrin son onilliklərində beynəlxalq münasibətlərdə köklü dəyişikliklər baş vermişdir. Demək olar ki, hərbi-siyasi əksdurmalar qurtarmışdır. Kapitalİzm ilə sosializm, ABŞ ilə SSRİ, Qərb ilə Şərq arasındakı əksdurmalara son qoyulmuşdur. Bəzi mütəxəssislərin qeyd etdiyinə görə, müəyy'ən daxili və xarici səbəblər üzündən Sovet İttifaqı dağılmış, sosialist sistemi öz mövcudluğunu itirmişdir. Lakin əslində hazırda bu gün də ən klassik, böyük kapitalist dövlətlərində də daxili və xarici hadisələr baş verir. Bu o demək deyil ki, sistemi dəyişmək lazımdır. SSRİ-nin və Sosializm sisteminin dağılması. Mərkəzi Komitənin o vaxtki baş katibi Qorbaçovun Kapitalizm dünyası ilə Separat danışıqlannm nəticəsi idi. Burada yaradılan müəyyən münaqişələr, sərhədlərin dağılması və s. hallar isə süni yaradılmış elementlər hesab edilə bilər.

Elə həmin illərdə Varşava müqaviləsi təşkilatı buraxılmış, İqtisadi yardım şurasının fəaliyyəti dayandırılmış, SSRİ- nin Avropada olan ordu dəstələri çıxarılmışdır. Sovet İttifaqı parçalanmışdır. ABŞ yeganə nəhəng dövlət kimi qalmışdır.

*1990-1995-ci Ularda Rusiyanın xarici siyasati.* Aydındır ki, SSRİ dağıldıqdan sonra Rusiya hər hansı bir məkanda, SSRİ-nin malik olduğu nüfuzu itirmişdi. Odur ki, Rusiya güzəştə getmək və açıq hərəkət etmək, ABŞ-ın strateji mənafeyinə güzəştə getmək siyasəti yeritməyə başlamışdır. Bu isə onun beynəlxalq nüfuz qazanmasına müəyyən qədər köməklik etmişdir. BMT-nin Təhlükəsizlik Şurasında və eləcə də bütün beynəlxalq təşkilatlarda Sovet İttifaqının yeri ona verilmişdir.

Rusiya postsovet məkanında yeganə nüvə dövləti olması barədə bəyanat vermişdir. Bu da beynəlxalq müqavilənin ruhuna tam uyğundur. SSRİ dağıldıqdan sonra daha üç ölkənin (Ukrayna, Belarusiya və Qazaxıstan) ərazisində onun

nüvə silahları qalmışdır. Onların üzərində nəzarət Rusiya tərəfindən həyata keçirilir.

1993-94-cü ilin yanvar ayında Rusiyanın prezidenti ilə ABŞ-m prezidenti strateji silahların azaldılması barədə yeni müqavilə bağlamışlar. Digər böyük dövlətlərlə də münasibətlər yaradılmışdır. Şərqi Almaniyadan bütün sovet ordusu çıxarılmışdır. AFR bu məqsədlə kifayət qədər vəsait ayırmışdır.

Yaponiya ilə olan münasibətləri o qədər də qənaətbəxş hesab etmək olmaz. 1991-ci ildə Qorbaçovun ora səfəri zamanı ərazi məsələsinin mövzu olması etiraf edilmişdir. Dörd ədəd Kuril adalarının kimə məxsus olması barədə müzakirələr edilmişdir,

**1996-2003-cü illər.** Bu illərdə Rusiyanın xarici siyasətində müəyyən təşəbbüskarlıq, sərbəstlik cəhətləri artmışdır.

İraqın hərbi obyektlərinin Amerika tərəfindən bombalamnası, 1996-cı ilin sentyabr sayında Rusiya tərəfindən pislənilmişdir.

Yaxın Şərqdəki münaqişələrin tənzimlənməsində Rusiya öz mövqelərini bərpa etməyə səy göstərmişdir. 1997-ci ildə Rusiyanın xarici işlər naziri E.M.Primakovxm Fələstinin lideri Y.Ərəfatla görüşü olmuşdur. Həmin ilin mart ayında israilin baş naziri Netanyahu Moskvaya səfər etmişdir.

1996- cı ilin aprel ayında “7-lər” ölkələrinin (ABŞ, İngiltərə, Almaniya, İtaliya, Kanada, Fransa, Yaponiya) və Rusiyanın dövlət başçılarının Moskvada yüksək səviyyəli görüşləri keçirilmişdir. Görüşdə nüvə silahlarının sınaqdan keçirilməsinin bütün sahələrdə tam dayandırılması müzakirə edilmişdir.

1997- ci ildə “7-lər”in “8-lər” olmasına da baxılmışdır.

Müasir dövrdə beynəlxalq münasibətlərin inkişafında olan əsas fərqləndirici cəhət ondan ibarətdir ki, ABŞ sözsüz olaraq liderlik edir. Bununla yanaşı Amerika rəhbərliyi XXI əsri “Amerika əsri”-nə çevirmək barədəki cəhdini də gizlətmir.

Lakin beynəlxalq münasibətlər nəzəriyyəsi və tarixi üzrə olan bir çox mütəxəssislər qeyd edirlər ki, ABŞ-ın uzun müddət; liderlik etməyə zəruri ehtiyatları kifayət etməz.

Həmin mərhələdə NATO-nun genişləndirilməsi üzrə də bir çox danışıqlar aparılmışdır.

Balkanda, Əfqanıstanda, İraqda və bütün Qərb dünyasında olan hadisələr açıq - aydın göstərir ki, ABŞ və NATO hər cür münaqişələrin qarşısını almaq iqtidarına malik deyildir. Bir çox hallarda ABŞ NATO-dan irticanın, işğalçılığın qarşısının alınmasının deyil, öz məqsədləri üçün istifadə edir. ABŞ- ın bəzi prezidentləri seçki kampaniyalarında qalib gəlmək üçün müəyyən seperat danışıqlara üstünlük verir.

Müasir dövrün əsas cəhətlərindən biri də ondan ibarətdir ki, dünyada ABŞ-ın təsir dairəsi zəifləməyə doğru gedir. Bu ondan irəli gəlir ki, əwəla SSRİ-nin dağılması ilə daha ABŞ ətrafında birləşməyə ehtiyac qalmır, ikincisi, Avropa iqtisadi cəhətdən xeyli güclənibdir. Dünya üzrə ÜDM-ün həcmində, ticarətdə, elmi - tədqiqat fəaliyyət sahəsində ABŞ- ın xüsusi çəkisi azalır. Yaponiyada, Avropada və eləcə də Şərqi Asiyanın inkişaf etməkdə olan bəzi ölkələrində iqtisadi və elmi-texniki potensial, sürətli artım onların rəqabət qabiliyyətini yüksəltmişdir. Bir çox regionlarda Amerika əleyhinə olan münasibətlər artmışdır. Bütün bunlar beynəlxalq münasibətlərdə çoxqütblük meyllərin güclənməsinə səbəb olmuşdur. Hazırda demək olar ki, bütün dövlətlər öz milli mənafelərinə üstünlük verməyə səy göstərirlər. Bu mənada Azərbaycanın BMT-də özünə layiqli bir yer tutmasım da açıqlamaq olar.

## Ədəbiyyat


1. Əli Həsənov «Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti» dərslik, Bakı – 2005, s.752;
2. А.С.Протопова и др. «История международных отношений и высшей политики России» (1648-2005), учебник, Москва – 2008, с.399;
3. Под ред. С.А.Ланцова, В.А.Ачкасова «Мировая политика и международные отношения» учеб. пособ., Москва – 2008, с.448;
4. П.А.Цыганков, «Теория международных отношений», учеб. пособ., Москва – 2005, с.590;
5. A.Abbasbəyli, E.Nəcəfov «Beynəlxalq münasibətlər nəzəriyyəsi», dərslik, Bakı – 2007, s.212
6. Албегова И.М., Емцов Р.Г., Хологов А.В. Государственная экономическая политика: Опыт перехода к рынку. Москва – 1998, 320 с.
7. Э.П.Бабин, Т.М.Исаченко. Внешнеэкономическая политика учеб. пособия, Москва – 2007, 463 с.
8. N.Pavlenko, Bipişci P.Bakı, Gənclik – 1991, 360 с.
9. Tarle İ.B., Napaleon. Bakı – 1993, s.464
10. О.З. Муштук. Политология уч. пособ. Москва – 2006, 556 с.
11. Р.Т.Мухаев. Теория политики учеб. Москва – 2005, 623 с.
12. И.С.Алексеев. Искусство дипломатики. Москва – 2011, 284 с.
13. Г.Киссинджер. Дипломатия. Москва – 1997, 824 с.

# MUNDƏRİCAT

Ön söz................................................................. 3
I bölmə. Beynəlxalq münasibətlər nəzəriyyəsi ............. 4
**I** Fəsil. Beynəlxalq münasibətlər elminin predmeti, obyekti və subyektləri ....................... ........ . ... .. ........... 5
1. Beynəlxalq münasibətlər nəzəriyyəsi.......................... 5
2. Beynəlxalq münasibətlərin predmeti, obyekti və subyektləri ................................................................... 11
3. Beynəlxalq münasibətlərin öyrənilməsi metodu ........ 13

**II** Fəsil. Beynəlxalq münasibətlər və beynəlxalq siyasət, ........................................... . .......................... 19
1. Dünya siyasəti və onların qarşılıqlı əlaqəsi ................ 19
2. Beynəlxalq münasibətlərin dinamikası ............................ 23
3. Dünya siyasəti və Beynəlxalq siyasət......................... 24
4. Beynəlxalq münasibətlərin qanunauyğunluqları ........ 26

**III** Fəsil. Sosial-siyasi fikir tarixində beynəlxalq münasibətlər və xarid siyasət problemi ................................ 30
1 .Qədim dünya siyasi fikir tarixində 'xarici siyasi baxışlar ....... .. .......................................................... 30
2. Beynəlxalq münasibətlərdə rea'ıist təsəvvürlərin foımalaşması və inkişafı ................................................... 33
3. Beynəlxalq siyasətdə Liberal fikirlər genezisi ........... 37
4. Marksizm və Beynəlxalq münasibətlər ............................ 41

**IV** Fəsil. Beynəlxalq münasibətlər və geosiyasi nəzəriyyə ................................................................... 43
1 .Geosiyasi nəzəriyyənin yaranması ...................................... 43
2. Almaniyada geosiyjısət ide;yasmın yayıtaası.................... 45
3. Böyük Britaniya geosiyasi məktəbi....... .... ...................... 48
4. Şimali Amerika geosiyasi məktəbi....... .......................... 49

**V Fəsil. *X x* əsrin 40-60-ci illərində beynəlxalq münasibətlərin nəzəri tədqiqi** .......................................... 52
1. Beynəlxalq münasibətlərdə nəzəri və praktikada siyasi idealizm ........................................................................ 52
2. ABŞ-da siyasi realizm .................................................... 54
3. Qərbi Avropada siyasi realizm .................................. 57
4. Beynəlxalq münasibətlərdə modemist fikirlər .......... 58

**VI Fəsil. Soyuq müharibədən sonra beynəlxalq münasibətlər barədə nəzəri fikirlər .................................. 61**
1. F.Fukuyamm “Tarixin sonu” fikri ................................ 61
2. “Sivilizasiyaların toqquşması” fikri ............................... 63
3. Z.Bjezinskinin geosiyasi fikirləri .................................. 67
4. İ.Vallerstaynın dünyanın sistem halında təhlili.......... 68

**VI! Fəsil.Beynəlxalq münasibətlər sistemi və onun quruluşu ........................................................................ 71**
1 .Beynəlxalq münasibətlərin növləri 71
2. Beynəlxalq münasibətlər sisteminin nəzəri modelləri.. 73
3. Beynəlxalq münasibətlər sisteminin təkamülinkişafı (Soyuq müharibədən sonra)..................... 75

**VIII Fəsil. Beynəlxalq münaqişələrin öyrənilməsinin və tənzimlənməsinin nəzəri əsaslari................................. 77**
1 .Beynəlxalq münaqişələrin mahiyyəti və növləri.......... 77
2. Beynəlxalq münaqişələrin quruluşu və artması prosesi ........................................................................ 82
3. Beynəlxalq münaqişələrin tənzimlənməsi yolları...... 84

**IX Fəsil. Müasir dünyada beynəlxalq təhlükəsizlik problemi ........................................................................ 91**
1 .Beynəlxalq təhlükəsizlik və əsas nəzəri baxışlar. 91
2.Beynəlxalq təhlükəsizliyin hərbi-siyasi cəhətləri ......... 93
5. Terrorizm və ona qarşı mübarizə problemi..................... 96

**X Fəsil. Beynəlxalq münasibətlərdə siyasət və hüquq**........................................................................ 98
1. Beynəlxalq münasibətlərdə əxlaq, hüquq və siyasət........................................................................ 98
2. Beynəlxalq hüquq .................................................... 103
3. Beynəlxalq hüquq norma və prinsipləri.................... 105
4. Müasir dünya və beynəlxalq hüquq .......................... 107

**XI Fəsil. Xarici siyasət və diplomatiya.................. ... 110**
**I** .Xarici siyasət üzrə nəzəri baxışlar ............................ 110
2. Xarici siyasət üzrə qərar qəbul edilməsinin nəzəri və praktiki tərəfləri........................................................... 112
3. Diplomatiya və diplomatiya xidməti........................ 116

**II bölmə.Beynəlxalq münasibətlər və xarici siyasətin tarixinə dair ..................................... i.......................... 121**

*X^//*

I **Fəsil. -H'əsrin ortalarinda avropada ümumi siyasi vəziyyət və beynəlxalq münasibətlər. .......................... 122**

II **Fəsil. Otuzillik müharibə və vest(fal sülhü........... 127**

III **Fəsil. Avropada beynəlxalq münasibətlər**
*(XVII əsrin ikinci yarısı - XVIII əsrin əvvəlləri)* ............ **131**

IV **Fəsil. XVIII Əsrin ortalarinda hərbi münaqişələr. 137**

V **Fəsil.ABŞ-m Yaranması və beynəlxalq münasibətlərə onun təsiri.......................................... ....** 142

VI **FƏSİ1.XVIII-XIX əsrlərdə Avropada beynəlxalq vəziyyət................................................................. 146**

VII FəsiL Napoleon müharibəsi illərində avropa və rusiya arasında olan münasibətlər .................................. 152

VIII Fəsil. Müqəddəs ittifaq ilə 1848-ci illər inqilabi arasındakı dövrdə beynəlxalq münasibətlər ........................ 168

IX Fəsil. 1848-ci il inqilabi və Krım müharibəsinin beynəlxalq münasibətlərə təsiri............... .. ....................... 177

X Fəsil. Şimali Amerikada vətəndaş müharibəsi və Avropa dövlətlərinin mövqeyi. ....................................... 190

XI Fəsil.Alnianiyanin birləşdirilməsi yolunda ilkin addimlar.......................................................................... 194

XII Fəsil. Frankfurt müqaviləsindən sonra yaranan münasibətlər ........................................................................ 203

XIII Fəsil. Rusiya -Türkiyə müharibəsi (1877-1878) və beynəlxalq münasibətlər................................................ 208

XIV Fəsil.XIX və XX əsrlər ərəfəsində beynəlxalq münasibətlər ....................................................................... 219

XV Fəsil. Avropada iki əks blokun yaradilmasi və beynəlxalq münasibətlər................................................... 230

XVI Fəsil. Balkan müharibəsi və beynəlxalq münasibətlər ....................................................................... 234

XVII FəsiI.Birinci dünya müharibəsi ərəfəsində diplomatiya.......................................................................... 241

XV^III Fəsil. Birinci dünya müharibəsinin qurtar-

**ması və Rusiyada vəziyyət ............................................ 251**

**XIX Fəsil. Müharibədən sonra dinctənzimləmə probldemləri Paris və Vaşinqton konfranslari.............** 258

**XX Fəsil. 1920-ci illərin birinci yarisinda beynəlxalq vəziyyət və sovet dövlətinin xariei siyasəti ..................** 265

**XXI Fəsil.1920-ci illərin ikinci yarısına dünyanın qabaqcıl ölkələrində beynəlxalq münasibətlərin və xarici siyasətin inkişaf! ..................................................** 274

**XXII Fəsil.Uzaq şərqdə və Avropada iki müharibə ocağının yaradılması və beynəlxalq münasibətlər ......** 284

**XXIII Fəsil. Hitler Almaniyası ittifaqının genişlənməsi SSRI-nin xarici siyasətinin fəallaşması ..........................** 291

**XXIV Fəsil.böyük vətən müharibəsi illərində beynəlxalq münasibətlər və SSRİ-nin xarici siyasəti.. 301**

**XXV Fəsil. 1940-1950-ci illərdə beynəlxalq vəziyyət və SSRI-nin xarici siyasəti............................................. 315**

**XXVI Fəsil.Müstəmləkə sisteminin dağılması və beynəlxalq münasibətlər.................................................. 326**

**XXVII Fəsil.l900-1960-cı illərin beynəlxalq münasibətləri və Sovet ittifaqının xarici siyasəti........ 332**

**XXVIII FəsiLXX-XXI əsrlərdə beynəlxalq münasibətlərin əsas cəhətləri ................................................................ 338**

Ədəbiyyat................................................................................ 341

CƏLIL KƏRİMOV
TAHİRƏ KƏRİMOVA

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ XARİCİ SİYASƏT

**Dərs vəsaiti**

*Nəşriyyatın direktoru: Hüseyn Hacıyev*
*Texniki redaktor: Gülbəniz Məmmədova*
*Dizayn: Müşfiq Hacıyev*
*Cildçi: Azad Həmzəyev*
*Montajçı: Elmira İsmayılova*

*Çapa imzalanmış 25.04.2013-cü il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 22*
*Sifariş 84, sayı 300*

*ADPU-nun mətbəəsi*
*Bakı, U. Hacıbəyov küçəsi, 34*
*Tel: (+912) 493-74-10*
*E. maiL ADPU@Box,az*